YAŞAR ƏHMƏDOV

# FƏLSƏFƏ

(*Dərs vəsaiti*)

VI hissə – Təbiət və cəmiyyətin fəlsəfəsi

*Azərbaycan Universiteti "İctimai elmlər" kafedrasının 16.04.2013-cü il tarixli iclasının (pr № 7) və AU-nun Elmi Şurasının 9 iyul 2013-cü il tarixli iclasının (pr № 8) qərarlarına əsasən çap olunur.*

**Bakı-2013**

***Redaktorlar:***

fəlsəfə üzrə fəlsəfə ***ddkXom,professor Ə.Tağıyev*** fəlsəfə üzrə fəlsəfə ***doktoru, professor R.Həsənov***

***Rəy verənlər:***

fəlsəfə üzrə fəlsəfə doktoru, ***dos. Y.Qaraməmmədli*** fəlsəfə üzrə fəlsəfə doktoru, ***dos. E.Kərimov*** fəlsəfə üzrə fəlsəfə doktoru, ***dos. F.Rüstəmov***

**YAŞAR PAŞA oğlu ƏHMƏDOV.** Fəlsəfə (Dərs vəsaiti), VI hissə - Təbiət və cəmiyyətin fəlsəfəsi. Bakı, "PG nəşrlər evi" ,2013.

***Dərs vəsaitinin bu hissəsi təbiət və cəmiyyətin fəlsəfəsinə həsr olunmuşdur. Burada cəmiyyət idrakın obyekti kimi təhlil olunur, daha sonra cəmiyyət həyatının təbii əsasları araşdırılır. Cəmiyyətin iqtisadi həyatının fələsəfı problemləri və cəmiyyətin siyasi həyatı müasir dövrün tərəfləri səviyyəsində verilmişdir. Daha sonra cəmiyyətin mənəvi həyatının təhlilinə diqqət yetirilmişdir.***

***Dərs vəsaiti ali məktəb tələbələrinə ünvanlanmışdır, ondan müəllimlər, dissertant və magistrlər, o cündədən təbiət və cəmiyyətin fəlsəfəsi ilə maraqlauanlah istifadə edə biBrhr.***

ISBN 978-9952-440-39-8

Y.Əhmədov, 2013.

# I FƏSIL

## Cəmiyyət idrakın obyektidir

Müasir dünya dəyişkən, qeyri-sabit, özünə inamsız bir vəziyyətdə yaşayır - adamlar bunu dərk edirlər. Kiminsə dəliqanlı bir hərəkəti dünyanı öz məhvərindən çıxara, bir anda hər şeyi məhv edə bilər. “Mühərriklər işləməkdə davam edə, bayraqlar dalğalana bilər, insan isə həmişəlik yox ola bilər.” (Y.Heyzinqa) Bununla belə insan hələ ümidini itirməmişdir. Əgər sivilizasiya xilas olsa və vəhşilik əsrində boğulmasa onda indiki nəsil hansı eəmiyyətdə yaşayaeağmı, onun hara getdiyini, ən azı fəlakətlərin qarşısını almaq üçün nə etmək lazım olduğunu özü üçün aydınlaşdırmalıdır. İlik baxışdan aydın görünür ki, cəmiyyət bir varlıq kimi mövcuddur. Bu tezisin empirik bir təsdiqi var, çünki bizim hamımız onda yaşayırıq. Bəs cəmiyyət nədir? O necə mümkündür? O necə olmalıdır?

Adi adamlar bu sualların mənasını başa düşə bilməz. O özü və əcdadları bu cəmiyyətdə yaşamışlar - onlar cəmiyyəti bir varlıq kimi qəbul edirlər. Lakin məsəənin dərinliyinə gedən adamlar, xüsusən filosoflar cəmiyyətə, ilk növbədə insan əlinin işi kimi baxırlar. İ.Kantm köhnə ideyası belə olmuşdur o güman edirdi ki, bizi maraqlandıran hadisəni insan fəaliyyətinin nəticəsi kimi başa düşmək olar. Bu cür yanaşmanın məğzi ondadır ki, ümumiyyətlə desək bütün fenomenləri verilmiş kimi qəbul etmək lazım deyildir. Onlar bir dəfə yaranmışlar və onlardan hər birini təşəkkülün nəticəsi kimi izah etmək olar. Bu cəmiyyətə daha çox aiddir.

Bununla belə cəmiyyət necə yaranmışdır? Bunun üçün nələr baş verməli idi? Bütün bunlara səbəb nə olmuşdur?

Qloballaşan dünyamızda cəmiyyətə baxış da dəyişkənliyə məruz qalmaqdadır. Dövlətlərin inteqrasiyaya meyli cəmiyyətlə bağlı yanaşmaları da dəyişdirmişdir. Lakin cəmiyyətin durumuna, orada gedən proseslərə müdaxilə etmək, onu sürətləndiraıək və ya ləngitmək böyük fəsadlar yarada bilər. Bu baxımdan cəmiyyətə ehtiyatla yanaşmaq, onun inkişaf qanunlarına hörmət etmək olduqca vacibdir.

## §1. Cəmiyyətin mənşəyi, təbiəti və mahiyyəti, ictimai transformasiyalar.

İctimainin mahiyyətini və onun şərhini anlamağa müxtəlif yanaşmalar mövcuddur. Bununla belə praktiki olaraq onların heç biri iki şəraiti istisna etmirlər. Cəmiyyətin mövcudluğunun, onun fəaliyyətinin və inkişafının obyektiv ilkin şərti kimi, birincisi fəaliyyət göstərən fərdlər, ikincisi, onların həyatı üçün əlverişli olan xarici şərait çıxış edir. Cəmiyyətin yaranması üçün Yerdə onun üçün əlverişli olan təbii şəraitin nadir kompleksi yaranmalıdır - məhz bu insanın Homo Sapiens kimi formalaşmasına təkan vemıişdir. İnsansız cəmiyyət, eyni zamanda cəmiyyətdən kənarda insan mövcud ola bilməz.

Ümumiyyətlə desək, cəmiyyətin "ilkin şərti" kimi insanın formalaşması prosesində sirli olan, bu gün də tam aydınlaşmamış, dəqiq cavabı olmayan suallar çoxdur. T.Şarden hesab edir ki, insan səssiz yaranmışdır, olduqca sakit gəlmişdir, biz onun varlığını göstərən daş alətlərdəki izlərini görəndə o artıq bütün dünyanı bürümüşdür. O artıq

danışır, od əldə etmişdir, qrup halında yaşayır, lokal icmalar yaratmışdır. “İlk adam” bəlkə də adamlar çoxluğudur. Həm də “insanın paradoksu” ondan ibarətdir ki, keçid morfoloji yox, daxili dəyişiklik hesabına baş vermişdir, ona görə də hiss olunan iz qoymamışdır. Bu baxışı digər filosoflar da müdafiə edirlər, insanın qədim əcdadından insana keçidin məğzinə xüsusi “meymun insan” empirik formasının yaranması kimi yox, onun öz daxilinə getməsi, özününküləşməsi, həyat fəaliyyətinin xarici təzahürünün subyektivləşməsi kimi baxırlar. Bunun nəticəsində əvvəllər vahid olan obyektiv aləmi və onun qanunauyğunluqlarının məişətləşməsi prosesi bölünür, onda məişətin xüsusi forması, “özü üçün” forması “yapışır”. İnsanın təkamülündə bu “aralıq düyünün” olmaması bununla izah olunur. Lakin hələ də müəmmalı qalan odur ki, niyə inkişaf daxilə getmişdir və çox sürətlə olmuşdur, “tarixi an” keçən kimi böyük ərazilərdə daş alətlər, qmp halında yaşama, nitqin olması, oddan istifadə olunması müşahidə olunur.

Hər necə olsa da təbiətlə dərin vəhdətdə yaranan insan prinsipial şəkildə öz heyvan əcdadlarından uzaqlaşır. Heyvandan fərqli olaraq o yaratmağa, istehsal etməyə başlayır, həm də yalnız özünün yox, istənilən növün ölçüsündə yaradır, gözəllik qanunlarına onu uyğunlaşdırır. Heyvan əməli (fayda güdəni) öz təlabatma uyğun hərəkət edir, insan isə onun həddindən çıxmağa, azad və universal olmağa qadirdir. Heyvan öz həyat fəaliyyəti ilə bilavasitə eyniyyət təşkil edir, insan öz şəxsi həyatını öz predmeti edir. Nəticədə o fəaliyyətin ali formasına - özünüfəa- liyyətə çatır, o azad olur. Bütün bunlar varisliyə olan prinsipial, inqilabi, keyfiyyət sıçrayışı hesabına - genetik

fomıa və mexanizmlərin ictimai ilə əvəz olunması hesabına mümkün olur.

Bizim üçün vacib olan odur ki, cəmiyyət və insan demək olar ki, eyni vaxtda yaranmışdır. İnsan yalnız təbii yox, həm də ictimai - predmet varlıqdır, insan, ictimai - predmet dünyada yaşayan varlıqdır. Bu dünya, bir tərəfdən, insan tərəfindən yaradılır, digər tərəfdən - o insanı formalaşdırır, onu ictimailəşdirir. Hər bir ictimai "predmet" adamlar arasında vasitəçi olur, onları birləşdirən vasitəçiyə çevrilir, bu mənada o ictimai münasibət olur. İnsan bütövlük kimi yalnız ona görə özünü reallaşdırmır ki, onda ruh və bədən ayrılmazdır, həm də ona görə ki, insan həm ictimai sistemin hərəkət anıdır, həm də cəmiyyət - insanın hərəkət anıdır.

Lap əvvəldən yaranan cəmiyyət özünü ziddiyətli fenomen kimi göstərir. O daimi olaraq özünü dağıdır, belə ki, onda daim xaos, müxtəlif səviyəli fəlakətlər, cinayətkarlıq, korrupsiya, maraqların münaqişəsi vardır. Çoxlu sayda meyllər var ki, bu da cəmiyyəti daxilən "dağıdır". Tarix çoxsaylı cinayətlərin (Babilistan, Roma imperiyası, hunlar, xəzərlər, qızıl ordu, inklərin, mayalarin, asteklərin və başqalarının dövlətləri), o cümlədən tarixəqədərki icmaların Yer üzündən silinməsi faktını həmişə xatırlayır. Bu o deməkdir ki, onlar hansısa çağırışa, imtahana tab gətinnəyiblər. Onların iflası - tarixi faktdır. Əksər vəziyyətlər müasir cəmiyyətin riskli cəmiyyət olduğunu, insanın özünün yaşaması üçün riskli olduğunu göstərir.

Beləliklə, cəmiyyət daim yox olma həddində yaşayır - xaoslar, çoxsaylı müharibələr, ekoloji fəlakət, inqilabları özündə cəmləşdirən amillərin çoxluğuna baxmayaraq o hələ də mövcudluğunu saxlaya bilmişdir. Həyat bacarığı olan cəmiyyət nə isə yaratmağa, özünü bütövə daxil

etməyə, onu dağıdanı düzəltməyə meylli olur. Cəmiyyət inteqrasiyaya uyğunlaşmayan dağıdıeı meylləri nəzarət altında saxlamağa çalışır. Öz genezisi və inkişafı prosesində eəmiyyət yalnız özünün yaşaması prosesini deyil, həm də bir çox parametrlərdə tərəqqi edən dinamikanı təmin edən yeni mahiyyət, mexanizmlər işləyib hazırlaya bilmişdir. Bu cür modelə keçid necə baş tutmuşdur? Bunun üçün nə baş verməli idi?

Əgər tarixə nəzər salsaq adamları birləşdirən bütövlüyün iki böyük tipini aşkar edə bilərik. Birinci, ilkin olan tarixi göıüntülərin dərinliklərini nəzərdən keçirir - bu ailə, qəbilə, tayfa, qəbilə və icma ittifaqlarıdır. Onları ənənəvi və ya arxaik lokal qrup adı altında birlədirmək olar. Bu birlik özünü adamların birgə məişəti və ya ümumi mənşə, dil, tale, dünyaya baxışları ilə bağlı olan adamların qarşılıqlı fəaliyyəti fomıasmda özünü göstərir. İctimailiyin ikinci tipi dövlət və sivilizasiyanın qurulması gedişində yaranır və “böyük cəmiyyət” kimi özünü göstərir. Bu mahiyyətlərin prinsipial fərqi ondan ibarətdir ki, böyük cəmiyyətlər özündə yeni keyfiyyət yaradırlar - bu lokal və ya onların mexaniki cəminə uyğun gəlmir. Onun təbiəti, qanunları, üsulları, fəaliyyət formaları başqa olur. Böyük cəmiyyətlərin yeni keyfiyyətləri təbiətdən yenicə ayrılmış tarixəqədərki adamı tarixi adamdan ayıran astanadır. Burada bizi yeni keyfiyyətləri olan bu böyük cəmiyyət maraqlandırır - bu tip min illər ərzində olan dəyişikliklərə baxmayaraq özünü qoruyub saxlaya bilmişdir.

Böyük cəmiyyətə keçid - tarixi prosesdir. Təbii ki, bir neçə on və yüzlərlə adamlardan təşkil olunmuş qəbilə və tayfa qruplarının lokal cəmiyytdən fərqlənən böyük cəmiyyətə çevrilməsində obyektiv təlabat var idi. Nə üçün adamlar psixoloji baxımdan əlçatmaz olan bu addımı

atmışdırlar? Necə oldu ki, onlar birdən dövlətin ağır yükünü öz üzərlərinə götürdülər? Güman etmək olar ki, bu cür nəhəng dəyişikliyə onları kəskin zərurət vadar etmişdir. Məsələ elə bir həddə idi ki, adamlar ya bu addımı atmalı, ya da məhv olmalı idilər. Bu zərurəti nəzərə almayanlar tarixin məngənəsində sıxılmışlar, həyat üçün vacib olan ehtiyatlardan uzaq düşmüşlər və tənəzzülə uğramışlar.

Tarixəqədərki insan birliyinin yeni strategiyanı qəbul etməsinə vadar edən determinant kimi ictimai entopiya amilini, yəni, möhkəm həyatı pozan, dağıdan amilləri nəzərə almaq lazımdır. Ümumiyyətlə, insan bütün vaxtlarda həmişə böhranlı vəziyyətdə yaşamışdır. Qədim insanların təbiətlə harmoniyada yaşaması ilə bağlı baxışlar “qızıl əsr” mifologiyasının qalığıdır. Arxeologiya sübut etmişdir ki, hələ o vaxtlar insanlar heyvanların bir çox növlərini məhv etmişlər. Ona görə paleolitdən tarixi inkişafın növbəti mərhələsinə keçid ovçuluq obyektinin vəhşicəsinə məhv edilməsi ilə xarakterik olmuşdur. İnsanın ətraf mühitlə münasibəti daim pozması varlığın vaxtı keçmiş növlərindən uzaqlaşmasna gətirib çıxarmışdır. Çıxış yolu tapan qədim icmalar yaşaya bildilər, onlar varislik mexanizmini möhkəmləndirdilər, daha uyğun həyat modeli axtarmağa meyl etdilər. Nəticədə yeniləşmənin yeni tipi daha effektli həyat və tarixi strategiya oldu. Yerdə qalanlar ətraf aləmin çağırışına cavab tapa bilmədiklərindən “getdikləri yolu” yarımçıq qoydular. Beləliklə böyük cəmiyyətlər zərurət kimi yaranır, sonra bu “mutasiya” möhkəmlənir və hakim möveyə keçir.

Böyük cəmiyyətin qurulması uzun sürən, ziddiyətli, ziqzaq, əyri-üyrü və dal-dalı hərəkətlərlə mürəkkəbləşən bir prosesdir. Yeni keyfiyyətli cəmiyyət əldə edən insanlar

lokal dünyam təmin edən vərdiş olunmuş həyat şəraitini, müdafiə olunmaq hissini, sabitliyi, mənəvi rahatlığı itirirdilər. Bundan başqa ətraf kontest kimi insanın özü də dəyişdi, başqalaşdı, belə ki, o böyük cəmiyyətdə prinsipcə başqa varlıq "mexanizmini və ünsiyyəti" mənimsəməli idi. Çox vaxt ətrafda olan arxaiklik böyük cəmiyyəti "dağıdırdı". Böyük cəmiyyət kompromisə getməyə, özünə lokal cəmiyyətin ünsürlərini qəbul etməyə məcbur olurdu. Dünya tarixində böyük cəmiyyətin təşəkkül tapdığı vaxt - ilkin dövlətlər dövlətəqədərki kortəbiilik okeanı ilə əhatə olunduğu vaxt insan varlığının yeni formasının həyatı və ölümü məsələsi kəskin dayanmışdır. O bu kortəbiiliyi assimilyasiya etmək gücünə malik deyildir. Ona görə də o çox vaxt ona qarşı dayanan lokal cəmiyyəti, dövlətəqədərki ictimailiyi dağıdırdı, çox vaxt əhali məskunlaşan yerləri səhralara çevirir, tayfaları və xalqları məhv edirdi. Əlbəttə bu qəddarlıq idi, ancaq söhbət böyük cəmiyyətin - müasir cəmiyyətin surətinin yaşamasından gedirdi.

Ona görə də bütün tənəzzüllərə və keçmişə qayıdışa baxmayaraq son anda böyük cəmiyyət həmişə qalib gəlirdi. Bu o deməkdir ki, onda böyük potensial var idi, rəqabətdə üstünlüyünü qoruyub saxlaya bilir, zəruri akt kimi qalib gəlirdi. Ona görə nə qədər dağıdılsa da o hər dəfə yenidən yaranır.

Lakin cəmiyyətin yaranması problemi deyilənlərlə qurtarmır. Böyük cəmiyyət qurulan vaxt o yalnız xarici deyil, həm də qədim dövrün daxili ünsürləri ilə toqquşur. Yeni yaranan cəmiyyətin elitası dövlət kateqoriyaları ilə düşünməyi öyrənirlər, dərk edirlər ki, birincisi, bu nədir, ikincisi nə üçün onun yaranması həyatı zərurətdir. Nəticədə dövlətin institutları və mexanizmləri yaranır, tədricən o cəmiyyətin bütün sahələrini və səviyyələrini

özünə tabe edir, bununla yanaşı onun daha effektli inkişafı üçün şəraiti təmin edir. Patriarxal - tayfa kütləsi isə dövləti məcburiyyət qarşısında qəbul edir, ona məcburiyyətin qəbul etdirilmiş mexanizmi kimi (əslində bu belədir), təbii şəraitdə artıq mövcud olan varlığa əlavə yük kimi baxır. Hələ uzun müddət dövlət ideyası yeni tip ictimailəşmənin əsas ünsürü kimi bu kütlənin dəyərlər və ideallar məcmusuna daxil olunur. Nəticədə elə vəziyyət yaranır ki, bir cəmiyyətin çərçivəsində insan şüurunun iki müxtəlif növləri birgə yaşayırlar. Bir tərəfdən elitanın inzibati bürokratik mentallığı - bu öz xalqının kökündə möhkəmlənir, onun arxaik şüuruna sirayət edir, dövlətin, deməli höyhk cəmiyyətin labüdlüзhinü anlamaq səviyyəsinə yüksəlir. Digər tərəfdən, bu aşağı təbəqənin şüurudur, onların dünya haqqında arxaik təsəvvürləri demək olar ki, toxunulmaz qalmışdır, onda böyük cəmiyyətin, dövlətin və onun əsl təbiətinin zəruriliyini anlamaq hissi yoxdur, o bunları qəbul etməkdən imtina edir.

Təbii ki, bu proses təklif olunan modeldə olduğundan daha mürəkkəb olmuşdur. Elitanın əhval-ruhiyyəsinin mühafizəkar olduğunu və heç də həmişə dövlət xarakterində olmadığını görmək olur, eyni zamanda xalq kütləsi dövlətin ayrı-ayrı elementlərini qəbul etməyə və çətin anda öz kollektiv mövcudluqlarını saxlamaq üçün onun ətrafında birləşməyə qadir olduğunu görmək mümkündür. Lakin bütövlükdə elə olmuşdur ki, əhalinin əsas kütləsi tam mənada dövlətin məna və funksiyalarını dərk edə bilməmişdir. Bu cür arxaikin qalıqları hətta ən inkişaf etmiş cəmiyyətlərdə - ikinci və ya “üçüncü” adlanan dövlətlərdə, o cümlədən Azərbaycanda qalmaqdadır.

Deyilənlərdən belə qənaətə gəlmək olar ki, cəmiyyət təbiətdən ayrılan və onun üzərində qurulan süni reallıqdır (“ikinci təbiət”), yalnız burada təbiətdən çıxan və onunla qırılmaz bağlı olan adamların həyatı təmin edən fəaliyyəti mümkündür və real baş verir. Cəmiyyət genetik olaraq təbiətdən “yaranmışdır” və onun qanunlarını inkar edə bilməz, lakin bir dəfə ondan ayrılanlar sonra öz əsasları ilə və öz şəxsi məntiqləri ilə inkişaf edirlər.

Cəmiyyətin substratı insandır. Ona görə də cəmiyyət fenomenini anlamaq üçün ictimai “atom” kimi insanın mahiyyətini aydınlaşdırmaq lazımdır. Bununla belə cəmiyyət sadəcə olaraq fərdlərin məcmusudur, lakin insanları bütöv halda birləşdirən yeni keyfiyyət yaradır. Cəmiyyətin təbiətini və mahiyyətini açan əsas anlayışlar fikrimcə “fəaliyyət”, “ünsiyyəf“adamaların münasibəti”, “qarşılıqlı fəaliyyət”, “həyatın təmin olunması”, “mədəniyyət”, “varlıq və kommunikasiya”, “özgəninkiləşdirmə”, “sistem” (bütövlük) anlayışlarıdır.

Tarixi və məntiqi baxımdan cəmiyyətin əsasını təşkil edən adamlar fəaliyyət göstərən varlıqlardır. Fəaliyyət isə ətraf aləmə insanın fəal münasibətinin spesifik formasıdır - onun məzmununun adamların marağı naminə məqsədyönlü dəyişdinnək və yenidən qurmaq təşkil edir, istənilən fərdi hərəkətə (fəaliyyətə) sövq edən müxtəlif

a) **tolabatlar,** yəni insanın öz varlığının müəyyən xarici şəraitinə ehtiyacı,
b) təlabatm təzahürü və dərk olunması forması kimi **maraqlar;**
c) müəyyən impuls kimi **stimullar** vardır. Hər bir fəaliyyət özündə güman olunan məqsədi, vasitəni, nəticəni və fəaliyyət prosesinin özünü birləşdirir.

Deməli onun ayrılmaz xarakteri dərk olunmadır. Şüurlu şəkildə qarşıya qoyulan məqsədin əsası dəlillər, maraqlar, ideallar, dəyərlər sahəsindədir. Bu nöqteyi- nəzərdən eəmiyyət şüurlu qrup halında qarşılıqlı fəaliyyət, kollektiv fəaliyyət mübadiləsi dünyasıdır.

Fəaliyyət gedişində insan başqa adamlarla müxtəlif, çoxsahəli münasibətə girir. Bu vaxt fəaliyyət gedişində yaranan münasibət onun zəruri ietimai forması kimi çıxış edir. Ümumiyyətlə, adamların istənilən qarşılıqlı fəaliyyəti labüd olaraq ietimai xarakter kəsb edir. İctimai münasibətləri fəaliyyət prosesində ictimai qruplar, eyni zamanda onların daxilində yaranan qarşılıqlı fəaliyyət və qarşılıqlı əlaqə forması kimi müəyyən etmək olar. Bir halda ki, bu münasibətlər - həm maddi, həm də mənəvi - yüksək səviyyədə mücərrədliyə malikdirlər, onlar onu istehsal və təkrar istehsal edən adamların iradə və şüurlarından asılı olmayan obyektiv reallıqdır.

Həm fəaliyyət, həm qarşılıqlı fəaliyyət, həm də ictimai münasibət ilk növbədə çoxsahəli ölçülərdə sabit həyat təminatına yönəlmişdir, yəni cəmiyyətin və onu təşkil edən insanların fəaliyyət göstərməsi üçün zəruri və kifayət edən şəraitin yaradılması və onun sonrakı inkişafının təmin edilməsini nəzərdə tutur. Bura adamların əsaslı təlabatlarmm - fizioloji, təhlükəsizlik və sabitlik, hansısa qrupa olan məhəbbət və mənsub olması, qəbul olunması, özünü təsdiqi bilik və başa düşülməsi, estetik durumunun təmin olunması daxildir. Burada olan ilk iki təlabat ilkin (anadangəlmə), sonrakılar isə ikinci - (mənimsənilmiş) hesab olunur. Həm də təlabatlarm yüksəlməsi sanki birincinin (aşağı)ikinciyə (aliyə) keçməsi kimi görünür. Hər bir səviyyənin təlabatları fərd üçün yalnız o vaxt aktual olur ki, əvvəlki təlabatlar

ödənilmiş olsun. Bu dominant prinsipidir, yəni bu an hökmranlıq edən tələbatdır.

Cəmiyyəti təşkil edən adamların varlığı tələbatların ödənilməsi uğrunda gedən daimi mübarizəni təşkil edir. Onların davranışı - məqsəd və nəticələrə çatmağa istiqamətlənən orqanizm və ruhun reaksiyasıdır. Yalnız adamların bir-biri ilə qarşılıqlı fəaliyyəti nəticəsində baş verən və yalnız cəmiyyətdə mümkün olan fəaliyyət prosesində bu tələbatların yerinə yetirilməsi imkanı yaranır. Məlum şərait çərçivəsində bu model cəmiyyətin özünə də keçirilə bilər. Təbii ki, burada tələbat onun yerinə yetirilməsinin forma və mexanizmləri bir az başqa xarakter daşıyır. Doğrudur bir tərəfdən tələbat və adamların fəaliyyəti, digər tərəfdən cəmiyyət bir-birinə zidd olsalar da hər bir tərəfin öz şəxsi tələbatlarmı təmin etməyə göstərdiyi cəhdlər onların qarşılıqlı inkişafına kömək edir.

**Mədəniyyət** keçmiş nəslin təcrübəsini, ənənələrini, biliyini, dəyərlərini toplayır, bunun hesabına tarixi tale ilə birləşən adamların şüur və davranışında sosium üçün dəyər - əhəmiyyət kəsb edən nümunələr yaranır. Bununla çoxsaylı icmalar, birliklər və təsisatların həlqəsi arasında təbii əlaqə yaranır. Mədəniyyət özünü yaradıcı, həyat qumluşu amili, ictimai novasiya mənbəyi kimi göstərir, sistemli inkişafa tonallıq və xarakter verir. Mədəni prosesin məzmunu kimi insanın öz inkişafı çıxış etdiyindən mədəniyyət faktiki olaraq subyektin ictimailəşməsi üsulu kimi çıxış edir.

**Sosial varlıq və kommunikasiya mexanizmi** deyərkən biz böyük cəmiyyətin qurulması gedişində yaranan, onun inkişafa olan tələbatmı ifadə və təmin edən, yüksək mücəiTədlik səviyyəsilə xarakterizə olunan.

şeylərin predmetliyi üzərində yüksəlməsi bacarığını tələb edən fenomenləri nəzərdə tuturuq. Onlara təfəkkürün məntiqi formaları, hakimiyyət, dövlətçilik, sosial institutlar, hüquq, yeni ünsiyyət formaları, pul, dünya dinləri və s. aiddir. Məsələn, lokal cəmiyyətin adamı emosional- bədii düşünür, əks fikirlər onun yanındadır, ancaq o bu ziddiyətləri hiss etmir. O belə təsəvvür edir ki, şıltaqlıq, tərsliyi ilə yaşayan hər bir varlıq, hər bir şey onun özü kimi başa düşülməz, gözlənilməzdir. Məntiqi baxımdan mühakimənin insan üçün daxili məcburi qüvvəsi var. Əgər fikir varsa adekvatdırsa onun öz immonent həyatı var, şıltaqlığı ilə yox, daxili zəmrəti ilə determinasiya edir. Məntiqin işlənib hazırlanması, onun gücünün aydınlaşdırılması ilə müasir sivilizasiya başlayır, bu gün də müəyyən xüsusiyyətlərini səmərəlilik əsasında qurur.

Əgər hakimiyyət haqqında danışsaq onda böyük cəmiyyətin birinci simaları artıq hamı bir yerə toplaşanda və lokal icmanın həyatı üçün vacib olan məsələləri müzakirə edəndə əvvəlki kimi daha idarə edə bilmirdilər. İdarə orqanları - müasir anda primitiv görünsələr də - yaranır, onların əlində hakimiyyət var. Qanun, əmrin müəllifləri çox vaxt görünmür, qanunların və əmrlərin özləri də mücərrəd formada - dövlət tərəfindən verilən və məvburi tənzimləyici gücü olan mətn, kağız, qanun formasında olurdu. Qanun görünmür, hiss olunmur, lakin məcburidir. Emosional baxımdan istənilən əhval- ruhiyyədə olan adam üçün o obyektiv verilən qanundur - hətta böyük fərd, müasir cəmiyyət üçün o lokal icma adamları üçün balta və mənzilin olduğu qədər realdır. Mücərrədliyin bu sırasına pul da aiddir. O mübadiləni, əmtəə dövrüyyəsini inkişaf etdirməyə kömək edən mücərrəd ən ümumi əlaqədir ( dəyər ölçüsü, ödəmə

vasitəsidir) - həm də o tarixəqədərki insan üçün anlaşılmazdır. Sonuncu - oxun, kamanın, baltanın, balığın nə olduğunu bilir, lakin pulun mahiyyəti onun üçün qaranlıqdır. Onu başa düşmək üçün o şeylərin prcdmctliyindən yüksəkdə dayanmalıdır. Müasir pul isə daha da mücərrəd olur, hətta kağız formasını itirir və daha çox virtual - elektron xarakter kəsb edir.

İctimai varlığın və kommuniksiyalarm, bu və digər "mexanizmləri" cəmiyyət üçün həyati əhəmiyyət kəsb edir, onun mahiyyətidir, öz prinsipial mücərrəd təbiətinə əsasən o insandan uzaqlaşır.

Onlardan malik olduqları funksiyaları, normaları, öhdəlikləri yerinə yetirmək tələb olunur. Özgəninkiləşmə (uzaqlaşma) sözün geniş mənasında - insanın fəaliyyətini və onun məhsullarını müstəqil, onun üzərində təsir göstərən mahiyyətə çevirən obyektiv sosial prosesdir. Bu hadisədə şəxsiyyətin potensialı, varlığın daha yüksək fomrasmı yaradan özünüvermə imkanları yerləşir. Özgəninkiləşmənin neqativ tərəfini kənara qoyaraq qeyd edək ki, o insan fəaliyyətini və onunla bağlı əmək bölgüsünü, əməyin predmetləşməsini, istehsalın son nəticələrinin əldə olunmasını, onun ötürülməsi imkanlarının obyektiv mexanizmlərinin tarixi qanunauyğun prosesi kimi çıxış edir. Özgəninkiləşmənin kökü fəaliyyətin ictimai təşkilindədir, əmək bölgüsü əsasında ayırma fərdin həyati əhəmiyyət kəsb edən funksiyalarını istiqamət-ləndinnəsi gedişində onun məhsullarının istifadə edilməsinin mənimsəməsini nəzərdə tutur. Müəyyən şəraitdə bu ayınna fəaliyyətin nəticələrini insanın nəzarətindən çıxara bilər. Ayrılmanın mümkünlüyü bu vaxt onun üçün xarici zərurətə çevrilir. Bu vaxt cəmiyyət üçün zəruri olan fenomenlər (məntiqi təəkkür, dövlətçilik, pul, hüquq və s.)

eyni zamanda dağıdıcı fenomenlər - istismar, insanın manipulyasiya edilməsi, ondan vasitə kimi istifadə olunması, tənhalıq, bürokratik sistem, avtoritar ideologiya və s. yaranır.

Bir halda ki, cəmiyyətin fəlsəfi mənası və anlamı fərdləri ictimai bütövlükdə birləşdirən əlaqələr tipinin müəyyən edilməsindən ibarətdir, onda onun təbiəti və mahiyyəti sistem anlayışında daha aydın açılır. Cəmiyyətin sistemli xarakteri ətraf aləmin sistemliliyinin təzahürüdür. O keçmişin və indinin mütəfəkkirlərindən heç birinə etiraz etməmiş və etiraz etmir. Bununla belə ictimai sistem haqqında baxışların inkişafını XIX-XX əsrin nəzəri nəaliyətlərinndən biri hesab etmək olar.

Cəmiyyət sistem kimi əlaqə və münasibətlərin tənzimlənməsi, özünüidarəetməsi və öz-özünə inkişfmm məcmusudur - o keyfiyyətli bütövlük yaradır, onun daşıyıcısı fəaliyyət göstərən adamlar və onların yaratdıqları qruplardır. Sistem kimi cəmiyyət - birincisi, mürəkkəb ierarxik struktura malikdir, müxtəlif ünsürləri və səviyyələri əhatə edir: ikincisi, inteqrativ sistem yaratma keyfiyyətinə - fəaliyyət göstərən adamların münasibətini qurur; üçüncüsü, özünü idarəetmə xassəsinə malikdir, bu da yüksək mütəşəkkil sistem olması ilə fərqlənir - xüsusiyyətlərə malikdir.

Cəmiyyət açıq sistem kimi özünü göstərir. Bu o deməkdir ki, xarici aləmə münasibətdə öz muxtariyyəti olsa da cəmiyyət onun təsirini öz üzərində hiss edir, məlumatları qəbul edir və onu işləyir, dəyişən kontekstə reaksiya verir. Cəmiyyət uyğunlaşan - uyğunlaşdıran sistemdir, yəni o yalnız, ətraf mühitə uyğunlaşmır, həm də imkan daxilində öz şəxsi mənafeyinə uyğun onu dəyişdirir.

Cəmiyyətin əsas ünsürlərinin ayrılmasına məhsuldar yanaşma həyatın əsas sahələrinə, onda baş verən müvafiq mühüm proseslərə - istehsal - iqtisadi, ictimai, siyasi, mənəvi, onun varlığının bütün tərəflərinə - müraciət etməkdir.

**Həyatın əsas sahəsi** sistem kimi cəmiyyətin ünsürləridir və müəyyən keyfiyyət bütövlüyü, öz mövcudluq və inkişaf qanunları olan həyatın digər sahələri ilə qarşılıqlı əlaqədə olan sistemaltı kimi təzahür edir. Başqa sözlə desək, həyatın əsas sahəsi cəmiyyətin ünsürləri, obyektiv mövcud olan digər sahələrlə əlaqədə olan hissələridir.

**İqtisadi sahə** özündə istehsalı, bölgünü, mübadiləni və maddi nemətlərin istehlakmı birləşdirir. Onun əsas ünsürləri məhsuldar qüvvələr - adamlar; əmək aləti və əmək predmeti; maddi - predmet fəaliyyəti; mənəvi - ideoloji əsaslar (məqsəd, niyyət, proqram), eyni zamanda əmək prosesində adamların münasibətidir. Bu sahə həyat - istehsal mexanizmi, iqtisadi məkan kimi çıxış edir, burada təsərrüfat həyatı təşkil olunur, onun sahələri inkişaf etdirilir. Burada cəmiyyətin çoxsaylı subyektlərinin maraqları cəmləşir, qarşılıqlı fəaliyyət nəticəsində - qurulma və ya əməkdaşlıq - cəmiyyətin iqtisadi həyatının dinamikası həyata keçir.

**Cəmiyyətin ictimai həyatı** orada fəaliyyət göstərən bütün qrupların, onların qarşılıqlı fəaliyyətinin bütöv məcmusudur. Bu cür qruplara, icmalara (müxtəlif əsaslar və ölçülərlə götürülən) xalqları, millətləri, sinifləri, təbəqələri, stratları, kastaları, sosial - demoqrafik və peşə qmplarmı, əmək kollektivlərini; qeyri-formal qurumları və s. aid etmək olar. Bu sahədə həyat, məişət, istehsal şəraiti; səhiyyə, təhsil, sosial müdafiə təi3iinat problemləri;

ictimai ədalətə riayət olunması; etnik, milli, sosial - sinfi və qrup münasibətləri kompleksinin nizama salınması ilə bağlı qarşılıqlı fəaliyyət həyata keçirilir.

**Siyasi sahə** də bir bütövlükdür, onun məzmununu subyektlərin qarşılıqlı fəaliyyəti təşkil edir - burada məqsəd subyektlərin marağının hakimiyyət, dövlət quruluşu, hüquq və azadlıq prinsipləri əsasında həyata keçirilməsidir - bunun üçün əvvəlcədən hazırlanan ictimai texnologiyalar və tətbiq proqramlarından istifadə olunur. Bu sahənin elementləri kimi siyasi institutlar (dövlət, təşkilatlar, partiyalar), siyasi və hüquqi normalar (konstitusiya, qanunlar, nizamnamələr), siyasi münasibətlər və fəaliyyət, siyasi şüur çıxış edir. Bəzi cəmiyyətlərdə, o cümlədən Azərbaycan cəmiyyətində bu sahənin rolu böyükdür və yerdə qalan sahələr üzərində hökmranlıq edir.

**Cəmiyyətin mənəvi sahəsi** - ictimai həyat sahəsidir, onun məzmununu cəmiyyət və adamların fəaliyyətində aşkar olunan fikirlər, biliklər, dəyərlər məcmusu kimi obyektiv ideal varlıq və hakim mahiyyət, ictimai və fərdi varlığın keyfiyyət və istiqamətləri təşkil edir. Mənəvi sahə özündə ictimai şüurun bütün formalarını - fəlsəfəni, dini, əxlaqı, hüququ, incəsənəti, eyni zamanda elmi, ideologiyanı, təhsili, bütün çalarları ilə təzahür olunan tərbiyəni birləşdirir. Bu sahədə cəmiyyətin dəyərlər kompleksi və həyat strategiyası, ictimai layihələr və onların həyata keçirilməsi vasitələri formalaşır, keçmiş dərk olunur, bu gün yaradılır, gələcəyin istiqamətləri qurulur. Bu nöqteyi nəzərdən mənəvi sahənin rolu durmadan artır və inkişaf üçün onun əhəmiyyətini qiymətləndirmək mümkün deyildir.

Cəmiyyət həyatının bütün sahələri sistem kimi bir- biri ilə sıx bağlıdır və öz aralarında qarşılıqlı fəaliyyətdədir. Dediyimiz kimi cəmiyyət öz-özünə inkişaf edən və özünü nizamlayan sistemdir - bu yüksək təşəkküllü bütövlüyə xasdır. Bununla yanaşı cəmiyyətdə baş verən prosesləri nizamlayan, onun dinamik inkişafını təmin edən idarəetmə, koordinasiya mənəvi dövlət kimi elə bir ictimai institutdur ki, onun rolu bəzi proqnozlara baxmayaraq nəinki azalmır, əksinə aydın şəkildə artır. Cəmiyyətin fəaliyyət göstərməsi mexanizminin mürəkkəb kompleksi insana effektli təsiri nəzərdə tutur. Bu kompleksin əsasını a) ictimailəşmə; b)institutlaşma; c) legitimlik təşkil edir

**ictimailəşmə subyektin cəmiyyətdə qəbul olunan müvafiq qaydalara əsasən "uyğunlaşması", inteqrasiya etməsi prosesidir.**

İctimailəşmə gedişində fərd ictimai təcrübəyə - simvolik semiotika, kommunikativ, mədəni - birləşir. İctimailəşmənin fenomenologiyası çoxlu üsul və yolları özündə birləşdirir, lakin elementar təlqin istisna olmaqla onun digər formaları həqiqəti "tədarük edir", onlar adətən təntənəli şəkildə bildirilmir, nümayiş olunmur, ortaya qoyulmur. Onlar həyat təzindən, adamların qəbul etdiyi yaşayış tərzindən irəli gəlir. L.Şestov qeyd etmişdir ki, bu həqiqətlər Allah, ruhun ölməzliyi kimi olan qəbildəndir. Əlbəttə, onlar haqqında olan danışmaq olar, lakin onlar haqqında soruşulmayanda bunu etməyə cəhd edilmir. Öz təbiətləri etibarı ilə onlar görünən olmağa cəhd etmir və istəmirlər. Bu cür həqiqətlər praktiki əqidən, ekzistensial əqidədən gəlir; onların qanunauyğunluğu həyatın dərin- liyindədir, sübutda yox, vəhydədir.

**İnstitutlaşmaya obycktivləşmə prosesi; subyektlərin status - rol ictimai münasibətlər kimi çıxış etməsi baxımından fərddən üstün səviyyədə ictimai vahid olmasının əsaslandırılması kimi baxmaq olar.** Təbii institutlaşma müvafiq müddəa və rolların tədricən nonnativ təsdiq olunmasıdır. Dövlət tərəfindən həyata keçirilən süni institutlaşma əvvəlcə normaların, qaydaların yaranmasını, sonra qarşılıqlı fəaliyyətin real iştirakçılarını nəzərdə tutur. Tipik nümunə kimi struktur islahatları qeyd etmək olar, yəni yeni ictimai quruluşun səmərəli hazırlanmış parametrləri: bunları konkret status - rol qarşılıqlı fəaliyyət çərçivəsinə salmaq lazımdır.

**Legitimləşmə hesabına, ictimailəşmə və institutlaşmanm nəticələrinin cəmiyyətdə qəbul olunmuş dəyərlərlə daim müqayisə edilməsi baş verir.** Nəticədə, uyğun gəlməyənlər kənarlaşdırılır. Bununla belə cəmiyyətin bütövlüyü, onun daxili rəngarəngliyi ilə birlikdə inkişafı təmin olunur. Legitimləşmə cəmiyyətin nisbi sabitliyini, onun dəyərlərini üzə çıxarır, yəni bu dəyərlərin xaricdən fərdlərin və sosial subyektlərin “daxili planına” keçirilir. Cəmiyyətdə islahatların, dəyişikliklərin keçirilməsində yaranan çətinliklər məhz bununla bağlıdır - cəmiyyətin və kütlənin mənimsədiyi dəyərlər təlit olunan sosial qarşılıqlı fəaliyyət tipinə zidd olur.

Cəmiyyət fəaliyyət göstərdikcə fasiləsiz olaraq dəyişir. Adamlar yeni qarşılıqlı fəaliyyət növü yaradır, ictimai həyatın institut örtüyünü dəyişdirir, dəyər - normativ qaydalar dəyişir. Bu dəyişikliyin mənbəyi adamlar - **fərdlər ailə** institutdur, lakin ilk növbədə onların yaratdıqları dövlət, təhsil, elm kimi ictimai subyektlər və digər institutlar, eyni zamanda vətəndaş cəmiyyətidir. Bu fenomenlərdə fəaliyyət göstərən qüv-

volor arasındakı mürəkkəb kombinasiyalar gedişində daim fikir ayrılığı, razılaşmalar yaranır. Fərdlərin davranışı, cəmiyyətdə olan proseslər dövlətin təkib etdiyi status - rol münasibətlərinə nisbətən mürəkkəb olur.

**Sistemli yanaşma** nöqteyi-nəzərindən cəmiyyətin dinamikasını aşağıdakı kimi təsəvvür etmək olar.

Fərdlərdən gələn innovasiya enerjisinin impulsları, onların yaratdıqları qurum, vətəndaş cəmiyyəti sistemin tarazlığını pozdu. Fəaliyyət mexanizmi bu tərəddüdü söndünnür, lakin cəmiyyət dərhal yeni keyfiyyət əldə etmək nəticəsində yeni olanlar əldə etmiş olur. Əgər innovasiya enerjisi böyük olmasa, sosial məkanda dağılmış olsa onda dəyişiklik az hiss olunan və tədrici ola bilər. Bu vaxt dəyər - normativ qaydalar praktiki olaraq dəyişmir, yeni hadisələri o inkar edir. Əgər innovasiya - enerjisi kəskin artsa onda cəmiyyətdə əsaslı yeniləşmə baş verə bilər. Onun bütövlüyünü saxlama mexanizminin işini pozan əlamətlər aşağıdakılardır:

- adamların əksəriyyətinin mövcud status rol qaydalarına istiqamətlənmək istəməməsi və ya bunun mümkünsüzlüyü
- institutlaşma mexanizminin effektsizliyi, yəni mövcud əlaqə və münasibətlərin qalmasında, yeni qarşılıqlı fəaliyyətin inteqrasiyasının mümkünsüzlüyü
- legitimliyin böhranı, adamların digər - normariv qaydalara olan inamın itməsi

Nəticədə, sistem vərdiş olunmuş institut çərçivəsində fərdlərin və bəzi sosial subyektlərin davranışını saxlaya bilmir. Dəyər - nonnativ istiqamətlərdən məhrum olduğundan onlar ya depresiyaya düşürlər, ya da bu an olan maraqlarını əldə rəhbər tutaraq fəallaşırlar, cəmiyyətin simasını müəyyən edən struktur əlaqə yaradırlar. Bu cür

vəziyyət həm fərd həm də cəmiyyət üçün məhvedicidir. Fərd deictimailəşmə təhlükəsi ilə üzləşir, əxlaq vərdişlərini, öz davranışını hüquqi cəhətdən nizamlamaq meylini itirir, primitiv - gedonist istəklərlə yaşamağa başlayır. Cəmiyyət dağılmağa başlayır, belə ki, o özünə xas olan möhkəm ictimai əlaqə və münasibətlər yarada bilmir.

Bu proseslər nə qədər dərin və rəngarəng olarsa, sistemin tərəddüdü bir o qədər geniş olacaqdır, onun tarazahğma nail olmaq bir o qədər çətinləşəcəkdir. Vərdiş olunmuş vasitələrlə tarazlığı bərpa etmək imkanı itdikcə o müəyyənliyi və müəyyən olunmuş inkişaf istiqamətini itirir, öz yeni vəziyyətini seçmək yolundan uzaq düşür. Cəmiyyətin inkişafındakı tədricilik pozulur, dəyişikliyin xətti növü üçün xarakterik olan səbəb - nəticə asılılığı itirir, gözlənilən sarsıntıların əlamətləri cəmiyyətin bütün sahələrində pozulmanın artması ilə müşayiət olunur - dəyər istiqamətləri dəyişir, iqtisadiyyatda böhran yaranır, ictimai və milli problemlər kəskinləşir, etirazlar, qiyamlar baş qaldırır, vətəndaş itaətsizliyi başlayır. Cəmiyyətin müxtəlif sahələrinin toqquşma nöqtəsi gözlənilməz olur, gözlənilməz qarşılıqlı fəaliyyət və əlaqə üzə çıxır, vərdiş olunan səbəb - nəticə əlamətlərinin, münasibətlərinin məntiqi ilə onları izah etmək olur - bu əlaqə onun pozulmasıdır. Cəmiyyətin yeni siması gözlənilməz şəraitdə qəflətən dəyişə bilər. Yalnız illər keçəndən sonra tədqiqatçıların hadisələrin inkişaf zəncirini aydınlaşdıra, ona vərdiş olunmuş səbəb - nəticə görkəmi verə bilirlər.

Fərdin transformasiyası onun iki, ən əhəmiyyətli tərkib hisələrinin - **dövlət və vətəndaş cəmiyyəti** - qarşılıqlı münasibətinin mürəkkəb dinamikası nəticəsində baş verir. Dövlətçilik öz yarandığı vaxtında yeni tip ictimailəşmə yaratdı, cəmiyyətə yeni-yeni keyfiyyət verdi.

əvvəlki həyat və tarixi strategiyasına nisbətən daha effektli oldu. **Dövlət adamların kollektiv ünsiyyət formasıdır, cəmiyyətin əsas institutudur, adamların və sosial subyektlərin birgə fəaliyyətini və münasibətini təşkil edən, istiqamətləndirən və nizama salandır.** Dövlətin mahiyyət xarakteri; a) birlik anı; b) suverenlik e) güe tətbiq etmək bacarığı; d) mənəvi ideyaların həyata keçirilməsidir. Dövlətin əlaməti kimi xüsusi idarə və məcburiyyət aparatı olan hakimiyyət; onun hüquqlarının yayıldığı ərazi; hüquq sistemi - məcburi normaların məcmusu - ona riayət olunmasını hakimiyyət orqanları təşkil edirlər - çıxış edir.

**Vətəndaş cəmiyyəti qeyri - dövlət münasibətlərinin, azad fərdlərin, təşkilat və vətəndaş assosiyasiyala- nnın -** o **cümlədən könüllü yaranmış həyat fəaliyyəinin iqtisadi, siyasi, ictimai və mənəvi sahələrinin ilkin qeyri-dövlət strukturlarının məcmusudur.** Bir az sadə desək, vətəndaş cəmiyyəti dövlətin orbitinə cəlb olunmayan çoxcəhətli insan təzahürüdür.

Dövlət və vətəndaş cəmiyyətinin münasibəti çoxsaylı icmalar baxımından praktiki olaraq uyğun gəlmirlər, tarix gedişində onlar dramatik, çox vaxt faciəli xarakter daşımırlar. Bir tərəfdən müxtəlif tiranlar, diktatorlar, avtoritar dövlətlər cəmiyyət üzərində hökmranlıq etmişlər, totalitar rejimlər isə cəmiyyətdən cəmiyyətdə olan kortəbiiliyin baş qaldırması praktiki olaraq onu qarışıqlığa dövlətin dağılmasına aparmışdır. Onlar arasında harmonik balans yaratmaq çətin olmuşdur - hətta əsrlər boyu yüksək mədəniyyət ənənələri olan, demokratiya prinsipləri ilə yaşayan dövlətlər belə - Yunanıstan, İtaliya. Almaniya və s. - bu çətinlikdən yaxa qurtara bilməmişlər.

Bu hər şeydən əvvəl bu fenomenlərin müxtəlif təbiətləri ilə izah olunur. Dövlətin intensiyası - “bütövün”, vətəndaşın öhdəliyidir. Cəmiyyətin intensiyası - özfəaliyyət “hissəsi” adamlarıdır. Dövlət universal tamın mövqeyin tam əks etdirir, cəmiyyət vəzifəsinə, ehtiyacına görə yox, həm tamın həm də hissələrin maraqları haqqında məsul adamların vətəndaşlıq maraqlarına diqqətini cəmləşdirir. Böyük səlahiyyətləri olan dövlət praktiki olaraq ictimai təşəbbüs üzərində hökmranlığa malikdir, yalnız idealda hüquqa, milli maraqlara cavab verir, xalqın iradəsi ilə razılaşdırılır, işdə isə çox vaxt “hissənin” maraqlarını pozur.

Bundan başqa sosial bütövün maraqları ilə ziddiyyətə girən institusional hakimiyyətin ayrı-ayrı maraqlarının zəifləməsi də realdır. Lakin son anda .məhz cəmiyyət dövlətin fəaliyyətini legitimləşdirməyə qadirdir. Əlbəttə, dövlət güc və hüquq subyektidir, lakin onlar legitimliyin bütün həcmini bitirmirlər.

Legitimliyin ehtiyacının alternativ gücü və hüququ mədəniyyətdə, xalqın mentalitetində cəmləşir və məhz cəmiyyətin təsir dairəsindədir.

Vətəndaş cəmiyyəti və dövlətin qarşılıqlı fəaliyyətinin optimallaşması üsulu mədəniyyətdə - tarixdə, ənənələrdə, əxlaqda, xalq həyatının prinsiplərindəndir. Onun əsasında olan dəyər təməli cəmiyyət və dövləti qarşılıqlı hesabata, sosial varlığın universal və tək ölçülərinin harmonlaşmasma istiqamətləndirir. Cəmiyyət üçün qeyri-adi dövrdə dövlətin üstünlüyü labüddür. Sakit dövrdə cəmiyyət və onu təşkil edən adamlar üstünlük təşkil edirlər, öz maraqları naminə rahat istədiklərini edə bilirlər, bu vaxt qanun çox şeyləri qadağan etmir, başqa adamın qeyri-müəyyən, məlum olmayan, daimi olmayan

hakimiyyətini öz üzərilərində hiss etmirlər. Tarixin gedişində, xüsusən intibah, reformasiya və maarifçilik dövrlərində dövlət və vətəndaş eəmiyyətinin mürəkkəb və dramatik münasibətlərinin dialektikası onların qarşılıqlı təkamülünə kömək etmişdir. Klassik yetkin şəkildə o bir tərəfdən demokratik, hüquqi və sosial dövlət, digər tərəfdən inkişaf etmiş vətəndaş eəmiyyəti formasında özünü göstərir.

Müasir **demokratik dövlət** xalq hakimiyyətinin, azadlıq və insan hüquqlarına hörmətlə yanaşılan vətəndaşların bərabərliyi prinsiplərinin qəbul olunmasına və ardıcıl təmin olunmasına əsaslanan vətəndaş və cəmiyyətin maraqlarına riayət olunması qanunvericiliyin inkişafı və onun sözsüz yerinə yetirilməsi şəraitində həyata keçirilir - bunlar demokratiya, hakimiyyət bölgüsü, çoxpartiyalıq, ali hakimiyyət orqanlarına ümumi, gizli, birbaşa seçkilər kimi institutlar vasitəsi ilə həyata keçirilir. Demokratik dövlətin müasir konsepsiyası vətəndaşların siyasi həyatda İbal inkişafını nəzərdə tutur.

**Hüquqi dövlətin** əlamətləri; a) qanunun aliliyi; b) vətəndaşların hüquq və azadlığı siisteminin inkişafı.

onların müdafiə mexanizminin hazırlanması; c) dövlət hakimiyyətinin qanunverici, idarəedici və məhkəmə hakimiyyətinə aydın bölünməsi; d) güclü məhkəmə hakimiyyəti. Dövlət hakimiyyəti hüquqa əsaslanır, hüququn təsiri altındadır, hüquqla bağlıdır və hüquq tərəfindən nəzarətdədir. O qanuni əsas olmadan adamlara cəmiyyətə və ya onun hissələrinə qarşı heç nə edə bilməz. Dövlət hakimiyyətinin legitimləşməsinin mənbəyi onun üzərində yox, cəmiyyətin iradəsində və hüquqdadır.

**Sosial dövlət** özü üçün mühüm funksiya kimi bütün əhalinin marağı naminə cəmiyyətin həyat fəaliyyətinin

sosial sahələrinə fəal təsiri müəyyən etmişdir. Bu cür yanaşma bəzi ölkələrdə hüquqi prinsip səviyyəsinə qaldırılmış və Konstitusiyada öz əksini tapmışdır. Sosial dövlətin maraq və öhdəlikləri sahəsinə gəlirin əhalinin daha az təmin olunmuş təbəqələri arasında bölünməsi, müəssisələrdə işçilərin məşğuliyyəti və müdafiə hüquqi siyasəti, səhiyyə, təhsil, sosial təminat və sığorta, o cümlədən təqaüd, ictimai xidmət sahələrinin inkişafı, ailənin, gənclərin, əlillərin, ahılların müdafiəsi daxil edilir.

inkişaf etmiş **vətəndaş cəmiyyəti** özünün bütün klassik əlamətlərini saxlayaraq bir tərəfdən dövlətə təsirini gücləndirir, onun demokratik, hüquqi əsaslarla güclənməsinə istiqamətləndirilir, digər tərəfdən öz üzərinə çoxlu öhdəlikləri götürməklə dövlətin müxtəlif sahələrdə, cəmiyyətin hissələrində və maraqlarında olan himayəsinin azaldır. Vətəndaşların müxtəlif assosiyasiyalarmm azad inkişafı dövlət hakimiyyətinin deməkəzləşməsinə kömək edir - bu hakimiyyətin bəzi məsələlərini özünüidarəyə verir. İnkişaf etmiş vətəndaş cəmiyyətinin əlaməti istənilən fəaliyyətin hüquqi təşkili və struktur möhkəmləndirilmiş plyuralizmdir. Şəxsi həyat siyasi hakimiyyət müdaxiləsi üçün tabe olmalı, o açıq fakta çevrilməməlidir. Açıq həyatda bu imperativin həyata keçməsi səviyyəsi effektli vətəndaş cəmiyyətinin ilk göstəricisidir. Dövlət hakimiyyətindən vətəndaş cəmiyyəti a) legitimliyi, b) ən ümumi, yetkin demokratiyanı, c) effektivliyi əldə edir.

İnkişaf etmiş vətəndaş cəmiyyəti ilk növbədə adamların şəxsi, o cümlədən ictimai - iqtisadi təhlükəsizliyini təmin edir. Onun hakimiyyətə və bütövlükdə onun siyasətinə təsirinin əsas gücü siyasi özgələşdirməni məhdudlaşdırma və onu dəfn etməkdir. Bu dövlətin və hakimiyyətin nisbiləşməsi və vasitəyə çevrilməsini təmin

etmək hesabına edilir; o vəzifə funksiyalarını və səlahiyyətlərini yerinə yetirməkdən asılı olaraq edilir. Hüquqi dövlət ideologiyası və dövlətçiliyin alət fərziyyəsi ictimai şüurda "dövlət - xalqa xidmət sahəsidir" formulasını zənginləşdirmişdir. Bu cür yanaşmada dövlət nümayəndələrinə vətəndaş cəmiyyətin muzdlu işçiləri kimi baxırlar, onların adamlar və birliklər üzərindəki hakimiyyətinə müəyyən hədd daxilində imkan verilir - onlara adamların və cəmiyyətin azad inkişafı və həyat şəraitinin problemlərini həll etmək səlahiyyəti verilir.

## §2. Cəmiyyət bütöv, öz-özünə inkişaf edən sistemdir

İnsan və təbiətin vəhdəti haqqında fikrindən məntiqi olaraq insan cəmiyyəti və təbii varlığın vəhdəti ideyası irəli gəlir. Müasir elmdə bu ideya V.J.Vernedskinin əsərlərində əsaslandırılmışdır. O yazırdı ki, bəşəriyyət canlı varlıq kimi Yerin müəyyən geoloji təbəqəsi - onun biosferası ilə maddi - enerji proseslərlə qırılmaz bağlıdır. Fizii baxımdan bir dəqiqə belə onsuz qala bilməz. Cəmiyyətdə olan orijinallığa, xüsusiyyətlərə baxmayaraq o özündə bütövlükdə varlığın diskretlik, strukturluq, dəyişkənlik, dinamizm kimi universal xassələrini təcəssüm etdirir. Cəmiyyətin təbiətlə bu vəhdətinin dərk olunmasından sonra filosoflar - sosiologiyanın atası hesab olunan Oqyust Kontdon başlayaraq - daha tez-tez ictimai həyatın iki aspektini statikanı (sükunət halı) və dinamikanı (hərəkət) ayırmışlar. **Statika** deyərkən, cəmiyyətin mövcud strukturu, onun əsas hissələrini, elementlərini, eyni zamanda onlar arasındakı əlaqə və münasibətləri başa düşürdülər. **Dinamika** deyərkən, fəaliyyət göstərmək, hərəkət, dəyişiklik başa düşülürdü. Əlbəttə həm də nəzərə

almırdı ki, real ictimai həyatda göstərilən bu iki amil heç vaxt ayrı mövcud deyildir. Onlar sosial fəlsəfi təhlilə uyğun gəlmək üçün onlar ayrı-ayrı təqdim oluna bilər. Cəmiyyətin strukturunu yaxşı izah edə bilmək üçün onun sakit vəziyyətini götürən sosioloqlar onu saat düzəldənə bənzədirdilər. Saatsaz saatı düzəltməyə başlamazdan qabaq onu dayandırır ki, saatın mexanizminin quruluşunu diqqətlə nəzərdən keçirsin. Filosoflar da ictimai həyata təqribən bu cür yanaşırlar; əvvəlcə cəmiyyət sakit vəziyyətdə təhlil olunur - statik halda, elementlər və hissələrin məcmusu kimi, müəyyən struktur kimi, sonra isə başlanğıc təsəvvürdən çıxış edərək, hərəkətin xüsusiyyətləri, cəmiyyətin inkişafı, onun dinamikası tədqiq edilir.

İctimai sistemi elementlərin vəhdəti kimi onların qarşılıqlı münasibəti aspektində təhlil vermək məqsədəuyğundur. Qeyd etmək lazımdır ki, müasir fəlsəfə belə bir baxışdan çıxış edir ki, bizi əhatə edən dünya bölünmüşdür, diskretdir, bununla belə, o vahiddir, kontimaldır. O ayrı-ayrı hissələrdən, obyektlərdən təşkil olunmuşdur, eyni zamanda bu obyektlərin rəngarəng xasələrini özündə birləşdirir - bu xassələr bu obyektlərin bir-biri ilə əlaqəsinin, qarşılıqlı münasibətinin spesifikasını təzahür etdirir. Təbiətin üzvü hissəsi olan cəmiyyət bununla yanaşı təbiət sistemindən fərqli olaraq daha mürəkkəb struktura, quruluşa malikdir.

İstənilən təbiət stmkturu kimi **cəmiyyətin strukturu da** özündə yalnız ayrı-ayrı adamlar və onların birlikləri formasında ayrı-ayrı elementləri və hissələri deyil, həm də bizə bir sosial obyekti digərindən fərqləndinıəyə imkan verən onların xassələrini və münasibətlərini birləşdirir. Bu və ya digər qrup insan birliyi olmadan, eyni fonuada sosial varlığın bölünməz “sosial atomu”, “ilk kərpicləri”

kimi çıxış edən ayrı-ayrı fərdlər olmadan cəmiyyət yoxdur və ola da bilməz. İnsan öz əsas nəsli keyfiyyətlərini kollektiv varlıq kimi mənimsəmişdir. Ona görə də insan və cəmiyyət bir medalın iki üzü kimi həmişə bir-biri ilə qırılmaz əlaqədə olacaqdır. Bununla belə insan və cəmiyyət - müxtəlif hadisələrdir, bir-birinin eyni deyildir. Canlı orqanizm onu təşkil edən çoxsaylı hüceyrələrin heç birində olmayan xassəyə malik olduğu kimi cəmiyyət də yalnız ayrı-ayrı fərddən nə isə bir qədər üstün olmayıb, həm də sadəcə olaraq onu təşkil edən fərdlərin sırf məcmusu olmayıb ondan bir az mürəkkəbdir. Ona görə də hər bir sosial birlik yalnız onu təşkil edən adamların fərdi keyfiyyətlərinin məcmusu olmayıb, həm də onu təşkil edən fərdlərin heç brində olmayan bəzi şəxsi keyfiyyətlərin məcmusudur - bu da həmin birliyə özünəməxsusluq, nadirlik verir, istənilən sosial birliyin, ailənin, qəbilənin, tayfanın, xalqın, millətin, bütövlükdə insan cəmiyyətinin bu xüsusiyyəti, onları təşkil edən ayrı- ayrı adamlardan onların fərqi onunla izah olunur ki, bütün göstərilən birliklər özlərində daha bir mühüm komponenti - adamlar arasında sosial əlaqəni, qarşılıqlı fəaliyyəti, münasibəti birləşdirirlər. Bəzi fəlsəfi təlimlərdə ictimai həyatı təşkil edən bu ənənə yığcamlıq, koolektivizm adlanır. Həm qruplar arasında həm də onlar daxilində bu qarşılıqlı fəaliyyət onların sonsuz müxtəlifliyi və spesifikliyi bu birliklərin hər birinə təkrarolunmaz kolorit verir və bu xoşbəxt və bədbəxt ailələri, böyük və balaca xalqları, sabit, tərəqqi edən dövlətləri və qeyri sabit dağılmağa meyl edən dövlətləri fərqləndirməyə imkan verir. Beləliklə, **cəmiyyətin sosial strukturu** onu təşkil edən iki əsas cəhətin ayrılmaz vəhdətidir: a) bu fərdlərin, adamların, onların birliyinin vəhdəti, b) adamlar və ictimai

qruplar arasında qarşılıqlı fəaliyyətin, əlaqələrin, münasibətlərin məcmusu.

Qeyd etmək lazımdır ki, sosioloqlar üçün ayrı-ayrı adamları, onların birlik və təşkilatlarını öyrənmək sosial qarşılıqlı münasibətləri tədqiq etməkdən asan olmuşdur. Məsələ ondadır ki, adamlar arasındakı əlaqə və qarşılıqlı münasibət yetkin, möhkəm deyil, qeyri-maddi xarakter daşıyır. Məhz buna görə də ictimai həyatdakı bu yetkin olmayan əlaqə və münasibətlər dərhal başa düşülməmişdir. Lakin güman etmək olar ki, onların əhəmiyyətli rolunu adamlar çoxdan intuitiv səviyyədə hiss etmişlər- bunu belə bir fakt təsdiq edir ki, adamlar arasındakı mənəvi əlaqə arasında yaranan əhəmiyyətli sosial institutlar olan biri **din** termini ilə ifadə olunmuşdur-bu "reliqare" latın sözü olub, münasibət, əlaqə deməkdir. Lakin **onların rolunun qiymətləndirilməsində ehkam- çılıq** hələ də qalmaqdadır. Onlardan ən geniş yayılmışı iki çaşqınlıqdır; ifrat fərdiyyətçilik və anarxizm: mübariz kohektivizm, onlardan ən təhlükəlisi təzahürü faşizmdir.

**İfrat fəaliyyətçilik** və ya sosial nigilizm baxımından yalnız ayrı-ayrı adamlar, şəxsiyyətlər mövcuddur, ictimai əlaqələr, qarşılıqlı münasibətlər deməli, həm də cəmiyyət mövcud deyildir. Buradan belə qənaətə gəlmək olar ki, "cəmiyyət kateqoriyası" uydurmadır, sırf cəfəngiyatdır, onun arxasında real heç nə dayanmır. Bu cür yanüşmanm nəticəsi anarxizmdir, onlar obyektin, ictimai əlaqənin, qarşılıqlı fəaliyyətin rolunu inkar edirlər, deməli, müxtəli ictimai təşkilatların və dövlətin də əhəmiyyətini qəbul etmirlər. Rus sosioloqu, anarxizmin görkəmli nəzəriyyəçisi, "dövlətsiz cəmiyyət" konsepsiyasının yaradıcısı P. Kropotkinanm fikrincə, şəxsiyyətin azadlığı "yalınız o

vaxt mümkün olacaqdır ki, birliyin əsas ideyası tam azadlıq, hakimiyyətin olmaması - anarxiya olsun”.

Əksinə, ifrat, mübariz kollektivizmin tərəfdarlarının fikrincə, “cəmiyyət”, “dövlət” anlayışları ilə ifadə olunan sosial hadisələr yalnız real mövcud olmayıb, həm də cəmiyyətin təşkil olunduğu fərdlərdən fərqli olaraq, daha зdiksək dəyərə malikdirlər. Bu konepsiyanm məğzi belədir; “yalnız cəmiyyət, cəmiyyətdən başqa heçnə tək cəmiyyət mövcuddur”. Bu konsepsiyanın tərəfdarlarının fikrincə, ayrı-ayrı adamlar daha geniş bütövün yalnız bir hissəsi Hegel demişkən, “anıdır” - ayaqlar və əllər insan hədənin hissələri olduğu kimi onlar ayrıca mövcud deyillər. Şəxiyyətin, ayrıca adamın rolunu açıq şəkildə aşağı salan bu Hegel konsepsiyası, onun davamçıları, xüsusən K.Marks tərəfindən tənqid olunmadan qəbul olunmuşdur - sonradan Marksm bu mövqeyi kəskin tənqidə məruz qalmışdır. Rus filosofu N. Berdyayev yazırdı; “Marks gözəl sosioloq, ancaq zəif antropoloq olmuşdur. Marksizim cəmiyyət problemini qoyur, ancaq insan problemini qoymur, onun üçün insan cəmiyyətin funksiyasıdır, iqtisadiyyatın texniki funksiyasıdır. Cəmiyyət ilkin fenomen, insan isə epifenomendir”

Mübariz kollektivizmin konsepsiyasının ardıcıl həyata keçirilməsi totalitar siyasi rejimin bu və ya digər növünün bərqərar olması gətirib çıxarır - bu vaxt cəmiyyət şəxsiyyəti tam özünə tam tabe edir, onun şəxsi həyatının bütün məqamlarını - ən xırda detallarına qədər, həta güc tətbiq etməkdə, zorla bu və ya digər dəb rəqs və s. standartları tətbiq etməklə - nizamlamağa cəhd edir. Bu ehkamlarda olan nəzəri xarakterə baxmayaraq tarixi təcrübə göstərir ki, onlar bir çox insan əzablarının və

bədbəxtliyinin mənbəyi ola bilərlər - bu da dünyagörüşü çaşqınlığının nə qədər təhlükəli olduğunu göstərir.

Əlbəttə, ictimai təşkilatın iki göstərilən komponentləri - adamlar və onların qarşılıqlı münasibəti - hələ cəmiyyətin mürəkkəb strukturunu tam əhatə etmir. Onlar yalnız onun iki əsas, aparıcı dayaqlarıdır.

Əslində isə cəmiyyətin strukturu iki ölçülü deyildir, o mürəkkəbdir, çoxölçülüdür, müxtəlif hissələr və elementlərdən ibarətdir - çoxcəhətli sosial hadisələrin dərk olunmasında əlverişlilik yaratmaq üçün onlar bu iki komponentdə cəmləşdirilmişdir. Təbii ki, real mövcud olan canlı cəmiyyət qarşımızda rəngarən çalarları, sonsuz element və hissələrin çoxluğu ilə dayanır. Sosoial sistem özünün sistemaltısı kimi maddi, mənəvi və həyatın digər sahələrini qəbul edir - onların hər birinin öz komponentləri var. Belə ki, mənəvi sahə özündə din, elm, incəsənət, hüquq, əxlaq və s. birləşdirir. Cəmiyyətin bütün bu müxtəlif hissələri bir-biri ilə bağlıdır, çoxlu əlaqələr, qarşılıqlı fəaliyyət hesabına bir-birinə qarışmışdır - bu da sosial strukturun ayrı-ayrı elementlərini vahid tam halında birləşdirir; bu hüceyrələr arasında bədən əlaqəsini canlı orqanizmi yaratmasına bənzəyir.

Şübhəsiz ki, cəmiyyət təbiətdən həm fiziki, həm də bioloji cəhətdən əsaslı şəkildə fərqlənir, öz mürəkkəbliyi ilə seçilir. Ona görə də sosial sistemin sosial - fəlsəfi təhlilində mürəkkəb anlayışlar aparatından istifadə olunur. Təbiət sistemini təsvir etmək üçün geniş tətbiq olunan “elemenf”, “münasibəf”, “təşkilaf”, “sistem”, “struktur” anlayışlarla yanaşı sosial fəlsəfədə “subyekt”, “obyekf”, “ideal”, “sosial fəaliyyəf” və s. kimi xüsusi anlayışlardan da istifadə olunur. Bu anlayışlar aparatının yaradılması fəlsəfi fikrin inkişafının uzun tarixi prosesinin nətieəsidir.

Təbiətdə və cəmiyyətdə **üzvü bütövlük, tamlıq, sistcmlik** haqqında ilk təsəvvürlər hələ qədim fəlsəfədə yaranmışdır. Qədim Çin fəlsəfəsində (Lao-Tszı, Konfutsi) o **Dao** kateqoriyası, qədim yunan fəlsəfəsində (Platon, Aristotel) **Loqos** anlayışı ilə ifadə olunurdu. Bu hər iki anlayış dünyanın nizamlılığı, mütəşəkilliyi, onun təşkil edən hissələrin üzvi vəhdəti. Yer və Göy, təbiət və cəmiyyət, şəxsiyyət və hakimiyyət haqqında eyni fikirlər ifadə olunurdu. Lakin sistemlilik problemi daha ətrafli XIX-XX əsr mütəfəkkirləri - Kont, Spenser, Marks, Veber, Sorokin, Parsons və başqaları işləyib hazırlamışlar. Müasir sosial fəlsəfənin əsas anlayışlarının hərtərəfli işlənib hazırlanması onlarim adı ilə bağlıdır. Bu anlayışlara aşağıdakılar aiddir;

Cəmiyyətin **element və ya hissəsi** sosial sistemin ən xirda hissəciklərini və ya onun bəzi məcmusunu təşkil edir. Element və hissə kimi həm ayrı-ayrı adamlar və ya onların birliyi, həm də onlar arasındakı bu və ya digər münasibətlər, eyni zamanda bu münasibətlər əsasında yaranan təşkilat və institutlar çıxış edə bilər.

Göstərilən anlayışlar bütün sosial sistemə nisbətən nisbətən sadə, daha elementarı ifadə edir. Cəmiyyəti təşkil edən elementlər, hissələr, sistemaltılar olduqca çoxsahəli, çoxkeyfıyyətli, ierarxikdir.

**Münasibət** deyərkən cəmiyyətin hissələri, elementləri arasındakı müəyyən əlaqə, qarşılıqlı asılılıq başa düşülür. Münasibət - bir növ görünməz möhkəmləndirici materialdır, o adamları və cəmiyyəti birləşdirir, onları bütöv monolitə çevirir. Adamlar arasındakı möhkəm, daimi, təkrarlanan, münasibət qarşılıqlı fəaliyyət tədricən cəmiyyətdə sabit qrupların, institutların yaranmasına gətirib çıxarır, onlar da öz növbəsində öz aralarında bu və

ya digər qarşılıqlı münasibəti görürlər. Sosial münasibətin zənginliyi və rəngarəngliyi inkişaf etmiş demokratik cəmiyyətin əlamətidir və ya əksinə, onların eyni cür olması, inkişaf etməməsi bu və ya digər cəmiyyətin totalitar - qeyri-demokratik xarakterini göstərir.

**"Struktura"** anlayışı cəmiyyətin sivil səviyyəsini, onda olan möhkəm əlaqə, münasibətlər sistemini əks etdirir, eyni zamanda onların əsasında yaranan, cəmiyyətin bütövlüyünü təmin edən, müxtəlif daxili və xarici təsirlər vaxtı onun xassələrini qoruyan- sosial qrupların və institutların məcmusunu əks etdirir. Beləliklə, strukturaya tarixən formalaşan cəmiyyətin quruluş forması, daxili nizama salma, onun müxtəlif hissələrinin razılaşması kimi tərif vermək olar.

İctimai həyatı təhlil edərkən tez-tez **"subyekt" və "obyekt"** kimi cüt anlayışlardan istifadə olunur. Onlar mənaca əks olsalar da bir-biri ilə sıx bağlıdırlar. **Subyekt** deyərkən sosial fəlsəfə fəallığın daşıyıcısı kimi çıxış edən, passiv hadisə kimi özünü göstərən obyektə istiqamətlənən fəallığı nümayiş etdirən insan və ya qrup başa düşülür. **Obyekt** kimi həm şeylər, həm də adamlar çıxış edə bilər. Lakin istənilən halda obyekt deyərkən həmin an subyektin fəallığının istiqamətləndiyi dərk olunan və ya predmet- praktiki hadisələr başa düşülür.

Nəhayət, sosial fəlsəfədə ümumiləşdirici anlayış; **sosial struktur** anlayışı sosial orqanizmin bütövlüyünü təşkil edən sosial subyektlərin (bu və ya digər obyektlərə münasibətdə) əlaqə və münasibətlərinin bütün məcmusunu əhatə edir.

Müasir fəlsəfənin sosial orqanizmi təsvir etmək üçün istifadə etdiyi sadaladığımız əsas kateqoriyalar göstərir ki.

sosial sistem əsaslı şəkildə təbii sistemdən fərqlənir. Bu fərqlər aşağıdakılardır:

1) cəmiyyəti təşkil edən elementlərin sistemaltılar, səviyyələr, eyni zamanda onların funksiyalarının, əlaqə və qarşılıqlı münasibətlərinin çoxluğu:

2) sosial elementlərin müxtəlif keyfıyyətliliyi, müxtəlifliyi-onların arasında rəngarəng maddiliklə yanaşı həm də müxtəlif çalarlı ideal, mənəvi hadisələr də vardır. Ona görə də, cəmiyyətin tədqiqində həm humanitar, həm də təbiət elmlərinin istifadə etdiyi kompleks yanaşma daha məhsuldardır.

3) sosial sistemin əsas elementinin nadirliyi-insandır, o geniş yaradıcılıq imkanlarına, öz davranış formalarını sərbəst seçmək bacarığına malikdir, bu da cəmiyyətin inkişafında qeyri-müəyyənliyi, müxtəlifliyi yaradır. Bu fikrin əsaslandırılması müasir fəlsəfənin əsas mövzularından biridir.

Fəlsəfi fikrin ictimai həyatın xüsusi mürəkkəbliyini və rəngarəngliyini açması ilə tədqiqatçıların bütün bu rəngarəngliyi bir əsasa, ümumi bayraq altında ümumiləşdirməyə cəhdləri də güclənir. Həm də filosoflar bu cəhdlərində digər elmlərin nümayəndələrinin arxasınca getmişlər - onların hər biri öz sahələrində bu və ya digər “ilkin kərpicləri” aşkar etmişlər: fizika - elementar hissəciklər, kimya -atomlar, biologiya - canlı hüceyrələr, psixologiya - qıcıqlandırıcı hadisələr və s.

**Sosial fəaliyyəti** cəmiyyətə tətbiq etmək üzərində düşünən filosoflar uzun diskussiyalardan sonra ümumi qənaətə gəlmişlər. Bu ümumi qənaət ondan ibarətdir ki, ictimai həyatın zahirən rəngarəng görünən hadisələri adamların **birgə fəaliyyətinin** bu və ya digər müxtəlifliyidir-müasir sosial fəlsəfənin banisi O.Kont belə güman

edir. Bu fikri inkişaf etdirən M.Veber cəmiyyətin əsasını **sosial fəaliyyətdə** görür - o, buna başqa adama istiqamətlənən insan davranışı kimi baxır. Veberlə razılaşan sosioloq Parsons sosial həyata "öz rollarını yerinə yetirən adamlar arasındakı qarşılıqlı münasibətin məcmusu kimi baxır". Cəmiyyətin ilkin əsası haqqında bu baxışa K.Marks da yaxın olmuşdur. O deyirdi ki, "Cəmiyyət adamların qarşılıqlı fəaliyyətinin məhsuludur".

Beləliklə, cəmiyyətin ilkin əsası haqqında suala ümumi cavab ona gətirib çıxarmışdır ki, ictimai hadisələrin rəngarəngliyi öz mahiyyətinə görə adamların fəaliyyətinin bu və ya digər növündədir.

Məhz **insan fəaliyyəti** bütün ictimainin mahiyyətinin, ilkin əsasının, substansiyasının gizli sirridir. Müasir fəlsəfə **sosial fəaliyyətdə** ictimai münasibətin bütün mürəkkəb sisteminin başlanğıc nöqtəsini, sosial biliyin müxtəlif sahələrinin inteqrasiya vasitələrini görür. Lakin insan fəaliyyətinin istisna əhəmiyyətini etiraf edən müasir sosiologiya bununla belə sosial qarşılıqlı fəaliyyətin süni sadələşdirilməsinin, onda olan rəngarəngliyi, mürəkəbliyi, çoxölçülüyün bəsitləşdirilməsinin təhlükəli olduğunu qeyd edir. Bununla belə ona da diqqət yetirilir ki, sosial fəaliyyət əsaslı, sistemi təşkil edən əhəmiyyət kəsb etsə də o heç də insanın mövcudluğunun son, "daha bölünməz" əsası deyildir. Bunun isə ən azı iki səbəbi var;

1) Sosial fəaliyyət, fəallıq, onun əsasında olan müxtəlif maddi və mənəvi təlabatlardan, maraqlardan, motivlərdən, dəyər istiqamətlərindən yaranır və onlarla müəyyən olunur. Amerikalı sosioloq A.Maslou insan təlabatlarmın xüsusi piramidasını təklif etmişdir - onun beş səviyyəsi var. Maslouya görə bu səviyyələrdən ikisi yeməyə, mənzilə və s. olan fizioloji təlabatların ödə

nilməsi və təhlükəsizliyinin bariz təlabatıdır, qalan üç səviyyə isə ikinci dərəcəlidi və ünsiyyətə, başqa adamlar tərəfindən hörmətə olan təlabat, yaradıcılığa, özünü- reallaşdırmaya olan təlabatdır.

2) Bundan başqa həm də nəzərə almaq laimdır ki, insan fəaliyyəti cəmiyyət üçün həm qurucu, həm də dağıdıcı xarakter kəsb edə bilər. Özünün gözlənilməz nətieələri ilə o yaradıeı insan üçün yad olan bütöv dünya yarada bilər və ya ona düşmən olan sosial münasibətlər və institutlar, siyasi və ideoloji hadisələr törədə bilər. İnsan fəaliyyətinin bu dağıdıeı nətioələrinin mümkünlüyü nəzərə alınmasa sosial həyat haqqında təsəvvürlər tam ola bilməz.

Sosial həyat çoxqath, çoxölçülü strukturdur. O həm ayrı-ayrı fəaliyyət növlərinin məemusu kimi, həm təlabatlar piramidası kimi, həm milli (etnik) birliklərin, sosial qrupların (ailə, zümrə, siniflər, kastalar), təhsil, gəlir, status və s. səviyyələrin ölçüsü ilə yaranan sosial stratlar (təbəqələr) kimi həm də müxtəlif ietimai təşkilatların - iqtisadi, siyasi, mədəni - müəyyən struktur kimi başa düşülə bilər. Eyni zamanda ietimai həyatın digər mühüm tərəfi ayrıla və nəzərdən keçirilə bilər: **adamlar arasındakı əlaqələr, asılılıqların məcmusu.** Onlar dini, elmi, bədii, təsərrüfat, siyasi və s. həyat fəaliyyətinin böyük sahələri kimi tədqiq oluna bilər - bu sahələr daxilindəki münasibətlər kimi, həm də onlar arasında olan münasibət kimi araşdırıla bilər.

Cəmiyyəti orada olan, sosial münasibətəri təmin etmək məqsədi ilə yaranmış çoxlu təşkilatlar, müəssisələr, institutlar baxımından da təhlil etmək olar. Sosial strukturlar bu sosial aspekti də çoxlu sosial qurumlan, o cümlədən müxtəlif tipli təsərrüfat müəssisələrini, təşkilatları, fmnalan, təhsil, səhiyyə sahəsində olan müəs

sisələri, mərkəzi və yerki hakimiyyət səhiyyə orqanlarının, yəni, insanın müxtəlif təlabatlarmı ödəyən iqtisadi, siyasi, mədəni təşkilatların geniş şəbəkələrini özündə birləşdirir.

Cəmijqy^ətin strukturlarının anlaşılmasına, nəhayət, **universal və ya sintetik yanaşma** da mümkündür. Bu cür yanaşmada cəmiyyət ayrı-ayrı şəxsiyyətlərdən balaca qrup, ayrı-ayrı kollektivlərdən, böyük sosial qrup və onların təşkilatlarından, ayrı-ayrı xalqlardan, millət və dövlətlərdən, beynəlxalq dövlətlərarası birliklər və təşkilatlardan ibarət olan kimi təqdim olunur. Bu elementlərin hər biri bir-biri ilə həm üfüqi, həm də şaqul mürəkkəb qarşılıqlı asdıqda olurlar.

Sosial həyatın, fəaliyyət növlərinin, sosial münasibətlərin, sosial birliklərin, ictimai institutların, sadalanan çoxsaylı tərəflərinin təhlili, sosial fəlsəfənin bir elm kimi əsasını təşkil edir. Bu məzmunun bütün zənginliyinə diqqət yetirmək vaxt çərçivəsinə sığmadığından diqqətimizi daha çox sosial sistemin substansional əsasım, yəni adamların birgə fəaliyyətini, onun mahiyyətini, stmkturu- nu təşkil edən tərəflərinin xarakterinin təhlilinə yönəldək.

**Sosial fəaliyyətin strukturu. Fəaliyyət** - ətraf aləmə fəal münasibətin xüsusi insan formasıdır - onun məzmununu bu dünyanın məqsədyönlü mənimsənilməsi və dəyişdirilməsi təşkil edir. Bu məzmun sosial fəaliyyətin əsas struktur elementləri ilə reallaşır, o sadə fərdi formada olur, yəni insanın şeylərlə və ya digər adamlarla qarşılıqlı fəaliyyətində özünü göstərir. Hətta ən sadə sosial fəaliyyətin yarandığı əsas elementlər hansılardır?

istənilən sosial fəaliyyətin strukturunda birinci element, istənilən fəaliyyətin mühüm və zəruri amili **insan, adam, fərdlərdir.** İnsansız heç bir sosial fəaliyyət mümkün deyildir. O bu fəaliyyətin fəal tərəfi, onun

**subyektidir.** Ona görə adamlar subyektdirlər ki, onların fəaliyyəti bu və ya digər **obyektə** istiqamətlənmişdir. Sosial fəaliyyətin ikinci elementi **fəaliyyətin obyektləridir.** Yalnız şeylər yox, həm də adamlar bu cür ola bilərlər - həkim, müəllim, bəzi digər peşə nümayəndələrinin fəaliyyəti belədir. Bununla belə bu səpkidə çox vaxt digər tip obyektlər - şeylər çıxış edirlər, onlar öz növbəsində iki qrupa ayrılırlar. Onlardan biri - alət və maddi istehsal vasitələri, digəri isə - mənəvi istehsal alətləridir - onların arasında kompüter, qələm, yazı maşınları daha çox əhəmiyyət kəsb edirlər. Başqa sözlə desək, fəaliyyət obyektlərinin bu qrupuna **bütün şeylər -** onun köməyi ilə adamlar ətraf mühiti dəyişir, onu öz təlabatlarma uyğunlaşdırır - daxildir.

Daha bir obyekt qmpu vasitələrdir, onlar şeylər qədər insan fəaliyyəti üçün zəruridir, lakin onların şey, maddi xarakterləru yoxdur. Fəaliyyətin bu obyektləri o qədər özünəməxsus, orijinaldır, şeylərdən fərqlidir ki, sosial fəaliyyətin strukturunu nəzərdən keçirərkən onları adətən xüsusi üçüncü komponent kimi ayırırlar. Bu **jestlorin dili, səs və yazı nitqi məlumatlardır** - onlar müxtəlif kağız və elektron daşıyıcılarda, kitablarda, lentlərdə, disketlərdə əks olunur. Bu **simvollar, işarələrdir.** Şeylər kimi onlar da istənilən insan fəaliyyəti üçün zəruridir. Bizim şüurumuza təsir edən simvollar və işarələr fordi fəaliyyətdə məqsədyönümlüyü təmin edir. Kollektiv fəaliyyətdə isə onu razılaşdırır. Əgər fiziki şeylər bilavasitə insanın ətraf aləmə uyğunlaşmasına xidmət edirsə, simvollar onun üçün bu məsələnin həllini yüngülləşdirir.

Sadaladığımız sosial fəaliyyətin üç elementindən əlavə, dördüncü, zəruri element də vardır. Bu **sosial fəaliyyətin göstərilən əsas amilləri arasındakı əlaqə.**

**münasibətlərdir.** Təcrübə göstərir ki, nəzərdən keçirilən üç elementin - adamlar, şeylər, simvollar - mexaniki yığımı onlar arasında əlaqə, qarşılıqlı fəaliyyət olmasa nə sosial fəaliyyəti, nə də bütölükdə sosial həyatı yaratmırlar. Məhz buna görə adamlar, şeylər, simvolar arasındakı möhkəm, dəfələrlə təkrarlanan əlaqənin - tədrieən həm fərdi fəaliyyət səviyyəsində, həm də sosial qrup və bütün eəmiyyət səviyyəsində yaranan əlaqənin ietimai həyat üçün istisna əhəmiyyəti vardır.

Beləliklə istənilən insan fəaliyyətinin dörd elementi vardır - **adamlar, fiziki şeylər, simvollar və onlar arasındakı əlaqə.** Onların təkrar istehsalının zəruriliyi çoxplanlı ietimai sistemin baza sistemini yaradan ietimai fəaliyyətin əsas tiplərini yaradır. Sadə sosial fəaliyyətin dörd əsas elementinə müvafiq olaraq ictimai fəaliyyətin **dörd** tipi, sahəsi ayrılır: maddi, mənəvi, nizamlayan, və ya idarə edən, xidmət fəaliyyəti, bəzən məhdud mənada humanitar və ya sosial adlanır. Bütün bunlar istənilən insan fəaliyyəti üçün zəruri şəraiti təmin etməklə eyni zamanda bütövlükdə eəmiyyətin həyat fəaliyyətinin ilkin şərtini yaradır.

**Sosial həyat sahəsinin spesifikliyinə və funksiyalarına da** diqqət yetirmək lazımdır. **Maddi istehsalın** özünəməxsusluğu ondan ibarətdir ki, o adamların baza tələbatlarını ödəmək üçün zəruri olan bəzi maddi şeyləri, malları yaradır, istənilən fəaliyyət formasında onların fizioloji fəallığını müdafiə edir. Burada əsas fəaliyyət subyekti fiziki əməklə məşğul olan adamlardır, doğrudur maddi istehsalla həm də əqli əmək işçiləri də məşğuldurlar-son illər onlann payı xeyli artmışdır. Bu sahədə əkinçilər, şaxtaçılar, maşınqayırma sahəsində çalışanlar.

fəhlələr və mühəndislər, aqronomlar, müəssisə rəhbərləri də məşğul olurlar.

Cəmiyyət üçün bu sahənin əhəmiyyətini hamı qəbul edir. Bu sahənin işçilərinin zəhməti ilə xammal əldə olunur, maşın və mexanizmlər yaradılır, həm şəxsi ehtiyatların ödənilməsi üçün zəruri olanlar, həm də təhsil, elm, tibb və idarə sistemlərinin maddi təminatı həyata keçirilir. Məhz bu sahədə adamların gündəlik həyatı üçün zəruri olanlar - mənzil, ərzaq, geyim və s. - yaradılır. Lakin bu vəziyyət həm bu sahənin rolunu şişirtməyə, mütləqləşdinnəyə, həm də onu insan fəaliyyətinin digər sahələrinə qarşı qoymağa əsas vermir. Onun cəmiyyət həyatının digər sahələrindən köklü fərqi insan fəaliyyətinin bütün mürəkkəbliyini, müxtəlif keyfıyyətlili- yini ona şamil etməyə əsas vermir. D.Bell, C.Qelbreyt, Z.Bjezinski və digər müasir tədqiqatçılar inkişaf etmiş ölkələrin malların iqtisadiyyatından xidmətin iqtisadiyyatına keçməsini nəzərə alaraq qeyd edirlər ki, postindistrial cəmiyyətdə maddi istehsalı rolunun enməsi baş verəcəkdir.

ictimai həyatda **mənəvi istehsal** mühüm və artmaqda olan rol oynayır - bu prosesdə şeylər, əşyalar yox, ideyalar, sürətlər, elmi və bədii dəyərlər istehsal olunur. Doğrudur bu dəyərlər istər-istəməz mənəvi dəyərlərin daşıyıcısı olan kitablarda, şəkillərdə, heykəllərdə və ya məlumatların müasir elektom daşıyıcılarında, fiziki şeylərdə maddiləşir. Ancaq bu predmetlərdə ən əsası onların mənəvi tərəfi yox, onların məzmunlarıdır, onlarda olan ideyalar, surətlər, hisslərdir. Mənəvi fəaliyyət prosesində insan ətraf aləmi, onun rəngarəngliyini və mahiyyətini dərk edir: dəyər şüuru sistemi yaradır, onun üçün bu və ya digər təbii və ictimai hadisələrin əhə

miyyətini müəyyən edir. Əldə olunan biliklər hesabına fəaliyyətin bütün fonnaları təkmilləşir, insan daha dərindən özünü, öz mənəvi dünyasını dərk edir. Doğmdur bəzi müasir fəlsəfənin istiqamətləri insan idrakının məhdud imkanlarını sübut edir, ancaq etiraf etmək lazımdır ki, müasir sivilizasiyanın bütün bu nailiyyətləri əhəmiyyətli dərəcədə elmin, incəsənətin, dinin, bütövlükdə mənəvi istehsalın nəticəsidir. Məhz buna görə də alimin, rəssamın, bəstəkarın, konstruktorun, arxitektomn, din xadimlərinin fəaliyyəti cəmiyyət tərəfindən hörmətlə qəbul olunur, hətta cəmiyyətin inkişafının böhranlı anında belə yüksək sosial statusu vardır. Mənəvi istehsalın rolu yalnız böyük yaradıcılıqda deyil, həm də təəssüf ki, müəyyən neqativ, dağıdıcı imkanlarda təzahür edir. Bu fikri əsaslandıran XX əsrin əvvəllərinin rus filosofu L. Şestov yazırdı: “Materiya əslində insana tabe olan ən itaətkar mahiyyətdir. Bəşəriyyətn bütün bəlaları, faciəsi onda yox, ideyalardadır. Bütün canlıların ən qorxulu düşməni materiya yox, ideyalardır. Dünyanın yalanlarını dəf edən hər kəs yalnız və yalnız ideyalarla mübarizə aparmalıdır.

Bu və ya bir sıra digər vəzifələri yerinə yetirmək üçün sosial həyatın daha bir sahəsi - **idarəedici və ya nizamlayıcı** - yaranır. Fəaliyyətin bu sahəsi ilə müdirlər, idarə rəhbərləri, siyasətçilər məşğul olurlar. Bu sahənin spesifik xüsusiyyəti bütün mümkün vasitələrdən istifadə edərək ictimai inkişafın bütün sahələrində, həm maddi, həm də mənəvi sahələrdə quruculuq meyllərini qorumaq, dağıdıcı meyllərin qarşısını almaqdır. Adamların həyatı üçün əlverişli şərait yaratmaq, onların həyat şəraitini yaxşılaşdırmaq, buna uyğun olaraq ictimai münasibətləri nizamlamaq bu sahə ilə məşğul olanların fəaliyyətinin

mənasıdır. Adamlar arasında əlaqə və münasibətlərin yarandığı ilk dövrlərdə insan cəmiyyətinin inkişafının ilkin mərhələsində bu əlaqə və münasibəti nizamlamaq üçün xüsusi fəaliyyətə ehtiyac olmamışdır. Lakin zaman keçdikcə ən zəruri və mühüm əlaqələri qoruyub saxlamaq üçün xüsusi nizamlayıcı fəaliyyət növləri, onlara müvafiq olan təşkilatlar formalaşdı - bu təşkilatların fəaliyyətinə ictimai həyatın müxtəlif sahələri arasında razılaşma, qayda qanun yaratmaq, adamların müxtəlif təlabatlarmı ödəmək üçün istiqamətləri müəyyənləşdirmək daxil idi. Maddi və mənəvi istehsalsız kimi, bunsuz da ictimai həyat qeyri mümkündür.

Nizamlayıcı, idarəcdici fəaliyyətin başqa fəaliyyət tipi kimi öz struktuna, sahələri, çoxsaylı müxtəlif əmək növləri var. Bu ilk növbədə müxtəlif üsul və vasitələrdən - həm tərbiyəvi, həm də güc - istifadə edərək adamları idarə etməkdir. Bu həm də şeylərin idarə olunmasıdır. Şəxsi və ictimai mülkiyyət, yerdən və onun təkindən istifadə olunması, təbiətin qorunması və s. haqqında qanunverieiliyin funksiyaları belədir. Adamların və şeylərin idarə olunması müxtəlif səviyyələrdə - ailədən, müəssisələrdən, təşkilatlardan tutmuş dövlət səviyyəsinə qədər - həyata keçirilir. İdarəedici fəaliyyət cəmiyyətin inkişafında, onun taleyində böyük rol oynayır, lakin onun ietimai məqsədlərin məmur kastasının korporativ maraqlarına dəyişdirilməsi kimi, məmur aparatının xeyli şişirdilməsi, kağız yığmı, xəzinənin dağıdılması və s. kimi ağır xəstəlikləri vardır. Müasir filosofların birinin fıkrineə “məmurlar da dovşanlar kimi çoxalmağa təbii meylləri var” və buna görə də “bir növ ictimai xərçəng şişinə çevrilmək meyli vardır, o sağlam orqanizm hesabına böyüyür, vaxtında aradan götürülməsə orqanizmi məhv

edə bilər". Bəlkə də polşalı filosof Y.Boxenskinin bu fikrində şişirtmə var, lakin etiraf edək ki, insan eəmiyyətinin tarixi yalnız idarəçilik fəaliyyətinin gətirdiyi fayda ilə zəngin olmayıb, həm də idarəçilik strukturundan doğan ziyanla bağlı da nümunələrlə zəngindir. Dövlətin təbiəti haqqında baxışların müxtəlifliyi də buradan irəli gəlir: dövləti "Allahın yerdə təeəssümü" səviyyəsinə qaldırmaqdan (Hegel) onu adamları yeyən Bibliya bədheybəti Leviafan kimi (T.Hobbs) təqdim olunmasına qədər. Siyasi və digər sosial fəaliyyət növlərinin vaeibliyi ilə yanaşı qeyd etmək lazımdır ki, onların hamısı yalnız ietimai həyatın birinei, əsas şəraitinin - **sosial fəal adamları** olması ilə mümkündür. İnsan həyatı üçün ilkin şərtlərin yaranması, onun qomnması, adamların yüksək fəallıq səviyyəsi üçün təkrar istehsalın genişdirilməsi sosial fəaliyyətin dördüneü növünün - **adamlara xidmət və ya humanitar sahə** - məzmununu təşkil edir.

Xidmət sahəsi özündə həkim, müəllim, artist, ticarət, ictimai iaşə, istirahət və turizm sahələrinin işçilərinin fəaliyyətini birləşdirir. Əlbəttə adamlar özləri öz istehsalları ilə məşğul olurlar, özlərini müalicə etməyə, öz təhsilləri ilə məşğul olmağa gedirdilər, özlərini yedizdirir, əylənirlər. Lakin təkrar istehsal, həyatın qorunması, fəallığın stiniullaşdırılması, insanlara bilavasitə xidmət - o qədər vacib sosial işdir ki, cəmiyyət onu ayrıca bir adama, ailəyə etibar edə bilməz. Cəmiyyət məktəblər, ali məktəblər vasitəsi ilə bu prosesə qoşulur, səhiyyə sistemi yaradırlar. Xidmət sahəsi müasir cəmiyyətdə ən dinamik - sahədir, onun inkişafının yüksək səviyyəsidir - müasir sosioloqların fikrincə, gələcək posindustrial cəmiyyətin ən mühüm xarakteri olacaqdır. Beləliklə, gördüyümüz kimi ictimai struktura insan fəaliyyətinin dörd mühüm növü

əsasında yaranır. Onların hər biri üçün ictimai həyatın öz daxili strukturu, çoxsaylı ayrı-ayrı formaları ilə spesifik sahəsi uyğun gəlir. Cəmiyyət üçün əsas, zəruri olan fəaliyyət növləri haqqında baxışlar yalnız onun strukturunun mürəkkəbliyini başa düşməyə yox, həm də sonrakı izahat gedişində vahid, bütöv orqanizm kimi cəmiyyətin xüsusi xəssələrini, onu təşkil edən hissələrdə olmayan keyfiyyətləri gömıəyə imkan verir.

Cəmiyyətin strukturunu nəzərdən keçirməyi yekunlaşdıraraq qeyd etmək lazımdır ki, təhlil gedişində ayırdığımız sosial fəaliyyətin tipləri, qruplar, institutlar, reallıqda olan onların qarşılıqlı münasibəti həmişə bir yerdə mövcuddur, qarşılıqlı əlaqədədir, tez-tez toqquşurlar, bir-birinə sirayət edirlər. Ona görə də cəmijq/ətin tərkib hissələrinin göstərilən xassələri hələ onun ümumi vəziyyətini, onun ümumi fəaliyyətini tam izah etmir. Yalnız onun ayrı-ayrı hissələrinə xas olan xassələrə yox, həm də onu təşkil edən hissələrin heç birində olmayan xassələrə malik olan **xüsusi orqanizm kimi, vahid sistem kimi cəmiyyəti** yaradır. Aristotel dediyi kimi tam sadəcə olaraq onu təşkil edən hissələrin məcmusunu təşkil etmir, onu daha çox, başqa cür başa düşmək lazımdır. Ona görə də cəmiyyəti tam kimi başa düşmək üçün yalnız onun hissələrini öyrənmək yox, həm də bütövlükdə cəmiyyətin xassələrini aydınlaşdırmaq lazımdır. Bu aşağıdakı xassələrdir; **özfəaliyyət, özünü təşkil, özünü inkişaf etdirmək, öz-özünə kifayət etmə.** Qeyd etmək lazımdır ki, birinci üç xassə yalnız bütövlükdə cəmiyyətə xas deyil, o az və ya çox dərəcədə onu təşkil edən sahələrə də aiddir: ancaq öz-özünə kifayət etmə xassəsi sırf bütövlükdə cəmiyyətə xasdır.

Öz-özünə kifayət etmə - sistemin öz şəxsi fəaliyyətini yaratmaq və öz mövcudluğu üçün zəruri şəraiti qurmaq, kollektiv həyat üçün tələb olunan hər şeyi istehsal etmək bacarığıdır. Öz-özünə kifayət etmə - cəmiyyətin onu təşkil edən hissələrindən əsas fərqidir. Yuxarıda göstərilən sosial fəaliyyətin heç bir tipi sərbəst fəaliyyət göstərə bilməz, heç bir ayrıca sosial qrup təklikdə yaşaya, lazım olanlarla özünü təmin edə bilməz. Bu cür bacarığa bütövlükdə yalnız cəmiyyət qadirdir. Yalnız fəaliyyətin bütün növlərinin məcmusu bütün bir yerdə götürülmüş və qarşılıqlı əlaqədə olan qruplar və onların institutları, **bütövlükdə öz-özünə kifayət etmə sosial sistem kimi cəmiyyəti yaradır** - öz mövcudluqları üçün zəruri olan şəraiti öz şəxsi cəhdləri hesabına yaratmağa qadir olan adamların birgə fəaliyyətinin məhsulu olan cəmiyyəti yaradır.

**Cəmiyyətin inkişafı və onun dinamikası** məsələsinə də diqqət yetirmək məqsədəuyğundur. Qeyd etdiyimiz kimi təbiət kimi cəmiyyət də sabitlik və qeyri- sabitliyin, dəyişməzlik və dəyişkənliyin, sükunət və hərəkətin ziddiyətli vəhdətini təşkil edir. Ona görə də sosial təhlil cəmiyyətə onun strukturu baxımından yalnız statikada deyil, həm də onun dəyişkənliyi və inkişafı baxımından dinamikada baxılmasını tələb edir. Təbiət kimi cəmiyyət haqqında da demək olar ki, o daim axır, hərəkət edir, dəyişir. Həm təbii, həm də ictimai varlığın bu universal xassəsini vaxtilə Heraklit və digər yunan filosofları qeyd etmişlər. Lakin inkişaf haqqında ən yetkin və dərin təlimi Hegel yaratmışdır. Kont və Marks öz fəlsəfi sistemlərində **sosial inkişafın spesifikasına, onun amillərinə, təkamül və inqilabi formalarına** böyük diqqət yetirmişlər. Onların nəticələrinə əsaslanan müasir

filosoflar belə hesab edirlər ki, sosial hadisələrin tədqiqində **prosessual** adlanan **yanaşma** lazımdır, bəzən onu **dialektik** və ya tarixi də adlandırırlar. Başqa sözlə desək, eəmiyyətə onun quruluşu baxımından statikada (sükunətdə) baxsaq struktura onun dinamikası, dəyişməsi və inkişafının təhlili ilə tamamlanacaqdır. Cəmiyyətin inkişafının müasir prosesual təhlili əsaslı şəkildə işlənib hazırlanmış anlayışlar aparatına əsaslanır. Hal-hazırda sosial tədqiqatlarda "proses", "fəaliyyət", "dəyişkənlik", "inkişaf", "tərəqqi", "tənəzzül", "inkişaf amili", "təkamül", "inqilab" və s. terminlərdən geniş istifadə olunur. Bu anlayışların qısa məzmununa nəzər salaq.

**Proses** - sosial sistemlərdə, yəni qruplarda, institutlarda, bu sistemin digər elementlərində vahid dəyişkənlik seriyasıdır. Proseslərin müxtəlif növləri mümkündür; (daxili) şəxsiyyət, məsələn insanın öz biliyini artırması, öz- özünü təkmilləşdirməsi prosesi; adamların qarşılıqlı münasibətlərində baş verən proseslər, məsələn, onların razılığa gəlmədən münaqişəyə qədər və əksinə inkişafı; sosial birlik daxilində və onlar arasında olan dəyişiklik; bütövlükdə cəmiyyət struktumnu əhatə edən proseslər. Proseslərin inkişafına digər yanaşma da mövcuddur. Məsələn, həm konstruktiv, inteqrasiya, adamları birləşdirən, yaxınlaşdıran prosesləri və ya əksinə, dağıdıcı, ayıran, rəqabət və münaqişə yaradan prosesləri ayırmaq olar.

Ən sadə proses, cəmiyyətin **fəaliyyət göstərməsidir** - bunu deyərkən cəmiyyətdə mövcud struktur və münasibətlər çərçivəsində onun gündəlik fəaliyyəti ilə bağlı olan dönmə, qayıtma qabiliyyətli dəyişiklik nəzərdə tutulur.

**Dəyişiklik** deyərkən cəmiyyət, və ya onun ayrı-ayrı hissələrində və onların xassələrində kəmiyyət xarakteri

kəsb edən daxili yenidən yaranmanın başlanğıc mərhələsi başa düşülür.

**İnkişaf** - tez-tez baş verən dəyişiklik hadisəsidir, tədrici kəmiyyət dəyişikliyi dərin, geridönməz keyfiyyət sıçrayışına gətirib çıxarır, strukturun elementlərində və onların arasındakı münasibətin zənginləşməsində və ayrılmasında təzahür edir.

**Tərəqqi** - inkişaf prosesinin rəngarəngliyindən biridir. O sistemin mövcudluğunun dəyişkən şəraiti və sistemli quruluşun mürəkkəbləşməsi prosesi ilə bağlı sistemin həyat qabiliyyəti və uyğunlaşmasının yüksələn səviyyəsində təzahür edir. Tərəqqiyə əks olan **tənəzzüldür** - sistemin özünü inkişaf etdirməsinin və ətraf mühitin şəraitini mənimsəməsi imkanlarının daralması, sistemin sadələşməsi və dağılmasıdır.

Cəmiyyətə dəyişmə və inkişaf baxımından yanaşma aşağıdakı əsas problemləri yaradır: cəmiyyətdə baş verən dəyişikliyin istiqaməti; inkişafın mənbəyi və ya amilləri; istənilən inkişafın baş verdiyi formalar göstərilən problemlərdən birincini nəzərdən keçirərkən nəzərə almaq lazımdır ki, təbiətdə və cəmiyyətdə mövcud olan daimi, istiqamətləndirici dəyişikliyi heç də bütün filosoflar qəbul etmirlər. İnkişafın sadədən mürəkkəbə, ibtidaidən aliyə doğru getməsini yalnız **determinist - filosoflar** (Spinoza, Hegel, Marks) qəbul edirlər. Digərləri, **indeterministlər və ya volyuntaristlər** (Şopenhauer, Nitşe və b.) inkişafın istiqamətləndiyini inkar edirlər, insan psixikasmdakı kor, şüursuz başlanğıcın rolunu mütləqləşdirilər və sosial inkişafın qabaqcadan bilinməyən, qaydasız xarakterini onunla bağlayırlar. Yalnız tarixi inkişafın istiqamətliliyi deyil, həm də onun üstün mütərəqqi xarakterini qəbul edən detemıinist variant da vardır - onlar optimist

gümanlara əsaslanırlar, qeyd edirlər ki, ictimai inkişafın yeni səviyyəsi lazım gələndə daha yetkin olur; başqa sözlə desək, inkişaf sosial həyatın daim yaxşılaşmasına aparır.

Tərəqqi problemi ətrafında çoxsaylı diskussiyalar aparılmış və bu gün də aparılmaqdadır. Filosofların müəyyən hissəsi həyatın iqtisadi, siyasi, elmi sahələrində tərəqqini qəbul edirlər, lakin mənəviyyat, əxlaq sahələrində olan tədrici inkişafa ehtiyyatla yanaşırlar - yalnız dünya müharibələri, inqilablar, digər sosial sarsıntılar dövründə əxlaqi tənəzzül müşahidə olunmur, həm də əxlaqi təkmilləşmənin dəqiq meyarının olmaması da bu cür yanaşmaya əsas olmuşdur. Bununla belə cəmiyyətdə baş verən dəyişikliyin istiqamətliyinin, qanunauyğunluğunun və mütərəqqiliyinin qəbul olunmasından asılı olmayaraq cəmiyyətdə və insanlar arasındakı münasibətdə daim yenilik yaradan bu dəyişiklik faktının özü əksər filosoflar tərəfindən qəbul olunur, belə ki, adamların mənəvi həyatının zənginləşməsini, elmi biliklərin inkişafını, texniki tərəqqini, müxtəlif insan təla- batlarmm təmin olunması imkanlarının artmasını inkar etmək çətindir.

Cəmiyyətdə baş verən dəyişikliyin **mənbəyi, amilləri və ya səbəbləri** haqqında məsələlər də olduqca vacibdir.

Bu səbəblərdən biri **cəmiyyətin fəaliyyət göstərməsinin** gündəlik prosesi ilə, adamların yeməyə, geyimə, mənzilə və s. olan təlabatlarmı ödəmək üçün göstərdikləri fəaliyyətlə bağlıdır. Doğrudur bu gündəlik fəaliyyət zahirən eyni cür, yeknəsək görünür, bununla belə onun gedişində adamların vərdiş və bacarıqları tədricən təkmilləşir, onların fəaliyyət növləri daha da rəngarəng olur. Cəmiyyətin, sosial qrupların tərkibləri dəyişir.

Onilliklər və yüzilliklər ilə ölçülən bu təbii və uzun prosesin gedişində adamlar yaşa görə dəyişir, doğulur və ölürlər, nəsillər bir - birini əvəz edir, cəmiyyətin strukturunda və quruluşunda kifayət qədər dərin dəyişiklər baş verir.

Gündəlik fəaliyyət prosesindən başqa ictimai həyatda cəmiyyət həyatının əsasına toxunan daha ciddi, köklü dəyişiklik aşkar olunur. Onlar güclü **reformasiya və inqilabi hərəkatın** təsiri altında baş verir.

Sosial fəlsəfədə cəmiyyətdə olan keyfiyyət dəyişikliyinin səbəbləri haqqında müxtəlif fikirlər söylənilir. Bəziləri onu ictimai həyatın təbii əsaslarında olan dəyişikliklə, iqlim, bioloji və hətta kosmik amillərlə bağlayırlar (Monteskyö, Vemadski, Qumilyev, Çijevski). Qumilyevə görə, "canlı maddələrin enerjisi bizim, bizim nəslin bədəninə keçmiş, gələcək nəslə də keçəcəkdir: rəngarəng entogenezə təkan verəcəkdir.

Digərləri bu səbəbləri iqtisadiyyatda, əmək alətlərində, istehsalın təşkili metodlarmdakı dəyişiklikdə axtarırlar (Marks, Roston). Amerikalı sosioloq Roston bəşəriyyətin beş yüksəliş mərhələsinin bir-birini əvəz etməsinin bilavasitə mənbələrini sənayenin, texnikanın, bütövlükdə təsərrüfatın inkişaf səviyyələri ilə bağlamışlar.

Nəhayət, üçüncülər sosial dinamikanın mənbəyini mənəvi sahədə, cəmiyyətin mədəni həyatındakı dəyişiklikdə görürdülər (Hegel, Kont, Sorokiz). Kant belə hesab edirdi ki, "ideyalar dünyanı idarə edir, dəyişir və ya başqa sözlə desək... bütün sosial mexanizm həqiqətən də əqidəyə, inama əsaslanır."

Doğrudan da bu amillərdən hər biri gömnür, ictimai həyatın inkişafına müəyyən təsir göstərir, lakin onların sosial rolu spesifıkdir, müxtəlif dəyərlidir. Həm də təbii.

iqtisadi və mədəni amillər bir-biri ilə sıx bağlıdırlar. Məsələn, doğuşun artması (təbii - bioloji amiljcəmiyyətin inkişafına səbəb olur - bu istehsalın, təhsilin, tibbi xidmətin inkişafı ilə uyğunlaşmış halda ola bilər - belə uyğunlaşma olmasa bu hal yoxsulluğun, xəstəliyin və sosial sabitliyin pozulmasına gətirib çıxara bilər.

Şübhəsiz ki, **texniki ixtiraların və elmi kəşflərin** rolu da olduqca böyükdür. İxtiralar və buxar maşınının və digər texniki yeniliklərin geniş tətbiqi XVII-XIX əsrlərdə sənaye inqilabına gətirib çıxarmışdır, sonra bu sənayenin burjuaziyanın, proletariatın inkişaf etdiyi yeni tip sənaye cəmiyyətinin yaranmasına səbəb oldu. XX əsrin tarixi təcrübəsi göstərir ki, əmək alətlərinin inkişafı, texnikanın tərəqqisi, avtomatlaşnianm və yüksək texnologiyanın sənaye istehsalına tətbiqi ictimai həyatın bütün sahələrini, müxtəlif insan birliklərini - böyük və kiçik - strukturunu, mədəniyyətini, təlabatlarmm ödənilməsi üsullarını dəyişir.

**Mədəniyyətin, onun** bölgüsünün rolu da böyükdür. Belə ki, XIX-XX əsrlərdə Qərbi Avropa və ABŞ-dan elmin nailiyyətlərinin Yaponiyaya gətirilməsi ona gətirib çıxardı ki, qısa vaxt ərzində, ikinci dünya müharibəsindəki məğlubiyyətinə baxmayaraq, Yaponiya dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrildi.

Təəssüf ki, tarixdə əks xarakterli nümunələr də olmuşdur. Hakim sinfin həyata keçirdiyi tədric etmə siyasəti, ölkəyə yeni ideyaların daxil olmasının qarşısının alınması, yeni məhsulların gəlişinə qoyulan qadağalar, güclü dövləti viranh vəziyyətə salmış, nəticədə sosial struktur və institutlar köhnəlmişdir. Tarixin təcrübəsi göstərir ki, mədəni yaradıcılıq sahəsindəki mütərəqqi ideyalar öz vaxtını artıq yaşamır, institutlar və sosial strukturlar hakimiyyət fomrası üçün təhlükə yarada bilər.

Ona görə də mədəniyyətin inkişafı prosesi daim hakimiyyət və dövlət tərəfindən nəzarət altında olur. Elmin və texnikanın, ədəbiyyatın, ineəsənət və fəlsəfənin inkişafının çoxəsrlik tarixi hakimiyyətin yeni ideyaların və nəzəriyyələrin təsdiq olunmasına müqavimət göstərməsinin - darvinizm, genetika, kibernetika, eyni zamanda texniki ixtiralar (buxar maşını, kompüter), incəsənətdə olan yeni meyllərin şahidi olmuşdur.

Bununla belə ictimai inkişafın nəzərdən keçirilən **sosial ilkin şərtlərinin əhəmiyyətinə** baxmayaraq nəzərə almaq lazımdır ki, bütün sosium, onu təşkil edən adamlar **Yer planetinin biosferası tərkibinə daxil olan canlı orqanizmdir.** Digər canlı varlıqlar kimi adamlar cazibə qüvvəsinin, elektromaqnit sahəsinin, kosmik şüaların, istilik dinamikasının təsirinə, hələ axıra qədər öyrənilməmiş nazik enerjilərin şüalanmasının təsirinə məruz qalırlar. İnsan və təbiətin dərin vəhdətinin duyulması qədim filosoflar tərəfindən Dao (Lao-Tszı), Loqos (Platon), Allah (isa peyğəmbər) anlayışlarında ifadə olunmuşdur. Lao-Tszıya görə Dao hər şeyin vəhdətidir, hər şeyin əsası, köküdür, bütün şeylərin anasıdır. “İnsan yerdən, yer göydən (kosmosdan), göy isə daodan, dao özü isə özü-özündən asılıdır”. Əksər fəlsəfi təlimlərdə sosial həyatın hərəkətverici qüvvəsi kimi təbii amilləri də qeyd edirlər. Vemadski biosfera və neosfera haqqında təlimində canlı və cansız maddələrin maddi - enerji vəhdətini əsaslandırır. Qumilyev bioritm problemini araşdırmış, xüsusən etnogenez ritminə diqqət yetirmiş, etnosların yüksəlişini, depresiyasmı və tənəzzülünü tədqiq etmişdir. Dünya fəlsəfi fikrinin nəticələrini nəzərə alan müasir sosial fəlsəfə ictimai həyatdakı dəyişiklik və inkişaf proseslərinə bu və ya digər dərəcədə təkan verən yalnız

ictimai - iqtisadi, siyasi və mədəni deyil, həm də təbii amilləri tədqiq etməyi qarşısına vəzifə qoymuşdur. Bütün bu amillər tədricən yığılaraq - istər aydın görünən istərsə də şüurumuz üçün sirli qalan - güclü reformist və inqilabi hərəkat yaradır, müxtəlif tarixi dövrlərdə dərin sosial dəyişikliyi sürətləndirir.

**Sosial hərəkat** müəyyən məqsədlərə çatmaq üçün az və ya çox dərəcədə mütəşəkkil fəaliyyət göstərən adamların kollektiv, birgə fəaliyyətlərində ifadə olunur, o iştrakçılarm sosial kollektiv birgə fəaliyyətlərində ifadə olunur, o iştirakçıların sosial vəziyyətini dəyişdirir, sosial hərəkatın ümumi, daha aydın səbəbi adamların əsas təlabatlannm, ilk növbədə iqtisadi təlabatlarmm ödənil- məməsidir. Məhz bunlar adamlarda narazılıq, narahatlıq, psixi gərginlik, sosial gərginlik yaradır. Bu narahatlıq zahirən adamlar arasında əlaqələrin yaranmasında, kəskin diskusiyalarm qurulmasında, yaranmış vəziyyətlə bağlı düşüncələrin bölüşdümlməsində təzahür edir. Narahatlıq, qıcıqlanma vəziyyəti, böyük və kiçik birlikləri, bütöv etnosları, sinifləri, dövlətləri əhatə edə bilər. Sosial münaqişəni yaradan bu vəziyyət - müəyyən sosial hərəkatın başlanğıe nöqtəsidir, o sosial sarsıntıların yaxınlaşdığını göstərir. Bu vəziyyət istər-istəməz əksər xalqları əhatə edir, bəzən o inqilabi partlayışın astanasında dayanan **inqilabi vəziyyət** adlanır. Ancaq inqilab sosial hərəkatın formalarından biridir. Onun xarakteri rəngarəngdir və ilk növbədə onun məqsədləri, eyni zamanda tətbiq olunan metodlar və ona cəlb olunan adamların sayı ilə müəyyən olunur. Bu əsas meyarla da reformist və inqilabi hərəkat bir-birindən fəqlənir.

**Reformator hərəkatı** adətən qismən məhdud dairəni və birlikləri əhatə edir. Onlar qurulmuş sosial qaydalar

çərçivəsində baş verir və ona görə də hakimiyyət tərəfindən represiya və zorakılıqla üzləşmir. Bu cür hərəkat dəyişikliyə nail olmağa çalışır - məsələn, mövcud qanunvericiliyin yaxşılaşdırılması vasitəsi ilə, dövlət büdcəsinin nəzərdən keçirilməsi və s. Bu həmkarlar, maarifçi, ekoloji, milli və digər hərəkatlardır. Ancaq öz dinc, leqal xarakterinə baxmayaraq reformist hərəkat tədricən dərin ictimai dəyişikliyə gətirib çıxara bilər.

**İnqilabi hərəkat** öz başlanğıcında reformist hərəkata oxşaya bilər. Ancaq inkişaf etdikcə onda fərqlər yaranır; narahatlıq və gərginlik yaşayan geniş kütləni, bütöv ictimai sinifləri əhatə edir, özünü qoruma və maddi təminatın köklü, əsaslı təlabatma toxunur, güclü motivlər yaradır. Bu hərəkatın iştirakçıları çox vaxt hakimiyyət tərəfindən represiyalara və təqiblərə məruz qalırlar. Bununla belə onların əsas fərqləri-məqsəd və metodların- dadır. Onların məqsədi dinc islahatlar deyil, güc tətbiq etməklə mövcud ictimai-siyasi quruluşu devirməkdir. Yeni siyasi hakimiyyətin əsası olmağa qadir olan geniş miqyaslı, kütləvi xüsusi təşkilatların olması zərurəti buradan irəli gəlir. İnqilabi hərəkat qalib gəldikdən sonra yeni qaydalar həyata keçirir, cəmiyyətin quruluşunu kökündən dəyişir, sinfi strukturda irəliləyişə nail olur, ictimai institutların tərkibini dəyişir, dəyərlər, adətlər, davranış nümunələrdə dəyişiklik edir. Bütöv siniflərin, xalqalarm iştirak etdiyi inqilablar cəmiyyətdə daha böyük dəyişiklik edir - 1789-cu il Fransa, 1917-ci il Rusiya, 1949-cu il Çin inqilabları. XX əsrin ortalarında, xüsusən İkinci dünya müharibəsindən sonra Asiya, Afrika və Latın Amerikasının bir sıra ölkələrində baş verən inqilablar nəticəsində daha böyük ictimai dəyişiklik olmuşdur. Sosial inqilab vaxtı keçmiş qaydalara, totalitar rejimə qarşı

istiqamətlənəndə o nəinki özünü doğruldur, həm də çox zəruridir. Ancaq cəmiyyətin inkişafının yalnız inqilabla bağlı olduğunu düşünmək yanlış fikirdir. Ancaq nəzərə almamaq olmaz ki, tarixi təcrübəyə əsasən inqilablar istənilən dağıdıcı ictimai münaqişə kimi həmişə baha başa gəlir. Onlar adətən günahsız insanların əzabları və ölümü ilə müqayisə olunur. Təcrübə göstərir ki, pis düşünülmüş və tələsik həyata keçirilən islahatların da ağır nəticələri olur. Bununla belə müasir inkişaf etmiş ölkələrin bütün iqtisadi və mədəni nailiyyətləri sosial inqilabdan daha çox sosial demokratik islahatlar hesabına olmuşdur. Təcrübə daha çox inandırır ki, təbiətdə olduğu kimi sosial prosesdə də üstünlük inqilabi yox, inkişafın təkamül üsülundadır. Beləliklə, öz-özünə inkişaf edən sistem kimi cəmiyyətin sosial-fəlsəfi təhlili onun həm statikasını, həm də dinamikasını nəzərdən keçirməyi tələb edir və ya başqa sözlə desək, cəmiyyəti təşkil edən qrupların, təşkilatların, institutların və cəmiyyətdə geden fasiləsiz təkamül və inqilabi dəyişiklik və inkişaf proseslerini özündə birləşdirir.

### §3. Cəmiyyət və bəşəriyyət, millət və ailə

Cəmiyyət müəyyən xalqlar çoxluğunun vahid-bütöv sistemidir. Cəmiyyət müxtəlif səviyyəli birliklə bağlı olan adamalrdan ibarət hansısa tamdır, bu da onları birgəlik adlandırmağa imkan verir, bu isə adamların kifayət qədər yüksək inkişaf səviyyəsində mümkündür. Qeyd etmək lazımdır ki, “cəmiyyət” sözünün kökü ”cəm”dir, bu da məhz təklərin, hansısa təkcələrin birləşməsini ifadə edir. Cəmiyyətdən əvvəl “sürü” olmuşdur, bu adamların birliyinin ibtidai forması üçün xarakterikdir. Birliyin bu forması lap qədim dövrlərə, əcdadlarımızın sürü halında

yaşadığı dövrə gedir. ''Sürü" sözü heyvanlara şamil edilir - onların əksəriyyəti sürü halında yaşayırlar - sonradan "birlik" sözü, birgə yaşayış tərzinə şamil edilərək işlənmişdir. Hal-hazırda "birlik" həm də insan birliklərinə- müxtəlif böyüklükdə olan insanların birgə yaşayışına şamil edilir. Məsələn biz elmi birliklər, jurnalistlər birliyi ifadəsini işlədirik. Adi şüurda eəmiyyət anlayışı çox vaxt hansısa sayda olan adamların müəyyən məqsədlər üçün birləşməsi mənasında işlədilir: idman cəmiyyəti, rəssamlar cəmiyyəti və s. Ancaq bu cəmiyyətlər və ya birliklər bütöv dövləti yaradan çoxluq kimi cəmiyyətin bir hissəsidir. Bu anlayışı və onun əks etdirdiyi reallığı məhz bu mənada nəzərdən keçirəcəyik. S.Frank yazırdı ki, "sosial fəlsəfənin problemi cəmiyyətin nə olması, onun insan həyatındakı əhəmiyyəti, onun həqiqi varlığı, onun bizim qarşımızda qoyduğu öhdəliklər məsələsidir".

**İnsan cəmiyyəti-canlı sistemin inkişafının adi mərhələsidir, onun əsas elementləri - adamlar, onların birgə fəaliyyətlərinin formaları, ilk növbədə əmək, əmək məhsulları, mülkiyyətin müxtəlif formaları və onun uğrunda əsrlər boyu gedən mübarizə, müxtəlif institutların məcmusu, ruhun, mənəvi aləmin zərif sahələridir.** Cəmiyyətə həm də öz-özünü təşkil edən davranış sistemi, adamların bir-biri ilə və təbiətlə qarşılıqlı münasibəti kimi də baxmaq olar; axı cəmiyyət əvvəlcədən bütün kosmosla yox, bu və ya digər konkret cəmiyyətin yerləşdiyi ərazi ilə bilavasitə qarşılıqlı münasibət kontekstinə daxil olmuşdur. Biz bütövlükə insan cəmiyyəti haqqında danışanda bütün adamları özündə birləşdirən birliyi nəzərdə tuturuq. Bunsuz cəmiyyət yalnız müəyyən sayda, ayrı-ayrı yaşayan, maraqları, məqsədləri, fəaliyyətləri, əmək fəallıqları, ənənələri.

iqtisadi, mədəni və s. birlikləri olmayan adamlar demək olardı. Adamlar cəmiyyətdə yaşamaq üçün yaranmışlar. Cəmiyyət anlayışı yalnız indi yaşayan adamlar yox, həm də bütün keçmiş və gələcək nəsli, yəni bütün bəşəriyyəti əhatə edir. Bütövlük sistemində adamların birliyi onun üzvlərinin iradəsindən asılı olmayaraq yaşayır. İnsan cəmiyyətinə heç kim ərizə ilə qəbul olunmur; doğulmanm təbii faktı labüd olaraq insanı ictimai həyata daxil edir. Cəmiyyət özünün inkişafının istənilən mərhələsində - çoxsahəli birlikdir, adamların çoxsaylı rəngarəng əlaqə və münasibətlərinin mürəkkəb birləşməsidir. Cəmiyyətin həyatı onu təşkil edən adamların həyatı ilə başa çatmır. Cəmiyyət ayrı-ayrı adamların yarada bilmədiyi maddi və mənəvi dəyərlər yaradır: texnika, müəssisə, dil, elm, fəlsəfə, incəsənət, əxlaq, hüquq, siyasət və s. İnsan münasibətinin, fəaliyyətinin mürəkkəb və ziddiyyətli yumağı, kələfi və onların nəticələri bütöv kimi cəmiyyəti təşkil edir. İnsan cəmiyyəti - öz daxilində parçalanmış bütöv sistemdir, o, tarixən yaranmış və fasiləsiz olaraq inkişaf edir, keyfiyyət dəyişikliyinə uğrayaraq ardıcıl mərhələlər keçir. Bu sistemin ümumi qanunauyğunluğu bu sistemə daxil olan istənilən elementin xarakterini müəyyən edir, onun inkişafını istiqamətləndirir. Deməli bu sistem- dəki hər bir element tək kimi yox, tama aparan əlaqə kimi başa düşülməlidir.

**Cəmiyyət - vahid sosial orqanizmdir, daxili təşkili bu quruluş üçün xarakterik olan müəyyən, çoxcəhətli əlaqələrin məcmusu kimi özünü göstərir, onun əsasında son anda insan əməyi dayanır.** İnsan cəmiyyətinin sturukturu istehsalı və onun əsasında yaranan istehsal, iqtisadi sosial münasibətləri yaradır - o da özündə sinfi, milli, ailə münasibətlərini, siyasi münasibətləri və nəhayət

cəmiyyət həyatının mənəvi sahəsini - elm, fəlsəfə, din, incəsənət, əxlaq və s. birləşdirir. Ümumiyyətlə cəmiyyət olmadığı kimi, ümumiyyətlə insan da yoxdur, adamların ictimai təşkilinin konkret formaları var. Konkret eəmiyyətlərin bütün fərqlərinə baxmayaraq istənilən eəmiyyətin onu heyvan sürüsündən və ümumiyyətlə cəmiyyətdən fərqləndirən xüsusiyyətləri vardır.

Cəmiyyət onu təşkil edən komponentlərin və onların sıx qarşılıqlı əlaqəsinin dəqiq ayrılığına malikdir. İqtisadiyyat, siyasət, hüquq, elm, əxlaq, incəsənət, ailə, din bir- biri ilə əlaqəsiz mövcud deyildir. Bütöv cəmi}q/ətsiz, adamlarsız, bir-biri ilə qırılmaz bağlı olan ictimai münasibətlər sistemi nə iqtisadiyyat, nə siyasət, nə də əxlaq ola bilməz. Bütün bunlar - vahid qanun hədləridir, onlar vahid qanunla yaşayırlar. Siyasi təşkilatlar, iqtisadi əlaqələr (istehsal, bölgü, istehlak), hüquq normaları, ailə- nigah münasibətləri, qohumluq əlaqələri, milli və digər münasibətlər adamları birləşdirir və kollektivdə adamları bir-birinə qarşı qoyur. Adamlar daimi olaraq öz həyatlarının ietimai istehsalı prosesini həyata keçirirlər: maddi nemətlər istehsalı, ictimai varlıq kimi adamların istehsalı, adamlar arasındakı münasibətlərin müvafiq tiplərinin istehsalı, ünsiyyətin formaları və ideyaların istehsalı cəmiyyətdə ən müəmmalı şəkildə təsərrüfat, iqtisadi dövlət, ailə münasibətləri, eyni zamanda ideoloji xarakterli bir sıra hadisələr bir-birinə qarışır. Bütün bunlar qarşılıqlı fəaliyyətdə olur, dəyişir, mümkün çalarlar kəsb edir və bütövlükdə ictimai həyat axını yaradırlar. Bu axının həyati əsası - əməkdir. Adamların şəxsi və ümuminsanı taleyi daim axır və gündəlik fəaliyyətlə - əməklə bir-biri ilə bağlanırlar. Məhz cəmiyyət çox və ya az normal varlığın və adamların inkişafının əsas şərtidir.

çünki tok adam təbiətin kortəbiiliyi qarşısında vəhşi heyvanlar və “simasız adamlar” qarşısında gücsüzdürlər. İnsanın şəxsi azadlığına hədd qoyan cəmiyyət bununla belə müəyyən normalar, adətlər, hüquqlar və öhdəliklərlə bu azadlığı məhdudlaşdırır. Ancaq bu məhdudluq cəmiyyət üzvlərinin maraqlarından irəli gəlir.

Nəhayət bir daha qeyd edək ki, **cəmiyyət - adamların həyatı fəaliyyətinin bütöv sistemidir.** Cəmiyyət deyərkən, adamların əlaqəsi nəzərdə tutulur-hər biri ayrılıqda qarşılarına qoyduqları məqsədə çatmaqda çətinlik çəkdiklərindən nəticə əldə etmək üçün birləşirlər. Cəmiyyət elə tamdır ki, burada ayrı-ayrı adamlar iştirak edir, onun tərkibinə daxil olurlar, ancaq heç də adamların riyazi cəmi və ya mexaniki kütləsi deyildir. Biz cəmiyyət deyərkən məhz adamların birliyini nəzərdə tuturuq, bununla belə insan cəmiyyətini müxtəlif heyvan birliklərindən - bu instinkt, bioloji tələbatdan doğan birlikdir- fərqləndiririk. Didroya görə, cəmiyyət insana digər heyvanlar üzərində hakimiyyət verir. Cəmiyyətin hesabına insan quruda olan hökmranlığı ilə qane olmur, öz hakimiyyətini dəniz də şamil etməyə can atır. Bu ittifaq onu həblərlə xəstəliklərdən ayırır, qocalığına kömək edir, kədərli olanda təsəlli verir. Cəmiyyət insana öz taleyi ilə mübarizə aparmaq üçün güc verir. Ünsiyyətcilliyi məhv etməklə siz insan nəslini dağıtmış olursunuz-həyatın və onun bütün xoşbəxtliyinin qorunması bundan asılıdır.

Vətəndaş cəmiyyəti ideyasına da diqqət yetirmək lazımdır. **Vətəndaş cəmiyyəti-insan hüququnun müdafiəsi prinsipinin fəaliyyət göstərdiyi hüquqi dövlət sistemində yaşayan ayn-ayn adamların vəhdətidir. Həqiqi vətəndaş cəmiyyətində hər bir adam məqsəd və ali dəyərdir.** Lakin insan haqqı adamlarla münasibətsiz öz

tələbatlarmı ödəyə, öz məqsədlərinə tam cəfa bilməz. Bütün bunlar hamı üçün yaxşı olmağın zəmri şərtidir. Axı hər bir adamın həyatı ictimai birliklə bağlıdır, deməli tam adamların qarşılıqlı münasibətidir, elə bir əsasdır ki, bütün vətəndaşların azadlığı onun üzərində qurulur, onların təbii bacarıqları inkişaf edir. Adamların birliyində bütün irrasional, qanunauyğun və təsadüfü olanlar təzahür edir. Hegelə görə, vətəndaş cəmiyyəti - onun üzvlərinin birliyin sərbəst subyekti kimi öz tələbatları və təhlükəsizliklərini və mülkiyyətlərini qorumaq üçün hüquqi quruluş əsasında birləşmələridir. Vətəndaş cəmiyyətinin əsas prinsipi bu cəmiyyətin tam hüquq və ləyaqətinin təmin olunmasıdır. Bütöv maraqlarla şərtlənən fərdi məqsəd və maraqlar sistemin hərtərəfli asıhlğmı yaradır, belə ki, hər bir adamın həyatı, onun hüquqları yaşamaqları ilə sıx bağlıdır, onun yaxşı yaşamaq hüququ vardır. Fərdlərin bu sistemi vətəndaş cəmiyyətidir. Vətəndaş cəmiyyəti qismən inkişaf etdikdən sonra adamlar (müəyyən ölçüdə) öz təbii azadlıqlarından imtina etdilər və vətəndaş dövlətin hakimiyyətinə tabe oldular. Bu onlara düzgün və dəyərli üstünlük verdi-onlar yalnız vətəndaş başlanğıem yaranmasına ümid etməyə başladılar. Məhz buna görə onlar dövlətə eəmiyyətin bütün üzvlərinin gücünü verdilər, bu da qanunların yerinə yetirilməsini təmin etməyə imkan verir. Bu düzgün və dəyərli üstünlük - bunun üçün adamlar birləşmişlər - başqa adamlar tərəfindən ola biləcək ziyandan qarşılıqlı qorunma, onların zorakılığına müqavimət, cinayətkarlığa görə cəzalandırmaqdır.

**Cəmiyyətin sosial strukturu haqqında da qısa məlumat vermək lazımdır.** Cəmiyyətdə öz mövqeyinə, maraqlarına və cəhdlərinə görə müxtəlif sosial siniflər var. Onlann mənşəyi ilə bağlı müxtəlif fikirlər söylənilmişdir.

Bəziləri onların mənbəyini ya mənəvi keyfiyyətlərdə, adamların psixoloji xüsusiyyətlərində, ya da onların dini baxışlarında, dünyagörüşlərində (Feyerbax demişkən saraydan fərqli olaraq adamlar mağaralarda başqa cür düşünürlər) digərləri bunu yaxşı yaşamaqda (yerindən asılı olmayaraq adamlara maddi istehsal sistemində) görürdülər. Hegelə görə, siniflər var-dövlətin, gəlirin qeyri- bərabər bölünməsindən yaranır, əməyin xarakterindən doğur: əkinçiliklə məşğul olan kəndlilər fabrik və zavodlarda, tikintidə çalışan fəhlələr, məmurlar sinfini təşkil edən xidmətçilər, əqli əməklə məşğul olan adamlar- alimlər, rəssamlar, incəsənət xadimləri. Çox təəssüf ki, uzun illər bu adamlar "təbəqə" kimi qəbul olunmuşdur. Əslində ziyalılar əqli əməklə məşğul olan ictimai sinifdir. Son vaxtlar müasir sosial fəlsəfi ədəbiyyatlarda "orta sinif" ifadəsi işlənməyə başlamışdır. **Cəmiyyətin sosial strukturu tarixən yaranmış, nizamlı, bütöv kimi cəmiyyətin müxtəlif elementləri arasındakı əlaqə və münasibətlərin - ayrı-ayrı fərdlər və insanların tarixi birlik formaları (qəbilə, tayfa, xalq, millət, ailə) siniflər, sosial qruplar - nisbətən möhkəm sistemidir.**

Cəmiyyətin sosial strukturunu anlamaq üçün əsas əhəmiyyət kəsb edən anlayışlar istehsal üsulu, əmək bölgüsünün iqtisadi sahəsi anlayışlarıdır. Dünyaya gələn ardıcıl olaraq mürəkkəbləşən təhsil və tərbiyə mərhələləri keçən cəmiyyət üzvləri öz intellektual, əxlaqi və digər göstəriciləri ilə oxşar deyillər, ən əsası isə öz meylləri, maraqları, xarakterləri, həyatı və məişət imkanları ilə fərqlənirlər. Hər bir gənc vətəndaş qanunauyğun və ya təsadüf nəticəsində müəyyən ictimai qrupa düşür. İqtisadi baxımdan ağıllı qurulan və mənən inkişaf etmiş cəmiyyətdə S.Simonun dediyi "Hər kəsə bacarığına, hər kəsə

işinə görə” prinsip həyata keçirilməlidir. Təəssüf ki, bu prinsip yalnız ideal cəmiyyətdə reallaşa bilər. Ən ağıllı cəmiyyətdə, belə bərabərlik yalnız qanun qarşısında ola bilər, yerdə qalanlar da qarşısında bərabərsizlik vardır; adamlar doğulandan əql və xarakterlərinə görə bərabər deyillər. Onlardan biri bir cür fəaliyyətə, digərləri başqa fəaliyyətə olurlar. Cəmiyyətə - bütövün marağı üçün - bütün fəaliyyət növləri həm bütövlükdə cəmiyyət, həm də ayrı-ayrı adamlar üçün lazımdır. Siniflər, sosial qruplar arasındakı sərhədlər nisbidir, dəyişkəndir. Bu o deməkdir ki, bu və ya digər sinfin, bu və ya digər sosial qrupun hər bir nümayəndəsi üçün ictimai miqrasiyanın real imkanları mövcuddur.

**Vahid - tam sosial planetar sistem kimi bəşəriyyəti** də nəzərdən keçirmək məqsədəuyğundur. Heç bir cəmiyyət qürurlu şəkildə tək real mövcud ola bilməz. Bu və ya digər cəmiyyət nə qədər cox inkişaf edirsə digər cəmiyyətlərlə də bir o qədər çox mümkün olan əlaqəyə girir, daha mürəkkəb əlaqə və münasibətlər qurur. Bu artıq ibtidai icma quruluşunda olmuşdur. O vaxtdan birlik və cəmiyyətlərin qarşılıqlı əlaqəsi güclənir və mürəkkəbləşir. Adamlar həm özlərinin bioloji təbiətləri, həm əvvəlcədən daxil olduqları Kainat qanunlarına, həm də ictimai mahiyyətlərinə görə vahid “planetar ailənin” üzvləridirlər. Bizim hər birimiz bu və ya digər dövlətin vətəndaşı kimi eyni vaxtda həm də sözün geniş mənasında bütün bəşəriyyətin vətandaşlarıyıq. Axı müəyyən mənada o dünya birliyində baş verənlərə görə mənəvi məsuliyyəti öz çiyinlərində daşıyır. Bu və ya digər adamın mənəvi həyatı nə qədər zəngin olsa da, onun əqli nə qədər yüksək inkişaf etsə də o bəşəriyyətin mənəvi dəyərlərini mənimsəməsə, başqa xalqların və tarixin xəzinəsindən bəhrələnməsə

istər-istomoz məhdud olacaqdır. Bəşəriyyətin zənginliyi bu və ya digər cəmiyyətin, xüsusən də ayrı-ayrı adamların zənginliyindən daha genişdir. Xalqlar öz məğzlərinə görə dünyada birlikdə yaşamağa “köklənibər”. Bəşəriyyətə bir yerə toplanmış varlıqların (çox güman ki, şərti olaraq) məcmusu kimi baxmaq olar: insan yaş dövrlərini keçərək böyüdüyü kimi, bəşəriyyət də nəsillərdən keçərək yetkinləşir. İnkişafın ümuminsani prinsiplərinə tabe olan hər bir cəmiyyət, hər bir millət öz böyüməsində öz xüsüsi mədəniyyət yolunu keçməli olur, bu vaxt bu və ya digər dərəcədə ən ümumi dünya qarşılıqlı əlaqəsinə girir. Cəmiyyət həyatının və vahid tam kimi bəşəriyyət tarixinin məğzi ətrafında düşünərkən etiraf etməliyik ki, bizim həyatımızda yalnız sağ olanlar yox, həm də bəşəriyytin tarixi axarında qavranılmağa layiq olan ölənlər də böyük rol oynayırlar V.Solovyova görə, onlar yaşayanlar üzərində ikiqat üstünlük təşkil edirlər: həm onların aydın surətləri, həm də gizli himayələri - mədəni kütlə mexanizimi kimi təsir edir - onun vasitəsi ilə “axirət dünyada uyuyan əql” şəxsi və Yerdə tərəqqi edən bəşəriyyət tarixinə təsir edir. Ölümdən sonrakı varlığın həm obyektiv, həm də subyektiv mənası yaşayanların mövcudluğu ilə sıx vəhdətdə müəyyən olunur. Beləliklə həm ölənlər, həm də yaşayanların öz xüsusi realıqları var: birincilərdə o daha layiqli və mülayimdir, ikincilərdə isə o daha azad və açıq hərəkətdə, fəaliyyətdədir. Aydındır ki, onların hər ikisinin həyatının yetkiliyi onların hərtərəfli qarşılıqlı əlaqələrindədir: biz ölənlərin ruhu qarşısında baş əyirik, onları xatırlayırıq, onlar isə öz qoyduqları böyük və xırda işlər hesabına bizim təcrübəmizi zənginləşdirirlər, bizə həyatı və işlərimizi öyrədirlər. Dünya qayda qanununun mənası və ən ümumi tarixin yekunu bəşəriyyətin bu

tamlığındadır, bu iki başlanğıcın birliyi hər şeyi yerinə qoyur. Bu çox çətin məsələdir - məsələni vaxtilə Kant ortaya qoymuş Solovyov isə onu inkişaf etdirmişdir: bəşəriyyət nəslinin vəhdəti və hər bir canlıda ilahinin qığılcımının olması bütün dövrlərdə mütəfəkkirləri düşündürmüşdür. Ölülərin nə vaxtsa diriləcəyi məsələsi bütün dövrlərdə birmənalı qarşılanmışdır.

Beləliklə, bəşəriyyət adlananm tərkibinə sağlardan çox ölülər daxildir. Bu fikir təsəlliverici və humanistdir: o bəşəriyyətin ümumi nailiyyətlərini təşkil edən əqli və əxlaqi dəyərlərin varisliyini xatırladır: o həm də onu xatırladır ki, artıq öz dünyasını dəyişənlər öz ideyaları, öz işləri, öz nümunələri ilə bizim aramızda yaşamaqda davam edirlər. Bu fikir əlbəttə yalnız bütün bəşəriyyətin yolunu işıqlandıran böyük dahilərə aid deyildir, o həm də ciddi, sadə fikir və işləri ilə, öz həyatlarını yaşayan əxlaqi və sosial ideyalı öz varlığının məhdud səviyyəsində saxlayan adamları da aiddir. Tarix müəyyən mənada xalqların müqəddəs kitabı bir növ onların varlığının və fəaliyyətinin güzgüsü, kəşflərin və davranış prinsiplərinin əsası, əcdadlarımızın varisliyə çağırışı indinin tamamlanması, dərk olunması və gələcəyə nümunədir. Humanist düşünən adamlar əmindirlər ki, hec bir xalq başqasına nisbətən qeyri-adi əqlə malik deyildir. Dünyada elə bir xalq yoxdur ki, o tarixə layiqsiz, heç bir əhəmiyyəti olmayan xalq kimi daxil olsun. Eyni zamanda xüsusi seçilmiş xalqlar da yoxdur. Belə demək olar: bəşəriyyət bizim ikimizdədir, biz isə bütün bəşəriyyətin daxilindəyik. Hər bir xalqın tarixində də bir dövr olur ki, bu vaxt həmin xalq vətəninin rifahı naminə dünya təcrübəsindən istifadə edir. Vətənə olan məhəbbət bütün dünyaya olan məhəbbətlə birlikdə olur. Biliyin işığını mənimsəyən xalq öz qonşularına ziyan

vumıur. Dövlətlər nə qədər savadlı, maarifçi olarlarsa, onlar bir o qədər öz ideyalarını bir-birinə ötürə bilirlər, ümumdünya əqlinin gücü və fəaliyyəti bir o qədər artmış olur. Ən yeni əlaqə, kütləvi informasiya vasitələri hesabına xalqların ünsiyyəti xeyli artmışdir, hamı dərk edir ki, bəşəriyyət vahid tamdır. İndi tam qətiyyətlə demək olar ki, "Şərqsiz Qərb, Qərbsiz isə Şərq yoxdur". Elm və texnikanın nailiyyətləri dünyanın yalnız çoxşəkilli yox, həm də bütöv olduğunu dərk etməyə imkan verir, maddi və mənəvi dəyərlərin mübadiləsi üçün yeni imkanlar açır. Həm də heç vaxt demək olmaz ki, guya Qərb həmişə ixtiralar etmiş. Şərq isə onu qəbul etmişdir. Tərəqqi daha çox ikitərəfli hərəkəti olan küçəyə oxşayır: müxtəlif saatlarda maşın axını müxtəlif olur. Məhz Şərqdən avropalılar ərəb rəqəqmini götürmüşlər, riyaziyyatın, astronomiyanın, tibbin nailiyyətləri də ərəblərin adı ilə bağlıdır: çinlilər dünyaya kağız, kompas, barıt vermişlər. XVIII əsr fransız maarifçi - ensiklopedistlərini qədim Çin filosofu Konfutsinin ideyaları ruhlandırmışdır - o hələ 2500 il əvvəl demişdir ki, "jen" (humanistlik, insanilik) ictimai münasibətlərin əsası olmalıdır. Qarşı tərəfdən də hərəkət başlanır: XIX əsrin ikinci yarısında uzun müddətli təcriddən əl çəkən Yaponiya Qərbdən elmi-texniki nailiyyətləri götümrəyə başladı. Eyni zamanda Tokuqava dövrünün yapon gül qravyuraları Avropa rəssamlarını ruhlandırmış. Qərb rəssamlığına meydan oxumuşdur.

Hətta qədim dünya belə bəzi müasirlərimizin düşündüyü kimi bir-birindən ayrı olmamışdır. Xalqlar arasında ünsiyyət olmuşdur, onlar bir-birini bizim təsəvvür etdiyimizdən daha çox zənginləşdirmişdirlər. Məsələn, İndoneziyaya gələn Robindranat Taqor "Mən hər yerdə Hindistanı görürəm, ancaq onu tanıya bilmirəm"

demişdir. Taqorun əsərlərində başqa xalqlardan götürülmüş, öz xalqının tarixinə uyğunlaşdırılmış çox şeylər var. Qədim hind eposları olan Mahabharata və Ramayana indoneziyalılarm etik və estetik zövqlərinə böyük təsir göstərmişdir. Məşhur Tac Mahalın tikintisində iştirak edən İsfahan və Səmərqənd ustaları sonradan Teymurun paytaxtı Səmərqəndi şöhrətləndimıişlər. İranlı xalçaçıların əl işləri bütün dünyaya yayılmışdır. Meksikadakı katolik kilsəsini Kordovadan olan sənətkarlar tikmişlər - vaxtilə İspaniyanın cənubu mavrlarm hakimiyyəti altında olmuşdur, bu da onların mədəniyyətində öz izini qoymuşdur. Hətta dinlər - xiristianlıq və islam - belə qarşılıqlı təsirdən qaça bilməmişlər: min illər ərzində ən böyük xiristian məbədi Konstantinopolda olan Sofiya kilsəsi olmuşdur. Konstantinopolu işğal edən Sultan ikinci Mehmet göstəriş vermişdir ki, onu məscidə çevirsinlər. Binaya iki minarə quraşdırıldı, örtüyü dəyişdirildi; sonra burada - şəhər artıq İstanbul adlandı - Göy məscid tikildi və o Sofiya kilsəsinin arxitektur incəliyini mənimsədi. Bu mədəniyyətlərin qarşılıqlı sürətdə bir-birini zənginləşdirməsinin nümunəsidir. Böyük incəsənət məhz ona görə böyükdür ki, o yalnız milli deyil, həm də dini sərhədləri dəf edə bilir.

Çoxşaxəli olan bəşəriyyət həm də bütövdür - o lap çoxdan, XXI əsrdən xeyli əvvəl belə olmuşdur. Sivilizasiya təhlükə ilə üzləşəndə biz onun köklərinin necə sıx bir-birinə bağlı olduğunu hiss etdik. Bəşəriyyət dinc, işgüzar, xeyirxah dialoqa maraqlıdır, o müharibələrə son qoyulmasını, elmi-texniki və mədəni tərəqqini, təbiətə yaxşı münasibəti, həyatının normal olmasını istəyir. Bizim planetdə bütün xalqlara yer var, biz sülh, əmin-amanlıq şəraitində yaşamağa, vəziyyətimizi yaxşılaşdırmağa can atmalıyıq. Xalqların və millətlərin birləşməsinə, onların

qırılmaz əlaqələrinin yaranmasına kömək edən hər şey bəşəriyyət üçün edilən xeyixahlıqdır. Biz hamımız Kainatın övladlarıyıq, hamımız sosial varlıq dalğasında bir gəmidə - Yer adlı səmtə üzürük.

**Millət ideyasını, millətin mahiyyətinə** xüsusi yer ayırmaq məqsədə uyğundur. **Millət - tarixən formalaşan insanların birlik formasıdır, adətən ərazi və iqtsiadi həyat dil və mənəvi xüsusiyyət, ümumiliyinə, hansısa səviyyədə bioloji özünəməxsusluğa, eyni zamanda xarakter, temperament və adətlərin özünəməxsusluğuna malikdir.** Bütün insanlar mədəniyyətin özünəməxsusluğunda təzahür edir. Dil birliyi bu dildə danışanları bağlayır, onların eyni qəlbli, eyni fikirli olmasını təmin edir, bu da millətin bütün nümayəndələri bir-birini yaxşı başa düşürlər, bu da insanın daxili dünyasını yaxınlaşdırır, bunun əsasında da millətin real əlaqə və vəhdəti yaranır. Məsələ ondadır ki, dil şüurla xüsusi münasibətdədir, yalnız ünsiyyət vasitəsi olmayıb, həm də idrak, dərketmə vasitəsidir; dil millətin ruhu, qəlbidir. Dil bir növ "ənənə arabasıdır", hissləri, simvolları, emosional assosasiyaları, milləri **qoruyur** və onları nəsildən-nəslə ötürür. Dil xarakterin özünəməxsusluğunun ən dərin və əsas ifadəsidir. Millətə daxil olan adamların xarakterlərinin müxtəlifliyi onların birləşməsinə mane olduğu kimi həm də millətlərin xarakterlərinin müxtəlifliyi bəşəriyyətdə bütün xalqların real vəhdətinə mane ola bilmir. Bu birlikdə millətin mənəvi həyatı, onun mədəniyyəti millətin subyektlərinin şəxsi gücləri hesabına möhkəmlənir, onun hər bir subyekti isə yaradıcılıq enerjisinin mənbəyini ümummilli mənəvi yüksəlişdən alır. Bu yolda öz millətinə olan məhəbbət ona olan inamla, onun üstünlüyünə olan inamla, onun ruhunun yaradıcılıq gücü, onun çiçəklənməsi

ilə birləşir. Dindar, mömin adam inanır ki, Allah onun millətindən üz döndərməyib, bütün çətinliklər keçicidir, nailiyyətlər, uğurlar isə əbədidir. Öz millətini sevib ona inanmamaq olmaz; çünki vətən canlı mənəvi gücdür, orada yaşamaq adamda elə hiss yaradır ki, o insanların yaxşı olmasını istəyir, hər şeyi düz edir, gələcək nəslin yaxşı yaşamasını istəyir.

Sosial fenomen olan millətin mənbəyi hansılardır? ibtidai sürünün əvəzinə gələn ilk spesifik insanların birlik olması **qəbilədir - adamların qan qohumluğuna əsaslanan birliyidir.** Qəbilə qan qohumluğu tellərilə birləşən, kollektiv əməklə məşğul olan, ümumi mənafeləri birgə mühafizə edən, eyni zamanda dil, əxlaq, ənənə ümumiliyilə birləşən adamlar qrupudur. Bir neçə qəbilənin birləşməsi **tayfam - etnik birlik və adamların sosial təşkilini** yaradır. Onun xarakterik xüsusiyyətləri: ümumi ərazi, qonşu tayfalarla təbii sərhədlərinin olması, iqtisadi ümumilik, tayfa üzvlərinin bir-birinə qarşılıqlı köməyi - bu adətən özünü kollektiv ovda göstərir, dil, şüur birliyi, mənşə ümumiliyi və qan qohumluğu əlaqələri. Sonradan tayfa ittifaqlarının yaranması, tayfalararası təsərrüfat və mədəni əlaqələrin güclənməsi, hərbi toqquşmalar, əhalinin miqrasiyası, adamların sayının artması, xüsusi mülkiyyətin yaranması - bütün bunlar tədricən tayfaların qarışmasına, əvvəlki qan qohumluğu əlaqələrinin ərazi əlaqələri ilə əvəz olunmasına və insanların yeni tarixi birlik formasının - xalqın yaranmasına gətirib çıxannışdır. Xalq adətən öz mənşəyi və dili ilə yaxın olan bir neçə tayfanın birləşməsindən yaranır. Xalq həm də bir tayfanın digərinin ərazisini işğal etməsi nəticəsində müxtəlif dilli tayfaların birləşməsindən yaranmışdır. Xalqın formalaşması prosesində onun ayrı-ayrı hissələri arasında

əlaqələrin güclənməsi ilə bu etnik komponentlərdən birinin dili xalqın ümumi dilinə çevrilmiş, qalan tayfa dilləri isə ya dialekt rolu oynamaq səviyyəsinə düşmüş, ya da tamam yox olmuşdur. Ərazi, mədəni, müəyyən mənada iqtisadi ümumilik formalaşdı - çox vaxt bunlar sabit xarekter daşımırdılar. **Xalq - insanların dil, ərazi, iqtisadi və mədəni birliyidir.** Yəni birliyin göstəricilərindən biri onların yığcam adlarının siması idi. Dövlətin yaranması xalqın möhkəmlənməsinə kömək etmişdir. Lakin tarixi inkişaf prosesində xalq nə ərazi, nə də dil baxımından dövlətə uyğun gəlməyə bilər.

Kapitalist münasibətlərinin inkişafı ilə iqtisadi və mədəni əlaqələr güclənir, milli bazarlar yaranır, təsərrüfat dağınıqlığı ləğv edilir, xalqın ayrı-ayrı hissələri bir milli bütövlükdə birləşir, xalq millətə çevrilir. Xalqdan fərqli olaraq, **millət - insanların daha sabit birliyidir.** Millət həm bir-birilə qohum olan tayfa və xalqlardan, həm də müxtəlif tayfa, irq və xalqlardan yaranmışdır. Millətin tarixi keçmişinin, yaranmasının və inkişafının xüsusiyyətləri, onun iqtisadi quruluşunun, mədəniyyətinin, coğrafi və iqtisadi mühitinin məişətinin, ənənəsinin özunə- məxsusluğu - bütün bunlar millətin mənəvi simasında öz izini qoyur, xüsüsi milli xarakter formalaşdırır. Tarix sanki özünəməxsus milli "çalarlar", "tikir", onun nadirliyi qiymətsizdir. Kim bilir, bəlkə də, xalqlar, millətlər və nəsillər çox vaxt tarixi əql adlandırılan hansısa sirrli tarixi harimoniyanı saxlamaq üçün nadirdirlər. Millətlər bir- birindən əsasən ümumdünya tarixi rollarına görə fərqlənirlər: hər bir millət dünya sivilizasiyası və mədəniyyəti xəzinəsinə öz töhvəsini verir. Millətin yalnız xüsusi - onu başqa millətlərdən fərqləndirən - yox, həm də ümumi - onların bəzilərini birləşdirən - xüsusiyyətləri

var: bir dildə danışan, ümumi ərazidə yaşayan və ya öz tarixlərində, mədəniyyətlərində, məişətlərində, psixologiyalarında ümumi çox şeyləri olan müxtəlif millətlər vardır. Tarixin əqli millətlərin böyük rəngarəngliyini yaratmışdır, onların hamısı bir yerdə sosial varlıq bağında olan xüsusi gül dəstəsidir, burada hər bir millətin öz xüsusi ətri var, sanki öz aurası ilə ətrafa nur saçır. Bu mənada milləti şəxsiyyətlə müqayisə etmək olar. Əgər adamlar və xalqlar başqa milli xüsusiyyətləri özlərinki kimi dəyərləndirsələr bundan bəşəriyyət xeyli udardı.

**Milli özünüdərk və millətçilik** məsələlərinə də toxunmaq yerinə düşərdi. Milli münasibətlərin ümumi iqlimi daha çox hər bir adamın vətəndaş yetkinliyindən və öz xalqının bütövlükdə cəmiyyətin köklü maraqlarını dərindən başa düşməsindən aşlıdır. Bu sivil özünüdərketmənin əsasıdır. **Milli özünüdüşünmə öz xalqının, həm də onun mədəni özünəməxsusluğunu - onun adətini, ənənəsini, inamının mənəvi vəhdətinin dərk olunması hissidir.** Kim öz milləti haqqında danışırsa, o ilk növbədə öz xalqının mənəvi vəhdətini nəzərdə tutur. O ayrı-ayrı subyektlərin həyatdan getməsinə və nəsillərin dəyişməsinə baxmayaraq qalanları nəzərdə tutur.

Millət çoxları üçün olan nə isə birləşmədir. Millət öz oğullarını və qızlarını, babalarını və nənələrini, ata və anaları birləşdirən böyük ailədir, hər bir ruh canlı əlaqə ilə onunla bağlıdır. Heç kəs başqa millətin nümayəndəsi ola bilməz (doğrudur, bunu formal edirlər: ancaq bu nəyə görəsə, kimin üçünsə edilən görüntüdür). Milli özünü dərk düşünmənin böyük nizamlayıcı və özünü təsdiq eden gücü var: o millətə daxil olan adamları birləşdirir, bir növ müdafiə mexanizmi kimi çıxış edir, onun bütövlüyünü qoruyur, başqa xalqlar və millətlərlə əlaqə qurur, milli

dəyərlərə zidd olan baxışlara müqavimət göstərir. Milli özünü düşünmə millətin ümümi mədəni yüksəlişinə kömək edir, başqa millətlərlə münasibətini tənzimləyir. Tərbiyə və təhsil prosesində insanda milli incəsənətə olan zövqü, milli adət və əxlaqa, ənənələrə hörməti formalaşır, öz tarixində olan qəhrəmanlardan qürür duyur, nəsildən- nəslə ötürülən mədəniyyətə hönnətlə yanaşmaq formalaşır. Bütün bunlar xalqlar və millətlərin xüsüsi bilik kimi formalaşmasına kömək edir. Vətənpərvərliyin tərbiyəvi əhəmiyyəti böyükdür: bu adamlarda bəşəriyyət haqqında idealları qavramağı, öz milli dəyərlərinə hörmətlə yanaşmağı inkişaf etdirən məktəbdir. Hər bir millət bütövlükdə ictimai-tarixi həyatın ictimai subyekti kimi öz qabaqcıl üzvlərinin simasında öz ictimai maraqlarını, öz mədəniyyətinin, adətlərinin özünəməxsusluğunu, öz inkişaf prespektivlərini dərk etmək səviyyəsinə qədər yüksəlir. Onun öz pisixikası, hisslərinin təzahür formaları, şəxsi ləyaqət hissi və dəyərli qüruru var. Ancaq hər şeyin öz ölçüsü olmalıdır. Subyektin şüurunun həddindən artıq özünə istiqamətlənməsi eqoizmə apardığı kimi, milli şüurun da həddindən çox milli həyata yönəlməsi nəticədə millətçiliyə gətirib çıxara bilər. Əgər millət fakt kimi heç kim tərəfindən hədd olunmursa, millətçilik qəbul olunmayan yoluxucu xəstəlikdir - bu gün o daha qorxuludur.

**Millətçilik - milli cqoizmin təzahür formasıdır.** Millət və millətçilik müxtəlif anlayışlardır, bu şəxsiyyət və onun kəskinləşmiş eqoizmidir. **Millətçiliyin əsasını milli üstünlük milli istisnalıq ideyası təşkil edir, bu da milli təkəbbür yaradır.** Hər bir millət şəxsiyyət kimi-əslində bu belədir - öz milli özünəməxsusluğunu, öz müsbət və mənfi tərəflərini başa düşən şüura malikdir. Hər bir millətin adamlarının şüurunda bu millətin vətəndaşlarının

çatışmamazlığmdan və üstünlüyündən, xarekterindən və davranışından söhbət gedəndə həm özünü ittiham edəndə, həm də özünü tərifləyəndə eyni cür düşünür. Hər bir millətə çoxlu mövhumat, yanlış ideyalar, kortəbii milli instinklər və intuisiyalar xasdır. Millətin və xalqın öz Vətəninə tənqidi yanaşan nümayəndələri də onu tərifləyənlər qədər onun mənəvi inkişafında iştirak edirlər. Ümummilli humanizm milli istisnahğm başlanğıcına qarşı dayanır: dünyada heç bir millətin bu cür özünü
qiymətləndirmə hüqüqü yoxdur. Onun iqtisadi və mədəni naliyyətləri nə qədər üstün olsa da hər hansı seçilmişlərə və ya üstünlüklərə iddialı ola bilməz. Hər bir xalqın öz tarixi mövqeyinə görə özünün və bəşəriyyətin qarşısında müəyyən tarixi öhdəlikləri var. Hər bir adamda mütləq vətənpərvərlik hissi olmalıdır. Bu və ya digər xalq yetkin milli həyat yaşamaq istəyirsə digər millətlər dənizində millətlərdən biri kimi qala bilməz - o özünü yetkinləşdir- məli, fövqəlmilli maraqla özünü yükləməli, bəşəriyyətin ümümdünya tarixi həyatına qoşulmalıdır. Böyük təbii və tarixi göstəriciləri olan istənilən xalq özü-özünə qapılmamalı, yalnız özü üçün yaşamamalı, öz milli “Mən”i ilə qürrələnməməli, ən pisi özünü başqa millətdən üstün tutmamalıdır. Bu həqiqi böyüklükdən və şəxsi milli ləyaqətdən imtina etmək, özü-özündən uzaqlaşmaq, özünün bəşəriyyətin ümümdünya-tarixi tərəqqisindəki rolunu itirmək deməkdir. Sadə bir həqiqət var: xalqın milli özünü düşünməsi nə qədər yüksək olarsa onun milli ləyaqət hissi bir o qədər yüksək olacaqdır, başqa xalqlara bir o qədər məhəbbət və hörmətlə yanaşacaqdır. İstənilən xalq başqa xalqlara hörmətlə yanaşsa, o mənən bir o qədər yetkinləşəcəkdir: bəşəriyyətə qarşı həqiqi məhəbbət olmayanda vətənə qarşı da həqiqi məhəbbət ola bilməz.

**Məhəbbot, nigab, ailə** problemlərinə də toxunmaq vacibdir. Ailə sosial varlıq zəncirində əsaslı halqadır, axı hər bir millət və dövlət ayrı-ayrı ailələrdən yaranmışdır: ailə dövlətin birinci bazisidir. **Ailə ər-arvadı və onların varislərini birləşdirən cəmiyyətin ilkin özəyidir.** Ailədə ayrıca şəxsiyyət özünün bəzi xüsusiyyətləri ilə üzv kimi hansısa tama daxil olur. Ailənin həyatı cinsi və əməyin yaş bölgüsü ilə, ev təsərrüfatını aparmaqla, məişətdə adamların bir birinə köməyi ilə, ər-arvadın şəhvani həyatı, nəslin artırılması, deməli, xalqın təkrar istehsalı, yeni nəslin tərbiyəsi, eyni zamanda əxlaqı, hüquqi və psixologi münasibətlərdə bağlıdır. **Ailə şəxsiyyətin fərdi təşəkkülünün mühüm alətidir:** məhz burada uşaq ilk dəfə ictimai həyata qoşulur, onun dəyərlərini, davranış normalarını, təfəkkür tərzini, dilini mənimsəyir. Başqa cür desək, ailə-tərbiyə, həyat təcrübəsinin ötürülməsi, məişət müdrikliyi məktəbidir. Kişi və qadının yetkin nigah əlaqəsi birləşən cütlüyün bölgüsünü nəzərdə tutur, yəni onların elə əlaqəsi nəzərdə tutulur ki, onlar bir-birini inkar yox, tələb edirlər, hər biri digərində öz şəxsi həyatının tamamlığmı tapır. Yalnız belə olduqda ər-arvadın həqiqi birgə yaşayışından danışmaq olar. Şəxsiyyətlərarası uyğunlaşma problemi - çox incə və olduqca mürəkkəb problemdir. Ünsiyyətə girən adamlar (kommunikasiya, birgə əmək fəaliyyəti, təhsil, oyun vaxtı və ya səxsi münasibətlər prosesində) uyğun gəlirlər və ya az uyğunlaşırlar, bəzən isə heç uyğun gəlmirlər. **Şəxsiyyətlərarası uyğunlaşma - partnyorlarm ünsiyyət, birgə fəaliyyət və ya nigahdakı həyat vaxtı qarşılıqlı qəbul olunmaqlarıdır:** bu vaxt dəyər meyllərinin, sosial və əxlaqi mövqelərinin, zövqlərinin, temperamentlərinin, xarakterlərinin, emosional və intellektual səviyyələrinin və

əhval-ruhiyyələrinin, dünyagörüşlərinin əməyə olan münasibətlərinin və s. uyğunluğu nəzərdə tutulur. Kişi və qadın arasındakı münasibətdə, dostluq və məhəbbətdə bir sıra şəxsi keyfiyyətlər, məsələn, şəhvani qarşılıqlı zövq almağın mümkünlüyü-mühüm rol oynayır. Cinsi qarşılıqlı təminatın, onların bir- birinə uyğun gəlməsinin psixoloji incəliyi hər şeydən əvvəl qadının özünü kişiyə tam təhvil vermək istəyindən, kişiyə maksimum zövq vennəyindən, öz növbəsində kişinin qadın üçün buzları əritməsindən və ya hər birinin eqoistcəsinə maksimum özlərinin zövq almağa can atması, partniyomn qayğısına qalmaması ilə bağlıdır (yeri gəlmişkən qarşılıqlı məhəbbətin gücü məhz şəhvani zövqlə bağlıdır). Şəxsiyyətlərarası uyğunluğun meyarı partnyorların nəticədən, qarşılıqlı fəaliyyət prosesindən qane olmasındandır, qarşılıqlı anlaşma yaratmaq üçün xüssi şərait yaratmağa və daimi olaraq münasibətləri aydınlaşdırmağa can atmaq lazım deyildir. Şəxsiyyətlərarası uyğunlaşma vaxtı adətən qarşılıqlı simpatiya, hörmət, gələcək əlaqələrin yaxşı olacağına əminlik yaranır;yəni münasibət etibarlı hesab olunur. Kişilər adətən fəal, qadınlar isə səbrli olurlar. Qadınlarda intuisiya güclü olur - təbiət bunu qadınlara bəxş etmişdir; onların təbiətlərinə mürəkkəb və xüsusi incə məsuliyyət düşür. **Nigah - kişi və qadın arasındakı münasibətlərin hüquqi cəhətdən qanuniləşdirilməsidir.** Hegel yazırdı ki, "nigah adlanan müxtəlif cinsdən olan iki şəxs arasındakı əlaqə sadəcə olaraq heyvani əlaqə deyildir, bu sadəcə vətəndaş nigahıda deyildir, o ilk növbədə qarşılıqlı məhəbbət və inam əsasında yaranır, ər-arvadı bir tam halına salan mənəvi əlaqə ittifaqıdır".

**Məhəbbət** haqqmdada qısa danışmaq məsləhətdir. Nigahın emosional - psixoloji, əxlaqi və estetik əsası

məhəbbətdir, doğmdur, heç də bütün nigahlar bu hissə əsaslanmır, hətta nigahdan kənarda məhəbbət ola bilər. Ailə - məhəbbətin, hönnətin və qarşılıqlı qayğının təbii yuvasıdır. Məhəbbət qarşılıqlı olanda, biz bütöv, səmimi və sadiq sevəndə hər şey gözəldir. Arximed yaxşı demişdir: məhəbbət teoremdir, onu hər gün sübut etmək lazımdır. **Məhəbbət - fərdi seçilmiş hissdir, o dərin və möhkəm həyəcanda, fikrin və işin sevimli adama istiqamətlənməsində, azad, məqsədsiz ona doğru can atmaqda təcəssüm edir.** Sevmək həm də sevilmək istəyidir. Şəhvani baxımdan məhəbbət qarşılıqlı ələ almağı və qarşılıqlı verməyi nəzərdə tutur. Təbii, mənəvi fərqlər, hətta əksliklər məhəbbətdə vəhdət yaradır. Məhəbbət şəxsiyyətin formalaşmasına, onun özünü təsdiq etməsinə, onun yaradıcıhq imkanlarının üzə çıxmasına böyük təsir edir. Məhəbbətin əxlaqi təbiəti onun sadəcə olaraq digər cinsin varlığına can atmasına yox, onun şəxsiyyətinə, fərdi kcyfıyətlərinə meyl etməsindədir. Məhəbbətin estetik tərəfi onda təzahür edir ki, sevən adam onda həyat gücünü qaldırır, təxəyyülünü oyadır, zövq alma hislərini gücləndirir, uzun müddətli sevinc bəxş edir, tərəddüd əzabı verir, bir sözlə daxili ziddiyyətlər yaradır. Əsil qarşılıqlı məhəbbət özündə öz başqasını: "qadın kişini, kişi isə qadını" birləşdirir. Sevən insan qarşısındakı sevgilisini ilahiləşdirir, onun müsbət keyfiyyətlərini görür.

Məhəbbət, nigah və ailə insanın və insan birliyinin yaranması ilə yaranmış və inkişaf etmişdir. Doğrudur, tək nigah bəzi heyvanlarda da müşahidə olunur, ancaq bu instinkt və təbii seçmə yolu ilə baş tutur. Uzaq keçmişdə cinsi münasibət nizamsız xarakter daşımış və ailə olmamışdır. Hər bir qadın hər bir kişiyə və eyni dərəcədə hər bir kişi hər bir qadına məxsus idi. Buna yalnız heyvani

qısqanclıq mane olurdu. Sonradan cinsi münasibətlər validеynlər və uşaqların, daha sonra qardaş və bacıların ayrılması yolu ilə inkişaf etdi. **Qəbilə** quruluşunda qrup nigahı yarandı. Cinsi əlaqəyə girən kişi və qadın müxtəlif qəbiləyə məxsus idilər. Bir qəbilənin bütün qadınları o biri qəbilənin bütün kişilərinin potensial arvadları idilər. Ər arvad müxtəlif qəbilələrdə yaşayırdılar. Yalnız analarını tanıyan uşaqlar onun qəbiləsinə daxil olurdular və ya ananın ailəsinə - qadın xətti ilə yaxın qohumlarının ailəsinə daxil olurdular. Sonradan qrup nigahı çərçivəsində epizodik birgə yaşayış cüt nigahlara və möhkəm olmayan ailə cütlüklərinə gətirib çıxardı. Ər arvadın ayrı ayrı yaşaması tədricən ərin arvadın qəbiləsinə köçməsi ilə nəticələndi, lakin uşaqlar hələ də anasının nəslinə daxil idilər. Ailə cütlüyü hələlik öz təsərrüfatı ilə məşğul olurdular, ona görə də cəmiyyətin təsərrüfat özəyi hesab olunmurdu. Ailənin inkişafının bu ilkin mərhələsi üçün ər arvadın bərabər hüquqlu olmaları xarakterikdir, ana xaqanlığı dövründə isə qadınlar hökmranlıq etməyə başladılar: qadın əməyi (əkinçilik) kişilərin (ovçuluq) əməyindən daha effektli idi. Əməyin “kişi” növü (maldarlıq, ağır gücün və mürəkkəb alətlərin əkinçilikdə tətbiqi) cəmiyyətin və ailənin iqtisadi həyatında mühüm rol oynadıqdan sonra ana xaqanlığı -matriarxathğı ata xaqanlığı - patriarxathqla əvəz etdi. Patriarxal ailələr, onunla yanaşi monoqam ailələr yarandı. Qadın kişinin ailəsində yaşamağa başladı. Uşaqlar atanın adını və mülkünü daşımağa başladı.

**Xüsusi mülkiyyətin** və varislik institutunun yaranması ilə iqtisadi səbəblər üzündən qadınlardan möhkəm sadiqlik tələb olunmağa başladı. Həm dövlətin qanunları, həm əxlaq normaları, həm də din qadını ailədə

kişiyə tabe etdi. Ailənin möhkəmliyi qadının nigahı dağıtması huququndan məhram etməklə həyata keçirildi. Əgər əvvəllər qız özünə ər seçə bilərdisə və nigah qarşılıqlı meyl əsasında olurdusa indi artıq nigah münasibətləri çox vaxt alqı-satqı əsasında həyata keçirilirdi. Bununla yanaşı, uşaqların tərbiyəsi və taleyi ilə bağlı valideynlərin məsuliyyəti artmışdır, ər-arvadın qarşılıqlı öhdəlikləri, ailə ləyaqəti kimi əxlaqi keyfiyyətlər formalaşırdı. **Quldarlıq quruluşunda** qullar ailə qurmurdular, quldarlar arasında vahid nigah bəzən kişi üçün çoxarvadlığa gətirib çıxarırdı, qadınları isə fahişəliyə sövq edirdi. **Feodalizm şəraitinə** ailə münasibəti, nigah cəmiyyətin zümrə ierarxiyasmm təsiri altında idi. Ailədə kişinin hakimiyyəti güclənmişdir. Qadın təsərüffat işlərinə aparmaqda, uşaqları tərbiyə etməkdə azadlıq əldə etsələr də onların taleyi ağır idi. Feodalizm dövründə kəndli ailəsində kişi və qadın arasındakı münasibət ziddiyyətli xarakter daşıyırdı: iqtisadi maraq əmək əxlaqı, zəhmətkeş qadına, evdar qadına olan hörmətlə uyğunlaşdırılırdı. **Kapitalizm** ailənin inkişafını elə bir istiqamətə yönəltdi ki, ər-arvad cütlüyünün birgə həyatı dövründə qadınların iqtisadi müstəqilliyi təmin olunurdu: bəzi ölkələrdə qadınların özlərinə məxsus olan kapital üzərində hüquqları qorunur.

Adamların həyatının xeyli hissəsi məişət adlanan şəraitdə keçir. **Məişət - adamların yaşadığı, adətən istehsal və ictimai fəaliyyətlə məşğul olmadığı sosial mühitdir.** Məişət adamların ictimai həyatının tərkib hissəsidir və bütövlükdə cəmiyyətin digər tərəfləri ilə çoxlu tellərlə bağlıdır. Məişətdə insanın bir çox şəxsi keyfiyyətləri formalaşır, yaxşı məişətdən əhval-ruhiyyə, iş bacarığı və sağlamlıq asılıdır. Məişətdə insanlar yalnız

iustirahət etmir, həm də öz maddi və mədəni tələbatlarını yerinə yetirirlər. Məişət şəraitində və tələbatın ödənilməsi vasitələrində coğrafi mühitin, adətlərin əxlaqın, xalqların ənənələrinin, milli və ictimai fərqlərin, mədəniyyətin və s. izləri olur. Sivilizasiyanın səviyyəsi nə qədər yuxarı olarsa adamların ehtiyac duyduqları tələbat şeylərinin və xidmətlərinin assortimentləri də bir o qədər müxtəlif olacaqdır. Tarixi inkişaf gedişində adamlarda istehsal fəaliyyətinin, vərdişlərinin və üsullarının məcmusu formalaşdığı kimi, maddi və mənəvi dəyərlərin istehlakında da adətlər, zövq, vərdiş formalaşır, bu da adamların, millətlərin ictimai və peşə qruplarının həyat tərzini yaradır. Bəşəriyyət mağaradan yaxşı evlərə universitetlərə uzun yol keçmişlər. Gələcəkdə yüksək inkişaf etmiş cəmiyyətdə yetkin səhiyyə xidməti, ağıllı həyat tərzi yaranacaq, bu da adamların sağlam, uzun ömür, fiziki yetkinliyi təmin edəcəkdir.

**Demoqrafiya məsələsinə** də diqqət yetirmək vacibdir. Əgər cəmiyyəti bütövlükdə götürsək, demoqrafik sistemi təhlil etsək, ailə həyatına adamların istehsalı kimi baxsaq - bu demoqrafiyanın predmeti kimi qəbul oluna bilər. Demoqrafiya əhali artımını, onun dinamikasını, miqrasiyasını, demoqrafik vahid kimi ailəni öyrənir. **Demoqrafik sistem - demoqrafik münasibətdə birləşən nəsilləri artıran adamların məemusudur, o daxili tarazlığı, nisbi sabitliyi qoruyur.** Əhali artımına bir sıra ictimai-iqtisadi amillər təsir edir: iqtisadiyyatın, elmin, səhiyyənin, sosial təminatın, ictimai münasibətlər, mədəniyyət tipləri, xalqların psixologiyası, tərbiyəsi və adətlərin xarakteri - Yerdə əhalinin artım dinamikası maraqlıdır: eramızın başlanğıcında Yerdə əhali 275 milyon nəfər olmuşdur, 1850-ci ildə 1 milyard, 1900-ci

ildə 1.6 milyard, 1930-cu ildə artıq 2 milyard, 1976-ci ildə 4 milyard, 1987-ci ildə 5 milyard, 2000-ci ildə 6 milyarddan çox adam yaşamışdır. Lakin məhdud təbii ehtiyatlar şəraitində əhalinin sürətli artımı, Maltusun müasir tərəfdarlarının fıkirincə, cəmiyyət üçün fəakətli ola bilər; artıq indi o iki ölçü balaca ayaqqabı geyinmiş adama bənzəyir. İngilis iqtisadçısı Maltusa görə, əhali artımı həndəsi silsilə ilə, istehsalın artımı isə ədədi silsilə ilə gedir - bu da ərzaq çatışmazlığına gətirib çıxaracaqdır. Bu vahid prosesdir, heç bir xeyriyyə tədbirləri bəşəriyyət üçün bəla olacaq bu prosesi dayandıra bilməz. P.Erlizin hesablamaları da kədərlidir - yaxın gələcəkdə həm bir adama bir kvadrat metr torpaq düşəcəkdir. Bu ona gətirib çıxaracaq ki. Yer kürəsinin əhalisi başqa planetə köçməyə başlayacaqdır - yaxın gələcəkdə yalnız Günəş sistemində deyil, bütün Qalaktikada adamlar yaşayacaqdır. Adamlar Yerdə yalnız kosmik gəmi quraşdırmaqla məşğul olacaqlar. Görünür, Yer əhalisinin və onun ehtiyatlarının həddi var: planetimizin imkanları sonsuz deyildir.

Doğmdur bəzi alimlər güman edirlər ki, bizim planet 60 milyon adamı təmin edə bilər - axı hələ Dünya okeanlarının ehtiyatları da var. Çox vaxt uşaq ölümünün yüksək olmasına, müharibələrə əhalinin sürətli artımı və məhdud təbii ehtiyatlar arasındakı ziddiyəti həll etmək vasifəsi kimi baxırlar. Etiraf edək ki, Maltus əhali artımı ilə onun ərzaqla təmin olunması arasındakı ziddiyətli problemi düzgün qeyd etmişdir - ola bilsin ki, məhdud ərazidə yaşayan əhalinin artımı ehtiyatların tükənməsinə gətirib çıxarsın. Demoqrafik fəlakətin olmasından danışan Maltus demoqrafik sistemin fəaliyyətindəki bəzi amilləri nəzərə almamışdır: o, əhali artımı və onun təmin olunmasına birbaşa diqqət yetirmiş, çoxsaylı sosial-iqtisadi.

mədəni, dəyər normalarına və cəmiyyətdə olan meyllərə, demoqrafik proseslərin idarə olunmasına diqqət yetirməmişdir. Bundan başqa, əhali sayındakı dəyişiklik istər- istəməz iqtisadiyyatın vəziyyətinə, cəmiyyətin məhsuldar qüvvələrinin inkişafına, ictimai inkişafın sürətinə təsir edir. Əhali artımı problemi planetdə adamların sayının artması ilə məhdudlaşmır. Cəmiyyət təbiətlə qarşılıqlı təsirdə olduğundan demoqrafik problem də qlobal ekoloji problem kimi qəbul olunmalı və bu baxımdan araşdırmalıdır. Şübhəsiz ki, cəmiyyətin taleyi, onun təbiətlə qarşılıqlı münasibətləri üçün əhalinin sayı faktı ilə yanaşı onun optimal səviyyədə saxlanılması da mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, cəmiyyətin tərkib hissəsi olan millət və ailə, eyni zamanda bəşəriyyət tarxinin müasir mərhələsində kəskin problem olan demoqrafiya probleminə nəzər saldıq. Bu qlobal problemlərlə yanaşı ailə həyatında kişi və qadınların birgə yaşayışına, eyni zamanda məhəbbət məsələsinə də diqqət yetirdik. Cəmiyyət, bəşəriyyət, millət və ailə məsələləri bir-bir ilə sıx bağlı olan problemlərdir.

## Təkrar üçün suallar

1. Cəmiyyətin mövcudluğunun obyektiv ilkin şərti hansılardır?
2. “Böyük” cəmiyyətin “balacadan” fərqi nədir?
3. Cəmiyyətin təbiətini və mahİ3^ətini açmaq üçün istifadə olunan əsas anlayışlar hansılardır?
4. Özgəninkiləşdirmə, uzaqlaşma fenomenlərinin fəlsəfi mənası nədir?
5. Sistem kimi cəmiyyətin əsas elementləri (sahələri) hansılardır?
6. İctimailəşmə, institutlaşma, legitimləşmə fenomenlərinin mənası nədir?
7. Sistem yanaşma baxımından cəmiyyətin dinamikası nə deməkdir?
8. Vətəndaş cəmiyyətinin və dövlətin qarşılıqlı münasibətinin dialektikası nədir?
9. İnkişaf etmiş vətəndaş cəmiyyətinin əsas xarakteri hansılardır?
10. Dövlətin rolunun müasir anlamının və onun vətəndaş cəmiyyəti ilə münasibətinin xüsusiyyətləri hansılardır?
11. Cəmiyyətin statikası və dinamikası deyərkən nə başa düşülür?
12. Cəmiyyətin strukturunun əsas komponentləri hansılardır? Anarxizmin və totalitarizmin nəzəri mənbələri hansılardır?
13. Cəmiyyətin strukturunun xarakterini açan əsas anlayışların məzmunu; element, münasibət, subyekt, obyekt və s.
14. Həyatın ilkin əsası kimi adamların birgə fəaliyyətini xarakterizə edin.

15. İctimai həyatın əsas sahələrinin: maddi, mənəvi və s. özünəməxsusluğunu sadalayın.
16. Cəmiyyətin dinamikasını açan aşağıdakı əsas anlayışlar; proses, fəaliyyət, dəyişiklik, inkişaf və s. təhlil edin.
17. İctimai inkişafın istiqaməti probleminin məzmunu hansıdır? "Determinizm", "volyuntarizm" anlayışlarını təhlil edin.
18. İctimai inkişafın ictimai və təbii amillərini sadalayın.
19. İctimai həyatın dərin dəyişiklik amili kimi ictimai hərəkatı xarakterizə edin. Reformist və inqilabi hərəkatın xüsusiyyətləri hansıdır? Bu yönümdə Azərbaycan cəmiyyətinin müasir durumunu təhlil edin.
20. İnsan cəmiyyəti nədir? Vətəndaş cəmiyyəti ideyasının məğzi.
21. Cəmiyyətin sosial strukturunun mahiyyətini izah edin.
22. İnsanların tarixi birlik formaları hansılardır?
23. Milli özünüanlama və millətçilik.
24. Məhəbbət, nigah və ailənin mahiyyəti.
25. Demoqrafiya məsələsinin məğzi nədir?

## Ədəbiyyat


1. R.Ə.Mehdiyev. Fəlsəfə. Bakı, 2010.
2. Fəlsəfə (prof F.Ramazanovun red. ilə). Bakı, 2001.
3. Paşayev V. Fəlsəfə. Bakı, 1989.
4. Fərhadoğlu M. Fəlsəfənin əsasları. Bakı, 1996.
5. Flaeıyev Z. Fəlsəfə. Bakı, 2011.
6. Спиркин А.Г. Философия. Москва, 2002.
7. Abbasov Q., Hacıyev Z. Sosial fəlsəfə. Bakı, 2001.
8. S. Xəlilov. Lider, dövlət, cəmiyyət. Bakı, 2001.
9. Митрошенков О.А. Онтология гуманизма и тоталитаризма. Москва, 1993.
10. Резник Ю.М. Гражданское общество как феномен цивилизации. Москва, 1993.
11. Что такое общество. Москва, 1993.
12. Y.Əhmədov. Bəşəriyyət mənəvi süqut ərəfəsindədir. Bakı, 2011.
13. Y.Əhmədov. Ş.Quliyeva. Qloballaşma və inteqrasiya - mənəvi dəyərlərin cırlaşması. Bakı, 2011.

# II FƏSIL

## Cəmiyyətin həyatının təbii əsasları

Təbiət fəlsəfi düşüncənin predmeti kimi sosial fəlsəfənin ən aktual problemlərindən biridir. «Təbiət» anlayışı ən geniş anlayışlardandır. Təbiətin hadisələri və obyektləri - bu həm uzaq ulduzların işığı, həm ən xırda elementar hissəciklərin qarşılıqlı şəkildə bir-hirinə keçməsi, həm də geniş okeanlar və ona söykənən meşələr və çəmənliklər, böyük çaylardır. Bu həm də Yer üzərindəki həyatın sonsuz müxtəlifliyidir. «Təbiət» anlayışına bütün mövcudluq, bütün Kainat daxildir və bu mənada o materiya anlayışına yaxındır; demək olar ki, təbiət elə materiyadır, onun formalarmm bütün müxtəlifliyi ilə birlikdə götürülən materiyadır. Lakin çox vaxt bu anlayış daha məhdud və müəyyən mənada işlədilir və insan və bəşəriyyətin mövcudluğunun təbii şəraitinin məcmusu kimi qəbul olunur. Təbiətin öyrənilməsi onun cəmiyyətlə qarşılıqlı münasibəti aspektində aparılır. Hələ bir neçə onilliklər əvvəl onlar arasındakı real qarşılıqlı əlaqə çox vaxt bir tərəfli xarakter daşıyırdı. Bəşəriyyət yalnız təbiətdən götürür, onun ehtiyatlarını istismar edir və belə hesab edirdi ki, təbii zənginlik sonsuz və əbədidir. Ən yaxşı halda bu qarşılıqlı əlaqə poetik xarakter daşıyırdı:insan təbiət gözəlliyindən zövq alır, ona qarşı hörmət və məhəbbətlə yanaşmağa çağırışdan uzağa getmirdi. Bütövlükdə isə bəşəriyyət emosional çağırışdan uzağa getməmişdir. Cəmiyyətin mövcud olması və inkişafı üçün təbiətin nə dərəcədə əhəmiyyət kəsb etməsini anlamaq hələ formalaşmamışdır. Bu gün

cəmiyyət və təbiətin qarşılıqlı əlaqəsi problemi sırf nəzəri məsələ səviyyəsini keçmiş, gündəlik, həlli tələb olunan problem səviyyəsinə gəlib çatmışdır və bu problemin həllindən bəşəriyyətin gələcəyi asılıdır.

Hər hansı anlayışın mənasını daha yaxşı anlamaq üçün bu anlayışı ona əks olan anlayışla birlikdə təhlil etmək lazımdır. **«Təbiət»** anlayışına gəldikdə isə, ona əks olan **«mədəniyyət»** anlayışıdır. Mədəniyyət deyərkən, insan tərəfindən mənimsənilənlər, düzəldilənlər, dəyiş- dirilənlər, təbiət deyərkən isə, insana qarşı dayananlar, insandan asılı olmayaraq, öz əsasları və qanunları ilə mövcud olanlar başa düşülür. Mədəniyyət sanki insan tərəfindən yenidən dəyişdirilən təbiətdir, bu mənada insan fəaliyyətinə isə, təbiətin, təbii olanı mədəni, süni olana dəyişdirilməsi kimi baxmaq olar. Təbiətin bu cür yenidən dəyişdirilməsinə dünyada mövcud olmağın insan üsulunun məğzi daxildir. İnsan öz fəaliyyətində sanki özünü təbiətə qarşı qoyur; lakin eyni zamanda o həm də «ana - təbiətin» bir hissəsi və ondan törəmədir. İnsan təbiətlə yaşayır, bu o deməkdir ki, təbiət onun bədənidir, o ölməmək üçün öz daimi ünsiyyət prosesində onunla olmalıdır. «İnsanın fiziki həyatı kimi onun mənəvi həyatı da təbiətlə sıx bağlıdır» deyimi o deməkdir ki, təbiət özü-özü ilə qmimaz bağlıdır və insan onun bir hissəsidir. İnsan üçün təbiət yalnız onun mövcudluğunun təbii şəraiti, yaradıcı, qurucu fəaliyyəti üçün sahə deyildir. Bu münasibətin əsasında insan və təbiətin münasibətlərinin digər formaları yaranır və inkişaf edir. Bu dərketmə münasibətidir - müasir cəmiyyətdə ilk növbədə təbii elmlər (təbiət haqqında elmlər) formasında həyata keçir; bu həm də təbiətə qiymət vermənin tipləridir - bu xeyir, gözəllik, gəlir və buna oxşar anlayışlarla ifadə olunur. Nəhayət, müasir dünyada öz

tarixində ilk dəfə olaraq insan təbiətin bu və ya digər hissəsini qorumaq üçün cavabdehliyi öz üzərinə götürür - bu sahələr onun praktiki fəaliyyət orbitinə daxil olmuşdur və məhsuldar qüvvələrin inkişafı ilə o daha da genişlənir.

Beləliklə, insan, insan cəmiyyəti və mədəniyyət eyni vaxta həm təbiətə qarşı dayanır, həm də ona daxildir. İnsan və təbiətin qarşılıqlı münasibətindəki bu cür daxili ziddiyyət insan fikrinin tarixində yaranan insanın təbiətə münasibətinin müxtəlif mövqeyinin mənbəyidir. Təbiəti mədəniyyətdən geridə qalan, nə isə formalaşmamış, təşkil olunmamış, əqlə malik olmayan və buna görə də mədəniyyətə nisbətən xeyli aşağı olan kimi qəbul oluna bilər. Bu cür münasibət təbiətin insana tabe edilməsini, insanın təbiət üzərindəki hökmranlığının zəruriliyini əsaslandıran mövqe yaradır. Lakin digər mövqe də ola bilər-bu vaxt, əksinə, təbiət yetkinlik nümunəsi kimi, həm mədəniyyətdən, həm də insandan yüksək olan kimi başa düşülür. Bu mövqeyə görə, insan təbiətdən öyrənməli, ona tabe olmalıdır. Daha sonra təbiəti kortəbii qüvvələrin hökmranı kimi, insan əqlinə tabe olmayan xaos kimi də başa düşürlər. Ancaq təbiəti həm də ağıllı qanunların hökmranlıq etdiyi kimi də, təbii zərurətin zəfər çaldığı, insanlar arasında müşahidə olunan inadkarlığın, özbaşınalığın, şıltaqlığın olmadığı kimi də qəbul edirlər. İnsanın təbiətə baxışları bu dərəcədə ziddiyyətli, əks mövqelidir. Onların hər biri, eyni zamanda həm də mümkün olan çoxsaylı aralıq mövqelər insan fikrinin inkişafı gedişində, cəmiyyətin təbiətlə qarşılıqlı münasibətlərinin praktiki formalarında real olaraq öz təcəssümünü tapmışdır. Bundan başqa, cəmiyyət və təbiətin qarşılıqlı münasibəti haqqında məsələ, bu münasibətlərin necə qurulması ilə bağlı fikirlər bu gün də

böyük əks- səda yaradır, bu məsələ bəşəriyyət üçün ən əsas məsələlərdən birinə çevrilmişdir.

insanlar tarixən öz şəxsi mənafe və istəklərini hər şeydən üstün tutmuş, öz maddi təlabatlanmn ödənilməsi üçün lazım gələndə ən müqəddəs hesab olunanları belə tapdalamaqdan çəkinməmişdir. İnsan üçün məqsəd hesab olunan münasibətlərdən biri də onun təbiətə olan münasibətidir və təəssüf ki, bu münasibətlərin lazım olan səviyyədə qurulmaması yalnız ayrı-ayrı adamlar üçün deyil, bütövlükdə bəşəriyyət üçün olduqca qorxulu vəziyyət yaratmışdır. Bu güıı hər birimizin sabahı, bütövlükdə bəşəriyyətin gələcəyi, bu münasibətlərin tənzimlənməsindən, onun qaydaya sahnmasından asılıdır.

### §1. Təbiət anlayışı. Fəlsəfi fikir tarixində təbiət və cəmiyyətin qarşıltqlı münasibəti haqqmda məsələ

İlk baxışdan «təbiət nədir?» sualı hamı üçün asan görünür, ancaq suala cavab vermək məqamında hamı müəyyən çətinliklərlə üzləşir. Bu çətinliyi nəzərə alaraq fikrimizə təbiət anlayışına yığcam tərif vemıəklə başlamaq məqsədəuyğundur. Təbiətə müxtəlif yanaşmalar və ona verilən çoxsaylı tərifləri ümumiləşdirərək demək olar ki, təbiət sözün geniş mənasında bizi əhatə edən, öz sonsuz rəngarəng təzahürləri ilə özünü göstərən dünyadır. Təbiət özünü obyektiv reallıq kimi təzahür etdirir, insan şüurundan kənarda və ondan asılı olmayaraq mövcuddur. Sözün dar mənasında, özü də məhz «cəmiyyət» anlayışına münasibətdə təbiət deyərkən, cəmiyyət istisna olmaqla, cəmiyyətin mövcudluğunun təbii şəraitinin məcmusu kimi bütün maddi aləm başa düşülür. Təbiətə, onun mahiyyətinə fəlsəfi yanaşmada iki bir-birinə zidd olan nöqteyi-

nəzərləri ayırmaq olar. Onlardan biri təbiəti xaos, kortəbii qüvvələrin, təsadüflərin hökmranlıq etdiyi aləm kimi qəbul edir. Digərlərinə görə təbiətdə təbii zərurət və ciddi qanunauyğunluq hökm sürür. Xüsusi ilə vurğulamaq lazımdır ki, cəmiyyət və təbiətin qarşılıqlı münasibəti haqqında fəlsəfi baxışların təkamülü, əsasən, cəmiyyətin özünün inkişaf səviyyəsi ilə, eyni zamanda bu və ya digər vaxtlarda cəmiyyətdə hakim olan iqtisadi, siyasi, dini və digər baxışlarla müəyyən olunur.

Təbiətin ilk şərhi fəlsəfənin hələ kosmoqoniyadan (Kainatın, xüsusən dünyanın əmələ gəlməsi haqqında nəzərİз^ə) ayrılmasına qədər olmuşdur. Başqa sözlə, bütün mövcudluğun yaranması haqqında **mifdir.** Bu dünyanın yaranması, onun inkişafı haqqında elməqədərki mifık-dini təlimdir. Kosmoqonik deyimlər digər mifik poetik yaradıcılıq abidələri arasında xüsusi yer tutur. Onlar Kainatın necə görünməsini və burada insanın tutduğu yeri təsvir edirlər. Bu cür deyimlərin əsas daxili mənasını nə təşkil edir? - Qeyri-mütəşəkkil xaosdan nizama salınmış kosmosa keçid. Kosmoqonik miflərdə xüsusi yeri məkan və zamanda elə bir nöqtə təşkil edir ki, məhz bu nöqtədə yaradıcılıq aktı baş tutur. Məhz bu nöqtə «dünyanm mərkəzi» hesab olunur. «Xaos» yunan sözü olub «açıq görünən uçurum» kimi tərcümə olunur. Miflərdə bu sözün altında şeylərin qarmaqarışıq, formasız vəziyyəti nəzərdə tutulurdu. Qədim yunan kosmoqoniyasında xaos ilk vəziyyət, ilk şey kimi qəbul olunurdu və bundan dünya yığcam kosmos kimi əmələ gəlmiş və ya yaradanın əlləri ilə yaradılmışdır. Çox güman ki, xaos haqqında baxışlar ən ümumi, tamamlanmamış xarakter daşıyırdı. Xaos çox vaxt tamamlanmamış, müsbət tərifi, təyin olunması olmayan kimi təsvir edilirdi. «Hələ göy

yox idi. Mən onları Nunadan, qeyri-varlıqdan yaratdım. Mən qalxmağım üçün özümə yer tapmadım». Bu dünyanın yaranması haqqında qədim Misir mifində olan fərziyyədir. Başqa bir mətnə nəzər salın; «Bu hər şeyin naməlum vəziyyəti haqqında nağıldır; hər şey soyuq və sükunət halında idi; hər şey hərəkətsiz, sakit idi; göy məkanı boş idi... Adam, heyvan, quş, balıq, ağac, daş, mağara, ot, meşələr yox idi. Hələ birləşmiş halda olan heç nə yox idi. Hələ hərəkət edə biləcək heç nə yox idi. Hələ mövcud ola bilən, mövcud olacaq heç nə yox idi». Bu mənzərəni Mərkəzi Amerikadakı «Popol-Vux» abidəsi təsvir edir. Bu cür mənzərə Skandinaviya, ved, şummer, akkad, indaist, yunan. Sibir və bir çox digər mifologiyalarda da verilir.

Tarixən dəqiq müəyyən olunmuş ilk yunan (deməli, həm də ilk Avropa) şairi Hesiod (e.ə. VIII-VII əsrlər) xaos deyərkən bütün şeylərin əmələ gəlməsinə qədər mövcud olan boş ölçüsüz məkanı başa düşürdü. Ereb (əbədi zülməti təcəssüm etdirən) və Nikta (gecəni təcəssüm etdirən) ondan yaranmışdır. Xaos anlayışı Anaksaqorun və Platonun fəlsəfi baxışlarında da öz əksini tapmışdır.

Komoqoniyada dünya təbii ünsürlərdən-od, su, torpaq və havadan əmələ gəlir. Bəzən onlara beşinci ünsür - efir də (qədim yunan filosoflarının təsvirlərinə görə fəzaları dolduran ən xəfif maddə) əlavə olunur. Bütün bunlar Kosmosun qurulması üçün ilkin materialdır. Ünsürlər birləşir və ayrılır. Dünya od və suyun qarşılıqlı təsirindən yaranır. Bu ilkin elemetlərdən dünyanın rəngarəngliyi yaranır. Təbiət surəti həm miflərdə, həm müxtəlif komoqoniyalarda, həm də teoqoniyalarda (hərfi mənada «Allahın doğulması») yaradılmışdır. Miflərdə qədim mədəniyyət allahlarının mənşəyi haqqında danışılır.

Miflərdə həmişə müəyyən reallıqlar əks olunur, orada məcazi mənada, fantastik nağıllar formasında təbiət hadisələrini, ictimai münasibətləri və insan naturasını dərk etməyə cəhd əks olunur. Sonralar təbiət fəlsəfəsi yarandı və dərhal aydın oldu ki, o, kosmoqonik süjetlərin ümumiliyinə baxmayaraq mifologiyadan kəskin şəkildə fərqlənir. Miflərdə əyani şəkildə, çox vaxt simvolik formada, təbiət hansısa məkan kimi təsvir edilir, onun daxilində ilahi və komik qüvvələrin fəaliyyəti baş verir. Artıq ilk naturfılosoflar yalnız təbiətin ilk baxışdan necə görünməsini göstəmıəyə cəhd etməmiş, həm də öz gördüklərini sübutlarla möhkəmləndirməyə çalışmışlar ki, bu mifologiyada vacib deyildir. Antik fəlsəfədə təbiət nəzəri düşüncənin obyektinə çevrildi. Filosoflar dünyaya, təbiətə vahid, daxilən ziddiyyətli olmayan baxışlar işləyib hazırlamağa cəhd etdilər. Naturfəlsəfənin mifologiyadan daha bir fərqi ondan ibarətdir ki, filosoflar miflərdə müşahidə etdiyimiz kimi, insanın Kosmosda olmasını sadəcə olaraq qeyd etmir, insanın təbiətdəki yerini müəyyən etməyə cəhd edirlər. Mifoloji şüurda təbiət insana düşmən kəsilən simasız, şəxssiz qüvvələrin fəallıq sahəsi kimi təqdim olunur. Təbiət fəlsəfəsi bu simasızhğı aradan götümıəyə cəhd edir. İnsan fəlsəfəyə hansısa şüurlu, hiss edən varlıq kimi daxil olur, onun təbiətlə rəngarəng münasibətləri vardır.

Təbiət fenomenini başa düşən **naturfılosoflar** bununla belə onu daxildən dərk etməyə cəhd edirlər. Onlar insandan asılı olmayan təbiətin mövcudluq qanunlarını aşkar etməyə cəhd edirlər. Başqa sözlə desək, idrak təbiətin həqiqi müstəqil həyatını təhrif edə biləcək insan təsəvvürlərindən təmizlənirdi. Maksim Qorki bir dəfə belə bir fikir söyləmişdir:

«Səhralarda gözəllik yoxdur.

gözəllik bədəvinin (köçəri ərəb tayfası) ürəyindədir». Onun sözlərini necə başa düşək? Çox güman ki, bu sözləri belə dərk etmək lazımdır ki, təbiətin bir çox rəngləri, onun qiymətləndirilməsi məhz insanın qəlbində yaranır. Filosof isə təbiətin öz özünə, insansız necə yaşamasını dərk etməyə çalışır.

Hələ «naturfəlsəfə» sözü işlədilməmişdən əvəl təbiəti şərh etməyə ilk yanaşmalar meydana gəlmişdir. Bunları Aralıq dənizi sahilindəki Milet şəhərindən olan mütəfəkkirlər inkişaf etdirmişlər. İoniya fəlsəfəsi - yunan fəlsəfi fıkrindəki qədim istiqamətdir. Milet məktəbinin ən məhşur nümayəndələri Fales, Anaksimandr və Anaksimen olmuşdur, ioniya fəlsəfəsi ilkin materiyanın əbədiliyi haqqında məsələnin elmi əhəmiyyətini ilk dəfə qoymuşdur - bütün şeylər ondan yaranır və ona qayıdır. Bu filosofların tədqiqat obyekti, əlbəttə ki, təbiət idi. Fales belə hesab edir ki, hər şey Sudan yaranır, Anaksimandra görə hər şeyin əsasını apeyron təşkil edir, onu nə su kimi, nə də digər bir şey kimi müəyyən etmək olmur. Dünyanın yaranmasına o, əksliklərin mübarizəsi və ayrılması kimi, ilk növbədə soyuq və istinin timsalında baxırdı. Xatırladaq ki, Anaksimandr yunan fəlsəfəsində heyvan və insanın mənşəyi məsələsini qoyan ilk filosof olmuşdur. Anaksimen Fales və Anaksimandr kimi astronomik hadisələri öyrənmiş və onları təbii yolla izah etməyə çalışmışdır. Öz fəlsəfi baxışlarında Anaksimen Anak- simandırm təlimini müdafiə edir, lakin bu təlimə bir sıra dəyişikliklər etmişdir. Anaksimenə görə, hər şeyin əsasında hava dayanır. Hava seyrələndə od olur, qatılaşanda küləyə, sonra buluda, orada suya, sonra torpağa, daşa və digər şeylərə çevrilir.

Antik fəlsəfədə «kosmos» sözü yarandı və «kainat» kimi tərcümə olundu. Kosmos antik yunan filosofları üçün nizamasalınmış vəhdət (xaosa əks olan) idi. İlk əvvəl bu vəhdət qayda, quruluş kimi başa düşülürdü. Dünyanı ilk dəfə kosmos adlandıran Pifaqor olmuşdur, o, burada olan qaydalara və harmoniyaya diqqət yetirmişdir. Pifaqorun təliminə görə, göy bədəni müəyyən zaman aralığında «səslənir», təbəqələrin haraıoniyasmı yaradır və onlar fasiləsiz olaraq bizə təsir etdiyindən biz onları dərk edirik. Beləliklə, ioniyab filosoflar aşağıdakı əsas problemləri araşdırmışlar: materiya və onun strukturu (atomist) Kainatın harmoniyası (riyazi), şeylər və qüvvələrin qarşılıqlı münasibəti, qeyri-üzvi və üzvi aləm. Onların ən böyük xidmətləri ondan ibarət olmuşdur ki, onların qoyduqları mövzular sonralar başqa fılolsoflarm düşüncələrinin obyekti olmuşdur. Antik fəlsəfədə atomist təlim yaranmışdır - onlar dünyanın atomlardan, materiyanın ən xırda tərkib hissələrdən ibarət olması fikri ilə çıxış etmişlər. (Levkipp, Demokrit, Epikür).

Qeyd edək ki, Aristoteldə təbiətin dərk olunması bütöv təlim statusu aldı. O, naturfəlsəfəni fizika ilə eyniləşdirirdi, ona, əlbəttə ki. Yer haqqında təlim kimi baxırdılar, o hərəkətsiz halda görünən ulduzlu səmanın mərkəzində buxarlanır. Təbiət fəlsəfəsi artıq bizə məlum olan dörd elementi-od, su, hava, torpağı ayırır, fiziki bədənin tərkibi ilə bağlı suallara cavab verirdi. Eyni zamanda bir çox başqa problemləri, xüsusən də, hərəkətin növlərini, «səbəbiyyətin» növlərini və s. məsələləri nəzərdən keçirmişdir. Aristotel öyrədirdi ki, təbiət- müə}^ən məqsədlə hərəkət edən, öz şəxsi formasını yaradan, eyni zamanda çoxlu digər formaları yaradan canlı orqanizmdir, yəni təbiət ona daxil olan obyektləri özü

yaradır. Bu yaranmanın mənbəyi xarici qüvvə olmayıb daxili ruhdur - entelexiyadır, Allahın əqlidir, bu varlığın özünə xasdır. Aristotel təbiətin hərəkətini onun məkan daxilində yerdəyişməsi kimi qəbul etmirdi. O, həm də keyfiyyət dəyişikliyi, yaranma və məhv olma kimi hərəkət foraıalarım da nəzərdən keçirirdi. Ellinizm dövründə- tarixçilər bu dövrü Makedoniyalı İsgəndərdən (e.ə. 356- 323) qədim dünyanın sonuna qədər olan (e.ə. VI əsrin ortalarına qədər olan dövrü) adlandırdılar - təbiət fəlsəfəsi yalnız fəlsəfi mühakimələrə deyil, həm də astrologiyadan, biologiyadan, coğrafiyadan, mexanikadan, fizikadan olan geniş empirik məlumatlara əsaslanırdı.

«Naturfəlsəfə» anlayışını romalı filosof Seneka təklif etmişdir. O, bu anlayış altında təbiəti öyrənən və izah edən tam konkret fəlsəfi biliklər sahəsini nəzərdə tuturdu. Bu cür filosofluq etməyin mənbəyi nədir? Təbiəti bilavasitə müşahidə etməklə təbiətin mənzərəsini qurmaq olar, eyni zamanda çoxsaylı nəzəriyyələrə də söykənmək olar. Lakin, bununla belə, naturfəlsəfəyə az yer verilirdi: o vaxtlar belə hesab olunurdu ki, hər hansı mexanizmlər və maşınlarla torpağın və suyun tərkibi ilə məşğul olmaq filosofun işi deyildir. Filosoflar əsasən fəlsəfənin siyasət, etika, ritorika, poeziya və s. sahəsi ilə məşğul olmalıdır. Filosoflar praktiki fəaliyyət hesabına yığılan biliklərdən qaçmağa çalışırdılar. Belə təsdiq edirdilər ki, fəlsəfi biliklər gündəlik biliklərdən üstün olmalıdır, ona hökmranlıq etməlidir. Lakin bu naturfəlsəfəni mücər- rədliyə məhkum edirdi, ona gətirib çıxarırdı ki, nature- fəlsəfənin üzərində süni, uydurulmuş sxemlər və nəzəriy- yələr-geosentrizmə oxşar-hökmranlıq edirdi: - geosentrik baxışlara görə. Yer Kainatın mərkəzində yerləşir. Bu cür

münasibət müvafiq reaksiyaların yaranmasına gətirib çıxarırdı.

Təhlil olunan məsələnin tam mənzərəsini yaratmaq üçün burada mikrokosmos və makrokosmos probleminə də münasibət bildirmək yerinə düşərdi. Yunan dilində «mikrokosmos» və «makrokosmos» «kiçik dünya» və «böyük dünya» mənalarını verir. Demək olar ki, bu müqayisədə insanın Kainata münasibəti ifadə olunur. Artıq qədim naturfəlsəfi konsepsiyalarda belə bir ehtimal yaranmışdır ki, insan və Kosmos bir-biri ilə sıx bağlıdırlar, insanın öz quruluşu Kainatın quruluşunu yaradır. Nümunə üçün Pumşa haqqında qədim hind mifinə nəzər salaq. Orada deyilir ki, bütün dünya ilk insan olan Pumşadan əmələ gəlmişdir. Bu ilk insan özünün təkcəliyindən, nadirliyindən daha əhəmiyyətli məqsədlər üçün imtina etmişdir. Puruşanm hissələrindən Kainat yaranmışdır... İnsanın parçalanması dünyanın müxtəlif tərkiblərə malik olmasının simvoludur. «Kainatın ilk adamı» mifinə görə insanın bədənindən torpaq, sümüklərindən daşlar, qanından çaylar, saçından ağaclar, nəfəsindən külək və s. yaranmışdır - dünyanın müxtəlif xalqlarının nağıllarında bu mifə rast gəlmək olar. Çox güman ki, insan və Kainat arasında olan oxşatma iki mənalıdır. «İnsanda kosmik elementlərdən başqa heç nə yoxdur» fikrini belə başa düşmək lazımdır ki, insan kosmosda ərimişdir - Demokrit məhz belə güman edirdi. Ancaq fikrin digər gedişi də ola bilərdi; Kosmosda insanda olmayan heç nə yoxdur. Beləliklə, məsələn. Kosmos insanın «ruhunda», «ruh» isə «əqidə» əriyir. İnsanın mikrokosmos olması fikri fəlsəfədə kök saldı. İnsan dünyanın inikası, güzgüsü, güc və əql mərkəzidir. İnsan təbii varlıqdır. Lakin bir sıra antropoloji konsepsiyalarda bu cür tərif natamam hesab olunur və ona

göro do sonrakı mühakimələrdə o «sürüşüb» aradan çıxır. Filosoflar qeyd edirlər ki, insanın təbiiliyinə istinad etmək onun mahiyyətini azaltmır. İnsan eyni zamanda həm mikrokosmos, həm də makrokosmosdur. O, şeylərin təbii dövretməsi fenomenindən biridir, təbiətin bir hissəsidir. Təbiətin dövretməsindən, onun dinamikasından asılıdır. Təbiətin əbədi obyektiv qaydası haqqında təsəvvürlər lap çoxdan formalaşmışdır, insanın həyatı da ona tabe edilmişdir. İnsan mikrokosmos kimi ilk növbədə təbii varlıqdır. İnsanın mikrokosmos olması onun böyük aləmlə bağlılığı müddəasını Demokrit irəli sürmüş və inkişaf etdirmişdir. O, belə hesab edirdi ki. Kainatı ilahi qüvvə idarə edir, ona görə də insanı da Allah idarə edir, insanın özü isə əqlə malik olmayan heyvanları idarə edir. Mikrokosmosun sirlərini də insanda axtarmaq lazımdır. Bu həqiqəti bütün dövrlərin mistikləri öyrətmişdirlər.

Fransız alimi Pyer Şarden təkamül gedişində yaranan mərhələləri; həyatdan qabaq (litosfera), həyat (biosfera), fikir (noosfera) və fovqəlhəyat-qeyd etmişdir. Bu təkamül onu göstərir ki, bəşəriyyət canlı varlıq kimi Yerin müəyyən geoloji örtüyünün maddi enerji prosesləri ilə, onun biosferası ilə sıx bağlıdır. Fizika sahəsindəki yeni kəşflər təbiətlə bağlı fəlsəfi fikirlərin inkişafına böyük təkandır. Yeni kosmik obyektlərin kəşfi Kainatın təkamülü ilə bağlı baxışlar təbiətin yeni surətini yaratmışdır. Bəzi filosoflar belə hesab edir ki, naturfəlsəfə artıq müstəqil bilik sahəsi kimi mövcud ola bilməz. Öz fikirlərini onunla əsaslandırırlar ki, naturfilosoflar ayrı- ayrı sahələrə müdaxilə edirlər, sanki təbiətlə bağlı fəlsəfi mühakimələr artıq məna kəsb etmir. Axı o qədər fenomenlər var ki, onları yalnız təbii ilkin şərtlərlə izah etmək artıq mümkün deyildir. Ancaq fəlsəfənin bu qədim

istiqamətinin intibahından danışmaq da yerinə düşər-axı bu gün o yeni sima almışdır: bu gün burada söhbət dünyanın başlanğıcından, şeylərin təbiətindən getmir, əsasən insanın kosmik təbiətindən danışılır. Bir sözlə maşmiaşdırılmış dünya insanın yaşaması məsələsini kəskin şəkildə qarşıya qoyur. Təbiətlə qırılan əlaqə yalnız təbiətin özü ilə bərpa oluna bilər. Təbiətə hissə-hissə yanaşmağın təhlükəsini qeyd edən Höte ona bütöv yanaşmanı təklif etmişdir. Lakin bu cür yanaşma yalnız o vaxt mümkündür ki, təbiətin fəlsəfi şərhi onun digər şərhindən təcrid olunmamışdır. Bir sözlə təbiət və cəmiyyətin birgə inkişafı təmin olunmalıdır. İnsanın təbiətə qarşı zorakılığı böyük təhlükədir. Təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsi zamanın tələbi və ekoloji tərbiyənin zəruri anıdır. Əlbəttə təbiət və cəmiyyət öz qanunları ilə yaşayır, lakin təbii və ictimai proseslərin harmoniyası ideyası olduqca səmərəlidir.

N.A.Berdyayev qeyd edir ki, «təbiətə qayıdış mədəniyyət tarixində əbədi mövzu olmuşdur». Əgər məsələnin fəlsəfi tərəfi haqqında danışsaq, doğrudan da, dünya mədəniyyəti tarixində təbiətin qavranılması müxtəlif olmuşdur. Bəzən təbiət fÖvqəldəyər kimi dərk olunmuşdur. Ancaq bəzən o sanki şüurdan sıxışdırılmışdır, öz yerini mədəniyyətə, sivilizasiyaya vermişdir - həmin vaxtlar elə güman olunmuşdur ki, məhz onlar insan yaşayışı üçün daha əlverişlidir. İlk əvvəl insan torpaq, bitki və heyvanlarla bağlı olmuşlar. Torpağın sirri mühüm rol oynamışdır: bitki və heyvanlarla bağlı olan dini ibadətin, sitayişlərin nə qədər əhəmiyyətli olduğu hamıya məlumdur. Bu ibadətlərin formasının dəyişmiş ünsürləri sonralar dünya dinlərinə daxil edilmişdir. Həmin dini baxışlara görə insan torpaqdan yaranıb və torpağa

çevriləcəkdir. Mədənij^ət öz çiçəklənməsi dövründə təbiətlə əhatə olunmuşdur, bağçaları və heyvanları çox sevirdi. Güllər, kölgəli parklar və şəhər bağçaları, çaylar və göllər, cins itləri və atları, quşlar mədəniyyətə daxildir. Mədəniyyət adamları təbiət həyatından nə qədər uzaqlaşsalar da hələ də göyə, sayrışan ulduzlara, qaçan buludlara tamaşa edirdilər. Təbiətin gözəlliyini seyr etmək artıq mədəniyyətin məhsulu hesab oluna bilər. Mədəniyyəti, dövləti, məişəti canlı orqanizmin anologiyası kimi üzvi şəkildə sevirdilər. Mədəniyyət və dövlətin çiçəklənməsi bitki - heyvan prosesi kimi ifadə olunurdu. Mədəniyyət simvollarla, rəmzlərlə dolu idi, orada göy yer formasında öz əksini tapmışdır, o biri dünyanın əlamətləri bu dünyada verilirdi. Lakin tədricən təbiətlə bağlı qəlblərə hakim kəsilən fikirlər «seyrəlməyə, dağılmağa» başladı.

İlk əvvəl cəmiyyətin maddi bazasının və gücünün primitiv olduğu şəraitdə təbiət, haqlı olaraq, ölçüyə gəlməz dərəcədə əhəmiyyətli və yetkin qüvvə kimi qəbul olunurdu. Antik fəlsəfədə təbiətə süd verən ana kimi, insanın yaranmasının səbəbi kimi baxılırdı (Platon). **Antik dövrün** materialist baxışlarının nümayəndələri insana atomların məcmusu kimi baxmışlar ( Demokrit). Təbiətin təbii harmoniyası insanları heyran edirdi və onlar təbiəti yamsılamağa cəhd edirdilər. İnsan və təbiət vahid, harmonik cəhətdən bir-biri ilə bağlı olan bütöv kimi qəbul edilirdi. Təbiətlə həmrəy, uyğun şəkildə yaşamağa cəhd, onu dərk etmək, təbiətdən müşahidə obyekti kimi istifadə etmək cəmiyyətin idealı idi. Antik dövrdə cəmiyyətin düşünən zəkaları təbiəti insanın dəyişdirici fəalij^ətinin bilavasitə məqsədi kimi qiymətləndirməyə imkan vermirdilər. Antik döviiin baxışlarına görə təbiət, yer və göy, dünya - bu dəyişməz kosmosdur, əbədi qaydaların

ciddi iyerarxik sistemidir. Təbii ki, təbiət haqqında bu baxışlar dünyanın Allah tərəfindən yaradılması fikirləri ilə uzlaşırdı. Aristotel də, Akvinah Foma da kosmik qaydanı bu cür qəbul edirdilər. Təbiətin ilahi başlanğıcına inam onların təbiətin əsasları ilə bağlı baxışlarını qidalandırırdı. Filosofların əsas diqqəti təbiətə (natura), onun mahiyyətinə, onun yaradıcılıq qüdrətinə yönəlmişdir. Antik təfəkkürdə təbiət hərəkətdə olan, dəyişən bütov kimi qəbul edilirdi: bu mənada insan təbiətə qarşı qoyulmur, əksinə təbiətin bir hissəsi kimi qəbul edilirdi. Antik filosoflar kosmos deyərkən insan əqlinin qəbul edə bildiyi bütün təbiəti başa düşürdülər. Eyni zamanda kosmos xaosa qarşı qoyulurdu - kosmos hər şeyi əhatə edən, mütəşəkkil, qanunauyğun və yetkin kimi qəbul edilirdi. Layiqli müdrik üçün təbiətlə ahəngdar yaşamaq ideal idi, məhz onlar təbiətin elmi dərk olunması vəzifəsini əsaslandırılmış və onu naturfəlsəfə çərəivəsində həll etməyə cəhd edərək mücərrəd, abstrakt fərziyyələr irəli sürmüşlər.

**Orta əsr mədəniyyətinin** adamları belə hesab edirlər ki, təbiət insanlarla ilahi iradə və əqlin simvolik dili ilə danışır. Orta əsrlərdə Avropa fəlsəfəsi dinin təsiri altında idi. Ona görə də təbiət, ilk növbədə isə, insan Allahın yaratdığı varlıq kimi qəbul edilirdi. Allah tərəfindən özünün oxşarı və bənzəri kimi yaradılan insan ali varlıq kimi əbədi ruha malikdir və o, günahı olan, özündən xeyli «aşağı» olan təbiətə qarşı qoyulmağa başladı. Artıq bu dövrdə insana təbiətin bir hissəsi kimi baxılmır, insan təbiətə qarşı qoyulur və ondan üstün qəbul edilirdi. Maddi aləmin öyrənilməsinə maraq sönür və bu sahədə göstərilən cəhdlər yüksək qiymətləndirilmir. Təbiət şər mənbəyi kimi qəbul olunurdu, onu dəf etmək və ya onu tabe etmək vacib hesab edilirdi, insan həyatı isə ilahi

başlanğıc olan ruha və günahı olan təbii başlanğıca - bədənə malik qəbul edilirdi. Elə bu özü təbiətə qarşı mənfi münasibətə haqq qazandırır və hətta təbiətə qarşı zor tətbiq olunmasını əsaslandırırdı. Təbiət cansız, insana və insan cəmiyyətinə qarşı dayanan kimi şərh olunurdu. Bu cür baxışlar sistemi təbiətin elmi dərk olunmasına marağa təkan verə bilməzdir. Ancaq orta əsrlər təfəkkürünün dərinliklərində təbiətə münasibətin başqa bir xətti də mövcud olmuşdur. Təbiətin Allahın yaratdığı kimi qəbul olunması onda səmərəli başlanğıcın axtarılması üçün imkan yaradırdı, təbiətdə olan ilahi planı aşkar etməyə, açmağa göstərilən əəhd, bu baxımdan Allahın qüdrətini, müdrikliyini əsaslandırmaq təbiətin öyrənilməsi üçün xeyli imkan yaradırdı. Təbiətin kitab kimi məcazi dərk olunması buradan irəli gəlir. Belə hesab olunurdu ki, Allah insanlara iki kitab venrıişdir - onun müdrikliyini bilavasitə təzahür etdirən müqəddəs yazılar və öz müdrikliyini həkk etdiyi təbiət kitabı. Orta əsrlərdə yaranan bu baxış təbiət haqqmda elmin - təbiətşünaslığın yaranmasında böyük rol oynamışdır.

Mədəniyyətin, ilk növbədə isə, incəsənətin çiçəkləndiyi **intibah dövründə** təbiət və cəmiyyətin qarşılıqlı münasibətinə baxış qısa vaxt ərzində başqa cür oldu. Təbiətə gözəllik, sevinc və ilham mənbəyi kimi baxılır və o dağıdıcı, qüsurlu sivilizasiyaya qarşı qoyulur. Təbiətə, bəşəriyyətin «qızıl əsrinə» qayıdış səslənir. XVI əsr və XVII əsrin əvvəllərindəki naturfəlsəfədə iki istiqamət yaranır. Bu istiqamətlərdən birinin nümayəndələri mistika ilə yaxınlaşır və nəticədə konkret biliklərlə möhkəmləndirilməyən təbiət haqqmda mücərrəd konsepsiyalar yaranır. Digər naturfilosoflar dəqiq təbiətşünaslıq sahəsinə keçmişdir, bu da elmin əlbəttə bu gün bizim fizikanı.

kimyanı, biologiyanı təsəvvür etdiyimiz kimi elmin yox, sadəcə olaraq, magiya formasında olan elmin yaranmasına təkan verdi, intibah dövründə təbii elmlər «magiya» adlanırdı, kimya əlkimya, astronomiya-astrologiya idi, hətta mexanika və fizika belə magiya idi. Təsadüfi deyil ki, o vaxtlar saat və mexanizmlər düzəldənlərə sehirbaz kimi baxırdılar. Ancaq bu olduqca sadəlöhv baxışların dərinliklərindən empirik, yəni təcrübə elmi - təbiətşünaslıq yaranırdı. Əlbəttə, dünyanın dini, teosentrik mənzərəsindən elmi-təbii mənzərəsinə keçid heç də sadə deyildir. Bu mərhələdə dünyaya yeni baxış yarandı: təbiisentrizm və teosentrizm («teo» yunanca «Allah» deməkdir) arasındakı aralıq mərhələsi panteizm adı aldı. Bu anlayış iki yunan sözündən - «hamısı» və «Allah» - əmələ gəlmişdir. Panteizm təliminə görə, hər şey Allahdır. Panteizmin tərəfdarları Kainatı ilahiləşdirmişlər, təbiətə pərəstişin əsasını qoymuşlar. Onlar Kainatın əbədiliyini və onun dünyalarının saysız-hesabsız çoxluğunu qəbul etmişlər. Görkəmli italyan təbiətşünası və filosofu Cordano Bruno müxtəlif dəqiq elmlərin nailiyyətlərini birləşdirərək dahiyanə panteist dünyagörüşü yaratmışdır. O, bu ideyanı poetik güc və həvəslə təbliğ edirdi. Onun dünyagörüşünün əsas müddəaları belədir: Kainat Allahdır, o sonsuzdur, sonsuz sayda Günəş öz planetləri ilə orada öz orbitlərində hərəkət edirlər. Bu sonsuz, daxili qüvvələri ilə hərəkət edən Universum mövcud olanın və canlının vəhdətidir. Başqa sözlə desək, dünyada cansız heç nə yoxdur, hər şey canlıdır. Əlbəttə, Brunonun bütün kəşfləri fəlsəfi xarakter daşıyırdı, belə ki, o təbiəti poetikcəsinə təsvir etməkdən ilham alırdı. Lakin naturfəlsəfə tədricən elm olmağa başladı, təbiətin ciddi elmi mənzərəsini yaratmağa cəhd etdi. Burada böyük alim, yeni dövmn

clmlorinin banisi Qalileo Qalileyin adını çəkməmək olmaz. Təbiətin təsviri və onun formaları ilə bağlı bəşəriyyətin iki min illik təcrübəsinə Qaliley yenilik gətirdi, təbiətin elmi cəhətdən öyrənilməsinin və təcrübə vasitəsi ilə təhlilinin əsasını qoydu. Qaliley üçün fəlsəfənin həqiqi kitabı başqa «hərflərlə» - üçbueaqlarla, kvadratlarla, dairələrlə, kürələrlə yazılan təbiət kitabı oldu. İndi artıq naturfəlsəfədə təbiətə yeni münasibət yarandı; filosoflar artıq təbiətə hansısa sirli qüvvələrin fəaliyyət göstərdiyi aləm kimi deyil, qanunlar məemusu kimi baxmağa başladılar. İnsan özünü əhatə edən təbiətin gözəlliyini özü üçün açdı, oraya sevinc, zövq mənbəyi kimi baxmağa başladı; bu orta əsrlərin qəmli asketizminə qarşı insanların etirazı idi. Fəlsəfədə və romantik estetikada təbiətə pozğun və qüsurlu insan sivilizasiyasına qarşı dayanan sığınacaq kimi baxılmağa başlandı. Romantizmin banilərindən olan J.J.Russo təsdiq edir ki, insanın təbii vəziyyətindən sosial, ictimai vəziyyətə keçməsi bizim bədbəxtçiliyimizin mənbəyi oldu.

XVII-XVIII əsrlərdə elm sürətlə inkişaf etməyə başladı, istehsalın yaranması və inkişafına istiqamətlənən çox saylı təcrübə və eksperimentlər həyata keçirilməyə başladı. **Yeni dövrün fəlsəfi baxışlarında** və praktiki fəaliyyətində insan və təbiətin qarşılıqlı münasibətlərinin yeni tipi daha açıq görünməyə başladı. Dövrün əsas ideyası ondan ibarət oldu ki, insan təbiəti fəth etməli, onu mənimsəməli və onun hökmdarına çevrilməlidir. Elmdə başlıca məqsəd təbiətin sirlərinin və qanunlarının dərk olunması oldu. F.Bekon yazırdı ki, «elm və texnikanın məqsədi təbiət üzərində hökmranlıqdır». Bu eür ideyaların yaranması insan cəmiyyətinin getdikcə artan gücünə, onun məhsuldar qüvvələrinin inkişafına təkan verirdi. Sonralar

tədricən insanın praktiki fəaliyyətində olduğu kimi nəzəriyyələrdə də insanın təbiət üzərində tam hökmranlığı meyli üstünlük təşkil etməyə başladı. Bu eür yanaşmanın klassik təsvirin İ.S.Turgenevin «Atalar və oğullar» əsərində nihilist Bazarovun dilində yaxşı verilir: «Təbiət məbəd yox, emalatxanadır. İnsan isə orada işçidir». Yeni dövrdə təbiətə ardıcıl dəyişdirici fəaliyyət obyekti kimi, insanın heç bir ölçüsüz və hesabsız istədiyi qədər götürə biləcəyi xəzinə kimi baxmağa başladılar. Yeni dövrdə elmin və təbiətşünaslığın metodlarının formalaşması ilə naturfəlsəfə xeyli dəyişdi: Dünyanın mexaniki mənzərəsinin yaradıcısı İ.Nyuton naturfəlsəfə deyərkən, təbiət haqqında nəzəri, riyazi cəhətdən qurulmuş təlim, «təbiət haqqında dəqiq elmləri» nəzərdə tuturdu. XVII əsr naturfilosofları təbiəti saat mexanizminə bənzədirdilər.

**Naturfolsəfənin inkişafının yeni mərhələsi I.V.Hötenin adı ilə bağlıdır.** O, belə hesab edirdi ki, təbiətin istənilən şəkildə seyr edilməsi, istənilən şərhi süni şəraitdə həyata keçirilən fiziki təcrübələrə yox, təbiətə toxunmaqdan, təbiətlə ünsiyyətdən alınan bilavasitə hissi təəssüratdan başlanmalıdır. Təbiətin öyrənilməsi ilə bağlı bu cür yanaşmaya parlaq nümunə rənglər haqqında onun təliminin yaranması oldu-o rənglərin köməyi ilə təbiətin əsrarəngiz gözəlliyini təsvir etmişdir. Höte rənglərin onda oyatdığı təəssüratlarla kifayətlənməmiş, onlar arasındakı qarşılıqlı əlaqəni araşdırmaqla təbiəti daha dərindən öyrənməyə çalışmışdır. Höte əmin idi ki, təbiətdə çox saylı müxtəlif formalar möveuddur və onlar arasındakı əlaqənin düzgün qurulmasını aydınlaşdırmaq təbiəti tam dərk etməyə kömək edəcəkdir. Hötenin baxışlarının fəlsəfi xarakteri onunla bağlı idi ki, o, dünyanı özünəməxsus şəkildə, özünəxas olan tərzdə şərh edirdi. Aneaq bu o

demək deyildir ki, o bu şərhini təbiətlə bağlı yeganə, düzgün şərh hesab edirdi. Lakin XVIII əsr naturfəl- səfəsində yeni dünyagörüşü metodu yarandı: təbiətə ruhən bağlı olan insan onu mənimsəməyə eəhd etmək istədi. Məhz bu dövrdə yaranan texnika təbiətdə olan əbədi qaydada insanı dağıtmağa başladı. Tədrinən belə təəssürat yarandı ki, təbiət emalatxanadır və onu kim neeə istəsə qura bilər. Sadəeə olaraq təbiəti yalnız hissi, əyani yox, başa düşülən qanunları olan abstraksiya, mücərrədlik kimi dərk etməyi öyrənmək lazımdır.

Nəzərinizə fəlsəfi bir mətn çatdırmaq istəyirəm. Onun kimə məxsus olduğunu, hansı məzmun daşıdığını, müəllifin nəyi qeyd etmək istədiyini anlamaq üçün, ilk növbədə, onu diqqətlə oxuyun.

«Təbiət! Biz onun əhatəsindəyik, onun ağuşundayıq, biz ondan nə çıxa bilmirik, nə də onun dərinliklərinə girə bilmirik. Çağırmadan, gözlənilmədən o bizi öz girdabına alır, bizim nazımızla oynayır və biz yalnız taqətdən düşəndən sonra onun əlindən çıxa bilirik. O, hər dəfə yeni surətlər yaradır; onda olan nə varsa indiyə qədər olmamışdır, nə varsa daha olmayacaq, hər şey təzədir-hər şey sanki köhnəlir. Biz onun arasında yaşayırıq ancaq ona yadıq. O, həmişə bizimlə danışır, ancaq sirlərini açmır. Biz daim olaraq ona təsir edirik, ancaq bizim onun üzərində heç bir hakimiyyətimiz yoxdur. O, hər şeydir. O, özü həm mükafatlandırır, həm də cəzalandırır və əzab verir. O ciddi və qətidir, sevir və qorxudur, gücsüz və hər şeyi sevəndir. Onda hər şey fasiləsizdir. O, keçmiş və gələcəkdən xəbərdar deyildir, onun indisi əbədidir. O, xeyirxahdır. Mən onun bütün işləri ilə birlikdə tərifləyirəm. O, müdrik və sakitdir. Ondan məhəbbət

etirafı qoparmaq olmur, ondan hədiyyə almaq çətindir, o heç nəyi könüllü vermir».

Qeyri-adi mətn deyilmi? Təbiət poetikləşdirilir, ancaq o saxtalaşmış, hərəkətsiz deyildir, o, canlıdır, axarlıdır... Çoxlu fəlsəfi mətnlər oxuyan adam bu sətirlərin müəllifinin kim olduğunu güman edə bilər. Lakin biz də özümüzü iz axtaranlar rolunda təsəvvür edək. Belə ki, uzun vaxt ərzində təbiətə bu cür münasibətin kim tərəfindən olmasını tapmaq çətin olmuşdur. Bəs bu sözlərin müəllifi kimdir? Öz axtarışımızı nədən başlayaq? Bu cür mətn nə vaxt yarana bilər? Əlbəttə ki, bu mətn antik fəlsəfədə yarana bilməz. Niyə? Ona görə ki, antik dövrdə hər bir ağacın, hər bir bulağın, çayın, hər bir dərənin öz yerli ruhu-qoruyucusu var. Adamlar ağacı kəsməmişdən əvvəl, çayın qabağını bağlamamışdan əvvəl qurban kəsirdilər. Bu dövrdə təbiət sanki poetik- ləşdirilmişdir. Ancaq yunan mütəfəkkirlərinin dili olduqca ciddi, təmkinli idi. Bəli onlar təbiəıi nə isə gözəl bir şey kimi qəbul edirdilər, lakin təbiət hakim dünya quruluşuna bənzədilirdi. Antik filosofların baxışlarında təbiət-mövcud olan hər şeydir. Buna müvafiq olaraq insan təbiətdən ayrılmır, onun daxilindədir, onun bir hissəsindədir.

Sadaladığımız sətirlərdə isə müəllif təbiətlə qaynayıb-qarışmır, aydın şəkildə onu kənardan, hansısa başqa nöqteyi-nəzərdən müşahidə edir. Antik yunanlar haqqında belə demək olar: «Mən təbiətlə birlikdə yaşayıram». Mətndə isə «mən təbiəti seyr edirəm, təbiəti müşahidə edirəm» deyilir. Bu fraqmetə əsasən belə demək olar; «Təbiət heç də öz-özünə olan kimi deyil, o tamamilə mənim təsəvvürümün məhsuludur. Təbiətin mən gördüyüm kimi xassələri var: o ciddidir, mülayimdir, sevir, bərk

qorxudur, vahiməyə salır». Yox, bu sətirlər antik dövrdə deyilə bilməzdir.

Bəlkə bu mətn orta əsrlərdə yaranmışdır? Nağılçılıq, kinayəlik, surətlərin zənginliyi orta əsrlər fəlsəfəsinin xarakterik xüsusiyyətidir. Burada isə vəziyyət başqadır. Birincisi, mətndə dini heç nə yoxdur, daha çox burada təbiət mənzərəsinin təsviri dindən kənar verilir. Yaradan haqqında heç nə deyilmir. Fəlsəfi mətnin müəllifinin şüurunda təbiət öz-özünə yaşayır, o, müdrik və sakitdir. Eyni zamanda orta əsrlərdə təbiətə antik dövrdən fərqli münasibət yaranmışdır. Artıq IX əsrin başlanğıcında yeni, mahiyyət etibarı ilə təbiətə qarşı istismarçı münasibət dərk olunmağa başlanmışdır. Bu əsasən o dövrdə tərtib olunan şəkilli frank təqvimlərində öz əksini tapırdı. Əgər əvvəlki təqvimlərdə on iki ay passiv alleqorik fiqurlarla ifadə olunurdusa, artıq təzə təqvimlərdə bu aylar cütcü, əkinçi, biçinçi, meşə doğrayan, ət doğrayan formasında, yəni dünyanı fəth edən adam formasında təsvir olunmağa başladı. İnsan və təbiət burada ayrılırdı. İnsanlar təbiətin daxilində yaşamırlar, təbiətdə hökmranlıq edirlər.

Bizi narahat edən mətni-təbiətin poetik təsvirini yenidən oxuyuruq. Təsvir olunan təbiətə meşəni doğrayanları, əkinçiləri məskunlaşdınnaq, yerləşdirmək olarmı? Xeyr, bu heç ağlabatan deyildir. Müəllifin təsəvvüründə təbiət-insanlardan asılı olmayan, onun hökmranlığına tabe olmayan ünsürdür. «Hədi}^ələrlə onun başını qatmaq olmaz». Bundan başqa maraqlı bir etiraf da var: «Biz həmişə ona təsir edirik, lakin onun üzərində bizim heç bir hakimiyyətimiz yoxdur». Biçinçi və meşəni kəsənlər belə deməzdirlər. Əgər meşəni doğrayırıqsa, məhsulu yığırıqsa niyə hökmranlığımız olmasın... Bu heç də təbiətin bizə hədiyyəsi olmayıb bizim

gərgin əməyimizin nəticəsidir. Biz dövrün sahibləriyik. Bir az da qabağa gedək, əsrlərə nəzər salaq-dünyaya yeni baxışın formalaşdığı intibab dövrü. Əvvəllər İlabinin iradəsi kimi qəbul olunanlar artıq insanların adı ilə bağlanmağa başlandı. İnsan bər şeyin mərkəzidir. İnsana olan münasibət dəyişir, bəm də təbiətə olan münasibət də dəyişir. Əgər nə vaxtsa təbiət təsir obyekti idisə, indi artıq o fəal istismar predmetinə çevrilir. O, sadəcə olaraq insan fəaliyyəti üçün meydan deyil, emalatxanadır. Məbz Frensis Bekon onu belə adlandırmışdır. Onun alimi cəllada mənalı bənzətməsi də var. Cəllad işgəncə verməklə müttəbimi etiraf etməyə məcbur etdiyi kimi, alim də təcrübə vasitəsi ilə təbiətdən (naturadan) onun sirlərini çıxarır. Alim təbiətşünasdır, naturalistdir! Elmin əsas vəzifəsini o təbiəti fətb etməkdə və naturanı dərk etmək əsasında mədəniyyəti məqsədəuyğun şəkildə yenidən qumıaqda görür. Lakin bizim verdiyimiz mətndə təbiət emalatxanaya bənzəyinni? Qətiyyət yox! Müəllif təbiətdən zövq alır, onu seyr edir. Aneaq onun sirləri müəllif üçün qaranlıqdır. Adını tapmağa çalışdığımız filosof təbiətin sirlərini «arzuolunmayan, gözlənilməyən, öz oyununa bizi qatan», «bəmişə yeni surətlər yaradan» kimi verir. Ancaq müəllif təbiətin bu sirlərini birləşdirməyə beç başlamır. O, təbiətin sirli titrəyişini qorumağa çalışır. Bekon kimi onu aydınlaşdınnağa eəbd etmir.

Deməli təbiətin mətndə verilən təsviri nə antik dövrə, nə orta əsrlərə, nə də intibab dövrünə aid deyildir. Bəlkə bu sətrlər XVIII əsrdə yaranıb? Artıq demişdik ki, təbiətin mənalı təsviri, şübbəsiz ki, elə bir vaxtda yaranmışdır ki, bu vaxt filosofluq etmək sırf dini pərəstişdən azad idi. Məbz XVIII əsrdə Allab ideyasına münasibət dəyişmişdir, o tənqid olunmağa başlanmışdır. Filosofların

ənənəvi olaraq məşğul olduqları işlər - təbiət, tarix, cəmiyyət, əxlaq, din - onların artan diqqətlərinin obyekti olmuşdur.

XVIII əsrdə **insanın yeganə bacarığı - Əqli** geniş şöhrət qazanmışdır. Ona böyük ümidlər bəsləyirdilər. Filosoflar insan şüurunun ağlasığmayan böyük imkanlarını dərk edirdilər, onlar yalnız hər şeyə qadir olan əqli qiymətləndirirdilər. Axı ətrafda çoxlu formasız, kortəbii hadisələr də vardır. Öz mühakimələrinə, düşüncələrinə qapılan filosoflar bu dərinlikləri poetikləşdirə bilərdilərmi? Bu təbiət zövq obyekti ola bilərdimi? Təbiət qeyri- mütəşəkkil və şüursuzdur, onu ram etmək, əqlə tabe etmək lazımdır. Əsrlərdən gələn yolu bizim üçün açan mətndə isə təbiət tənqid yox, sevilə-sevilə seyr edilən, tamaşa olunan obyektdir. O, insanın fəal dünyası ilə, insan əqli ilə yanaşı mövcuddur.

Mətni oxuyarkən orada ifadə olunan təbiətin qavranılmasmm bir xüsusiyyətinə diqqət yetirdinizmi? Dərhal qeyd edək ki, sirri açmağın açarı məhz bu xüsusiyyətdədir. Bizə məlum olmayan filosofun təsvirində təbiət insanlaşdırılır, insan şəklinə salınır: o, canlı varlıq kimi danışır, rəqs edir, sevir, qorxudur, yəni ona insani keyfiyyətlər verilir. Təbiət insan ölçüləri ilə yaşayır, eyni zamanda insandan ayrıdır. Bu iki ayrılmış varlığın heyranedici birliyidir! Əlbəttə, təbiətin bu cür təsviri yalnız XIX əsrdə mümkündür. Bu mətndə dünyanın romantik təəssüratı təcrübəsinin şıltaqlığı açılır, burada ilahi alleqoriya yoxdur, təbiətə titrək və həyəcanlı pərəstiş, məftunluq var. Biz müəllifdə təbiətdə əriyən, təbiətdə qaynayıb qarışan və ya ondan ayrı düşən ciddi asketizmini tapa bilmərik, ancaq onda təbiətin vahiməsini, onun böyüklüyünü duyma hissi var. Bundan əlavə təbiətin insan

dünyası ilə üzvi münasibəti var və bu dünya vasitəsi ilə o öz insani hisslərini verir.

Xüsusi fəlsəfi hazırlıqsız, tədqiqat təcrübəsi olmadan bu mətnin müəllifinin kim olmasını güman etmək mümkün deyildir. Hətta mütəxəsisslər üçün, fəlsəfə tarixçiləri üçün bu sadə iş deyildir. Uzun müddət bu sətirləri Hötenin adına çıxırdılar: Höte təbiətdən zövq alır, onu poetikləşdirirdi. Hətta şairin özü ahıl yaşlarında bu sətirləri nə vaxtsa cavanlıq illərində yazdığını düşünməyə meylli olmuşdur. Höte çox yaşamışdır, prinsipcə bu cür sətrlər yaza bilərdi. Onun əsərlərini nəşr edənlər bu hissəni onun seçilmiş əsərlərinə də salmışdırlar. Ancaq unutmaq lazım deyildir ki. Höte yalnız şair olmayıb, həm də böyük alim-naturalist idi. Bu cür romantik vəcd, coşqunluq yetkinlik yaşında mümkün deyildir. Təbiətdən romantik zövq almaq, onu coşqunluqla vəsf etmək - axı bu panteizmdir!

Bu gözəl sətrlərin müəllifinə açar da budur. Bu sətrləri alman filosofu və romantiki Fridrix Şellinq yaratmışdır. «Təbiət» hissəsini filosof təbiəti fəlsəfi dərk etməyə cəhd etdiyi dövrdə yazmışdır. Burada ulu valideyni hesab etdiyi təbiətin sirlərini açmağa cəhd var. Təbiətə qarşı qəddarlıqdan söhbət belə gedə bilməzdi: insan təbiətə qarşı titrək hislərlə yaşayır, o təbiətə olan məhəbbət və inamına and içir və öz gücünə inamı yoxdur. Bu inam fəlsəfi şüurda sonralar-növbəti yüzillikdə, təbiətə həsr olunan üç abzas nə qədər maraqlı gümanlar, ehtimallar yaratmışdır.

Təbiət haqqında bütün dövrlərdə - antik dövrdən bu günə qədər düşünmüşlər. Təbiətə baxış və onun qiymətləndirilməsi müxtəlif olmuşdur: təbiəti şöhrətləndirmişlər, tərifləmişlər, yamanlamışlar, söyüb biabır etmişlər, fəth

etmişlər, dərk etmişlər, insanlaşdırmışlar... Belə çıxır ki, təbiət düşüneə üçün maraqlı və müəmmalı obyektdir. Əlbəttə, yalnız ətraf mühit, təpələr, meşələr, göllər nəzərdə tutulmur. Təbiət ümumiləşdirilmiş anlayış kimi çıxış edir, bəzən o sonsuz Kainat ilə eyniləşdirilir. Beləliklə, təbiətdən uzaqlaşmaqla bir sıra fəlsəfi problemlərin həllinə doğru hərəkət etmək olar. Təbiətsentrizim fəlsəfi dünyagörüşün geniş yayılmış çoxsaylı istiqamətlərindən biridir.

Müasir elm düzgünlüyü ümumiyyətlə şübhə doğurmayan biliklər verir. Lakin onun əsasında yaranan texniki elmi bilikləri təbiəti fəth etməklə bağlı uzağa gedən planları həyata keçirmək üçün istifadə etməyə imkan verir. Ancaq bu aşağıdakı məsələni həll etməyə heç cür kömək etmir; bu minvalla əldə olunan tərəqqinin dəyəri nədir? Təbiəti, tutaq ki, fəth etmək də olar və həm də bu əsarət altına salmanın qurbanı da olmaq olar. Təbiət bir bütöv kimi mütəxəssislər üçün daha mövcud deyildir. O, qollara ayrılmış, parçalanmışdır. Bir çox tədqiqatçılar təbiətə insan tərəfindən zor tətbiq edilən obyekt kimi baxırlar. Təbiətə səcdə etmək, onu poetik vəsf etmək tədricən dağılmağa başladı. N.Berdyayevin sözlərinə görə, texnika və maşının hökmranlığı, ilk növbədə, üzvi həyatdan (təbiətlə vəhdətdə) mütəşəkkil fəaliyyətə keçiddir. Bu keçid təbiətdə ruhun dağılmasını və təbii proseslərə əqlin tətbiq olunmasının nəticəsidir. İnsan öz qüdrətini dərk etdi. Ancaq öz şəxsi gücü qarşısındakı təəccübü, öz şəxsi əqli qarşısında keçirdiyi qürur hissi ilk öncə onu belə bir fikir ətrafında düşünməyə vadar etməmişdir: «Təbiətdə hər şeyi mən düzmü və necə varsa eləmi edirəm? Mən öz qaynar fəaliyyətimlə onun məhvi

üçün təhlükə yaratmırammı? Axı onun məhv olması ilə mən özüm də məhv oluram».

İnsan təbiətə yeni-yeni yaralar vurmaqla, meşələri qırmaqla, çayları, gölləri, dənizləri çirkləndirməklə, bütün planetdə ekoloji fəlakət yaratmaqla öz gücündən uzun illər zövq aldı. Mədəniyyətin maşmiaşdırılması mədəniyyətin özü üçün təhlükə yaratmağa başladı. Onlar mədəniyyəti unifıkasiya edir - vahid şəklə salır, onu ruhlanmadan, ilhamlanmadan məhrum edir, onun təbiətlə, eyni zamanda xalqla bağlı köklərinin əlaqəsini dağıdır. Maşmiaşdırma insanı incəsənətin, ədəbiyyatın, teatrın gözəl əsərləri ilə ünsiyyətdən alınan zövqdən məhrum edir, onu qorxunc, anlaşılmaz, həmişə onu hədələyən, başqa ölçülərdə mövcud olan, başqa dünyada yaradılan «maşın əqlinə» çevirir. Artıq söhbət insanın yaşamasının strategiyasından gedir. İnsanlar özləri maşina çevrilirlər: təbiət texnika tərəfindən fəth olunur. Yer kürəsində öz mövcudluğunun milyon ili ərzində öz həyat şirəsi ilə bəşəriyyəti qidalandıran üzvi həyat daha çox tükənir. Planetdə insan həyatının «yazılan vaxtdan əvvəl başa çatmasına mane olmaq üçün texnikanı tam muxtariyyətinə yol vermək, ona mütləq azadlıq vermək olmaz.

İnsanın hər hansı məqsədinə çatması üçün təbiətə yanaşmadan bir vasitə kimi istifadə etməsi XX əsrin ortalarına qədər qalmış və getdikcə güclənmişdir. Yalnız XX əsrin son onilliyindən başlayaraq, qlobal ekoloji fəlakətin artdığı bir vaxtda insan və təbiət arasındakı münasibətlərin ağıllı balansını axtarmaq vəzifəsi qarşıda dayandı, baş verən proseslərin fəlsəfi dərk olunması daha da aktuallaşdı. Təbii elmi idraka gəldikdə isə təbiətin sınanması ideyası hakim mövqeyə çıxarıldı, onun sirlərini aşkar etmək, onun keyfiyyət müxtəlifliyini ciddi kəmiyyət

qanunlarına salmaq məqsədinə çevrildi. Eyni zamanda ilk təbiətşünasların təbii elmi materializmi insanın təbiətlə qarşılıqlı münasibətinin bütün zənginliklərinə olduqca məhdud baxışdan çıxış edirdilər. Ancaq demək olmaz ki, bu baxışlarla hamı razılaşırdı ən müxtəlif istiqamətdən olan mütəfəkkirlər bununla razılaşmırdılar. Bunula belə uzun müddət ərzində onlar üstünlük təşkil etmişdilər, məhz onlar real praktikada təbiət və cəmiyyətin qarşılıqlı münasibətlərinə uyğun gəlirdilər. İnsanı elmi-texniki gücü artdıqca onun təbiətə təsirinin təhlükəsi də artır və insan öz gücünün təhlükəsi qarşısında məsuliyyət daşımalı olur. Təbiət və cəmiyyət arasındakı münasibətdəki humanistlik və ağıllılıq daha aktual olur.

İnsan heç də təsadüfən təkamülün məhsulu hesab olunmur, axı sanki onun haradan yaranması məlum olmadığı kimi onun məhv olması da qəflətən ola bilər. Keçən əsrdə düşünüldüyü kimi təkamül kor deyil və ölümcül mübarizəyə istiqamətlənməmişdir. Dünya və insan arasında harmoniya mümkündür. Tamamilə qanunauyğun haldır ki, müasir elmi kəşflərə söykənərək, ola bilsin ki, təkamül ciddi qanunlar əsasında inkişaf edə bilər. Bəlkə də insanın yaranması Kainatın hələ rüşeym halında olduğu vaxtdan ehtimal olunurdu. Yalnız insan vasitəsi ilə dünyanın nəhəng inkişafını, onun təkamülünü dərk etmək olar. Adamların təbiətdən başqa evləri yoxdur. Onun fəth edilməsi böyük təhlükələr doğurur. Ona görə də təbiətin böyüklüyünü və gözəlliyini saxlamaq lazımdır, insanın düşünülməyən dağıdıcı fəaliyyətinin nəticələrini aradan qaldımıaq lazımdır. Bu gün ekoloji etikanın, yəni, təbiətə əbədi, müqəddəs dəyər kimi münasibət bəsləməyi tələb edən qaydaların yaradılması haqqında məsələ daha kəskin

şəkildə dayanır. İnsan və təbiət arasında əbədi və daimi kəskinləşən münaqişə mövcud deyildir.

## §2. Təbiət cəmiyyətin həyat fəaliyyətinin əsasıdır. Təbiət və cəmiyyətin qarşılıqlı surətdə bir-birinə təsiri.

Bu məsələnin şərhinə cəmiyyət həyatının təbii əsaslarından başlamaq məqsədəuyğundur. İnsan və təbiətin münasibətindəki dəqiq balansın, müvazinətin axtarışı bu gün təbiət və cəmiyyətin münasibətlərinin real durumunu aydınlaşdırmadan, eyni zamanda onların hər hirinin çəkisini müəyyən etmədən mümkün deyildir. Bəşəriyyət, özünün bugünkü qüdrətinə və müstəqilliyinə baxmayaraq təbiətin tərkib hissəsi və təbiətin təkamülünün davamıdır. Cəmiyyət təbiətlə sıx bağlıdır, ondan kənarda mövcud ola və inkişaf edə bilməz - ilk növbədə insanı əhatə edən ətraf mühit olmasa insan yaşaya bilməz. Təbii mühitin cəmiyyət həyatına təsiri istehsal sahəsində daha aydın şəkildə özünü göstərir. İnsanları təbiətdən ayrılmağa imkan verən bütün maddi istehsal öz əsasında təbii tərkib hissələrə əsaslanır. Faydalı yeraltı qazıntılar, enerji mənbələri, əmək məhsulları - hamısı təbiətdəndir. İstehsal prosesində təbiət insan tərəfindən əmək predmeti kimi, cəmiyyətin marağı naminə islahatçılıq fəaliyyətinin obyekti kimi istifadə olunur. Təbii zənginliklər (ilk növbədə faydalı qazıntılar) maddi istehsalın və cəmijq/ət həyatının təbii əsasına xidmət edir. Təbiətdən ayrılan bəşəriyyət maddi istehsal nəticəsində alınan əmək məhsulları olmadan yaşaya bilmir.

Təbiət - insanın və bütövlükdə cəmiyyətin həyat fəaliyyətinin təbii əsasıdır. Təbiətdən kənar insan mövcud deyildir və mövcud ola bilməz. Hətta kosmosda, kosmik

orbital stansiyalarda adamlar təbiət nemətlərindən istifadə edirlər. Təbiət və bütövlükdə kosmos isə, öz növbələrində, insansız yaşaya və onun fəaliyyəti olmadan keçinə bilərlər. Bir çox milyard illər ərzində belə olmuşdur. Təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsinin dərk olunması, cəmiyyətin təbiətdən asılılığım qəbul edilməsi ən mühüm zərurətdir. Maddi istehsalın və cəmiyyət həyatının təbiətdən asılılığı öz növbəsində insan fəaliyyətində müəyyən məhdudluq yaradır. Bu ilk növbədə ictimai həyat tbaliyyəti prosesində cəmiyyətin təbiətə ağıllı, səmərəli təsirinə aiddir. Burada ən əsas «Çox ziyan vurma!» prinsipi olmalıdır. Cəmiyyətin təbiətlə qarşılıqlı fəaliyyəti insan üçün yalnız əməli, fayda və mənfəət güdən, istehsal əhəmiyyəti daşımır, o, həm də sağlamlıq, əxlaqi, estetik, elmi əhəmiyyət daşıyır. İnsan yalnız təbiətdən «böyümür», o, həm də maddi dəyərlər istehsal etməklə, eyni zamanda, həm də onda «böyüyür». Eyni zamanda təbiətin hər şeydən əvvəl, həm də gözəlliyi, zövq verən cəhətləri var ki, bu da müəyyən mənada insanı rəssam, yaradıcı edir. Məhz təbiətə yaradıcı münasibətin özündən vətən hissi, toıpağa bağlılıq, vətənpərvərlik hissi yaranır. «Vətən toıpağı», «vətənin nefti, qazı, təbii sərvəti, zənginliyi anlayışları da sadəcə coğrafi anlayışlar, təmiz dil stmkturu olmayıb insanın təbiətdən mənəvi asılılığını göstərən bariz və əyani nümunələrdir.

Problemin izahında insanın təbii və ictimai varlığının vəhdəti məsələsinə xüsusi diqqət yetirmək məqsədəuyğundur. İnsanın təbiətdən asılılığının kifayət qədər aydın olması və təbiətin cəmiyyətin mövcudluğu və inkişafı üçün təbii əsas olmasının qəbul edilməsi alimləri insanda bioloji və təbii münasibətlərin hərtərəfli öyrənilməsinin zəruriliyinə gətirib çıxardı. Bu problemi tədqiq edənlərdə

insana, ilk növbədə, bioloji növün nümayəndəsi kimi, cəmiyyətə isə fərdlərin məcmusu kimi baxmaq həvəsi yaratmışdır. Buradan da onların fəaliyyətində olan əsas cəhətlər - bioloji qanunlara tabe olmaq cəhdləri meydana gəlir. Eyni zamanda insanda və cəmiyyətdə olan ictimai münasibətlərə ikinci dərəcəli rol verilir. Psixoanaliz nəzəriyyəsinin yaradıcısı olan Z.Freyd belə hesab edir ki, antropososiogenizdə - insanın ietimai genezisi prosesində, insan və cəmi}^ətin əmələ gəlməsi və inkişafı prosesində əsas bioloji səbəb hesab olunur. Onun fikrincə, o, insana nəsillərdən miras qalan psixikasında, instinktində olan şüursuz başlanğıcın həlledici təsirində kök salmışdır. Cəmiyyət də öz növbəsində arzuolunmayan heyvani instinktlərdən qorunmaq üçün əks ağırlıq, məsələn əxlaq, mədəniyyət fomıasmda olan əks təsir mexanizmi işləyib hazırlayır. Bununla belə, Freyd belə güman edir ki, bu şüursuz instinktlər, ilk növbədə cinsi instinktlər, insan davranışında mühüm rol oynayır. Mədəniyyət isə, xüsusən də Avropa mədəniyyəti öz qadağaları ilə bioloji ehtiyac hissini insanın hələ lazımınca ifadəsini tapmayan şüuruna sıxışdırır və bu da ciddi əsəb pozğunluğuna və digər psixi pozğunluğa gətirib çıxarır. Neofreydizmin nümayəndələri, xüsusən də E.From insana bioloji, o cümlədən seksual amillərin təsirinin az payından danışmış və ietimai əlaqələrin, ona daxil olan tərəflərin artdığı qeyd etmişlər. Lakin bütövlükdə onların mühakimələrində bioloji yanaşma daha çox üstünlük təşkil edir.

Fəlsəfi antropologiyanın nümayəndəsi olan M.Şeller, A.Qelen və başqaları insana və cəmiyyətə fəlsəfi, dini və estetik-elmi yanaşmaları birləşdirərək baxmışlar. Belə ki, A.Qelen orijinal bir konsepsiya irəli sürmüşdür; bu konsepsiyaya görə insan heyvan aləminin digər nüma-

yondolərindən fərqli olaraq anadangəlmə «bioloji cəhətdən yetkin olmayan» varlıqdır. Məhz bu «çatışmamazlıq» və ya yaşamaq istəyi insanı fəal inkişaf etməyə və öz bacarığından istifadə etməyə vadar etmişdir.

Cəmiyyət və təbiətin sıx əlaqəsi, təbiətdə heyvanların və cəmiyyətdə insanların davranışının oxşarlığı bir çox mütəfəkkirləri belə bir qənaətə gətirmişdir ki, cəmiyyət öz məğzinə görə bioloji superorqanizmdir. Onların fikrincə, o təbii orqanizm kimi təbii təkamül yolu ilə inkişaf edir. Cəmiyyətin orqanik (üzvi) nəzəriyyəsi beləcə yarandı: bu nəzəriyyənin qatı təbliğatçısı Q.Spen- ser, eyni zamanda onun davamçıları olan U.P.Lilienfelt, A.Stronin, A.Şeffle və başqaları oldu. Q.Spenselin və onun ardıcıllarının orqanik nəzəriyyəsinin mahiyyəti ondan ibarətdir ki, cəmiyyətin struktum və fəaliyyəti, işləməsi canlı orqanizmin anoloji, oxşar quruluşu və fəaliyyəti ilə eynidir. Məsələn, Q.Spensel belə güman edir ki, «qan zəncirləri pula bənzəyir». U.P.Lilienfelddə dövlət hökumətin timsalında baş-beynin funksiyasını yerinə yetirir, o cümlədən ictimai bədənin xəstəlikiərinə qarşı mübarizə aparan həkimlər də bu funksiyanı yerinə yetirlər. Ticarət isə, onun fikrincə, orqanizmdə qan dövranı funksiyasını yerinə yetirir. A.Şefie isə cəmiyyətin iqtisadi həyatı və maddələr mübadiləsi arasında birbaşa oxşarlıq olduğunu qeyd etmişdir. Bu «orqanik nəzəriyyədə» insanların şüurlu fəaliyyətinin spesifikliyi, onların iradə və maraqlarının inkar edilməsi aydın görünür.

Bəli, insan bioloji varlıqdır və bunu inkar etmək olmaz. Lakin müasir elmi təhlil göstərir ki, insan fəaliyyətinin bütün tərəflərini yalnız 15 faizi təmiz bioloji xarakter daşıyır. İnsan cəmiyyətdən kənarda mövcud ola bilməz. Həyatın spesifik ictimai tərzi insan və cəmiyyətin

həyatında qeyri-bioloji, ictimai qanunauyğunluğun rolunun daim güclənməsinə təkan verir. Məsələn, insanın və cəmİʒ^ətin siyasi, istehsal, mənəvi fəaliyyəti təmiz ictimai hadisədir, o, öz xüsusi təbiət qanunlarından fərqli olaraq öz xüsusi qanunları ilə inkişaf edir. Ancaq bu inkişafda təbii qanunların inkişafını qiymətləndirməmək düzgün olmazdı. İnsan ağıllı olsa da, hər halda heyvandır. Bioloji və ictimai amillər həm insanda, həm də cəmiyyətdə sıx qarşılıqlı fəaliyyətdədirlər, dialektik cəhətdən bir-biri ilə bağlıdırlar. Bioloji növ kimi insanın yaşamasının zəruriliyi və onun tam hərtərəfli inkişafının yalnız cəmiyyətdə mümkün olması ictimai birliyin xüsusi növünün - insan ailəsinin meydana gəlməsini şərtləndirmişdir. Ailə həm bioloji, həm də müxtəlif ictimai funksiyalar (təsərrüfat, tərbiyə və s.) yerinə yetirir. Onun mühüm bioloji funksiyası insan nəslinin artırılması, insanın özü-özünü istehsal etməsidir. Bax bu baxımdan ailə insan cəmiyyətinin özəyi kimi təbiətlə daha sıx bağlıdır. Əhalinin yenidən istehsalının başlıca amili kimi ailənin rolu həmişə sabit qalır. Bu funksiya demoqrafik amillərlə, əhali problemi ilə sıx bağlıdır.

Əhali nəzəriyyəsinə xüsusi yanaşma tələb olunur. Əhali müəyyən ərazi çərçivəsində: ölkənin bir hissəsində, bütün ölkədə, bir qrup ölkədə, bütün dünyada yaşayan adamların məcmusudur. Ölkənin əhalisi coğrafi mühit və maddi nemətlər istehsalı üsulu ilə birlikdə cəmiyyətin inkişaf imkanlarını müəyyən edir. Bununla belə istehsalın və bütövlükdə cəmiyyətin normal inkişafı, təbii sərvətlərin mənimsənilməsi üçün müəyyən minimum əhalinin olması zəruridir. Əksinə, əhalinin çox olması cəmiyyətin maddi həyatına mənfi təsir edə bilər və hətta ətraf mühitə öldürücü təsir edə biləcək ictimai münaqişələrə və

partlayışlara gətirib çıxara bilər. Bir sıra filosoflar, sosioloqlar və iqtisadçılar əhali artımına cəmiyyətin inkişafının hərəkətverici qüvvəsini başa düşməyin açarı kimi baxmağa cəhd etmişlər. Məsələn, ingilis siyasi iqtisadının banisi, dəyərin əmək nəzəriyyəsinin müəllifi U.Petti qeyd etmişdir ki, bütün zənginliklərin əsası əmək, istehsal sahəsidir. Ona görə də zəhmətkeş əhalinin, istehsal prosesinin başlıca iştirakçısının artımına o cəmiyyətin inkişafının, təbiətin fəth edilməsinin ən mühüm şərti kimi baxmışdır.

**Əhali artımını ictimai inkişafın əsas qüvvəsi hesab** edən nəzəriyyələr yaranmaqda olan burjuaziyanın qeyri-istehsal təbəqələrə zadəganlara və ruhanilərə qarşı mübarizədə ideologiyasını ifadə edirdi. O dövrdə bu eür ideyalar müəyyən mənada mütərəqqi əhəmiyyət kəsb edirdi. Cəmiyyətdə hakimiyyətə can atan burjuaziya torpaqla məşğul olan aristokratları onda ittiham edirdilər ki, məhz onlar əhalini dilənçi vəziyyətinə salmışdılar. Torpaq aristokratlarının ideologiyası isə mülkədarların, torpaq sahiblərinin hökmranlığına bəraət qazandırmaq üçün öz növbələrində sübut etməyə çalışırdılar ki, əhalinin kasıb vəziyyətdə yaşamasında kütlənin özü günahkardır. Nəticədə sosiologiyada yeni bir məktəb yarandı və onlar belə hesab edirdilər ki, kasıbçılığa, əhalinin dilənçi vəziyyətdə yaşamasına hər eür ehtiyac və məhrumiyyətlərə səbəb əhali artımıdır. Bu mövqeni daha fəal şəkildə ingilis iqtisadçısı və din xadimi T.R.Maltus müdafiə edirdi. Amerikalı B.Franklindən götürdüyü statistik məlumatlara əsaslanaraq yazdığı «Əhali qanunu haqqında təcrübə» (1798) əsərində o təsdiq edirdi ki, əhalinin kasıb vəziyyətinin, o eümlədən işsizliyin səbəbi əhalinin sayının həddindən artıq olmasıdır. Hər şey

«əhalinin təbii qanunu» ilə bağlıdır: bu qanuna görə əhali artımı həndəsi silsilə ilə, ərzaq istehsalının artımı isə ədədi silsilə ilə gedir. Əgər əhalinin artımını dayandmuasaq, onda gələcəkdə fəlakət olacaqdır Maltus bu vəziyyətdən çıxış yolunu əhali artımının məcburi şəkildə nizama salınmasında görürdü - müharibə, yoluxucu xəstəliklər, aclıq, məcburi ağır əmək, nigahm məhdudlaşdırılması və s. Bu nəzəriyyə onu yaradanın adı ilə maltusçuluq adı almışdır.

Maltusun ardıcılları, neomaltusçuluğun pərəstişkarları olan Q.Butul, N.Çemberlen, U.Foqt və başqaları zəif inkişaf etmiş ölkələrin geridə qalmasının əsas səbəbini ölkənin əhalisinin sürətlə artmasında görürdülər. Bu mühakimələrdə müəyyən məntiq var. Ancaq bu halda onlar, çox güman ki, səbəbi nəticə ilə qarşılaşdırırlar. Axı əhali artımı kompleks səbəblərlə: məhsuldar qüvvələrin, mədəniyyətin inkişaf səviyyəsi, mövcud ictimai quruluşun xarakteri ilə, adamların həyat inkişafı üçün bu quruluşun yaratdığı şəraitlə müəyyən olunur. İctimai inkişafın hər bir mərhələsinə bu və ya digər dövlət tipinə, mədəniyyətinə öz əhali artımı sürəti, əsasən iqtisadi şəraitlə, o cümlədən coğrafi amillərlə bağlı olan onun artımının xüsusi qanunları xasdır. Müxtəlif regionlarda və ölkələrdə müasir demoqrafik vəziyyət müxtəlifdir. Onu demək kifayətdir ki. Yer kürəsi əhalisinin 70 faizi qum ərazinin 7 faizində cəmləşmişdir. Planetin cənubunda əhali surətlə artır. Məsələn, Afrikanın, Asiyanın və Latın Amerikasının əhalisi hər 25 ildən bir praktiki olaraq iki dəfə çoxalır. Şimalda isə bunun əksi müşahidə olunur: Avropada əhali artımı demək olar ki, yoxdur, bəzi ölkələrdə hətta əhalinin azalması meyli müşahidə olunur. - məsələn, Rusiyada 1990-cı ildən üzü bəri əhalinin sayı ildə təqribən bir

milyon azalır. Aparıcı Avropa dövlətlərində əhalinin qocalınası sürətlə gedir; bunun qarşısını almaq üçün dövlət səviyyəsində müəyyən tədbirlər keçirilsə də hələlik istənilən natieələr əldə olunmamışdır.

Bunula belə qeyd olunmalıdır ki, Yer kürəsinin əhalisi öz tarixi ərzində həmişə artan sürətlə getmişdir. Əgər bizim eranın I əsrində Yer kürəsinin əhalisi 300 milyon nəfər idisə, 1965-ei ildə bu rəqəm 3 milyard 280 milyona çatdı. Otuz il sonra, 1995-ei ildə Yer kürəsinin əhalisi 5 milyardı keçdi. XX əsr ərzində əhali 3 dəfə artmış və hal- hazırda 6 milyarda çatımşdır. Yer kürəsində əhalinin yaşaması üçün qəbul edilən imkan, BMT-nin hesablamalarına əsasən 10-12 milyard ola bilər. - İndiki inkişafla Yer kürəsində XXI əsrin ortalarında əhalinin sayı bu rəqəmə çataeaqdır. Əhali artımını saxlamaq üçün təklif olunan tədbirlərdən biri də Cənub ölkələrində ailələrin planlaşdırılması ilə bağlı proqlamların qəbul edilməsidir. - hər ailə üçün iki-üç uşaq normal hesab olunur. Bu ölkələrdə əhalinin məşğuliyyət və mədəniyyət səviyyəsinin yüksəldilməsi inkişaf etmiş ölkələr tərəfindən onlara göstərilən köməyin artırılması planlaşdırılmış proqramın tərkib hissəsidir. Əhali artımı probleminin müsbət həll edilməsi həm də cəmiyyət və təbiətin qarşılıqlı münasibətinə, təbii sərvətlərin qorunmasına yaxşı təsir edəcəkdir. Əgər bütövlükdə cəmiyyəti, demoqrafik sistemi götürsək, onda ailə həyatına insan həyatının təkrar istehsalı mövqeyindən baxmaq olar ki, bu da demoqrafiyanın (yunan sözü olub demos - xalq və qrapho - yazıram mənasını verir) predmetini təşkil edir. Demoqrafiya əhalinin təkrar istehsalını («ölüm-doğum» dünyasını), onun dinamikasını, miqrasiyasım, demoqrafik vahid kimi ailəni və s. öyrənir.

Köhnə bir lətifə var: bacarığı olmayanın biri ata minir, sonra sürüşüb atın quyruğundan yerə düşür və deyir: «Bu at qurtardı, başqasını verin». Yəni torpaq qurtardı deyənlər okean istəyirlər - axı onlar fikirləşmirlər ki, okeanın dibinin də öz problemləri var. Bəzən etiraf etmək lazım gəlir ki, Maltus əhali artımı ilə onun təmin olunması arasındakı münasibətləri yaxşı görə bilmişdir. Doğrudan da, müəyyən məhdud ərazidə yaşayan əhalinin sayı o qədər arta bilər ki, bu da ehtiyatların qurtarmasına səbəb ola bilər. Demoqrafik fəlakətin mümkünlüyü haqqında danışan Maltus demoqrafik sistemin işləmə- sindəki bəzi mühüm amilləri nəzərə almamışdır: o, əhali artımına və onun təmin olunmasına birbaşa və vasitəsiz nəzər salmışdır və demoqrafik proseslərin ietimai idarə olunmasmdakı bilavasitə olan ietimai-iqtisadi, mədəni, dəyər normalarını və eəmiyyətin istiqamətini görə bilməmişdir. Bundan başqa əhalidə olan dəyişikliklər istər-istəməz iqtisadiyyatın vəziyyətinə, eəmiyyətin məhsuldar qüvvələrinin inkişafına, ietimai inkişafın sürətinə və nisbətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Əhali problemi yalnız planetimizdəki adamların sayı problemi ilə məhdudlaşmır. Cəmiyyət təbiətlə qarşılıqlı əlaqədə olduğundan demoqrafiya məsələsi qlobal ekoloji problemin bir hissəsidir və bu problemlə birlikdə həll edilməlidir. Şübhəsiz ki, eəmiyyətin taleyi üçün əhəmiyyətli olan məsələlər, eəmiyyətin təbiətlə qarşılıqlı münasibəti yalnız əhalinin olması faktı olmayıb, həm də əhalinin sayının optimal səviyyədə saxlanılmasını zəruri edir. Bəli, demoqrafiya problemi bu gün, bəşər tarixinin indiki mərhələsində ən kəskin problemlərdən biridir.

**İnsan və təbiətin qarşılıqlı fəaliyyəti məsələsini «coğrafi mühit» «ətraf mühit, «biosfera», «neosfera»**

**anlayışlarını,** eyni zamanda onların əlaqələrini aydınlaşdırmadan təhlil etmək mümkün deyildir.

**Coğrafi mühit -** bitki və heyvan aləmi, su, torpaq. Yerin atmosferi - cəmiyyət həyatının, ilk növbədə, istehsal prosesi sahəsinə cəlb olunan təbiətin hissəsidir. O, cəmiyyət həyatının ən müxtəlif tərəflərinə və ilk növbədə, maddi istehsalın inkişafına əhəmiyyətli dərəcədə təsir edir. Təbiətin müxtəlifliyi lap çoxdan insan əməyinin bölünməsinin (ovçuluq, balıq tutmaq, əkinçilik, maldarlıq, faydalı yeraltı qazıntılar və s.) təbii əsası olmuşdur. Təbii mühitin özünüməxsusluğundan insan fəaliyyətinin konkret istiqamətləri, xüsusi ilə də müxtəlif ölkələrdə və kontinentlərdə istehsalın bu və ya digər sahələrinin inkişafı asılıdır. Konkret coğrafi mühitin bu və ya digər xalqın tarixi inkişafına təsiri şübhəsizdir, eyni zamanda bu təsir olduqca müxtəlifdir. İstehsal üçün əlverişli təbii şəraitin olduğu yerlərdə hər hansı kənd təsərrüfatı məhsulunun istehsalı üçün 6-7 saat sərf etmək lazım gəlir (Bolqarıstanda, Türkiyədə). Eyni zamanda əlverişli olmayan iqlim şəraitində bunun üçün 20 və ya 30 saat sərf etmək lazım olur. Bu fərqlər cəmyyətin inkişafının ilkin mərhələsində, təbiət predmetlərinin yenidən hazırlanması onların bilavasitə hazır şəkildə istifadə olunması ilə müqayisədə çox az faiz təşkil etdiyi vaxtda, xüsusi ilə hiss olunurdu. Aydındır ki, Yer kürəsinin müxtəlif ərazilərində kifayət qədər yaxşı olmayan və əlverişsiz iqlim şəraiti ictimai inkişafı xeyli ləngitmişdir.

Nə üçün qədim sivilizasiya ilk öncə Şimal xalqlarında yox, cənub ölkələrinin xalqlarında yaranmışdır? Bunun ən başlıca səbəblərindən biri şübhəsiz ki, təbii şəraitdir. Məsələn, Qədim Misirin iqlim şəraiti Skandinaviyanın iqlim şəraitinə nisbətən burada ictimai həyatın

ilkin inkişafı üçün əlverişli olmuşdur, belə ki, bu iqlim yaşayış məskənləri və geyim, ərzaq istehsalı üçün az əmək sərf edilməsini tələb edirdi. Əlverişli eoğrafı vəziyyət ona gətirib çıxarmışdır ki, hətta məhsuldar qüvvələrin inkişafının olduqca aşağı səviyyədə olduğu cənubda belə, ilk növbədə, əmək bölgüsünün inkişafı üçün şərait yaranmışdır. Bunun da nəticəsində xüsusi mülkiyyət yarandı, əlavə məhsul istehsal olunmağa, mədəniyyətin və bütövlükdə cəmiyyətin inkişafına şərait yarandı. Bir sözlə, əlverişli təbii şərait aydındır ki, soyuq iqlim şəraitində yaşayan Şimal xalqları ilə müqayisədə cənub xalqlarının ictimai inkişafının sürətlənməsinə şərait yaratdı. Lakin cənub ölkələrinin yaxşı təbii şəraiti bu üstünlüyü əsasən bəşəriyyətin inkişafının ilkin mərhələlərində təmin etmişdir. Sonradan isə, əksinə, əlverişli iqlim şəraiti bu yerlərdə inkişaf üçün bir növ əngəl oldu. İqlim şəraiti əlverişli olduğundan cənub xalqları ictimai inkişafı gücləndirmək üçün əlavə səy göstərmir, buna cəhd etmirdilər. K.Marks yazırdı ki. «olduqca israfçıl, bədxərc təbiət insanı uşaq kimi asılı vəziyyətə salırdı. Belə olduqda təbiət insanın şəxsi inkişafını təbii zərurət kimi qarşıya qoymurdu». Təsadüfi deyil ki, cənub regionlarının xalqlarının əvvəllər fəal olan tarixi orta əsrlərdə sanki donur. Təbii şəraitdən fəal istifadə edən insanlar müəyyən vərdişlər qazanır, istehsal təcrübəsi əldə edir, bilik qazanır, öz bacarığını inkişaf etdirir, istehsal texnikasını təkmilləşdirir. Əgər onlar öz yaşamaları üçün vacib olan hər şeyi təbiətdən hazır vəziyyətdə əldə etsəydilər, onda istehsalı inkişaf etdirmək üçün eyni zamanda öz şəxsi inkişafları üçün stimul, həvəs olmazdır. Beləliklə, istehsal üçün yalnız bu və ya digər təbii şəraitin olması deyil, həmdə, əksinə, onların olmaması cəmiyyətin inkişafına

sürotlondirici tosir göstərir. Tarix mülayim iqlim şəraitində olan ölkələrin daha sürətlə inkişaf etdiyini göstərmişdir. K.Marks yazırdı: «Zəngin bitkiləri olan tropik iqlim şəraiti yox, mülayim qurşaq kapitalizmin vətəni oldu». İnsanlar öz gərgin zəhmətləri hesabına öz təlabatlarmı ödəmək üçün şəxsi baearıqlarmı inkişaf etdirdilər. Məhz rəngarəng iqlim şəraiti ietimai inkişaf üçün daha əlverişli amil rolunu oynamışdır.

İnsan eəmiyyətinin həyatında ətraf mühit mühüm əhəmiyyət kəsb edir. Bu eoğrafı mühitə nisbətən daha geniş anlayışdır. Ətraf mühit anlayışına Yerin üst qatı ilə yanaşı həm də Yerin altı, eyni zamanda insan fəaliyyətinə düşən Günəş sisteminin müəyyən hissəsi daxildir. Ətraf mühitin strukturuna təbii və süni ətraf mühit daxildir. Təbii atraf mühit deyərkən təbiətin cansız və canlı hissəsi - geosfera və biosfcrası nəzərdə tutulur, yəni, elə maddi sistem nəzərdə tutulur ki, o insandan kənarda və ondan asılı olmayaraq yaranmış və mövcuddur, eyni zamanda müəyyən vaxt keçdikdən sonra onun fəaliyyətinin obyektinə çevrilə bilər. Kosmik texnologiyanın inkişafı ilə bu obyektlər sırasına Günəş sisteminin müəyyən hissəsi də daxil olmuşdur. Ona görə də bu inkişaf edən sistemdir və onu əvvəllər olduğu kimi coğrafi mühitə daxil etmək olmaz. Marks təbii ətraf mühitə iki qrup hadisələri daxil etmişdir: həyat vasitələrinin təbii mənbəyi (vəhşi bitkilər, meyvələr, heyvanlar və s.) və əmək predmeti olan təbii zənginliklər (kömür, neft, sudan və küləkdən alman enerji və s.). Cəmiyyətin inkişafının ilkin mərhələlərində adamlar üçün birinci qrup daha çox əhəmiyyət kəsb edirdi. Lakin sonralar, məhsuldar qüvvələrin inkişafı ilə bu maraq ikinci qrupa keçdi, məhz ikinci qrup istehsalın, eyni

zamanda cəmiyyətin inkişafı üçün mühüm şəraitlərdən birinə çevrildi.

Biosfera bütün canlıların fəaliyyət sahəsidir. O, həm canlı orqanizmi, həm də onların məskunlaşdığı sahəni Yerin üst qatmı, suyu, atmosferi əhatə edir. Biosfera öz mövcudluğu və inkişafı dövründə yalnız Yerin üst qatını deyil, həm də planetin öz strukturunda da böyük dəyişikliyə səbəb olmuşdur. O eyni zamanda kosmosla da sıx bağlıdır. Biosfera nəzəriyyəsinin öyrənilməsinə, onun cəmiyyətə və təbiətə olan təsirinin araşdırılmasına rus alimi V.İ.Vernadski böyük diqqət yetirmişdir. Təbii təbiət mənbələrinin və zənginliklərinin təbii ətraf mühitin əsas hissələrinin mənimsənilməsi və yenidən qurulmasının insan üçün müsbət hal olması şübhəsizdir. Bu, ilk növbədə, cəmiyyətin maddi və mənəvi dəyərlərinin yüksəlməsi, yüksək həyat səviyyəsinin təmin olunmasıdır. Bütün bunları insan təbiətdən götünnüşdür - bu ya bilavasitə, ya da yenidən qurulmuş formada olmuşdur. Məhz bununla təbiətin insan həyatında onun həyat fəaliyyətinin əsası kimi əhəmiyyəti açıq şəkildə təzahür edir. Əgər insan özü də nə isə yaratmasaydı, nə isə özünə məxsus olan bir şey qurmasaydı o ağıllı hesab olunmazdır. İnsanın təbii yaşayış mühiti ilə qarşılıqlı fəaliyyəti yalnız təbii komponentlərlə deyil, həm də istehsalın inkişafı ilə müəyyən olunur.

Bu istehsalın mühüm nəticəsi süni yaşayış mühitinin yaradılmasıdır ki, Marks bunu «ikinci təbiət» adlandırmışdır. Süni ətraf mühitinə insanların yaratmış olduqları hər şey daxildir: bura ən müxtəlif, rəngarəng predmetlər, eyni zamanda insanların süni seçim yolu ilə yaratdıqları bitkilər və heyvanlar daxildir. Cəmiyyətin inkişafı ilə süni yaşayış mühitinin insan üçün əhəmiyyəti də durmadan

artır. İndiki zamanda iri şəhərlərsiz, evlərsiz, maşınsız, zavodsuz və s. olmayan insan cəmiyyəti təsəvvür etmək çətindir.

İnsan yalnız müəyyən ictimai münasibətlər sistemində yaşaya və fəaliyyət göstərə bilər. Bu ietimai münasibətlər müəyyən maddi şəraitdə həyata keçir, bura həm də insanların yaratdığı süni yaşayış mühiti də daxildir. Cəmiyyətin inkişafı ilə süni yaşayış mühitinin rolunun artmasını göstərən faktlara nəzər salaq: insan tərəfindən yaradılan cansız predmetlər və canlı orqanizmlər texnokütlə adlanır. Təbii şəraitdə mövcud olan, hələ insan əli dəyməyən canlı orqanizm isə biokütlə adlanır. Hesablamalar göstərir ki, müasir bəşəriyyətin yaratdığı texnokütlə bir il ərzində 1013-1014 təşkil edir, biokütlə isə yalnız 1012-dir. Buradan belə nəticə çıxır ki, bəşəriyyətin artıq indi təbii mühitdən on dəfələrlə, yüz dəfələrlə məhsuldar olan süni yaşayış mühiti yaratmışdır. Buna həm də insanın texniki təsir imkanlarını da əlavə etsək - bütöv geoloji strukturu dəyişən, nəhəng su anbarları yaradan, atmosferi dəyişən, hətta Yerin işıqlan- masmı təmin edən gücünü də əlavə etsək insanın imkanlarını aydın görə bilərik. Bu gedişlə süni yaşayış mühiti təbiini ötüb keçir, onu udur. Lakin təbii yaşayış mühiti yalnız insanın həyat fəaliyyətinin maddi şəraiti və istehsalın başlanğıc obyekti olmayıb, həm də müəyyən estetik və əxlaqi münasibətlərin obyektidir. Əgər Marksm sözləri ilə desək, təbiətlə insanın yalnız fiziki deyil, həm də mənəvi həyatı bağlıdır. Biz vəhşi təbiətin gözəlliyindən parklarda əkilən güllərin gözəlliyindən aldığımız zövq qədər zövq alırıq. Biz əvvəllər insanların qorxduqları heyvanları seyr etməkdən zövq alırıq; biz nəhayət təbiətin qorunması qarşısındakı cavabdehliyimizi duyuruq. Ona

görə də təbiət haqqında danışarkən biz nəzərə almalıyıq ki, insanın təbiət qarşısında daşıdığı məsuliyyət böyükdür. İnsanın təbiətə münasibəti yalnız istehsal prosesi ilə məhdudlaşmır, burada insan qəlbinin dərinliklərində sirli qalan bir sıra münasibətlər də vardır. Tarixən təbiətin şərh olunmasında mədəniyyətin inkişafının müəyyən səviyyəsi və onun əsasında dayanan ictimai münasibətlər öz əksini tapmışdır. Ona görə də təbiətin fəlsəfi mənasının müzakirə edilməsi yalnız təbiət və istehsalın deyil, həm də estetik, əxlaqi, ictimai münasibətlərin, təbiətin qiymətləndirilməsinin qarşılıqlı əlaqəsinin təhlilini tələb edir. Süni yaşayış mühitinin həcminin - genişlənməsi dinamikası, onun ətraf mühitə təsiri bu gün hamını narahat edir. Cəmiyyət və insanın təbiətə böyük, artmaqda olan təsiri V.İ.Vernadskinin noosfera haqqında təlimində öz əksini tapmışdır.

**«Noosfera»** (hərfi mənası-əql sahəsi) temıinini ilk dəfə 1927-ci ildə E. Lerua, sonra isə P. Teyyar de Şarden istifadə etmişdir. Vernadskinin özü noosfcra haqqında təlimin əsas ideyalarını artıq XX əsrin əvvəllərində işləmiş və bu haqda öz fikirlərini söyləmişdir. Artıq o vaxt dünyanın qlobal yenidən qurulmasında insan əqlinin imkanları götür-qoy edilmiş, insann təbiətə təsirinin prespektivləri, onların qarşılıqlı münasibətlərinin tezliklə harmonikləşməsinin zəruriliyi təhlil olunmuşdur. Bu anlayışın müəyyən edilməsində mövcud olan müxtəlif yanaşmalar haqqında demək olar ki, noosfera biosferanm və bütün planetin mövcud olmasının yeni mərhələsidir, bu vaxt insanın şüurlu fəaliyyəti. Əqli biosferanm təkamülündə yalnız həlledici amil olmayıb, həm də eyni zamanda onun qorunmasıdır. Bu vaxt cəmiyyət kortə- biiliyi əvvəllər zəif nəzarət olunan məhsuldar qüvvələrin

inkişafına, təbiətə müdaxiləyə şüurlu nəzarət edir, onu nizama salır. Noosfera mərhələsində cəmiyyətin təlabatı geo və biosfcranm imkanları ilə ölçülür. Biosfera və sivilizasiya müxtəlif, bir-birinə zidd hissələr kimi qəbul edilməməli, vahid bütövün tamı kimi, bir-birini tamamlayan, bir-birinə kömək edən bir orqanizm kimi qəbul olunmalıdır.

**Coğrafi determinizm və geosiyasət** məsələsinə də aydınlıq gətirmək vacibdir. Təbiətin cəmiyyətə təsir səviyyəsi o qədər yüksəkdir ki, bu sosiologiyada bütöv bir istiqamətin - coğrafi detemiinizmin yaranması üçün əsas olmuşdur. Onun tərəfdarları belə güman edirdilər ki, insan cəmiyyətinin inkişafı ona müxtəlif coğrafi amillərin həlledici təsiri ilə müəyyən olunur. Bir çox mütəfəkkirlər - Platon, Aristotel, Bokl, L.Mcçnikov, Ritter və başqaları bu istiqamətə üstünlük vermişlər. Məsələn, Bokl, Monteskye, Reklyu belə heab edirdilər ki, xalqların inkişafı, ilk növbədə, yerli landşaft (Yer səthinin forması), torpaq, iqlim, qida ilə müəyyən olunur. Fransız alimi Ş.Mon- teskyenin dedikləri olduqca xarakterikdir: «İsti iqlimin xalqları qocalar kimi cəsarətsiz, ürəksiz olurlar, soyuq iqlimin xalqları isə cavanlar kimi cəsarətli, igid olurlar». İngilis alimi Q.Bokl Hindistanda qulçuluğun olmasını hindlilərin psixikasına təsir edən müvafiq isti iqlimlə izah edirdi. Çox güman ki, bu deyimdə şişirdilmə halı, bəlkə də siyasi sifariş (həmin vaxtlarda Hindistan Böyük Britaniyanın müstəmləkəsi olmuşdur) öz rolunu oynamışdır. Ancaq bu cür xarakteristikalarda həm də təbiətin ayrı-ayrı adamların və etnik qrupların davranışına, psixikasına təsiri ilə bağlı sərrast müşahidələr də öz rolunu oynamışdır. Müxtəlif ölkələrin inkişaf tarixini və xalqların etnik özünəməxsusluğunu diqqətlə təhlil edərək xalqların bu və

ya digər təbii iqlim şəraitindən asılılığını qeyd etməmək olmaz. Coğrafi amilin, əhalinin etnik xüsusiyyətlərinin cəmiyyətin inkişafına təsirini nəzərə almaq zəruridir. Bu cəmiyyətdə öz siyasətinin təbii xüsusiyətlərini nəzərə almaqla onu daha effektli quraıağa imkan verir. Ancaq coğrafi amilləri mütləqləşdirmək olmaz. Başqa işlərdə olduğu kimi elmdə də ifratçılıq yalnız ziyan gətirir.

Məşhur rus alimi, Nobel mükafatı laureatı İ.Meçnikovun doğma qardaşı L.Meçnikovun «okean konsepsiyası» maraqlı və originaldır. Özünün «Sivilizasiya və böyük tarixi çaylar» əsərində (1889) rus alimi belə nəticəyə gəlir ki, insan cəmiyyətinin inkişafı, ilk növbədə, su ehtiyatlarının və rabitə yollarının mənimsənilməsi ilə müəyyən olunur. Onun konsepsiyasına görə, ardıcıl olaraq bir-birini əvəz edən bir neçə sivilizasiya mövcud olmuşdur. Onlardan birincisi - su (qədim) sivilizasiyasıdır. Bu vaxt cəmiyyət Çinin, Misirin, Messapotomiyanm böyük çaylarının mənimsənilməsi və istifadə olunması hesabına inkişaf etmişdir. Sonra Aralıq dənizi sivilizasiyası yaranmışdır, bu adamlara dəniz məkanını mənimsəməyə və kontinetdən kontinentə keçməyə imkan vermişdir. Nəhayət, Amerikanın kəşf olunması və okeanları mənimsəməklə bəşəriyyət bütün Yer kürəsi miqyasında yeni okean sivilizasiyasına daxil oldu.

L. Meçnikovun bu nəzəriyyəsi ətrafında gedən mübahisələrə baxmayaraq, burada bəzi digər cəmiyyətin inkişafı haqqındakı ictimai-siyasi doktrinalardan fərqli olaraq hər hansı sinfin və ya cəmiyyətin ictimai təbəqəsinin diktaturasına, güc işlətməsinə bəraət qazandırılmır. O humanist, ümuminsani məna daşıyır. Coğrafi determinizmə aid olan nəzəriyyəni necə qiymətləndirsək də, aydındır ki, bu sahədəki tədqiqatlar insanın inkişafında ətraf

mühitin rolunu daha dərindən dərk etmək üçün alimlərin, siyasətçilərin, iqtisadçıların diqqətini bu məsələyə cəlb edə bilmişdir. Eyni zamanda istənilən nəzəriyyənin doğmiuğunun həqiqi meyarı kimi rəhmsiz, sərt, saf, təmiz praktika cəmiyyətin təbiətdən əhəmiyətli dərəcədə asılı olmağını, iqlimin, havanın pis olmasına və digər təbii süıprizlərə baxmayaraq, ayrı-ayrı ölkələrin öz talelərini özlərinin həll etməsini, cəmiyyətin imkanlarının və vəzifələrinin təbiətindən asılı olmadığını sübut etmişdir. Coğrafi determinizmin nümayəndələri bütövlükdə öz ideyalarını dinc yolla təbliğ edirdilər. Eyni zamanda təbii amillərin əhəmiyyəti haqqında coğrafi determinizmin nəticələrinə əsaslanan nəzəriyyələrin, geosiyasətin postulatları (sübutsuz olaraq əsas götürülən müddəa, fərziyyə) bəzən olduqca təcavüzkar xarakter daşıya bilər. Geosiyasət nəzəriyyəsini əsasən Qərbi Avropa alimləri işləyib hazırlamışdır; onların arasında R.Çellenin («geosiyasət» termininin müəllifi, 1916), F.Rastel, K.Hausxofer və başqalarının adlarını xüsusi qeyd etmək lazımdır.

Geosiyasətçilərin əsas müddəalarına görə dövlətin siyasəti (ilk növbədə xarici siyasət) müxtəlif coğrafi amillərlə (məkan mövqeyi ilə, iqlim ilə, təbii ehtiyatlarla, əhalinin artım sürəti ilə və s.) müəyyən olunur. İnsan cəmiyyətinin tarixi dövlətlərin mübarizəsi kimi şərh olunur, onlar bioloji orqanizm kimi həyat məkanı uğrunda mübarizə aparırlar. Alman etnoqrafı və coğrafiyaçısı, «siyasi coğrafiyanın» banisi F.Ratsel şovinist və rasist olmasa da özünün «Siyasi coğrafiya» adlı əsərində əhalinin sayını artıraraq üçün dövlətin ərazisinin genişləndirilməsinin zəruriliyini qeyd etmişdir. Geosiyasətçilərin çıxardığı bu nəticə müstəmləkəçiliyə nəzəri bəraət qazandırır və onu əsaslandırmağa kömək etmişdir; -

bir sıra dövlətlər - Almaniya, Yaponiya, İsrail və başqa dövlətlər əhalinin sayını artırmaq üçün «həyat məkanını» genişləndirmək bəhanəsi ilə həyata keçirdikləri qəshkarhq siyasətlərində bu nəzəriyyədən istifadə etmişlər. Qərbin dəniz dövlətləri ilə Şərqin kontinental ölkələri arasındakı, qabaqeıl Şimal sənayesi ilə geridə qalmış aqrar Cənub arasındakı uydurulmuş «antoqonizmi» də coğrafi amillərlə izah etməyə cəhd etmişlər. Bir çox geosiyasi istiqamətlərin uğursuzluğu göz qabağındadır.

İnsanı və kosmos problemi ilə bağlı bəzi mühakimələri nəzərinizə çatdırmaq istərdi. Cəmiyyət və təhiətin qarşılıqlı fəaliyyəti haqqında danışarkən hiz əsasən bir planetin yerinin miqyasına əsasən fikir söyləyirik. Lakin, dediyimiz kimi, «təbiət» anlayışı geniş mənada maddi aləmin bütün obyektlərini əhatə edir. Bəşəriyyət və kosmosun əlaqəsi uzun əsrlər ərzində filosoflar tərəfindən ən yaxşı halda, məcazi mənada, elmi hipotez və fərziyyələr səviyyəsində qiymətləndirilmişdir. Bu mühakimələr əsasən «İnsan - Yerin oğlu. Kosmosun uşağıdır» tipli humanist xarakterdə olmuşdur. Kosmosun və ona daxil olan hər şeyin, o cümlədən, ətraf mühitin və bəşəriyyətin vəhdəti haqqında məsələnin öyrənilməsi XX əsrdə astronomiya və astrologiya sahəsindən fəlsəfəyə, eyni zamanda praktiki kosmonavtika və astronavtikaya keçdi. Alimlər çoxdan Günəşin fəalhğmdakı özünəməxsus izlərə (ləkə, onu üzərində şölələnən alova), protuberansa (Günəş səthi üzərində közərmiş qaz kütlələri)) diqqət yetirmişlər. Tədqiqatlar göstərmişdir ki, bu fəallıq öz növbəsində dünya məkanındakı elektromaqnit və digər titrəyişlərlə bağlıdır. Rus alimi A.Z.Çijevski astronomiyaya yə tarixə dair çoxsaylı elmi tədqiqatlar apararaq Günəşin və onun fəallığının Yerdəki bioloji və ictimai

proseslərə əsaslı təsiri haqqında nəticə çıxarmışdır. Buradan da kosmik qüvvələrin və cəmiyyətin real qarşılıqlı təsirinin olması nəticəsini çıxarmaq olar. Orijinal mütəfəkkir, məşhur rus şairləri A.Axmatova və N.Qumi- leycin oğlu L.N.Qumilyev etnogenez (xalqların mənşəyi) problemi ilə fəal məşğul olmuşdur. O, etnogenezin konkret coğrafi mühitdən birbaşa asılılığı məsələsini təhlil etmişdir. Bu mühit də öz növbəsində Günaş sisteminin - Qalaktikanın bir hissəsinin tərkibinə daxil olan Yerin biosferasınm fraqmentidir.

Beləliklə, **insan və cəmiyyət** Kainatın tərkib hisəsi olub mikroaləmin (insan) və makroaləmin (kosmos) ierarxik uyğunlaşmasının ümumi zəncirində mövcuddur. L.Qumilyev passionar konsepsiyasının üzərində çox işləmişdir. Alimin fikrincə etnosların əmələ gəlməsi və sonrakı inkişafı bir çox təbii, o cümlədən, kosmik amillərdən (Günəş fəallığından, maqnit sahəsindən və s.) çox asılıdır. Etnosların inkişafını başlıca olaraq orada xüsusi adamların fovqəlenerjiyə malik olan, qarşıya qoyduqları məqsədə, hətta bu məqsəd xəyal kimi görünsə belə dəf edilməyən cəhdlər göstərən - passionarlarm olması müəyyən edir. Passionarlarm məhz fəallıqları, fəaliyyətlilikləri, Qumilyevin fikrincə, xalqların həyatında başlıca tarixi hadisələrlə izah olunur. Passionarlar kütləyə passionar induksiyası vasitəsi ilə təsir edirlər. Passionarlarm özlərinin fəaliyyəti isə landşaftla, tarixi zamanla və kosmik amillərlə (bir növ coğrafi, daha dəqiq isə kosmik determinizmi ilə) sıx bağlıdır. Təbiət və cəmiyyətin qarşılıqlı münasibətindəki ziddİ3o^ətlərə də diqqət yetirmək yaxşı olardı.

Təbiət və cəmiyyətin qarşılıqlı münasibətində ziddiyyət labüddür. İnsan və təbiətin birgə mövcud olmasının

tarixi iki meylin vəhdəti kimi təzahür etmişdir. Birincisi, cəmiyyətin, ilk növbədə isə, onun məhsuldar qüvvələrinin inkişafı ilə insanın təbiət üzərindəki hökmranlığı tədricən və sürətlə genişlənir. Bu gün artıq o planetar səviyyədə təzahür edir, ikincisi, insan və təbiət arasındakı münasibətlərdəki ziddiyyət, harmoniyanın pozulması səviyyəsi getdikcə yüksəlir. Təbiət çoxsaylı rəngarəng tərkib hissələrə malik olmasına baxmayaraq bütöv tamdır. Şəraitinə uyğun olaraq cəmiyyətin təbiətin ayrı-ayrı hissələrinə təsiri, hətta adamların iradəsindən asılı olmayaraq baş verən bu təsir eyni vaxtda onun digər hissələrinə də təsir göstərir. Təbiətin bütövlüyünün, dialektik xarakterinin insan tərəfindən inkar olunması çox vaxt həm təbiət üçün, həm də son nəticədə cəmiyyətin özü üçün olduqca mənfi nəticələrə gətirib çıxarır. Bu haqda hələ XIX əsrin ortalarında F.Engels yazmışdır: «Təbiət üzərindəki qələbəmizə çox sevinməməliyik. Hər bu cür qələbəyə görə o bizdən qisas alır. Bu qələbənin hər biri, şübhəsiz ki, ilk növbədə, bizim nəzərdə tutduğumuz faydanı verir, ancaq ikinci və üçüncü anda heç gözləmədiyimiz nəticələrlə üzləşirik və bu nəticələr birinci anda əldə olunan qələbəni məhv edir». Vaxtilə əkin sahələri yaratmaq üçün meşələri kütləvi şəkildə məhv edən əcdadlarımız bu gücləri ilə öyünmüş, təbiət üzərindəki qələbələrinə görə fəxr etmişlər. Lakin sonralar əsən külək, yağan yağış torpağın üst qatlarını yuyub aparmış və həmin yerləri şoranlığa çevirmişdir. Yaxşı deyirlər ki, Milin, Muğanın çəmənliyi, gülü-çiçəyi monqolların atlarının dırnağında getdi.

Yaxın keçmişə qədər bütöv bir nəsil iddia edirdi ki, dialektikanı onlar «Hegeldən öyrənməmişlər». Ümumi mədəniyyət səviyyəsinin aşağı olması (o cümlədən fəlsəfi

mədəniyyətin), insanların öz praktikalarında dünyanın qanunauyğunluqlarını, o cümlədən dialektik qarşılıqlı əlaqəsini inkar etmələri - çox təəssüf ki, qəmli bir reallıqdır. Bəşəriyyətin öz şəxsi səhvlərindən öyrənmək istəməməsinin acı nəticələri meşələrin kütləvi şəkildə qırılmasından sonra qumyan çaylara, əkin sahələrindən düzgün istifadə etməməyimizin nətieəsində şoranlaşan toıpaqlara, quruyan dənizlərə, yox olan flora və faunaya va s. gətirib çıxardı. Bizim günlərdə adamların ətraf mühitə görünməmiş vəhşiliklə müdaxiləsi həm təbiət üçün, həm də cəmiyyət üçün acınacaqlı nəticələr törədir, çünki məhsuldar qüvvələrin inkişafının yüksək səviyyədə olmasından bu müdaxilə kifayət qədər güclü, çox vaxt nəticəsi bilinməyən səviyyədə olur. Ziddiyyətləri zəiflətmək üçün təbiətə olan istənilən müdaxilə, hətta ən xırda miqyasda olan müdaxilə belə bu gün əvvəlcədən hərtərəfli hesablanmalı və əsaslandırılmalıdır. Bundan başqa, təbiət və cəmiyyət arasındakı dinamik tarazlığı saxlamaq üçün insana daim qayğı göstərməlidir. İnsan yalnız təbiətdən götürməməli, həm də ona nə isə verməlidir (meşələr salmalı, balıq vətəgələri yaratmalı, milli parklar salınmalı və s.). Millət vəkili M.Əliyevanm «hərəyə bir ağac əkək» devizi ilə keçirdiyi yaşıllaşdırma kompaniyası bu sahədə həyata keçirilən ən böyük tədbir kimi yüksək qiymətləndirilməlidir. Yalnız Bakıda yox, respublikanın bütün ərazilərində keçirilən bu tədbirlər insanın təbiətə qayğısının bariz nümunəsidir. Milli parkın abadlaşdırılması, şəhərimizin müxtəlif yerlərində, bütöv respublikada ümummilli liderimiz H.Əliyevin adına bir-birinin ardınca salınan parklar olduqca dəyərli olan bir işdir.

insanların təbiətə olan münasibətlərinin dəyişməsindən bəşəriyyətin sabahı çox asılıdır. İnsanın, cəmiyyətin təbiətə münasibəti fəlsəfənin mühüm problemi olmuş və bu gün də olaraq qalır. İnsan tarixi və təbiət tarixinin qarşılıqlı əlaqəsi və qarşılıqlı şəkildə şərtlən- məsinin başa düşülməsi, tarixi proseslərin ekoloji komponentlərinin dəqiq hesabatı - tarixin elmi anlaşılmasının əhəmiyyətli tərəfidir. Maddi istehsal, bütövlükdə cəmiyyətin bütün həyatı müəyyən təbii şəraitdən asılıdır. Əgər sistemin müasir təsnifatından istifadə etsək onda cəmiyyəti açıq sistem adlananlar sırasına daxil etmək olar; cəmiyyət təbiətdən qida məhsulları götürür, istehsal vasitələri hazırlamaq üçün xammal alır, oradan istehsalın və ictimai həyatın inkişafı üçün konkret amillər kimi çıxış edir. Bu təsiri bir neçə **əsas istiqamət** üzrə izləmək məqsədəuyğundur.

1. Coğrafi mühit əməyin ictimai bölgüsünə, istehsalın müxtəlif sahələrinin yerləşdirilməsinə və inkişafına təsir edir. Tarixdə ilk böyük ictimai əmək bölgüsü - maldarlığın əkinçilikdən ayrılması coğrafi mühitin şəraitini nəzərə almaqla baş vermişdir. Bu gün də bu cür hesabatı bizlər aparırıq, istehsalın bu və ya digər sahələrini yaradarkən optimal coğrafi şərait nəzərə alınır.

2. Coğrafi mühit əməyin məhsuldarlığına təsir edir. Söhbət, ilk növbədə, hava - iqlim şəraitinin (havanın temperaturunun, yağışın, küləyin və s.) təsirindən gedir. Texniki imkanların və işçi qüvvəsinin eyni olduğu vəziyyətində nəticə məhz coğrafi şəraitdən asılı olur.

3. Coğrafi mühit insanın bacarığının inkişafına təsir edir; bir vəziyyətdə bu bacarığı nizama salır, digər vəziyyətdə onu ləngidir. Əgər insanlar hər şeyi təbiətdən hazır vəziyyətdə götürsəydilər, onda onların inkişafını

nizamlayan heç nə olmazdı. Əksinə, olduqca kəskin və eyni şəkildə olan mühit də pis təsir göstərir. Əlbəttə, «əlverişli» və «əlverişsiz» coğrafi mühit anlayışı özü mütləq deyildir. Bir vaxtlar var idi ki. Sibir iqtisadi inkişaf üçün əlverişsiz yer hesab olunurdu, bu gün isə insanların gərgin əməyi hesabına burada iri yaşayış məskənləri salınmışdır.

4. Coğrafi mühit bütövlükdə həmin cəmiyyətin inkişaf sürətinə təsir edir; eyni zamanda o, ölkənin coğrafi vəziyyətinə də təsir göstərir. Amerikanın kəşfi və Afrika ətrafında dəniz yolunun açılması ilə İngiltərə və Fransnm sahil şəhərlərinin hansı sürətlə inkişaf etməsini xatırlamaq kifayətdir.

5. Coğrafi mühit istehsal münasibətlərinin inkişafına təsir edir. F.Engels öz məktublarından birində «Nə üçün Şərq xalqlarında torpaq üzərində xüsusi mülkiyyət olmamışdır?» sualına belə cavab vennişdir: «Mənə belə gəlir ki, bu, ilk növbədə, iqlim şəraitindən və torpağın xarakterindən asılıdır. Əkinçilik üçün orada birinci şərait süni suvarmadır, bu da ya icmanın, ya əyalətin, ya da hökumətin işidir».

6. Coğrafi mühit üstqurum hadisələrinin yaranmasına və onun spesifik xüsusiyyətlərinə təsir edir. Bu, ilk növbədə, üstquruma, dövlətə aiddir. Yuxanda deyilən fikirini davam etdirərək Engels göstərir ki. Şərqdə dövlətin yaranması siniflərin yaranması prosesindən qabaqda getmişdir, bütün region miqyasında suvarma sisteminin yaradılmasını sürətləndirmişdir. Coğrafi mühit cəmiyyətin mənəvi üstqurumunda da öz izini qoyur.

Hcgel özünün «Tarixin fəlsəfəsi» əsərini (girişi nəzərə almasaq) «Ümudünya tarixinin coğrafi əsası» bölməsi ilə başlamışdır. Təbiətə xalqın ruhunun inkişafının əsası

kimi baxılır. Hegel öz mühakimələrində və nümunələrində nə qədər qətiyyətli olsa da, onun fikrində böyük bir həqiqət var. Coğrafi amillərin, xüsusən də landşaftın mənəvi fenomenlərə təsirini Engels qədim dinlər haqqında söhbət açarkən izləmişdir. Engels yazırdı: «Elladanın payına böyük xoşbəxtlik düşmüşdür, onun sakinlərinin ibadət etdikləri din onun landşaftının xarakterini dərk etmişdilər. Elladanın landşaftı harmoniya ilə əhatə olunmuşdur. Onun hər bir ağacı, hər bir bulağı, hər bir dağı daha qabarıq şəkildə ön plana keçmişdir; təbiətin hər bir ayrıca hissəsi öz gözəl yetkinliyi ilə öz allahına iddia edir, hər bir çay öz nimfasmı (qədim yunanlarda təbiətin müxtəlif qüvvələrindən birini təmsil edən ilahə, pəri) tələb edir, hər bir çəmənlik öz driodasmı (qədim yunan əfsanələrində meşə pərisi) axtarır; ellinlərin dini beləcə yaranmışdır». Digər nümunə kimi Engels şimali alman çölünü göstərir buradakı eyni cür olan landşaft, onun fikrincə, yalnız monotesist dünyagörüşü formalaşdırır. Coğrafi mühitin incəsənətə təsirini də buna oxşar şəkildə izləmək olar. Əgər biz yanılmadan Azərbaycan və gürcü, rus və moldovan mahnılarını seçə biliriksə, bu müəyyən mənada onunla bağlıdır ki, coğrafi mühit musiqi ritminə, mahnıya, hətta ifaçının səsinə təsir göstərir. Deyirlər muğam Qarabağdan yüksəlir, şimal tərəfdə yaşayanlar yaxşı rəqs edir, qərb zonasında hər evdə şair böyüyür və s.

7. Coğrafi mühit ictimai-psixoloji simaya və cəmiyyətin üstqurumuna, yəni onun mentalitetinə təsir edir. Məsələn, məkanca məhdud, təbii ehtiyatları çox da zəngin olmayan coğrafi mühit həmin yerdəki xalqın inkişafına, ondakı qayğıkeşlik hissinin güclü olmasına təkan verir, təbiət öz zənginliyi ilə insanın mənəvi dünyasına öz töhvəsini verir. Əlbəttə, coğrafi mühitin

müxtəlif amillərinin müxtəlif tarixi dövrlərində cəmiyyətin inkişafına təsir səviyyəsi eyni deyildi. Məsələn, məhsuldar qüvvələrin inkişafı ilə ölkənin təbii sərvətlərdən asılılığı xeyli azalmışdır. Lakin tarix göstərir ki, müəyyən münasibətlərdə asılılığın zəifləməsi digər münasibətlərdə cəmiyyətin təbiətdən olan asılılığını gücləndirir.

Hər halda coğrafi mühit və cəmiyyətin harmoniyasının qayğısına qalmaq bəşəri}^ətin sabahı üçün, hər bir fərdin rahat yaşaması üçün vacib olan amillərdən biridir.

## §3. Ekologiya, müasir qlobal ekoloji problemlər və onların həlli yolları:

İnsanın təbiətdən, təbii ətraf mühitdən asılılığı bəşər tarixinin bütün mərhələlərində olmuşdur, lakin o heç vaxt daimi olmamış dialektik ziddiyyət şəklində dəyişmişdir. Bir tərəfdən, eəmiyyətin məhsuldar qüvvələrinin inkişafı ilə, insanın təbii yaşayış mühiti ilə qarşılıqlı münasibətinin neeə olması ilə onların yaratdıqları «ikinci təbiət» daha sıx istifadə olunurdu, insan özünü təbiətdə kortəbii baş verən hadisələrdən qorumalı olurdu. Geyimin təkmilləşdirilməsi, istiləşdirilən və süni şəkildə soyudulan mənzillərin yaradılması, seldən qoruyan torpaq bəndlərin, seysmik cəhətdən dözümlü binaların tikilməsi - bütün bunlar və bir çox digər tikililər yalnız yaşayış üçün əlverişli şərait yaratmır, həm də Yer kürəsində yeni ərazilərin, indi isə hətta kosmosun mənimsənilməsi sahəsində xeyli işlər görülməsinə gətirib çıxardı. İnsanın təbiətdən asılılığını zəiflədən bu proseslərlə yanaşı məhsuldar qüvvələrin inkişafı ilə digər meyllər də sıx bağlı idi. İnsanın fəaliyyət

orbitinə durmadan artan yeni proseslər cəlb olunur, insanın təbiətdən istifadəsi genişlənir, onun ətraf təbiətlə əlaqələri daha da rəngarəng olur. Tutaq ki, dəmirdən istifadə etməyi öyrənən insanlar təbiətlə qarşılıqlı münasibətlərində öz qüdrətlərini kəskin şəkildə artırmışdırlar. Bununla yanaşı vaxt keçdikcə sivilizasiyanın öz inkişafı planetdə olan dəmir filizi ehtiyatlarından, onların axtarışından və istifadəsindən asılı vəziyyətə düşür. Digər bir nümunəyə nəzər salaq. Kömür və neft uzun illər yalnız sırf yanacaq-enerji ehtiyatı kimi istifadə olunmuşdur, yəni sadə dillə desək onları yandırmışlar. Lakin sonralar insanlar kömür və nefti yandırmaqla yanaşı, həm də onlarda xeyli sayda istifadə olunan məhsullar əldə etməyə başladılar. - belə ki, müasir neft kimyası səkkiz mindən çox müxtəlif təyinatlı məhsul növü əldə edir. Bu cür nümunəni sonsuz sayda artırmaq olar və onların hər biri insanın təbiətdən getdikcə artan asılılığını göstərəcəkdir. Bizim günlərdə bu asılılıq çox vaxt olduqca dramatik şəkildə aşkar olunur, belə ki, təsərrüfat fəaliyyəti üçün zəruri olan bir çox ehtiyat növlərinin tətbiq olunma miqyası, eyni zamanda bəşəriyyətin yaşaması rçün ondan istifadə olunması planetdə olan bu ehtiyatların tükənməsinə gətirib çıxartmışdır. Mütəxəssislərin hesablamaları göstərir ki, iqtisadi inkişafın bu gün mövcud olan meylinin saxlanılması, bu ehtiyatlardan istifadənin artması ona gətirib çıxardacaq ki, yaxın on il ərzində onların əksəriyyətinin ehtiyatı tükənəcəkdir. Deməli, yalnız insan təbiətdən asılı deyildir, həm də təbiət insandan, onun fəaliyyətinin miqyasından, forma və istiqamətindən asılıdır. İnsan ətraf mühitə olduqca mənfi təsir göstərir. Bütün dünyada sənaye istehsalının genişlənməsi, eyni zamanda mövcud çox tullantıh texnologiyaya əsaslanan

istehsalın artımı insan və təbiət, cəmiyyət və onun yaşayış mühiti arasındakı qarşılıqlı münasibəti olduqca böhranı bir səviyyəyə çıxarmışdır. Bəşəriyyətin mövcudluğunun özü üçün təhlükə ilə bağlı məsələ tam kəskinliyi ilə qarşıya çıxmışdır - təbii ehtiyatların tükənməsi və insan həyatı üçün təhlükə yaradan yaşayış mühitinin çirklənməsi qorxusu hamını narahat edir. İnsan və cəmiyyət arasındakı münasibətdə yaranan məhz bu ziddiyətlə ekoloji problemin mahiyyəti müəyyən olunur.

Təbii ehtiyatlardan öz gücünü getdikcə artıran texniki vasitələrdən istifadə etməklə geniş istifadə edən insan öz sivilizasiyasının inkişaf şəraitini və bioloji növ kimi öz inkişafını xeyli yaxşılaşdırmışdır. Ancaq təbiəti «fəth edən» bəşəriyyət öz həyat fəaliyyətinin təbii əsaslarını əhəmiyyətli dərəcədə laxlatmışdır. Məlumdur ki, məsələn, son 500 il ərzində insanın iştirakı ilə Yer kürəsini örtən meşələrin 2/3 hissəsi məhv edilmişdir. Biosferaya ən güclü təsir XIX əsrin sonlarından başlayaraq, xüsusən də, XX əsrdə vurulmuşdur - sənaye istehsalının genişlənməsi təbiətə vurulan zərbə hesabına aparılmışdır. Bir tərəfdən bunlar əhəmiyyətli dərəcədə xeyir gətirmişdir. Son 100 ildə bəşəriyyət enerji ehtiyatlarını min dəfə artırmışdır. İnkişaf etmiş ölkələrdə məhsul və xidmətin həcmi hər 15 ildən bir iki dəfə artır və bu vaxtın aşağı düşməsi meyli özünü göstərməkdədir. Lakin bununla yanaşı təsərrüfat fəaliyyətinin tullantıları da müvafiq olaraq iki dəfə çoxalır, bu da ətraf mühiti, atmosferi, su mənbələrini, torpağı korlayır. Müasir istehsal təbiətdən 100 ədəd mal götürüb onun yalnız 3-4 dənəsini istifadə edir, yerdə qalan 96 ədəd tullantı şəklində yenidən təbiətə atılır. Sənaye cəhətdən inkişaf etmiş ölkələrin hər bir sakini il ərzində təbiətdən təqribən 30 ton mal götürür.

onun yalnız 1-1,5 faizi istehlak forması kəsb edir, qalanı isə yenidən təbiətə atılır, bu isə çox vaxt bütövlükdə təbiətə görülməz dərəcədə ziyan vurur. Nəticədə biosferanm özü-özünü təmizləməsi xeyli aşağı düşmüşdür, o, insanın atdığı tullantıdan artıq özünü təmizləyə bilmir. Bütün bunlar Yer kürəsi ətrafında karbon qazı təbəqəsinin yaranmasına gətirib çıxamrışdır yaxın gələcəkdə bizim mavi səma görünməz hala düşə bilməsi təhlükəsi qarşısındadır: enerji balansının pozulması, temperaturun tədricən istiləşməsi bu gün məhsuldar hesab olunan regionlarda quraqlığa gətirib çıxara bilər, buzla örtülü okeanlarda buzun əriməsi nəticəsində suyun səviyəsinin qalxması sahil ölkələrin və şəhərlərin su}mn altında qalması təhlükəsi ilə üzləşə bilər. Oksigen balansının pozulması təhlükəsi. Dünya okeanın çirklənməsi kimi meyllər ekoloji problemlərin qlobal xarakter daşıdığını göstərir. Bütün bunlar adamların sağlamlığına mənfi təsir göstərir, onların əməyinin məhsuldarlığı aşağı düşür yaradıcılq fəallığı zəifləyir, torpaqların məhsuldarlığını saxlamaq üçün kapital qoyuluşunun miqdarının artırılması, su mənbələrinin təmizlənməsi zəruri hal kimi qarşıya çıxır. Ətraf mühitin çirklənməsi, ayrı-ayrı dərmanlara dözümlü olan mikroblarm artması, qəbul edilən qidanın ekoloji cəhətdən təmiz olmaması insanlara mənfi təsir göstərir. Nəticədə anadangəlmə çatışma-mazhqlarla doğulan uşaqların sayı dumadan artır, irsi xəstəliklər çoxalır, xronoloji xəstəliklər, mənşəyi məlum olmayan xəstəliklər baş alıb gedir. Ekoloji böhranın artması buna bais olan insanların özləri üçün daha acınacaqlıdır. Vəhşi heyvan və bitki növlərinin bir çoxunun məhv olması, xəstə doğulan uşaqların sayının

durmadan artması ekoloji problemi kəskin şəkildə qoymuşdur.

Ekoloji problemin mahiyyəti ətrafında fikir söyləmək məqsədəuyğundur. Son onilliklər elmi-texniki inqilabın inkişafı bəşəriyyətin məhsuldar qüvvələrinin inkişafında görünməyən mütərəqqi dəyişiklər yaratsa da, eyni dərəcədə bu onilliklər ekoloji problemi gərginləşdirmişdir - bu da təbii ehtiyatların tükənməsi ilə bağlı narahatlıq yaratmış, insan fəaliyyətinin kortəbii nəticələrinin qarşısını almaq üçün tədbirlər görülməsini zəruri etmişdir. Ancaq elmi-texniki tərəqqi və onun nailiyyətlərinin tətbiqi özü-özlüyündə ətraf mühitə dağıdıcı zərbə vunnuş, təbii ehtiyatların tükənməsində və insanın yaşamaq şəraitinin pisləşməsində onun rolu necədir? Yoxsa bu mənfi nəticələr təbiətə təsirin konkret metodları və formaları ilə, elmin və texnikanın nailiyyətlərindən istifadə formaları ilə bağlıdır? Axı elm və texnikanın inkişafı konkret ictimai sistemlə sıx bağlıdır və bu sistem elm və texnikanın inkişafını, bütöv məhsuldar qüvvələrin inkişafını, hərn də təbiətə təsirin forma va metodlarını müəyyənləşdirir. Bununla bağlı daha bir əsaslı sual yaranır; ekoloji problemin mahiyyəti nədir və o bəşəriyyət qarşısında hansı real dilemma (iki mümkün qərar və ya nəticədən birini qəbul etmək məcburiyyəti) qoyur, onun nəzəri və praktiki həlli yolları hansıdır?

Ekoloji problemə yanaşma, bir tərəfdən, onun kompleks və qlobal xarakter daşıdığını görməyə imkan verir. Digər tərəfdən isə konkret ictimai kontestdən ictimai, texniki və mədəni tərəqqi ilə bağlı onun mənşəyini və mahiyətini görməyə imkan verir. Bu cür yanaşma istər nəzəri, istərsə də praktiki münasibətlər kimi ağllı realizm mövqeyini təsdiq edir, elmi cəhətdən əsaslandırılmış

fəaliyyətə sövq edir, ekoloji problemi həll etmək üçün bütün qüvvələrin birləşdirilməsi zəruriliyini yaradır. Unutmaq lazım deyil ki, cəmiyyət və təbiətin qarşılıqlı münasibəti tarixi xarakter daşıyır və ictimai inkişafın gedişində bu qarşıhqlı münasibətin formaları, miqyası və meyli dəyişir. Maddi istehsal, insan fəaliyyəti insanlann yaşayış şəraitinə həm müsbət, həm də mənfi təsir göstərir. Ona görə də insanın ekologiyası, onun ətraf mühitə təsiri vacib problemə çevrilir, müstəqil əhəmiyyət kəsb edir, bununla belə onun həllinin açarı ictimai amillərin təhlilində, bu amillərlə şərtlənən istehsalın özünəməx- susluğundadır. Ekoloji problemin sırf elmi və texnoloji tərəfləri ilə yanaşı onun ictimai-iqtisadi, siyasi, o cümlədən beynəlxalq hüquqi tərəflərini qeyd etməklə bu problemin ictimai, mədəni, ideoloji, etnik-humanist, nəhayət estetik tərəflərini də nəzərə almaq vacibdir. Məhz bunlar ekoloji problemin kompleks araşdırılmasını tələb edir. Bu tərəflərin hər hiri özlüyündə öz həllini tələb edən böyük problemdir. Ancaq bu problemin hər birinin ayrılıqda təhlili və ya vahid ekoloji problemin ayrı-ayrı tərəflərinin araşdırılması hər vaxt bu və ya digər ümum- fəlsəfı mövqeyinin yaranmasına gətirib çıxarır.

İnsanın təbiətə təsir səviyyəsi, ilk növbədə, cəmiyyətin texniki imkanlarından asılıdır. Bəşəriyyətin inkişafının ilkin mərhələsində bu təsir olduqca az olmuşdur. Lakin cəmiyyəti'n inkişafı ilə, onun məhsuldar qüvvələrinin yüksəlişi ilə vəziyyət köklü şəkildə dəyişməyə başladı. XX əsr artıq elmi-texniki tərəqqi əsri oldu. Elmin, texnikanm və texnologiyanın keyfiyyətcə yeni qarşılıqlı münasibətinin yaranması cəmiyyətin təbiətə təsirinin imkanlarını və real miqyasını xeyli artırdı, bəşəriyyət

qarşısında olduqca kəskin problemlər, ilk növbədə, ekoloji problem qoydu.

**Ekologiya nədir?** 1866-cı ildə ilk dəfə alman bioloqu E. Henkel tərəfindən işlədilən bu terminlə canlı orqanizmin ətraf mühitlə qarşılıqlı münasibəti haqqında elm başa düşülür. Alim belə güman edirdi ki, yeni elm yalnız heyvanlar və bitkilərin yaşadıqları mühitlə qarşılıqlı əlaqələri ilə məşğul olacaqdır. Bu termin XX əsrin 70-ci illərində bizim həyatımıza daha möhkəm daxil oldu. Bu gün biz ekoloji problemlərdən faktiki olaraq ictimai ekologiya kimi - cəmiyyət və ətraf mühitin qarşılıqlı fəaliyyəti problemini öyrənən elm kimi danışırıq. Ekoloji problemi daha yaxşı anlamaq üçün onun ayrı-ayrı təriflərinə nəzər salaq. İlk növbədə ekoloji fəaliyyət deyərkən nəyin nəzərdə tutulduğunu izah edək. Ekoloji fəaliyyət eəmiyyətin təbiətə olan fəallığının spesifik təzahürü kimi özünü təqdim edir. İstənilən münasibətin spesifikası bu münasibədərdə iştirak edən tərəflərlə şərtlənir. İndiki halda münasibətlərin xüsusiyyəti həm eəmiyyətlə, həm də təbiətlə müəyyən olunur. Düzdür aparıeı rol ietimai tərəflərə məxsus olsa da bu qarşılıqlı münasibətdə təbiət tərəfinin fəallığını, onun tarixi proseslərə təsirini inkar etmək səhv olardı. Bu fəallıq iki səbəbdən: ya təbiət daxili ziddiyyətlərinin inkişafı nəticəsi kimi, ya da cəmiyyətin fəallığına cavab reaksiyası kimi - birinin nəticəsi kimi çıxış edir.

Beləliklə, «cəmiyyət-təbiət» sistemində sistem yaradan rolunu cəmiyyətin fəallığı oynayır. «Heyvan- yaşayış mühiti» ekoloji sistemindən fərqli olan bu sistemin qurulması prosesində xüsusi tip fəallığın - ekoloji fəaliyyətin qurulması və inkişafı ilə müəyyən olunur. Ekoloji fəaliyyət cəmiyyət və təbiət arasındakı dinamik

tarazlığın qorunmasına yönələn və ya bu tarazlıq pozulubsa onun bərpa edilməsinə yönələn fəaliyyətdir. Ekoloji fəaliyyətin obyektiv əsası cəmiyyətin öz mövcudluğu və inkişafı üçün əlverişli və ya əlverişsiz təbii mühitə olan təlabatıdır. Bu təlabatm dərk olunması onun həyata keçməsi uçün müvafiq məqsəd və fəaliyyət doğurur. Doğrudur ekoloji fəaliyyətin nəticələri heç də həmişə qarşıya qoyulan məqsədə uyğun gəlmir. Əgər bu və ya digər səbəbdən məqsədə nail olunmursa onda təbii mühiti, bəzən hətta bütövlükdə «cəmiyyət-təbiət» sistemini korlayan ekoloji cəhətdən müsbət nəticə alma bilər. Məsələn, 1980-ci ildə təbii mühitin getdikcə pisləşməsinin qarşısını almaq üçün Qara Boğaz Qol bağlandı, lakin nəticə gözlənildiyinin tam əksinə oldu. Ancaq ekoloji fəalİ5^ət bu baxımdan istisnalıq təşkil etmir: məqsəd və nəticə arasındakı «qayçı» istənilən digər fəaliyyət üçün xarakterikdir. Bütün digər fəaliyyətlər kimi ekoloji fəaliyyətdə iki tərəfi fərqlənlirirlər: maddi, yəni təbii mühiti yaxşılaşdırmaq və qorumaq üçün istehsal fəaliyyəti və mənəvi - ekoloji siyasətin işlənib hazırlanması və həyata keçirilməsi, təbiəti qoruma hüquqlarının təkmilləşməsi (məsələn, hər hansı növ bitki, heyvan növünün məhv edilməsinə qadağan qoyulması və buna oxşar tədbirlər), cəmiyyətin üzvlərində ekoloji şüurun tərbiyəsi, o cümlədən ekoloji baxımdan ağıllı hesab edilən təlabatlarm və əxlaq normalarının formalaşdırılması.

İctimai-ekoloji münasibətlərin təhlilinə xüsusi yer vermək məqsədəuyğundur. Ekoloji fəaliyyət yalnız məhsuldar qüvvələrin səviyyəsi ilə, yəni cəmiyyətdə olan texniki və kadr imkanları ilə deyil, həm də ictimai münasibətlərlə, ilk növbədə istehsal-iqtisadi münasibətlərlə determinasiya (bütün hadisələrin qanunauyğunluğu

və səbəbiyyət əlaqəsindən asılılığı) olunur. İctimai-ekoloji münasibətlərin məğzini aydınlaşdırmaq üçün iki mühüm vəziyyəti nəzərə almaq lazımdır. Birincisi, ekoloji fəaliyyət çoxlu fərdlərin, çox vaxt bütövlükdə cəmiyyətin, bu gün isə bütün planet miqyasında hamının əməkdaşlığını nəzərdə tutur. Adamların bir-biri ilə münasibəti olmadan onların təbiətlə münasibətləri yoxdur. Bununla bağlı müəyyən etmək olar ki, ictimai-ekoloji münasibətlərin məğzini adamların təbiətə münasibəti çərçivəsində onların bir-biri ilə münasibətləri təşkil edir. İkincisi, ekoloji fəaliyyət ictimai mühiti yenidən dəyişdirən insan fəaliyyətindən mütləq ayrı şəkildə baş vermir. İnsan tarixinin bütün mərhələlərində fəaliyyətin bu iki növü bir- biri ilə sıx bağlı olur, bunun da nəticəsində ictimai-ekoloji münasibətlərə ictimai münasibətlərin bütün sisteminin- həm maddi (texnoloji və iqtisadi), həm də ideoloji (siyasi, hüquqi, əxlaqi və s.) - ekoloji aspekti kimi baxılır. İctimai ekoloji münasibətlər ekoloji ictimai fəaliyyətin ilkin əsasi, şərti, eyni zamanda nəticəsi kimi çıxış edir, yəni bu fəaliyyəti determinasiya edir, onlar orada yığılır və tədricən öz-özünə yaranırlar. «Cəmiyyət - təbiət» sistemində münasibətlərin kəskinləşməsi ilə ekoloji fəaliyyət xüsusi əhəmiyyət kəsb edir, ona olan tələbat kəskin şəkildə artır. Əgər ictimai-ekoloji münasibətlər bu fəaliyyətin inkişafına kömək etmirsə və ya onun inkişafını ləngidirsə bu münasibətlərin dəyişdirilməsi zərurəti yaranır, yəni əlavə amillər yetişir, onlar da digər səbəbiyyət amilləri ilə sosial inqilabın yetişməsinə kömək edir. Məsələn, XVIII əsr fransız inqilabını öyrənən tarixçilər dəfələrlə qeyd etmişlər ki, 1789-cu ildən əvvəl ölkəni bürüyən quraqlıq, məhsul olmamasından yaranmasını aclıq inqilabi vəziyyətin yaranmasını şərtləndirən

amillərdən biri olmuşdur. Lakin bir daha qeyd edək ki, qarşımızda dayanan əlavə səbəbdir, bununla belə o ictimai inqilabın dərin əsasları ilə sıx bağlıdır.

**Ekoloji ziddiyyət** məsələsinin təhlilinə də diqqət yetirmək yaxşı olardı. İstənilən qarşılıqlı fəaliyyətdə ziddiyyət var, burada tərəflər nisbətən sabitdirlər, sərbəstdirlər, əks istiqamətdə fəaliyyət göstərirlər, bir- birini istisna edir, öz aralarında mübarizə aparır, eyni zamanda bir-biri ilə qarşılıqlı əlaqədə olur, bir bütövlük təşkil edirlər. Deyilənlər tam mənada ekoloji ziddiyyətin inkişaf prosesi kimi çıxış edən cəmiyyət və ətraf mühitin qarşılıqlı fəaliyyətinə aiddir. Cəmiyyətin formalaşması prosesində cəmiyyət və ətraf mühit arasında ekoloji ziddiyyətin yaranması baş verir. Əvvəlcə, bütün başda dialektik ziddiyyətlər kimi o fərqli formada çıxış edir. Bu başlanğıc onunla xarakterizə olunur ki, təbiət hələ tarixin gedişi ilə öz formasını dəyişmişdir və adamlar təbiətə heyvan kimi münasihət bəsləyirlər. Ekoloji ziddiyyət özünün sonrakı inkişafında müxtəlif hallar yaşayır, hətta hu hal ekoloji böhran kimi də təzahür edir. Ekoloji ziddiyyətin xüsusiyyəti onunla müəyyən olunur ki, iki keyfiyyətcə müxtəlif tərəflər, müxtəlif səviyyədə təşkil olunan tərəflər qarşılıqlı fəaliyyətdə olur. Ona görə də hu ziddiyyətə nə son dərəcə sosial, ictimai, nə də son dərəcə təhii kimi haxmaq olmaz, belə ki, hər iki tərəfə qibtəediləcək fəallıq xasdır. Təbii mühitdəki dəyişiklik yalnız cəmİ5^ətin fəaliyyətində baş vermir: təbiətdə həm də cəmiyyətdən asılı olmayan, onun öz daxili gücündən yaranan immanent (daxili) dəyişikliklər baş verir. Bu dəyişiklik də öz növbəsində cəmiyyətin cavab reaksiyasını yaradır, ekoloji ziddiyyətin inkişafına təsir edir, onun kəskinləşməsinə gətirib çıxara bilir.

Konkret-tarixi ekoloji ziddiyyətlərin inkişafını qeyd etmək üçün «ekoloji vəziyyət» anlayışından istifadə edirlər - bu «cəmiyyət-təbiət» sisteminin inkişafında məkan-zaman çərçivəsi ilə məhdudlaşan fraqmentləri nəzərdə tutur. Ekoloji vəziyyətin xüsusiləşməsi, ayrı-ayrı hissələrə ayrılması nisbi xarakter daşıyır, onların hamısı «cəmiyyət-təbiət» sisteminin inkişafı prosesində vahid zəncirin həlqəsidir. Ekoloji vəziyyətin iki əsas tipi mövcuddur: cəmiyyət və təbiət arasındakı dinamik tarazlıq vəziyyəti və ekoloji böhran vəziyyəti - onların arasında olan vaxtda tarixən hər cür mümkün olan keçid vəziyyətinin böyük yığımı aşkar olunur.

**Ekoloji böhranla** bağlı bəzi məqamları qeyd etmək məqsədəuyğundur. Ekoloji vəziyyətin mümkün növləri arasında tədqiqatçıların diqqətini xüsusi ilə cəlb edən böhranlı vəziyyətdir. Bu da tam izah olunandır, belə ki, bu cür vəziyyət yalnız nəzəri deyil, həm də praktiki əhəmiyyət kəsb edir. Ekoloji böhran deyərkən «cəmiyyət- təbiət» sisteminin dinamik inkişafının pozulmasını xarakterizə edən, «cəmiyyət-təbiət» münasibətlərinin olduqca kəskinləşməsi, onun ziddiyyət həddinə çatması, ekoloji fəaliyyət vasitəsi ilə sistemin daxilindəki əlaqənin dəyişməsini zəmri edən ekoloji vəziyyət tipi başa düşülür. Sistemin böhranı öz ifadəsini sistemin özündə, onun daxili ziddiyyətlərinin inkişafında tapır. Bu sistemin daxili inkişafında onların qanıhqh fəaliyyətində ekoloji böhranın imkanı yatır, lakin onların həlli də onların öz daxilindədir. Məkan xarakteristikasına əsasən lokal, regional və qlobal ekoloji böhranı fərqləndirirlər. Öz mənşəyi etibarı ilə onlar təbiidir, yəni insan fəaliyyətindən asılı olmayaraq təbii mühitin daxili səbəblərindən irəli gələn dəyişikliklər nəticəsində yaranır (məsələn, vulkan püskürməsi nəticə

sində böyük mədəniyyətlərin məhv olması), eyni zamanda həm də antropogenez mənşəyə malikdirlər, yəni təbiəti dəyişdirmək və ya onu özünə tabe etməyə yönələn insan fəaliyyətinin nətieəsində yaranır (bu gün qarşılaşdığımız ekoloji böhran buna misal ola bilər). Antropogenez böhran keçmişdə də dəfələrlə olmuşdur. Məsələn, belə güman edirlər ki, Amerikanın qədim sivilizasiyası (inklərin, asteklərin, mayyaların) torpağını həddindən artıq istismarı nəticəsində yaranan ekoloji böhranın nəticəsində məhv olmuşdur. Elmi tədqiqat üçün (istər nəzəri, istərsə də tətbiqi) ən böyük maraq antropogen ekoloji böhran təşkil edir. Bu da aydındır; öz mənşələri etibarı ilə onları prinsipcə aradan qaldırmaq olar, onlan törədən cəmiyyətdə bu böhranı aradan qaldınuaq üçün kifayət qədər imkan da vardır.

Müasir ekoloji vəziyyətlə bağlı məsələyə xüsusi yer vermək məqsədəuyğundur. Cəmiyyətin təbiətə münasibəti maddi istehsalın və bütövlükdə tarixi prosesin ən mühüm komponentidir. Cəmiyyət öz inkişafının hər bir mərhələsində təbiətlə olan qarşılıqlı münasibətini düzəltməyə məcburdur, çünki nə onun özü, nə təbii şərait dəyişməz deyildir, həmişəlik verilmir. Lakin heç vaxt ekoloji problem bəşəriyyət qarşısında bu gün dayandığı qədər kəskin dayanmamışdır. Ekoloji vəziyyət yerdə mövcud olan sivilizasiyanın həyat və ölüm arasındakı sərhəddi kimi qarşımızda kəskin şəkildə dayanır. Keçmişin kəskin ekoloji vəziyyəti müasir dövrdə olan vəziyyətindən ən azı iki münasibəti ilə fərqlənir. Birincisi, onlar öz xarakterlərinə görə lokal və regional olmuşdurlar; ikincisi, onlar kortəbii şəkildə təbiətin özündə yaranmışdılar. Müasir ekoloji vəziyyət isə qlobal, ümum- planetar xarakter daşıyır və sözün həqiqi mənasında

cəmiyyətin davamıdır, müstəqil geoloji gücə çevrilmişdir, yəni kortəbii təbiət qüvvələrindən daha çox dəyişiklik yarada bilən amilə çevrilmişdir (daşqın, vulkan püskürməsi, zəlzələ, tayfun, qum axını və s.)- **Müasir ekoloji vəziyyətin** mahiyyətindən danışarkən onun **üç metodunu** qeyd etmək olar:

1. Təbii ehtiyacların cəmiyyət tərəfindən mənimsənilməsi olduqca sürətlə gedir, cəmiyyət xammal, enerji ehtiyatlarından acgözlüklə istifadə edir. Bir nümunə göstərək: bəşəriyyət hal-hazırda il ərzində təqribən üç milyard ton neft yandırır və bu sürətlə bu təbiət məhsulundan istifadə davam etsə o təqribən qırx ildən sonra tükənə bilər.
2. Təbii ətraf mühitin çirklənməsi olduqca sürətlə gedir, atmosferin, hidrosferin, litosferin bu sürətlə çirklənməsi «azon deşiyi» hesab olunan ağır fəlakətlərə gətirib çıxaracaqdır. 3. Bəşəriyyətdə əhali artımı sürətlə gedir.

Aydındır ki, bu üç an ictimai mənşəyə malikdir. Onlardan ilk ikisi elmi-texniki inqilabdan birbaşa və bilavasitə yaranmışdır; xüsusilə də elmi-texniki tərəqqinin silahlanma sahəsinə tətbiqi burada mühüm rol oynayır. Üçüncü anın bəzi izaha ehtiyacı var. Birincisi, sizdə belə bir sual yarana bilər: əgər XX əsrin ikinci yarısında bəşəriyyət 20-30 il ərzində öz əhalisinin sayını iki dəfə artırırsa, onda Maltus öz fikirlərində düz deyildirmi? Bu suala cavab verərkən nəzərə almaq lazımdır ki, əhalinin artımının müasir sürəti bəşəriyyətin inkişafı üçün norma deyildir və yaxın gələcəkdə onun kifayət qədər azalacağı gözlənilir (əvvəllər əhalinin iki dəfə artması üçün yüz əlli il lazım gəlmişdir). İkincisi, söhbət mütləq şəkildə əhalinin çox artımından getmir. Əgər bu gün zəif inkişaf etmiş ölkələrdə il ərzində əlli milyon adam acından ölürsə.

bu yer kürəsində ərzaq ehtiyatlarının tükənməsi demək deyildir. Müasir elmi-texniki tərəqqi əkin sahələrinin becərilməsi və hər hektardan otuz sentinerdən çox taxıl almağa imkan verir və bu da 7 milyard əhalini yedizdirməyə kifayət edir. Bu ölkələrin geridə qalmasına səbəb onların yaşadıqları müstəmləkə həyatının qoyduğu izdir, onların istismar olunması, ərzağın əsas kütləsinin inkişaf etmiş şimalın əlində cəmlənməsidir. Beləliklə, biz bu gün əvvəllər görünməyən miqyasda olan ümumplanetar böhranla üz-üzə dayammşıq, ilk baxışdan sırf ekoloji böhran xarakterində olan bu vəziyyət sivilizasiyanın ümumi böhranına çevrilmişdir, bu da həyatın bütün sahələrini - iqtisadi, ictimai, mənəvi sahələri tam əhatə etmiş, onun normal inkişafına mane olmuşdur.

Bu gün dünyadakı ekoloji vəziyyəti böhranlı vəziyyət kimi xarakterizə etmək olar. **Qlobal ekoloji problem** kimi aşağıdakıları qeyd etmək olar:

• bitki və heyvanların minlərlə növü məhv edilmiş və məhv edilməkdə dava edir;

• meşə sahələri kifayət qədər qırılmışdır;

• faydalı yeraltı sərvətlərin ehtiyatları sürətlə azalır;

• canlı orqanizmin məhv edilməsi nəticəsində dünya okeanı yalnız sıradan çıxmır, həm də təbii proseslərin nizamlayıcısı ola bilmir;

• atmosfer müəyyən ərazilərdə qəbul olunmuş normadan artıq dərəcədə

çirklənmişdir, təmiz hava artıq çatışmır;

• azon təbəqəsi qismən pozulub, bütün canlılara məhvedici təsir göstərəcək, kosmik şüalanmadan Yer kürəsini qoruyan azon təbəqəsinin pozğunluğu ağır nəticələrə gətirib çıxara bilər;

• təbii landşaftın üst qatı çirklənib: Yer kürəsində bir qarış belə yer tapmaq mümkün deyildir ki, insan tərəfindən süni şəkildə yaradılan elementlər olmasın.

İnsan təbiətə yalnız gəlir mənbəyi: öz həyat təlabatlarmı ödəmək mənbəyi kimi baxdığından, insanın təbiətə istehlak münasibəti açıq şəkildə özünü göstərir. Bəşəriyyət üçün təbiəti münasibət fəlsəfəsinin özünü dəyişdinnək həyati əhəmiyyət kəsb edən bir problemə çevrilmişdir.

Bəşəriyyətin müasir inkişaf mərhələsində noosfera haqqında təlim xüsusi əhəmiyyət kəsh etmişdir. İnsan özünün bütün tarixi ərzində şüurlu və şüursuz şəkildə təbiəti fəth etməyə eəhd etmişdir. Təbiətin üzərində dayanmaq, onu fəth etmək, onu özünə tabe etmək -insanın təbiətə münasibətində qarşısına qoyduğu məqsəd bu olmuşdur. Bu məqsədə çatmaq yolunda çoxlu nailiyyətlər əldə edən insan təbiəti yaxşılaşdımıaq fikrinə düşmüş, maşınla idarə olunan istehsal, texnogen və kompüterli sivilizasiya yaratmışdır. Lakin təbiətə bu cür texnoqrafık yanaşma bu gün ondan irəli gələn təhlükəni açıq şəkildə göstərir. Təbiəti düşünmədən istismar etmək ətraf mühitin çirklənməsinə gətirib çıxartmışdır, təbii ehtiyatlar, su ehtiyatları azalır, bu da biosferanm dağılmasına. Yer kürəsində məskunlaşan bütün canlıların məhv olmasına gətirib çıxartmışdır. Biosferaya təsir göstərən mənfi millər içərisində sənaye istehsalım xüsusilə qeyd etmək lazımdır: istilik elektrik stansiyaları, qara və əlvan metallurgiya, kimyəvi və sement zavodlarının və s. ətraf mühitə vurduğu ziyanın miqyası ölçüyə gəlməzdir. Hal-hazırda bizim planetdəki bütün sənaye müəssisələri il ərzində atmosferə 1250 milyon ton oksidləşmiş karbon, 10 milyon tonlarla kükürdlü anhidrit (su ilə birləşdikdə turşu hasil

edən oksid), 20 milyon tona qədər oksidləşmiş azot, milyon tonlarla ftor (rəngsiz qaz) xlor və kükürd atılır. Bütün bunlar məcmu şəkildə planetdə temperaturun yüksəlməsinə, atmosferin və təbii suların çirklənməsinə, ozon qatının dağılmasına, iqlim yağışlarına və təbiət və insan üçün öldürücü olan digər məhvedici nəticələrə gətirib çıxarır.

Əkinçilik də təbiətə hiss olunacaq dərəcədə ziyan vurur. Kənd təsərrüfatı işlərinin gedişində adamlar hər il torpağın üst qatını çevirməklə iş görür və üç il ərzində görülən bu işlər torpağın məhsuldar hissəsinin bir santimert təbəqəsini məhv edirlər - təbiət bu qatı yaratmaq üçün üç yüz il zəhmət çəkmişdir. «Roma klubu» alimlərinin hesablamalarına görə bəşəriyyət artıq indi təbii mühitdən on dəfələrlə məhsuldar olan süni mühit yaratmşdır. Süni mühit tədricən və geri çəkilmədən təbii mühitə tərəf irəliləyir və çox güman ki, yaxın gələcəkdə onu tamamilə udacaqdır. İnsan bioloji növ olduğu üçün, bütün digər bioloji növlər kimi, o yalnız həyat üçün əlverişli şəraitdə yaşaya bilər. Eyni zamanda bu şərait heç də uzaq keçmişdə yox, lap yaxın gələcəkdə, artıq XXI əsrin ortalarında dəyişəcəkdir. 1992-ci ildə Braziliyada BMT-nin bayrağı altında keçirilən beynəlxalq konfransda iştirakçılar aşağıdakı nəticəyə gəlmişdilər: əgər bu gün iqtisadi və texnoloji münasibətlər cəhətdən geridə qalan ölkələr Avropa və Amerikanın inkişaf etmiş ölkələrinin yolu ilə getsələr, onda, yaxın gələcəklə ekoloji fəlakətdən qaçmaq mümkün olmayacaqdır. Görəsən bu pessimist nəticə nəyə əsaslanır?

İnkifaş edən bəşəriyyətin yaxın gələcək üçün əldə edəcək faydaya meyl edərək təbii ehtiyatlardan necə gəldi istifadə etməsi onun üçün olduqca ağır nəticələrə gətirib

çıxarmışdır, müxtəlif ölkələrdə «yaşıllıq» hərəkatı yaranmış, ətraf mühiti qorumaq üçün dövlət orqanları fəaliyyət göstərir. Bu gün bütün dünyada ekoloji probleme böyük diqqət yetirilir. Bu problem BMT səviyyəsində müzakirə olunur, ayrı-ayrı ölkələr öz aralarında ekoloji problemlərlə bağlı birgə əməkdaşlıq haqqında müqavilə imzalayır, azon qatının deşilməsi probleminin həllinə istiqamətlənən addımlar atılır, iqlimin dəyişməsi, dünya okeanının ehtiyatlarının tükənməsi ilə bağlı narahatlıq hamının diqqətini ekoloji problemə yönəltmişdir. Ekoloji çətinliklərdən çıxmaq üçün fəlsəfədə yaranan mövqeləri qeyd etmək məqsədəuyğundur.

Bu fəlsəfi mövqelər arasında **russoist və ya neorussoist konsepsiyaları** ayınnaq yerinə düşər. «Geriyə, təbiətə doğru!» şüarından həvəslənən bu konsepsiyanın tərəfdarları öz konsepsiyalarında öz məğzinə görə ədalətli olan insan və təbiətin vəhdəti haqqında tezisdən uzaqlaşırlar. Lakin bu tezisi mütləqləşdirərək, insanın təbiətə passiv uyğunlaşması ilə deyil, fəal şəkildə onu dəyişdirmək yolu ilə insan olaraq qalması şəraitini inkar edərək səvh nəticəyə gəlib çıxırlar: vəhşi, düzəldilməyən təbiətin qarşısında ibadətin ağıllı həddindən çıxaraq onlar mədəniyyətə münasibətlərini dəyişmiş, insana, onun yaradıcı qüvvəsinə, onun ağlına inamsızlıq həddinə gəlib çatmışdırlar. Ona görə də russoist konsepsiyasından çıxan nəticə və ekoloji problemin əsaslandırılması ilə bağlı onların nəticələri irticaçı utopik, birtərəfli qadağası olan xarakterdədir. Son nəticədə bu cür konsepsiya antihumanist xarakter daşıyır, belə ki, təbiəti və onun təbii dəyərlərini saxlamaq üçün bəşəriyyətin mədəni təbəqəsini məhdudlaşdırmağın zəruriliyini qeyd edirlər. Bununla yanaşı bu konsepsiyanın məzmununda

olan müsbət tərəf kimi onu da qeyd edək ki, onlar insanı demiurq (yaradıcı) kimi, təbiət üzərində dayanan, onu fəth edən, təbiəti özünə tabe etməyə çalışan kimi qəbul etmirlər. Bu baxışlarda insanın azadlığı anlayışı təhrif olunur, russoist konsepsiyasının elmə və texnikaya qaışı düşmən münasibəti açıq görünür. Ekoloji problemin antitexniki şərhi üçün xarakterik olan cəhət ondan ibarətdir ki, insan və təbiətin qarşılıqlı fəaliyyəti prosesində elm və texnikanın nailiyyətlərinin istifadə olunması sivilizasiya üçün olduqca qorxuludur. Lakin bu baxışlarla barışmaq cəmiyyəti durğunluğa məhkum etmək olardı, elm və texnika sahəsində, hütöv mədəniyyətdə inkişaf dayanardı. Diqqətlə araşdırdıqda bu baxışların kifayət qədər əsassız olduğu açıq görünür. Doğrudur, insanın təbiətlə qarşılıqlı münasibətin harmoniyasının məhz bu qarşılıqlı fəaliyyətin elmi-texniki fonnası ilə bağlıdır; lakin bu zəruri haldır, cəmiyyət öz inkişafının müəyyən mərhələsində elmi-texniki tərəqqinin nailiyyətlərindən öz inkişafı naminə mütləq istifadə etməlidir.

**Elmi-texniki tərəqqi və ekologiya** məsələsinə diqqətimizi yönəltmək məqsədəuyğundur. Ətraf mühitin pisləşməsində yalnız elmi-texniki tərəqqini günahlandıran russoist konsepsiyadan fərqli olaraq bu gün biz əmin oluruq ki, yüksək texnologiyanın tətbiqi ekoloji cəhətdən olduqca əlverişlidir və müasir cəmiyyətdə müasir texnikanın tətbiqinə daha çox üstünlük verilir. İndi alimlər hazırladıqları layihələrdə gələcək işlərinin ekoloji xarakterinə diqqət yetirirlər, cəmiyyət son vaxtlar özünün təbiətlə olan münasibətinin daha çox qayğısına qalır, təklif olunan layihələrin ekoloji cəhətdən əlverişli olub-olmaması ön plana keçirilmişdir. Son vaxtlar ekoloji problemin həllində elmi-texniki tərəqqinin rolu əhəmiyyətli dərəcədə

artmışdır. Məsələ ordadır ki, yeni elmi-texniki nailiyyətlər artıq ətraf mühitə dəyən ən minimal ziyanı belə aradan qaldınmaq üçün olduqca vacibdir. Elmin və texnikanın inkişafı ekoloji problemin həlli yolunda xeyli irəliləyişə nail olmağa imkan vermişdir. İrəliyə doğru getmək, dünya və insanı - onun istehsal, əmək fəaliyyətini, həyat tərzini, şüurunu (o cümlədən ekoloji) dəyişdirmək - bəşəriyyət qarşısında dayanan ekoloji problemi həll etməyin perspektivləri budur. Müasir insan təbiətlə harmonik münasibəti inkişaf etdirməli, təbiətin inkişafındakı prosesləri başa düşməli, ondan ağılı istifadə etməli, təbiəti daha da zənginləşdirməlidir. Müasir bəşəriyyətin qarşısında iki əsas təhlükə dayanır: özünü nüvə
müharibəsi alovunda məhv etmək və öz mövcudluğunun təbii bazisini dağıtmaq təhlükəsi. Onlardan birincisi kifayət qədər açıq şəkildə biruzə verir və praktiki olaraq hamı tərəfindən qəbul olunmuşdur, indi hamı dərk edir ki, nüvə müharibəsində qalib gəlmək mümkün deyildir, bütün diqqət nüvə qarşıduraıasımn ləğv edilməsinə yönəldilmişdir, ikinci təhlükəyə gəldikdə isə, onun dərk olunması səviyyəsi bu təhlükənin real miqyasından xeyli aşağıdır. Bu ilk növbədə öz əksini onda tapır ki, insanlar hələ də təbiətlə qarşılıqlı münasibətini şəxsi, məhdud maraqlar üzərində qururlar, təbiət müxtəlif millətlərin, siniflərin, ictimai qrupların rəqabət meydanına çevrilmişdir. Ancaq təhlükə o dərəcədə ciddidir ki, insanlar təbiətlə olan qarşılıqlı münasibətlərinə yenidən baxmalı, burada olan çatışmamazlıqları aradan qaldırmalıdırlar. Nüvə təhlükəsi kimi, ekoloji təhlükə də açıq şəkildə göstərir ki, bəşəriyyətin ümumi taleyi var, hər hansı bir xalq, bir millət, bir ictimai qrup digərlərinin həyatı üzərində öz xoşbəxtliklərini qura bilməzlər. Aydındır ki,

fəaliyyət birliyi, qlobal beynəlxalq əməkdaşlıq insanların gələcək həyatı üçün olduqca vacibdir.

Müasir dövrün tələblərindən biri də xalqlar arasında ümumi insani dəyərlərə söykənən münasibət yaratmaqdır. Ətraf mühitin qorunması naminə dövlətlər, müxtəlif ictimai təşkilatlar arasında bağlanan razılaşmalar, nüfuzlu beynəlxalq təşkilatların ekoloji problemlə bağlı həyata keçirdiyi tədbirlər, müasir dünyada baş verən dəyişikliklərin elmi cəhətdən araşdırılması ekoloji ziddiyyətin tənzimlənməsi sahəsində həyata keçirilən mühüm tədbirlərdəndir. Eyni zamanda qeyd etmək lazımdır ki, qlobal ekoloji problemi ölkələrin və xalqların qeyri- bərabər inkişafı şəraitində həll etmək lazım gəlir. Axı bu ölkələrin və xalqların sağlam həyat şəraiti yaratmaq sahəsində imkanlar eyni deyildir, inkişaf edən ölkələrin bu problemi həll etmək üçün kifayət qədər ictimai şəraiti və vacib olan elmi-texniki imkanı yoxdur, ancaq onların kifayət qədər böyük təbii ehtiyatlan var. İnkişaf etmiş ölkələr isə yüksək iqtisadi və elmi-texniki imkana malikdir, lakin onların təbii mühiti istehsal fəaliyyətinin artması nəticəsində əlverişli olmayan vəziyyətə düşmüşdür. Deməli vahid ekoloji problemin həlli müxtəlif cür qoyulur: inkişaf etməkdə olan ölkələr üçün - ekoloji baxımdan əsaslandırılan inkişaf, inkişaf etmiş ölkələr üçün isə inkişafın ekoloji əsaslara söykənərək aparılması. Bundan başqa təbii şəraitin idarə olunması yalnız onun ehtiyatlarında nizamlı istifadəni nəzərdə tutmur - əsas məqsəd adamlar üçün əlverişli sağlam həyat tərzi yaratmaqdır.

Yaranmış **ekoloji böhrandan** çıxmaq üçün müxtəlif yollar təklif olunur. Bu yaranan vəziyyətdən **çıxmaq üçün təldif olunan yollardan** bəzilərinə nəzər salaq.

**Birincisi,** sənaye istehsalının ətraf mühitə vurduğu ziyanı azaltmağa imkan verən müasir texnikanın işlənib hazırlanması və onun həyatda tətbiqi. Bu texnologiya istehsal vaxtı tullantıların miqdarını xeyli azaldacaqdır - bu xüsusən metallurgiya və kimya sənayesində daha vacibdir.

**ikincisi,** müasir dövrdə bərk (kömür) və ya maye (mazut) yanacaqla işləyən bütün istilik elektrik stansiyaların qaz yanacağına keçirilməsidir. Bu cür elektrik stansiyaların sayının tədricən azaldılması və alternativ enerji mənbəyindən istifadə olunan elektrik stansiyalarının işə salınması: Günəş, su külək enerjisindən istifadə olunması.

**Üçüncüsü,** təhlükəsiz və effektli sənaye müəssisələrinin işə salınması.

**Dördüncüsü,** müasir sənaye müəssisəiərinin ekoloji baxımdan əlverişli şəraitə uyğunlaşdırılması.

Bütün bu işlər qanunverici normalarla təsdiq olunmalıdır. Lakin yalnız istehsal texnologiyasının dəyişdirilməsi ilə ekoloji vəziyyəti düzəltmək olmaz. Bütün dövlətlərin və təşkilatların məqsədyönlü və ciddi iş görmələri tələb olunur - hər bir adamda ekoloji mədəniyyət formalaşdırılmalıdır ki, bu da yalnız ətraf mühitin çirklənməsini dərk etməklə yekunlaşmamalıdır. Bütün iqtisadiyyatın qurulmasına ekoloji yanaşma və ekoloji şüurun formalaşması sahəsində hələ görüləcək işlər çoxdur. Əgər ekoloji şüurun tərbiyəsi işinə uşaq vaxtından başlansa və ekoloji biliklərin qazanılması ilə o möhkəmləndirilsə, düzgün davranış normaları yaradılsa, onda bu sahədə xeyli uğur qazanmaq olar. Hər bir adam uşaq vaxtından özünün təbiətlə qırılmaz əlaqəsini dərk etməli, təbiətlə vəhdətdə yaşamağı öyrənməli, təbiətə öz

xidmətçisi kimi yox, həyat mənbəyi kimi baxsa onda o öz yaşaması üçün əlverişli şərait yaratmış olar. Buradan da insanın yalnız ekoloji yox, həm də mənəvi tərbiyəsi məsələsi çıxır, bu da insanın özünü, onun daxili mənəvi dünyasını dəyişdirir. Bu yeni etikanın - texniki etikanın, siyasətin etikasının, ictimai davranışın etikasının, beynəlxalq münasibətlərin etikasının yaranmasına gətirib çıxarır. Bəşəriyyət - öz inkişafında insan və təbiəti yaxınlaşdırmaq üçün bütün mümkün vasitələrdən istifadə etmişdir.

Beləliklə, ekoloji problemi həll etmək üçün əsaslı dəyişikliklər həyata keçirmək lazımdır: bəşəriyyət elmin, texnikanın, texnologiyanın, informatikanın, səhiyyənin, təhsilin nailiyyətlərindən istifadə etməlidir. Əgər təbiətdə istifadənin yeni metodunu işləyib hazırlamaq mümkün olarsa, bu həm də əhalinin ekoloji mədəniyyətinin formalaşmasına xidmət etmiş olacaqdır. Bizim planet tədricən vahid evə çevrilir və bu evin xilası hamının birgə səyi hesabına mümkün ola bilər.

Ekoloji böhrandan çıxmaq üçün digər təklifləri də nəzərdən keçirnək məqsədəuyğundur. Bu böhrandan çıxmağın real yolunu dəf etmək üçün onun dərin köklərini araşdırmaq vacibdir. Əgər elmi ədəbiyyatlarda müasir ekoloji vəziyyətlə bağlı çoxsaylı izahları müəyyən şəkildə qruplaşdırsaq, onda aydın olacaqdır ki, onların hamısı son nəticədə artıq bizə məlum olan iki paradiqmadan biri - ya formasiya, ya da sivilizasiya cədvəlinə daxil ediləcəkdir. Formasiya konsepsiyası müasir ekoloji vəziyyəti bu və ya digər ictimai-iqtisadi formasiya ilə birbaşa bağlayır. Uzun illər bizim ədəbiyyatda təbiətdən istifadənin iki tipi ilə bağlı tezis hökmranlıq etmişdir - sosializmə qədərki tip - buradakı köklü qüsurlar xüsusi mülkiyyətin ayağım

yazılırdı: sosializm tipi - burada isə guya təbiətə qarşı vəhşi münasibət avtomatik olaraq ləğv olunduğu bildirildi - burada təbiətə münasibət cəmiyyətin ümumi maraqları əsasında qurulurdu; təbiətə hərtərəfli, kompleks, humanist təsir istiqamətləri üçün hərtərəfli əsas yaradılmışdır. Buna görə də fonnasiya konsepsiyası ekoloji böhrandan çıxmağın yolunu yeni ictimai-iqtisadi formasiyaya keçiddə görürdü. Əlbəttə, konkret cəmiyyətin formasiya parametləri təbiətdən istifadəyə, deməli həm də müasir ekoloji vəziyyətə təsir etməyə bilməz.

Ancaq: **birincisi,** əgər biz bu baxımdan müxtəlif ölkələri və regionları müqayisə etsək, onda formasiya parametrlərinin özləri dəqiq yoxlanılmalıdır. Onda isə aydın olur ki, ekoloji problemin həllində üstünlüyə son vaxtlara qədər sosialist ölkəsi adlanan ölkələr yox, ictimai həyatın sosialistləşdirilməsi prosesini real həyata keçirən regionlar malikdirlər, **ikincisi,** müasir ekoloji vəziyyətin spesifik xüsusiyyəti özünü müxtəlif formalarda təzahür etdirir, bu əsasən ölkənin və ya regionun mədəni inkişaf səviyyəsindən asılı olur, yəni burada göstərici heç də formasiya ilə bağlı deyildir. Çernobil və digər ekoloji cəhətdən təhlükəli olan obyektlərdə baş verən qəzalar göstərir ki, biz bu gün öz şəxsi icra, əxlaqi və hətta siyasi mədəniyyətimizdən çox asılıyıq. **Nəhayət, üçüncüsü,** həm də ən əsası müasir ekoloji vəziyyət - onun əsas xarakteri kimi ekoloji böhran öz məzğinə görə sivilizasiya mənşəyinə malikdir, bəşəriyyətin sivilizasiyalı inkişafı gedişində yaranmışdır.

Məhşur deyimi dəyişdirərək bu vəziyyətə şamil etsək, onda demək olar ki, «Hər şeydə maşın axtar». Doğrudan da sivilizasiyanın sənaye dalğasının başlanğıcını qoyan və onun texniki əsası olan maşın təbiət

qüvvələrindən istifadə üsulunu, eyni zamanda bu istehlakm miqyasını dəyişdirmişdir. Xalq təsərrüfatının bütün sahələrinin maşınlaşdırılması (hətta maşının maşınla istehsal olunması belə) təbiətdən istifadənin miqyasını xeyli artırmış və bu həm də ətraf mühitin çirklənməsinə gətirib çıxarmışdır. XX əsrin ikinei yansmdan sürət götürən elmi- texniki inqilab şeytan ocağına yağ tökdü, sərhədsiz ictimai tərəqqi nəzəriyyəsini bir növ legitimləşdirdi. Beləliklə, müasir ekoloji böhranın mənbəyi sivilizasiyanın əsaslı inkişafının - onun texniki-texnoloji bazisinin məntiqində aşkar olundu. Ona görə də bu böhrandan çıxış yolunu da huna müvafiq olaraq axtarmaq lazımdır. Bir tərəfdən, təbii mühitin optimal- laşdırılması üçün bu gün açılan texniki imkanlardan istifadə etmək lazımdır. Axı elmi-texniki inqilabın ziddiyyətli xarakteri həm də ondan ibarətdir ki, o, əvvəllər görünməyən ekoloji problemləri yaratmaqla o həm də onu dəf etməyin, aradan qaldırmağın potensial imkanına malikdir. Bu baxımdan elmi-texniki sahəni kral Arturun qılıncı ilə müqayisə etmək olar - bu qılıncla kral məhz qılıncla vurulan yaranı sağaldırdı. Digər tərəfdən sivilizasiya öz yaşaması üçün deyəsən özünün bir çox uşaqlarından imtina etməli olacaqdır. Frion soyuducuları üzərinə qoyulan beynəlxalq qadağa - bu baxımdan ilk addımlardandır. Hər tərəfli «təmiz» enerjiyə - Günəş, su, hava axını, temperaturun müxtəlifliyi. Yerin daxili istiliyi və s. keçid başlanmışdır. Lakin bu mənbələr müasir dünya enerji balansının yalnız bir neçə faizini təşkil etdiyindən bəşəriyyət həyat tərzini köklü şəkildə dəyişdirməlidir, enerji istifadəsinə yönəldilən fəaliyyətini xeyli yüngülləşdirməlidir. Bu da «təbiətə qayıdışın» özünəməxsus bir əsası ola bilər. Axı bəşəriyyət yaşaması üçün təbiətlə

münasibətlərinə nəzər salmalı, onu yeni qaydalar əsasında qurmağı öyrənməlidir.

Müasir ekoloji vəziyyətin sivilizasiyalı həlli mütərəqqi qüvvələrin yetkinlik səviyyəsindən asılıdır. Bütün planet miqyasında bu qüvvələrin birləşməsi - axı vəziyyətin özü belə planetar xarakter daşıyır - təbii mühitin sağlamlaşdırılması sahəsində böyük işlər görməyə imkan verər, silahlanma sahəsindəki işləri dayandıra, beynəlxalq iqtisadi qaydaları dəyişdirə, bütün xalqların və ölkələrin bərabər səviyyədə inkişafını tarazlaşdıra bilər. Lakin bəşəriyyətin özünü saldığı ekoloji dalandan çıxmasında xeyli çətinliklər də var. «Roma klubunun» prezidenti Anrilio Peççei bu çətinliklər haqqında yazırdı; «İnsanın həqiqi problemi indiki vəziyyətində onunla bağlıdır ki, insan dünyada yaratdığı dəyişikliklərlə ayaqlaşa bilmir. İnsanın inkişafının indiki böhranlı anında problem kənarda deyil, onun daxilində yaranmışdır, ona görə də onun həllini də insanın daxilində axtarmaq lazımdır». Ona görə də bəşəriyyət öz keyfiyyətini yüksəltməli, ədaləti bərpa etməyə çalışmalı, cəmiyyət və təbiət münasibətlərini yeni qaydalarla qurmaqdır.

Əgər bu gün təbiətə istehlak - texnoqrafık yanaşmadan əl çəkməsək, onunla harmoniya yolu tapmasaq bəşəriyyətin sabahı olduqca təhlükəlidir. Bunun üçün istehsalın ekologiyalaşdırılması üzrə xeyli işlər görülməlidir: təbiəti qoruyan texnologiya hazırlanmalı, yeni yaranan layihələr ekoloji yoxlamadan keçməli, tullantıların miqdarı aşağı salınmalı, bağlı dövrə üzrə tullantısız texnologiya hazırlanmalıdır. İnsan və təbiətin qarşılıqlı münasibətinin yaxşılaşdırılması üçün həyata keçiriləcək digər tədbir təbii ehtiyatlardan, xüsusi ilə enerji mənbələrindən (neft, kömür) ağıllı istifadə olunmasıdır, axı

onların həyat üçün əhəmiyyəti əvəzsizdir. Beynəlxalq ekspertlərin hesablamalarına görə, indiki istehlak səviyyəsində təbii sərvətlərdən istifadə davam etsə onda kömür hələ 430 il, neft 35 il, təbii qaz 50 il kifayət edəeəkdir. Neftlə bağlı vaxt o qədər də böyük deyildir. Ona görə də dünya enerji balansında ağıllı struktur dəyişiklikləri vaeibdir. Aneaq istənilən nəticələrə nail olmaq üçün bütün ölkələrin təbiəti xilas etmək üçün qüvvələrini birləşdirilməsi zəruridir. Bu cür beynəlxalq birlik yaratmağa ilk cəhd 1913-cü ildə olmuşdur; dünyanın 18 iri dövlətləri təbiəti qorumaq şüarı altında İsveçrəyə beynəlxalq müşavirəyə toplaşmışdılar. İndi əməkdaşlığın yeni formaları yaranır - ətraf mühiti qorumaq üçün beynəlxalq konvensiyalar bağlanır, birgə işlər həyata keçirilir. Lakin ölkələrin inkişaf səviyyəsi müxtəlif olduğundan ekoloji sahədə əməkdaşlıq da yetkinlikdən hələ xeyli uzaqdır. Bu gün ən vacib məsələ ekoloji şüurun formalaşmasıdır. Cəmiyyətdə ekoloji tərbiyə və ekoloji təhsil dövlət səviyyəsində həyata keçirilir və insanın bütün davranışı təbiətlə hamoniya səviyyəsində reallaşmalıdır.

## §4. Canlı və cansız təbiət. İnsanın canlıya münasibəti haqqında müasir baxışlar.

Hər dəfə insan ona yad olan obyektlə qarşılaşanda onun həyata keçirdiyi ilk fikir əməliyyatı bu **obyektin canlı və ya cansız olması ilə bağlı əməliyyatdır.** Canlı və cansız arasındakı fərq ən mühüm məsələlərdən biridir, xarici aləmi qavramaq üçün olduqca mühüm rol oynayır. Doğrudan da, bütün dövrlərdə bütün tayfalar və xalqlar bu və ya digər dərəcədə canlı və cansızı fərqləndimıəyə

məcbur olmuşlar, düzdür bu ayrılmalar müxtəlif üsullarla həyata keçirilmişdir. Belə ki, ibtidai xalqlar üçün animizm xarakterik olmuşdur - bu baxışlara görə hər şeyin - insanın, heyvanın, ağacın, daşın öz ruhu var və onların hamısı o vaxta qədər yaşayır ki, ruh onların bədənində olur. Fikir tarixində digər baxışlar sistemi də mövcud olmuşdur - hilozoizm adlanan bu baxışa görə bütün olanların hamısı canlıdır, bu yolla onlar həyat və varlığı eyniləşdirirdilər. Bu mənada, sanki canlı və cansız arasında olan fərq öz mənasını itirir; əslində isə bu fərq burada da aparılır, axı reallıq kimi yalnız həyat yox, hətta ölüm də qəbul edilir, ölüm qeyri-varlıq kimi qəbul edilir.

Dini kitablarda da eanh və eansız arasındakı fərqlər dünyanın yaranması mənzərəsinin təsvirində verilir; iki min il əvvəl yaşamış xalqların baxışlarında bu ideya özünü möhkəmləndirmişdir. Dini kitablarda verilən fikirlərə görə, əvvəleə hərəkətsiz, eansız materiya, sonra canlı materiya və nəhayət insan yaranmışdır.

Bəşəriyyətin bütün tarixi ərzində eanh və eansız arasındakı fərqin əhəmiyyətinin azalmaması nə ilə izah olunur? Bu, ilk növbədə, onunla bağlıdır ki, bu eür fərq olmasa insanın gündəlik təlabatınm ödənilməsinə yönələn praktiki fəaliyyət də mümkün olmazdı. İnsan özünün bu fəaliyyətində canlı və cansızdan müxtəlif cür istifadə edir. Canlı - insanın qidalandığı, eyni zamanda ovçuluq, balıq tutmaq, yığım, həm də hecərmə obyektləridir. Canlı həm də insanın soyuqdan, yağışdan, qardan qonamaq üçün hazırladığı paltar üçün istifadə etdikləridir. Bununla belə yemək uğrunda mübarizədə qorxulu rəqib olan iri heyvanlardan müdafiə olunmaq lazım idi. İnsana düşmən kəsilən heyvanlar da canlıya aiddir. Nəhayət, insan özünü həyat verilən varlıq kimi dərk edir və buna görə də bütün

canlılarla qohumluq münasibətini başa düşür. Bü özünü totemizmdə daha yaxşı təzahür edir. Totemizm ibtidai xaqlar üçün xarakterikdir, onlar özlərini hər hansı heyvanla (totemlə) eyniləşdirir, bu heyvanı öz əcdadı hesab edirdi. Bir çox incəsənət əsərlərində də canlı heyvanlarla qohumluq duyğusu geniş şərh olunur; məsələn şairlər öz şeirlərində heyvanları «bizim kiçik qardaşımız» deyə vəsf edirlər. İbtidai xalqlarda heyvanların müqəd- dəsləşdirilməsi əsrlərin sınağından keçərək bu günümüzə qədər gəlib çatmışdır: bu gün də dünyanın müxtəlif yerlərində ayrı-ayrı heyvanların müqəddəsləşdirilməsi ənənəsi yaşamaqdadır; türk xalqlarının boz qurda, hindlilərin inəyə və s. pərəstişi bu gün də yaşamaqdadır. Bu ikillik, praktiki fəaliyyət üçün, insanın özünün mövcudluğu üçün canlının əhəmiyyətindəki ambivalentlik son nəticədə insanda canlıya qarşı xüsusi hiss və münasibət yaradır ki, bu da mifoloji, dini baxışlarda, əxlaq normalarında və estetik tərbiyədə öz əksini tapır. Məsələn, insan mədəniyyətinin və əxlaqının mənbəyində dayanan ilk qadağalardan (tabu) biri bu və ya digər heyvanın öldürülməsi və onun ətininin yeyilməsinin qadağan edilməsi olmuşdur. Bu qadağaların qalıqları indi də qalmaqdadır: hindlilər bu gün də inək əti yemirlər.

Heyvanlar həm də ibtidai insanların qayaüstü rəsmlərinin ilk obyektləri olmuşlar. Bizim günlərdə də müxtəlif bitkilər və heyvanlar çox vaxt estetik şüurda gözəllik və ya eybəcərlik etalonu kimi çıxış edirlər. Deyirlər ən gözəl göz eşşəyin gözüdür, hər hansı adamın gözəlliyi ayrı-ayrı gözəl heyvanlara bənzədilməklə təsvir olunur maral, ceyran, tovuzquşu və s. Sözü başa düşməyənlərə gönü qalın camış kimi, kobudluq edənin davranışını «ayı kimi necə gəldi edir» deyə qiymət verilir.

Canlıya olan rəngarəng münasibətləri bəzən praktiki məqsədəuyğunluğun tələblərindən çıxış edərək izah etmək və ya başa düşmək çox çətin olur. Canlı ilə qarşılıqlı fəaliyyətin və canlıya münasibətin bütün müxtəlif fonnalarma nəzərə alsaq, yalnız insan fəaliyyəti və şüuru üçün əsas qarşıdurmalardan biri kimi canlı və cansızın biri-birinə qarşı qoyulmasının son dərəcə vacibliyini deyil, həm də bu qarşı-qarşıya qoyulmanın praktiki və idrakın inkişafında nail olunan səviyyəsindən asılı olaraq müxtəlif formada aparılmasını tam başa düşmək olar; bu həm də ilk baxışdan göründüyü kimi insanlara birdəfəlik verilən xüsusiyyət kimi qəbul edilməməlidir. Bu isə o deməkdir ki, canlı və cansızın ayrılması və ya həyatın nə olmasının müəyyən edilməsi elə bir problemdir ki, onu birdəfəlik həll etmək olmaz, bu məsələyə insanlar hələ dəfələrlə qayıdacaqlar. Bu problemin olması faktı canlıya olan münasibətin bütün deyilən formaları ilə yanaşı, həm də dərk etmə, başa düşmə münasibətlərinin də zəruriliyi göstərir, yəni bu poblemin olması həyatın bütün müxəlif təzahürləri ilə öyrənilməsinin zəruriliyini göstərir. İnsanın canlı haqqında ilkin bilikləri - tutaq ki, heyvanların davranışı ilə bağlı, rüşeymiərin yetişməsi vaxtı ilə bağlı biiikiəri onların praktiki fəaiiyyətiəri ilə sıx bağiı olmuşdur. İnsan uzun müddət apardığı müşahidədən sonra məhz bu məsələ ilə bağlı müəyyən qənaətə gəmişdir. Lakin sonradan, məsələn, hilozoizm indiki ölçülərlə fantastik görünən cəhd kimi çıxış edir, dərk olunmuş şəkildə canlı və cansızı bir-birinə qarşı qoyur. Bu problemin dərk olunması ilə yanaşı, həm də bütün canlılara xas olan ən ümumi xassələri və xüsusiyyətləri aydınlaşdırmaq məsələsi də qarşıda dayanır.

Canlıların dərk olunmasında biolojinin və fəlsəfənin yerinə də aydınlıq gətimrək maraqlı olardı. İlkin olaraq praktiki fəaliyətlə bilavasitə bağlı olan canlı haqqında müxtəlif, hissə-hissə olan baxışlar və məlumatlar bioloji idrakı formalaşdırır. Bizim günlərdə bunlar, ilk növbədə, elmi vasitələrlə həyata keçir. Müasir biologiya elmin olduqca geniş və inkişaf etmiş sahəsidir. Bununla belə bioloji elmlər insanın canlı ilə praktiki qarşılıqlı fəaliyyətinin müvafiq növlərinə bilavasitə istiqamətlənən kənd təsərrüfatı, biotexnoloji və tibbi elmlərlə tamamlanır. Bioloji idrakın özünün inkişafı bu cür qarşılıqlı fəaliyyətin yeni növlərini yaradır. Bu əvvəlcədən genetik cihazlarla verilən, təbiətində əvvəlcədən olmayan yeni bioloji orqanizmlərin lahiyələşdirlməsi ilə məşğul olan müasir biotexnologiyada aydın aşkar olunur. Biotexnologiyanın köməyi ilə insanın ən müxtəlif təlabatlarmı ödəmək üçün zəruri olan maddələr və ərzaqları süni yolla almaq mümkün olur. Beləliklə, bizim günlərdə canlı haqqında biliklərin əsas hissəsini, o cümlədən ən əsaslı bilikləri adamlar biologiyadan alırlar.

Bununla bağlı olaraq belə bir sual yaranır: bəs həyatı dərk etməkdə fəlsəfənin rolu necədir? Biologiya ümumiyyətlə fəlsəfəsiz keçinə bilərmi? Bizdə bu məsələ daha kəskin şəkildə dayanır. Məsələ ondadır ki, XX əsrin 30-40-cı illərində biologiyanın fəlsəfi problemlərinə dair yanlış anlamalar fomıalaşmışdır. Bu dövrdə həm bioloqlar, həm də filosoflar arasında belə bir yanlış nöqteyi-nəzər formalaşmış və geniş yayılmışdır ki, guya iki biologiya - qabaqcıl dialektik-materialist biologiya və xalq əleyhinə olan irticaçı idealist biologiya mövcuddur. Olduqca primitiv mühakiməyə malik olan ayrı-ayrı fəlsəfi müddəalar öz müddəaları üçün başlıca əsas kimi onu

götürürdülər ki, hansı bioloji nəzəriyyə düzdür, hansı nəzəriyyə isə yalnışdır. Bu nöqteyi-nəzər üzdən fılosofluq etməyə meyl edən Sovet bioloqu T.D.İsenko tərəfindən irəli sürülmüş və bir sıra ehkamçı filosoflar tərəfindən, ilk növbədə isə M.B.Mitin, o cümlədən «fılosofluq edənlərə rəhbərlik etməyə» iddialı olan hüquqşünas İ.İ.Prezent tərəfindən müdafiə olunmuşdur. Onlar əsasən genetiklərə qarşı mübarizə aparırdılar. - biologiyanın sahəsi olan genetika bütün dünyada bu vaxtlar xeyli inkişaf etmişdir. Nəticədə biologiya və fəlsəfəyə ciddi zərbə vurulmuşdur. Materialist dialektikadan iltibas gətirən əksər fəlsəfə əsərlərdə kobud, cahil konsepsiyalar təbliğ olunur və yeni genetikanın inkişafındakı perspektivli olan istiqamətlər irsiyyətdəki xromosom nəzəriyyəsi adlanan istiqamət mühakimə olunurdu. İrsiyyət mexanizmindəki nukleyin turşulannm rolunu açan biokimyəvi genetik sahəsindəki tədqiqatları Lisenko və onun tərəfdarları «idealist» tədqiqat kimi qəbul etmək istəmirdilər. Bu yalnış nəticələr, onu da qeyd edək ki, müəyyən vaxtlarda yalnız filosoflara xas olmamışdır, o, uzun müddət ictimai xarakter almış, elmə əks olan istiqamət kimi təbliğ olunmuşdur. Lisenkonun və onun tərəfdarlarının savadsız nəzəriyyələri həm ali məktəblərdə, həm də orta məktəblərdə tədris olunmuşdur. Məsələnin fəlsəfi tərəfinə gəldikdə isə, burada dialektika yalançı dialektika ilə əvəz olunmuşdur. Əgər belə demək mümkündürsə, fəlsəfi təhlil bu və ya digər nəzəriyyənin təcrübi faktlarla əlaqəsinin izlənməsinə, nəzəriyyənin mahiyyətinin obyektiv və hərtərəfli nəzərdən keçirməsinə istiqamətlənməmiş, sadəcə olaraq yüngülvari «qiymətləndirici işlərə» yönəldilmişdir, bunun gedişində isə, dialektik-materialist dünyagörüşü yalnız müxalif fikirlə çıxış edənlərə ləkə

gətirmək üçün bir vasitə kimi istifadə olunmuşdur. 1948-ci ildə Kənd təsərrüfatı elmlərinin ümumittifaq aka- demiyasmm sessiyasında bu hadisələr görünməmiş dərəcədə inkişaf etdirildi və elmi genetikanın faktiki olaraq darmadağm edilməsinə gətirib çıxardı. Nəticədə uzun illər ərzində genetika öz inkişafının gizli dövrünü yaşamalı oldu, yalnız elmi ideala sadiq olanlar gizli şəkildə genetika ilə məşğul olurdular, Bu faciəli hadisədən çıxarılan ilk nəticə ondan ibarətdir ki, fəlsfənin biologiyaya, eyni zamanda digər elmlərə səriştəsi olmayanlar tərəfindən tətbiqi olduqca təhlükəlidir. Ancaq bu o demək deyildir ki, həyatın dərk olunmasında biologiya və fəlsəfənin toxunma nöqtəsi ümumiyyətlə yoxdur. Qabaqcıl filosoflar, Lisenkonu tənqid edənlər öz əməli işləri, sağlam mühakimələri ilə biologiya və fəlsəfə arasında mövcud olan əlaqəni dəfələrlə təsdiq etdilər.

Biologiyada canlıya idrak obyekti kimi baxılır. Biz eyni zamanda görürük ki, insanın canlıya münasibəti çoxtərəflidir, o həm idraki və praktiki, həm də etnik və estetik tərəfləri özündə birləşdirir. Bioloji idrakın nəticələri və nailiyyətləri əlbəttə ki, özü-özlüyündə böyük dəyərə malikdir. Lakin onlar boş yerdə oturmurlar, insanın canlı haqqında olan baxışları məcmusuna, canlı ilə qarşılıqlı fəaliyyətin münasibət və üsulları formasına daxil olurlar. Bundan başqa, bioloji idrakın inkişafı bu baxışların və münasibətlərin dəyişməsinə aparıb çıxarır. Başqa sözlə desək, o, adamları dünyagörüşünə təsir edir, ona görə də dünyagörüşü dərketmə şərh tələb edir və bu da əsasən fəlsəfənin vəzifəsi hesab olunur. - bu vəzifəni fəlsəfə və biologiyanın birgə cəhdi ilə yerinə yetirmək olar. Fəlsəfənin bu vəzifəsi insanın canlıya münasibəti qədər olduqca dərin əhəmiyyət kəsb edir. Canlıya yalnız

obyektiv elmi idrak və praktiki fayda baxımından yanaşan adamların fəaliyyəti canlı təbiətin bu və ya digər obyektinə təhlükə yarada bilər; insanlar həyatın çoxrəngli gözəlliyini və digər formasını hiss etməyəndə, canlının keçirdiyi hissləri, onun əzablarını duymayanda bu həyatın özünün mövcudluğu üçün təhlükəli ola bilər. Heç təsadüfi deyil ki, həyatın müəmmalarının açılmasında bioloji idrakın valehedici uğurları bu gün də hamı üçün, hətta biologiya ilə peşəkarcasına məşğul olanlar üçün belə izah oluna bilməyən və çətin dözülən sirləri saxlayır.

Həyatın dərk olunmasında fəlsəfənin yeri haqqında məsələni müzakirə edərkən aşağıdakıları nəzərdən qaçırmaq olmaz; biologiya üçün həyat idrak obyektidir və bu mənada onu dərk edən subyektə qarşı dayanır, lakin insanın mövcudluğu nöqteyi-nəzərdən həyat yalnız obyekt ola bilməz, belə ki, o özü də həyatın toxumalarına daxildir, onun davamı və təzahürüdür. Biologiya həyatı sanki kənardan görür; məhz bunun hesabına o canlı haqqında obyektiv biliklər verə bilir. Fəlsəfə isə bununla kifayətlənə bilmir, onu insan və canlı arasında tam bütöv halda götürülən münasibət maraqlandırır; burada çox güman ki, biologiyanın verdiyi məlumatlar, eyni zamanda insan varlığının, insan fəaliyyətinin, insan idrakmn həyatın təzahürü olması da nəzərə alınır, bütün bunlar ona görə mümkündür ki, məhz onlar həyatın mövcud olmasına və onun qorunmasına imkan verir.

**Biologiya və fəlsəfə arasındakı asılılığın qarşılıqlı olmasını** xüsusilə **vurğulamaq lazımdır.** Bir tərəfdən, bioloji idrak öz nailiyyətlərinin dünyagörüşü əhəmiyyətinin nəzəri dərk olunmasını fəlsəfədə tapır; bioloji idrak öz inkişaf gedişində canlının məzmunlu, aydın və dolğun mənzərəsini verə bilir. Bununla belə, bioloji idrak.

xüsusilə müasir dövrdə, həm də əxlaqi-etik xarakterli kəskin problemləri - insan və heyvan üzərində aparılan təcrübələrdə verilən imkanların həddi, biologiyanın inkişafı gedişində insanın irsiyyətə, fiziologiya və psixikasına təsir imkanları və digər problemləri qarşıya qoyur. Çox güman ki, bu cür məsələlərin müzakirəsində, çox vaxt dərin dünyagörüşü məsələlərə toxunanda fəlsəfə kifayət qədər hiss olunan yer tutur. Digər tərəfdən, insanın dünyagömşü mövqeyini nəzəri cəhətdən əsaslandıran fəlsəfə bunları anlayışlar dili ilə aydınlaşdırmağa, açmağa və ifadə etməyə cəhd edir, yəni gələcək səmərəli təhlil üçün onlara şərait yaradır, insanın mövcudluğu baxımından əhəmiyyətli olan, həlli əsasən bioloji idrakdan asılı olan problemləri təhlil etməyə imkan yaradır.

Bioloji idrakın nəticələrinin fəlsəfi dünyagörüşünə əhəmiyyəti aşağıdakı faktda əyani özünü göstərir. F.Engels «Lüdviq Feyerbax və klassik alman fəlsəfəsinin sonu» əsərində XIX əsrin ortalarında olan, materialist dialektikanm təbii-elmi əsası kimi çıxış edən üç böyük elmi kəşfi qeyd etmişdir; bu enerjinin saxlanması və çevrilməsi qanunu, orqanizmin hüceyrələr quruluşu və Darvin tərəfindən irəli sürülən təbii seçmə yolu ilə növlərin əmələ gələsi haqqında kəşfdir. Dediyimiz kəşflərdən son ikisi bilavasitə bioloji idrak sahəsinə aiddir; lakin enerjinin saxlanması və çevrilməsi qanununda da biologiyanın rolu açıq gömnür. Darvin təlimi, ilk növbədə, onun həyatın təkamül yolu ilə inkişafı haqqında ideyası və insanın insanabənzər meymundan əmələ gəlməsi haqqında fikirləri XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərindəki fəlsəfəyə olduqca böyük təsir göstənnişdir. Fəlsəfi cərəyanın «həyat fəlsəfəsi» adlanan bütöv bir dəstəsi yarandı. Onların hər biri Darvinin təlimini özünəməxsus şəkildə

şərh etməyə başladı, hətta bəziləri Darvinin təkamül nəzəriyyəsinə yeni şəkildə yanaşaraq özlərinin təkamül şərhlərini irəli sürdülər. Bununla yanaşı sosial-darvinizm daha geniş yayılmışdır, bu təlim bioloji qanunauyğunluğu ictimai həyata keçirir və özlərindən asılı olmayaraq bütöv sinifləri, irqləri daha az inkişaf etmiş, yalnız tabe olmağa meylli olan kateqoriyaya aid edirdilər - irticaçı təlim idi. Darvin özünün bir çox davamçılarından fərqli olaraq bu cür abstrakt fəlsəfi görüşlərlə heç bir əlaqəsi yoxdur.

Biologiyanın fəlsəfi dünyagörüşü əhəmiyyəti haqqında danışarkən qeyd etmək lazımdır ki, bütün təbiət aləmindən məhz canlı dialektik inkişafın qanunauyğunluğunun və xarakterinin zənginliyi daha çox aydınlaşdırır.

Demək olar ki, **dialektik inkişaf** - ziddiyyətlərin toplanması və həlli, kəmiyyət dəyişikliklərinin yığılması və yeni keyfiyyətə sıçrayışla keçid, **inkarı inkar** - həyatın mövcudluq üsuludur, o canlının bütün inkişafında özünü göstərir - həm tək hüceyrə səviyyəsində, həm bütöv orqanizm səviyyəsində, həm ayrıca bioloji növ və biosenoz səviyyədə (müəyyən ərazidə məskunlaşan növlərin öz aralarında qarşılıqlı fəaliyyətləri və əlaqələrin məcmusu) və nəhayət bütöv kimi biosfera sahəsində özünü göstərir. Bu səviyyələrin hamısı üçün eyni olan ümumi xüsusiyyətlərlə yanaşı onların spesifik özünəməxsusluqlarını xarakterizə edən xüsusiyyətləri də vardır. Məsələn, orqanizm səviyyəsində inkişafın ən mühüm tiplərindən biri - dövri inkişaf həyata keçir. Hər bir ayrıca dövrdə anadan olmadan ölümə qədər olan mərhələdə bir-birini əvəz edən qanunauyğun ardıcıllıq müşahidə olunur, həm də bu mərhələlərdən hər biri çox yaxşı fərqlənir. Bu cür aydın dövrilik növlər və ya biosfera səviyyələrində aşkar olunmur. Daim dəyişən, çox vaxt bu

dəyişkənliyin kəskin olmasına baxmayaraq öz eyniliyini saxlayan bioloji orqanizmin inkişafı - insanın iradə və şüurundan asılı olmayaraq, bununla belə, gündəlik təcrübədən ona yaxşı məlum olan qanunauyğun və nizama salınmış proseslərin parlaq nümunəsidir. Ona görə də təccüblü deyil ki, artıq qədim zamanlardan orqanizmin inkişafı ən müxtəlif proseslərin və bizim qavrayış üçün az qavranılan ətraf gerçəkliyin hadisələrinin dərk olunması üçün model kimi çıxış etmişdir. Məsələn, dünyanın yaranmasını izah edən kosmoqonik miflərdə dünyanın əmələ gəlməsi və onun sonrakı inkişafından danışılır. Bu fikirlərə qədim yunan mütəfəkkirlərinin naturfəlsəfi baxışlarında da rast gəlmək olar. Çox vaxt dünya, kosmos onlar tərəfindən böyük orqanizm kimi verilirdi, bu orqanizm doğuluşdan ölümünə qədər keçdiyi yolda bioloji varlığın inkişafına xas olan bütün təbəqələri keçirdi. Bəli, müasir insan da yalnız gündəlik həyatda deyil, hətta ətraf aləmi başa düşmək və dərk etmək üçün elmi idrakda tez- tez həyat, ölüm, rüşeym, doğum, gənclik, yetkinlik, qocalıq və s. metaformlara əl atmalı olur, bunlar hamısı öz başlanğıcını məhz həmin mənbədən götürmüşdür.

**Canlı haqqında müasir baxışlara** nəzər salmaq məqsədəuyğundur. İnsanlara bizim planetin çərçivəsi ilə məhdudlaşan yalnız Yer həyatı məlumdur. Artıq bu gün qətiyyətlə bildirməyə cəhd edirlər ki. Yer kürəsindən başqa Günəş sisteminin planetlərindən heç birində həyat yoxdur. Doğrudur yerdənkənar həyat və sivilizasiyanın axtarışı davam edir (məsələn, kosmik məkanda olduqca mürəkkəb üzvi birləşmə aşkar olunmuşdur - bu molekullarm olduqca sadə formaları və Yerdə həyatın kimyəvi bünövrəsidir), ancaq belə bir ehtimalla razılaşmamaq olmur ki. Kainatın bizim öyrənməyimiz üçün

mümkün olan heç bir yerində, Yerdən başqa həyat yoxdur. Bəlkə də çılğın təxəyyüllə bu fikirlə razılaşmamaq da olar: ancaq bu ehtimalı nəzərə alaraq bəşəriyyət Yerdə həyatın saxlanmasına daha çox qayğı göstərməlidir. Canlı və cansız təbiət arasında olan həddi dəqiqləşdirməyə cəhd edən insan labüdən həyatın mənşəyi haqqında məsələ ilə toqquşur. Cansız təbiətin, ümumiyyətlə təbiətin mənşəyi haqqında məsələ ilə canlı təbiətin mənşəyi haqqında məsələ arasındakı əsaslı fərqə diqqət yetirmək lazımdır. Birincidən fərqli olaraq ikinci məsələ yalnız mücərrəd məna kəsb etmir (biz ondan çıxış edirik ki, təbiət bu və ya digər formada əbədi olaraq mövcuddur), həm də ciddi təbii elmi məzmuna malikdir. Bu məsələ bəşəriyyəti onun bütün tarixi boyu narahat etmişdir; lakin uzun illər o, yalnız mifin, dinin və ya naturfəlsəfənin dili ilə müzakirə olunmuşdur. Dini dünyagöıüş üçün həyatın əmələ gəlməsi İlahinin düşüncələrinə müvafiq olaraq yaranmışdır. Həyatın mənşəyi haqqında təbii elmi biliklərin dünyagörüşü əhəmiyyəti müəyyən mənada bununla müəyyən olunur; bu biliklər XX əsrdə daha çox toplanmışdır. Bununla bağlı təbiətşünaslığın qarşısında dayanan vəzifə ondan ibarətdir ki, o, göstərir ki. Yerdə həyatın yaranması bizim planetin əvvəlki təkamülünün qanunauyğun nəticəsidir, o, xarici iradənin işə qarışmasım və zəruri və kifayət qədər olan şəraiti müəyyən etməyi, eyni zamanda cansız təbiətdən həyatın ilkin formasına dialektik sıçrayışın ardıcıl mərhələlərini tələb etmir.

Yerdə həyatın ilk əlamətləri təqribən 3,8 milyard il əvvəl yaranmışdır. Ondan xeyli sonra, təqribən 2 milyard il əvvəl fotosintezə, yəni Günəş işığının enerjisinin kimyəvi reaksiya üçün istifadə edilməsinə qadir olan ilk hüceyrələr meydana gəlmişdir, bu prosesdə oksigen

ayrılır. Bu Yerdəki atmosferi, onun kimyəvi tərkibinin xarakterini əsaslı şəkildə dəyişmişdir və həyatın Yer səthində sürətlə yayılmasına imkan vermişdir yəni bütöv sistem, məhz biosfera əmələ gəlmişdir. Nəticədə həyatın özü Yerdə həyatın saxlanması və inkişafı üçün zəruri olan şəraitin müdafiə olunmasında mühüm amil oldu. Bu dialektik inkişafın ən əsas qanunauyğunluqlarının təzahürüdür, bu vaxt materiyanın hərəkətinin daha yüksək formasına xas olan qanunlar hakim olur və yalnız bioloji deyil, həm də kimyəvi təkamülün gedişini müəyyən edən inkişafın sonrakı prosesini özünə tabe edir.

Maraqlıdır ki, hələ XIX əsrin 40-cı illərində inkişafın cəmiyyətə xas olan bu qanunauyğunluğunu Marks təhlil etmişdir. Onun sözlərinə görə, «orqanik sistem bütövün məcmusu kimi özünün ilkin şərtləri var və onun bütövlük istiqamətindəki inkişafı məhz cəmiyyətin bütün elementlərini özünə tabe etmək və ya onun orqanlarında çatışmayanları onun özündən yaratmaqdan ibarətdir». Buna uyğun olaraq bir dəfə yaranan və bizim planetin üzərinə yayılan həyat yeni bütövlüyü - biosferanı yaradan qüvvə olmuşdur və orada baş verən prosesləri müəyyən edir. Yalnız bizim planetin deyil, həm də kosmosun, bütövlükdə Kainatın təkamülündə müəyyən mərhələ kimi həyat haqqında təsəvvürlər XX əsrin əvvəllərində bir sıra mütəfəkkirlər tərəfindən formalaşmışdır. Tsiolkovski, Çijevski və başqalarının yaratdığı kosmik nəzəriyyələr Vernadskiyə təsir etmiş, o da öz yaradıcılığında planetar və kosmik qaydalarda olan amil kimi həyat haqqında və həyatın qorunmasında əqlə malik olan insanın cavabdehliyi haqqında baxışları dərindən reallaşdırmışdır. Biosfera haqqında baxışlar həyata məkan və zaman daxilində fasiləsiz olan axın kimi baxmağa imkan verir ki.

bundan da durmadan maddə, enerji və məlumatlar yaranır. Lakin burada da biz yenidən dialektik ziddiyyətlə qarşılaşırıq: bu fasiləsiz axının möveudluğunun və təkamülünün forması olan dialektik ziddiyyət ətraf mühitdən ayrılan, məkan və zamanea məhdud olan aynea orqanizmdir.

Hər bir orqanizm - laxtadır, burada maddə, enerji və məlumat bir yerə toplanır. Onların ehtiyatlarını orqanizm ətraf mühitdən doldurur, burada onlar dağınıq və qarışıq şəkildədir. Orqanizm bu ehtiyatları yenidən işləyir, onu keyfıyyəteə yeni, daha mütəşəkkil səviyyəyə keçirir. Orqanizmin ətraf mühitlə və ilk növbədə isə digər orqanizmlərlə qarşılıqlı təsiri bizim planetin üst qatını əhatə edən həyat axınının bir yerə toplanmasının aparıeısıdır. Əgər orqanizmə daxili quruluş baxımından nəzər salsaq yenə də ziddiyyət aşkar edəeəyik: bir tərəfdən, bütün orqanizmlər üçün ümumi, vahid olan onların quruluş, fəaliyyət və inkişaf qanunları möveuddur, digər tərəfdən isə, hər bir orqanizmin onun genlər yığımı üçün xarakterik olan nadirliyi var, ona görə də genlərə nəzarət edən biokimyəvi proseslərin spesifıkliynə görə, onların quruluşuna, davranışına və s. görə orqanizmin genetik proqramı və onun yaşaması üçün şərait müəyyən olunur (yalnız bu halda klonlar istisnahq təşkil edir. Klonlar bir ana hüceyrəsindən əmələ gələn genetik eyni olandır. Təbii şəraitdə klonlaşma yolu ilə çoxalma yalnız sadə orqanizmdə müşahidə olunur. Ali orqanizmə gəldikdə isə, hal-hazırda süni yolla onların klonlaşdırılması biotexnoloji tədqiqatın istiqamətlərindən biridir). Hər bir həyat vahid həyat axınına daxil olsa da o yalnız bir dəfə baş verir, o təkrarolunmazdır, biri digərindən fərqlənir.

Hər bir həyatın sonu var və burada dərin məna əks olunur, çünki o, birincisi, yeni həyatın başlanğıcıdır, ikincisi zaman keçdikcə ona yol açır. Ayrıca orqanizmin həyatının sonsuz olaraq davam etməsi yeni formaların yaranması və seçilməsi imkanlarını, yəni onun təkmül yolu ilə inkişafını bağlayardı. Hər bir orqanizm fərdi və nadir olsa da, onun üzərində təcrübə keçinnək olar: onlar şəraitə uyğunlaşır, yaşayış mühitinə uyğunlaşaraq həyatını davam etdirə bilirlər. Orqanizmi həyatın özünün keçirdiyi orqanizmə bənzətmək olar: o saysız-hesabsız variasiyalar yaradır, bununla belə yaşayış mühitinin dəyişən şəriatinə daha yaxşı uyğunlaşmanı saxlayır və bölüşdürür. Bu variasiyaların əsas mənbəyi genlərin birləşməsidir ki, mayalanma vaxtı hər bir valideyndən yaranır (cinsi çoxalma vaxtı) və başlıcası, ən müxtəlif səbəblərin təsirindən irəli gələn mutasiya - genlərin dəyişməsidir (məlumdur ki, mutasiya radioaktivliyin səviyyəsinin yüksəlməsi və ya bir sıra kimyəvi birləşmələrin təsirindən yaranır). Ən əsas odur ki, mutasiya istiqamətlənməmiş xarakter daşıyır, yəni «adekvat uyğun dəyişiklik» adlanan dəyişikliyə aparmır, belə olsaydı onda mutasiya ətraf mühitə uyğunlaşmanın daşıyıcısına çevrilərdi. Bu mənada onları təsadüfi adlandırırlar. Mutasiyaların əksəriyyəti ziyanlıdır, ya ümumiyyətlə həyat qabiliyyətli orqanizmin inkişafını mühasirəyə alır, ya da mühitə az uyğunlaşan, eybəcər forma yaradır. Bununla belə mutasiyanm veridiyi materialdan bioloji təkamül seçmə yolu ilə yeni, mühitə daha çox uyğunlaşan və daha çox həyat qabiliyyəti olan orqanizm yaradır. Orqanizmin həyat qabiliyyəti nə qədər çox olarsa onun həyat qabiliyyətli nəsil qoymaq ehtimalı da bir o qədər yüksək olur, bu da genetik yolla möhkəmlənir. Belə ki, bir-birindən asılı olmayaraq təsadüfi

şəkildə fəali}^ət göstərən ən müxtəlif amillərin birləşməsi (uyğunlaşması) zəruri nəticə kimi yeni canlı forma yaradır.

Canlı materiyanın daha çox xarakterik fərqləndirici xüsusiyyətinə, adətən, bizim təsəvvürlərimizin bütün imkanlarını keçən, həqiqətən onların mövcud olduğu saysı-hesabsız çox müxtəlif formalarını da aid edirlər. Sanki eanh aləmdə təbiət rənglərin bütün palitrasından (boya taxtası), çalarlardan, həndəsi fıqurlan və ölçülərin, səslər və iylərin ağlabatan və ağlabatmayan uyğunluğundan, orqanizmin müxtəlif növünün yaşaması üçün yararlı olan xarici aləmin sonsuz diapazonundan istifadə edir. Bu rəngarənglik yalnız insanın hissinə deyil, həm də onun ağlına mənəvi zövq verir, daim dəyişiklikdə olan müxtəlifliyin vəhdətini axtarmağa vadar edir. Canlının, müxtəlifliyinin nizama salınması və təsnif edilməsinə cəhd bioloji idrakın vadaredici (sövqedici) təkanlarından biridir. Müasir biologiya özü də bu müxtəlifliyə həyatın mövcudluğu və davam etməsi üçün zərurət kimi baxır.

**Həyatın sonlu olub-olmaması məsələsinə** də diqqət yetirmək məqsədəuyğundur. Biosferanm, xüsusi ilə də onların təşkil olunduğu parçalanmış sistemlərin daxil olduğu mürəkkəb təşkilli sistemlər onları parçalayan xarici təsirə cavab olaraq öz-özünü müdafiə etmək, öz-özünü bərpa etmək xassəsinə malikdir. Lakin bu cür xassələr yalnız müəyyən, kifayət qədər məhdud həddə özünü göstərə bilər. Bu həddə çıxmaq dərin keyfiyyətli dəyişikliyə və ya hətta onun dağılmasına aparan selə bənzər dəyişiklik axınına gətirib çıxarır. Canlıya və ya bütövlükdə biosferaya bu cür xarici təsirin mənbəyi ən müxtəlif ola bilər - bu həm radiasiyanın səviyyəsinin onun təbii fonuna nisbətən kəskin artması, həm canlı orqanizmin təkamülünün uy

ğunlaşa bilmədiyi atmosfera, su anbarlarına və torpağa atılan maddələrin kimyəvi tərkibinin fəallığı - ola bilər. Buna görə də yalnız həyatın mütəşəkkilliyi onun özünü necə təşkil etməsi deyil, həm də biosferanm və ümumiyyətlə Yer üzərindəki həyatın kövrəklik (zəriflik) adlanan- ları nəzərə almaq zəruridir. İnsanların müasir nəsli ilk dəfə biosferaya elə bir təsir vasitəsi əldə etmişlər ki, bu biosfe- rada köklü, dönməz dəyişikliklə, hətta onun mövcudluğunu hədələyən dəyişikliklərə səbəb ola bilər. Bu vəziyyətin dərk edilməsi insanların dünyagörüşündə mühüm irəliləyişə, onların dəyərli təsir edilməsinə, öz fəaliyyətlərində hansı istiqamətlərə əsaslanmalarına təsir göstəmıəyə bilməz. Əvvəllər demişdik ki. Yerdəki həyatın zamanca başlanğıcı var, ayrı-ayrı orqanizmlərinin yaşaması məhduddur, sonludur. Bəs görəsən bizim planetdə həyat sonlu, yoxsa sonsuzdur? Bu suallar da əvvəllərdə, başlıca olaraq, həm dini, həm də dünyagörüşü - metodoloji əhəmiyyət kəsb edən «dünyanın sonu» haqqında daha ümumi sualın tərkib hissəsi kimi yaranmışdır. Keçmiş əsrdə həyatın sonu problemin aktuallığı «Kainatın istilik ölümü» haqqında hipotezlə həvəsləndirilmişdir. Ancaq bu cür perspektiv milyon illər uzadılmış imkan kimi müzakirə olunur, bununla belə insanın iradə və fəaliyyəti ilə heç bir əlaqə görülmürdü. Yerin hər hansı kosmik cismlə toqquşması nəticəsində dağılması imkanı da, ümumiyyətlə desək, sıfıra bərabərdir.

Bu gün **Yerdə həyatın sonu haqqında məsələ** daha konkret məzmun və məna ilə doldurulmuşdur, insanlar istər düşünülmüş, istərsə də heç bir niyyətsiz həyatı məhv edən vasitələr hazırlamışlar, belə ki, həyatın saxlanılması son anda onların iradə və fəaliyyətlərindən asılıdır. Müasir bəşəriyyət elə bir vəziyyətdədir ki, həyatın sonlu və son

suz olması onun düşünülmüş seçimindən çox asılıdır. Bəli, bu gün insan tarixində ilk dəfə olaraq həyatın saxlanması insanların qarşısında dayanan məqsəd kimi və onların həll edəcəyi məsələ kimi çıxış edir. Bunun nəticəsində insanlar köhnəlmiş baxışlara yenidən qiymət vermək, yalnız təbiətlə deyil, həm də bir-biri ilə qarşılıqlı münasibətlərini yenidən qurmaq, öz fəaliyyətlərinin istiqamətinə və vasitələrinə yenidən baxmaq məcburiyyəti qarşısında qalmışlar. Yer üzərində həyatı xilas etməyin ilk təxirəsalınmaz şərti nüvə yanğının qarşısını almaqdır. Həyat üçün digər təhlükə mənbələri də mövcuddur. Bunların hamısı bu və ya başqa şəkildə insan fəaliyyəti ilə bağlıdı: bütün bunlar yalnız o vaxt aradan qaldırıla bilər ki, insan bunları dərk etsin və öz fəaliyyətlərini bu biliklərə arxalanaraq təşkil etsinlər. Həyat həmişə insanlar tərəfindən nə isə dəyərli pozitiv bir şey kimi qəbul edilmişdir. Bunu dilimizlə daha yaxşı ifadə edirik - axı «həyat», «canlı» sözlərini işlədərkən nə isə müsbət xarakteristika nəzərdə tutulur. Həyatın spesifikliyini, dəyərini göstərən fəlsəfi təlimlər də çox olmuşdur. Bu baxımdan XX əsrin birinci yarısında humanist filosofu A.Şveytserin baxışları xarakterikdir, o, «həyat qarşısında dərin hörmət, ehtiram etikasını» inkişaf etdirmişdir. Filosof insanın mövcudluğunun həyatın saxlanmasını zəruri edən şəraitin dərin dünyagömşü mənasım qeyd etmişdir. Onun fikrincə, «fədakarlıq yalnız insanın naminə deyil, həm də digər mövcudatın naminə, ümumiyyətlə insana məlum olan və həyatda rastlaşılan hər hansı həyat naminə edilməlidir». Digər mövqelər də mövcuddur - onlara görə də həyat dəyərlidir, lakin bu o qədər dəyərli olur ki, nə qədər ki, onun qorunması insanın və bəşəriyyətin mövcudluğu üçün ilkin şərtdir. Bu mövqelərin hər birinin özünün dəyəri və əsası var; bir çox hallarda onların hər ikisi

eyni fəaliyyətə vadar edə bilər. Onların yaxınlığı ilə yanaşı fərqləri də möveuddur. İkinci mövqe, əsasən Protaqorun «insana şeylərin ölçüsü» kimi baxdığı tezisi təkrar edir. Bu cür ölçü kimi yalnız hər hansı müəyyən dövrün adamını götürmək olar; məsələn, məhz müasir marağı, tələbatı, məqsədi olan müasir adam, ancaq həmişə insanda olan maraq, tələbat, məqsədlər tam açılmır. İnsanın sabah canlı orqanizmin hansı xassəsini həyata keçirəcəyini, nümayiş etdirəcəyini biz bilmirik. Bu mənada birinci mövqe daha etibarlıdır, ancaq onun tərəfdarları çox vaxt ifrata varırlar, insanın biosferaya hər hansı tərzdə qarışmasını qəbul etmirlər. Bəşəriyyət biosferanm tərkib hissəsidir, yalnız elə buna görə o biosferada gedən proseslərə təsir etməyə bilməz. Bəşəriyyət biosfera ilə qarşılıqlı təsirdə yeni səviyyəyə çatmışdır, artıq geriyə yol yoxdur. Yer kürəsində həyatın qorunması insanın ağlından, dərrakəsindən, onun təbiətə, başqa adamlarla münasibətləri necə qurmasından asılıdır. İndi yalnız elmi fikirlər söyləmək azdır, onu insanın iradəsi, arzusu və cavabdehlik fəaliyyəti ilə doldurmaq lazımdır.

Etiraf edək ki, cəmiyyət-təbiət münasibətinin necə olması üçün hər birimiz məsuliyyət daşıyırıq. Bu problemə yalnız dövlət səviyyəsində həyata keçirilən problem kimi yanaşmaq düzgün deyildir, bu problemi yalnız tədbirdən-tədbirə yada salınan, kimlərinsə həyəcanlı çıxışından sonra yaranan ajiotaj kimi baxmaq olmaz. Axı hər bir adamın, bütövlükdə bəşəriyyətin sabahı, gələcəyi insanların təbiətlə münasibətlərini necə qurmasından çox asılıdır. Əgər bu münasibət düzgün qurularsa, cəmiyyət-təbiət harmoniyası pozulmazsa onda bəşəriyyətin sabahına inam da yaranacaqdır.

**Təkrar üçün suallar**

1. Təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsi haqqında fəlsəfi təsəvvürlərin təkamülünün əsas mərhələsini xarakterizə edin.
2. Təbiəti eəmiyyət həyatının təbii əsası hesab etmək olarmı? Niyə?
insanda bioloji və ictimai tərəflər necə əlaqələnir? Onların hər birinin əhəmiyyəti nədir? Bununla bağlı hansı fəlsəfi nəzəriyyələr var?
4. Cəmiyyətin üzvi nəzəriyyəsinin, maltusçuluq, neo-maltusçuluq, coğrafi determinizm, geosiyasət kon-sepsiyalarının mahiyyəti nədir? Bu təlimlərdə səmərəli cəhətlər, sizin fıkrinizcə. hansılardır?
5. «Təbiət», «coğrafi mühit», «biosfera», «noosfcra» anlayışlarnm mənası nədir? Onlarm arasındakı fərq nədir?
Cəmiyyət, kosmos. Yerin əlaqələri nədə təzahür edir?
7. Cəmiyyət və təbiətin vəhdətinin ziddiyyətli xarakteri nədə ifadə olunur?
8. «Ekologiya» və «ietimai ekologiyanın» fərqi nədir? Müasir dövrün ekoloji probleminin məzmunu nədir?
9. Ekoloji problemin həlli yollarını göstərin.
Müasir Azərbaycanda ekoloji problemin xüsu-
10. siyyətlərini xarakterizə edin.
«Təbiət, təbii aləm» və «eəmiyyətin eoğrafı mühiti»
11. anlayışları uyğun gəlirmi?
Müasir ekoloji böhrandan çıxış yolu varını?
12. Cəmiyyətin inkişafının müasir mərhələsində ən xa-
13 rakter xüsusiyyətlər hansıdır?

14. Müasir beynəlxaq münasibətlərdəki ziddiyyətlər hansılardır, onlardan ilk növbədə hansılar həll edilməlidir? Niyə?
15. «Təbiət-cəmiyyət» sistemindəki ən mühüm ziddiyyətləri sadalayın.
16. «İnsan- cəmiyyət- təbiət» sistemində bizim ölkəmiz üçün ən vacib olan problemlər hansılardır?
17. Qlobal problemlər arasında əlaqə varmı, əgər varsa bunlar hansılardır?
18. Nə üçün müharibə və sülh problemi daha çox ciddi problem hesab olunur?
19. Ekoloji problemin sırf texniki (texnoloji) üsullarla həll etmək mümkündürmü?
15. Cəmiyyətin ekoloji savadlanması nə deməkdir?
21. «Ekoloji qəlb» anlayışını necə başa düşürsünüz?
22. Qlobal problemlərin həlli üçün vacib olan şərtlər hansılardır?

**Ədəbiyyat**


Баландин Р.К. Бондарев Л.Г. Природа и цивилизация. М., 1998;

2. Вернадский В.И. Биосфера и ноосфера. М., 1989;
3. Глобальные проблемы и общечеловеческие ценности. М., 1990;
4. Дорст Ж. До того как умрет природа. М., 1968;
5. Делокарев К.Х. Философия и человек в век глобальных проблем. М., 1998;

Мамедов Н.М. Проблемы экологии; некоторые актуальные аспекты. М., 1989;

7. Моисеев Н.Н. Человек и ноосфера. М., 1990;
8. Урсул А.Д. Путь в ноосферу. М., 1993;
9. Философия и экологическая проблема. М., 1990;
10. Человек в контексте глобальных проблем. М., 1989;

И. Хесле В. Философия и экология. М., 1993.

# III FƏSIL

## Cəmiyyətin iqtisadi həyatının fəlsəfi problemləri

Cəmiyyət bu və ya digər həyat fəaliyyətinin üsulu ilə birləşən insanların məcmusudur. Bu həyat tərzi və ya ictimai quruluş, onun həmin cəmiyyətə məxsus olması faktı azad seçimin nəticəsi olmayıb, ilk növbədə, həmin cəmiyyətin fəaliyyət göstərdiyi ərazidə doğulması faktı ilə şərtlənir. İnsan cəmiyyəti təlatümə gələn dənizi xatırladır, burada ayrıca adamlar, dalğalar kimi, özlərinə məxsus olanlarla daim toqquşur, yaranır, böyüyür, yox olur, dəniz isə - cəmiyyət - həmişə coşur, təlatümə gəlir və susur. Yəqin hamı divarın necə hörüldüyünün şahidi olub: kimsə palçıq hazırlayır, bir başqası onu daşıyır, usta isə daşları düzərək divarı hörür. Cəmiyyətdə də hər şey belədir: kimsə mühakimə yüıüdür, kimsə tarixi faktları qələmə alır, kimlərsə istehsal prosesində iştirak edir, xidmət göstərməyi baearanlar öz baearıqlarmı nümayiş etdirir və beləliklə, cəmiyyət vahid bir orqanizm kimi fəaliyyət göstərir.

E.ə. V əsrdə yaşamış Şərqin böyük müdriki Mo-tszi cəmiyyət quruluşunun universal sxemini işləyib hazırlasa da - cəmiyyətin hər bir üzvü onun yaşaması üçün öz qabiliyyətini təklif etməlidir - insan cəmiyyətinin son 2400 illik tarixi bu universallığı təsdiq etməmişdir. Cəmiyyətdə hamı dayanmadan özünə zidd hərəkət edir və bunu normal hal kimi qəbul edir. Söhbət üçün, həyata keçirmək üçün prinsiplər var və onların arasındakı

ziddiyyət heç kəsi narahat etmir. Bu həyat at belində gedən qulu, qul kimi piyada gedən ağanı görmüşdür. İnsan təbiəti etibarilə özünü sevən olmaqla yanaşı, həm də tənbəl, paxıl, başqalarına qaşı qısqanedır. O, kiminsə ondan üstün olması ilə barışa bilmir və bu üstünlüyün yalnız ona məxsus olmasını istəyir. Bütün insanlar istər ietimai, istərsə də şəxsi həyatlarında, o eümədən hər kəs özü ilə müharibə vəziyyətində yaşayır və müxtəlif prinsiplərdə ümumi dil tapa bilmirlər. Külək əsəndə kiməsə soyuq olur, kiməsə yox, buna görə də bu küləyin soyuq olması və ya olmaması ilə bağlı heç nə deyə bilmirik.

Volter yazırdı ki. Yer kürəsində danışılmağa layiq olmayan insanlar həddindən artıq çoxdur. Tamahkar, aegöz, mənfəət güdən, təeavüzkar adamlar da çoxdur, ancaq onlar öz xasiyyətlərini, meyllərini, dünya harmoniyası qanunlarına müvafiq düzəltməyi bacarırlar. Bu qanun hamı üçün eynidir və yer kürəsində yaşayan bütün canlılar ona tabedir. Məsələn: qurucu qarışqa öz yerini döyüşçü qarışqa ilə. Ay isə Yerlə dəyişə bilməz. Bu harmoniya qanunu cəmiyyətdə də fəaliyyət göstərir, lakin onu dəyişdirməyə cəhd edənlərin varlığı cəmiyyət üçün təhlükə mənbəyidir. Cəmiyyətdə yaşayan ondan kənarda dayana bilməz, cəmiyyət ağıllı, zəhmət çəkən insanları idarə edir, öz gücünə güvənənlər isə idarə olunmalıdır; idarə edilənlər adamları dolandırmalıdır, adamları idarə edənləri isə cəmiyyət dolandırır. İctimai harmoniya sistemi ilə bağlı c.ə. III əsrdə Men-tszinin verdiyi bu sadə və dəqiq şərhi dəyişdirməyə göstərilən cəhd heç nə verməmişdir, yalnız ietimai bəlalar gətirmişdir. İnsan öz gücünə görə öküzdən zəifdir, qaçmaq bacarığına görə atdan geri qalır, ancaq həm öküzü, həm də atı özünə tabe

etməyə məcbur edə bilir. Nə üçün belədir? Adamlar bir yerdə yaşamağı bacardığı halda öküz və atda bu qabiliyyət yoxdur. Bəs nə üçün insanlar birgə yaşaya bilir? Vəzifələrini böldüklərinə görə? Bu bölgü nəyin hesabına mümkün olmuşdur? Çünki insanlarda vəzifə hissi var. Yalnız öz vəzifəsini yerinə yetirməkdə sevinənlər azad yaşaya bilir. Əgər insan böyük canfəşanlıqla kənd təsərrüfatı ilə məşğul olursa, səma onu kasıblığa məhkum etməyə qadir deyildir. Torpağa ilk çəpər çəkib "bu mənə məxsusdur" deməyə cəsarət etmiş - onun bu sözünə inanan sadəlövh adamlar tapılmışdır-ilk insanı vətəndaş cəmiyyətinin həqiqi banisi hesab etmək olar. Ancaq bu ilk insanın basdırdığı dirəyi qırıb atan və "bu sizi aldadır, ona inanmayın, məhsul hamıya məxsus olsa da torpaq heç kəsə məxsus deyildir" deyən tapılsaydı o, nə qədər cinayətlərin, müharibələrin, bədbəxtliklərin və faciələrin qarşısını almış olardı. Əgər yüz adam bir dovşanı qovursa, bunu həmin dovşanı yüz yerə bölmək üçün etmirlər, ona görə edirlər ki, heç kəsin dovşana olan hüququ müəyyən olunmayıb. Əksinə, əgər bütün bazar dovşanlarla dolu olsa belə oğru onun heç birini götürməyə cəsarət etməz, çünki istənilən dovşan üzərində mülkiyyət hüququ artıq müəj/yənləşdirilmişdir.

Cəmiyyət canlı orqanizmdir, onun həyatı dünya quruluşunun universal qanunlarına tabedir və bu qanunu inkar etməyə göstərilən istənilən cəhd dağıntılara, orqanizmin məhvinə gətirib çıxarır. Hökmdar yuxarıda dayanmaqla hörmətdən istifadə edir, xidmətçi aşağıda dayandığından itaət edir, alçaqlıq və ucalıq, cəmiyyətdə tutulan mövqe müəyyən olunmuşdur və onu heç cür pozmaq olmaz. "Ağıllı adamlar başqalarının, axmaqlar isə özlərinin səhvindən öyrənirlər" deyimini insan cəmiy

yətinə də şamil etmək olar. Bernad Şou yazırdı ki, “bu işıqlı dünyada nə qədər çox yaşadıqca belə qənaətə gəlirəm ki, Günəş sistemində yer dəlixana rolunu oynayır. Bəlkə də insanlar tam harmoniyanın hökm sürdüyü bir planetə getmək istərdi, ancaq bu planetin harada olduğunu hələlik heç kəs bilmir. Deyirlər ürəkdən arzulamağı bacaranda ona nail olmaq mümkündür”.

Cəmiyyətin təbiətini və məğzini daha yaxşı anlamaq üçün ictimai həyatın iqtisadi, siyasi, mənəvi sahələrini araşdırmaq vacibdir. Bunları öyrənmədən cəmiyyətin tam və həqiqi təhlili qeyri-mümkündür. Cəmiyyət həyatının əsas sahələrindən biri iqtisadi sahədir, yəni cəmiyyətin iqtisadi həyatının mövcud olduğu məkandır. İctimai həyatın təbiətini daha dərindən anlamaq üçün biz cəmiyyətin bu və digər sahələrini hərtərəfli və əlaqəli şəkildə öyrənməliyik. Cəmiyyətin iqtisadi həyatının məğzinin fəlsəfi nöqteyi-nəzərdən təhlili müasir dövrdə daha çox aktuallıq kəsb etmişdir. Belə hesab edirlər ki, K.Marks eəmiyyətin tarixində və həyatında iqtisadi amili hipertrofiya (həddindən artıq böyütmək) etmişdir, ancaq etiraf edək ki, o bu mövqeyində düzdür, çünki cəmiyyətin həyatında iqtisadiyyat mühüm yer oynayır. Hələ antik dövrdə Aristotel bunu göstərmiş və sonrakı dövrlərdə bir çox mütəfəkkirlər bu fikri təkrar etmişlər. Cəmiyyətin iqtisadi həyatının müxtəlif sahələri müvafiq iqtisadi elmlər tərəfindən öyrənilir. Ancaq bir sıra elə məsələlər var ki, sosial fəlsəfi ondan yan keçə bilməz. Bu, ilk növbədə, aşağıdakı məsələlərdir: bütövlükdə cəmiyyət və onun iqtisadi həyatı öz aralarında necə əlaqə yaradırlar və cəmiyyətin inkişafı ona necə təsir edir?, iqtisadi həyatın özünün və onun əsas təzahürlərinin inkişaf mənbəyi hansılardır?, onun obyektiv və subyektiv tərəflərinin

qarşılıqlı əlaqəsi necədir?, iqtisadi şüur özlüyündə necədir və cəmiyyətin iqtisadi həyatına necə təsir göstərir?, cəmiyyətdə mövcud olan iqtisadi münasibətlər və adamların iqtisadi marağı bir-biri ilə necə əlaqələnirlər?, müxtəlif ictimai qrupların, ayrı-ayrı adamların və cəmiyyətin iqtisadi maraqları bir-biri ilə necə qarşılıqlı təsirdə olur? kimi sualların öz fəlsəfi cavabına ehtiyacı var. Cəmiyyətin iqtisadi həyatına, onun inkişafına şüurlu, o cümlədən elmi təsirin mümkün olub-olmaması məsələsi də filosofları düşündürür. Cəmiyyətin iqtisadi həyatının təkamülü və iqtisadi islahatların qarşılıqlı münasibətləri, burada dövlətin rolu haqqında məsələlər izah etmədən keçinnək mümkün deyildir. Bu və bir çox digər problemlər yalnız iqtisadi deyil, həm də sosial-fəlsəfi xarakter daşıyır, bütöv ictimai sistem kimi cəmiyyətin mövcudluğunun əsasını təşkil edir.

Cəmiyyətin əsasını müəyyən torpaq sahəsini çəpərləyib "bu mənə məxsusdur, heç kəs ona toxunmasın" deyən güclü kobud adamlar yox, bicliklə ələ keçirdiklərinin güclə alınacağından qorxan və buna görə də əhalinin əzilən təbəqəsini onun bu ədalətsizliyini müdafiə etməyə çağıran hiyləgər siyasətçilər yox, öz şəxsi mənafeyi naminə adamları əzaba, qulçuluğa, yoxsulluğa düçar edən şöhrətpərəstlər yox, məhz müdriklər qoymuşlar. Canlı orqanizm kimi cəmiyyət böhranlı günlərini, şıltaqlıq anlarını, inqilabları yaşayır. Öz həyatını dəyişdirə bilir, o doğulur, böyüyür, ölür, sağlamlıqdan xəstəliyə, xəstəlikdən sağlamlığa keçir, nəhayət bütün insanlar kimi onun da uşaqlıq, yeniyetməlik, ahılbq, qocalıq və ölümü var. Cəmiyyət öz yaşaması, inkişafı üçün həyatının iqtisadi sahəsi ilə daha çox bağlı olduğundan o daha ətraflı təhlil tələb edir.

## §1. Cəmiyyətin iqtisadi həyatının əsas təzahürləri

**Cəmiyyətin iqtisadi həyatı** - ilk növbədə müxtəlif növ predmetlərin və xidmətlərin istehsalı, bölgüsü və istehlak mübadiləsidir. Bu maddi nemətlər, o cümlədən yeyinti malları, geyim, mənzil, nəqliyyat və rabitənin müxtəlif növləri və ya səhiyyə və təhsil kimi xidmət sahələri ola bilər. Bu həm də mənəvi dəyərlər, o cümlədən incəsənət, elm, təhsil predmetləri və s. ola bilər. Belə ki, mənəvi dəyərlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakmm da öz iqtisadi məzmunu və təzahür formalan var. Onların istehsalına intellektual və fiziki əmək sərf olunur - onun haqqı ödənilməlidir - öz qiyməti olan bu və ya digər materiallardan, eyni zamanda əmək aləti və avadanlıqlardan, o cümlədən ən müasirlərindən istifadə olunur. Tələbələrə əsaslı şəkildə başa salmaq lazımdır ki, mənəvi dəyərlər həm də iqtisadi dəyərə malikdir. Çox vaxt onlar özlərinə aid olan xassələri ilə mal kimi çıxış edirlər. Doğrudur, bu malın özünəməxsusluğu var, belə anda adamların hiss və fikirləri, elmi nəzəriyyələr, bədii surətlər təcəssüm olunur. Mənəvi dəyərlərin vəzifəsi, təyinatı adamların mənəvi həyatının zənginləşməsinə xidmət etməkdir, nəticədə onlar cəmiyyət həyatının bütün sahələrinə təsir edir.

**Fəlsəfi-iqtisadi təfəkkür** tərzi ilə bağlı bəzi mülahizələrimizi nəzərinizə çatdırmağı məqsədəuyğun hesab edirik. İqtisadiyyatın məğzini və iqtisadi münasibətlərin bütün mürəkkəbliklərini anlamaq üçün, ilk növbədə, bu münasibətlərin əsasında nə dayandığını aydınlaşdırmaq lazımdır. Onların əsas insan tələbatıdır: o

hər cür insan fəaliyyətinin və ilk növbədə bütün əməyin və buradan da iqtisadiyyatın əsasıdır. Ümumiyyətlə tələbat nədir? Bu subyektin öz varlığının xarici və daxili şəraitindən asılılığıdır, bu insanın cəmiyyət və onun iqtisadiyyatının həyat əsəbidir: zavodun xammala, avadanlığa ehtiyacı var, sahibkarın sifarişçiyə, sifarişçinin isə, deyək ki, ev tikilməsinə ehtiyacı var. Cəmiyyətin həyatı tələbatın və onun ödənilməsinin mürəkkəb parçası ilə toxunmuşdur.

Lap qədim dövrlərdən insanlar təsəiTÜfat həyatını başa düşməyin zəruriliyini dərk etməyə başlamışlar. Aristotel biliyin bu sahəsini, o, dövr üçün, dərin və hərtərəfli təhlil etmiş, təsərrüfat həyatının çoxlu tərəflərini işıqlandırmışdır. Sonralar yeni dövrdə elmi biliyin yeni sahəsi - siyasi iqtisad yaranmışdır. Bu elmə “siyasi” əlavə təsadüfi verilməmişdir, bu iqtisadiyyat və siyasətin zəruri və sıx əlaqədə olduğunu göstərir: onlar sanki əkiz bacılardır. Siyasi iqtisad müəyyən mövqedən təsərrüfat münasibətlərini və əmtəə və pul hərəkətini kəmiyyət və keyfiyyət müəyyənliyi və bir-birinə keçməsi ilə göstərir. Onun inkişaf faktlar sistemini, bununla bağlı isə adamların təsərrüfat münasibətlərini aşkar edir, qarşısında dayanan sonsuz çoxsaylı vahidləri, cəmiyyətin təsərrüfat həyatında fəaliyyət göstərən və onu idarə edən müəyyən prinsipləri və qanunları axtarıb tapır. **Hegel siyasi iqtisadı** yüksək qiymətləndirmiş və yazmışdır ki, “o fikrə şərəf gətirir”. Siyasi iqtisad praqmatizm bayrağı altında, yəni tam praktiki səbəbdən, cəmiyyət həyatının təsərrüfat mexanizminin mürəkkəbliyini aydınlaşdırmaq tələbatından yaranmışdır. O, əmək kollektivlərinin və ayrı-ayrı adamların effektli təsərrüfat fəaliyyətlərinin prinsiplərini işləyib hazırlamağa istiqamətlənmişdir. İqtisadi fəaliyyət həyat

uğrunda va məhz müəyyən həyat səviyyəsi uğrunda mübarizə xarakteri daşıyır. TəsəiTÜfat ehtiyacı amansız zərurət kimi üstümüzə gəlir, həyatın özündən getməyənə qədər ondan qaçmaq olmaz. İqtisadiyyat lap əvvəldən insanların və bəşəriyyətin başının üstündən əksik olmamışdır. Sivilizasiyanın işıqlı gələcəyi ictimai sistemin bir tam kimi, qarşılıqlı əlaqədə uğurlu fəaliyyətindən asılıdır, burada hər bir həlqə tam işləyir, tam isə hissənin həyatvericiliyini tənzimləyir. Sosial-iqtisadi əlaqələrin nazik hörümçək torundan fəlsəfi-iqtisadi nöqteyi-nəzərlə nəyi aydınlaşdırmaq olar? Sosial-iqtisadi reallığın dərk olunmasında fəlsəfi mədəniyyətin metodoloji rolu hansıdır? İqtisadi təhsil olmadan ümumiyyətlə dövlət işlərini idarə etmək mümkün deyildir. Söhbət müasir iqtisadiyyat, onun ayrı-ayrı dar ixtisaslarındakı problemlərlə bağlı peşəkar bilikdən getmir, heç olmasa makro-iqtisadiyyat, onun əsas prinsipləri ilə ümumi tanışlıq vacibdir.

**İqtisadi fəlsəfə sosial fəlsəfə sisteminə** daxil olub onun əhəmiyyətli hissəsini təşkil edir: cəmiyyətin iqtisadi həyatına onun öz xüsusi yanaşma metodu var. Fəlsəfi təlim kimi iqtisadi fəlsəfə nədir? sualına cavab vermək üçün, ilk növbədə, siyasi iqtisadın nə olduğunu anlamaq lazımdır. Bəşəriyyətin inkişafının müxtəlif mərhələlərində istehsalı, bölgünü, mübadiləni (alqı-satqı) və həyat nemətlərinin istehlakını idarə edən prinsipləri, qanunları öyrənən elm olan siyasi iqtisad o nöqteyi nəzərdən çıxış edir ki, cəmiyyət həyatının təsərrüfat sahəsində yeməyə, paltara, mənzilə və s. tələbat kimi məlum ümumi tələbatlar və onları təmin edən vasitələr mövcuddur. Burada həm təsadüflər, həm də qanunauyğunluqlar fəaliyyət göstərir. Toıpaq burada və ya haradasa az məhsuldar ola bilər, illər

öz məhsuldarlığı ilə fərqlənir, adamlardan biri zəhmətkeş, başqası isə tənbəl ola bilər. Unutmaq olmaz ki, iqtisadiyyat cəmiyyət həyatının ən mürəkkəb sistemlərindən biridir: o özündə təsərrüfat proseslərinin məcmusunu birləşdirir ki, bu da cəmiyyətdə yaranan mülkiyyət münasibətləri və təşkilati-hüquqi formalar əsasında baş verir.

Siyasi iqtisadın banisi Adam Smit "Xalqların zənginliyinin təbiəti və səbəbləri haqqında tədqiqat "əsərində siyasi iqtisadın klassik məktəbinin yüzillik inkişafını ümumiləşdirmiş, obyektiv qanunlarla inkişaf edən, bu bura görə də dövlət tənzimlənməsinə ehtiyacı olmayan, insan fəaliyyətinin sahəsi kimi əmtəə istehsalı və mübadiləsi ideyasını əsaslandırmışdır. Bazar qiymətləri haqqında təlimi işləyib hazırlayan Smit onun əsasən istehsaldan, bazarda malların təklif olunması şəraitindən asılı olduğunu təhlil etmiş, ancaq alıcıların təlabatmm qiymətlərə təsirini tədqiq etməmişdir. Bu məsələlərin indiki şəraitdə aktuallığını nəzərə alaraq problemə həsr olunan xüsusi məşğələ keçirmək məqsədəuyğundur. Smitin təliminin davamı David Rikardonun nəzəriyyəsi olmuşdur. "Siyasi iqtisadın başlanğıcı və vergi qoyma" əsərində Smitdən fərqli olaraq o, belə hesab edirdi ki, dəyər əməklə yalnız "Cəmiyyətin ibtidai vəziyyətində" müəyyən olunur. Dəyər nəzəriyyəsini inkişaf etdirən Rikardoya görə, dəyər burjua cəmiyyətinin müxtəlif siniflərinin gəliri əsasında - əmək haqqı, gəlir, faiz və renta - dayanır. Gəlir - fəhlənin ödənilməyən əməyidir. Onun fikrincə, kapitalizm yeganə mümkün və təbii ictimai quruluşdur, onun iqtisadi qanunları isə əbədidir.

İqtisadi təlim öz sonrakı inkişafını Kari Marksın əsrlərindən tapdı. 40 il müddətinə yazılan "Kapital"

əsərində dəyərin klassik əmək nəzəriyyəsini və izafi dəyər nəzəriyyəsini inkişaf etdirmişdir. Marks təliminə qarşı düşmən münasibətin yarandığı indiki dövrdə onun nəzəriyyəsinin cəmiyyətin iqtisadi həyatındakı roluna mühazirədə xüsusi ilə qiymət vermək tələbələr üçün əhəmiyyətli olardı. Öz fikir və miqyasına görə böyük olan Marksm iqtisadi təlimi bütün dövrlərdə birmənalı qiymətləndirilməmişdir. Amerikalı professor Samuelson Marksı azsaylı “intellektual nəhənglər” siyahısına salmışdır. Digər amerikalı iqtisadçı Leontyev yazır ki, kim gəlirin, əmək haqqının, kapitalist müəssisənin, həqiqətən necə olduğunu bilmək istəyirsə müasir iqtisadiyyata dair dərsliklərdən daha çox “Kapital” əsərindən real və keyfiyyətli məlumatlar öyrənə bilər. İngilis alimi Blaux qeyd edir ki, Marksı dəfələrlə müxtəlif cür qiymətləndirmişlər, nəzərdən keçirmişlər, rədd etmişlər, onu min dəfələrlə dəfn etmişlər, ancaq o, hər dəfə onun intellektual keçmişə göndərilməsinə müqavimət göstənnişdir. Onun ideyaları baxışlar dünyasının o tərkib hissəsi olmuşdur ki, məhz onun çərçivəsində biz düşünürük.

Marks özü hesab edirdi ki, kapitalist ölkələrində siyasi iqtisad mülkiyyətçilərin marağına xidmət edir, o fəhlə sinfinin mənafeyinə xidmət edən siyasi iqtisadın yeni variantını qoymağa cəhd etmişdir. Ancaq sinfi yanaşma onun bir sıra fikirlərinin və nəticələrinin elmi obyektivliyinə mənfi təsir göstərmişdir. Marksm təlimi siyasi iqtisadın bütün klassik istiqamətinin həlledilməz ziddiyyətlərini və müəyyən məhdudluğunu aşkar etməyə imkan vermişdir. Marksm fikrincə, vətəndaş cəmiyyətinin anatomiyasını siyasi iqtisadda axtarmaq lazımdır. İqtisadi həyat sosial prosesdir, burada adamlar konkret təsərrüfatın bilavasitə xadimi, ümumi təsərrüfat orqanizminin vasitəli

“hissəsi” kimi çıxış edir. İstehsal prosesində insanlar arasında yaranan əlaqə mürəkkəb struktur-funksional və ierarxiq - tabe edilmiş sistem yaradır; bu sistem istehsal münasibətlərini yaradır. O, həm istehsal vasitələrinə, yəni mülkiyyət formasına münasibəti; həm mübadilə, bölgü və yaradılan nemətlərin istehlakı prosesində adamlar arasındakı əlaqəni, həm istehsalın ictimailəşməsi, yəni ifadə olunan əmək bölgüsü ilə şərtlənən adamların münasibəti, həm əməkdaşlıq və tabe edilmə-idarə edilmə münasibəti və həm də insanların qurduğu bütün münasibətləri əhatə edir. İdarəetmə sisteminin böyük rol oynadığı müasir istehsalda baearığı, təcrübəsi, marağı nəzərə alınmaqla kadrların seçilməsi və yerləşdirilməsi, istehsalın özünün ehtiyacı, bütövlükdə kadr siyasəti nəticəsində yaranan münasibətlər böyük əhəmiyyət kəsb edir. Beləliklə, iqtisadi münasibətlər sistemi olduqca genişdir - ayrı-ayrı istehsalçıların fərdi münasibətindən istehsal vasitələrinə əsaslı münasibətə qədər. Siyasi iqtisad insan biliyinin ən mürəkkəb sahələrindəndir. O, riyaziyyata, xüsusilə nisbilik nəzəriyyəsinə, statistikaya əsaslanır - bunlar faktların dərk olunması və onların nəzəri cəhətdən şərh olunmasına dəqiqlik gətirir. Siyasi iqtisad bütün bəşəriyyatm həyatında birləşdirici qüvvə kimi çıxış edir.

Həmişə ictimai xarakter daşıyan, yəni çoxlu adamların bir-biri ilə qarşılıqlı fəaliyyəti və onların təbiətə birgə təsiri kimi dayanan istehsal prosesində təbiət materiallarına verilən xassələrin yenidən dəyişməsi baş verir ki, bunun da sayəsində onlar adamların müxtəlif tələbatlarını təmin edir. Bu vaxt insan təbii və ictimai qüvvə kimi təbiət materiallarına qarşı dayanır, adamların təbiətdə və istehsal etdikləri predmetlərin və xidmətlərin

xassələrinə təsirinin xarakteri bununla müəyyənləşir. Bu və ya digər istehsal vasitələrinin sosial tipinin həlledici əhəmiyyəti var ki, bu da mülkiyyətin istehsal vasitələrinə və onun məhsullarına mövcud münasibətləri ilə müəyyən olunur. İstehsalın ictimai xarakteri bununla müəyyən olunur - onda müxtəlif siniflərin və ictimai qrupların və təbəqələrin nümayəndələrinin hansı rol oynaması və buna görə də yaradılan predmet və xidmətlərin bölgüsü, mübadiləsi və istehlakmm münasibətlərinin xarakteri müəyyən olunur. Və ya istehsal vasitələri kimin mül- kiyyətindədirsə o ağalıq edir, istifadə edir və idarə edir. Bir tərəfdən istehsalın, digər tərəfdən isə yaradılan predmet və xidmətlərin bölgüsü və istehlakmm qarşılıqlı fəaliyyətinin başlıca təzahürlərindən biri bundadır.

Öz növbəsində bölgü münasibəti və adamların predmet və xidmətlərdən istifadə etməsi istehsala güclü təsir göstərir. Onlar istehsalı ya stimullaşdırır, ya da onun inkişafını ləngidir. Məsələn, inkişaf etmiş ölkələrdə istehsalın inkişafında muzdlu fəhlə və qulluqçulara qarşı tətbiq olunan əməyin kəmiyyət və keyfiyyətə görə bölgüsü prinsipi rol oynayır - bu prinsip onların əməyini stimullaşdırır, istehsalın yüksəlməsi üçün onlarda maddi maraq yaradır, istehsal prosesinə yaradıcı təsir göstərir. Əksinə, bölgüdə bərabərlik prinsipi bu səbəbləri törətmir və öz məğzinə görə fəhlə və qulluqçuların yaradıcı qabiliyyətindən istifadə olunur. Gəlir əldə etmək - sahibkarların fəaliyyətinin əsas səbəbi və onların istehsalın inkişafında olan iqtisadi maraqlarıdır.

İstehsalın inkişafının həlledici stimullarından biri də istehlakdır. O, istehsalın miqyasının yüksəldilməsinə, onun sahələrinin, o cümlədən kənd təsərrüfatının, yüngül sənayenin, maşınqayırmanın, nəqliyyatın, rabitənin və s.

inkişafına təsir göstərir. Eyni zamanda yalnız adamların şəxsi tələbatlarının ödənilməsinə istiqamətlənən şəxsi istehlak deyil, həm də istehsal prosesinin özünün həyata keçirilməsi üçün zəruri olan istehsal istehlakmı (neft, qaz, elektrik enerjisi və s.) nəzərdə tutmaq lazımdır.

Cəmiyyətin iqtisadi həyatının mühüm təzahürü insanlar arasındakı mübadilə münasibətidir, bu da fəaliyyət, mal və xidmət mübadiləsi kimi çıxış edir. Onun əsasında bu və ya digər tarixi dövrlərdə yaranan əməyin ictimai bölgüsü, eyni zamanda insanların müxtəlif qrupları arasında mövcud əmək bölgüsünü, deməli, həm də onlar arasında yaranmış, mübadilə münasibətlərini möhkəmləndirən mülkiyyət münasibətləri dayanır. Belə ki, sahibkar, məsələn, maşın istehsal edən zavodun sahibkarı, istehsalı davam etdirmək üçün öz malını elektrik enerjisinə, polada, digər mallara, eyni zamanda şəxsi tələbatları - özünün və ailə üzvlərinin - ödəmək üçün qidaya, paltara, mənzilə dəyişir. Kəndli də, onu kimi, kənd təsərrüfatı məhsullarını və heyvandarlıqdan əldə etdiyi məhsulu, traktora, kombayna, kənd təsərrüfatı avadanlıqlarına və s. dəyişir. Bu mübadilə mal formasında, eyni zamanda, birbaşa məhsul dəyişməsi yolu ilə baş verir. Bu mal mübadiləsində müxtəlif mal istehsalçılarının fəaliyyətinin mübadiləsi, yəni onların qabiliyyətinin, bacarığının mübadiləsi öz əksini tapır. Xidmət mübadiləsində bu daha aydın öz əksini tapır. Tutaq ki, həkim ayrı-ayrı adamlara tibbi yardım göstərəndə bununla öz peşə xidmətini təklif edir. Eyni zamanda özü paltar tikənin, müəllimin, onun işlərini aparan vəkilin xidmətlərindən istifadə edir. İstehsal fəaliyyətinin və xidmətinin məhsullarının mübadiləsi istehsal və istehlak arasında əlaqəni ifadə edir və bununla cəmiyyətin iqtisadi həyatında mühüm rol oynayır.

Onun bütün təzahürləri, yəni: müxtəlif predmetlərin və xidmətlərin istehsalı, onun bölgüsü, mübadiləsi və istehlakı (şəxsi və istehsal) bir-biri ilə sıx bağlıdır və bir- biri ilə qarşılıqlı təsirdədir. Onların əlaqəsi və qarşılıqlı fəaliyyəti mürəkkəb və ziddiyyətli xarakter daşıyır. Bununla belə istehsal və bölgü, bölgü və mübadilə, istehsal və istehlak arasındakı obyektiv ziddiyyət cəmiyyətin bütün iqtisadi həyatının hərəkətverici qüvvəsi kimi çıxış edir.

## §2. Cəmiyyətin həyatında istehsal üsulunun rolu

Cəmiyyətin inkişafı və onun iqtisadi həyatı bir-biri ilə sıx qarşılıqlı bağlıdır. Onlar bir-biri ilə bütöv və onun hissəsi kimi əlaqəlidir, özünü vahid, tam çərçivəsində təzahür etdirir və mövcud olur. Cəmiyyətin iqtisadi həyatı ictimai həyatın bütün sahələrinin, o cümlədən mövcud cəmiyyətin mövcud ictimai-sinfi strukturunun, onun siyasi və mənəvi həyatının təsirini öz üzərində hiss edir. Öz növbəsində cəmiyyətin iqtisadi həyatı, hər şeydən əvvəl isə ictimai istehsal üsulu ictimai həyatin və bütövlükdə cəmiyyətin müxtəlif hadisələrinin fəaliyyət göstərməsinə və inkişafına əsaslı və bir çox halda isə həlledici təsir göstərir. Bu təsir o dərəcədə dərin və aydındır ki, bir çox mütəfəkkirlər **ictimai istehsal üsulunu** bütün cəmiyyətin mövcudluğunun və inkişafının əsası hesab edir. Bu qənaəti təsdiq etmək üçün sanballı arqumentlər irəli sürülür:-

1) maddi nemətlərin daimi istehsalı həyata keçirilməsə cəmiyyətin mövcudluğu mümkün olmaz;
2) istehsal üsulu, ilk növbədə, formalaşmış əmək bölgüsü və mülkiyyət münasibətləri siniflərin və digər ictimai qrupların və cəmiyyətdəki təbəqələrin, onun

ictimai-sinfi strukturunun meydana gəlməsi və inkişafını müəyyən edir;

3) istehsal üsulu çox vaxt cəmiyyətin siyasi həyatının inkişafını müəyyən edir. Adətən orada iqtisadi cəhətdən hökmranlıq edən siniflər və ictimai qruplar hakim mövqedə olur, onlar dövlət aparatının işini, pir çox siyasi partiyaların fəaliyyətinin məzmununu və istiqamətini, nəticədə bütün siyasi həyatı müəyyən edir;

4) istehsal prosesində cəmiyyətin mənəvi həyatının inkişafının zəruri maddi şəraiti, o cümlədən mənəvi mədəniyyət idarələrinin - kitabxana, muzey, teatr və s. - fəaliyyət göstərməsi üçün binalar, nəşriyyat avadanlıqları, kağız, kitab, qəzet, jurnal nəşr etmək üçün rəng, musiqi alətləri və s hazırlanır. Söhbət cəmiyyətin mənəvi həyatının maddi təminatından gedir.

Gördüyümüz kimi, **cəmiyyətin inkişafında istehsal üsulunun** əhəmiyyətli rolu haqqında çıxarılan nəticə əsaslıdır. Marksm iqtisadi nəzəriyyəsindən danışan Veber bu müddəanın Marks tərəfindən hərtərəfli şərh olunduğunu xüsusi vurğulamış və qeyd etmişdir ki, bu nəzəriyyəni Marksm bir sıra ardıcılları tərəfindən yaradılmış ehkamçı fikirlərdən təmizləmək lazımdır. Eyni zamanda cəmiyyətin inkişafında digər amillərin, məsələn, siyasi, əxlaqi, dini amillərin rolunun nəzərə alınması vacibliyini də Veber göstənnişdir. Hələ keçən əsrin əvvəllərində söylənən bu fikir indi də öz əhəmiyyətini saxlayır.

**ictimai istehsalın,** cəmiyyətin bütün iqtisadi həyatının inkişafının ən dərin mənbəyi adamların **iqtisadi tələbatı** və istehsalın özünün inkişafına olan tələbatıdır. Ən başhcasmı ayırmaqla qeyd etmək olar ki, ictimai tələbat ictimai zərurətin:
- insanlara ictimai həyatlarında zəruri olanların təzahürü kimi çıxış edir. İqtisadi tələbat

isə iqtisadi zəruriliyin təzahürü kimi çıxış edir - bu geyimə, qidaya, mənzilə, nəqliyyat vasitələrinə və s. olan təlabatdır. Onlardan bəzilərinin bioictimai xarakteri, - məsələn qidaya, istiliyə olan təlabat - digərlərinin isə təmiz ictimai - müasir geyimə, maşına, televizora və s. - xarakteri var. Ancaq bütün bu təlabatlar, o cümlədən bu və ya digər xalqın mədəniyyət atributlarını özündə daşıyan adamların hazırladığı qida və mənzil vasitəsi ilə təmin olunan təlabatlar da ictimai fomıada çıxış edir. Bu maddi təlabatlar eyni zamanda iqtisadi təlabat kimi çıxış edir, çünki insanlar arasındakı iqtisadi münasibətlər çərçivəsində istehsal prosesində təmin olunur. Bütün bu təlabatlar bu və ya digər məhsulun və xidmətin istehsalını tələb edir, onları müdafiə edir, nizama salır. İstehsal müəyyən təlabatlarm ödənilməsinə istiqamətlənir və ona görə də mövcuddur. Təlabat yoxdursa istehsal da yoxdur. Təlabatm dairəsi daima genişlənir, eyni zamanda onlar keyfiyyətcə inkişaf edir. Buna görə də yüksək təlabat qanunu haqqında, yəni onların daimi inkişafı və təkmilləşməsi haqqında danışırlar. İstehsalın özünə olan təlabatdan, yəni enerji; xammal, material və s. mənbələrə olan təlabatı da unutmaq olmaz. Beləliklə, ictimai-iqtisadi təlabat istehsalın inkişafının mənbəyi kimi, onun daimi və əsas özəyi kimi çıxış edir. Onu da əlavə etmək lazımdır ki, təlabatm özü yalnız istehsal deyil, həm də şəxsi təlabatm özü müxtəlif malların və xidmətlərin təsiri altında inkişaf edir. İnsanların bir sıra qida məhsullarına, müasir geyimə, məişət cihazlarına, soyuducuya, televizora və s. olan təlabatı belə təlabatlardandır. Bu təlabatlarm formalaşmasına təsir edən istehsal öz sabit inkişafı üçün mühüm şərait yaradır. Cəmiyyətin iqtisadi həyatının təzahürlərindən biri kimi iqtisadi təlabat, istehsal və istehlakm

qarşılıqlı hərəkətinin dialektikası belədir; onu başa düşmək və praktikada nəzərə almaq olduqca vacibdir.

İstehsal üsulunun iki tərəfi: **məhsuldar qüvvələr və istehsal münasibətləri var.** Onların rolu və qarşılıqlı fəaliyyətləri bir sıra mütəfəkkirlər tərəfindən hərtərəfli araşdırılmışdır. Onların fikrincə, cəmiyyət istehsal qabiliyyətinin qayğısına qalmalı və onu inkişaf etdirməlidir. Cəmiyyətin məhsuldar qüvvələri, - ilk növbədə, istehsalda tətbiq olunan əmək alətidir - məsələn, müasir texnika, o cümlədən, onda istifadə olunan elektrik enerjisi, texnologiya, nəqliyyat, istehsal üçün yer, əmək predmeti və s. Onlar məhsuldar qüvvələrin maddi tərəfini təşkil edir, onlann köməyi ilə adamlar təbiətə təsir edir, öz tələbatlarını ödəmək üçün onun materiallarından istifadə edirlər.

Məhsuldar qüvvələrin digər tərəfini bilik, bacarıq, vərdiş, istehsal təcrübəsinin daşıyıcısı olan adamlar təmsil edir. Onlar məhsuldar qüvvələrdən onları daha səmərəli istifadə etmək üçün tətbiq edir və təkmilləşdirirlər. Bununla onlar öz aralarında istehsal-iqtisadi münasibətlərə girirlər. Məhsuldar qüvvələr və istehsal münasibəti öz vəhdətində cəmiyyətin iqtisadi həyatının əsasını və başlıca məzmununu təşkil edən **istehsal üsulu** yaradırlar. Fikrimizi bir az da sadələşdirək; istehsal prosesini həyata keçirən adamlar əməyin subyekti kimi çıxış edirlər və məhsuldar qüvvələrin əsas və həlledici ünsürləridirlər. Bundan başqa istehsal prosesini həyata keçirmək üçün başlanğıc material və ya əmək predmeti vacibdir, bu da emal olunur. Bu torpaq, faydalı qazıntılar, metal və s. ola bilər. Ancaq əmək predmetini zəruri mala çevimrək üçün əmək alətindən istifadə olunur. Xarici aləmə təsir etmək məqsədi ilə yaradılan əmək alətindən istifadə edərək

insanlar cəmiyyətin mənafeyi naminə müxtəlif şeylər hazırlayırlar. Əmək alətinin artmaqda olan mürəkkəbliyi istehsalın nail olunan səviyyəsinin göstəricisi və cəmiyyətin inkişaf səviyyəsinin nəticəsidir, istehsal üçün lazım olan müvafiq yerlər, anbarlar, nəqliyyat əmək aləti ilə birlikdə əmək vasitələrini təşkil edir. Əmək vasitələrinin və predmetlərinin məcmusu istehsal vasitələrini təşkil edir. İstehsal vasitələri sistemi, ilk növbədə, əmək aləti cəmiyyətin, necə deyərlər, maddi-texniki bazasım təşkil edir ki, bu da məhsuldar qüvvələrin predmet-enerji hissəsidir. Bu hissə keçmiş və ya maddiləşmiş əməkdir. Əmək vasitəsinin istehsal prosesinə daxil olması üçün yenidən işçi qüvvəsi, yəni canlı insan əməyi vacibdir.

Beləliklə, istehsal strukturunda **əməyin iki növü - canlı və maddiləşmiş növü ayrılır.** Məhsuldar qüvvələrin strukturunda mühüm ünsürlərdən biri də istehsal texnologiyasıdır. Tələbələrin nəzərinə çatdırmaq lazımdır ki, texnoloji məsələlərin həlli əməyin xarakteri və əmək aləti, əsaslı və tətbiqi elmlərin inkişafı və onun istehsala tətbiqi səviyyəsi, əməyin elmi təşkilinin səviyyəsi və s. kimi amillərlə müəyyən olunur. Müasir istehsalın mürəkkəbliyi ondadır ki, artıq o, onun elmi təşkili olmadan qəbul edilə bilmir, istehsal vasitələrinin səmərəli istifadəsini, idarə olunmasını və planlaşdırılmasını tələb edir. Elm daha çox məhsuldar qüvvələrin strukturuna daxil olur, bilavasitə məhsuldar qüvvələrə çevrilir, istehsalda isə elmin texnoloji tətbiqi həyata keçirilir. Texnikanın müasir inkişaf səviyyəsində işçilərin ixtisasının yüksəlməsi yalnız onların lazımi elmi biliklər alması hesabına mümkündür. Əlbəttə söhbət burada yalnız təbii-elmi və texniki biliklərdən yox, daha geniş elmi biliklərdən gedir. Axı humanitar elmlərin ümumi mənəvi-əxlaqi, intellektual-

yaradıcı potensiala təsiri ictimai inkişaf üçün əhəmiyyətlidir. Əgər əməyin subyekti kimi insanın formalaşmasına daha geniş nəzər salsaq onda elmin bütün növləri ilə yanaşı ona öz dövıünün mənəvi mədəniyyətinin təsirini də görərik. Ancaq nə müasir texnika və texnologiyanın mürəkkəbliyi, nə istehsalın müxtəlif təşkili və idarəsi bizim insanla qabağımızı kəsməməlidir. İnsan maşınla yanaşı sadə güc deyil, o ictimai istehsal prosesinə can verir, bəşəriyyətin ən ümumi tarixinin təcrübəsini özündə cəmləşdirir. İstehsal cəmiyyətin inkişafının məqsədi olmayıb nəticədə onun ən dəyərli olanının - insanın inkişafının vasitəsidir. Məhz əmək prosesində istehsal həyata keçirilir, insanın təkmilləşməsi və özünü təsdiqi baş verir.

Beləliklə, məhsuldar qüvvələr - özündə bütün əvvəlki nəslin mədəni təcrübəsini cəmləşdirən, istehsal vərdişinə malik olan və maddi nemətlərin istehsalını həyata keçirən adamlardır (insan amili); cəmiyyət tərəfindən yaradılan istehsal vasitəsi, eyni zamanda əməyin təşkili, istehsal texnologiyası, texnika və elmin nailiyyətləridir. Cəmiyyətin məhsuldar qüvvələrinin inkişaf səviyyəsinin göstəricisi əməyin məhsuldarlığıdır - bu yalnız müəyyən vaxt çərçivəsində yaradılan məhsulun miqdarı ilə deyil, həm də onun keyfiyyəti, daha çox isə insan amilinin inkişafı və təkmilləşməsi ilə, yəni cəmiyyətin daimi inkişaf edən tələbatları və maraqlarının yerinə yetirilməsinə xidmət edən hər şeylə ölçülür.

Adamların **istehsal münasibətlərinin** də öz strukturu var. Onun mülkiyyət münasibətləri fəaliyyət mübadiləsi və istehsalda yaradılan müxtəlif predmetlər və xidmətlərin bölgüsü kimi ünsürlərini ayırmaq olar. Bu ünsürlərin qarşılıqlı fəaliyyətində aparıcı rolu istehsal

vasitələrinə mülkiyyət münasibəti oynayır. Fəaliyyət mübadiləsinin münasibəti, ilk növbədə, istehsal prosesində kim və hansı funksiyanı yerinə yetirməsi, eyni zamanda möveud münasibətlər çərçivəsində istehsal məhsulunun bölgüsündən adamların öz payını almaq qədəri və üsulu onlardan asılıdır. Məsələnin aktuallığını nəzərə alaraq onun bir az da sadə tərzdə şərhinə yer verməyi məqsədə uyğun hesab edirəm.

İstehsal münasibətləri sistemini xarakterizə edərək onun əsas ünsürlərini ayıraq. Onlardan ən əsası - istehsal münasibətlərinin mühüm tərəfi - iqtisadi münasibətlərdir ki, onun da əsasını istehsal vasitələrinə münasibət təşkil edir: istehsal vasitələri həmişə kimlərinsə mülkiyyəti olur və insanların bir-birinə münasibəti məhz bunun ətrafında bağlanır. Əgər istehsal vasitələri zəhmətkeşlərə məx- susdursa, ictimai mülkiyyət yaradır, onda istehsal münasibətləri əməkdaşlıq və adamların bir-birinə qarşılıqlı köməyi xarakteri kəsb edir. Əgər cəmiyyətdə istehsal vasitələri üzərində xüsusi mülkiyyət hökm sürürsə onda burada hökmranlıq və tabeçilik münasibəti yaranır və cəmiyyət antaqonist siniflərə bölünür. İqtisadi münasibətlər (istehsal, mübadilə, bölgü, istehlak) istehsal münasibətlərinin nüvəsini təşkil etməklə digər ictimai münasibətlərin məzmununu formalaşdırır və bu funksiyası ilə cəmiyyətin sistem yaradan amili kimi çıxış edir. İstehsal münasibətləri obyektiv yaranır, yəni adamların şüur və iradəsindən asılı olmayaraq yaranır və öz bütövlüyü ilə bütün ictimai münasibətlərə və cəmiyyətin özünə tarixən müəyyən ictimai keyfiyyət verir. Beləliklə, istehsal münasibətləri cəmiyyətin müxtəlif konkret tarixi tipini müəyyən etmək üçün obyektiv meyar kimi çıxış edir, belə ki, məhz istehsal münasibəti kateqoriyasının köməyi ilə

müxtəlif dövlətlərin və xalqların tarixində ümumi, təkrarlanan, qanunauyğun olanları qeydə almaq olar.

İstehsal münasibətləri adamların digər münasibətlərini müəyyən etməklə həm də onların təsiri altında olur. Ona görə də istehsal münasibətlərinin təkmilləşməsi yalnız iqtisadi yox, həm də ictimai xətlə getməlidir. Belə ki, bölgü münasibəti yalnız iqtisadi deyil, həm də insanların dərin ictimai münasibətidir. Bölgü münasibətində ictimai ədalətə nail olmadan istehsal münasibətlərinin iqtisadi tərəfində təkmilləşmə, deməli həm də bütövlükdə cəmiyyətdə təkmilləşmə mümkün deyildir. Unutmaq lazım deyil ki, insan yalnız məhsuldar qüvvəsində deyil, həm də istehsal münasibətində əsas simadır.

Cəmiyyətin məhsuldar qüvvələri və onda mövcud olan istehsal münasibətləri bir-biri ilə dialektik qarşılıqlı münasibətdədir. Məhsuldar qüvvələr obyektiv olaraq onun səviyyəsinə və xarakterinə uyğun gələn və bununla onun inkişafını və effektli istifadəsini təmin edən müəyyən istehsal münasibətini tələb edir. Əgər istehsal münasibəti bu tələbə cavab vermirsə o gec və ya tez məhv olur. Digər istehsal münasibətləri meydana gəlir ki, bu da göstərilən tələblərə uyğun gəlir və məhsuldar qüvvələrin effektli istifadə olunmasına və inkişafına kömək edir. Bu mülkiyyətin, fəaliyyət mübadiləsinin və bölgünün yetkin münasibəti ola bilər. Məhsuldar qüvvələrin və istehsal münasibətlərinin dialcktikası elə bundadır. Marks bunu istehsal münasibətlərinin məhsuldar qüvvələrin xarakterinə və inkişaf səviyyəsinə uyğunluğu qanunu kimi xarakterizə etmişdir, istehsal üsulu və onun cəmiyyət həyatında rolu haqqında Marks təlimi ilə yanaşı bu qanunun da fəaliyyət göstərməsi bir çox iqtisadçılar və

filosoflar tərəfindən qəbul olunur. Bu təlim iqtisadi və ictimai-fəlsəfi fikrin mühüm nailiyyətidir və cəmiyyətin iqtisadi həyatının və müasir tarixi proseslərin bir çox hadisələrinin izahına xidmət edir

## §3. Obyektiv iqtisadi qanunlar

Cəmiyyətin iqtisadi həyatında mühüm rol oynayan **obyektiv iqtisadi qanunların** təhlilinə başlamazdan əvvəl mühazirədə yaradıcı fəaliyyət və insanın yüksək vəzifəsinin ifadəsi kimi əməyin təhlilinə qısa vaxt ayırmağı məqsədəuyğun hesab edirəm. Mənzilə və geyimə, yeməyə və onun hazırlanmasına olan tələbat, yalnız arzu yox, həm də zərurət xarakteri daşıyan geyimə və çoxlu digər şeylərə ehtiyac, ona gətirib çıxarır ki, insan həyatı olduqca mürəkkəbdir. Bununla belə insan öz tələbatına rəngarənglik gətirir, iştaha, zövq və fayda qiymətləndirmənin meyarına çevrildikeə tələbatın özü də iştahaya tabe edilir. Tələbatın təmin olunması, son nəticədə, özü-özlüyündə artıq tələbata istiqamətlənmir, mədəniyyət və dəb üçün xarakterik olan dad, zövq incəliyinə istiqamətlənir ki, bu da xüsusi arzular yaradır. Adamlar daha çox şeydən istifadə etməyi öyrəndikdən sonra onlarda arzuların çoxluğu sonsuzluğa can atır. Məqsəd vasitələrlə bir-birinə dolaşır, vasitənin özü məqsədə çevrilir. Hegelin sözləri ilə desək, hər bir rahatlıq, əlverişlilik, uyğunluq həm də özünün rahatsızlığını, əlverişsizliyini və uyğunsuzluğunu aşkar edir. Hər bir əlverişsizlik bilavasitə ondan istifadə edənlərdən daha çox başqalarında onun yaranmasından xeyir güdənlərdə tələbata çevrilir. Hər eür mümkün arzu və istəklərin təmin olunması üçün xidmət sahələri belə

böyüyür. Tələbat və onun təmin olunması vasitəsi həm də başqaları üçün varlığa çevrilir, tələbat və əmək qarşılıqlı şəkildə bir-birini təmin edir. Bütün bunlar adamların qarşılıqlı münasibətinin müəyyən sahəsini yaradır: bəzi adamların başqasına istiqamətlənmiş ehtiyacları, hər hansı tələbatın ödənilməsi üçün bir-birinə köməyi insanların münasibətini yaradır. Mənə lazım olanı kimdənsə almaqla mən həm də ona lazım olanı istehsal etməliyəm. Təsərrüfat həyatının hörümçək toru belə yaranır və onlar sıx bağlı olur və onun əsasını **əməyə olan tələbat təşkil edir.**

Bəşəriyyətin bütün tarixi insanların maddi və mənəvi nemətlərin əldə olunmasına yönələn daimi fəaliyyətidir. Həyatda mənəvi cəhətdən özünü doğruldan bütün uğurlar əməyin uğurudur. Əmək məqsədəuyğun fəaliyyətdir, ancaq “məqsədəuyğunluq” anlayışı şərtidir və bizi bu və ya digər fəaliyyətə sövq edən səbəbdir. İnsan təbiətin yaratdığı zərurətlə mübarizə apannağa məhkum olunmuşdur. Onun əxlaqi borcu öz fəaliyyəti və düşüncəsi vasitəsi ilə sərbəstlik qazanmaqdır. Məhz sərbəstlik qazanmaq əmək fəaliyyətinin əsas və təbii səbəbidir ki, bu da onun məqsədə uyğunluğunun səviyyəsini müəyyən edir. Dünyada arzu edənlər çoxdur: bəziləri işləməyi arzulayır, qalanlar isə işləməyə imkan verilməsini arzulayırlar. Əgər insan yalnız özü üçün zəhmət çəkirsə, o yaxşı alim, böyük müdrik, gözəl şair ola bilər, ancaq heç vaxt həqiqi yetkin və böyük insan ola bilməz. Yalnız özü üçün çalışan insan öz fəaliyyətində yetkinləşə və bununla ətrafdakılara əhəmiyyətli fayda verə bilərlər. Həyata biganə, keçici baxan adamlar üçün əmək yalnız mücərrədlik və məsuliyyətsizlik yaradır. Öz əsasında şəxsi marağın dayanmadığı heç bir fəaliyyət möhkəm ola

bilməz. Əməyə təbii tələbat bu əməyin nəticələrindən istədiyi qədər istifadə etmək arzusunda olanların uydurduğu mifdir. Əgər bulka ağacda bitsəydi heç bir sağlam düşüncəli adamın əkinçilik ağlına belə gəlməzdi: “Könlü balıq istəyən quyruğunu suya qoymalıdır” deyimi geniş yayılıb. Axı balığı göldən çıxartmaq tələbatı mövcuddurmu? Balığın özünə tələbat mövcuddur, qida mənbəyi kimi bu balığı yeməyə tələbat var, aneaq onu əldə etmək prosesi - yaşamağın təbii instinktini ödəməyə istiqamətlənən məcburi fəaliyyətdən başqa bir şey deyildir. Adamlar var ki, boş vaxtlarında balıq tutmaqdan zövq alır. Aclıq, soyuq və digər xoşagəlməz səbəblər bizim əməyə məhəbbətimizi artırır. Yalnız yaradıcılığa olan tələbat istisnalıq təşkil edə bilər, ancaq bu tələbat az adamlarda müşahidə olunur və ona görə də ən ümumi insani xassə kimi baxıla bilməz. Bəzən adamda dəmir və ya metalla əlləşmək tələbatı yaranır, bəli məhz əlləşmək, oynamaq tələbatı, o heç də həmişəlik ağac və ya metalla işləmək istəmir. Elə belə işlə oynamaq, ləzzət almaq üçün, işləmək isə yaşamaq üçün lazım gəlir. İnsan əməyinin şərəfini təbliğ edənlər heç vaxt marten sobalarına girməyiblər, əgər orada olsaydılar yəqin ki, öz təbliğatlarından birdəfəlik əl çəkərdilər. Bir sözlə, əmək zövqün, ləzzətin atasıdır. Zövq əmək üçün mükafat olmalıdır. Əmək mübarizə, mübarizə isə zövqdür. İnsanın öz tələbatlarının və maraqlarının ödənilməsinə yönələn əmək, eyni dərəcədə başqalarının tələbat və maraqlarının ödənilməsidir. Məhsuldar və həvəslə işləmək bacarığı adamlar üçün həqiqi xəzinədir. Əmək bütün maneələri dəf edə bilir.

**Əməksiz nə cəmiyyət həyatı, nə də ayrıca bir adamın varlığı mümkün deyildir.** Boş yerə demirlər ki.

insan nə edirsə və necə edirsə o özü də elədir. Əmək insanı inkişaf etdirir və ucaldır, onun şəxsi insani ləyaqətini təsdiq edir. Hegel yazırdı ki, hətta ölümdən qorxaraq öz ağası üçün işləyən qul nəticədə ağasından üstün olur, həqiqi ağaya çevrilir, başqa əməyini mənimsəyən ağa isə öz qulundan asılı vəziyyətə düşür, qulun quluna çevrilir. Əmək insanların məqsədyönlü fəaliyyəti olmaqla həm də məzmunca dəyişdirmək, insan və cəmiyyətin tarixən yaranan tələbatını ödəmək üçün təbii və ictimai qüvvələri mənimsəmək xüsusiyyətinə malikdir; əmək - həm maddi nemətlər istehsalı, həm insanın tərbiyəsi, həm həkimlik etmək, həm də cəmiyyətin iqtisadi və mənəvi sahələrində adamların idarə olunmasıdır. O, mədəniyyət aləmini, onun dəyərlərini yaradır və özü mədəniyyət fenomeni kimi çıxış edir. **Əqli və fiziki əməyi** fərqləndirmək lazımdır: hər hansı problemin təmiz əqli həlli - əqli əmək, yer şumlamaq isə fiziki əməkdir. Əqli əməyə elmi iş, bəstəkarlann, şairlərin fəaliyyəti daxildir. Əlbəttə bu fəaliyyətin müxtəlif növləridir. Lakin bununla belə onların fərqi mütləq deyildir, çünki hər bir fiziki əməkdə intellektual tərkib var; müəyyən “fərasətsiz, dərrakəsiz” heç bir fiziki iş mümkün deyildir. Bacarıqlı adamın, həqiqi ustanın əməyi yalnız öz nəticəsi ilə deyil, həm də estetik başlanğıcı ilə xarakterizə olunur: usta böyük incəliklə öz işini görür və biz bu işə baxıb zövq alırıq. Əməyin mahiyyətini təhlil edərkən onun çoxlu aspektlərini nəzərə almaq lazımdır. Onlardan biri nəticənin keyfiyyətidir; bu fəaliyyət subyektinin ustalığından, onun məsuliyyətliyindən, dəlillərin, səbəblərin xarakterindən, əmək fəaliyyətinin şəraitindən - lazımi əmək alətlərinin olmasından və ümumiyyətlə bütün zəruri istehsal vasitələrindən asılıdır.

Bir halda ki, əmək fəaliyyəti əsasən kollektiv şəraitdə baş verir, onda əməyin məhsuldarlığının mühüm şərti - əmək kollektivindəki əxlaqi mühit, onun üzvlərinin psixoloji uyğunluğudur. Həyat insanlara qarşı ədalətlidir; insan öz əməyinə görə həmişə mükafatlandırılır.

Uzun müddət **fiziki fəaliyyətsizlik** insanı çox üzür, tənbəllik pas kimi onu yeyir, fəaliyyətsizlik bütün bəlaların səbəbidir. Yaradıcı əmək isə insana yalnız zövq verir, həm də onun sağlamlığını qoruyur. İnsan işsiz qalanda əməyi yüksək dəyərləndirir. Fiziki əmək mənəvi əzabı unutdurur. Əmək insanı qəmdən, eyibdən və ehtiyacdan xilas edir. Allah yalnız əməyimizə görə bizi mükafatlandırır. Pifaqor yazırdı ki, insan səhər oyananda özündən; "Mən nə etməliyəm?", axşam isə yuxuya getməmişdən "Mən nə etdim?" - deyə soruşmalıdır. İş görülməyənə qədər qeyri-mümkün sayılır. İstedadı göstərməyə yer olmayanda deməli orada istedad yoxdur. Pis rəqqas həmişə bəhanə tapa bilir. Hamı tərəfindən qəbul olunan iş şirin olur. Əməksevərliyə təhsil, təhsilə isə zəhmətkeşlik əlavə edilsə insan böyük uğurlar qazana bilər. Bencamin yazırdı ki, mən roman oxumaq istəyəndə onu özüm yazıram. İnsanın özünü əməkdən azad etməsi cinayətdir. İnsan öz əməyinə və onun nəticələrinə həm intellektual, həm də emosional baxımdan yanaşır. O, çəkdiyi zəhməti hamıdan çox qiymətləndirir. O, varlığı ilə işə can qoyanda və hiss edəndə ki, hər şey yaxşı alınıb onda başqaları tərəfindən öz işinin dəyərləndirməsini istəyir. Uşaqlarda bu özünü daha açıq göstərir; nə isə yaxşı bir iş görən uşaq onu valideynlərinə göstərir və təriflənməsini gözləyir. İnsan öz əməyinə görə layiqli tərifdən zövq alır. Əməyin məhsuldar olması üçün o özündə yaradıcılıq ünsürlərini cəmləşdirməlidir. İnsana

təbiətən sağlam tələbat xasdır və bu tələbatı öz əməyi ilə ödəyə bilər. Hər bir əmək bizə əxlaqi təsir göstərir. Fikrimizi verilən mövzu ətrafında cəmləşdirmək üçün göstərdiyimiz cəhdi daxili dünyamıza atılan daşla müqayisə etmək olar: ilk dairə böyük deyil, ancaq sonrakılar yavaş-yavaş genişlənir və o xeyli böyüyür. Hətta biz min il yaşasaq belə istedadlı adam öz ölümü günü aşkar edəcək ki, etmək istədiyinin heç yarısını belə etməyib. Fəaliyyət göstərmək istəyən imkan axtarır, istəməyən isə bəhanə tapır. Pis etməkdənsə etməmək daha yaxşıdır.

Cəmiyyətin **iqtisadi həyatı** və ilk növbədə, **istehsal üsulu müəyyən obyektiv qanunlara tabedir,** istənilən obyektiv qanun təbiət və cəmiyyət hadisələri arasındakı zəruri vacib və təkrarlanan əlaqə kimi özünü göstərir. Bu cür əlaqə bir çox iqtisadi hadisələr arasında mövcuddur: məsələn, malın qiyməti və onun istehsalına sərf olunan əmək arasında, ictimai zəruri iş saatı və azad vaxt arasında, istehsal və istehlak arasında, tələb və təklif arasında əlaqə mövcuddur. Bu cür qanunauyğun əlaqə obyektiv, yəni adamların şüur və iradəsindən asılı olmayaraq mövcuddur. Onların obyektiv xarakteri bununla bağlıdır. İstehsal münasibətlərinin məhsuldar qüvvələrin xarakterinə, inkişaf səviyyəsinə və tələbatına uyğunluğu qanunu cəmiyyətin iqtisadi həyatının obyektiv qanunlarındandır. Cəmiyyətin məhsuldar qüvvələri istehsal münasibətləri ilə vəhdətdə iqtisadi istehsal üsulunu yaradır. Bu vaxt məhsuldar qüvvələr onun məzmunu kimi istehsal münasibətləri isə adamların istehsalı həyata keçirdiyi iqtisadi forma kimi, çıxış edir. Məhsuldar qüvvələr və istehsal münasibətləri arasındakı qarşılıqlı fəaliyyəti məzmun və formanın qarşılıqlı

fəaliyyətinin ümumi dialektik qanununa tabedir; bu qanuna görə məzmun formaya nisbətdə müəyyənedici rol oynayır. İctimai həyatda bu öz konkret ifadəsini istehsal münasibətlərinin məhsuldar qüvvələrin xarakter və inkişaf səviyyəsinə uyğunluğunun ümumisosialoji (yəni, bütün fonnasiyalarda fəaliyyət göstərən) qanununda tapır. İstehsal münasibətlərinin obyektiv maddi təbiəti onunla müəyyən olunur ki, o adamların iradə və arzusuna əsasən deyil, məhsuldar qüvvələrin vəziyyətinə uyğun formalaşır.

İbtidai icma quruluşu şəraitində ona icma mülkiyyəti ona görə hökmranlıq edirdi ki, o, həmin dövrdəki məhsuldar qüvvələrin xarakterinə uyğun gəlirdi: əməyin məhsuldarlığının aşağı olması, maddi nemətlər istehsal edənlərin özlərinin inkişaf etməməsi yalnız əməyin kollektiv təşkili ilə əvəzi ödənilə bilərdi. Əks halda bizim əcdadlarımız özlərinin yaşamasının ən elementar şəraitini belə yarada bilməzdirlər. Doğrudur, son illər ibtidai icma dövrünü tədqiq edən tarixçilər o dövrün həyat şəraitinin və döviiin adamlarının təsərrüfat fəaliyyətinin sadələşdirilməsi əleyhinə çıxırlar. Onlar belə hesab edirlər ki, hətta geridə qalmış ovçular və toplayanlar əvvəllər hesab edildiyi kimi heç də tez-tez ac qalmır, tez-tez qida axtarmır, onu əldə etmək üçün çox vaxt sərf etmirdilər və onların əmək fəaliyyəti nəticəsində həyatlarını təmin etmək üçün lazım olandan artıq məhsulları olurdu. Ancaq bu artıq məhsul sonralar yaranan izafi məhsuldan fərqlənirdi və bu artıqlıq istehsal münasibəti sistemində istismarçıhq üçün əsas ola bilmirdi. Neolit inqilabı nəticəsində yaranan ibtidai icma quruluşunun son dövmndə məhsuldar qüvvələr mənimsəmə təsərrüfatından istehsal edənə keçməyə imkan verdi və bu da əməyin məhsuldarlığım on dəfə artırdı. İbtidai insanlar öz əmək

nıohsuldarlıqlarmı artırmaqla başqa sahələrdə olacaq dəyişiklikləri görə bilmədilər. Doğurdan da texnikada inqilab və onunla bağlı təsərrüfatda baş verən dəyişikliklər bəşəriyyət tarixinin dönüş nöqtəsi oldu. Kollektiv mülkiyyətin şəxsi mülkiyyətlə, kollektiv əxlaqın fərdi əxlaqla əvəz olunması, ictimai siniflərin yaranması, cəmiyyətin siyasi təşkilinə keçid (dövlətin yaranması), ailənin yenidən təşkil edilməsi - bəşəriyyət sonrakı mərhələlərində bu cür köklü dəyişiklikləri heç vaxt yaşamır. Bu dəyişikliyin bütün aspektlərindən ən çox bizi mülkiyyətin ibtida - kollektiv formasından şəxsi mülkiyyət formasına keçməsinin mümkünlüyü və zəruriliyi maraqlandırır. Bir tərəfdən, əməyin məhsuldarlığının artması onun daha çox fərdiləşməsinə ailə və hətta ayrıca fərd çərçivəsində istehsalın məhdudlaşdırılması imkanı yaratdı. Digər tərəfdən isə, ənənəvi mülkiyyət münasibətlərinin saxlanması istehsalın sonrakı tərəqqisini ləngidir, bununla da onun şəxsi mülkiyyətə keçməsi zərurəti yaranır və bu da əməyin təşkili növünə müvafiq forma verməyə imkan verirdi.

Bu dövrdə mülkiyyət münasibətlərinin yenidən qurulmasının öz mərhələləri, öz keçid formaları olmuşdur. Əvvəlcə istehsalçının məhsula mülkiyyət hüququ və onu sonradan mübadilə etmək hüququ həmin kollektiv çərçivəsində nisbi xüsusiləşmə xarakteri daşıyırdı və kollektivin digər üzvlərinin istismarına yol vermirdi. Xüsusi mülkiyyət isə, sözün həqiqi mənasında, mülkiyyətin xüsusiləşməsinin təkamülünün məntiqi başa çatmasıdır. Xüsusi mülkiyyət tarixi inkişafın sonrakı mərhələlərinin əsasını təşkil etmişdir. Bu o deməkdir ki, ibtidai iema quruluşunun dağılmasından başlayaraq məhsuldar qüvvələrin xarakteri dəyişməmiş və onlar

xüsusi mülkiyyəti tələb etmişlər. Yeni tarixi mərhələyə daxil olmaq üçün nə baş verməlidir? Əlbəttə hər bir konkret tarixi şəraitdə istehsal münasibətlərinin məhsuldar qüvvələrin xarakterinə, inkişaf səviyyəsinə və tələbatına uyğunluğu qanununun fəaliyyətinin əsasında dayanan konkret sual və cavab olmalıdır. Feodalizmdən kapitalizmə keçid prosesi məhsuldar qüvvələrin səviyyəsinin və onun sonrakı inkişafının tələbatlarının keyfiyyət dəyişikliyi ilə şərtlənirdi. Quldarlıqdan feodalizmə keçiddə vəziyyət başqa cür olmuşdur. Texnikanı öyrənən tarixçilər belə bir suala cavab verməyə çətinlik çəkirdilər ki, hansı texniki inqilab və ya heç olmasa hansı keyfiyyətcə yeni texniki səviyyə quldarlıq quruluşunun böhranının başlanğıc nöqtəsi olmuşdur. Bu cür dəyişiklik əslində olmamışdır. Axı məhsuldar qüvvələrin inkişafına olan tələbat yalnız onun maddi ünsürləri, ilk növbədə, texnikanın inkişafına olan tələbatla ölçülmür. Daha böyük əhəmiyyət məhsuldar qüvvələrin şəxsi ünsürlərinin inkişafına olan tələbat kəsb edir. Quldarlıq öz inkişafının son mərhələlərində texnikanın keyfiyyətcə yeni səviyyəsini yarada bilmədi, lakin o əsas məhsuldar qüvvənin- insanın inkişafına tələbatı aşkar etdi. Zəhmətkeşlərin ictimai-iqtisadi statusunun dəyişməsi texniki, onun əsasında isə iqtisadi tərəqqinin ilkin şərti kimi çıxış etmişdir. Zəhmətkeş statusu daha bir münasibətdə köklü dəyişikliyi tələb etdi: qulun ailəsi yox idi və buna görə də işçi qüvvəsinin artımı dalana dirənirdi.

Məhsuldar qüvvələrin xarakteri ikinci dəfə yalnız kapitalist cəmiyyətinin inkişafı prosesində dəyişir: onlar yenidən ictimai xarakter kəsb edir və mülkiyyət, bölgü, tələbat münasibətlərində prinsipial dəyişiklik tələb edir. Bu dəyişiklik doğrudan da baş verir; inkişaf etmiş

ölkələrdə bu gün yeni qüvvə toplayan ictimailəşmə prosesi dediklərimizin əyani təsdiqidir. Bu prosesin təbiəti aydındır. İnsan yalnız istehsal münasibətlərinin daşıyıcısı olmayıb, həm də məhsuldar qüvvələr sistemində əsas rol oynayır. İstehsalın təşkilatçısı kimi çıxış edənlər, onun effektli olmasında marağı olanlar bu şəraiti inkar edə bilməz: bu hal onun iradə və arzusundan güclüdür. O, şəxsi marağına görə əsas məhsuldar qüvvənin qayğısına qalmağa, bütün istehsal və bütöv ictimai münasibətləri məhsuldar qüvvələrin inkişaf təlabatma uyğunlaşdırmağa məcbur olur. Bu gün, elmi texniki inqilabın inkişaf etdiyi indiki şəraitdə bu nə vaxtsa olduğundan daha artıq zəruridir. Müasir istehsal işçinin fiziki-texniki sağlamlığına, onun peşə və ümumi təhsil səviyyəsinə, mədəniyyət və əxlaqına yüksək təlabatla yanaşır. Bu obyektiv zərurət kapital ölkələrinin müasir ictimai siyasətlərinin əsasını təşkil edir. Bu nə qədər paradoksal olsa da, şəxsi maraq öz mənasına görə sosialist məqsədləri - daha çox insanın "həyat tərzi", böyük ictimai ədalət - reallaşdırmağa gətirib çıxarır. Demək lazımdır ki, bu mərhələdə insan yalnız kapitalizmin əsas qanununun - izafi dəyər qanununun - reallaşması vasitəsi olaraq qalmır. Çox güman ki, insan istehsal üsulunun məqsədinə çevrilir.

**İstehsal münasibətlərinin fəal əks təsir qanununun** təhlilinə də yer ayırmaq məqsədəuyğundur. Qeyd etmək lazımdır ki, bütün formalar kimi istehsal münasibətləri də məhsuldar qüvvələrdən gələn dəyişikliklə bağlı təkanı passiv qəbul edir: onlar onun inkişafına fəal əks təsir göstərir. Ümumi şəkildə bu təsirin mexanizmi belədir: məhsuldar qüvvələr yaradılır və inkişaf etdirilir, qorunur və ya ictimai istehsalı həyata keçiraıək üçün konkret şəkildə təşkil olunan və müəyyən

səbəblərlə hərəkət etdirilən insanların praktiki fəaliyyətinin nəticəsində sıradan çıxır. Bütün bunlar mövcud istehsal münasibətləri ilə müəyyən olunur. İstehsal münasibətlərinin məhsuldar qüvvələrə fəal əks təsiri ikili ola bilər. İstehsal münasibətləri məhsuldar qüvvələrin xarakterinə, inkişaf səviyyəsinə və tələbatına uyğun gələndə onlar onun inkişafının mühərriki kimi çıxış edir və bütövlükdə ictimai tərəqqini sürətləndirir. İstehsal münasibətləri məhsuldar qüvvələrə uyğun gəlməyəndə isə o, tomıoza, əngələ çevrilir, yəni onların inkişafını və bütövlükdə sosial orqanizmin inkişafını ləngidir. İctimai - iqtisadi formasiyaların tarixi qarşımızda istehsal münasibətlərinin məhsuldar qüvvələrə əks təsir prosesində həyata keçirdiyi "rolların dəyişməsi" tarixi kimi dayanır. Bu baxımdan kapitalizmin tarixi tipik nümunədir. Kapitalizmin meydana gəlməsi və inkişafı dövrü məhsuldar qüvvələrin görünməz yüksəlişi ilə müşayiət olunurdu, sonradan burjua istehsal münasibəti məhsuldar qüvvələrin ictimai xarakteri ilə daha çox ziddiyyət təşkil etdi. İki dünya müharibəsi, 20-ci illərin sonu 30-cu illərin əvvəllərində dəhşətli iqtisadi böhran, Rusiyada və sonralar başqa ölkələrdə burjua münasibətlərinin məhv olması kapitalizmin yaşadığı bölrramn göstəriciləridir.

Bu gün "ümumi böhran olmuşdurmu?" sualı tez-tez qaldırılır və Qərb ölkələrinin, Yaponiyanın və başqalarının inkişafının bu günkü uğurlarına müraciət edənlər açıq- aşkar tarixilik prinsipini inkar edirlər. Əgər biz vəziyyətin təmiz mənzərəsini təsəvvür etmək istəyiriksə sualı başqa cür qoymaq məsləhətdir: "Kapitalizm ümumi böhranı necə dəf edə bilmiş, iqtisadiyyatı necə dirçəltmiş, yüksək "keyfiyyətli həyata" necə nail ola bilmişdir?" Məhz onda bütün mümkün faktları və arqumentləri müqayisə etməklə

biz başa düşərik ki, əsas səbəb kapitalizmə xas istehsal münasibətlərinin optimistləşdirilməsidir - yəni iqtisadiyyatın dövlət tərəfindən nizama salınmasının ağla batan həddə həyata keçirilməsi, bazar təsərrüfatının ietimai istiqaməti, kapital səhmləri hesabına mülkiyyətçilər yaratmaq, “insani münasibətlərin” müəssisələrə yeridilməsi və s. Nəticədə “rolların dəyişməsi” baş verir - hələ son vaxtlara qədər burjua istehsal münasibətlərində təzahür edən mühafizəkarlıq və hətta irticaçılıq daha çox bu günkü münasibətlərin məhsuldar qüvvələrinə və onun vasitəsi ilə bütövlükdə ictimai həyata mütərəqqi təsirlə əvəz olunur. İstehsal münasibətlərinin fəal əks təsir qanununu Oktyabr çevrilişindən sonrakı dövrdə daha aydın izləmək olur. Ölkənin inkişafındakı faciəli ziddiyyətlər, o cümlədən 1917- ci ildən sonra istehsal münasibətində yaranan ziddiyyəti ölkədə formalaşmış və noıınal fəaliyyət göstərən iqtisadi sistemin olmaması ilə izah etmək olar. Köhnə sistemin dağılması və yeninin yaranması zaman etibarı ilə əlaqəni itinnişdir, sosializmə keçid prosesi deformasiyaya uğramışdır. Bir tərəfdən istehsal münasibətlərində sosialist komponentləri kifayət qədər özünü göstərirdi. Dövlət mülkiyyəti ümumxalq keyfiyyətindən özünü göstərən bütün imkanları özündə birləşdirmişdir, uzun illər boyu kütlə şüuru istehsal münasibətləri üzərində öz ağalığını hiss etmişdir, imkanlar nəzərə alınmaqla əhalinin sosial müdafiə sistemi yaradılmışdır - pulsuz təhsil və səhiyyə xidmətləri, bütövlükdə əhalini qane edən təqaüd təminatı fəaliyyət göstərdi: - indi yeri gəldi-gəlmədi tənqid olunan bu sistem bir çox aparıcı dövlətlər tərəfindən öyrənilmiş və tətbiq olunmuşdur. İstehsal münasibətlərinin bu tərəfi, onun öz məzmununa görə sosialist komponentləri kütlədə ruh

yüksəkliyi yaradırdı - məhz bunun hesabına Sovet adamları 20-30-ci illərin iqtisadi böhranını dəf etdi, bu ruh yüksəkliyi ona faşizm üzərində qələbədə kömək etdi, əmək kollektivlərində yaradılan yaxşı abu-hava xeyli uğurlara imza atdıra bilmişdir. Aneaq istehsal münasibətində dövlət və həm də kolxoz-kooperativ mülkiyyəti çox vaxt öz həqiqi sahibindən - xalqdan de-yura ayrı düşməsi halları güclənirdi. Sosializmə keçid dövründəki proseslərdə müşahidə olunan deformasiya şəraitində mülkiyyətin faktiki sahibi və buna uyğun olaraq onun iradə subyekti artıq xalq olmur, onu bürokratlar, partiya - dövlət nomenklaturası idarə etməyə başlayırdı. Onların ictimai mülkiyyətdən və xalqın var-dövlətindən istədikləri kimi istifadə etmələri, adamların istehsal vasitələrindən uzaq salınması və öz əməklərinin nəticələrinə tam sahib olmamaları, onun sırf işçi qüvvəsinə çevrilməsi məhsuldar qüvvələrin inkişaf sürətinə, elmi-texniki tərəqqi əsasında onun yeniləşməsinə, istehsal olunan malların keyfiyyətinə - əksər hallarda bu mallar dünya standartlarına cavab vermirdi - təsir etməyə bilməzdi. Bizim istehsal münasibətinin pis dialektikası belədir: "rolların dəyişdirilməsin- dəki" uğursuzluq nəticəsində onlar məhsuldar qüvvələrin inkişaf mühərrikindən onun tormozuna çevrilmişdir.

**Əsas sosioloji qanunlara** da qısa şəkildə toxunmaq yaxşı olardı. Əgər istehsalın iqtisadi üsulu daxilində məhsuldar qüvvələr, texnoloji istehsal üsulunda onun texniki əsası aparıcı rol oynayırsa ictimai münasibətlərin, ideyaların bütün sistemində bu rolu bütövlükdə və vəhdət halında hər iki istehsal üsulu oynayır ki, bunu da "maddi nemətlərin istehsal üsulu" adlandımaq olar. Əgər texnoloji istehsal üsulunun müəyyən olunmasına qayıtsaq, aşkar görərik ki, haqqında danışdığımız iki istehsal üsulu

yan-yana dayanmır, onların biri digərinin daxilindədir: axı texnoloji istehsal üsulu öz texniki əsası ilə bağlı olaraq məhsuldar qüvvələrin ünsürlərinin qarşılıqlı fəaliyyəti, birləşməsi üsulundan başqa bir şey deyildir, eyni zamanda istehsalın iqtisadi üsulu iqtisadi münasibətlərə müvafiq olaraq məhsuldar qüvvələrin sistemli vəhdəti kimi çıxış edir. İstehsal üsulunun bu eür bir-birinə daxil olması çox vaxt ictimai, siyasi və mənəvi proseslərə birgə təsirlə nəticələnir. Onların birgə təsirini ailənin timsalında nəzərdən keçirək. Məlumdur ki, istehsal vasitələri üzərində kollektiv, icma mülkiyyəti kişi və qadınlar arasındakı ictimai bərabərliyi təmin etmişdir. Bununla belə bir çox icma kollektivlərində və bütövlükdə icmanın və ailənin başında qadınlar dayanırdı. İndi tarixçilərin dediyi kimi, hətta matriarxhq ümumi hadisə olmasa da patriarxalıq elmi cəhətdən yalnız hər iki istehsal üsulunun ictimai inkişafındakı müəyyənedici rolu qanununun fəaliyyəti nəzərə alınmaqla izah edilə bilər. Qadının ailədə və icmanın işlərində aparıcı rolu yaşayış vasitələrinin əsasən yığıcılıq olduğu yerlərdə xarakterik idi, ovçuluq və balıqçılığın inkişaf etdiyi sahələrdə bu rol hiss olunmurdu. Yığım işinin kişilərin “yaratdığı” və sahib olduğu süni daş alətlərinə heç bir ehtiyacı yox idi. “Böyüyən nəslin” yedirdilməsi və tərbiyəsi ilə məşğul olan qadınlar üçün bu iş əlverişli idi, belə ki, balıqçılıq və ovçuluq işi kimi bu iz yaşayış yerlərindən uzaqlaşmanı tələb etmirdi. Buna görə də qadın həm də ailə ocağının qoruyucusu hesab olunurdu; od gecə və gündüz qorunub yandırılmalı idi, əks halda aclıq və soyuq adamların qırılmasına səbəb olardı. Bütün bu istehsal funksiyası, yəni texniki istehsal üsulunda qadının yerini önə çıxarırdı.

**Yeni texnoloji istehsal üsuluna keçid** - yığımdan əkinçiliyə, ovçuluqdan maldarlığa - vəziyyəti köklü şəkildə dəyişdirdi. İbtidai əkinçilik üçün xarakterik olan ağır əkinçilik alətləri böyük fiziki güc tələb edirdi və ona görə də ilk əkinçilər məhz kişilər olurdu. İbtidai maldarlıq da yaşayış yerlərindən xeyli aralanmağı tələb etdiyindən bu işlər də kişilərin öhdəsinə düşürdü. Məhz əkinçilik və maldarlıq əsas yaşayış vasitəsinə çevrildiyindən ailədə və icmada başçılıq kişilərə keçirdi. Əlavə məhsulun və xüsusi mülkiyyətin yaranması ilə, yəni yeni iqtisadi istehsal üsuluna keçidlə bağlı bu rol daha da möhkəmləndi. Patriarxal' ailə yeni cəmiyyətin həm texnoloji, həm də iqtisadi nüvəsinə çevrildi, kişinin hökmranlığı, əlavə məhsulun istehsalında onun aparıcı rolu həm də hüquqi cəhətdən möhkəmləndirildi - mülkiyyətin irsən keçməsi yalnız kişi xətti ilə həyata keçirildi. Ancaq maşınların istehsala ayaq açması ilə, yeni texnoloji istehsal üsulunun yaranması ilə qadınlar da ictimai istehsalda kişilərlə bərabər iştirak etməyə başladı, belə ki, maşın böyük fiziki iş tələb etmirdi. Ancaq iqtisadi münasibətlərin xarakteri azadlıq, qurtarmaq prosesini hələ xeyli ləngidəcəkdir. Bir sıra ölkələrdə ictimailəşmə prosesinin başlanması qadın və kişilərin faktiki bərabərliyi istiqamətində xeyli irəliləyişə nail olmağa imkan vermişdi. Bu məsələnin aktuallığını nəzərə alaraq əlavə məşğələ dərsi təyin etməklə müasir gender problemini müzakirə etmək, Azərbaycan reallığı üçün bu məsələnin gələcək perspektivlərini təhlil etmək olduqca vacibdir.

Beləliklə, bəşəriyyətin bütün tarixi boyu izlənilən əsas **sosioloji qanunun** fəaliyyəti **iqtisadi və texnoloji istehsal üsulunun** cəmiyyətin bütün tərəflərinə təsirini müəyyən edən qanun kimi qeyd oluna bilər. Hər bir

düşünən iqtisadçı və filosof cəmiyyətin iqtisadi həyatının obyektiv qanunlarının mövcudluğunu qəbul edir. Cəmiyyətin iqtisadi həyatı və onun hadisələri arasında zəruri, mühüm və təkrarlanan əlaqənin mövcudluğu da qəbul olunur, ancaq bu o demək deyil ki, iqtisadi sahədə təsadüflər yoxdur. Ancaq bu təsadüflər və xaotik maneələr arasından, müxtəlif hadisələr arasından adamların fəaliyyətindəki qanunauyğun iqtisadi əlaqələr özünə yol açır və onlar eəmiyyətin iqtisadi həyatının inkişafını müəyyən edir.

**Dəyər qanunu, qiymət qoyulma qanunu, vaxtın qənaət olunması qanunu, kapital yığımı və ictimai istehsal qanunu** kimi obyektiv iqtisadi qanunlar haqqında da məlumat vermək məqsədəuyğun hesab edirik. Bu və digər iqtisadi qanunlara istehsal, mal və maliyyə kapitalının fəaliyyət göstərməsi kapitalın istehsal prosesi, mal və maliyyə kapitalının dövriyyəsi və s. tabedir. Bütün bu iqtisadi qanunlar iqtisadi hadisələr arasındakı dərin obyektiv əlaqəni ifadə edir və iqtisadiyyatın inkişafında hakim ənənə kimi təzahür edir. Bu ənənələrə riayət olunması, yəni iqtisadi hadisələrin dərin əlaqəsi iqtisadiyyatın sabit inkişafına kömək edir. Onların pozulması iqtisadiyyatın normal inkişafına mane olur, onu dağıdır. Buradan da qarşımızda belə bir vəzifə dayanır - ibtidai qanunların fəaliyyətini tam dərk etmək və buna uyğun olaraq öz iqtisadi fəaliyyətimizi qurmaq vəzifəsi durur. Bunun dövlət səviyyəsində, eyni zamanda ayrı-ayrı sahibkarlar və digər iş adamları tərəfindən dərk olunması vaeibdir. Bu dərk etmənin əhatə sahəsi olduqca geniş ola bilər - bu elmi dərk etmədən sahibkarlıq instinkti və ya intuisiyasmda əks olunmaya qədər böyük bir sahəni əhatə etməsini mühazirədə təhlil etmək olduqca aktualdır.

## §4. İqtisadi münasibətlər və iqtisadi maraqlar

Bu sualın şərhinə texnika anlayışı ilə bağlı mülahizələrlə başlamaq daha məqsədəuyğundur. Əvvəlki sualda danışdığımız əməyin fəlsəfəsi öz birbaşa və məntiqi davamını texnikanın fəlsəfəsi məsələsində tapır, bu problemin hər ikisi üzvü şəkildə bəşəriyyətin praktikasına, ola bilsin həm də nəzəriyyəsinə, iqtisadi sahəyə daxil olmuşdur ki, burada da əmək və texnika əsas yer tutur; cəmiyyətin iqtisadi həyatı binası məhz onların üzərində qurulur. Texnika (incəsənət, bacarıq, ustalıq) deyərkən, yaradılan istehsal vasitəsi və aləti, eyni zamanda əmək prosesinin həyata keçirilməsindəki üsul və əməliyyatlar, bacarıq və incəsənət nəzərdə tutulur. Bəşəriyyət öz çoxəsirlik təcrübəsini, təbiəti dərk etmək və dəyişdirmək üsulu və metodunu texnikadaOıəmləşdinuiş, insan mədəniyyətinin nailiyyətlərini həyata keçinnişdir. Texniki vasitələrin forma və funksiyalarında insanın təbiətə təsirinin forma və üsulları özünəməxsus şəkildə əks olunmuşdur. İnsan bədəninin orqanlarının (əl, ayaq, barmaq, göz, diş və digər hiss üzvləri, indi isə beyin, məsələn, kompüter), davamı və çoxsaylı gücləndirilməsi olan müəyyən texniki qurğular da, öz növbəsində, öz tətbiq olunma üsulları və qaydalarını diqtə edir; yaydan ox atırlar, kombaynla kənd təsəiTÜfatı malları yığırlar, çəkiclə mismar vurulur, mismarçıxaranm köməyi ilə onu çıxarırlar. Məqsəd çatmaq üçün aralıq vasitə yaranan kimi texnika yaranır. Beləliklə, texnika “ictimai insanın istehsal orqanı” kimi insan əməyinin və biliyinin inkişafının, eyni zamanda onların vasitələrinin nəticəsidir.

**Texnikanın məqsədi və funksiyaları** insanların arzuları və ehtiyacları əsasında formalaşan məqsədlərinə

uyğun olaraq təbiəti və insan aləmini dəyişdirməkdir. Çox az halda adamlar öz dəyişdirici fəaliyyətləri olmadan yaşaya bilərlər. Məhz buna görə də texnika bütün tarix boyu insanın mövcudluğunun zəruri tərkib hissəsidir. İqtisadi münasibətlərin sənaye və kənd təsərrüfatı münasibətinə dəyişməsi, elmin əsaslandırdığı yeni texnologiyanın işlənib hazırlanması və tətbiqi-cəmiyyətin ictimai iqtisadi inkişafının vahid prosesinin iki tərəfidir. Texnika öz-özlüyündə səbəb deyildir, o yalnız vasitə kimi dəyərlidir. Əlbəttə texnikaya müstəqil fenomen kimi baxmaq olar, ancaq bu müstəqillik nisbidir: texnika üzvü şəkildə ictimai varlıq və şüumn kontekstinə daxildir, sivilizasiyanın əsasını təşkil edir, indiki zaman axımmdadır və daimi tərəqqi edir. Texnika özlüyündə nə yaxşı, nə də pis deyildir. Hər şey insanın ondan nə etməsindən, onun nəyə xidmət etməsindən, onun hansı şəraitdə olmasından, onun hansı insana tabe olmasından, onun vasitəsi ilə insanın özünü necə göstərməsindən asılıdır. Texnika onunla nəyə nail olmaqdan asılı deyildir. Müstəqil bir mahiyyət kimi texnika- səmərəsiz gücdür, son nəticədə vasitənin məqsəd üzərindəki qələbəsini iflic edir. Texnika öz quruculuq və dağıdıcılıq imkanları baxımından nə qədər qüdrətli gücə malik olsa da prinsipcə həmişə insanın əqlinə və iradəsinə tabe olan vasitə, silahdır. Əql isə, Hegel demişkən, qüdrətli oduğu qədər də hiyləgərdir. Texnikanı fəlsəfi baxımdan təhlil edən Haydeqqer göstərmişdir ki, texnikaya istiqamətlənən elmin tarixən yaranması və ixtisaslaşması, hətta elmlərin özü də, xüsusilə də cihazqayırma sahəsi, texnikanın hesabına inkişaf edir. Haydeqqerə görə, texnika, sadəcə olaraq, "texniki aləmi" qurmur, o, ictimai varlığın az qala bütün məkanını öz imperativinə tabe edir, tarixin, xüsusilə

də onun dövrloşməsinin dərk olunmasına təsir edir. İndi texnikanın hər sahədə müdaxiləsi müxtəlifdir, həttə bəzən onu anlamaq belə mümkün olmur. Texnika varlığın dərin xassələrini aşkar etməyin mühüm vasitəsidir - xüsusilə tibbdə, astronomiyada, biologiyada bu özünü daha aydın göstərir. Hal-hazırda texnikanın güelü inkişafı müşahidə olunur, bununla yanaşı texnika fenomeninin fəlsəfi tətbiqi genişlənir.

İnsan fəlsəfəsi kimi başa düşülən texnikanın fəlsəfəsi onu tələb edir ki, texnika insan imperativinə tabe edilməlidir. Texnikanın fəlsəfəsi tələb edir ki, insan təbiətin incə tarazlığına hörmətlə yanaşmalıdır və dünyanın elə ahənginə yol verilməlidir ki, bu həmin tarazlığı dağıtmasın, onu daha da möhkəmləndirsin. İnsanın biliyi digər yaradılanlara qarşı çevrilməməli, o təbiəti daha yaxşı anlamağa kömək edən qüvvə olmalıdır. Tərəqqi təbiətdəki varlıqların məhvinə xidmət etməməli, insanın mənəvi yetkinliyinə, onun təbiətlə hormoniyasma istiqamətlənməlidi. Texnikanın fəlsəfəsi təsdiq edir ki, cəmiyyət və sivilizasiya bizə ciddi dərs vermişdir, əvvəllər biz buna yüngülvari yanaşırdıq, o, bizim sağlamlığımızı, bütövlüyümüzü saxlamağa qadirdir.

Texnikanın fəlsəfəsi kontekstində **insan və texnika** məsələsinə də münasibət bildinnək vacibdir. Deyirlər istənilən kifayət qədər inkişaf etmiş texnologiya magiyadan seçilməzdir. Texnologiya dünyanın elə dəyişdirilməsi incəsənətidir ki, onunla bir də toqquşmursan. Ancaq maraqlıdır ki, texnika nə qədər qüdrətli olsa da pilləkənə nisbətən lift daha tez-tez qırılır. Elm cansız obyektləri üç qrupa bölür; fəaliyyət göstəıməyənlər, sınanlar, itənlər. İnsan həmişə texnika ilə bağlı olmuşdur: o texnikanın məhsullarını istehsal edir, istifadə edir və ya

yeyir. Eyni zamanda insanın özü də - öz texniki fəaliyyətinin nəticəsidir. Texnikanın inkişaf prosesi üç mərhələni əhatə edir: əl əməyi alətləri, maşınlar, avtomatlar. Texnika öz inkişafında bu gün fiziki əmək və onun təşkili oxşarlığından insanın mental xassələrinə oxşarlığına doğru hərəkət etməklə öz insan səviyyəsinə yaxınlaşır. İnsanın texniki yamsılaması maddi, fiziki və əyani baxımdan nə qədər zəif olursa texnikanın mənimsənilməsi və ona nəzarət bir o qədər çətin olur. Belə ki, insanın etdiyi nə varsa onun insaniliyindən irəli gəlir, texnika həmişə insanın özünü reallaşdırması və özünü dərk etməsi vasitəsidir. Bütün tarixi anlarda texnika insanları və həmin dövrün insanı ideyalarını əks etdirir. Müasir texnikanın, xüsusilə onun mikrobiologiya və informatika sahələrinin, araşdırılması nəticəsində bu daha aydın gömnür. Bu sahədə kəşflər və ixtiralar insan və insan aləmi haqqında yeni biliklərə gətirib çıxarır.

Texnika fəlsəfəsinin məşğul olduğu mühüm problemlərdən biri texnikanı yaradan və ondan istifadə edən insan problemi və konsepsiyasıdır. Hal-hazırda bu problemin özünəməxsusluğu insanın ixtiyarında olan texnologiyanın hədsiz dərəcədə inkişafı ilə bağlıdır. Bununla belə texniki tədbirlərə və ya əlavə təsirə məruz qalan adamların sayı xeyli artmışdır. Eyni zamanda təbiət siteminin özü insan fəaliyyətinin predmetinə çevrilmiş, insan öz müdaxiləsi ilə daimi olaraq onu poza və hətta dağıda bilir. Şübhəsiz bu tamam yeni vəziyyətdir: əvvəllər insan öz həyatını məhv etmək üçün bu qədər gücə malik olmamışdır. Öz yaşayış şəraitini yaxşılaşdırmaq bayrağı altında insan malik olduğu texnika ilə təbiət sisteminə qarşı əsl “səlib yürüşünə” başlamış və təəssüf ki, bu gün də onu davam etdirir. İnsan əvvəlcədən təhlil etmədən

istehsal edə biləcəyini istehsal etməməli, edə biləcəyi işləri etməməlidir, yeni texniki imkanlar ciddi şəkkildə öyrənilməlidir. Kompüter kimi əmək aləti yaradan insan özünün intellektual - məlumat oxşarım yaratmışdır; kompüter sistemi, ilk növbədə, əmək alətidir. İnsan fəal şəkildə ona təsir edir, onunla qarşılıqlı təsirdə onun imkanlarından bəhrələnir, onu təkmilləşdirir. Bu gün müasir kompüter yalnız alət deyildir: tam şəkildə olmasa da o fikir fəaliyyətinin fəaliyyət göstərən oxşarıdır. Yaxın gələcəkdə insanın kompüterlə qarşılıqlı fəaliyyəti kibernetikanın, psixologiyanın və digər xüsusi fənlərin problemindən çıxaraq qlobal bəşəri xarakter kəsb edə bilər.

**İnsan və maşının qarşılıqlı fəaliyyəti** - düşünən, hiss edən, iradə və şüura malik olan varlığın cansız, qeyri- bioloji qurğu ilə qarşılıqlı fəaliyyətidir. İnsan müəyyən səbəbləri əldə əsas tutaraq fəaliyyət predmetini dərk edir, məqsədlər həyata keçirir, ona nail olmaq üçün vasitələr axtarır, həmin əmək vasitələrinin özünəməxsusluğunu öz fəaliyyətində nəzərə alır, bunlardan istifadə edərək lazımi nəticələr qazanır. Maşın isə hər hansı vəzifəni yerinə yetirməyi özü düşünə bilmir və yalnız insanın köməyi ilə nəyə isə nail olur. Maşının məqsədi ona kənardan diqtə olunur - onu idarə edən onu istiqamətləndirir, maşın insana möhtacdır.

**Texnikanın demonizminə, məkrliliyinə** toxunmaq da maraqlı olarda. Demonizm - şər başlanğıcın simvoludur. Texnikanın demonizmindən söhbət gedəndə onun istifadəsinin insan, cəmiyyət və bütün bəşəriyyət üçün gözlənilməz dərin nəticələri, onun təbiətə öldürücü təsiri nəzərdə tutulur. K.Yaspersin fikrincə, lap əvvəllərdən ağıllı adamlar texniki aləmin dəhşətlərindən qorxurdular.

onlar bu qorxunu tam dərk etməsələr də onun gətirdiyi dəhşətləri intuitiv olaraq hiss edirdilər. Texniki tərəqqi, əməyin mexanikləşdirilməsi və avtomatlaşdırılması nəticədə insanları maşının bir hissəsinə çevirir, insan tərəfindən yaradılan texnika bütün əmək fəaliyyətini yenidən dəyişdirmək gedişində həm də insanın özünü dəyişdirir; insanın təfəkkürü, onun qəlbi "texnikləşir",- Buna görə də, Yaspersin fikrincə, texnikanın sonsuz faydası olmaqla yanaşı, həm də sonsuz dərəcədə təhlükəlidir: texnika cəlbedici qüvvəyə çevrilmişdir. İnsan heç vaxt bu qədər yaradıcı texniki imkanlar və bu qədər dağıdıcı vasitələrə malik olmamışdır. Ümid etmək olarmı ki, texnika ilə bağlı bəlalarımız nə vaxtsa insanın hakimiyyətinə tabe olacaqdır. Bu sual dərindən düşünən hər bir adamı narahat edir. Çox vaxt adama qəmginlik gətirən cavablar eşidirik: texnikanın iblisliyini idarə etmək mümkün deyildir. İxtiraların artması, texniki vasitələrin təkmilləşməsi, adamların bütün varlığı ilə yaradıcılıq prosesinə daxil olması həm də bazarın iqtisadi tələbatı ilə bağlıdır. Hamı özü haqqında düşünür, bütövlükdə isə həyat bizi fəlakətə sürəkləyir. Yaspersin sözlərinə görə, insanın sonrakı taleyi onun özünü tabe etdiyi texniki inkişafın nəticələri və onun insan həyatına təsiri üsulundan asılıdır.

**İqtisadi münasibətlər və iqtisadi maraqların** daha yaşı dərk olunması üçün mülkiyyət məsələsinə və şəxsiyyətin özünü təsdiqində onun rolu məsələsinə mühazirədə yer ayırmaq məqsədəuyğundur. Mülkiyyət problemi cəmiyyət həyatının iqtisadi sahəsinin dərk olunmasının açarıdır. Tarixçilər öz diqqətlərini, ilk növbədə, mülkiyyəti ifadə edən üsul və formalara yönəldirlər. Onlar mülkiyyət hadisəsinin mürəkkəb və

dəyişkən olduğunu, onun növlərinin çox rəngarəng olduğunu, onun təzahür formalarının tarixən dəyişkənliyini göstərirlər. Ancaq tarixi şərh mülkiyyət ideyasını ümumiləşdirmir və onun məzmun mahiyyətini tam aydınlaşdırmır.

Hüquqşünaslar mülkiyyəti öyrənərkən qanunverici aktları mülkiyyət hesab olunan, mövcud hüquqi sənədlərlə təsbit olunmuş qaydalara uyğun olaraq ona yanaşırlar.

Ancaq fəlsəfə **mülkiyyət fenomeninin** lap dərinliyinə daxil olmağa, onu ən ümumi varlıq kimi anlamağa, yəni mülkiyyət ideyasını, onun təbiətini dərk etməyə cəhd edir. Nəyə isə mülkiyyət kimi yiyələnmək mülkiyyət subyektinin malik olduğu ilə fiziki əlaqəsidir. Ancaq mülkiyyət heç də mütləq "əldə olan şey" deyildir. Bu, ilk növbədə, şeylərə malik olmaqdır, həm də şey özü, tutaq ki, avtomobil oğurlana bilər, yəni sahibinin əlində olmaya da ola bilər, ancaq hüquqi baxımdan bu ona məxsusdur. Başqa sözlə desək, mülkiyyət hüquqdur, yəni cəmiyyətdə mövcud olan hüquqi normalarla müəyyən şəxsin mülkiyyətə sahiblik etmək, onu idarə etmək və kənar şəxslərdən qorumaq hüququdur. Nəyinsə mənim olması haqqında düşünməyim və ona sahib olmaq arzularım hələlik onun mənim mülkiyyətim kimi qəbul olunması üçün kifayət deyildir. Bunu üçün hər bir dövlətdə yaradılan qanunlar var və bu qanunlar mülkiyyət hüququnu və onun xarakterik cəhətlərini müəyyənləşdirir. Beləliklə, mülkiyyət - bu və ya başqa bir birliyin, cəmiyyətin (ailəyə, auksioner cəmiyyətə və s.) tərkibinə daxil olan insanların qanuni yolla qazandığı nemətlərə malik olmaq, istifadə etmək və idarə etmək hüququdur.

**Mülkiyyətin əsası insanın özüdür, onun mənəvi aləmidir.** Biz "özümüzü özümünkündən" dəqiq

fərqləndirə bilirik: bizdə olan fikir, hiss və arzuları biz özümüzünkü kimi müəyyən edirik və onu kimə məxsus olduğundan, yəni fikirləşən, hiss edən, arzuları olanı özümüzdən ayırırıq. Beləliklə, hətta daxili, mənəvi həyat sahəsində biz hansısa “şəxsi mülkiyyətimizi” tapırıq. “Mənim fikrim, mənim hissim, mənim iradəm, mənim hərəkətim” deyirik, hətta “mənim əlim, qolum” deməklə öz bədənimizin olduğunu da təsdiqləyirik.

Şeylərin tam mülkiyyətçisi olmaq onun dəyərinin mülkiyyətçisi olmaq deməkdir, mən ondan istifadə etmək, onu idarə etmək hüququ əldə edirəm. Şey mülkiyyət kimi tələbata xidmət edir. İnsan varislik, öz əməyi və zəbt etməklə mülkiyyət əldə edir. Mülkiyyətin başlıca əsası əməkdir. Öz əməyi ilə qazanılan insanın mülkiyyətidir. Mülkiyyətin subyekti fiziki fərddir - burada bir şərti nəzərə almaq lazımdır: axı bədənə malik olmayan ruhun heç nəyə ehtiyacı yoxdur, cənnətdə də heç bir hüquqi münasibət yoxdur və ona görə də mülkiyyətin subyektinin canlı fərd olması xüsusi vurğulanır. Müasir hüquqi praktikada mülkiyyət hüququnun faktiki subyekti yalnız fiziki şəxs deyil, həm də hüquqi şəxs - “sosial orqanizm”, məsələn, müəssisə, auksioner cəmiyyət və s ola bilər. Fiziki şəxslərin məcmusu insan fərdlərinin xaotik qarışığı deyil, bu müəyyən şəxsdir, ilk növbədə, həmin müəssisənin rəhbəri simasında başqa müəssisələrlə, dövlət idarələri, xarici fmnalar və ya ayrıca fiziki şəxslərlə kollektiv adından hüquqi münasibətlər yaradan şəxsdir və onlar da mülkiyyət subyekti kimi çıxış edirlər. Mülkiyyət subyekti olan hər kəs ondan istədiyi kimi istifadə edə bilir. Mülkiyyətin obyekti kimi insanın yaratdığı və ya təbiətin verdiyi hər şey çıxış edə bilər, ancaq o məhdud olduğundan və insanların ona olan ehtiyaclarını nəzərə

alaraq onun üzərində mülkiyyət hüququ yaradılmışdır; məsələn, hələlik hava hamıya çatdığından heç kəs onu bölüşdürməyə və onu öz mülkiyyəti etməyə cəhd etmir.

Bəşəriyyət tarixində **mülkiyyət əldə etməyin iki üsulu olmuşdur: zorla işğal etmək və ya hər hansı obyekti becərmək üsulu.** Mülkiyyət əldə etməyə insanı ehtiyac vadar etmişdir. Şeylərin dəyəri, az olması və lazımhhğı ona maraq yaradır. İnsan müəyyən torpaq sahəsini becərirsə, onu çəpərə alırsa, bu artıq onun mülkiyyəti, çəpərdən kənarda olanlar isə kimlərin isə mülkiyyəti hesab olunur. Bu hüquq üçün əsas fərasət, əmək və mənimsəmək olur - burada mənimsəmək deyərkən oğurlamaq yox, heç kəsə məxsus olmayanı özününkü etmək nəzərdə tutulur. Əqlimizin məhsulu olan - elmi, fəlsəfi, bədii məqalələri, kitabları, bütün mülki ixtiraları "özümüzünkü" hesab edirik. Bir sözlə, mülkiyyət ictimai münasibətlərin forması kimi çıxış edir. Mülkiyyət institutunun məzmunu subyektin obyekt üzərindəki sahibliyi, istifadə etməsi və idarə etməsi ilə müəyyən olunur. Əlbəttə söhbət, sadəcə olaraq, faktiki sahiblikdən, istifadə etmək və idarə etməkdən getmir, söhbət subyektin mülkiyyət üzərindəki hüquqlarının yaşadığı cəmiyyətdəki qanunlarla təsbit olunmasından gedir. Ümumi və şəxsi ictimai əlaqələr həyatın müxtəlif sahələrində özünü göstərir: biz bunu iqtisadiyyatda müşahidə edirik və o hüquqi münasibətlərdən ayrılmazdır. Məsələn, adamlar arasında müqavilə bağlanması şəxsi və ya ümumi hüquqi münasibətlərin tipik nümunəsidir. Mülkiyyət də hüquqi münasibətin tipik nümunəsidir. Hər hansı bir adamın nəyinsə üzərindəki mülkiyyət hüququ o deməkdir ki, başqa adam və ya bütövlükdə cəmiyyət onun tabeliyində olan mülkiyyətə göz dikə bilməz. Beləliklə, mülki)^ət

vətəndaşı şeylər üzərində və ya onun vasitəsi ilə başqa adamlar üzərində təmiz mülkiyyəti demək deyildir. Əgər kimsə insan məskunlaşmayan adada yaşayarsa və əynində olanların hamısını öz mülkiyyəti hesab edirsə yalnız onun bu hüququna hörmət edənləri təsəvvüründə canlandıra bilər. Axı burada cəmiyyət, hüquqi münasibətlər yoxdur və deməli, sözün həqiqi mənasında, mülkiyyətdən danışmağa deyər dəyməz.

Mülkiyyət ictimai hadisə kimi ona görə çıxış etmir ki, mütləq bir neçə adamın olmasını tələb etsin, onun dərin mənası ondadır ki, mülkiyyət ideyası məntiqi olaraq müəyyən ictimai əlaqələri tələb edir, bunsuz mülkiyyət ideyası haqqında düşünməyə dəyməz. Mülkiyyət formalarının müxtəlifliyini mühazirədə vurğulamaq bu məsələyə daha yaxşı aydınlıq gətirməyə xidmət edərdi. Şəxsi mülkiyyət deyərkən mənə məxsus olan şeylər - paltarım, ayaqqabım, çantam, yazı stolum və s. nəzərdə tutulur - yəni heç kəsin iddia irəli sürə bilmədiyi bütün şeylər mənə məxsusdur. Şəxsi mülkiyyətdə mənim iradəm şəxsidir: mən fərdi şəkildə onun sahibiyəm, ondan istifadə edir və onu idarə edirəm, məsələn mənim paltarım, ayaqqabım, kitabım və s. Xüsusi mülkiyyət isə ailəyə məxsus olanları nəzərdə tutur - xüsusi mülkiyyət hər hansı kompaniyanın və ya bir qrup adamın mülkiyyəti ola bilər. İctimai mülkiyyət isə dövlətə məxsusdur. Bu mülkiyyətlə hamıya, fərdi şəkildə isə heç kəsə məxsus olmayan mülkiyyətdir- məsələn, sovetlər dövründə, - elə indi də, - torpaq dövlətin mülkiyyəti hesab olunurdu. Xüsusi mülkİ5p/ət insanın təbiəti ilə, onun bədən və ruhi quruluşu ilə, onun tələbatları ilə, onu işləməyə vadar edən səbəblərlə sıx bağlıdır. Xüsusi mülkiyyət məhsuldar əməyin və sərbəst təsərrüfat təşəbbüsünün güclü mənbəyidir;

o, şəxsiyyətin fiziki və mənəvi gücünü reallaşdırmasına kömək edir. Xüsusi mülkiyyət və bazar münasibətləri adamların mülk, əmlak sərbəstliyi verir, şəxsi təşəbbüskarlığı artırır, öz fəaliyyətini tənzimləyir və təkmilləşdirir, məsuliyyət hissi oyadır. Xüsusi mülkiyyət hüquqi şüuru möhkəmləndirir, qanuna tabe olmaq mədəniyyəti yaradır. Şəxsiyyətin real varlığı onun mülkiyyətində təzahür edir. Xüsusi mülkiyyəti rədd edənlər şəxsi başlanğıcı boğur və hətta təhqir edir, şəxsiyyətdə olan müstəqilliyi, öz yaradıcılığını dəyərləndirməyi, onun axtarış qabiliyyətini və risk etməsini heçə endirir. Bununla da iqtisadi, cəmiyyət və dövlət maraqlarına xələl gətirir. Vaxtilə bolşeviklərin xüsusi mülkiyyəti ləğv etməsinin səhv olduğunu zaman sübut etmişdir.

**"Mənim" və "sənin" ideyası,** yəni xüsusi mülkiyyət tarixin müəyyən inkişafından sonra yaranmışdır. Mülkiyyətlə bağlı söhbətdə bərabərlik kimi "incə" məsələyə də toxunmaq vacibdir. Məlumdur ki, insanların təbiətən bərabərliyi mövcud olmamışdır. Deməli, elə çıxır ki, mülkiyyət bərabərliyindən də danışmaq olmaz. Vaxtilə mülkiyyət üzərində bərabərlik yaratmağa göstərilən cəhd müəyyən vaxtdan sonra pozuldu. İnsanlar yalnız qanun qarşısında bərabərdirlər. Hegel yazırdı ki, mülkiyyət bərabərliyini ədalətin təntənəsi kimi təqdim etmək düzgün deyildir, ədalətli odur ki, hər kəsin mülki^/yəti olsun. Burada Hegel xüsusi mülkiyyəti nəzərdə tuturdu. Axı həqiqi ədalət prinsipi "hamıya eyni cür" yox, "hər kəsə" layiq olduğunu nəzərdə tutur. Bu aydındır, belə ki, hər bir adam, hər bir ailə bütün münasibətlərdə nadirdir. Xüsusi mülkiyyət özünün irsən keçməsini nəzərdə tutur. Bir çoxları xüsusi mülkiyyətə bütün bəlaların səbəbi kimi yanaşaraq onun ləğv olunmasına çalışmışlar. Axı məhz bu

mülkiyyət formasının da insanlara firavanlıq və xoşbəxtlik gətirəcəyini heç bir iqtisadçı təsdiq etməmişdi. Heç kəs onun xalqın fıravanlığmın yeganə ağıllı və iqtisadi cəhətdən məhsuldar olduğunu əsaslandırmamışdı.

Bizim bütün iqtisadi və hüquqi problemlərimizin (həm də siyasi) kökü mülkiyyətin xarakteri ilə bağlıdır. Uzun müddət ərzində bizdə yeganə mülkiyyət fomıası - dövlət mülkiyyəti olmuş və bəyan edilmişdir ki, mülkiyyət xalqa məxsusdur. Bu o deməkdir ki, hər şey heç kimindir: həm mülkiyyətə, həm də əməyə müvafiq münasibət də buradan yaranmışdır. İndi isə bizdə başqa vəziyyətdir: düşünürəm ki, əgər hər şeyin və hər yerdə sahibi tapılarsa onda iqtisadiyyatımız çiçəklənmə dövrünə qədəm qoyacaqdır. Maraqlıdır, yüksək inkişaf etmiş ölkələrdə fəhlə, mühəndis, menecer müəssisənin mülkiyyətçisi olmağa can atmır. İşçilər istehsal vasitələrindən, hazır məhsuldan uzaqlaşdırılmayıb ki? - bu sual heç kəsi narahat etmir: hər kəs öz maddi təminatının ölçüsü haqqında düşünür, onun müəssisənin sahibi olması və ya orada muzdlu işçi olması şəraitdən, təsadüfdən, fərasətdən asılıdır. İnsanın insan tərəfindən istismarına gəldikdə isə biz dəfələrlə əyani şəkildə görmüşük ki, dövlət bəzən istənilən kapitalistdən də qəddarcasına adamları istismar edir. Tarixin acı təcrübəsi sübut etmişdir ki, ictimai mülkiyyəti bütləşdirmək heç də istənilən nətieələri verməmişdir.

Cəmiyyətin iqtisadi həyatında **adamlar arasında iqtisadi münasibətlər** mühüm rol oynayır. İqtisadi münasibətlərin təkminliyindən yalnız istehsal üsulunun inkişafı deyil, həm də cəmiyyətdə ictimai tarazlıq, cəmiyyətin sabitliyi asılıdır. İctimai ədalətin problemlərinin həlli birbaşa onun məzmunu ilə bağlıdır; bu vaxt

hər bir adam və ictimai qrup öz fəaliyyətlərinin ictimai faydalığmdan, onun başqa adamlar, cəmiyyət, dövlət üçün, xüsusilə də onlar öz maraqlarını reallaşdırması onun zəruriliyindən asılı olaraq müxtəlif ictimai dəyərlərdən istifadə etmək imkanı qazanır. Adamların iqtisadi maraqları onların iqtisadi münasibətlərinin bilavasitə təzahüm kimi çıxış edir. Belə ki, sahibkarın və muzdlu işçinin iqtisadi maraqları onların aşağıdakı iqtisadi münasibətlər sistemində birbaşa yerləri ilə müəyyən olunur. Onlardan birinin marağı maksimal gəlir əldə etmək, digəri isə öz iş qüvvəsini baha satmaq və bununla daha çox qazanmaq imkanı əldə etməkdir. Kəndlinin iqtisadi marağı - istər fermer olsun, istərsə də kəndli təsərrüfatının üzvü olsun da - mövcud iqtisadi münasibətlər sistemində onun yeri ilə müəyyən olunur. Bu həm də qulluqçulara - müəllimlərə, alimlərə, həkimlərə, mədəniyyət müəssisələrində çalışanlara və s. aiddir. Onların iqtisadi maraqlarının məzmunu və istiqaməti mövcud iqtisadi münasibətlərin məzmunu və həmin münasibətlər sistemində onların yeri ilə müəyyən olunur.

**Adamların iqtisadi marağı** onların istehsal fəaliyyətlərinin oyadıcı gücü kimi çıxış edir. Bu fəaliyyət prosesində onların təlabatları ilə sıx bağlı olan, ancaq həm də onlardan fərqlənən öz maraqlarını reallaşdırmağa cəhd edirlər. Bir daha xatırlatmaq yerinə düşərdi ki, adamların təlabatı onların həyat fəaliyyətinin şəraitini qoruyan obyektiv zərurət kimi təzahür edir. Onlan yeməyə, geyimə, mənzilə və s. olan tələbatları belədir. Onların mənəvi və digər tələbatları haqqında bunları demək olar. Tələbatın yerinə yetirilməsi yolları və üsulu da maraqlarda öz əksini tapır. Belə ki, sahibkarın iqtisadi marağının əsasını təşkil edən gəlir əldə etməyə marağı onun şəxsi

tələbatımn və onun istehsal fəaliyyətinin ödənilməsi üsullarından başqa bir şey deyildir. Yüksək əmək haqqı almaq - muzdlu işçinin marağı budur - onun özünün və onun ailəsinin tələbatlarmm ödənilməsi üsulu kimi çıxış edir. Göründüyü kimi, bu və ya digər subyektin iqtisadi maraqlarının reallaşması eyni zamanda optimal üsullarda onların tələbatımn ödənilməsi kimi çıxış edir. Bu üsul onların bir-birini möveud iqtisadi münasibətlər sistemindəki yeri ilə müəyyənləşir.

Adamların iqtisadi marağının qarşılıqlı fəaliyyəti cəmiyyətin iqtisadi həyatının əsas məzmununu təşkil edir. Onlar yaradılan predmet və xidmətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı prosesində, yəni istehsal iqtisadi münasibətlərin bütün təbəqələrində həyata keçirilir. Söhbət müxtəlif növ sahibkarların, fəhlələrin, qulluqçuların, kəndlilərin, istehsal kollektivlərinin, millətin, bütövlükdə cəmiyyətin iqtisadi maraqlarında gedir. Bu ictimai subyektlərin hər birinin reallaşdırmağa cəhd etdiyi özünəməxsus maraqları var. Deməli, istehsal prosesində adamların qarşılıqlı fəaliyyəti son nəticədə onların iqtisadi maraqlarının qarşılıqlı fəaliyyəti kimi çıxış edir. Ona görə də ən əsas vəzifə - onların maraqlarının optimal uyğunlaşdırılması, onların harmonikləşdirilməsidir. İqtisadi elmlərin və praktikanın əsas vəzifəsi də demək olar ki, elə bundadır.

Adamların iqtisadi maraqlarının reallaşması və onların tələbatlarının ödənilməsi iqtisadi qanunların fəaliyyət mexanizminin əsas həlqəsidir. Axı iqtisadi qanunlar adamların istehsal fəaliyyəti və onların iqtisadi marağı qanunu kimi çıxış edir. Ancaq, göründüyü kimi, adamların istehsal fəaliyyəti onların tələbat arzularından yaranır, bu da nəticədə iqtisadi qanunların fəaliyyətinin

əsas həlqəsini təşkil edir. İqtisadi maraqlar isə adamların öz tələbatlarını ödəmək üçün iqtisadi fəaliyyətlərinin optimal yolunu və üsulunu ifadə edir, bu da öz növbəsində, möveüd iqtisadi münasibətlərin məzmunu ilə müəyyən olunur.

Beləliklə, iqtisadi maraqlar xeyli dərəeədə adamların iqtisadi fəaliyyətinin məzmunu və istiqaməti ilə, bununla yanaşı iqtisadi qanunların məzmunu və istiqaməti ilə müəyyən olunur.

## §5. Cəmiyyətin iqtisadi həyatının obyektiv və subyektiv tərəflərinin qarşılıqlı fəaliyyəti

Cəmiyyətin iqtisadi həyatının müxtəlif tərəflərinin şərhinə başlamazdan əvvəl iqtisadiyyatın ictimai-iqtisadi idarəçiliyinin mahiyyətini təhlil etməyi vacib hesab edərək bu sualın izahını məhz iqtisadiyyatın idarə olunması məsələsinin işıqlandırılmasından başlamağı qərara aldım. Maddi və mənəvi istehsalın müxtəlif növlərinin idarə olunması xüsusi təhsil, təcrübə, əql və hətta xarakter tələb edən müstəqil peşə sahəsidir. İdarəçilik haqqında xüsusi elm yarandı və bu elm iqtisadiyyat, sosiologiya, psixologiya, riyaziyyat və s. elm sahələrindəki tədqiqatlara söykənir. Menecer institutu yarandı - fəaliyyətin müxtəlif sahələri, o cümlədən elmin inkişafı üzrə mütəxəssislər hazırlayan məktəb yarandı. İnkişaf etmiş ölkələrdə idarə sisteminin mühüm ünsürü planlaşdırma, əməyin təşkilinin faydalı metodlarının həyata keçirilməsi taktikasını, kompüter, informatika və s. geniş istifadəsi əsasında uçot və nəzarət sistemini işləyib hazırlamaqdır. Cəmiyyət bütöv orqanizm olmaqla bir sistem kimi inkişaf edir, onun ünsürləri (ictimai həyatın sahələri) bir-biri ilə qarşılıqlı

əlaqədədir. Buradan da aydın olur ki, cəmiyyətin idarə olunması sistemli, kompleks şəkildə həyata keçirilməlidir. İdarəçilik bütövlükdə cəmiyyət üçün, həm də onun ayrı- ayrı hissələri üçün zəruridir, ona görə də idarəçilik mexanizminin təşkili səviyyəsinə cəmiyyətin özünün və onun hər bir sahəsinin inkişaf səviyyəsinin əsas göstəricisi kimi baxmaq olar. Müdrik kəlamlardan birini dəyişərək belə demək olar: dövlətin necə idarə olunduğunu və adamların rəhbər vəzifəyə necə irəli sürüldüyünü deyin və mən həmin ölkənin taleyini sizə deyim.

İqtisadiyyat, əmək fəaliyyəti, əmək bölgüsü, birgə əmək, istehsalçı və istehlakçının münasibəti, maliyyə və digər iqtisadi münasibətlər az və ya çox dərəcədə idarəçilik tələb edir. Cəmiyyətdə tarixən idarəçilik mexanizminin fəaliyyətinin iki prinsipi - kortəbii və şüurlu - yaranmışdır. Kortəbii idarəçilik ictimai qüvvələrin elə qarşılıqlı fəaliyyətini ifadə edir ki, buradan təsadüfləri aradan qaldırmaq olmur - bu məqsədyönlü şüurlu fəaliyyətlərdən yaranan ciddi - cəhdli nəticədir, burada onun bütün nəticələrini nəzərə almaq olmur. Onun modeli kimi, ilk növbədə, bazar çıxış edə bilər. Ancaq cəmiyyətin iqtisadi həyatı, heç vaxt özünü nizamlayan sistem olmamışdır: o, müəyyən idarəçilik mexanizmi, yəni insan əqlini planlaşdıran və nizama salan qüvvənin iştirakı olmadan keçinə bilməz.

**İdarəetmə üç** baxışdan tədqiq olunur: **təsərrüfat** (iqtisadiyyatın idarə olunması), **ictimai-siyasi və sosial-psixoloji.** Lakin bütöv iqtisadi orqanizmdə fəaliyyət göstərərkən idarəçilik vahid və ayrı-ayrı ünsürlərə bölünməz proses kimi təqdim olunur. Beləliklə, idarəçilik problemi qlobal ictimai problem kimi fəlsəfənin, indiki halda iqtisadiyyatın əsaslı aspektidir. İdarəetmə problemi

daha çox iki anlayışın - inforaıatika və idarəetmə anlayışlarının inkişafı ilə bağlı öyrənilir. İqtisadi idarəetmə sahəsinə tətbiq etməklə bu anlayışları nəzərdən keçirək. İqtisadi informasiya - ilk növbədə, fikir informasiyasıdır, yəni insanın şüurunda işlənib hazırlanır və iqtisadi sahədə həyata keçirirlər. O, iqtisadi tələblər və maraqlarla prtlənir və istehsalın təşkili prosesində dövr edir. İnformasiya yalnız öz təbiətinə görə yox, həm də iqtisadiyyat sahəsində öz dövretməsinə görə spesifıkdir. Burada müxtəlif kanallarla hərəkət edən çoxsaylı informasiya axını qarşılıqlı fəaliyyətdədir: bu həm indi yaşayan keçmişin "yaddaşı", həm də yerli və ümum- planetar ünsiyyət formalarıdır.

İqtisadi informasiyalar həm vertikal (şaquli), həm də üfüqi hərəkət edir. İqtisadi informasiya deyərkən biliklərin, məlumatların, xəbərlərin, ideyaların, idarə qərarlarının, rəhbərlərin göstərişlərinin, idarə olunmaların əks reaksiyasının məcmusu kimi dövr edən informasiyalar nəzərdə tutulur. Ağıllı məqsədlər güdən optimal idarə etmə obyektiv, həqiqi və tam informasiyanı nəzərdə tutur; düzgün və tam informasiya olmadan idarə etmə mümkün deyildir. Mütəxəssislər qabaqcıl ölkələrin inkişafını təhlili edərək belə nəticəyə gəlmişlər ki, iqtisadiyyatda informasiya böyük yer tutur. O, müəyyən mənada ehtiyatları əvəz edir, ənənəvi xammalın bir sıra növlərinə olan tələbatı azaldır, ucuz komponentlərdə effektli materiallar yaradan novator texnologiyasının əhəmiyyətini artırır, informasiya və iqtisadi idarəetmə anlayışları funksional "əkizdirlər". İnformasiya olan yerdə idarə etmə də var, idarə etmə həyata keçirilən yerdə isə informasiya vacibdir. İstənilən idarə etmə prosesinin başlanğıc nöqtəsi - informasiyanın alınması və onun işlənib hazırlanmasıdır.

idarəetmə - istənilən təşkilat sisteminin keyfiyyət müəyyənliyinin saxlanmasına yönəldilən, onun ətrafla dinamik tarazlığına və inkişafına yönələn funksiyadır.

**İdarəetmə strukturunun əsas vəzifəsi idarəetmə qərarlarının işlənib hazırlanması və yerinə yetirilməsidir.** Burada ən vacib məsələ optimallıq prinsipidir, yəni idarəetmə qərarlarını işləyib hazırlayarkən onun yerinə yetirilməsindəki maksimum mümkün variantları nəzərə almaq vacibdir və onlardan eləsi seçilməlidir ki, o, qarşıya qoyulan məqsədə çatmağı tam təmin etsin. Əlbəttə idarəetmə qərarları idarəetmə obyektlərinə yönəlir və subyekt tərəfindən hazırlanır. Burada tələbat və maraqlar, real imkanlar və bu imkanların gerçəkləşməsi şəraiti nəzər alınır. Müasir şəraitdə iqtisadi idarəetmənin xarakteri idarəetmə qərarlarının qəbul olunmasında məsuliyyəti artırmağı subyektdən tələb edir.

İctimai qarşılıqlı fəaliyyətin bütün məcmusuna son nəticə də **idarəetmə subyekti və obyektinin qarşdıqlı fəaliyyəti** kimi baxıla bilər. İdarəetmə subyekti kimi ictimai institutlar, təşkilatlar, əmək kollektivi, ayrıca şəxslər çıxış edə bilər. Ancaq son nəticədə idarəetmə qərarlarını müvafiq hakimiyyətə malik olan real şəxs qəbul edir. İdarəetmə obyekti - hansı foraıa və hansı səviyyədə çıxış etməsindən asılı olmayaraq- real və faktiki olaraq adamlardır: əqlə, qabiliyyətə malik olan və buna görə də müvafiq qərarlar qəbul edib onu yerinə yetirən kollektivlər və ya ayrıca şəxslərdir. Xristian ilahiyyatçısı Şeffer “Balaca adam yoxdur” əsərində istənilən işdə hər bir adamın əhəmiyyətini təhlil etmişdir. Əlbəttə adamlar müxtəlif vəzifələr tutduğundan müxtəlif məsuliyyət daşıyırlar və ona görə də onların əsli, bacarığı da müxtəlif olur. Müəssisə rəhbərinin bacarığı və məsuliyyəti ona tabe

olanların sayı, müəssisənin istehsal etdiyi məhsulun çeşidi, əldə olan gəlirin miqdarı artdıqca yüksəlir. Müəssisənin inkişaf strategiyasını işləyib hazırlayan və qərar qəbul edən adamın məsuliyyəti daha }mksəkdir, çünki müəssisənin və həm də buradakı fəhlələrin gələcək taleyi onun qəbul etdiyi qərarlardan çox asılıdır.

İdarəetmənin subyekti və obyekti anlayışları nisbi anlayışlardır, insan bəzən obyekt, bəzən isə subyekt kimi çıxış edir. Hətta eyni qarşılıqlı fəaliyyət çərçivəsində subyekt özü də obyekt tərəfindən idarə olunur ki, bu vaxt artıq idarəetmənin subyekti kimi çıxış edir. Ona görə də effektli idarəetmə həm qərarların, həm də onların yerinə yetirilməsinin üzərində həm yuxarıdan, həm də aşağıdan ağıllı nəzarət şəraitində mümkündür: nəzarətsiz işçi adətən mənən əriyir, pozulur, rəhbər işçi də nəzarətdən kənarda qalanda bu aqibəti yaşayır.

**Cəmiyyətin iqtisadi həyatı onun obyektiv və subyektiv tərəflərinin** mürəkkəb qarşılıqlı fəaliyyəti kimi özünü göstərir. Onun obyektiv tərəfinin ünsürləri: ilk növbədə, adamların fəaliyyətinin məzmununu və istiqamətini müəyyən edən obyektiv tələbat və maraqlardır. Bu cəmiyyətin məhsuldar qüvvəsi və orada mövcud olan istehsal münasibətləridir - onlar öz vəhdətləri ilə istehsal üsulunu təşkil edirlər. Bu həm də obyektiv iqtisadi qanunlardır ki, o da istehsal üsulunun inkişafına və cəmiyyətin bütün iqtisadi həyatına tabedir. Göstərilən amillər insanların iradəsi ilə yaranmır və onlar tərəfindən də ləğv edilə bilməz. Məsələn, yeməyə, geyinməyə, mənzilə olan tələbat obyektiv əsas kimi, bioloji və ictimai varlıq kimi insanın yaşamasının obyektiv zəruri tələbi kimi mövcüddur. Onların dərk olunması və onlara şüurlu təsir etmək onların mövcudluğunun obyektiv xarakterini

aradan qaldırmır. İnsanların obyektiv marağında obyektiv olaraq faydalı, gərəkli olanlar öz ifadəsini tapır- bunu insanları dərk edib-etməməsi vacib deyildir. Söhbət mövcud istehsal münasibətləri sistemində insanların şüuru ilə deyil, bu münasibətlərin məzmunu ilə müəyyən olunan tələbatların ödənilməsinin optimal yollarından və üsullarından gedir. Bunun dərk olunması insanların maraqlarının dərk olunması deməkdir.

Obyektiv mövcudluq kimi həm cəmiyyətin məhsuldar qüvvələri, həm də insanlar arasında yaranan istehsal münasibətləri çıxış edir ki, bu da adamların mövcud tələbatı və maraqlarından təşəkkül tapır və öz məcmuları ilə heç vaxt onların şüurlarını əhatə etmir. Eyni zamanda istehsal münasibətlərinin inkişafı həlledici ölçüdə onların məhsuldar qüvvələrin səviyyəsindən və xarakterindən obyektiv asılılığı ilə müəyyən olunur. Hər bir yeni nəsil artıq təşəkkül tapmış məhsuldar qüvvələr və istehsal münasibətləri ilə üzləşir və öz fəaliyyətini onların məzmunlarına müvafiq, həm də öz obyektiv tələbatlarının və maraqlarını nəzərə almaqla qururlar. İctimai istehsalda adamların şüurunun daimi artan rolu bu asılılığı ləğv etmir. Nəhayət istehsal üsulunun inkişafının iqtisadi qanunu və cəmiyyətin bütün iqtisadi həyatı da obyektiv xarakter daşıyır.

**Cəmiyyətin iqtisadi həyatının inkişafının obyektiv tərəfini** təşkil edən bütün bu və digər amilləri öyrənməyin və öz fəaliyyətində bunların nəzərə almağın vacibliyi mühazirədə qeyd olunmalıdır. Çünki onlar bir çox iqtisadi hadisələrin fəaliyyət göstərməsində və inkişafında müəy- yənedici rol oynayırlar. Onlardan imtina etmək olmaz. Bu iqtisadi vəziyyəti çıxılmaz hala salar, iqtisadiyyatda böhrana və dağıdıcı meyllərin yaranmasına səbəb olar.

Cəmiyyətin iqtisadi həyatının inkişafında obyektiv amillərin nəzər alınması iqtisadiyyatın inkişafında bu və ya digər məsələlər haqqında obyektiv, özünü doğruldan, real qərarların qəbul edilməsinə kömək edir.

**Cəmiyyətin iqtisadi həyatının subyektiv tərəfi** - insanların şüurunun, onların iradəsinin, məqsədlərinin, dəyərli arzularının təzahürüdür. Bütün bunlar subyektin daxili aləminin təzahürü, onların psixi xarakteri və intellektləri kimi özünü göstərir. Bunlar bu və ya digər iqtisadi hadisələrin subyektiv qavranılması və onlar haqqında subyektiv təsəvvür ola bilər. Bu, məsələn, malın faydablığına, onun keyfiyyətinə, qiymətinə, pulun roluna bu və ya digər maliyyə əməliyyatın mahiyyətinə və s. aid ola bilər. Bununla belə iqtisadi həyatın mövcud olan və digər hadisələrinin insanın şüurunda inikası həm onların gündəlik praktiki təcrübələrinə əsaslanan adi məişət təsəvvürləri və baxışları səviyyəsində - insanların adi iqtisadi şüuru belədir, - həm də müddəaların məntiqi əsaslandırılması sistemində özünü göstərən müxtəlif nəzəriyyələr səviyyəsində-bu nəzəri iqtisadi şüurdur - özünü göstərir. Bu, məsələn, A.Smitin dəyərin əmək nəzəriyyəsi, E.Bern - Baverkin ifrat faydalılıq nəzəriyyəsi, K.Marksın izafi dəyər nəzəriyyəsi, D.Keynsin iqtisadiyyatın dövlət tənzimlənməsi nəzəriyyəsi və başqaları ola bilər. Adi və nəzəri iqtisadi şüur - iqtisadi hadisə və proseslərin dərk olunmasının müxtəlif səviyyəsidir, onların başa düşülməsinin dərinliyinin müxtəlif mərhələlərini əks etdirir.

İqtisadi şüurun adamların iqtisadi psixologiyası kimi təzahürü də mövcuddur. O, iqtisadi hadisə və proseslərin müəyyən dərəcədə dərk olunmasını nəzərdə tutur. Bu vaxt ön plana subyektlərin onlara münasibəti çıxır - subyekt

kimi ayrıca iqtisadi qruplar, şəxsiyyətlər və ya adamların böyük kütləsi çıxış edə bilər. Bu münasibət adamların müəyyən fəaliyyətə daxili meyli formasında, onların niyyət və hətta instinktlərində, eyni zamanda onların məqsədlərində, dəyərli istəklərində və s. ifadə oluna bilər. Bu həm də bu və ya digər iqtisadi hadisədən xoşu gəlmək və ya gəlməməklə də ifadə olunur. Bir çox mütəfəkkirlər cəmiyyətin iqtisadi həyatının psixoloji amillərinə böyük əhəmiyyət vermişlər. Məsələn, alman iqtisadçısı Q.Şmol- ler iqtisadiyyatın inkişafında rəqabət instinktinin böyük rolunu göstərmiş, amerikalı iqtisadçı T.Veblen burada ustalıq və varlanmaq cəhdi (acgözlük, tamahkarlıq) instinktinin əhəmiyyətini qeyd etmişdir. Alman filosofu və iqtisadçısı V.Zombart "təsərrüfat ruhu" haqqında təlimi inkişaf etdirmişdir. Onun həmvətəni M.Veber dini şüurun təsirini, o cümlədən protestantlığın tərəfdarlarının dini psixologiyasının kapitalist iqtisadiyyatının inkişafına təsirini göstənnişdir. İqtisadi münasibətlərin psixoloji aspektindən fransız filosofu və psixoloqu Q.Tard da ətraflı danışmışdır. Cəmiyyətin iqtisadi həyatının psixoloji amilləri uzun illər rus və başqa xalqların alimlərinin tədqiqat obyekti olmuşdur. Müasir müəlliflərin əksəriyyəti öz əsərlərində cəmiyyətin iqtisadi həyatının psixoloji xarakterinin təhlilində adamların fəaliyyətinin psixoloji səbəblərinə, onların iqtisadi riskə psixoloji hazırhqlanna xüsusi diqqət yetirmişlər. Qəbul olunan qərarların psixologiyası, sahibkarlıq fəaliyyətinin psixologiyası, iqtisadi yığım və istehsal psixologiyası və s. kimi problemlər işlənib hazırlanmışdır. "Psixologiya və iqtisadi həyat", "Psixologiya və biznes" və s. əsərlər nəşr olunmuşdur. Bütün bunlar onu göstərir ki, adamların iqtisadi psixo

logiyası onların iqtisadi şüunmun mühüm təzahürü kimi çıxış edir.

Bu və ya digər hadisələrə münasibət və cəmiyyətin iqtisadi həyatı həm də iqtisadi nəzəriyyələrlə ifadə olunur. Buna görə də o hüquq və əxlaq nəzəriyyələri kimi, eyni zamanda siyasi nəzəriyyələr kimi ideoloji istiqamət kəsb edir. İnsanların iqtisadi fəaliyyətinin və iqtisadi münasibətlərin məzmun və struktuıunu yaradan iqtisadi şüurun strukturu belədir. İqtisadi şüurun yuxarıda sadalanan bütün ünsürləri öz aralarında qarşılıqlı fəaliyyətdə olub bütöv hadisəni yaradırlar. İqtisadi şüurun əhəmiyyəti daima artır, çünki adamların müxtəlif iqtisadi hadisələrə və proseslərə şüurlu təsirinin zəruriliyi artır. Ən vacib problemlərdən biri insanların öz obyektiv iqtisadi maraqlarını dərk etməlidir. Onları dərk etmək mövcud iqtisadi münasibətlər sistemində onların təlabatmm və özlərini dərk etmələrinin ödənilməsinin optimal yolu və üsullarını dərk etmək deməkdir. Bu o deməkdir ki, bu və ya digər subyekt, əgər hətta əvvəllər bunu dərk etməyibsə belə nəyin onun marağına uyğun gəldiyini başa düşür.

Hər hansı subyektin digər subyektə obyektiv iqtisadi münasibətlər anı kimi təzahür edən öz obyektiv mövcud olan iqtisadi maraqlarını dərk olunması öz istehsal- iqtisadi fəaliyyət təcrübəsindən irəli gələn adi iqtisadi şüur səviyyəsində, eyni zamanda nəzəriyyə səviyyəsində ola bilər. Digər subyektlərin maraqlarının dərk olunması haqqında da bunları demək olar. Müxtəlif növ iqtisadi təlimlər bu və ya digər siniflərin və ictimai qrupların iqtisadi maraqlarının nəzəri ifadəsi kimi çıxış edir. Obyektiv iqtisadi maraqların dərk olunmasının nəticəsi adamların fəaliyyətinin, onların arzularının, səylərinin və bu və ya digər fəaliyyətə olan subyektiv maraqlarının

müəyyən səbəblərinin yaranmasıdır. İnsanın və ya sosial qrupların bu subyektiv marağı onların fərdi və ya qrup şüurunda onların obyektiv iqtisadi maraqlarının bu və ya digər şəkildə tam təzələnməsi kimi çıxış edir. Belə ki, adamların öz istehsal fəaliyyətlərini yüksəltməyə subyektiv maraqları onların obyektiv iqtisadi maraqlarım əks etdirir, bu da mövcud sistemdə əmək haqqı əsasında qurulur. Bununla yanaşı mövcud subyektiv maddi maraq yalnız öz formasına görə subyektivdir, belə ki, subyektin daxili aləmi anı kimi, onun şüuru kimi təzahür edir. Məzmunca isə o obyektivdir, belə ki, o, obyektiv iqtisadi reallıqda mövcud olan nə varsa onu əks etdirir. Adamların müvafiq obyektiv, iqtisadi maraqlarının nə dərəcədə düzgün əks olunmasından asılı olaraq həqiqi və yalan şüurlu iqtisadi maraqdan da danışmaq lazımdır. Həqiqi maraq bu və ya digər dərəcədə onu əks etdirir, yəni ona müvafiqdir. Həqiqi marağı əldə əsas tutaraq subyekt öz iqtisadi maraqlarına müvafiq olanlara uyğun fəaliyyət göstərir. Subyektin yalan marağı onun obyektiv iqtisadi maraqlarına uyğun gəlmir, onu təhrif olunmuş şəkildə əks etdirir. Ondan çıxış edən subyekt öz həqiqi maraqlarının ziddiyyətinə fəaliyyət göstərir və çıxılmaz vəziyyətə düşür. Onun öz həqiqi iqtisadi marağını anlayana qədər hər şeyi yenidən başlamaq lazım gəlir. Onları dərk etmək- mövcud iqtisadi münasibətlərin inkişaf məzmununu və meylini başa düşmək və bu sistemdə öz yerini müəyyən etmək deməkdir. Bu vaxt hər hansı subyektin şüuru iqtisadi marağı həqiqi olacaqdır, belə ki, o, mövcud iqtisadi maraqları obyektiv və düzgün əks etdirəcəkdir.

**Müxtəlif ictimai qrupların, ayn-ayrı şəxslərin və dövlətin obyektiv iqtisadi maraqlarının dərk olunması** və onların nəzərə alınması adamların iqtisadi proseslərə

şüurlu, o cümlədən elmi təsirinin mərkəzi həlqəsidir. İqtisadi proseslər, əlbəttə deyilən maraqların dərk olunması və nəzərə alınması ilə bitmir. O, ietimai istehsalın inkişafındakı bütün obyektiv və subyektiv amillərin, onun inkişaf qanunlarının nəzərə alınması deməkdir və adamların marağı naminə istehsalın iqtisadi effektliyini yüksəltmək üçün bütün imkanlardan maksimum istifadəyə istiqamətlənmişdir. Çox güman ki, ayrı- ayrı adamların və ictimai qrupların maraqları eyni olmur və deyildiyi kimi onların iqtisadi münasibətlər sistemindəki yerləri ilə müəyyən olunur. Onlar çox vaxt bir-birinə zidd olur. Ona görə də müxtəlif siniflərin, digər ictimai qrupların, millət, istehsal kollektivlərinin, şəxsiyyət və cəmiyyətin maraqlarının uyğunlaşdırılması problemi mövcuddur. Müasir Azərbaycanın timsalında bu daha qabarıq özünü göstərir. Sahibkarların, fəhlələrin, kəndlilərin, ziyalıların müxtəlif qruplarının iqtisadi maraqları eyni deyildir və bu və ya digər səviyyədə bir- birinə ziddir. Cəmiyyətin sonrakı təbəqələşməsi onların maraqlarının, o cümlədən iqtisadi maraqlarının ziddiyyətliyini daha da kəskinləşdirir. Buna görə də mövcud ziddiyyətləri aradan qaldırmaq və müxtəlif subyektlərin maraqlarının harmonik uyğunlaşdırılması üçün şərait yaradılması daha çox aktuallaşır. Vaxtilə O. Kont təsdiq edirdi ki, siyasətçilərin müdrikliyi müxtəlif ictimai qrupların maraqlarını harmonik uyğunlaşdırmaq bacarı- ğmdadır, çünki cəmiyyətdəki sabitlik və onun inkişafı məhz bundan asılıdır. Bunu həm də adamların iqtisadi maraqlarına aid etmək olar, onun həyata keçirilməsi üçün gündəlik iş tələb olunur.

**İqtisadi proseslərə şüurlu təsir** səmərəliliyin təzahürüdür, yəni cəmiyyətin iqtisadi həyatında intellektual

başlanğıcdır. İndiki vaxtda elmi səmərəliliyin rolu artır, yəni iqtisadi proseslərə elmə söykənən ağıllı təsir güclənir. Ancaq bu o demək deyildir ki, psixoloji amillərin onlara təsiri inkar olunur.

**iqtisadi proseslərə səmərəli təsirdə** böyük rol dövlətə məxsusdur; onun imkanları hakimiyyətin nə dərəcədə güclü olması ilə bağlıdır. Söhbət dövlət tərəfindən cəmiyyətin iqtisadi həyatının hərtərəfli nizama salınmasından yox, ilk növbədə ictimai istehsalın uğurlu inkişafı üçün zəruri şəraitin yaradılması haqqında gedir. Bu şəraitə müasir elmi-texniki tərəqqinin nəticələrinin istehsalata tətbiq olunması iqtisadiyyatın sahələri arasında zəruri mütənasiblik yaradılmasını, o cümlədən onun strukturunun yenidən qurulması əsasında bu mütənasibliyin yaradılmasını, iqtisadiyyatın inkişafında qabaqcıl sahələrin ayrılmasını, effektli vergi siyasətini, iqtisadiyyatın fəaliyyət göstərməsində maliyyə mexanizminin təkmilləşdirilməsini və s. aid etmək olar. Dövlət bu şəraitin yaradılmasında böyük rol oynaya bilər, buna onun yeritdiyi uğurlu siyasət kömək edə bilər. İqtisadiyyatın inkişafının dövlət nizama salınması haqqında D.Keyncin təlimi bir sıra kapitalist ölkələrində, o cümlədən ABŞ-da uğurla tətbiq olunmuşdur. Müxtəlif ölkələrdə onun tərəfdarları xeyli çoxdur. Bu sahədə Azərbaycan hökuməti də özünü göstərməlidir.

**Dövlətin "Görünməz əli və uzaqgörən, iti gözünə"** də nəzər salmaq istərdim. İlk əvvəl **bazar münasibətlərinin** mahiyyətinə və ictimai mənasına diqqət yetirmək. **Bazar** - çox qəribə ictimai-iqtisadi fenomendir, məhz onun hesabına cəmiyyətin bütün ictimai-iqtisadi qaydaları dayanır və tarixi tərəqqi baş verir. Bazarın tarixi çox qədim dövrlərə gedir, o vaxtlar insanlar alqı-satqı

münasibətlərinə sadə mal mübadilələri yolu ilə daxil olurdu, onlar həyat üçün zəruri olanları bu yolla əldə edirdilər. Bazar tarixən obyektiv iqtisadi və ictimai reallıq kimi formalaşmış, cəmiyyətlə bərabər inkişaf edir və sivilləşir. Bu təbiidir, əsasən mövcud tələbatların və onların ödənilməsinin aşkar edilməsinin özünü tənzimləyən mexanizmidir, istehsalçı və istehlakçı arasındakı münasibətin yeganə, ağıllı formasıdır, bəşər tarixinin praktikası ilə işıqlandırılan formasıdır. Bazar güclü tənzimləyicidir; bu cəmiyyət həyatının bütün sahələrini, hətta şəxslərarası münasibətləri də öz ağuşuna alan su bumIğanıdır. Bazar, ilk növbədə, tələbat və təklifin münasibətini tənzimləyir və onu nizama salır, bu və ya digər müəssisənin, idarənin, firmanın, kollektivlərin və hətta ayrıca adamın dözümlüyünü, yaşamaq qabiliyyətini aşkar edir, onların fəaliyyətinin jdiksək surətini saxlayır və rəqabətlərini gücləndirir. **Bazar təsərrüfatı** iqtisadi əsaslarla hərəkətə gətirilir. Gəlir deyərkən, maliyyə- iqtisadi təfsilata varmadan, satılan maldan gələn gəlir və mala sərf olunan əməyin arasındakı pul fərqidir. Satan hər vəcdlə baha satmağa, alan isə ucuz almağa çalışır. Bazar iqtisadi maraqların rəhbərlik etdiyi sövdələşmə sahəsidir. Həqiqi müdrik və təcmbəli sahibkar gəlirin yalançı əlamətlərinə aldanmır. Təbii ki, mal istehsalçısı və alıcısı o mənada və ya o münasibətdə həmişə razılaşırlar ki, onlardan biri satmaq, digəri isə almaq istəyir, düzdür həmişə eyni qiymətdə satmaq və almaqda razılaşmırlar. Ancaq həmişə də elə qiymət olur ki, onlar razılaşır və alqı- satqı əməliyyatı baş tutur. İnsan aldığı şeyi istifadə edir, bilir ki, yenə və yenə də alacaq. Satan isə bilir ki, o yenə və yenə də satacaqdır. Bazar hömmçəyinin toru beləcə uzanır. İstehsalçının arzularında antaqonist ziddiyyət

yoxdur, hələlik hamısının alıcısı, satmaq yeri, hələlik mala tələbat var. Ancaq istehsalın həcmi artdıqca, hər bir istehsalçı daha çox mal istehsal etməklə bütün bazan ələ keçirməyə çalışır. Bu vaxt istehsalçıların arzularında ziddiyyət yaranır və onlar arasında mübarizə labüdləşir. Bazar qəddar və qərəzsizdir: onda utanan üz və vicdan yoxdur. O, yalnız təklif və tələbə tabedir. Tələbat nə qədər çoxdursa qiymətlər bir o qədər yüksəkdir və əksinə: onun lal imperativ! elə budur. İstehlakçıya gəldikdə isə, hər hansı malın alıcıları nə qədər az olarsa onun qiyməti bir o qədər aşağı olur. İstehlakçı bazar vasitəsi ilə istehsalçıya təsir edir və ya əksinə, bu və ya digər müəssisə, firma yaratdığı təşkilatlar vasitəsi ilə istehlakçılara təsir göstərir, tutaq ki, reklam vasitəsi ilə bazara güclü təsir edə bilir, yeni mal çıxarmaqla istehlakçının psixikasına təsir göstərir, onun zövqünü və tələbatını dəyişə bilir. Bazar mal mübadiləsi münasibətlərinin məcmusudur, satıcı və alıcının qarşılıqlı fəaliyyətinin ictimai-iqtisadi mexanizmidir, həm ölkə daxilində, həm də ölkə xaricində mübadilə sahəsidir.

Bu gün ictimai həyatda aparıcı rolunu, insanlara hakim kəsilməsini nəzərə alaraq **pulun mahiyyətini də** təhlil etmək yerinə düşərdi. Qədim zamanlarda insanlar mübadilə əməliyyatına başlayanda şeylərin qiyməti üzərində baş sındırmırdılar. Onlar sadəcə olaraq mah dəyişdirir, artıq olan, onlara lazıma olmayanı mübadilə edirdilər. Zaman keçdikcə mübadilə nizamlı xarakter kəsb etdi. Mübadilə vaxtı nəyinsə vasitəçi olmasına - ekvivalentliyə - ehtiyac yarandı, yəni satılan və alman malların dəyərinin ölçüsü olan nəyəsə ehtiyac qarşıya çıxdı. Müxtəlif xalqlarda bu ölçü vahidi müxtəlif oldu. A.Smitə görə pul artıq əmək ölçüsü oldu və insanlar onun

vasitəsi ilə qarşılıqlı mübadiləyə getdilər. Pul - ticarətin ümumi qəbul olunmuş vasitəsidir. Pulu xüsusi nişan kimi müəyyən etmək olar, dövlət bu nişanı hüquqi norma formasında vurur və bu nişana qanuni hakimiyyət verir, mal mübadiləsində hamı tərəfindən qəbul olunan vasitəyə çevirir. Pul nişan olduğundan, malın dəyərini ifadə etdiyindən onun möhkəm olması vacibdir, dövriyyədə olarkən sıradan çıxmamaq üçün o keyfiyyətli olmalı, çoxlu xırda hissələrə bölünməlidir. Onun hazırlanmasında bahalı materiallardan (qızıl, gümüş) istifadə olunur. Pul malın dəyər nişanı olduğundan kağız da pulun dəyər nişanı kimi çıxış edir. Əgər bu nişan keyfıyyətlidirsə onu tam əvəz edə bilər. Əlbəttə real və şərti-ideal, nişan xırda pulları, qəpikləri var. Hər bir qəpiyin dövlətin müəyyən etdiyi dəyəri var: pul malın nişanının məğzidir. Pulun yalnız dolayısı, bilavasitə dəyəri var: axı onun özündən istifadə etmək və nəyə görəsə ondan istifadə etmək olmaz. Bununla yanaşı pul bütün şeylər arasında ən çox işlənəndir. Puldan istifadə alqı-satqı vaxtı həyata keçirilir. Pula tələbatın məğzi ondadır ki, o mübadilə vasitəsidir. Nəticədə pul adamların əməyinin nəticələrinin qarşılıqlı mübadiləsinin ən ümumi vasitəsinin məğzidir. İqtisadçıların fikrincə, pul xüsusi növ maldır, dəyər ölçüsü funksiyası yerinə yetirir, dövriyyə vasitəsidir, xəzinə yaratmaq, toplamaq, ödəmək vasitəsidir. Hegel yazırdı ki, mənim ona görə pulum var ki, mən bunu istəyirəm və bu istəyimi özümdən kənarlaşdıra da bilərəm. Əlbəttə heç kəsə zorla pul vermək olmaz, bunun üçün pulu həmin adamın istəməsi vacibdir. Pul özlÜ5dində heç nədir, qorxulu gücə malikdir: o, özündə yalnız iqtisadi deyil, həm də dərin əxlaqi - psixoloji, mifık-sehrli gücü birləşdirir: bəzən pul adamı dəyişdirir, cəmiyyətdə yanlış

olaraq insana puluna görə qiymət verirlər. Pul, Marksa görə, sadiqliyi satqınlığa, məhəbbəti nifrətə, nifrəti məhəbbətə, xeyirxahlığı qüsura, qulu ağaya, ağanı qula, dəlini ağıllıya, müdriki divanəyə və s. çevirə bilir. Cəmiyyətdə pula olan münasibətləri və pulun bu gün yersiz olaraq ictimai həyatda hökmranlıq etməsinə münasibət bildirmək üçün əlavə məşğələ dərsi təyin etmək yaxşı olardı.

**Qiymət haqqında** da qısa məlumat vermək vacibdir. A.Smitə görə, dəyərin iki mənası var: bəzən o hər hansı predmetin faydahlığmı bildirir, bəzən isə başqa nemətlərlə müqayisədə öz alıcılıq gücünü göstərir və bu da onun göstəricisidir. Birincini istehlak dəyəri, ikincini isə mübadilə vahidi adlandırmaq olar. Böyük istehlak dəyəri olan şeylərin çox vaxt mübadilə dəyəri az və ya heç olmur, az istehlak dəyəri olur və ya çox ucuzdur. Məsələn, su və hava çox faydalıdır, onsuz həyat mümkün deyildir, ancaq adi şəraitdə onların əvəzinə heç nə almaq olmaz. Qızıl isə o qədər faydalı olmasa da o bir çox həyat üçün zəruri olan nemətlərə dəyişdirilə bilər. Smit belə hesab edirdi ki, sadə mal istehsalında dəyərin yeganə yaradıcısı əməkdir: məhz o malın qiymət ölçüsünü müəyyən edir. Lakin mal-pul münasibətinin inkişafı ilə dəyərin yaradılması prosesi mürəkkəbləşir: qiymətin təşkilinə digər amillər də daxil olur. Fransız iqtisadçısı J.Seyanm ideyasına görə, dəyər üç amilin: əmək, torpaq və kapitalın birləşməsi və qarşılıqlı fəaliyyəti nəticəsində yaranır. Müasir iqtisadçılar digər əsaslı amilləri də - sahibkar istedadı və elmin nailiyyətlərini də qeyd edirlər. Hələ vaxtilə İ.Kant pulun, qiymət və dəyərin təbiətini təhlil edərkən bacarıq deyilən amilə diqqət yetirmiş, bunu əməyə, sahibkarlıq fərasətinə və intellektə aid etmişdir.

Bütövlükdə Kant dəyərin əmək nəzəriyyəsinə tərəfdar olmuşdur və belə hesab edirdi ki, müxtəlif keyfiyyətli əmək fərqli dəyərləndirilməlidir. Marksa görə, mal istehsal etmək üçün lazımı qədər əmək sərf etmək lazımdır və söhbət, sadəcə olaraq, əməkdən yox, ictimai əməkdən gedir. Öz şəxsi tələbatı üçün predmet istehsal edən insan bunu ona görə edir ki, ondan istifadə etsin.

**Kapitalın mahiyyəti** ilə bağlı bəzi mülahizələrimizi də tələbələrin nəzərinə çatdmnaq vacibdir. Kapitalı təsərrüfat ehtiyatı kimi, cəmiyyətin zənginliyi kimi müəyyən etmək olar. Xalqın əlində olan pul yığımı onun var-dövləti - maliyyə kapitalıdır. Kapital nə qədər çox olarsa müəssisəni genişləndirmək imkanı bir o qədər çox olur və bir o qədər az gəlirlə sahibkar kifayətlənir, bu da kapitalın çoxalmasına xidmət edir. Böyük kapitalın subyekti qumar oyununda olduğu kimi həmişə risk edir. Axı böyük risk olmadan böyük uğura da yol yoxdur.

**İqtisadiyyatın idarə olunmasında dövlət siyasəti** cəmiyyətin iqtisadi həyatında vacib rol oynadığından bu məsələyə də mühazirədə vaxt ayırmaq məqsədəuyğundur. Cəmiyyətin təsərrüfat həyatı çox mürəkkəbdir, ona görə də dövlət bu sahədə bütün işləri "özbaşına" buraxa bilməz. Bir çoxları dövlətin iqtisadiyyatın işlərinə qarışmasının əleyhinədir, onların fikrincə bazar mexanizmi özünü tənzimləyə bilir, təklif və tələb arasında yaranan pozğunluğu nizama salır. Bu ideyanı A.Smitdən sonra
M.Fridman müdafiə etmişdir. Monetarizm (pul haqqında elm) prinsipinin tərəfdarı olan Fridmana görə, pul-kredit alətlərinin köməyi ilə iqtisadiyyatı tənzimləmək mümkündür. İngilis iqtisadçısı C.Keyns və onun ardıcılları isə iqtisadiyyata dövlət müdaxiləsini müdafiə etmişlər. Bu gün hansı səviyyədə iqtisadçı olmasından asılı olmayaraq.

xüsusi mülkiyyətin və azad sahibkarlığın tərəfdarı kimi çıxış etməsindən asılı olmayaraq hər kəs başa düşür ki, dövlət iqtisadiyyatın nizama salınmasında bir sıra mühüm funksiyalar yerinə yetirir. İqtisadiyyatın dövlət tənzimlənməsinin yalnız bazarın fəaliyyət göstərməsini yaxşılaşdırmaq deyil, həm də əhalinin maraqlarını müdafiə etmək məqsədi var. Dövlət nizama salmasının ən yüksək səviyyəsi strateji cəhətdən düşünülmüş iqtisadi proqram- laşdırmadır.

**Dövlətin iqtisadi siyasəti ilə** bağlı mübahisələr lap çoxdan mövcuddur və bu gün də davam edir. İnkişaf etmiş bazar iqtisadiyyatı olan dövlətlər də bu mübahisədən qurtara bilməmişlər. Burada bütün gəlirin dörddə biri, bəzən isə daha çoxu ictimai ehtiyaclar üçün xərclənmişdir. Dövlət bazarı nizama salır, bazar mexanizminin yaxşı işləməsinə nəzarət edir. O, qanunların yerinə yetirilməsinin təminatçısıdır, pul-kredit sistemini idarə edir, bir sözlə, bütün bazar əməliyyatını qurur. Dövlət bazar rəqabətində qanunvericiliyə riayət olunmasını təmin edir, biznesdə dələduzluğa, rüşvətxorluğa yol verilməməsə üçün əlində olan təsir gücündən istifadə edir, inhisarçıbğın qarşısını almağa cəhd göstərir. Nəzərə alsaq ki, son vaxtlar Azərbaycanda inhisarçıbqla bağlı söhbətlər səngimək bilmir, bu məsələnin fəlsəfi-iqtisadi təhlilinə mühazirədə yer vermək olduqca vacibdir. Dövlət bazar sistemindəki “çatışmamazbqları” aradan qaldırmağa çalışır.

Beləliklə, dövlətin iqtisadiyyatın işlərinə qarışmasının əleyhinə çıxanlar çox yanılırlar. İndiki çətin dövrdə, keçid dövrü kimi təqdim olunan bu günümüzdə iqtisadiyyata dövlət nəzarəti olduqca vacibdir. Dövlət iqtisadi siyasəti müəssisələrin dağılmasının qarşısını alınalı, kredit-maliyyə sistemini nəzarətdə saxlamalı, pul

kütləsinin miqdarını və dövriyyəsini tənzimləməli, vergi siyasətini düzgün qumralıdır. İndiki dövrdə dövlət tənzimlənməsi idarəetmənin bir hissəsi kimi çıxış etməli, ancaq bazar mexanizmini əvəz etməməlidir. Dövlət fəhlə və sahibkarlar arasındakı münasibətlərə, xarici iş adamlarının yanında çalışan yerli işçilərin hüquqlarının qorunmasına nəzarət etməyi öz iqtisadi siyasətinin əsası kimi qəbul etməlidir.

**Cəmiyyətin iqtisadi həyatı iqtisadi islahatların təzahürünü istisna etmir.** Bu islahatlar iqtisadiyyatın struktur yenidən qurulmasında, istehsal üsulu üzərində mülkiyyət münasibətləri sahəsində, pul və maliyyə sahələrində və s. aparıla bilər. İqtisadi islahatlar şəraitində yaradıcı şüurun rolu böyükdür. Bununla belə iqtisadiyyatın inkişafında yaxın gələcəkdəki perspektivləri dərk etmək, cəmiyyətin müxtəlif qruplarının yaxın və uzun dövr ərzində maraqlarını başa düşmək, sahibkarlıq işinin yaxın və uzaq taleyini anlamaq lazımdır. Həm mühafizəkarlıq, yəni köhnəlmiş iqtisadi münasibətləri saxlamağa cəhd etmək, həm də radikallıq, yəni yeni yaratmaq üçün bütün köhnəni ləğv etməyə cəhd göstərmək eyni dərəcədə ziyanlı ola bilər. Cəmiyyətin inkişafının obyektiv və subyektiv şəraitini nəzərə almaq olduqca vacibdir, onları dərindən təhlil etməklə köhnəlmiş! aradan qaldırmaq, istehsalı yenidən təşkil etmək, cəmiyyətin iqtisadi həyatını əhalinin əksər hissəsinin, bütövlükdə cəmiyyətin marağı naminə yenidən təşkil etmək olduqca vacibdir.

Bu sualın axırında **iqtisadiyyatın əxlaqi-psixoloji təməli ilə** bağlı bəzi mülahizələrimizi qeyd etməyi vacib hesab edirik. XX əsrdə kapitalizmin güclü inkişafı ilə təsəiTÜfat həyatında adamların davranış və psixolo

giyalarına maraq xeyli artmışdır. Psixoloji elmlər çərçivəsində xüsusi sahə - iqtisadi psixologiya yarandı. İqtisadiyyat - öz miqyasına və həyati əhəmiyyətinə görə insan fəaliyyətinin ən böyük sahələrindəndir. İnsanların fəaliyyət göstərdiyi və qarşılıqlı fəaliyyətdə olduqları yerdə əxlaqi və psixoloji başlanğıcsız keçinmək mümkün deyildir. Xeyir və şər, vicdan və namus, azadlıq və məsuliyyət və başqa etik kateqoriyalar iqtisadi münasibətlər sahəsinə daxil olur və həkim etikası olduğu kimi iqtisadi etika da mövcud olur: maddi və mənəvi nemətlərin istehsalı, bazarın kortəbiiliyi, vergi yığımı, əmək haqqının ödənilməsi - bütün bunlarda əxlaqi və psixoloji başlanğıclar özünü göstərir.

**iqtisadi psixologiya** ölkədəki iqtisadi reallığı təhlil edir, insanların müxtəlif mülkiyyət formalarına - xüsusi, dövlət, kooperativ, şəxsi -- münasibəti öyrənir, eyni zamanda insanın təlabatmm psixoloji problemlərini, onların keyfiyyət və kəmiyyət xarakterini, onların yaranması, inkişafı, təmin olunması və təkrar istehsalın qanunauyğunluğunu araşdırır, təsəiTÜfat mexanizminin effektiv fəaliyyət göstərməsinin psixoloji şəraitini araşdırır, yalnız geniş miqyaslı iqtisadi vəziyyəti deyil, həm də ayrı-ayrı fərdlərin fəaliyyətinin dar çərçivəsini araşdırır. İstehsalçı və istehlakçı, satıcı və alıcı arasındakı münasibətlərin iqtisadi psixologiyası diqqəti daha çox cəlb edir. İstənilən insan fəaliyyətinin nəticəsi qeyri-müəyyən olur və risklə bağlıdır. İtirmək və ya tam iflasa uğramaq riski subyektin əxlaqi və psixoloji durumuna təsir edir. Təcrübəli iqtisadçı müəyyən məqsədlərini həyata keçirərkən özünü doğruldan və doğrultmayan riskləri ayırır. Əlbəttə iqtisadi fəaliyyətin subyektləri iki imkan arasında - daha az cəlbedici, ancaq inamlı imkan, ya da az

ümidli və daha çox cəlbedici imkan - seçim edə bilər. Eyni zamanda partnyorun əxlaqi və psixoloji siması da vacibdir - yəni onun etibarlılığı və ya məsuliyyətli olması mühüm rol oynayır. Partnyorlar qarşılıqlı şəkildə etibar nümayiş etdimıəlidirlər. İqtisadi həyat təcrübəsi iqtisadi həyatda psixoloji xidmətin əhəmiyyətini doğrultmuşdur.

**iqtisadiyyat və əxlaq məsələsinə** də toxunmaq yerinə düşərdi. Cəmiyyət öz təsən'üfat həyatında əxlaqi dəyərlərə söykənməklə uğur qazana bilər. Şəxsi mənafe hərisliyi bütün xalqlara, cəmiyyətin bütün təbəqələrinə xasdır, bir növ hamı üçün "satqınlıq" xarakteridir. Vəziyyət gərgin olanda isə iqtisadi sahədə qarışıqlıq, adamların düzgün əməldən üz döndərməsi özünü daha çox göstərir. İnsanın işgüzar uğuru yalnız intellekt sahəsində deyil, həm də əxlaqi mədəniyyət sahəsində imtahandır.

Beləliklə, cəmiyyətin iqtisadi həyatının qısa şərhini verdik. Əsas iqtisadi məsələlərin fəlsəfi baxımdan təhlili cəmiyyətin təbiətini, adamların real həyat prinsiplərini və onların münasibətlərinin xarakterini, köklü tələbat və maraqlarını dərindən dərk etməyə imkan verir. Burada qısa şəkildə olsa da siyasi iqtisadın əsas kateqoriyalarını nəzərdən keçirdik. Bir daha təkrar edim ki, iqtisadiyyatın normal fəaliyyət göstənnəsi üçün "dövlətin iti gözünün" böyük əhəmiyyəti var, məhz dövlət iqtisadiyyatı tənzimləyir, bazar həyatını nəzarətdə saxlayır, istehsalın artımına yardım göstərir, xalqın maddi həyat şəraitini yaxşılaşdırır. İqtisadi münasibətlərdə əxlaqi-psixoloji amillərin daha da təkmilləşməsi istisna əhəmiyyət daşıyır.

Fikrimizi optimist ruhda yekunlaşdırmaq istərdik. Cəmiyyətin iqtisadi həyatının fəlsəfəsi hələ də öz ətraflı təhlilinə ehtiyac duyur.

## Təkrar üçün suallar

1. "Cəmiyyətin iqtisadi həyatı" anlayışının məzmunu
2. Cəmiyyətin iqtisadi həyatının əsas komponentləri
3. İqtisadi münasibətlər və iqtisadi maraqların qarşılıqlı fəaliyyətinin xarakteri
4. İctimai qrupların və ayrı-ayrı adamların və obyektiv iqtisadi maraqlarını dərk etmələri nə deməkdir?
5. İqtisadi şüurun mahiyyəti və sturuktur
6. İqtisadi şüurun cəmiyyətin iqtisadi həyatında yeri və rolu
7. Müasir Azərbaycanda iqtisadi həyatın inkişafındakı ziddiyyətləri nə ilə bağlıdır.

## Ədəbiyyatlar


1. Булгаков С.Н. Философия хозлйства. М. 1990
2. Хрестоматия по экономический теории. М. 1997
3. Сколимовски Х. Философия техники как философия человека. / Новая технократическая волна на Западе. М. 1986
4. Винер Н. Творец и работ М. 1966
5. Ильин И.А. Путь к очевидности М. 1993
6. Философия в "Энциклопедия" Дидро и Д'Аламбера М. 1994
7. Чьюнинг К. Эби Дж. У. Роэлс Ш. Дж. Бизнес Сквозь призму веры М. 1962
8. Смит А. Иселедование о природе и р причинах богатства кародов. М. 1962
9. Брейл Р. Майерс С. Бринципы корпоративных
4. финансовМ. 1977
11. Самуельсон П. Экономика М. 1977

Малахов С.В. Основы экономической психологии М.1992

# IV FƏSIL

## Cəmiyyətin siyasi həyatı

Cəmiyyətin siyasi həyatı bir sıra elmlər, o cümlədən politologiya, siyasi sosiologiya, siyasi psixologiya, eyni zamanda fəlsəfə tərəfindən öyrənilir. Fəlsəfə bütün siyasi hadisələrin, onların qarşılıqlı fəaliyyətinin mahiyyətini dərk etməyə cəhd edir. Bu fəlsəfənin siyasətin fəlsəfəsi adlanan sahəsinin tədqiqat predmetidir.

Siyasətin fəlsəfəsini siyasət və hakimiyyətin səbəb-nəticə münasibəti, onların ictimai mənası, siyasətin maddi və ideal fomalarda təcəssüm etməsi, dövlətin problemləri, mülki cəmiyyət, siyasi şüur, onun əxlaq, din, incəsənət və s. ilə əlaqəsi maraqlandırır.

«Hakimiyyət», «siyasət» kateqoriyalarının fəlsəfənin «azadlıq», «ədalət», «bərabərlik», o cümlədən milli, sinfi, ümumbəşəri kimi əsaslı kateqoriyaları ilə qarşılıqlı münasibətinin aydınlaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Bu məsələlər bu və ya başqa formada hələ antik fəlsəfədə, ilk növbədə isə Platon və Aristotelin əsərlərində təhlil olunmuşdur.

İntibah və yeni dövrdə ictimai-fəlsəfi nəzəriyyələrin çiçəklənməsi N.Makiavellinin əsərlərində siyasi, ilk növbədə dövlət hakimiyyətinin mahiyyətinin əsaslanması ilə, eyni zamanda T.Hobbsun, C.Lokkun və B.Spinozanın təbii hüquq nəzəriyyəsi, C.Lokkun və Ş.Monteskyenin hakimiyyət, vətəndaş cəmiyyəti və hüquqi dövlətin bölünməsi probleminin tədqiqi ilə bağlı idi. Siyasi ideologiyanın əsas istiqamətləri - liberalizm (C.Lokk, Ş.Monteskye),

mühafizəkarlıq (E.Byerk) və totalitarizm (JJ.Russo) - meydana gəldi.

Klassik alman fəlsəfəsi hüquq və dövlətin etik əsaslarının (İ.Kant), hüquq fəlsəfəsinin (Hegel) tədqiqində xeyli irəliləyişə müvəffəq olmuşdur. Siyasət və iqtisadiyyatın qarşılıqlı fəaliyyəti, tarixdə zorakılığın rolu, əxlaq və siyasətin qarşılıqlı münasibəti, dövlətin mənşəyi və funksiyaları, onun ölüb getməsinin şərtləri haqqında marksist təlimi çox mühüm maraq doğurur.

Eyni zamanda anarxizmin siyasi ideyaları (M.Bakunin, P.Ki'opotkin) və XX əsrin geosiyasi konsepsiyaları (K.Haushofer, H.Makkinder və b.) da mühüm əhəmiyyət kəsb edir.

Cəmiyyətin siyasi həyat ilə bağlı Şərq fəlsəfəsində, o eümlədən Azərbaycan fəlsəfi fikir tarixindəki maraqlı məqamlar da xatırlamaq məqsədəuyğundur. Hələ qədim dövrdə Zərdüştün ideyalarının əsasında güclü hakimiyyət məsələsi xüsusi yer tuturdu. Bərabərlik ideyası uğrunda vuruşan Məzdəkin dövlət idarəçiliyi ilə bağlı maraqlı fikirləri olmuşdur. İslamın qəbul olunması ilə bütün sahələrdə olduğu kimi dövlət hakimiyyəti, vətəndaş cəmiyyəti və hüquqi dövlət ideyaları sahəsində də xeyli irəliləyiş əldə edilmişdir.

Orta əsrlər Azərbaycan filosoflarının, xüsusilə də N. Tusinin dövlət nəzəriyyəsi ilə bağlı fikirlərini müasir dövıiin tələbləri kontekstində təhlil edilməsi hamı üçün daha maraqlı olardı.

SSRİ adlanan nəhəng bir dövlətin dağılmasından sonra yaranan müstəqil respublikalarda olduğu kimi Azərbaycanda da cəmiyyətin siyasiləşməsi prosesi genişləndi. Keçid dövrünün yaratdığı çətinliklər hamını

siyasətlə bu və ya digər dərəcədə maraqlanmağa, gedən siyasi prosesləri təhlil etməyə vadar etdi.

İqtisadiyyata «bazis», siyasi quruluşa və cəmiyyətin mənəvi həyatına isə iqtisadiyyat üzərində «üstqumm» kimi baxmağı məqsədəuyğun hesab etməyərək belə hesab edirik ki, iqtisadiyyat-siyasət cütlüyündə ilk növbədə iqtisadiyyatı, sonra isə onun ardınca ictimai həyatın siyasi sistemini nəzərdən keçirmək lazımdır. Cəmiyyət həyatının hu sahələri ayrılmazdır və vəhdət təşkil edir. Bu məsələyə tarixi baxımdan nəzər salsaq, demək olar ki, hələ ibtidai- icma quruluşunda iqtisadi həyat mövcud olmuşdur; əmək, əmək məhsullarının mübadiləsi və s.; - siyasət isə sözün əsil mənasında hələ yox idi. Tayfa başçılarının «seçilməsinin» «siyasi» həllinə dair bir nümunəni qeyd edək. Tayfanın yaşlı üzvləri başçını belə bir meyarla seçirdilər: namizəd böyük bir ağacın başında budaqdan tutur, qalanları isə ağacı var-gücləri ilə silkələyirlər. Əgər o yıxılmırdısa onda «seçilir» və başçı olurdu. Məgər bu cür «seçimi» tayfanın siyasi həyatının mühüm cəhəti kimi qəbul etmək olarmı? Əlbəttə, bu hələ siyasət deyildir.

## §1. Cəmiyyətin siyasi həyatını şərtləndirən amillər

Siyasətin ən mühüm və daha qədimi problemi - **hakimiyyət problemidir.** Siyasət və hakimiyyətin qarşılıqlı münasibəti dialektik xarakter daşıyır. Hakimiyyət, bir tərəfdən, siyasətin həyata keçirilməsi vasitəsi kimi çıxış edir, digər tərəfdən isə, onun ilkin əsasıdır. Maks Veber düzgün olaraq göstərmişdir ki, siyasət istər dövlətlər arasında, istərsə də dövlətin daxilindəki ayrı-ayrı adamların hakimiyyətdə iştirak etmək və ya hakimiyyət bölgüsünə təsir etmək cəhdidir. Ağalıq və tabelik müna

sibətinin qurulması, yəni adamlar arasında asılılıq münasibətinin yaranmasının özü elə hakimiyyətdir. Nəticədə hakimiyyət insanı iradəsinin əksinə olaraq fəaliyyətə məcbur edir.

**Hakimiyyət məsələsinin** aktuallığını, hamının bu məsələyə marağını nəzərə alaraq mühazirədə bu məsələyə xüsusi yer ayırmaq məqsədəuyğundur.

İ. Kanta görə, istibdada yol verməmək üçün hakimiyyətin ciddi bölgüsü lazımdır. Hər bir ağıllı qurulmuş dövlətdə hakimiyyətin üç qanadı: qanunlar qəbul edən qanunverici, qəbul olunmuş qanunlar əsasında idarəçiliyi həyata keçirən icraedici, qanunlara riayət olunmasına nəzarət edən və ədaləti həyata keçirən məhkəmə - fəaliyyət göstərir. Hakimiyyətin bir qanadının digərindən kifayət qədər müstəqilliyi təmin olunmayan dövlətdə istibdad yaradır. Qanunverici hökumət ola bilməz, çünki birinci qanun verir, ikinci isə ona tabe olur. Nə qanunverici, nə də icraedici məhkəmə ola bilməz: onlar yalnız hakimləri təyin edirlər.

Siyasi təlimlər tarixində hakimiyyət bölgüsü haqqında çoxlu ideyalar yaranmışdır. Lakin bu məsələ ilə bağlı klassik nəzəriyyə Ş.Monteskyenin nəzəriyyəsi hesab olunur. Hakimiyyət bölgüsü ilə bağlı məlumat verərkən bir cəhət də vurğulanmalıdır ki, hakimiyyətin bu qanadları arasında nə qədər harmoniya olsa da burada ziddiyyət və mübarizə də özünü göstärir. Əgər qanunverici və icraedici orqanlar bir əldə və ya idarədə cəmləşdirilsə onda azadlıq mümkün deyildir.

**Qanunvericilərin fəaliyyətinin** başlıca məqsədi öz xalqının nonnal, sakit və imkan daxilində ədalətli həyat şəraitini təmin etməkdir. Əgər qanunverici hakimiyyət

dövlətin ümumi irdəsinin ifadəsidirsə, icraedici hakimiyyət - bu iradəni həyata keçirən mexanizmdir.

Azad dövlətdə **qanunverici orqan** verdiyi qanunlara necə əməl olunmasını izləyir. İcraedici orqan isə öz fəaliyyətinə görə onun qarşısında hesabat verməlidir.

**Məhkəmə hakimiyyəti** heç bir partiya ilə əlaqələndirilməməlidir, o xalq üçün görünməz olmalıdır. Siserona görə, hakim - danışan qanun, qanun isə - lal hakimdir.

Hakimiyyətin bu üç qanadı arasında ideal bir harmoniya olmalıdır: tarixi təcrübə göstərir ki, hakimiyyətin bu qanadları arasında bölgü prinsipini düzgün həyata keçirmək çox çətindir. Bəzən bu və ya digər tərəf üstünlük əldə etməyə çalışır və nəticədə ziddiyyət yaranır. Bu isə ən çox keçid dövrlərində müşahidə olunan haldır. Hakimiyyətin bu üç qanadının harmonik əməkdaşlığı - dövlətin möhkəmliyinin təminatıdır.

Hakimiyyət, o cümlədən siyasi hakimiyyət bir sıra xüsusiyyətlərə malikdir: 1) o hakimiyyətin subyekti və obyektinin varlığını nəzərdə tutur; 2) hakimiyyət o mənada ümumiliyə malikdir ki, ayrı-ayrı adamların, qmplarm və ictimai institutların fəaliyətlərinin bütün növlərində iştirak edir.

Hakimiyyətin ictimai ilkin şərtlərini və ya mənbəyini əmək bölgüsü, mülki}^ət münasibətləri və s. ilə şərtlənən adamlar arasındakı qrup, təbəqə və sinfi fərqləri hesab etmək olar.

Hakimiyyət funksional olaraq tərəflərin fəaliyyətindəki müəyyən qayda və razılaşmalar vasitəsilə təzahür edir, bu da onların ümumi maddi marağı, mənəvi yaxınlığı və ya təqlid etmələri, vərdişləri və s. ilə şərtlənir. İstənilən hakimiyyət yalnız könüllü və ya məcburi razılaşma, itaət etməyə hazır olmaq ilə mümkündür. Dediklərimizə sübut

kimi İranda olmuş islam inqilabını qeyd edə bilərik: əgər bütün xalq küçəyə çıxıb hakimiyyətin göstərişlərini yerinə yetirməkdən imtina edərsə bu vaxt istənilən siyasi rejim ölümə məhkumdur.

Siyasi hakimiyyət cəmiyyətin siyasi həyatının mühüm ünsürüdür. Cəmiyyətin siyasi həyatı müxtəlif ictimai qüvvələrin siyasi fəaliyyətindən təşəkkül tapır. Bununla yanaşı onların hər biri öz siyasi maraqlarını həyata keçimıəyə çalışır.

**Cəmiyyətin siyasi sahəsi** - müxtəlif siyasi və ictimai institutlardan istifadə edərək bir-biri ilə müəyyən münasibətlərə girən ictimai subyektlərin (siniflər, ictimai qruplar, partiyalar) ictimai tarixi praktikalarının bilavasitə həyata keçdiyi sahədir. Cəmiyyətin siyasi sistemi strukturu dövləti, siyasi partiyaları, ictimai təşkilatları, müxtəlif ittifaqları və s. özündə birləşdirir.

**Siyasi sitcmin** əsas funksiyasına hakim sinfin məqsəd və maraqlarına nail olmaq üçün cəmiyyətin bütün qüvvə və vasitələrini səfərbər etmək daxildir.

Bunula belə «cəmiyyətin siyasi sistemi» və «siyasi hakimiyyət sistemini» fərqləndirmək zəruridir. Əgər siyasi sistem həmin cəmiyətdə mövcud olan hütün institutları, təşkilatları və müəssisələri özündə birləşdirir və sinfi maraqları həyata keçimıəyə kömək edirsə də, müəyyən sinfin siyasi hakimiyyət sisteminə yalnız cəmiyətin müəyyən hissəsinin öz siyasi hakimiyyətini həyata keçirmək üçün istifadə etdiyi təşkilatları və müəssisələri daxildir. Belə bir qənaətə gəlmək olar ki, cəmiyyətin siyasi sistemi deyərkən ictimai qruplar, siniflər, millətlər, dövlətlər arasında siyasi qarşılıqlı münasibətləri nizama salan bütün dövlət-hüquqi, siyasi və ictimai institutları, təşkilat və müəssisələri nəzərdə tutulur.

Siyasət - dövlətin köməyi ilə həyata keçirilən ağalıq və tabelik münasibətlərinin qurulması əsasında ictimai həyatın müxtəlif sahələrinin nizama salınması (tənzimlənməsi) və idarə olunmasıdır. Siyasət xüsusi fəaliyyət sahəsi olub dövlətin idarə olunması incəsənətidir.

**Siyasət sözün** geniş mənasında ictimai subyektin digər subyekt və ya obyektlərə münasibətdə şüurlu həyata keçirilən davranış xəttidir. İctimai subyekt deyərkən ictimai qrupları, sinifləri, millətləri, partiyaları və digər ictimai təşkilatları və nəhayət bu siyahıda ən əsas sayılan dövləti başa düşmək lazımdır. Subyektin davranış istiqamətləri geniş diapazonda dəyişir. Buna görə də siyasətin müxtəlif növləri mövcuddur: iqtisadi, maliyyə, ictimai, mədəniyyət, təhsil sahəsində siyasət, demoqrafik siyasət, gənclər, milli, beynəlxalq siyasət və s. Siyasət yalnız digər ictimai subyektlərə deyil, həm də obyektlərə ünvanlana bilər. Məsələn, ekoloji siyasət - ətraf mühitə münasibətdə dövlətin, son nəticədə həm də dünya dövlətlərinin düşünülmüş yeridilən davranış xəttidir.

Siyasətin bu çoxsaylı növlərindən əsas yeri «siyasi siyasət» və ya sözün əsil mənasında siyasət tutur. Bu siniflərin, ictimai qrupların, partiyaların dövlət hakimiyyətinə nail olmağa və ya onu saxlamağa istiqamətlənən davranış xəttidir. Siyasətin bütün qalan növləri dövlət hakimiyyəti vasitəsi ilə həyata keçirilir. «Siyasət» sözünün özü yunan sözü olan «polis», yəni dövlət sözündən yaranmışdır. Antik yunanlar siyasət deyərkən dövləti idarə etməyi bacarmağı nəzərdə tutmuşlar. Siyasət - dövlət quruluşuna və onun işləməsinə aid olanlardır. İctimai siniflər və qruplar dövlətdən istifadə edərək öz mənafelərini təmin etməyə çalışırlar. Onların maraqları əsa

sında dövlət siyasətinin məzmununu təşkil edən məqsədlər formalaşır və vəzifələr müəyyən olunur.

Son 10-15 illərin ən əhəmiyyətli **siyasi proseslərinin** aşağıdakı mühüm anlarını ayınnaq məqsədəuyğundur:

- SSRİ dağıldıqdan sonra öz ictimai, iqtisadi, siyasi və hərbi problemləri ilə yaranan bir sıra müstəqil dövlətlər;
- əhalinin böyük əksəriyyətinin, kütləvi hərəkatların, ictimai və qeyri-hökumət təşkilatlarının siyasi fəahğmm artması, onların siyasi proseslərə marağının güclənməsi; -
- dövlətlər arasında siyasi, iqtisadi, sosial və mədəni əlaqələrin intensivləşməsi, qloballaşdırma prosesləri, dəyərlərin, zövq və dəbin standartlaşdırılması;
- dünyanın hər yerində yaşayan əhalinin böyük əksəriyyətinin müasir qlobal problemlərlə bağlı qayğılarının artması, qloballaşdırmaya qarşı cavab reaksiyası kimi lokallaşdımra prosesi, yeni xoşa gəlməyən standartların meydana gəlməsi, bütün dünya miqyasında yaranan ziddiyyətli məsələlərin aradan qaldırılması yollarında əks mövqedə dayanan müxtəlif ideyaların yaranması;
- müsəlman dünyasının ictimai həyatında baş verən modernləşməyə qarşı yaranan radikal meyllərin güclənməsi;
- elm və texnikanın tərəqqisi, geniş kompüter- ləşdirmə, daxili və xarici siyasət haqqında məlumat axınının miqyasının genişlənməsi müasir dövlətlərə siyasi proseslərə təsir göstəraıək üçün - əvvəllər görünməyən - vasitələr və imkanlar vermişdir.

Bütün bu və ya digər siyasi proseslər və hadisələr sistemli şəkildə, iqtisadi, ictimai və ideoloji inkişaf məsələləri ilə qarşılıqlı əlaqədə və vəhdətdə təhlil

olunmalıdır. Problemləri əvvəlcədən görmək, dünyada yaranan siyasi vəziyyəti proqnozlaşdırmaq və buradan da bəşəriyyətin siyasi gələcəyini modemləşdinuək daha böyük əhəmiyyət kəsb edir. Siyasi fəlsəfə siyasi dəyişikliklər probleminin, siyasi proseslərin tarixi və fəlsəfi- etik dərkolunmasının elmi təhlilini vennəyi qarşısına məqsəd qoymuşdur.

Siyasət sahəsinə dövlət və millətlər arasındakı münasibət də daxildir. Bu münasibət həmin cəmiyyətdə hakim olan siniflərin marağına uyğun formalaşır.

siyasi fəlsəfənin obyektidir. «Millət» terminini fransızlar kilsə və monarxiyaya qarşı dayanan üçüncü təbəqəni adlandırmaq üçün istifadə etmişlər. Almaniyada XVIII əsrdə millət ümumimilli dövləti təcəssüm etdirən siyasi ideya oldu. Hətta Fixte milləti dövlətlə, kons- titusiyah respublika ilə eyniləşdirmişdir. Sonralar millət istənilən milliyyəti bildirmək üçün istifadə olunmağa başlandı, lakin millət insanların konkret tarixi birlik formasıdır.

Millət və dövlət problemi fəlsəfi təhlilin predmetidir. Millət və dövlətin qarşılıqlı əlaqəsi haqqında müxtəlif baxışlar mövcuddur. Bəzi müəlliflər belə hesab edir ki, dil, ərazi, iqtisadi həyat və milli psixologiya dövlətlə yanaşı millətin əsas əlamətidir, milli dövlətçilik isə millətin ayrılmaz əlamətlərindən biridir. Digərlərinin fikrincə, millət və dövlət - ictimai hadisədir və ictimai inkişafın müxtəlif tərəfləridir. Millət - ictimai, dövlət isə - siyasi hadisədir. Bir-biri ilə qarşılıqlı fəaliyyətdə olsalar da bir-birindən ayrı yaşaya bilərlər; - xüsusilə də millət dövlətsiz mövcud ola bilər.

Bundan əlavə millətin özünün aşağıdakı tipologiyası verilir: suveren və qeyri-suveren, əzilən və əzən, böyük

dəvlət və asılı olan, işğal olunan və assimilasiya olunan, formalaşmaqda olan və artıq formalaşmış və s. Dövlətlər də öz xarakterlərinə görə müxtəlif olur: - Vatikan tipli dövlətləri millətlə heç cür əlaqələndirmək olmur - bu tip dövlətlərin öz pul vahidləri var və fəal iqtisadi fəaliyyət göstərirlər. Dövlətin müxtəlif formaları - knyazlıq xanlıq, hersoqluq, monarxiya, imperiya, xəlifəlik, respublika və s. mövcuddur.

Azərbaycanlıları nümunə göstərmək olar: bir millət olmasına baxmayaraq onlar iki yerə bölünmüşdür, onlardan birinin dövləti var, digərinin, - çoxluq təşkil edənlərin isə dövləti yoxdur. Çox güman ki. millət üçün milli şüurun formalaşması, sərhəddin müxtəlif tərəflərində yaşamaqlarına baxmayaraq xalqların öz birliyini dərk etməsi, onun bütün nümayəndələri üçün vahid dilin, vahid mədəniyyətin və oxşar xarakter və dinin milli özünəməxsusluğunun olması vacibdir. Ərəblərin təcrübəsi də nadirdir: Qərbi Afrikadan Hindistanın sərhəddinə qədər böyük bir ərazidə yaşayan, vahid dili, mədəniyyəti, milli özünəməxsusluğu və dini olan ərəblər bununla belə 20- dən çox dövlətə bölünmüşlər. Lakiq ərəblər ərəbizmin - ərəb birliyi şüuru - hesabına özlərini vahid millət hesab edirlər.

Siyasi fəlsəfənin vəzifəsi konkret şəraitin real müxtəlifliyi arasında ümumi ictimai normaları, çoxlu təsadüfi variantlar arasından zərurini tapmaqdan ibarətdir.

Siyasətin mahiyyətini **siyasi hakimiyyət** təşkil edir. Amerika sosioloqu S.Lipset haqlı olaraq qeyd edir ki, siyasi hakimiyyət legitim, yəni qanuni olanda stabildir, möhkəmdir. Siyasi hakimiyyət aşağıdakı hallarda: 1) hakimiyyət ənənələrə əsaslananda: məsələn, monarxiya, 2) rasional-hüquqi olanda, yəni qanuni qurulanda, məsələn.

seçkilərdə qələbə nəticəsində, 3) xarizmatik xarakter daşıyanda, yəni siyasi rəhbərin böyük şəxsi keyfiyyətlərinə inama əsaslananda - qanuni sayıla bilər. Siyasətin yüksək keyfiyyətli xüsusiyyətlərini də nəzərdən qaçırmamaq vacibdir. O, hərtərəfliliyi, universallığı, hər şeyi qavramaq xarakteri, cəmiyyət həyatının istənilən tərəflərinə təsir etmək qabiliyyəti ilə fərqlənir. Bununla belə siyasət siyasi münasibətlər, siyasi institutlar və siyasi ideologiya vasitəsi ilə həyata keçirilir. Adamlar hakimiyyətə görə münasibət qurur, bu da bu və ya digər siyasi təşkilat formasında möhkəmlənir və eyni zamanda onların şüurunda inikas olunur; həm də siyasi ideologiya formasında əks olunur.

**Cəmiyyətin siyasi həyatı iqtisadiyyatla sıx şəkildə** bağlıdır. Onların bağlılığı çox vaxt siyasət və iqtisadiyyatın qarşılıqlı fəaliyyəti kimi şərh olunur. Siyasət və iqtisadiyyatın qarşılıqlı əlaqəsi və qarşılıqlı fəaliyyəti haqqında məsələ K.Marks və V.İ.Leninin əsərlərində kifayət qədər ətraflı işıqlandırılmışdır. Marksizmə görə, maddi istehsalın inkişaf səviyyəsi, əmək bölgüsünün xarakteri, mülkiyyət münasibətləri adamların maddi marağına əhəmiyyətli təsir göstərir və siyasi nəzəriyyələrin və proqramların məzmununu şərtləndirir. Öz növbəsində hakim siyasi ideologiya, - məsələn, bazar iqtisadiyyatı ideologiyası - yeni iqtisadi reallığın yaranmasının ilkin şərti ola bilər. Bununla belə siyasət və iqtisadiyyatın bir- birindən asılılığını həddindən artıq şişirtmək də olmaz, çünki onlar yalnız öz şəxsi qanunları ilə (məsələn, bazar qanunu və siyasi mübarizə qanunu) inkişaf etmir, həm də elmi-texniki tərəqqi, ekoloji şərait, milli psxologiya, din və s. kimi amillərin təsirinə də məruz qalırlar. Eyni

zamanda bu və ya digər tarixi mərhələdə, konkret şəraitdə bu amillərdən hər hiri mühüm rol oynaya bilər.

Cəmiyyətin **siyasi həyatına** mənəvi dəyərlərin, ideyaların, adətlərin, ənənələrin və adamların davranış nonnalarmm məemusu kimi başa düşülən **mənəvi mədəniyyət** də əhəmiyyətli təsir göstərir. Mənəvi mədəniyyətin siyasi institutların bu və ya digər formalarını seçməyə də əhəmiyyətli təsiri var; məsələn, dövlət quruluşu onun işləməsinin xüsusiyyətləri ilə şərtlənir. Mənəvi mədəniyyətin siyasi həyata təsirinin aşağıdakı yollarını ayırırlar:

- ayrı-ayrı fərdlərin ietimailəşdirilməsi və formalaşdırılması;
- dəyərlər sisteminin yaradılması və həyata keçirilməsi;
- fəaliyyət, davranış, hərəkət etalonlan;
- institutlar və ietimai sistem modellərinin yaradılması.

Başqa sözlə desək, eəmiyyətin mənəvi mədəniyyəti siyasi həyatın bütün sahələrinin - adamların siyasi davranışı da daxil olmaqla - və nəticədə kütlələrin siyasi mədəniyyətinin qarşılıqlı əlaqəsinin və bir-birindən asılılığının obyektiv qanunauyğunluğunu şərtləndirir.

**Siyasət və əxlaqın qarşılıqlı əlaqəsi** probleminin də aktual olduğunu mühazirədə qeyd etmək məqsədəuyğundur. Belə ki, məsələn, tarixdə zorakılığın rolu və ona əxlaqi həraət qazandırmaq haqqında məsələ fəlsəfənin bütün tarixi ərzində onun diqqət mərkəzində dayanmışdır. Müasir tədqiqatçılar E.Fromm və K.Lorents belə qənaətə gəlmişlər ki, özünə oxşar olanlara qarşı insanı heyvandan fərqləndirən təcəvüzkarhğa meylin bioloji kökləri vardır. Digər filosoflar və sosioloqlar bu hadisənin ictimai kökləri

olduğunu göstərıilər. Məsələn, M.Veber «Siyasət həvəsdir və peşədir» əsərində «əqidə etikasını» «məsuliyyət etikasına» qarşı qoymuşdur. Əqidə etikasına etiqad edən, inanan siyasətçi özünün hər hansı fikrində nəcib hesab etdiyi ideyaya fanatikcəsinə sadiq olur və heç də həmişə onu həyata keçirmək vasitələrini aydın dərk edə bilmir. Məsuliyyyət etikasının tərəfdarları olan siyasətçilər isə əksinə, öz ideyalarını həyata keçirmək üçün seçdikləri siyasi vasitələrə uyğun gələnlər haqqında düşünürlər, öz hərəkətlərinin birbaşa və dolayısı nəticələri haqqında dərin məsuliyyət hissi başa düşürlər. Problemin son həlli haqqında qərar vennəyə səy göstərməyən Veber belə qənaətə gəlir ki, «heç kəsə nə vaxt və hansı şəraitdə, istər əqidə etikasına inananlar və ya məsuliyyət etikasına tərəfdar olanlar kimi davranmağı demək olmaz», belə ki, siyasi fəaliyyətdə yalnız əql deyil, həm də hisslər mühüm rol oynayır. Bununla belə alman mütəfəkkirinin məsuliyyət etikası tərəfdarlarına rəğbəti hiss olunur. O, belə hesab edir ki, əgər siyasətdə zorakılıq labüddürsə, onda çalışmaq lazımdır ki, o legitim olsun, yəni qanunla əsaslandırılsın.

Siyasəti əxlaqla necə birləşdirmək olar? Görünür iki imkan var: ya əxlaq siyasətin maraqlarına uyğunlaşdırılmalı (xüsusi ilə avtokratiya və totalitar dövlətlərdə belə edirlər), ya da siyasət əxlaqa tabe edilməlidir. Əxlaq və siyasətin əsil vəhdəti yalnız hüquq əsasında mümkündür, buna isə ictimai həyatın demokratik və liberal ölçüləri təminat verə bilər.

**Həqiqi əxlaq və ağıllı siyasət** arasında daxili və hərtərəfli əlaqənin qeyri-şərtsiz əxlaqi başlanğıcını qurmaq - əxlaq fəlsəfənin xüsusi siyasətə başlıca iddiası budur. Ağıllı siyasətçi bütün öz siyasi və ictimai qərar-

larini və fəaliyyətlərini əxlaq normalarına uyğunlaş- dınnağı öz vəzifəsi hesab edir.

Siyasi təlimlər tarixində təkrarlanan bir fikrə: - siyasət - çirkli işdir - deyiminə də münasibət bildirmək maraqlı olardı. Makiavellinin fikrincə, dövlət əxlaqı ayrıca adamın əxlaqından fərqlənir və öz kürsüsünü qorumaq istəyən hökmdar yaxşı olmasa da yeri gələndə belə görünməyi bacannabdır və ya şəraitə uyğun olaraq belə görünməməlidir.

Mütəfəkkirlər **siyasi və əxlaqi meyarları** bir- birindən fərqləndirirdilər. Siyasi xadimlərin həyat yolunu izləyən hər kəs görür ki, bu xidmət üçün həm intellektual, həm də əxlaqi hazırlıq vacibdir: siyasət - ən incə, dərin, mürəkkəb və ən başlıcası isə ən məsuliyyətli fəaliyyət növüdür. Bəzən belə yanlış təsəvvür yaranır ki, siyasət kimi incə bir iş üçün yalnız zirəklik, təşəbbüskarlıq, inadkarlıq, əldən çevik olmaq və yaxşı dil lazımdır. Dünya ölkələrinin, o cümlədən Azərbaycanın dövlət tarixi təcrübəsi göstərir ki, bu heç də belə deyildir. Mühazirədə 90-cı illərdə Azərbaycanda hakimiyyətə gələn Xalq Cəbhəsinin üzvlərinin ölkəni idarə edə bilməmələri və səriştəsizliklərini qeyd etmək yaxşı olardı. Ölkəni vətəndaş müharibəsi vəziyyətinə çatdıran siyasi hakimiyyət öz bacarıqsızbğını vaxtında hiss edərək düzgün çıxış yolu tapa bildi. Belə bir böhranlı vaxtda ölkəni əsil siyasətçi, dövlət idarəçiliyi sahəsində böyük təcrübəsi olan, siyasətdə əxlaqlı davranış metodunun mahir bilicisi kimi özünü dünya səviyyəsində tanıtmış Heydər Əliyev xilas edə bildi.

Cəmiyyətin siyasi həyatının mühüm tərəflərindən biri də onun siyasi institutlarının fəaliyyət göstərməsidir. Onların məcmusu cəmiyyətin siyasi sistemini yaradır.

Dövlət, siyasi partiyalar və digər ictimai təşkilatlar onun ünsürləridir, onların fəaliyyəti siyasi xarakter daşıyır.

### §2. Cəmiyyətin siyasi həyatında dövlətin rolu

**Cəmiyyətin siyasi sisteminin mühüm ünsürü - dövlətdir.** F.Engelsin «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi» əsərində dediyi kimi, istəniiən dövlətin əsas əlaməti hakimiyyət aparatının, ərazinin və verginin olmasıdır - fikri öz düzgünlüyünü bu gün də saxlayır.

**Dövlət nədir?** Aristotelə görə, dövlət ümumi mənafe şüurundan yaranır və əsasən xöşbəxt yaşamaq üçün qurulur. T.Hobbs isə əksinə, dövlətin əsasında qorxu intizamını görmüş və dövləti çoxsaylı adamların razılaşma əsasında yaratdıqları fərdi və ya kollektiv sima ad- landırmışdır, məhz bu sima onlara sülhü və ən ümumi müdafiəni təmin edir. B.Spinoza da buna yaxın fikirləri müdafiə edir. Hegel dövlətin başlanğıcını zorakılıqda görür. F.Engels və V.İ.Lenin isə dövlətə bir sinfin başqasını əzməsi və istismar etməsi maşını, aləti kimi baxmışlar. M.Veber dövləti bir qrup adamların digərləri üzərində legitim (qanuni sayılan) zorakılığa əsaslanan münasibəti hesab edir. N.Tusiyə görə, dövlət adamların öz mənafeləri naminə könüllü surətdə birləşmək istədikləri anda yaranmışdır və əqlin gücünün nəticəsidir.

Dövlət probleminə sinfi yanaşma Sovet ictimai elmində aparıcı olmuşdur. Məsələn, sosiologiya üzrə qısa lüğətdə verilən tərifə görə, dövlət bir-biri ilə qarşılıqlı əlaqədə olan müəssisə və təşkilatların məcmusudur, müəyyən siniflərin maraqlarına uyğun cəmiyyəti idarə edir, sinfi rəqibləri əzir.

Problemə müasir yanaşma çərçivəsində dövlət - cəmiyyətin siyasi sisteminin əsas institutudur, adamların, ictimai qrupların, siniflərin və cəmiyyətlərin birgə fəaliyyətini və münasibətlərini təşkil edir, istiqamətləndirir və nəzarət edir.

Dövlət cəmiyyətdə mərkəzi hakimiyyət institutudur və bu hakimiyyət vasitəsi ilə yığcam siyasət həyata keçirir.

Dövlətin ən ümumi vəzifəsi ümumi yaşayışın əsasını qorumaqdır, çünki belə olmasa bəşəriyyət mövcud ola bilməz və insanın bütün gücünün inkişafına kömək etmək olmazdır. Ona görə də bəziləri belə hesab edir ki, dövlət - «qayda-qanunu müdafiə edən» bir təşkilatdır, öz vətəndaşlarının rahatlığını qomyur. «Dövlət» anlayışını elmi ədəbiyyata N.Makiavelli gətirmişdir. Beləliklə, dövlət - cəmiyyət orqanlarının sistemidir, xalqın bir bütöv tam kimi mütəşəkkil daxili hüquqi həyatını təmin edir, öz vətəndaşlarının hüquqlarını müdafiə edir, hakimiyyət institutlarının - qanunverici, icraedici və məhkəmə - nonual işləməsini həyata keçirir, öz ərazisinə nəzarət edir, xarici təhlükədən öz xalqını qoruyur, başqa dövlətlər qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsinə təminat verir, təbii mühiti və mədəni dəyərləri qoruyur, cəmiyyətin yaşamasına və onun tərəqqisinə kömək edir. Dövlətçilik xalqın bütün münasibətlərinə, onun vətəndaşlarının əxlaq və şüuruna nüfuz edir. Eyni zamanda dövlət qumluşu xalqın özünü düşünməsinin xarakterindən və inkişafından asılıdır: hər bir xalq onun ruhuna «müvafiq olan» və «uyğun gələn» dövlət quruluşuna malik olur. Dövlət müəyyən struktura malik ictimai orqanizmdir.

Dövlətin mənşəyi və mahiyyəti məsələsi siniflərin iqtisadi və siyasi mənafeləri ilə sıx bağlıdır. Bir qrup mütəfəkkirlər dövlətin teoloji, ilahi mənşəyə, fövqəltəbii bir qüvvəyə malik olduğu fikrini söyləmişlər. Digərləri isə dövlətin guya ailənin inkişafının zəruri nəticəsi olaraq yarandığını qeyd edirlər. Onların fikrincə, ailə əvvəlcə qəbiləyə, sonra tayfaya, daha sonra isə dövlətə çevrilmişdir. Bəziləri belə iddia edirlər ki, dövlət zorakılıq yolu ilə, bir qəbilənin digərini zəbt etməsi yolu ilə yaranmışdır. Bir qrup alimlərə görə, dövlət insanlar arasında bağlanan ictimai müqavilənin nəticəsidir. Marksizmə görə isə, dövlət istehsal alət və vasitələri üzərində xüsusi mülkiyyətin, böyük ictimai əmək bölgüsünün və istismarçı siniflərin yaranması nəticəsində meydana gəlmişdir.

Dövlətin meydana gəlməsi ilə bağlı bu müxtəlif fikirləri təhlil edərək müasir tələblərə uyğun ümumi- ləşdirmələr aparmaq məqsədəuyğundur.

Dövlət digər ictimai institutlardan aşağıdakı cəhətləri ilə fərqlənir; - hakim qüvvələrin ictimai qrup, siyasi partiya, ictimai hərəkat və s. şəklində ictimai-sinfi əsasının mütləq olması;

- mərkəzi və periferiya orqanları ilə təmsil olunan xüsusi hakimiyyət aparatının olması;
- qeyri-iqtisadi məcburiyyət üzərində monopoliya;
- dövlət ərazisinin olması;
- bütün vətəndaşlar üçün məcburi olan qanunların verilməsində, daxili və xarici siyasətin həyata keçirilməsində oian suveren hüquqlar;
- vergi toplamaq, pul vahidini buraxmaq, büdcə siyasətini yeritmək və s. üçün müstəsna hüquqların olması.

Dövlətin mənşəyi və cəmiyyətin həyatında onun rolu haqqında məsələ böyük nəzəri və elmi-praktiki əhəmiyyət

kəsb edir. Tarixin materialist anlaşılması ənənəvi olaraq dövləti iqtisadi bazis üzərindəki üstqurum kimi qəbul edir və onun meydana gölməsini əməyin ietimai bölgüsünün, xüsusi mülkiyyətin yaranmasının və eəmiyyətin siniflərə parçalanmasının nətieələri ilə əlaqələndirir. Bu məsələni tədqiq edən F.Engels yazırdı ki, xüsusi mülkiyyətin yaranması, var-dövlətin fasiləsiz olaraq toplanması şəraitində yalnız eəmiyyətin siniflərə bölünməsini deyil, həm də varlı sinfin əzilən sinif üzərində hökmranlığını əbədiləşdirən bir təşkilat çatışmırdı. Və belə bir təşkilat yaradıldı. Dövlət kəşf olundu.

Hal-hazırda alimlərin əidə etdikləri konkret-tarixi materiallar dövlətin meydana gəlməsi ilə bağlı əvvəlki baxışları dəqiqləşdirməyə və daha da dərinləşdirməyə imkan verir. Biz burada «Asiya istehsal üsulu» adlanan problemlə üzləşirik. Bu formul K.Marksm adı ilə bağlıdır. Avropada və Şərqdə məhsuldar qüvvələrin inkişaf xüsusiyyətlərini müqayisə edən Marks bir sıra Şərq ölkələrində xüsusi mülkiyyətin olmadığına diqqət yetimişdir: kənd icmalarının simasında bilavasitə istehsalçılar kimi xüsusi mülkiyyətçiiər deyil, dövlətin özü dayanırdı.

Dövlət tərəfindən ciddi mərkəzləşdirilmiş nəzarət bu ölkələrin ictimai strukturunun və siyasi münasibətlərinin fəaliyyətinin xüsusiyyətlərində öz əksini tapırdı. Məsələn, canişin hakimiyyəti imtiyazlara, bol məhsula və cah- cəlala, dəbdəbəli həyata yol açırdı. Lakin istibdadçmm iradəsi ilə bunları itirənlər çox vaxt yalnız fıravanhğı yox, həm də həyatlarını itirirdilər. İstehsalın genişləndirilməsində maraqlı olmayan və əldə etdiyi gəlirlə kifayətlənən çoxsaylı tacirlər də bu vəziyyətdə idilər. Başqa sözlə desək, xüsusi mülkiyyət şərti xarakter daşıyırdı və iqtisadi sahədə sahibkarlığa üstünlük verilmirdi. İnzibati aparat

iqtisadiyyatın böyük bir sahəsinə nəzarət edirdi, kəndlilərin xeyli hissəsi dövlətin idi.

Şərqdə dövlətin xüsusi rolu ayrıca fərdin zəifliyinə, onun kollektiv tərəfindən boğulmasına və eyni zamanda həm varlıların, həm də kasıbların daxil olduğu klan (qəbilə), silk, təbəqə, həmyerlilər birliyi, sektalar, kənd icmaları və s. tipli korporasiyaların rolunun artmasına səbəb olmuşdur. Onların başlıca məqsədi öz üzvlərini dövlət istibdadından qorumaq idi. Ənənələrlə möhkəmləndirilən korporasiya əlaqələri ictimai antoqonizmi yumşaldır, zəiflədir, paternalizm münasibətlərini yaradır və əmələ gəlmiş ictimai strukturu daha da möhkəmləndirirdi. Korporasiya əlaqələrinin mühafizəkarlığı hətta sülalə dəyişikliyi dövründə belə (məsələn, orta əsrlər Hindistanında) siyasi sabitliyə kömək edirdi.

Sovet şərqşünası L.S.Vasilyev «Çin dövlətinin genezisi problemləri» əsərində xüsusi olaraq Asiya istehsal üsulu şəraitində dövlət hakimiyyətinin qurulması problemini tədqiq etmişdir. Geniş konkret-tarixi materialların çox zəhmət və səbr tələb edən təhlili əsasında o belə bir qənaətə gəlmişdir ki, hazırkı halda dövlət irimiqyaslı iqtisadi, - xüsusilə irriqasiya (süni suvarma), strateji yolların tikintisi və s. ilə bağlı - problemlərin həllinə obyektiv təlabatm nəticəsi kimi siniflərin meydana gəlməsinə qədər yaranmışdır.

Dövlətin meydana gəlməsi tarixi ilə tanışlıq onun funksiyaları haqqında məsələni də aydınlaşdırmağa kömək edir. Bu problemə marksist yanaşma sinfi xarakter daşıyır: dövlətin başlıca funksiyası - hakim sinfin mənafeyini müdafiə etməkdir.

Bütün qalan funksiyalar, istər daxili, istərsə də xarici funksiyalar bu əsas funksiyaya tabe edilmişdir.

Müasir dövlət bir sıra müxtəlif funksiyalar yerinə yetirir:
- mövcud dövlət quruluşunun müdafiəsi;
- cəmiyyətdə sabitlik və qayda-qanunun saxlanması;
- iqtisadiyyatın nizama salınması;
- daxili siyasətin bütün sahələrini - ictimai, mədəni, elmi, təhsil, milli, iqtisadi və s. - əhatə edən siyasətin həyata keçirilməsi;
- beynəlxalq aləmdə dövlətin maraqlarının müdafiəsi;
- «həyat məkanının» genişləndirilməsinə aparan geosiyasətin həyata keçirilməsi;
- strateji mövqelərin və coğrafi vəziyyətin yaxşılaşdırılması, xammal və enerji mənbələrinə daxil olmanı təmin ‘etmək;
- ölkənin müdafiəsini, onun başqa dövlətlərlə qarşılıqlı münasibətini qurmaq və s.

Belə bir cəhəti xüsusi ilə qeyd etmək vacibdir ki, bu gün iqtisadi münasibətlərin nizama salınmasında dövlətin rolu haqqında məsələ xüsusi maraq doğurur. Xüsusi mülkiyyətin olmadığı şəraitdə (Asiya istehsal üsulu, inzibati-komanda sistemində) bu rol sadə və aydındır - birbaşa direktiv rəhbərlik; inkişaf etmiş formada isə - hərtərəfli planlar əsasında həyata keçirilir.

Başqa daha mürəkkəb mənzərə inkişaf etmiş bazar münasibətləri şəraitində əmələ gəlir. Bir tərəfdən, dövlətin müdaxiləsi nə qədər güclü olursa - hətta o dolayı xarakter daşısa belə, məsələn, təsəiTÜfat qanunvericiliyi və vergi vasitəsi ilə - sahibkarlıq marağının səviyyəsi bir o qədər aşağı olur, öz kapitalını risk etmək arzusu azalır. Digər tərəfdən, dövlətin cəmiyyət səviyyəsində iqtisadi proseslərə ümumiyyətlə müdaxiləsi şübhəsizdir ki, istehsalın

texniki təchizat vasitələrini tamamilə yeniləşdirmək problemini həll etmək, düzgün struktur siyasəti həyata keçirmək, iqtisadiyyatın maliyyə vəziyyətini yaxşılaş- dımraq və s. üçün zəruridir. Dövlət tərəfindən yuxanda sadalanan funksiyaların yerinə yetirilməsinin böyük əhəmiyyəti vardır.

Cəmiyyətin siyasi həyatının dövlət qumluşu, idarə formaları və siyasi rejim kimi problemlərinin həllinin mühüm əhəmiyyəti vardır.

**Dövlət quruluşu** haqqında məsələ ilk növbədə mərkəz və periferiya arasındakı qanunverici hakimiyyətin bölgüsü ilə bağlıdır. Əgər qanunverici funksiyalar bütövlükdə mərkəzə aiddirsə, belə dövlət unitar dövlət hesab olunur; əgər ərazi vahidlərinin öz qanunlarını qəbul etmək hüququ varsa onda bu cür dövlət federativ dövlətdir. Federasiya mərkəzin hökmranlığa, ərazi vahidlərinin isə separatizmə cəhdləri arasındakı ziddiyyətləri dəf etməyə imkan verir.

**İdarə forması** dövlət hakimiyyətinin həyata keçirilməsi xarakterindən asılı olaraq monarxiya və ya respublika idarə üsulu ola bilər. Monarxiya bütün hakimiyyətin bir adamın əlində cəmləşməsini nəzərdə tutur; bu adam hakim sülaləni təmsil edir və hakimiyyət varislik yolu ilə həyata keçirilir.

Monarxiya özünü mütləq monarxiya və konsti- tusiyah monarxiya formasında göstərir. Mütləq monarxiya - dövlətin elə idarə formasıdır ki, burada siyasi hakimiyyət tamamilə və şəriksiz olaraq bir şəxsin - imperatorun (kralın, şahın) əlində olur. Məsələn, Nepal, Mərakeş, Səudiyyə Ərəbistanı və s.

Konstitusiyah monarxiya dövləti isə elə şərikli idarəetmə formasıdır ki, burada hakimiyyət başında

imperator ilə yanaşı parlamenı də dayanır. Konstitusiyalı monarxiya iri burjaziya ilə mülkədarların kompromis dövlətidir. Məsələn, İran, İordaniya, İngiltərə, Belçika, Hollandiya, Danimarka, Norveç, Yaponiya və s.

Respublika idirə üsulunda isə xalqın hakimiyyətə olan suveren hüquqları tanınır və xalq nümayəndəli orqanlarda təmsil olunur.

Respublikanın ali dövlət hakimiyyət orqanları mövcud konstitusiyaya əsasən müəyyən müddətə seçilən nümayəndələrdən ibarət olur. Bir sıra ölkələrdə dövləti idarəetmə forması respublika və parlamentli respublika formasına əsasən təşkil olunur.

Birinci halda prezident əhali tərəfindən seçilir. O, özü hökuməti təşkil edir. Hökumət prezident qarşısında məsuldur. Burada prezidentin səlahiyyətləri genişdir. Dövlətin belə idarəetmə formasına ABŞ, Braziliya, Venesuela, MDB məkanında olan ölkələr və s. misal göstənnək olar.

Parlamentli respublikada prezident parlament tərəfindən seçilir, o parlament qarşısında məsuldur. Hökumət də parlament tərəfindən yaradılır.

Parlamentli respublikaya Avstriya, Türkiyə, İtaliya və b. dövlətləri misal göstərmək olar.

Azərbaycan - unitar dövlətdir. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyət bölgüsü prinsipləri əsasında həyata keçirilir: qanunverici hakimiyyəti Milli Məclis həyata keçirir; icraedici hakimiyyət Azərbaycan Respublikasının Prezidentinə məxsusdur; məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Hüquqi dövlət vətəndaşların və dövlətin qarşılıqlı münasibət normalarını müəyyən edir, dövlətin əsas qanunu - konstitusiya əsasında fəaliyyət göstərir.

Hansı **idarə formasının** - respublika və ya monarxiya - yaxşı olması haqqqmda sual ritorik xarakter daşıyır. Müasir Avropanın təcrübəsi göstərir ki, bir çox inkişaf etmiş və sabit ölkələrdə monarxiya üsul idarəsidir. Amerika tədqiqatçısı S.Lipset monarxiyanın müasir cəmiyyətin bütün təbəqələrinə münasibətdə mediativ, yəni barışdırıcı roluna diqqqət yetirmişdir. O, qeyd edir ki, inqilab nəticəsində monarxiyanın devrildiyi və hakimiyyətin varislik yolu ilə keçməsi qaydası pozulduğu ölkələrdə hakimiyyətə gələn respublika rejimi əhalinin mühüm təbəqələri arasında qanunçuluğu bərpa etməyə qadir olmamışdır. Başqa sözlə desək, monarx əxlaqi atribut rolunu yerinə yetirir, xalqın gözündə milli mənafelərin təminatçısı kimi çıxış edir. Bununla belə, bir çox ölkələrdə dövlət idarəçiliyinin respublika forması kifayət qədər uğurla fəaliyyət göstərir.

## §3. Siyasi rejim

**Siyasi rejim** deyərkən adətən dövlət hakimiyyətinin həyata keçirilməsi vasitələri və metodlarının məcmusu nəzərdə tutulur. Totalitarizm, avtoritar'ızm, liberalizm və demokratiya kimi siyasi rejimləri ayırmaq olar. Bu gün totalitarizm və demokratiya xüsusi maraq doğurduğundan bunları ətraflı təhlil etmək məqsədəuyğundur.

**Totalitarizm** (latınca totalis) - cəmiyyət həyatının bütün sahələri - siyasi, iqtisadi və mənəvi - üzərində nəzarəti həyata keçirən dövlət quruluşudur. Belə bir cəhəti də tələbələrin nəzərinə çatdırmaq lazımdır ki, bu quruluşda vətəndaşların fikirləri də diqqətdən kənarda qalmır - «başqa cür düşünənlər» termininin yaranması dediklərimizə əyani sübutdur. Totalitarizm - sanki müasir

istibdaddır. Əvvəllər də qəddar, amansız rejimlər olmuşdur, lakin totalitarizm - nisbətən yeni hadisədir. Bu onunla izah olunur ki, mətbuat, radio və televiziya kimi kütləvi kommunikasiya vasitələrinin yaranması ilə vətəndaşlar üzərində tam nəzarət etmək mümkün olmuşdur. Totalitar siyasi rejim ayrıca bir fərdi Şərq istibdadı şəraitində olduğundan da daha çox hüquqsuz vəziyyətdə saxlayır; fərd dövlət maşını ilə təkbətək qalır və ona tabe olur.

Totalitar rejimin əlamətləri aşağıdakılardır: hakimiyyətin sərt piramida şəkilli strukturu (belə demək olar ki, cəmiyyəti geriyə əlaqəsi olmayan bir təşkilat kimi idarə edirlər), kütləvi terror, daxili və xarici düşmənlərin daima axtarışı, cəmiyyətdəki üfqi strukturun ləğv edilməsi və nəhayət, idarə rejimi adlanan rəsmi ideologiyanın hökmranlığıdır.

Totalitarizmin psixoloji köklərini Z.Freyd «Kütləvi psixologiya və insan Mən-inin təhlili» əsərində tədqiq etmişdir. Totalitarizm yalnız kütlələrin itaətə razılaşmasına əsaslanmır. O, xüsusi psixologiya, təfəkkür üslubu fomalaşdırır; bu hal üçün hakimiyyətə pərəstiş, insan hüquqlarına hörmət etməmək, sadə qərarların axtarılması, dixotomik təfəkkür xarakterikdir.

Totalitarizm rejimində hakimiyyət bir partiyah sistemə əsaslanır. Bu termini rəhbərlik etdiyi hərəkat və rejimin xarakteristikası üçün B. Mussolini işlətmişdir. O, İtaliya filosofu Cantileninin ideyalarından istifadə etmişdir. Cantileni belə hesab edirdi ki, insan həyatına dövlətin qarışmasının heç bir həddi yoxdur. Bu rejim vətəndaşların azadlığını qəbul etmir və bu azadlığın qorxulu olduğunu qeyd edir. Bu dövlət üçün əsas prinsip - ona və onun maraqlarına xidmət etməyənlərə qarşı

dözülməzlik prinsipidir. Mərkəzi hakimiyyət hər şeyi bilməli, görməli, planlaşdırmalı, bununla da xalqın azad fəaliyyətini məhdudlaşdırmalıdır.

Totalitarizmin ifrat forması olan faşizm haqqında da məlumat vermək yerinə düşər. Faşizm - açıq temorist diktatura olub bütün demokratik azadlıqları və mütərəqqi ictimai hərəkatları boğmağa yönəldilmişdir; dövlət maşını ilə kütləni boğur, kütləvi terrorlar həyata keçirir, hamını öz ideologiyasının quluna çevirməyə çalışır. Faşizmin ideologiyası - mübariz irqçilik, şovinizm, zorakılıq, rəhbərə pərəstiş, dövlətin totalitar hakimiyyəti, şəxsiyyət üzərində hərtərəfli nəzarət, həyatın bütün sahələrinin hərbiləşdirilməsidir.

**Diktatura** üsul idarəsinin ən dəhşətli forması kimi XX əsrdə yaranan totalitarizmdə dövlət hakimiyyəti cəmiyyətdə gedən bütün hadisələrə və proseslərə nəzarət edir. Bu nəzarət əsasən üç ünsür: 1) güclü reprcsiya aparatı; 2) bütün cəmiyyətə sirayət edən kütləvi təşkilatlar, əsasən, partiyalar; 3) kütləvi təbliğat - vasitəsi ilə həyata keçirilir. Totalitar rejim yalnız qorxu deyil, həm də məcburiyyət üzərində qurulur.

Diktaturanın totalitarizmlə yanaşı avtokratiya (hakimiyyət bir nəfərə və onun ətrafına məxsusdur) və oliqarxiya (hakimiyyət bir qrup əməkdaşlara, məsələn, hərbiçilər qrupuna aiddir) haqqında da qısa məlumat vermək məqsədəuyğundur.

Totalitarizmə əks olan - **demokratiyadır** (yunanca demos - xalq və kratos - hakimiyyət). Öz mənşəyinə görə demokratiya son dərəcə Avropa fenomenidir. O, qədim Yunanıstanda yaranmış və kifayət qədər çoxsaylı azad sahibkarlar quruluşunun marağını ifadə edirdi. İctimai fəlsəfi fikir tarixində ona olan münasibət lap əvvəllərdən

biraıənalı olmamışdır. Platon ona mənfi münasibət bəsləmiş, Aristotel isə təmkinli, ehtiyatlı yanaşmışdır. Yeni dövrdə bazar münasibətlərinin inkişafı dövlət quruluşu haqqında məsələni gündəliyə çıxartdı; sahibkarların - burjuaziyanın hüquqlarının hakimiyyət özbaşlanhğmdan qorunması öndəmə keçirildi. C.Lokk və Ş.Monteskye ietimai müqavilə nəzəriyyəsi əsasında insan hüququ konsepsiyastm işləyib hazırlayaraq belə qənaətə gəldilər ki, qanunlara riayət olunması siyasi azadlığın ən mühüm təminatçısıdır. C.Lokk belə hesab edirdi ki, dövlətdə «qanunverici hakimiyyət zəruri olaraq ali hakimiyyət olmalıdır, bütün digər hakimiyyətlər cəmiyyətin hər hansı üzvü və ya hissəsi simasında ondan törəmiş və ona tabe olmalıdır». Lokkun ideyalarını inkişaf etdirən Ş. Monteskye təsdiq etmişdir ki, hüququn aliliyi yalnız hakimiyyətin qanunverici, icraedici və məhkəmə orqanlarına bölünməsi ilə təmin oluna bilər; onlar qarşılıqlı surətdə bir-birinə dayaq olmalıdır. Əksinə, onların bir əldə cəmləşdirilməsi özbaşlanlıq yaradır.

Demokratiya - ictimai quruluşun xüsusi forması, cəmiyyətin xüsusi idarə üsuludur. Müasir demokratiya antik Yunanıstandan daha çox İngiltərənin siyasi tarixi ilə bağlıdır. Müasir demokratiyanın yaranma tarixini 1215-ci ildə ingilis kralı Torpaqsız Conun ingilislərin hüquq və azadlıqlarını təmin edən xartiyanı imzalamasından hesablamaq olar. 1265-ci ildə ingilis parlamenti fəaliyyətə başladı və kral və hökumətdən daha böyük nüfuza malik oldu. Bu təcrübə daha sonra Amerikada tətbiq olundu: öz hakimiyyətlərindən narazı olanlar burada öz dövlətlərini - Amerika Birləşmiş Ştatlarını yaratdılar. Demokratiyanın hansı prinsiplərini əsas kimi götürmək ətrafında müxtəlif

fikirlər mövcuddur. Çox vaxt müasir demokratiya üçün aşağıdakı prinsiplər əsas götürülür:

- azlığın və ilk növbədə hər bir adamın hüquqlarının müdafiəsi, şəxsi toxunulmamazhq hüququ, vicdan azadlığı hüququ, söz azadlığı, mülkiyyət hüququ. İnsanın hüquqlarını yalnız açıq müstəqil məhkəmə məhdudlaşdıra bilər;
- cəmiyyətin idarə olunmasında xalqın fəal iştirakı, hakimiyyət orqanlarına seçkilərdə səs çoxluğu əsasında qalib gələrək hakimiyyətin idarə olunmasında iştirak etmək;
- qanunverici, icraedici və məhkəmə hakimiyyətinin ayrılması, onların müstəqilliyi və bir-birinə nəzarət etməsi;
- bütün vətəndaşların bərabərliyi və səsvemıədə olan bərabərlik;
- dövlət vəzifələrinə namizədlərin seçilməsində məlumatların bərabərliyinin təminatı;
- əhalinin yaşlı təbəqəsinin seçkilərdə fəallığı.

Demokratik siyasi rejimin mühüm ilkin şərti və eyni zamanda nəticəsi kimi vətəndaş cəmiyyəti və hüquqi dövlət çıxış edir.

**Vətəndaş cəmiyyəti** ideyası antik dövrdə, xüsusilə Siseron tərəfindən irəli sürülmüşdür: sonradan bu problem Hobbs, Lokk, Russo, Hegel və Marks tərəfindən inkişaf etdirilmişdir. Müasir şərhə görə, vətəndaş cəmiyyəti- onun üzvləri arasında iqtisadi, mədəni, hüquqi və siyasi münasibətlərin inkişaf etdiyi, dövlətdən asılı olmayan, lakin dövlətlə qarşılıqlı fəaliyyət göstərən, bir cəmiyyətdir, bu yüksək ictimai, iqtisadi, siyasi, mədəni və əxlaqi statusu olan vətəndaşların cəmiyyətidir, onlar dövlətlə birlikdə inkişaf etmiş hüquqi münasibətlər yaradırlar.

M. Veberə görə, vətəndaş cəmiyyəti - reallıqdan çox uzaq olan ideal tip, idraki abstraksiyadır. Lakin ideyanın özü mənadan məhrum edilməmişdir. Onun məğzində onu təşkil edən üç tərkib hissənin: hakimiyyət, eəmiyyət və insan - optimal birləşməsi dayanır. Bununla belə ehtimal olunur ki, hakimiyyəti həyata keçirən dövlət hüquqi dövlətdir, onun fəaliyyəti qanunun aliliyinə əsaslanır. Cəmiyyət də başqa olmalıdır. Onun üçün üfqi əlaqələrin inkişafı, müxtəlif ittifaqların və cəmiyyətlərin, kütləvi hərəkatların, partiyaların olması, dövlətin hakimiyyətini onun desentralizasiya və yerli özünüidarə hesabına məhdudlaşdırılmasma eəhd xarakterikdir. Nəhayət, vətəndaşlara da tamamilə xüsusi tələblər irəli sürülür. Vətəndaşlar qorxudan yox, şüurluluq, daxili inam hesabına intizamh olmalı, öz vəzifələrini könüllü yerinə yetirməli və öz hüquqlarını qısqanclıqla müdafiə etməli, rüşvətxorluq, korrupsiyaya və s. hallara qarşı banşmaz olmalıdırlar. Başqa sözlə desək, bu adamlar yüksək hüquqi şüuru, əxlaqı, siyasi və hüquqi mədəniyyəti olan vətəndaşlardır.

Söz yox ki, ürək açan xoş mənzərə yaranır. Lakin bu cür cəmiyyətin olması utopik görünür, belə ki, birinci, bu cür cəmiyyətdə hamı sahibkar olmalı və yaxşı yaşamalıdır. Lakin kasıbların olmadığı varlı cəmiyyətin mümkünlüyünə şübhə etməyimizə əsas vardır. Bəşəriyyətin şüurlu tarixi ərzində başqalarının əməyi hesabına yaşayan tüfeyliləri düz yola qaytarmaq cəhdləri heç bir nəticə vermədiyindən kasıbçılıq problemini də həll etmək mümkün olmamışdır. İkincisi, bütün adamları qanuna hörmət edən, ona xidmət göstərən vətəndaşlara necə çevirməyin mümkün olması hələ də tam aydın olmamışdır.

XVIII əsrin sonlarından başlayaraq Qərbi Avropa anlamındakı demokratiya ideyasım həm «sağdan» (Byerk, Tokvil, Soloneviç və b.), həm də «soldan» (Marks, Lenin, Trotski, «yeni sollar» və b.) tənqidini təhlil etmək maraqlı olardı.

Marksistlər burjua demokratiyasına qarşı münasibətlərini zəhmətkeşlərin hüquqları primatmdan çıxış edərək bildimrişlər. Bu demokratiyanı kapitalizm cəmiyyəti çərçivəsində hakimiyyət uğrunda burjuaziyaya qarşı əlverişli mübarizə forması kimi qəbul etmişlər.

«Sağdan» tənqid başqa metodoloji prinsiplərə əsaslanır və daima təkamülə uğrayır. Əgər ənənəvi sağlar öz tənqidlərini keyfiyyəti kəmiyyətlə - səlahiyyətli, səriştəli aristokratik azlıq milyonlarla biliksiz, avam seçicilərin səsləri hesabına - dəyişməyin mümkün olmaması haqqında tezisə əsaslanırdılarsa da, müasir dövrdə dəlillər, əsaslandırmalar xeyli mürəkkəbləşmişdir. Liberal (yəni insan hüququ konsepsiyasına əsaslanan) və cqalitar (ən ümumi bərabərlik ideyasından çıxış edənlər) demokratiyaya qarşı fərdlərə və ya kütləyə deyil, bütövlükdə xalqa söykənən orqanik (təbii) demokratiyanı qoyuriar. Bu konsepsiyanın müəlliflərinin fikrincə, məhz demokratiyanın bu fonnası xalqın öz siyasi taleyində «iştirakını» nəzərdə tutur. Bununla belə qeyd olunur ki, təbii demokratiya «qardaşlığa» əsaslanan cəmiyyətin həmcinsliyini, eyniliyini tələb edir. Buradan belə nəticə çıxanhr ki, Qərbdə üstünlük təşkil edən demokratiyanın liberal-demokratik və totalitar-eqalitar modeli təbii demokratiyaya keçməyə qadir deyildir. Şərqdə isə vəziyyət başqadır: burada xalq və ya «milli özünüdərketmə» formasmda «kollektiv şüursuzluq» rasional psixologiyanın

üstünlük təşkil etdiyi Qərbə nisbətən daha da inkişaf etmiş səviyyədədir.

Müasir dövrdə adamlar arasında demokratiya probleminə müxtəlif münasibətləri nəzərə alaraq qeyd etmək lazımdır ki, demokratiya bÖ3Üik tarixi tərəqqi hesab olunmalıdır. O, bütün vətəndaşların hüquqi bərabərliyini, siyasi plyuralizmi, söz azadlığını və s. elan edir. Demokratiya müxalifətin leqal siyasi fəaliyyəti üçün şərait yaradır. Lakin tarixi miqyasda bu cür demokratiyanın dəyəri nisbidir. Onun işləməsi üçün müəyyən olunmuş kəskin hədlər mövcuddur. Siyasi hadisələrin inkişafı dövlətə ciddi təhlükə yaradanda hakimiyyət heç bir tərəddüd etmədən demokratiyadan avtoritar idarəçiliyə və diktaturaya keçir. Fransada, Almaniyada, İtaliyada və digər Avropa ölkələrində, o cümlədən Latın Amerikasında və digər regionlarda qanuni seçilmiş nümayəndəli orqanlar dəfələrlə qovulmuşlar.

## §4. Cəmiyyətin siyasi həyatı və siyasi şüur

Siyasi şüur probleminə müraciət etmədən cəmiyyətin siyasi həyatmm fəlsəfi təhlili tam ola bilməz.

**Siyasət** siyasi ideologiyasız və bu və ya digər ölkələrin tarixinin keçid və böhranlı anında özünü daha kəskin göstərən siyasi emosiyalar və həyacanlar da daxil olmaqla bütövlükdə **siyasi şüursuz mümkün deyildir.** Lakin siyasi ideologiya yalnız sözdür, siyasət isə - işdir, yəni ictimai subyektin ictimai əhəmiyyətli məqsədlərə çatmağa yönəlmiş praktiki fəaliyyəti və real şəraitdir.

Siyasi sistemin mühüm ünsürlərindən biri **vətəndaşların dəyər və normativ baxışlarım** əhatə edən, onların dövlət institutları və öz aralarında olan əlaqələrini,

cəmiyyətin və dövlətin idarə olunmasında vətəndaşların iştirakım təmin edən siyasi şüurdur. Müasir cəmiyyətdə **siyasi şüurun** iki: mütəxəssislərin - politoloqlarm konsepsiyalarında əks olunan **nəzəri** və müasir siyasətin formalaşması və siyasi qərarların qəbul olunması proseslərinə daxil edilən, hakim siyasi elitaya xas olan **dövlət səviyyələri** mövcuddur.

Siyasi sistemin mühüm əlaməti - onun bütövlüʒdidür. Siyasi sistemin bütövlük xarakteri onu təşkil edən komponentlərlə sıx qarşılıqlı fəaliyyətdə öz əksini tapır.

**Siyasi şüur** - siyasi münasibətlərin və siyasi institutların fəaliyyətinin, eəmiyyətin bütün siyasi həyatının adamların şüurundakı inikasıdır.

Siyasi şüurun mühüm xüsusiyyəti onun çox müntəzəmliliyi, daxili ziddiyyəti iliyidir və bununla belə şüursuz psixi proseslərdən və vəziyyətlərdən fərqli olaraq - həm də ayrı-ayrı fərdlər və böyük xalq kütləsi üçün xarakterik olan - dərk ediləndir.

Siyasi şüur siniflərin, ietimai qmplarm və ayrı-ayrı şəxsiyyətlərin siyasi davranışının əsasında dayanır.

Kütləvi, qrup və fərdi siyasi şüurları ayırmaqla təhlil etmək daha məqsədəuyğundur. Problemə fəlsəfi yanaşma siyasi şüurun gündəlik (adi) və nəzəri səviyyələrini də ayırmağı nəzərdə tutur. Adi, gündəlik siyasi şüur - olduqea amorfdur (formasızdır), emosional təsirə meyllidir və bununla belə məişət təerübəsi əsasında və əhəmiyyətli dərəedə kütləvi infoımasiya vasitələri tərəfindən müəyyən məqsədə yönəldilmiş manipulyasiya nəticəsində formalaşmış kifayət qədər süst, fəaliyyətsiz şüur səviyyəsidir. O, sadə əhalinin gündəlik siyasi hadisələr, ictimai həyatda dövlətin rolu, siyasi partiyaların və b. fəaliyyəti haqqında mənimsədikləri dünyagörüşü stereo-

tiplərinə, hakim siyasi mifıərə və fərdi sağlam düşüncə əsasında yaranan baxışların məcmusudur.

**Siyasi ideologiyanın** məzmununu təşkil edən nəzəri siyasi şüur öz formasına görə elmi baxışlar sistemi kimi çıxış edir; o müəyyən siyasi konsepsiyaiara əsaslanır və bu və ya digər ictimai qrupların siyasi marağını əks etdirir. Bu baxımdan mühafizəkar, radikal, liberal, demokratik, islahatçı və başqa siyasi şüur formalarını da ayırmaq olar.

**İdeologiya** - cəmiyyətin böyük əksəriyyətinin qəbul etdiyi mülkiyyətə, hüquqa və digər münasibətlərə baxışlar sistemidir. İdeologiyaya dini, milli və s. don geyindirmək olar. İctimai qrupların xarakterlərindən asılı olaraq ideologiya irticaçı, faşist yönümlü, ekstremist və s. ola bilər.

«İdeologiya» termini XVIII əsrin sonu - XIX əsrin əvvəllərində yaranmasına baxmayaraq mürəkkəb mənəvi hadisə kimi, gerçəkliyin sadə və yüngülvari deyil, mürəkkəb, qrup maraqları vasitəsi ilə dərk olunması forması kimi qədim dövrlərdə yaranmışdır.

İdeologiyanın xarakteri və ictimai istiqaməti, ilk növbədə, orada öz iradəsini tapan qrup və partiya maraqlarından asılıdır. Buna görə də ideologiyanın əsas xüsusiyyətlərini - elmi, partiyah, sinfi, utopik, ritorik, emosional, subyektiv və s. xüsusiyyətlərini - filosoflar müxtəlif formada şərh edirlər.

**Deideologiyalaşdırma** problemi XX əsrin 60-cı illərindən başlamışdır. Bu ilk növbədə elmi-texniki inqilabın güclü inkişafı ilə bağlı idi. Deideologiyalaşdırma konsepsiyasının tərəfdarları qeyd edirlər ki, cəmiyyətin inkişafının bu mərhələsi üçün ideologiyaya ehtiyac yoxdur, ona görə ki, hər şey sürətlə dəyişir və ümumi sxemlə əhatə oluna bilməz. Bu konsepsiyanın fəal müdafiəçilərindən olan Zbiqnev Bjezinski qeyd edirdi ki.

güclü elmi dəyişikliklər, təhsil və kommunikasiya sahələrindəki kütləvi partlayışlar dəyişkən inamlar yaradır və belə şərait yaranır ki, subyektiv hisslər kollektiv öhdəliklərə nisbətən daha mühüm olur. Deideologi- yalaşdırmanm zəruriliyi həm də qlobal problemlərin həllinin vacibliyi ilə izah olunurdu. Bjezinski yazırdı ki, «ideologiya haqqında qayğılar öz yerini ekologiya haqqında qayğılara verir».

Deideologiyalaşdırma konsepsiyası dövlətlərarası münasibətləri əhatə edir. Bu gün Azərbaycanda deideologiyalaşdırma ilə bağlı söhbətlər tez-tez eşidilir. Müstəqillik şəraitində Azərbaycana ideologiyanın lazım olub- olmaması ilə bağlı geniş fikir mübadiləsi aparılır. Çoxları belə hesab edir ki, siyasi sistemin həddindən artıq ideologiyalaşdığı SSRİ dağıldıqdan sonra ideologiyaya heç bir ehtiyac yoxdur. Digərləri isə belə hesab edirlər ki, ideologiyadan azad olmağa göstərilən cəhdin özü elə ideologiyadır. Heç bir millət ıdeologiyasız yaşaya bilməz. Onlara görə müxtəlif, bir-birinə oxşamayan, bir-birinə yad olan dəyərlər olmuşdur və həmişə də olacaqdır. Bu dəyərlərin, meyllərin, maraqların və ideya mövqelərinin ictimai proseslərə heç bir təsir göstərməyəcəyini düşünmək sadəlöhvlük olardı. Əlbəttə bu təsir həmişə olacaqdır. Lakin unutmaq lazım deyil ki, yalnız öz dəyərləri və dünyagörüşü ilə məhdudlaşmaq, burnunun ucundan uzağı görməmək, «bu bizim deyil, deməli bizə lazım deyil» mövqeyindən çıxış etmək, öz mənəvi həyatını kasıblaşdırmaq demək olardı. İdeyalar mübadiləsi, mədəniyyətin qarşılıqlı surətdə əlaqəsi və qarşılıqlı surətdə mənəvi zənginləşmə vacibdir, ancaq bu ağıllı səviyyədə həyata keçirilməlidir. İdeologiyaların

mübarizəsi həm də onların müsbət mənada bir- birinə təsirini nəzərdə tutur.

Şübhəsiz ki, **miili ideologiyanı** süni şəkildə yüxarıda hazıriamaq lazım deyildir: bu ideologiya xalqın əksəriyyəti tərəfindən qəbul olunmuş, çoxillik dövlət idarəçiliyi nəticəsində yaranmış ideologiya olmalıdır. Son illərdə Azərbaycanda yaranan ideyalar kompleksi, ictimai-siyasi qumm və mədəni istiqamət milli problemlərə baxışlar sisteminin formalaşmasına kömək edə bilər.

Müasir cəmiyyətin siyasi həyatında liberal-demokratik, mühafizəkar və radikal ideologiya daha böyük rol oynayır. Liberal-demokratik ideologiyanın nəzəri bünövrəsi, əsası 1948-ci il dekabrın 10-da Birləşmiş Millətlər Təşkilatının Ali Məclisində qəbul olunmuş İnsan hüquqları haqqında ən ümumi bəyannamədir. Bu sənəd Böyük fransız inqilabı dövründə, 1789-cu il avqustun 28- də qəbul olunmuş **İnsan və vətəndaşların hüquq bəyannaməsinin** məntiqi yekunudur.

Ən ümumi bəyannamədə qeyd olunur ki, «bütün adamlar öz ləyaqətlərinə görə azad və bərabər doğulurlar» (maddə 1), hər bir adam heç bir fərq olmadan bəyannamədə elan olunmuş bütün hüquqlara və bütün azadlıqlara malikdirlər.

Ən ümumi bəyannamənin 3-21-ci maddələrində mülki hüquqlar və siyasi azadıiqlar, o cümlədən yaşamaq hüququ, şəxsiyyətin azadlığı və təhlükəsizliyi, qanun qarşısında hamının bərabərliyi, vətəndaşlıq, ölkəsinin idarə olunmasında iştirakı, mülkiyyət hüququ göstərilir. Bir sıra maddələr şəxsi toxunulmamazhğm müdafiəsi ilə bağlıdır. Sonra bir yerdən başqa yerə getmək, vicdan, dinc toplanmaq, cəmiyyət yaratmaq və s. azadlıqları haqqında danışılır. 22-27-ci maddələr iqtisadi, siyasi və mədəni

hüquqları, o cümlədən sosial təminat, əmək və azad iş, təhsil seçimini, eyni zamanda sağlam və fıravanhğı saxlamaq üçün zəruri olan həyat şəraitini bəyan edir. Bu sənədin humanist istiqamətli olması şübhəsizdir; ancaq burada elan olunmuş hüquq və azadlıqların həyata keçirilməsinin real mexanizmi, eyni zamanda bunlara riayət olunmadıqda məsuliyyət ölçüləri nəzərdə tutulmasa da onun humanist xarakterii oiması özünü göstərir. Sonuncu, 30-cu maddədə deyilir ki. Bəyannamədə heç nəyi hər hansı bir dövlətə, adamlar qrupuna və ya ayrı-ayrı adamlara Bəyannamədə göstərilən hüquq və azadlıqları ləğv etməyə yönəldilən fəaliyyət hüququ verilməsi kimi şərh etmək olmaz.

**Liberal-demokratiya** - azadlıqdır. Lakin azadlıq olan yerdə onu pozmaq istəyənlər də olur. Demokratiyadan danışan U. Çerçili onu ən iyrənc dövlət idarəçiliyi növü hesab etmişdir. Lakin həm də əlavə etmişdir ki, bəşəriyyət bundan yaxşı idarə üsulu tapmamışdır. Liberal- demokratik cəmiyyətdə hakimiyyət azad seçkilərdə qalib gələnlərə məxsusdur: əsl demokratiya və həqiqi liberalizm güclü hakimiyyəti nəzərdə tutur. Hələ vaxtilə Sokrat qeyd etmişdir ki, dövləti kütlə yox, ağılıı, bacarıqlı şəxs idarə etməlidir. Çoxluğun hakimiyyəti xaosa gətirir. Mühazirədə demokratiyanın həyata keçirilməsi mexanizmindən asılı olaraq onun birbaşa və nümayəndəli formaları ilə bağlı bəzi mülahizələri qeyd etmək tələbələr üçün maraqiı olardı.

**Birbaşa demokratiyada** bütün vətəndaşlar heç bir vasitəçi olmadan qərarlann qəbul olunmasında iştirak edir. Qədim Afinada hər hansı məsələ müzakirə olunanda xalqı meydana toplayır və onların fikirlərini öyrənirdilər. Lakin müasir dövrdə əhalinin sayının xeyli artması buna imkan

vermir, indi xalq dövlət işlərində öz seçilmiş nümayəndələri ilə təmsil olunur; onun seçdiyi adamlar qanunları qəbul edir.

Qədim Afinada olduğu kimi hər hansı vacib məsələnin müzakirəsində xalqı meydana toplayıb onunla məsləhətləşərək qərar qəbul etməsi təcrübəsinin müasir modelinə - son yüzilliklər tarixində heç bir dövlətin təcrübəsində analoqu olmayan bir hadisəyə - 90-cı illərdə Azərbaycanda təsadüf ediidi. Ölkədə yaranmış gərgin vəziyyəti nəzərə alan ölkə prezidenti heydər Əliyev xalqa müraciət edərək oniara gecə ilə Prezident Aparatının qabağına gəlməyi xahiş etdi. Az sonra xalq kütiəsi öz liderinin çağırışı ilə Prezident Aparatının qarşısında toplaşdı. Ölkənin taieyində əvəzsiz hadisə olan bu addım vaxtında və düşünülmüş bir tədbir oldu. Xalqın dəstəyini hiss edən prezident Azərbaycanm tarixində misli görünməmiş bir hadisənin müəliifınə çevrildi. Mühazirədə bu hadisə ilə bağlı fikir mübadiləsi aparmaq və seminar dərslərində bu məsələyə tələbələrin öz münasibətini bildirməsinə imkan yaratmaq çox vacibdir.

Demokratiyadan danışarkən çoxluğun və ya azlığın hüquqları məsələsinə də diqqət yetirmək lazımdır. Əhalinin 51 faizi çoxluq adı ilə yerdə qalan 49 faizə öz iradəsini qəbiri etdirir. Bunu düzgün və ədalətli sistem adlandırmaq nə dərəcədə doğrudur? - Bu məsələni tələbələrin müzakirəsinə vermək və əlavə məsləhət saatlarında təhlil etmək daha məqsədəuyğundur.

**Mühafizəkar və radikal ideologiya** - burjua liberalizminin «sağdan» və «soldan» tənqididir. Klassik variantda o ingilis mütəfəkkiri Byerkin («Fransadakı inqilaba dair düşüncələrw, 1790) və alman nəzəriyyəçiləri Marks və Engelsin («Kommunist partiyasının manifesti»,

1848) əsərlərində verilmişdir. Byerk burjua liberalizmini Britaniya aristokratiyası, Marks isə dünya proletariatı mövqeyindən tənqid etsələr də onları ayrıca fərdin hüquq və azadiıqlarma soyuq münasibət birləşdirir. Byerk insan nəslinin, bütövlükdə bəşəriyyətin, Marks isə proletariatın maraqlarını onların maraqlarına qarşı qoymuşdur. Digər məsələlərdə bu mütəfəkkirlərin baxışları bir-birinə əksdir. Belə ki, Marks insan əqlinə, elmi nəzəriyyələrin təntənəsinə, Byerk isə adamların praktiki təcrübəsinə, adət və ənənələrə, nəhayət sağlam düşüncəyə inanırdılar. Marks inqilaba çağırır, Byerk isə islahatlara üstünlük verirdi və göstərirdi ki, inqilabi praktika gedişində həyata keçirilən ən böyük planlar ziddiyyətli nəticələrə gətirib çıxara bilər. Əgər Marks bütün zəhmətkeşlərin (proletariatın) azadlığı, bərabərliyi və qardaşlığının tərafdan idisə də, Byerk ictimai müxtəliflik mənbəyi kimi xüsusi mülkiyyətin və ictimai bərabərsizliyin saxlanmasının zəruriliyini qeyd edirdi. Marks zəhmətkeş kütlələrin şüuriuluğuna inanır, Byerk isə diktatordan qorxmağa və kütlələrə inanmamağa çağırırdı.

**Radikalizmdən** fərqli olaraq mühafizəkathq bu gün də Qərbi Avropa və Amerikada ən nüfuzlu siyasi ideologiyadır.

Cəmiyyətin həyatının bütün sahələri kimi onun siyasi həyatı da cəmiyyətin mənəvi həyatı ilə sıx bağlıdır. Məhz burada ictimai varlığın müxtəlif sahələri arasındakı qarşılıqlı əlaqə özünü göstərir. Həyatın hər hansı bir sahəsindəki çatışmamazlıq o biri sahələrdə də öz izini qoyur və bu bütövlükdə cəmiyyətə bütöv bir sistem kimi təsir göstərir.

## Təkrar üçün suallar

Cəmiyyətin siyasi həyatı probleminə fəlsəfi yanaşmanın özünəməxsusluğu nə ilə izah olunur?
»Hakimiyyət» və «siyasət» kateqoriyaları öz aralarında neeə əlaqələnirlər? «Hakimiyyət bölgüsü» nə deməkdir?
Cəmiyyət həyatının siyasi sahəsi ilə digər sahələri arasındakı qarşılıqlı əlaqə nədə təzahür edir?
Cəmiyyətin siyasi sistemində dövlətin yeri və rolu ilə bağlı mülahizələrinizi danışın.

5. Vətəndaş eəmiyyəti və hüquqi dövləti xarakterizə edin.
6. Siyasi şüurun sturukturu, onun səviyyələri və növlərini təhlil edin.
7. Müasir siyasi ideologiyanın əsas növlərini sadalayın.
8. Azərbaycanın siyasi həyatında görkəmli siyasi xadim Heydər Əliyevin yeri və rolu ilə bağlı fikir mübadiləsi aparmaq vacibdir.
9. Azərbaycanda vətəndaş cəmiyyətinin bərqərar olmasında və hüquqi dövlət quruculuğu sahəsindəki naiüyyətlərində Heydər Əliyevin xidmətiəri.
10. Heydər Əliyev və Azərbaycan dövlətçiliyi.

## Mövzu ilə bağli məsələlər və tapşırıqlar

1. Bəzi müəlliflər «cəmiyyətin siyasi təşkili» anlayışına yalnız müvafiq təşkilatlan, institutları, müəssisələri, digərləri isə həm də qarşılıqlı fəaliyyət prosesində yaranan siyasi münasibətləri də daxil edirlər.

- Bu nöqteyi-nəzərlər arasında fərqlər mövcuddurmu və nə üçün?
- Cəmiyyətin siyasi təşkilinin bu iki anlamını izah etmək üçün istifadə olunan amillərin sayı eynidirmi?

2. «Cəmiyyətin siyasi sistemi» və «siyasi hakimiyyət sistemi» anlayışlarının həcmi üst-üstə düşürmü?

3. Aşağıda sadaladığımız təşkilatlardan və müəssisələrdən hansılar öz tərkibinə, fəaliyyətlərinin və məqsədlərinin xarakterinə görə daha aydın siyasi xarakter daşıyırlar?

a) həmkarlar ittifaqları,
b) balıqçılıq cəmiyyətləri, v) dövlət,
q) yaradıcılıq təşkilatları,
d) sənayeçilər, ticarətçilər ittifaqları və s. ,
e) siyasi partiyalar və qruplar, j) idman cəmiyyətləri,
z) dini təşkilatlar,
i) mədəni-maarif və təbliğat müəssisələri, k) kooperativ birlikləri,
l) hərbi təşkilatlar,
m) ikitərəfli və ya dini əsaslarla yaradılan hərbi ittifaqlar, n) təhsil müəssisələri, p) elmi idarələr, r) gənclər təşkilatları.

4. Aşağıda cəmiyyətin siyasi sisteminin müxtəlif tərifləri verilir. Onların müqayisəli xarakteristikasını verin:

a) cəmiyyətin siyasi sistemi deyərkən siniflər, xalqlar arasındakı siyasi qarşılıqlı münasibətləri, yalnız siyasi

deyil, həm də təsərrüfat, mədəni və ictimai həyatın bütün digər sahələrində bu və ya başqa şəkildə təzahür edən münasibətləri nizama salan hüquqi-dövlət, siyasi və ictimai institutların, təşkilatların və müəssisələrin bütün məcmusu başa düşülür.

b) istənilən sinfi cəmiyyətin siyasi təşkilinə siniflər, millətlər və dövlətlər arasındakı qarşılıqlı münasibəti nizama salan institutlar, təşkilatlar və müəssisələr sistemi kimi tərif vermək olar.

c) Cəmiyyətin siyasi təşkili - mövcud sinifli cəmiyyətin bütün siyasi müəssisələrinin sistemidir.

ç) Cəmiyyətin siyasi təşkili - siyasi hakimiyyətin həyata keçirilməsi vasitəsi olan dövlət və ictimai təşkilatlar və institutlar sistemidir.

5. «Məcbur etmə» kateqoriyası «dövlət məcburiyyəti» kateqoriyasına uyğun gəlirmi?

- Bu suala verilən cavaba əsasən belə bir məsələyə aydınlıq gətirin: müasir cəmiyyətdə hər hansı məcburiyyət ölçüləri tətbiq olunurmu?

6. İbtidai icma quruluşunda dövlət olmamışdır.

- Bu o deməkdirmi ki, sinifli cəmi}^ətə qədərki qumluşda hər hansı idarə orqanı olmamışdır?

7. Tayfanın yaşlı üzvlərindən təşkil olunmuş Ağsaqqallar şurasını dövlətin ilk əlaməti kimi qəbul etmək istəyənlər çoxdur.

- Ağsaqqallar şurası və dövlətin funksiyalarında hansı oxşar cəhətlər özünü göstərir?

8. İcma quruluşu şəraitindəki «avtoritetin hakimiyyəti» ilə sinifli cəmiyyətdəki «hakimiyyətin avtoriteti» arasında fərqli cəhətlər olduğunu qeyd edirlər.

- Sizin fıkrinizcə, bu fərqlər hansılardır?

9. Dövlətin mənşəyi ilə bağlı müxtəlif fikirlər söylənir. Bu izahlara öz münasibətinizi bildirin.

a) Dövlətin ilkin əsasını artıq Yaradan törətmişdir, ona görə də adamlar dövlət halında birləşərək Allahın iradəsini həyata keçirməlidirlər.

b) Dövlət düşmənçilik edən fərdlərin arasındakı ictimai müqavilənin nəticəsində yaranan cəmiyyət orqanıdır.

c) Dövlət - adamların tabe olmağa vərdişi nəticəsində yaranan cəmiyyəti idarə etmək vasitəsidir.

ç) Dövlət - inkişafın məlum mərhələsində cəmiyyətin məhsulu kimi yaranmışdır; cəmij^ət həllolunmaz ziddiyyətlər səviyyəsinə düşmüş, cəmiyyətdəki parçalanma barışmaz ziddiyyətlər törətmiş və bundan xilas olmaqda cəmiyyət acizliyini hiss etmişdir... Cəmiyyətdən gələn, lakin özünü ondan üstün qoyan və özünü ondan daha çox uzaqlaşdıran qüwə dövlətdir.

10. Dövlətə müxtəlif təriflər verilir. Onları sadalayın və fəlsəfi qiymət verin

- Dövlət - ərazi və əhalini birləşdirən müstəqil orqanizmdir.
- Dövlət bir sinfin digərləri üzərində hakimiyyətini qoruyan istismarçı aparatdır.
- Dövlət insanlar arasındakı münasibətləri tənzimləyən mexanizmdir.

11. Fəlsəfə tarixində mütəfəkkirlərin dövlətlə bağlı müxtəlif fikirləri olmuşdur.

- Onlardan bir neçəsini sadalamaqla təhlil edin.

12. Dövlət müəssisəsini saxlamaq üçün vətəndaşlardan yığılan vergi əsas vasitə hesab olunur.

- Müasir dövlətin timsalında büdcənin hansı sahəsini əhalidən toplanan verginin təşkil etdiyini göstərin.

13. «Qanun həm yaxşı, həm də pis adamlar üçün əhəmiyyətsizdir. Birincilər qanuna ehtiyac hiss etmir, ikincilər isə onunla yaxşı olmurlar» (Demonakt).

- Qanuna verilən bu şərhlə razılaşırsmızmı?

14. Müxtəlif tarixi dövrlərdə mövcud olan dövlətlər müxtəlif funksiyalar yerinə yetirmişlər.

- Bu funksiyalardan hansı dəyişməz qalmış, hansılar isə şəraitə uyğun dəyişikliyə uğramışdır?

15. Ş.Monteskye belə hesab edirdi ki, monarxiyanın ruhu müharibə, respublikanın ruhu isə sülh və barışıqdır.

- Dövlətin xarici siyasət funksiyasının onun siyasi idarə forması ilə uyğun gəldiyini göstərən bu baxışla razılaşırsmızmı?

16. Aşağıdakı terminlərdən hansılar dövlət quruluşunu xarakterizə edir?

- konstitusiyah monarxiya, - faşist diktaturası,
- respublika, - federasiya,
- kantonlar.

17. Müasir dövlətlərin fəaliyyətində siyasi idarəetmə və siyasi rejim arasında uyğunluq vanuı?

- Konkret misallarla fikrinizi bildirin.

18. Bir sıra nəzəriyyəçilər inqilab deyərkən mövcud konstitusiyah quruluşun zorla devirilməsi başa düşürlər.

- İctimai inqilab və zorla həyata keçirilən siyasi çevriliş arasında münasibət necədir?

19. XX əsrin 90-cı illərində Azərbaycanda baş verən siyasi hadisələri təhlil etməyə çalışın.

- Xalq Cəbhəsinin hakimiyyətə gəlməsi və dövlət idarəçiliyi sahəsindəki səriştəs'ızlik Azərbaycanın siyasi həyatında nə kimi iz qoydu?

- Dövlətə səriştəli, siyasi nüfuza malik olan, dövlət idarəçiliyi işlərində geniş təcrübəsi olan şəxsiyyətin gəlməsi ilə Azərbaycan nə qazandı?

- «Heydər Əliyev və Azərbaycanın siyasi həyatı» mövzusunda referatlar yazmaq, konfranslar və elmi dis- putlar keçirməyin əhəmiyyəti nədir?

- Müasir gənclərin dünyagörüşünün formalaşmasında Heydər Əliyev fenomeninin gücü və əhəmiyyəti.

20. Müasir dünya siyasəti və Azərbaycan Respublikası.

**Ədəbiyyat:**


1. Гозман Л.Я. Эткинд А.М. Люди и власть: от тоталитаризма к демократии. М., 1989;
2. Мангейм К. Идеология и утопия. М., 1991;
3. Васильев Л.С. Проблемы генезиса Китайского государства. М., 1983;
4. Философия и политика в современном мире. М., 1989

# V FƏSIL

## Cəmiyyətin mənəvi həyatı

İctimai həyatın mənəvi sahəsi çoxplanhğı və öz rəngarəngliyi ilə seçilir. Bəşəriyyət dünyanın mənəvi anlaşılmasının və mənimsənilməsinin bir sıra üsullarını - elmi, estetik, mənəvi, dini və s. işləyib hazırlaya bilmişdir. Onların hər biri reallığın yalnız hansısa bir hissəsini əhatə edir, daha dəqiq dünyanı gömıəyin müəyyən rakursunu verir - bu da dünyada hər hansı məna axtarmağa və insanın bu mənada iştirakını müəyyən etməyə imkan verir. Onların hamısı bir yerdə özünəməxsus sistemli vəhdət yaradır ki, burada həmdünyanm mənəvi mənimsənilməsi üsullarının əsaslı fərqi, həm də onların bir-birini qarşılıqlı tamamlaması, daxili qarşılıqlı əlaqələri açıq görünür.

İnsanın və bəşəriyyətin mənəvi həyatı - fenomendir, onun vasitəsi ilə ətraf aləmin dərk olunması, bu aləmə daha dərin və incə münasibətin işlənib hazırlanması baş verir. Məhz onun vasitəsi ilə insanın özü-özünü dərk etməsi, öz həyatının məqsəd və mənasını anlaması prosesi gedir. İnsan öz mənəvi dünyası ilə təbiətdən özü üçün lazım olanı seçir və ona ictimai xarakter verir.

Bəşəriyyət tarixi insanın mənəvi dünyasının ziddiyyətliliyinin, onun yüksəlişinin və tənəzzülünün, bir çox dəyərləri itinnəsinin və mənimsəməsinin, faciəsinin və zəngin potensialının şahidi olmuşdur.

Bu gün cəmiyyətin mənəvi dünyası - bəşəriyyətin yaşaması, onun etibarlı həyat təminatı, cəmiyyətin və şəxsiyyətin sabit inkişafı kimi vəzifələrinin həllinin şərti

amili və incə alətidir. İnsanın mənəvi potensialdan necə istifadə etməsindən onun bu günü və gələcəyi asılıdır.

Bu mövzunun predmeti - mənəvinin zəngin şahlıq dünyasıdır. Burada bizim vəzifəmiz - ictimai şüurun məğzini yığcam təhlil etmək, onu fərdi şüurun təhlili ilə bağlamaq, ictimai şüurun müxtəlif aspektlərini və səviyyələrini, onun cəmiyyət həyatında və şəxsiyyətin varlığında əhəmiyyətini nəzərdən keçirarəkdir. Belə düşünürük ki, aşağıdakı şəkildə təhlil sistemi qurmaq daha məntiqidir: ictimai şüurun mahiyyəti və səviyyələri, ictimai rəy və şayiə (xəbər), ictimai psixologiya və ideologiya, siyasi şüur, hüquqi şüur, əxlaqi şüur, şüur və təcrübə foraıası kimi dinin fəlsəfəsi, estetik şüur və incəsənətin fəlsəfəsi, elmi şüur və elm aləmi və nəhayət, cəmiyyətin mənəvi həyatının yekun fenomeni kimi mədəniyyət. Bu cür nəzərdən keçirmə olmadan ictimai reallığa bütöv sistemli yanaşmadan söhbət gedə bilməz. Bu insanın başını, beynini, əqlini yaddan çıxarıb onu təhlil etməyə mənasız cəhd olardı.

Mənəvi - mürəkkəb anlayışdır. O, əsasən dində, dini və idealist meylli fəlsəfədə istifadə olunmuş və burada o, müstəqil mənəvi substansiya kimi çıxış etmişdir.

## §1. Cəmiyyətin mənəvi həyatı anlayışı, mahiyyəti, ictimai təbiəti və məzmunu

**Cəmiyyətin mənəvi həyatı** deyərkən varlığın o sahəsi başa düşülür ki, burada obyektiv, fərddən kənar reallıq bizə predmet gerçəkliyə qarşı duran formada deyil, bizim özümüzdə olan, insan şəxsiyyətinin ayrılmaz hissəsi olan reallıq fonnasmda verilir.

Göründüyü kimi, mənəvi həyatın müəyyən edilməsinə cəhd edən kimi ziddiyyət yaranır: sanki mənəvi ideal başlanğıc öz-özünə, insandan kənarda mövcud deyildir, lakin eyni zamanda onlar- fərddən kənar ümumi, obyektivdir, yəni elə bil insandan asılı deyildir. Həqiqət, xeyirxahlıq, gözəllik və s. kimi ideal başlanğıcların anlaşılmaz statusu "mənəvi probleminin" məzmununu təşkil edir, həmişə filosofların diqqətini özünə cəlb etmişdir.

Mənəvi həyatın fəlsəfi təhlili ənənəsi qədim dövrə gedib çıxır. Bu problemi araşdırmağa ilk cəhd edən Platon olmuşdur. Onun fəlsəfəsində cisimsiz, qeyri-müəyyən ideal başlanğıc kifayət qədər sistemləşdirilmiş və iyerarxiyalaşdırılmış struktura çevrilir. Sanki dünyanı "saxlayır", onun əsasını təşkil edir. Dəyişən, axan və yetkin olmayan dünyada Platon mütləqi, yetkinliyi, daimiliyi axtarır və onu yalnız idealar aləmində tapır; bu aləm filosofda müstəqil mövcudluq statusu qazanır. Bu ideal dünyanın təhlili:-anlayışların müəyyən edilməsi, onların bölünməsi və bir-birinə tabe edilməsi, onların maddi aləmlə tutuşdurulması yollarının axtarılması - bax bunlar Platonun fəlsəfi xidmətləridir. Deyirlər ki, filosof- luq etmək - anlayışları və kateqoriyaları "görməkdir". Əgər bu belədirsə, onda Platonu istər zamana, istərsə də böyüklüyünə görə ilk filosof adlandırmaq olar. Təsadüfü deyil ki, müasir nəzəriyyəçilərdən biri fəlsəfənin bütün sonrakı tarixini "Platona genişləndirilmiş şərh" adlandırmışdır.

Lakin Platon nə qədər böyük olsa da, antik fəlsəfə nə qədər ona hörmət etsə də bu dövrün insanlarının şüumnda mənəvi dəyərlər hakim kəsilə bilmədi. Lakin orta əsrlərdə "Platon xətti" gözlənilmədən və özünəməxsus şəkildə

inkişaf etməyə başladı. Bir sıra tarixi səbəblərdən min illər ərzində Avropanın mənəvi həyatına hökmranlıq edən xristian dini əsas həyati dəyərlər cədvəlinə köklü dəyişikliklər etdi. Həyatın maddi tərəfmə Platonun yüngül etinasızlığını ona birmənalı etinasızlıq əvəz etdi və mənəvi dəyərlər yüksəldikdə, Allah mənəvi başlanğıc hesab olundu. Orta əsrlər dini fəlsəfəsi mənəvinin məntiqi tərəfi üzərində xeyli çalışsa da mənəvi problemi çox da irəliləmədi, belə ki, ilk əvvəldən aydın idi ki, mənəvinin ilahi mahiyyətini varlıq kimi qəbul etmək lazımdır, onun meydana gəlməsi səbəblərini axtarmaq lazım deyildir.

Yeni dövrün başlanması ilə ilahi əql yerinə insan əqlinin nüfuzu irəli çəkildi. ”Əql dünyanı idarə edir” - XVIII əsrin mənəvi inqilabçıları bəyan edirlər; onlar ilk növbədə ictimai qaydaların ağıllı qurulmasını nəzərdə tuturdular. İnsan əqlinin real müvəffəqiyyətləri o dərəcədə böyük oldu ki, (sənaye, elm, siyasət, hüquq) işıqsaçan əqlə mane olacaq heç nə görünmürdü. Hətta insan əqlinin bu dərəcədə “ağıllı” olması sualım belə qoyan olmadı.

Bu bir az sonra baş verdi. Klassik alman fəlsəfəsi pedantcasma insan əqlinin real imkanlarını təhlil edərək (Kant) onun dialektik ziddiyyətini göstərdi, mənəvinin təkamülü tarixini qurmağa (Hegel) cəhd etdi.

İnsan əqlinin mənşəyi və onun təkamülünün hərəkətverici nüvəsi məsələnin aydın qoyulmasında və həllindəki xidmət Marksa məxsus olmuşdur. Hal-hazırda marksist doktrina bütövlükdə necə qiymətləndirilsə də insan əqlinin mənşəyi və inkişafı probleminin sadə və səmərəli həllini heç kəs təklif etməmişdir.

Lakin XVIII əsr filosofları üçün qalibiyyəti! parlayan oqlin işığı bəşəriyyəti sonrakı iki yüz il ərzində uğursuz ictimai təcrübələrdən, çoxsaylı anlaşılmaz itki və əzab

lardan, praktiki olaraq idarə olunmayan tarixin inkişafından qoruya bilmədi. Məhz buna görə də, təəccüblü deyil ki, rasionalist fəlsəfə (marksist fəlsəfə də buna aiddir) hakim mövqeyini çox saxlaya bilməmişdir. XIX əsrin sonunda filosofluq etməyin yeni qeyri-klassik xətti meydana gəlir; onlar şüurlu surətdə irrasionalizmi və dünyanın rasional qurulması və onun adekvat dərk olunmasının mümkünlüyünə sadəlövhcəsinə olan inama gülürdü. Onlar bir sıra maraqlı hadisələri ortaya qoysalar da, bizi narahat edən problemə dair - mənəvinin mənşəyi və ontoloji statusu haqqında məsələ bu təlimlərdə öz həllini tapmışdır.

Mənəvi anlayışı “mənəvi intibah” konsepsiyasında, ’’mənəvi istehsal”, ’’mənəvi mədəniyyət” və s. tədqiqatlarda geniş istifadə olunur. Lakin onun konkret tərifi hələ də mübahisəlidir.

**Mənəvi** - antropoloji konteksdə mənəvi anlayışı insanın daxili, subyektiv aləmini “insanın mənəvi dünyası” kimi xarakteristikasını vermək üçün istifadə olunur. Bəs bu dünyaya nə daxildir? Onun varlığı, eyni zamanda inkişafı hansı meyarla müəyyən olunur? Aydındır ki, mənəvi anlayışı əqllə, rasionalhqla, təfəkkür mədəniyyəti, biliyin səviyyəsi və keyfiyyəti ilə məhdudlaşmır. Eyni zamanda mənəvi sırf təhsil vasitəsi ilə də formalaşmır. Şübhəsiz ki, sadaladıqlarımızdan kənarda da mənəvi mümkün deyildir, lakin birtərəfli rasionalizm mənəvi haqqında tam təsəvvür əldə etməyə imkan vermir. Mənəvinin sahəsi öz həcminə və məzmununun zənginliyinə görə rasionalizmə aid olanların hamısından genişdir.

Şübhəsiz ki, insanın davranışını və daxili aləmini əsaslandıran utilitar-praqmatik dəyərləri müəyyən etmək üçün mənəvi anlayışı zəruridir. Lakin insanın varlığının

“obodi sualları” sistemində hər bir adam üçün həyati əhəmiyyətli problemləri həll etmək üçün, vacib olan dəyərləri eyniləşdirmək üçün daha çox lazımdır. Onların həllinin çətinliyi ondadır ki, hamı tərəfindən qəbul olunmuş əsaslara malik olsalar da, hər dəfə, konkret tarixi zaman və məkanda hər bir adam onu özü üçün açır və yenidən həll edir, həm də özünəməxsus şəkildə həll edir.

Beləliklə, burada əsas məsələ müxtəlif biliklərin toplanması deyil, onların mənası və məqsədidir. Mənəvi mənaların əldə edilməsidir. Mənəvi dəyərlərin məqsəd və mənaları müəyyən iyerarxiyasını göstərir, onda insanın dünyanı dərk etməsinin yüksək səviyyəsinə aid olan problemlər cəmləşir. Mənəvi dərk etmə “həqiqət, xeyirxahlıq və gözəllik” və digər ali dəyərlərin əldə olunması yolu ilə qalxmaqdır.

İnsanın ətraf aləm və özü haqqında olan biliklərin- dəki uyğunsuzluq onun mənəvi varlıq kimi formalaşmasında ziddiyyət yaradır. Cəmiyyətin mənəvi həyatı probleminin mənbəyi insanın özünün ikili maddi-mənəvi təbiətinə əsaslanır. İnsanın varlığının mənəvi tərəfi obyektiv aləmin inikasının xüsusi forması kimi, bu dünyada oriyentasiya vasitəsi kimi, həm də onunla qarşılıqlı fəaliyyət vasitəsi kimi onun praktiki fəaliyyətinin əsasında yaranır. İnsanın praktiki fəaliyyəti ilə mənəvinin genetik əlaqəsi heç vaxt qırılmır: bəşəriyyətin qurulduğu dövrdə də belə olmuşdur, indi də hər bir adamın formalaşdığı (ictimailəşdiyi) dövrdə də belədir. Axı mücəiTəd təfəkkür bizim təbii qabiliyyətimiz, bacarığımız deyildir. O, bioloji olaraq irsən keçmir, fərdin spesifik həyat tərzi və fəaliyyət ilə ünsiyyəti prosesində formalaşır.

İnsan təfəkkürü öz mahiyyətinə görə konkret fəaliyyətdir, yalnız real hiss olunan predmetlərlə deyil.

onların ideal əvəzləyiciləri ilə- işarələr, simvollar, surətlər və s. vasitəsi ilə həyata keçən fəaliyyətdir. Başqa sözlə desək, fikrin bütün əməliyyatları xarici predmeti fəaliyyətin daxili ideal plana özünəməxsus şəkildə keçirilməsi nəticəsində formalaşır. Məhz bu vəziyyət subyektiv insan mənəviyyatının obyektiv əsasını təşkil edir. İnsanın praktiki fəaliyyəti obyektiv aləmin qanunauyğunluqlarından kənar qurula bilmədiyi kimi, bizim mənəvi fəaliyyətimiz də bütövlükdə bu aləmin qanunauyğunluqlarına tabe olmalıdır. Söhbət maddi və idealın tam eyniləşdirilməsindən getmir. Əsas məsələ onların prinsipial vəhdətində, əsas cəhətlərinin uyğun- luğundadır. Bununla belə insanın yaratdığı anlayışların, surətlərin, ehkamların ideal aləmi müstəqilliyə, muxtariyyata malikdir. O, maddi gerçəklikdən xeyli uzaqlaşa bilər, hətta özünə mütləq müstəqillik yarada bilər. Lakin mənəvi özünün maddi əsasından tamamilə ayrıla bilməz. Ən azı iki əsas buna imkan vermir: onun "maddi" mənşəyi, insanın maddi fəaliyyətindən törəməsi, həm də belə bir sadə fakt ki, son məqamda mənəvinin əsas funksiyası, onun məqsədi insanın dünyadakı oriyentasiyasıdır. Bu oriyentasiyanı itirmək mənəvinin məhvi deməkdir.

Bundan başqa mənəvinin obyektivliyinin daha bir əsası var. Mənəvi fəaliyyətin müxtəlif məhsulları - ideyalar, noraıalar və başqaları- bu dəfə yaranmaqla və öz praktiki əhəmiyyətlərini sübut etməklə bəşəriyyətin ictimai yaddaşında qeyri- məhdud çox qalırlar. Ən ümumi diqqət obyektinə çevrilmək və nəsildən-nəslə verilmək üçün istənilən mənəvi mütləq maddiləşdirilməlidir, hər hansı işarə, simvol, səs, təsvirlə ifadə olunmalıdır. Mənəvinin bu cür predmetləşdirilməsi eyni zamanda onun

obyektivləşdirilməsi kimi çıxış edir. Bu cür yeni, “fövqəltəbii” reallıq (öz-özlüyündə mətn, səs, qayda yox, onların mənası, məzmunu) ayrıca fərddən ayrılır və ona eyni zamanda bütün sonrakı nəslə münasibətdə obyektiv, yəni konkret fərdin şüurundan asılı olmayaraq, həm də bu şüursuz mövcud olmayan bir şey kimi çıxış edir. İnsanların ünsiyyət vasitələri, dillər, məntiqi təfəkkür qaydaları, gözəllik, həqiqət, ədalət və s. haqqında təsəvvürlər fikir formalarına çevrilir; onlarla ünsiyyət elə insanın ictimailəşməsi prosesinin, yəni onların mədəniyyətin əsas normalarını mənimsəmələri prosesinin mahiyyətini təşkil edir. Cəmiyyətin mənəvi həyatı - varlığın və insan və cəmiyyətin inkişafının mühüm tərəfidir. Burada insanın əsl mahiyyəti özünü təzahür etdirir.

Bu və ya digər fərdin beynində yaranan müəyyən ideya ictimai şüurda yaşamağa başlayır. Axı hər hansı bu və ya digər ideya ictimai təlabatm predmetinə çevrilənə qədər, çox güman ki, düşünən insanın hər hansı mənəvi təlabatma cavab verir. İctimai şüur insanların təbiət hadisəsinə və ictimai reallığın məcmusuna baxışlarıdır; bu cəmiyyət tərəfindən yaradılan təbii və süni dildə, ictimai qıoıpun, xalqın və bütövlükdə bəşəriyyətin norma və baxışlarında, mənəvi mədəniyyət abidələrində ifadə olunur. İctimai şüur cəmiyyətin və bəşəriyyətin mənəvi mədəniyyətini təşkil edir. Bu yalnız ictimai həyat haqqında ideya deyil, həm də cəmiyyətin bütövlükdə dünya haqqında, o cümlədən özünün özü haqqında ideyasıdır. İctimai şüur mürəkkəb struktura və müxtəlif səviyyələrə - məişət, adi, ictimai psixologiyadan başlayır və ən mürəkkəb, ciddi elmi formalarda qurtarır - malikdir. İctimai şüurun struktur ünsürəri onun müxtəlif formalarıdır: siyasi, hüquqi, əxlaqi, dini, estetik, elmi və fəlsəfi

şüur - onlar öz aralarında predmetinə və inikas foraıalarına, ictimai funksiyalarına, qanunauyğun inkişaf xarakterinə, eyni zamanda ictimai varlıqdan asılılıq səviyyələrinə görə fərqlənirlər.

ictimai varlığın mahiyyəti haqqında məsələ göründüyü qədər də sadə deyildir. İlk çətinlik ondan ibarətdir ki, ictimai varlıq və ictimai şüurun münasibətlərindən danışarkən, sadəcə olaraq, ümumfəlsəfi planda "ilkin və ondan törəmə" haqqında danışmaq olmaz. Ona görə olmaz ki, bu kifayət deyildir. Əslində, ictimai şüur ictimai varlığın yaranmasından sonra keçən müəyyən vaxtdan sonra yaranmamış, onunla eyni vaxtda və onunla vəhdətdə yaranmışdır. Əgər dünya, kainat insan əqlinin mövcudluğuna bütövlükdə "biganə" olsa da, cəmiyyət onsuz nəinki yarana və inkişaf edə bilməz, hətta bir gün və bir saat belə mövcud ola bilməz. Cəmiyyət subyektiv- obyektiv reallıq olduğundan ictimai varlıq və ictimai şüur sanki bir-birinə "yüklənmişdir": şüurun enerjisi olmadan ictimai varlıq hərəkətsiz və hətta ölüdür. Maddi istehsal prosesinin(ictimai varlığın əsası) özü də müəyyən anlardan birində şüurdan asılı olmayaraq mövcud olsa da, şüurdan asılıdır və şüurun hakimiyyətindən yalnız nisbi müstəqilliyə malikdir. Burada heç bir idealizm yoxdur, yalnız belə bir məlum faktı təsdiq edirik ki, şüur iki ipostasla: dərk edən və fəal- yaradıcı qabiliyyəti ilə reallaşır.

Hər kəs anlamalıdır ki, şüurun mahiyyəti ondan ibarətdir ki, o, ictimai varlığı yalnız ona fəal yaradıcı yanaşma vasitəsi ilə dərk edə bilər. Şüurun "qabaqlamaq inikası" funksiyası ictimai varlığa münasibətdə daha dəqiq reallaşır ki, bu da əsaslı şəkildə gələcəyə cəhdlə bağlıdır. Fikrin gələcəyə sürətli uçuşu və ictimai varlığın, ilk

növbədə onun əsası olan iqtisadiyyatın nisbətən ləng inkişafı arasındakı uyğunsuzluq adamları çaşdırır, istənilən gələcək hər hansı ideal kimi canlandırılır və təəccüblü deyil ki, yaranan uyğunsuzluq yaradıeı düşüneələrə mane ola bilmir, belə ki, insanın düşüncələri çoxdan reallığa uyğun gəlmir. Axı mövcud reallığın nə vaxtsa düşünən insanların beynində olan ideyaların reallaşmasının mahiyyətidir, indi isə bu gerçəklik sanki daşlaşmış fikirdir. Başqa sözlə desək, fikir gerçəkliyi xeyli qabaqlayır, onunla əlaqə yaratmaqdan imtina edir, yeni yüksəklərə can atır, o isə var gücü ilə öz mövcudluğunu qoruyub saxlamaq istəyir. Bu da yaradıcı fikrin cəhdi və müvafiq reallıq arasındakı ciddi ziddiyyəti şərtləndirir. Tarixdə çoxlu nümunələr var ki, ideyalar, xüsusən də ietimai-siyasi ideyalar cəmiyyətin mövcud vəziyyətini qabaqlayır və hətta onu dəyişdirir.

**Cəmiyyət maddi-ideal varlıqda*.** Ümumiləşdirilmiş baxışların, ideyaların, hisslərin, əxlaqların, nəzəriyyələrin, ənənələrin və s. məemusu, başqa sözlə desək, ictimai şüurun məzmununu təşkil edənlər mənəvi reallığı yaradırlar, ictimai varlığın tərkib hissəsi kimi çıxış edir, belə ki, o ayrıca fərdin şüuruna verilmişdir. Burada mənəvinin fərddən üstün olan dünyasından danışmaq lazımdır. Bu qavradıqlarımız, dərk etdiklərimiz, qiymətləndirdiklərimiz və tənqid etdiklərimizdir. Bu yalnız dilin yaranması ilə mümkün olur, onun köməyi ilə fərdi şüur varlığın fərddən üstün olan formasını əldə edir. Məhz bu vaxt həqiqəti səhvdən fərqləndirmək imkanı yaranır. Yalnız fərdi şüur səviyyəsində, dil formasında onun obyektivləşdirilməsi olmadan bütün bunlar mümkün deyildir.

İctimai varlıq və ictimai şüurun vəhdətini qeyd etməklə, onların arasındakı fərqi, spesifik ayrılığı, nisbi

müstəqilliyi də qeyd etməyi unutmaq lazım deyildir. Tarixən ictimai varlıq və ictimai şüurun qarşılıqlı əlaqəsi nisbi müstəqillik şəraitində aşağıdakı kimi reallaşmışdır: cəmiyyətin inkişafının ilkin mərhələsində ictimai şüur ictimai varlığın bilavasitə təsiri altında formalaşmışdır, sonradan bu təsir daha çox vasitəli xarakter almışdır- dövlət, siyasi, hüquqi, əxlaqi, dini münasibətlər və s. vasitəsi ilə həyata keçmişdir; ictimai şüurun varlığa əks təsiri ilə daha çox bilvasitə (vasitəsiz) xarakter kəsb etmişdir. İctimai şüurun ictimai varlığa bu cür bilvasitə təsirinin mümkünlüyü şüurun varlığı düzgün əks etdirməsi hesabına mümkün olmuşdur.

Beləliklə, şüur inikas kimi və fəal yaradıcı fəaliyyət kimi özündə eyni bir prosesin iki ayrılmaz tərəfini əks etdirir; varlığa təsiri ilə şüur onu həm qiymətləndirə, onun potensial mənasını aça, proqnozlaşdıra bilər, həm də adamların praktiki fəaliyyəti ilə onu dəyişdirə bilər. Ona görə də dövrün ictimai şüuru varlığı əks etdirməklə yanaşı, həm də onun yenidən qurulmasına fəal təsir edə bilər. (Şüur varlığı həm təhrif edə, həm də onun inkişafını ləngidə bilər- ancaq bu başqa məsələdir). İctimai şüurun tarixən formalaşmış funksiyası elə bundan ibarətdir ki, elə bu da onu istənilən ictimai şüur üçün obyektiv zəmri və real mövcud olan ünsür edir. Mənəvi aləmin məhsulları işarələrdə, simvollarda, dillərdə - şübhəsiz buna əmək sərf olunur və adamların beynində kodlaşdırıhr. Düşünməyən və hiss etməyən beyindən kənarda - bütün bunlar mənəvi hesab oluna bilməz.

Mosart öz dühasının parlaq gücü ilə musiqi yazmış və orada öz hisslərini ifadə etmişdir. Onun yazılması- hisslərin özünün deyil, yalnız akustik ideyaların heç bir şeyə əsaslanmadan kodlaşdırılmasıdır. Musiqinin ifa

olunması haqqında da bunu demək olar. İfa pis və ya yaxşı ola bilər, lakin o heç vaxt ideal hesab oluna bilməz, yəni müəllifin hisslərini tam əks etdirə bilməz. Onun əvvəldən müxtəlif interpretasiyaların mümkünlüyünü özündə əks etdirməsi labüddür. Bu mənada mənəvi varlığın fərddən kənarda dünyası- bu xüsusi reallıqdır, subyektin qavrayış və dərketməsinə qarşı dayanan obyektə xidmət edir. Mənəvi varlığın fərddən kənar formasının öz tarixi var: o, eəmiyyətin meydana gəlməsi ilə yaranır, onunla birlikdə inkişaf edir və o hələ mövcud olduqca yaşayacaqdır. Şüur bizi əhatə edən ictimai - tarixi reallığın ayrılmaz komponenti kimi çıxış etdiyindən şüura toxunmadan, cəmiyyətin mənəvi enerjisini səfərbər etmədən varlığı yenidən qurmaq olmaz. Hal-hazırda ictimai şüurun gerçəkliyə və hər bir adamın öz hərəkətlərinə tənqidi yanaşması halı özünü aydın göstərir. Bu məqsədəuyğun istiqamət cəmiyyət həyatının bütün sahələri üçün nəzərdə tutulur. Xalqın özünü tənqid bacarığı- onun mənəvi yetkinliyi və azadlığını göstərən cəhətdir, ’’həyatı daxildən, kökündən dəyişdirməyə” cəhd hər bir insan yaradıcılığının xeyirxah vəzifəsidir. Əks halda biz yalnız xarici amillərə və təsadüflərin iradəsinə ümid edə bilərik. İstənilən islahatın mənası və zəruriliyi ictimai dərketmə ilə möhkəmləndirilməsə və yalnız sırf iqtisadi baxımdan həyata keçirilərsə heç vaxt istənilən nəticə əldə edilə bilməz.

## §2. Cəmiyyətin mənəvi həyatının əsas ünsürləri

Cəmiyyətin mənəvi həyatının strukturu olduqca mürəkkəbdir. Onun məğzini, nüvəsini ictimai və fərdi şüur təşkil edir. Bir halda ki, bəşəriyyətin mənəvi həyatı hər

halda maddi həyatdan əmələ gəlir və ayrılır, onda onun strukturu bir çox cəhətdən oxşardır: mənəvi tələbat, mənəvi mənafe, mənəvi fəaliyyət, bu fəaliyyətdən yaranan mənəvi xoşbəxtlik, səadət (dəyərlər), mənəvi tələbatın öyrənilməsi və s. Bundan başqa mənəvi fəaliyyət və onun məhsullarının varlığı ictimai münasibətlərin xüsusi növünü-estetik, dini, əxlaqi və s. labüd olaraq yaradır.

Lakin həyatın maddi və mənəvi quruluşunun xarici oxşarlığını görən insan onlar arasında mövcud olan prinsipial fərqi qarışdırmamalıdır. Məsələn, bizim mənəvi tələbatımız maddidən fərqli olaraq bioloji verilməmişdir, insana anadangəlmə verilməmişdir. Bu onları obyektivlikdən məhmm etmir, ancaq bu obyektivlik başqa cür- təmiz ictimai obyektivlikdir. Fərdin mədəniyyətin işarə- simvolik aləmini mənimsəməsinə olan tələbatı onun üçün obyektiv zərurət xarakteri daşıyır-başqa cür insan olmaq mümkün deyildir. Ancaq bu tələbat ”öz-özünə” təbii şəkildə yaranmır. O, fərdin ictimai əhatəsində, onun tərbiyəsi və təhsilinin uzun prosesində formalaşmalı və inkişaf etməlidir.

Əvvəlcə cəmiyyət insanda onun ictimailəşməsini təmin edən yalnız ən sadə **mənəvi tələbatları** formalaşdırır. Daha yüksək səviyyədə mənəvi tələbatı isə-dünya mədəniyyəti zənginliklərinin daha böyük hissəsinin mənimsənilməsi onların yaradılmasında iştirakı-cəmiyyət yalnız bilvasitə, dolayısı ilə, fərqli mənəvi özünü inkişafının oriyentirinə xidmət edən mənəvi dəyərlər sistemi ilə formalaşdıra bilər.

İnsanın **mənəvi tələbatı** yaradıcılığa daxili meyli, mənəvi dəyərlərin yaradılması və onun mənimsənilməsinə, mənəvi ünsiyyətə meyli ifadə edir. Təbii təlabatdan fərqli olaraq mənəvi tələbat bioloji yox, ictimai xarakter

daşıyır. Fərdin mədəniyyətin işarə-simvolik aləmini mənimsəməyə tələbatı onun üçün obyektiv zərurət xarakteri daşıyır, başqa cür o insan ola bilməz və cəmiyyətdə yaşaya bilməz. Lakin bu tələbat öz-özünə yaranmaz. O, ictimai kontekstdə, fərdi əhatə edən mühitdə, onun mürəkkəb və uzun sürən tərbiyə və təhsili prosesində formalaşmalı və inkişaf etməlidir.

Bununla belə, cəmiyyət ilk əvvəl insanda onun ictimailəşməsini təmin edən yalnız mənəvi tələbatları formalaşdırır. Daha yüksək səviyyədə mənəvi tələbatı dünya mədəniyyətinin zənginliklərinin mənimsənilməsi, onun yaradılmasında iştirak etmək və s. - cəmiyyət yalnız dolayısı ilə, yəni fərdin mənəvi özünü inkişafında oriyentir ola bilən mənəvi dəyərlər sistemi vasitəsi ilə formalaşdıra bilər. Mənəvi tələbat prinsipial qeyri-üzvi xarakterə malikdir. Tələbatın inkişaf həddi məhdud deyildir. Bu inkişafın təbii məhdudluğu kimi bəşəriyyətin artıq topladığı mənəvi zənginlik, insanın onun istehsalında iştirakı imkanları və gücü çıxış edə bilər.

**Mənəvi dəyərlərin** özünə gəldikdə isə-İnsanlarm mənəvi sahəyə münasibəti onun ətrafında təşəkkül tapır- bu teraıinlə adətən müxtəlif mənəvi törəmələrin (ideya, norma, surətlər, ehkam və s.) ictimai mənəvi əhəmiyyəti qeyd olunur. Eyni zamanda adamların dəyər baxışlarında mütləq göstərilən qiymət ünsürləri də olur.

Mənəvi dəyərlərdə(elmi, estetik, dini) insanın özünün ictimai təbiəti, eyni zamanda onun varlığının şəraiti öz əksini tapır. Bu ictimai şüur tərəfindən cəmiyyətin inkişafının obyektiv tələbatı və ənənələrinin özünəməxsus inikas formasıdır. Gözəl və eybəcər, xeyir və şər, ədalət, həqiqət və s. anlayışlarda bəşəriyyət mövcud reallığa öz münasibətini ifadə edir və onu müəyyən edilməsi lazım

olan cəmiyyətin hər hansı ideal vəziyyətinə qarşı qoyur. İstənilən ideal həmişə sanki gerçəklik üzərində "bir az qalxmaq" deməkdir, özündə məqsəd, arzu, ümid, ümumiyyətlə - mövcud olanı (varlığı) yox, nə isə olanı ehtiva edir. Elə bu da ona ideal mahiyyət görünüşü verir, heç bir şeydən asılı olmadan bir şeyə bənzəyir. Üzdən yalnız onun təhlil etmək və qiymətləndirmək xarakteri görünür. Bu ideallığm yerdəki mənbələri, kökləri adətən gizli olur, itirilir, təhrif olunur. Əgər cəmiyyətin inkişafının təbii tapıntı prosesi və onun ideal inikası üst-üstə düşsəydi bu heç də böyük bəla olmazdı. Lakin heç də həmişə belə olmur. Çox vaxt bir tarixi dövrdə yaranan ideal normalar digər dövrün gerçəkliyinə qarşı dayanır, öz mənasını həmişəlik itirir. Bu kəskin mənəvi qarşıdurma ideoloji döyüş və ruhi sarsıntılar dövrünün başlandığını göstərir.

Bəşəriyyət çoxdan özü üçün aydınlaşdırmışdır ki, istənilən döyüşdə ən etibarlı ordu-peşəkar ordudur. İdeyaların döyüşündə də vəziyyət bu cürdür. Mənəvinin mövcudluğunun əsas qəhrəmanlarını (ideyalar, nəzəriyyələr, surətlər, normalar və s.) ilk sinifli cəmiyyətin yarandığı vaxtdan bəri peşəkarlar yaratmışlar. "Mənəvi istehsal" termini metafora (məcazi) olmayıb tam real hadisədir.

**Mənəvi istehsal** deyərkən, adətən əqli əməklə peşəkarcasına məşğul olan ixtisaslaşmış bir qrup adamların həyata keçirdiyi xüsusi ictimai forma kimi şüumn istehsalı başa düşülür.

Mənəvi istehsalın nəticəsi kimi ən azı üç məhsul nəzərdə tutulur: - fəlsəfi sistemlərdə, elmi nəzəriyyələrdə, incəsənət əsərlərində, əxlaqi, dini, hüquqi və başqa baxışlarda həyata keçən ideyalar, nəzəriyyələr, surətlər, mənəvi dəyərlər; - fərdlərin mənəvi ictimai əlaqələri və müna-

sibotləri; - insanın özü; çünki hər şeydən əlavə o, həm də mənəvi varlıqdır.

**Mənəvi fəaliyyət** cəmiyyətin mənəvi həyatının əsasıdır. Mənəvi fəaliyyət yalnız müasirlərin deyil, nə vaxtsa bu və ya başqa problemə toxunmuş sələflərin ideyalarına əsaslanır. Sələflərin təcrübəsinə əsaslanmayan mənəvi fəaliyyət diletantizmə məhkumdur. Mənəvi dəyərlərə öz töhfəsini vermiş ayrı-ayrı şəxsiyyətlərin gücü bütün bəşəriyyəti zənginləşdirir. Ona görə də mənəvi əməyin effektliyi maddidən xeyli yüksəkdir. Bəlkə elə buna görə də mənəvi fəaliyyətlə məşğul olanlar maddi istehsalla məşğul olanlardan azdır. Digər bir səbəb isə- cəmiyyətin bu cür adamları, o cümlədən onların qabiliyyət və bacarıqlarının səviyyəsini saxlamaq imkanının məhdud olmasıdır.

**Mənəvi əmək** məzmununa görə ən ümumi olsa da öz məğzinə və formasına görə fərdi, şəxsləndirilmiş xarakterdədir. Mənəvi həyatda irəliləyiş təkbaşına və ya özünü yüksək səviyyədə göstərən liderin rəhbərliyi ilə bir qrup adam həyata keçirir. Buna görə də Nobel mükafatı müəlliflər kollektivinə verilmir. Eyni zamanda çoxsaylı elmi və bədii kollektivlər var ki, tanınmış lider olmadan onların işi çox zəif olur.

Mənəvi fəaliyyətin özünəməxsusluğu ondan ibarətdir ki, onda istifadə olunan "əmək vasitələri" (ideyaları, obrazları, nəzəriyyələri, dəyərləri) ideal xarakter daşıdığından onları bilavasitə istehsalçılardan ayırmaq qeyri- mümkündür. Ona görə də maddi istehsal üçün xarakterik olan özgəninkiləşdirmə burada mümkün deyildir. Bununla belə, maddi istehsaldan fərqli olaraq mənəvi fəaliyyətin əsas vasitəsi-ayrıca şəxsin intellekti yarandığı gündən praktiki olaraq dəyişməz qalır. Ona görə də mənəvi

fəaliyyətdə hər şey fərdi yaradıcılıqla bağlanır. Məhz elə bununla mənəvi istehsalın əsas ziddiyyəti öz məzmununa görə ən ümumi olan mənəvi əmək vasitəsi yalnız fərdi qaydada həyata keçə bilər-aşkar olmur.

Mənəvi fəaliyyət çox böyük daxili cəlbedici qüvvəyə malikdir. Peyğəmbərlər, alimlər, yazıçılar, rəssamlar qəbul olunmalarına və ya olunmamalarına fikir vermədən yaradırlar, belə ki, prosesin özü onlara zövq verir. Mənəvi fəaliyyət çox vaxt özünü xatırladır, belə ki, yaradıcılıq prosesinin özü onlara zövq verir. Mənəvi fəaliyyət çox vaxt nəticə nəzərə alınmadan həyata keçirilir, maddi istehsalda isə bu mümkün deyil; burada istehsal xatirinə istehsal-cəfəngiyatdır. Bundan başqa, əgər maddi rifah sahəsində tarixən, istehsalçıdan daha çox sahib olan qiymətləndirilmiş və indi də qiymətləndirilirsə də, mənəvi sahədə dəyərləri, ideyaları, əsərləri yaradanlar ona sahib olanlardan daha maraqlıdır.

Mənəvi fəaliyyətin dialektikası maddi istehsalın dialektikasmdan köklü surətdə fərqlənir. Maddi istehsalda nemətlər istehsal edənə əməyin özü zorla boynuna qoyulur, onun nəticələri isə əsasən ondan alınır, o, bu nemətlərdən istifadə etməkdən məhrumdur. Mənəvi sahədə istehsalla az adam məşğul olur, çoxları isə onun məhsullarını-ideyaları, nəzəriyyələri, surətləri mənimsəyir; onun yaradılması prosesinin özü əksəriyyət üçün əlçatmazdır. Birinci halda əsas vəzifə istehlak, ikinci halda isə istehsal imkanlarını artırmaqdır.

Mənəvi fəaliyyətin xüsusi növü mənəvi dəyərlərin daha çox adamların mənimsəməsi üçün yayılmasıdır. Burada elm, mədəniyyət müəssisələrinin, təhsil və tərbiyə sistemlərinin xüsusi rolu var.

**Mənəvi tələbat** adamların mənəvi tələbatının ödənilməsinə istiqamətlənmişdir. O, kortəbii ola bilər. Bu vaxt heç kəs tərəfindən istiqamətlənmir və insan müstəqil, öz zövqünə uyğun bu və ya digər mənəvi dəyərləri seçir. Başqa bir vəziyyətdə, mənəvi tələbat insanlara reklam, kütləvi informasiya vasitəsi, kütləvi mədəniyyət və başqa vasitələrlə qəbul etdirilə bilər. Bu eür təsir nətieəsində şüurun manipulyasiya edilməsindən, adamların tələbatlarının və zövqünün standartlaşmasından danışmaq olar.

Bununla belə əsil **mənəvi dəyərlərin - idraki, bədii, əxlaqi** və s. şüurlu-istifadə edilməsi adamların mənəvi aləminin məqsədyönlü qurulması və zənginləşdirilməsi kimi çıxış edir. İstənilən cəmiyyət uzun müddətli perspektiv və gələcək üçün fərdlərin və ictimai birliklərin mənəvi səviyyələrinin yüksəlməsində maraqlıdırlar. Mənəvi səviyyənin və mədəniyyətin aşağı düşməsi cəmiyyətin demək olar ki, bütün sahələrində tənəzzülə aparır.

**Mənəvi münasibətlər-cəmiyyətin** mənəvi sahəsindəki ünsürlərin bir-birindən asılılığında, fərdlər, ictimai qruplar və birliklər arasında onların mənəvi həyat və fəaliyyəti prosesində yaranan çoxcəhətli əlamətlərdə ifadə olunan kateqoriyadır. Mənəvi münasibətlər həm insanın və ya bir qrup adamın intellektinin və hissinin bu və ya digər mənəvi münasibəti kimi(bu dəyəri o qəbul edir, yoxsa qəbul etmir), həm də bu dəyərlərə görə onun başqa adamlara münasibəti kimi - onun istehsalı, yayılması, istehlakı-mövcuddur. Mənəvi münasibətlərin əsas növləri kimi idrakı, əxlaqi, estetik, dini, eyni zamanda ustad və şagird arasında yaranan mənəvi münasibət çıxış edir.

Mənəvi ünsiyyət-adamlar arasındakı qarşılıqlı əlaqə və qarşılıqlı fəaliyyətdir; bu vaxt cəmiyyət və şəxsiyyətin foraıalaşması və inkişafının zəruri və ümumi şərtlərindən

olan ideyalar, dəyərlər, fəaliyyət və onun nəticələri, təcrübə, bacarıq, vərdiş mübadiləsi baş verir.

Cəmiyyətin **mənəvi həyatının struktur ünsürü ictimai və fərdi şüurdur.** Mühazirədə fərdi və ictimai şüur arasındakı münasibətin necə olması sualına cavab vermək lazımdır. Bəziləri belə hesab edir ki, ictimai şüurun real sahəsi, onun yeganə daşıyıcısı konkret fərddir. Başqaları əksinə, belə hesab edir ki, ictimai şüur nə isə şəxsdən üstündür və ona görə də onun şərhində ayrıca fərdə müraciət etmək vacib deyildir. Bu məsələyə aydınlıq gətirmək üçün qeyd edək ki, ictimai şüur yalnız öz yaranması və gedişi mexanizminə görə deyil, həm də öz varlığı və tarixi missiyası xarakterinə görə sosial şərtlənmiş fenomendir: o, cəmiyyətin atributudur. Reallığın xüsusi növü kimi, ictimai şüuru cəmiyyətin varlığı ilə müqayisə etmək olar, onunla eyni "məkan sahəsindədir". İctimai şüurdan danışarkən, biz ayrıca fərdin şüurunu deyil, ümumiyyətlə mənəvi həyatı, dildə və mədəniyyətin digər formalarında qeydə alınan ən ümumi mənəvi nailiyyətləri nəzərdə tuturuq. İ.Kant bu şüuru trans- sendental adlandıraraq, elə güman etmişdir ki, o hər bir adamın təcrübəsi həddindən kənara çıxır və fərdin obyektiv reallığı qavraması xarakterinə təsir edir. Ancaq şəxsdən üstün olan mənəvi həyat fərdin əqlindən və mənəvi aləmindən çıxmışdır: hər bir fərd onda yalnız qismən və dolayısı ilə iştirak edir. İnsan əqlinin böyük və az hiss olunan cəhətləri ictimai şüurun böyük çayının yaranmasına kömək edir, ancaq çayın adında artıq o xırda suların adları belə heç yada düşmür. Kiçik çaylar və xırda dağ suları Kürü öz sularından məhrum etsələr nə olardı? Fərdi və ictimai şüurun münasibətində də vəziyyət bu cürdür. Şübhəsiz ki, heç də hər bir fərdi şüur öz

obyektivləşmiş formasında ictimai şüur massivinə daxil olmur. Bu həmin şəxsin mənəvi fəaliyyətinin dərinliyindən və ictimai əhəmiyyətindən, zamanın onun yaradıcılığına olan tələbatından asılıdır. Dövrün mənəvi həyatının yaradılmasında iştirak edən böyük tarixi şəxsiyyətlərin (dahi dövlət xadimləri, mütəfəkkirlər, yazıçılar və s.) fikirləri, şüurlu günün tələbi ilə gedən, bezikdirici bir şəkildə bayağılığı təkrarlayan, yaltaqlıq edənlərin, yazıq təqlidçilərin fərziyyələri, fikirlərini müqayisə etmək olmaz. İkincilərin fikri heç kəsə və ya çox adama toxunmur və ona görə də ictimai yaddaşın ehtiyatında qalmır. Dahilərin əsərlərinə isə insan tez-tez müraciət edir, onların yaradıcılığının həyatverici şirəsindən daim qidalanırlar. Mənalı əqlin məhsulları fərdi şüurdan üstün aləmə daxildir və çox əsrlər boyu yaşayır. Göte haqlı olaraq qeyd edirdi ki, böyük insanın yaşadığı yer müqəddəsdir, yüz illər sonra onun sözləri, əməlləri nəvələri tərəfindən xatırlanır.

Əgər yenidən sual qoysaq ki, ictimai şüur harada olur, onda cavab belə olar: ictimai şüur insan-fəaliyyət-ünsiyyət-cəmiyyət-tarix-dil mədəniyyət sistemində olur. Bütün bu fəaliyyət göstərir və inkişaf edir, yeni-yeni dünyaya gələn fərdlərin tarixi xəzinəsinə daim qoşulması prosesində olur. Fərdin beyni bəşəriyyətdən kənar, ümumdünya tarixindən kənar, yəni cəmiyyətdən kənar fikirləşə bilməz. İnsanlar artıq ictimai həyat şəraitində dünyanı dərk etməyi öyrənməyə başlayarkən bununla yanaşı onlar kommunikasiya (ünsiyyət) prosesində öz ideyalarını deməyi də öyrənirlər. Fərdi şüuru ictimai varlığın səhnəsinə çıxaran dildə onu təsbit edirlər. Fərdi şüur insanın cismani varlığı, onun beyni ilə bilavasitə bağlı olduğu halda, ictimai şüur-tarixən formalaşmış

işarələr, müxtəlif cür yazılar, bədii yaradıcılıq nümunələri və s. formada təsbit olunmuş tarixən təşəkkül tapmış maddi forma sistemi ilə bilavasitə bağlıdır. Şüurun bütün bu obyektivləşmiş formaları həm də şəxsdən kənar mövcuddur, ancaq hər dəfə real olaraq konkret eanh fərdin beyni və əqli vasitəsi ilə fəaliyyət göstərir. Fərd sonlu və məhduddur. Onun şüuru onunla bərabər “yaşayır və ölür, ’’eəmiyyət sistemində o, özünəməxsus ölməzlik qazanır (bəşəriyyətin həyatı çərçivəsində), ictimai şüur əsasən fərdin beyni ilə generasiya etməklə ietimai varlıq kontekstinə qoşulur və artıq ondan fərdə öz güclü təsirini göstərir, həm də onun bütün həyatı boyu bunu edir. Adamların yaşadığı ictimai mühitin ümumi şəraiti onların baxışlarının dəyərli oriyentasiyalarının maraqlarının vəhdətini müəyyən edir. Bununla belə hər bir insan özünün şəxsi şüurunun əvəzolunmaz xüsusiyyətlərinə malikdir. Fərdi şüurun tərcümeyi-halı ictimaidən fərqlənir. Fərdə onun varlığının mikroşəraiti: ailə, dostları, tanışları, məktəb, əmək kollektivi və s. - əsaslı təsir göstərir. İetimai şüura bütün bunlar bilvasitə və həm də ümumiləşdirilmiş formada təsir edir. Daha sonra, fərdi şüur hər bir ayrıca adamın təbii istedadı, irsiyyəti, şəxsi zövqü, xarakteri və s. ilə şərtlənir.

Şüuru-istər fərdi, istərsə də ietimai-yalnız təbii aləm obyektlərinin inikası prosesi kimi ayırmaq mümkün deyildir: subyekt-obyekt münasibəti şüuru yarada bilməz. Bunun üçün subyekt daha mürəkkəb ietimi praktikaya, ietimai həyat kontekstinə qoşulmalıdır. Fərdi şüurun ictimayiyə, ietimainin isə fərdiyə çevrilməsini həyata keçirən mexanizm ünsiyyət prosesidir. İctimai şüur ayrıca adamın şüurundan hardasa tamamilə asılı olmadan dolaşmır. Bu müstəqillik nisbidir: yalnız ayrı-ayrı adamlar

üçün dünya kitabxanasının kitab zənginliyi mənəvi zənginlik mənasını verir. Qiymətləndirici qavrayışdan kənar obyektivləşmiş ideya ölüdür.

Bizim hər birimiz bu dünyaya gələrkən mənəvi mədəniyyəti irsən almaqla onu mənimsəməliyik ki, insan kimi düşünə və yaşaya bilək. Fərdi şüurun real varlığı mənəvi mədəniyyət aləmi ilə daim əlaqə yaradır. Fərdi şüur-ayrıca adamın mənəvi dünyası, ictimai isə-cəmiyyətin mənəvi həyatın olmaqla xalqların, bəşəriyyətin tarixi inkişafının ideal tərəfləridir. Cəmiyyət ayrıca fərdin malik olduğu kimi şüura malik deyildir: onun şəxsdən üstün beyni yoxdur. Bununla belə fərdi və ictimai şüur arasında qəti sərhəd də yoxdur. Əksinə, onlar bir-biri ilə daim qarşılıqlı əlaqədədirlər. Cəmiyyət tərəfindən tarixən yaradılan şüur nonnalarmdan insanlar mənən qidalanır, onun əqidəsinin, estetik hiss və baxışlarının predmetinə çevrilir. Hər bir adam öz dövrünün, xalqının övladıdır. Əgər fərdi şüur sanki həmişə ictimai şüumn suyu ilə yuyunursa da, bununla yanaşı bu çayların suyu fərdi şüur çaylarından olan vahid axma tökülür. Yalnız fərdi şüur kontekstində mövcud olan və elm, incəsənət, siyasət, əxlaq konteksti ilə möhkəmlənməyən fıkir-hələ yalnız fikirdir. Lakin artıq fərdin şüurunda belə bu fikir ictimai şüumn göstərişinə uyğun həyata keçir.

**İctimainin korreliyatı** (məzmunu başqa məfhum ilə tutuşdurduqda bəlli olan əlaqədar məfhum) fərdi yox, təbiidir. Fərd öz-özlüyündə ictimai kateqoriyadır. Onun psixikasının məzmunu öz təbiəti etibarı ilə cəmiyyətin şüum kimi ictimaidir. Bununla yanaşı şəxsi şüumn dünyaya münasibəti onun ictimai şüumn fonnalarma münasibət ilə ifadə olunur. Fərdi şüumn ictimai ilə münasibəti artıq uşağın dil, davranış norması, hiss və

təfəkkürü mənimsəməsi ilə başlanır. Hər bir adamın şüuru mənsub olduğu ictimai mühitin təcrübəsini, biliyini, əqidəsini, insanlığını, səhvini mənimsəyir.

İctimai şüur nəzərdən keçirilərkən bütün fərdi, şəxsi olanlardan uzaqlaşır və bütövlükdə həmin cəmiyyət və ya müəзq/ən ictimai qruplar üçün xarakterik olan baxışlar, ideyalar tədqiq olunur. Cəmiyyət onu təşkil edən adamların sadə məcmusu olmadığı kimi, ictimai şüur da ayrı- ayrı şəxslərin "şüurlarının" məcmusu deyildir. O, öz müstəqil həyatını yaşayan xüsusi sistemdir.

**Şəxsi ideya və əqidə** şəxsi mövcudluq həddindən çıxandan və yalnız hamınınkı olandan sonra deyil, həm də ümumi qaydaya, prinsipə və ya əqidəyə çevriləndən sonra, ümumi şüur, əxlaq, davranış norması olduqdan sonra ictimai dəyər, ictimai qüvvə xarakteri əldə edir. Bu ideyalar mütəşəkkil ictimai reallıq səhnəsini tutur, burada fərdi bioqrafiya artıq əsas rol oynamır. Biz ictimai şüurla dialoqa giririk və bu bizə qarşı dayanan şüur, məsələn, dövlət və ya qanun (çox güman ki, öz spesifikliyi olan) kimi reallıqdır. Biz bu mənəvi qüvvəyə qarşı qiyam qaldıra bilərik, lakin dövlətlə olduğu kimi, bu vaxt da bizə qarşı obyektiv dayanan ictimai həyatın forma və vasitələrini nəzərə almasaq bizim qiyam yalnız mənasız deyil, həm də faciəli ola bilər. Tarixən formalaşmış ictimai həyat sistemini yenidən dəyişmək üçün əvvəlcə onu mənimsəmək lazımdır.

Biz öz fəaliyyət və idrakımızda irəliyə doğru yalnız bütün əvvəlki tarix boyu toplanmış qüvvə vasitəsi ilə hərəkət edirik. Biz fikrən gələcəyə yalnız keçmişin biliklərindən sanki ona diqqətlə nəzər salmaqla baxa bilərik. Fikrin hər bir yeni uğuru bizim sələflərimizin tikdiyi start meydançasından həyat keçir. Beləliklə, şəxsi

şüur tarixin toplanmış təcrübəsidir. İctimai şüur şəxsdən kənarda mövcud deyildir. Bununla belə o fərdi şüur fəaliyyətinin nəticələrinə yaradıcı yanaşır: nə isə götürür, nəyisə kənara atır. Fərdi şüur da buna oxşar hərəkət edir. İctimai şüurun atmosferində dolaşan ideyalara yaradıcı yanaşır: nəyi isə götürərək özününkü edir, nəyi isə rədd edir və pisləyir. Bu nə isə insandan azad və ona öz ümumi-tarixi qloballığı ilə təsir edən mücərrəd ideyaların şəxssiz aləmi deyildir. İctimai şüur şəxsdən üstündür, ancaq bu o demək deyil ki, o şəxssizdir. İctimai şüur daxilən insana xasdır: onda olan hər şey hər hansı insandan kənar qüvvə tərəfindən deyil, məhz insan tərəfindən yaradılmış və möhkəmləndirilmişdir. İdeyanın fərdi müəllifliyi cəmiyyət tərəfindən çıxarıla bilər, onda o şəxsdən üstün formada fərdin ixtiyarına verilir, amma ideyanın məzmununun "insana xashğı" qalır. Müəyyən xalqın ən ümumi şüuru, ruhu substansiyadır, onun aksi- densiyası isə ayrıca insanın şüurudur.

Bununla belə ictimai şüur fərdi şüurun kəmiyyət cəmi deyil, keyfiyyətcə onun yeni ipostasıdır, bu özünəməxsus tərzdə təşkil olunmuş ideal-obyektiv gerçəklikdir, fərd təbiət hadisələri ilə hesablaşdığı kimi onun tələbləri və iradəsi ilə də hesablaşmalıdır. Lakin ictimai şüur fərd üçün xarici mexaniki qüvvə kimi çıxış etmir. Bizim hər birimiz ona qarşı eyni dayanırıq, lakin hər birimiz bu gücü müxtəlif cür mənimsəyirik (fərdi, şəxsi keyfiyyətlərimizə uyğun), müxtəlif cür ona reaksiya veririk və hər birimiz ictimai şüura müxtəlif formada təsir edə bilərik. Hər bir fərdi şüurun həm də öz şəxsi inkişaf mənbəyi var, ona görə də hər bir şəxsiyyəti eyni mədəniyyət əhatə etsə də o, nadirdir.

Beləliklə, şüur öz varlığında yalnız şəxsiyyət formasına endirilə bilməz. İctimai şüurun daşıyıcısı yalnız fərd yox, həm də ictimai qruplar, bütövlükdə cəmiyyətdir. Əgər ictimai şüurun daşıyıcısı yalnız fərd olsaydı, onda fərdi və ictimai şüur arasında hər cür fərq aradan qalxardı. Fərdi şüurdan ictimai şüurun məzmununu çıxarası olsaq onda yalnız biopsıxologiyanm şıltaqlığı qalardı. Fərdi və ictimai şüurun fərqləndirilməsi ehkamçıhq, volyuntarizm və antikultrizm adlanan "xəstəliklərə" gətirib çıxararlar. Doğmdan da doqmatiklər nə vaxtsa qavradıqları ideyalar sistemini ilahiləşdirir, onu həmişəlik verilmiş həqiqət kimi ona görə qəbul edir ki, onu ictimai baxışlarla eyniləşdirirlər. Doqmatik öz şəxsi baxışından, onun fikrincə, ümumi qəbul olunmuş baxışların xeyrinə əl çəkir. Volyuntaristlər isə, əksinə, ictimai şüum fərdin xeyrinə inkar edirlər: o belə hesab edir ki, əgər mən yaxşıya doğru hərəkət edirəmsə deməli, mənim arzularim tarixin obyektiv tələbatlarına uyğun gəlir. Subyektiv səhvin mümkünlüyü onlar tərəfindən qəbul olunmur, ona görə də onların başladığı hər iş ən gözəl utopiyalara aparır. Volyuntarizm doqmatizmdən də az olmayaraq tarixi tərəqqini ləngidir, ictimai şüuru çoxsaylı illyuziyalarla qidalandırır.

**İnkişafın obyektiv təbii və immanekt** (bir şeyin və hadisənin öz təbiətinə xas olan daxili) **qanunları** mənimsəyərək ictimai şüur varlıqdan həm geri qala bilər, həm də onu qabaqlaya bilər. Bu baxımdan ictimai şüur ictimai tərəqqi üçün fəal stimulyator və ya onu ləngidən mexanizm rolunu oynaya bilər. İctimai şüurun güclü dəyişdirici qüvvəsi bütöv varlığa təsir edə bilər bu mənada o, subyektiv sonlu və ayrıca insana məxsusluğu ilə məhdudlaşan fərdi şüurdan fərqlidir.

Biz tez-tez şəxsi və şəxsdən üstün tutulan şüurun varlıqdan, o cümlədən ictimai şüurdan asılılığını qeyd edirik. Lakin həyatda tez-tez elə olur ki, ictimai şüur öz üzərində ideologiyanın olduqca mənfi təsirini hiss edir, o varlığın ağıllı məntiqini eybəcər hala salır. İctimai şüur ayrı-ayrı şəxslərin, çox güman ki, intellektual cəhətdən fəal, istedadlı şəxslərin əqli fəaliyyəti sahəsində formalaşır, şəxsi və ictimai şüur arasında olduqca mürəkkəb ziddiyyət vardır. Dövlətin həyatı fikirlərə, cəmiyyətin mənəvi həyatına əsaslanır. Bununla belə bir sıra ideyalar və prinsiplər dövlət həyatının dayağını təşkil edir və buna görə də dövlət onu dağıdıcı tənqiddən qoruyur. Bu konteksdə Sokratm taleyi örnəkdir. Onun başqa əqidəyə itaət etməsi, ictimai şüurun ruhuna qarşı dayanması onun üçün faciəli oldu. Müasir dillə desək Sokrat dövlət dininə qarşı çıxdığından ölümə məhkum olundu. C.Bruno, Q.Qaliley, R.Bekon, Janna D.Arkin taleləri şəxsi və ictimai şüur arasında mənəvi prinsiplərin dövlət sistemi(və ya cəmiyyətdə qəbul olunmuş) və bu və ya digər cəmiyyətdə ayrı-ayrı vətəndaşların ideyaları arasında ziddiyyətin olduğunu göstərir.

Hər bir hadisə kimi ictimai şüum da öyrənmək olar, ancaq bu ictimai şüurun öz daxilindən aparılır və ona görə də mütləq ola bilməz; axı xarici dayaq olmadan insan öz- özünə qalxa bilməz. İctimai şüuru şərti olaraq “şaquli” rakursda-səviyyələrə, “üfüqi”də isə-formalara bölmək qəbul olunub.

**ictimai şüurun adi-praktiki və nəzəri səviyyələrinə** tələbələrin diqqətini yönəltmək də məqsədəuyğundur. Adi-praktiki və nəzəri səviyyələrə bölgü, terminlərin adından göıündüyü kimi, onların bir-birinə qarşı qoyulmasına - bir tərəfdən, həyati praktiki, sistem

ləşdirilməmiş (ancaq heç də tam kortəbii yox) və bununla yanaşı məqsədli dünyagörüşünə, digər tərəfdən, yaradıcı şəkildə işlənilmiş və rasional sistemləşdirilmiş ideyalara (ya dəqiq elmlər, ya ineəsənət, ya da fəlsəfə, ictimai- siyasi, etnik və digər doktrinalardan) - əsaslanır.

Bu cür bölgü ictimai şüurun bütün formalarında var, həm də bu səviyyələr arasındakı münasibətlər heç də həmişə eyni deyildir və bəzən səslənən belə bir fikrə də aparıb çıxarmaq olmaz ki, adi şüur guya nə isə “natamam”, ’’vəhşi” kortəbii şüurdur, öz mövcudluğu və inkişafı üçün kütlənin aşağı mədəniyyətindən başqa heç bir digər obyektiv səbəbləri yoxdur. İnsan mənəviyyatının mümkün yüksəkliyini alçatmadan demək olar ki, istənilən dövlətin əksər xalqlarını, deməli, bəşəriyyəti məhz adi həyatda olan dəyərli və etibarlı olanlar daha çox maraqlandırır: axı elm, fəlsəfə, incəsənət, siyasət işləri ilə istənilən cəmiyyətdə az adam məşğul olur. Bundan başqa, onlar özləri də öz baxışlarının əksər hissəsini istər-istəməz adi həyatın özündə keçirir, məişət anlayışlarına və baxışlarına sağlam fikrin məntiqinə əsaslanırlar. ”Adi” heç də “meşşan” və ya “natamam” demək deyil; bu anlayışda ietimai şüurun obyektiv möveud olan və böyük həyat məzmunu ilə doldurulmuş, zəruri səviyyəsi öz əksini tapır, şübhəsiz ki, onun müəyyən “mənfi”, lakin həm də “müsbəf” cəhətləri vardır. Sistemin, səmərəli, dəqiq olan nəzəri səviyyənin əksinə olaraq adi şüur səviyyəsinə həyatı tam və bütöv duymaq keyfiyyətinə malik deyildir.

Şüurun bütövlüjbi-onun yaşamaq qabiliyyətinin möhkəmliyinin əsas göstərieisidir. Əlbəttə heç bir nəzəri sistemi bilməmək, fəlsəfi ideyalarla tanış olmamaq da olar və bu vaxt əgər adi şüur daxilən ziddiyyətsiz və harmonik olarsa heç bir psixoloji narahatlıq hiss etməmək olar (lakin

obyektiv nöqteyi-nəzərdən bu cür adam savadsız kimi gömnür). Lakin öz sahəsində hətta yüksək səviyyəli mütəxəssis kimi nüfuz qazanan adam bu vaxt dünyaya müəyyən, hətta adi səviyyədə belə, müəyyən baxışa malik olmalıdır. Əks halda bu cür şüur heç bir şəraitdə rahat ola bilməz. Nəzəri səvi^^q^^ədə yetkin şəxsiyyət olmaq üçün HHcaiı fəlsəfi dünyagöıüşü ilə mütləq təmin olunmalıdır; lakin bu hələ də idealdır, belə ki, bir tərəfdən fəlsəfi dünyagörüşü yalnız uzun cəhd nəticəsində formalaşa bilər, digər tərəfdən isə, bu dünyagörüşün özündə belə, hətta nəzəri səviyyədə heç də hər şey sistemləşdirilməmiş və səmərəli əlaqələrlə (məsələn ideyalar, əqidələr, dəyərlər və s. kimi) düzülməmişdir.

Bundan başqa adi şüur nəzəri şüura nisbətən bilavasitə gerçəkliyə həyatın ala-bula axarına daha yaxındır, buna görə də onda şəraitin spesifikliyi konkret detalları və məna kəsb edən nüansları ilə tam əks olunur. Adi şüurun təcrübəsi-elə zənginlikdir ki, dəqiq elmlər, fəlsəfə və incəsənət öz məzmunlarını buradan götürürlər. Beləliklə, adi şüur cəmiyyətin ictimai və təbii aləmi dərk etməsinin ilkin formasıdır, insanın təbiətinin özündə obyektiv şərtlənməyə malik formasıdır. O, tarixən öz keyfiyyətində dəyişikliyə malikdir. Əgər, məsələn, orta əsrlərdə adi şüur elmi baxışlardan uzaq idisə, cəmiyyətin müasir adi-praktiki şüuru artıq dünyanın kortəbii inikası deyil, əksinə, elmi biliklərlə qidalanmışdır, bununla yanaşı öz vasitələrinin köməyi ilə bu bilikləri elmə gətirib çıxarmasa da, onları genişləndirir.

Müasir dövrün tələblərinə uyğun olaraq **ictimai rəy və şayə (xəbər) məsələsinə** də münasibət bildirmək zəruridir. İctimai rəy - kütlənin ictimai fəaliyyətinin subyektiv ilkin şərti, ictimai nəzarətin vasitələrindən

biridir. Bu adamlann ictimai həyat hadisələrinə açıq və gizli münasibəti, onların fikir və hisclərini ifadə edən, ictimaiyyətin kompetensiyasma daxil olan hər hansı hadisənin məzəmmət olunması və ya bəyənilməsidir: Napoleonun dediyi kimi, son sözü ictimai rəy bildirir. İctimai rəyin hökmü məhkəmə hökmündən dəhşətlidir: nə şikayət etmək, nə günahını yumaq, nə də ona üz çevirmək olmaz.

Məlum ideyaya kütlənin münasibəti-onun həyatının səviyyəsi haqqında danışmaq üçün yeganə ölçüdür. Ümummilli səviyyədə ictimai rəy referendum vasitəsi ilə idarə olunur.

**Referendum-xalqın iradəsini** (arzusunu) əsaslı (onun sivil qaydada keçirilməsi şəraitində) üsuludur. Dövlətin bütün taleyüklü problemləri bu demokratik alətdən istifadə olunmaqla həll edilməlidir. Heç kəs referendumda iştirak etmək hüququndan məhrum edilməməlidir: bu hüquq bütün vətəndaşlara şamil edilməlidir.

İctimai rəy həm bütövlükdə cəmiyyətə, həm də ayrıca bir ictimai qrupa aid ola bilər və müxtəlif səviyyələrdə - məktəb və ya elmi şüur səviyyələrində, eyni zamanda düz və ya yanlış - ola bilər. İctimai rəyin faktı yalnız ictimai şüurun faktı ola bilən fərdi rəy ola bilər. İctimai rəydə vahidlik vacib deyildir, faktiki olaraq həmişə müxtəlif rəylər olur.

İctimai rəyin mənbəyinə kütləvi kommunikasiyanın müxtəlif kanalları, ilk növbədə mətbuat, radio, televiziya eyni zamanda şayiələr ictimai informasiyanın bu və ya digər növlərində idarə olunan kollektiv və fərdi təcrübənin müxtəlif formaları xidmət edə bilər.

Bu və ya digər ictimai qrupun rəyinin bilavasitə bələdçisi, onun rəhbəri xüsusi nüfuzlu şəxsdir. İctimai rəyi

foraıalaşdıran informasiya insanın şəxsi təcrübəsi, dünyagörüşü, onun mədəniyyətinin səviyyəsi prizmasından keçərək dəyişdirilir. İctimai rəyin rolu ictimai quruluşun xarakterindən, ictimai proseslərə rəhbərlikdə xalq kütlələrinin iştirakı səviyyəsindən, xalqın şüurluluğu və mədəniyyətindən asılıdır. İctimai quruluş nə qədər demokratik olarsa, ictimai rəyin daxili və xarici problemləri həll etməyə təsir imkanları bir o qədər yüksək olar.

Cəmiyyətdə şayiələrin oynadığı rolla bağlı müxtəlif baxışlara münasibət bildirmək və bu fikirləri ümumiləşdirərək adamların bu problemə sərbəst münasibət bildirməsinə çalışmaq məqsədəuyğundur. Şayiə - məlumatın yayılmasının alternativ forasıdır. Onlar öz mexaniki gücü və praktiki olaraq qeyri-məhdud imkanlarına baxmayaraq kütləvi informasiya vasitələrinin hər hansı qrup adamların, ya da əhalinin xeyli hissəsinin müəyyən informasiyaya olan tələbatının öyrənilməsindən yaranır. Məhz onda bu susuzluq “kollektiv yaradıcıhq’ha, yəni şayiələrlə söndürülür. Şayiələrin yaranmasına informasiyanın emosional çatışmamazhğı kimi hadisə də təkan verir. Şayiələr ictimai əhval-ruhiyyənin və rəyin mühüm ifadə forması olmaqla, eyni zamanda özləri bu əhval- ruhiyyəni və rəyi formalaşdırır. Cəmiyyət, dövlət onların dövr etməsi qanunauyğunluğunu mütləq öyrənməli və şayiələrə qarşı mübarizədə bu biliklərdən silah kimi istifadə etməlidirlər: onlar - çox ciddi məsələdir. Belə ki, ümumdünya tarixi təcrübəsi göstərir ki, müharibə aparan dövlət üçün real itkilərdən daha çox şayiələr vasitəsi ilə döyüş ruhunun düşməsi daha öldürücü zərbə vurur, dövlətinin ona verdiyi gücdən məhrum edir.

Şayiələr kiçik qüvvə olmayıb, adamları nəticədə faciəli əməllərə sövq edə bilər(məsələn, 1945-ci ilin

fevralında Almaniyanın minlərlə sakini tələsik olaraq Drezdenə üz tutdular: belə şayiə yayılmışdır ki, guya burada Çerçilin qohumları yaşayır və nə olsa da şəhər hava hücumundan sığortalanıb. Lakin tezliklə İngilis- Amerikan təyyarələri Drezdeni xarabalığa çevirdi və 135 min adam qırıldı. Bu hadisə ifrat kateqoriyaya aiddir, lakin o sadə bir həqiqəti sübut etdi: şayiələr öldünnəsin deyə onu “öldürmək” lazımdır)Bu və ya digər şayiənin yaranması üçün sadəcə maraq deyil, təmin olunmamış maraq zəruridir, bu vaxt informasiya arzuolunan və zəruridir. Əgər bu vaxt “gizli” informasiya mənbəyi yaranırsa elə həmin an ona düşülür ki, bilik susuzluğu aradan qaldırılsın, qeyri-müə}^ənlikdən azad olunsun, çox vaxt bu heç nəyə baxmadan heç nəyə tənqidi yanaşmadan həyata keçirilir. Emosional vəziyyətin bir-birinə ötürülməsinə yoluxmaq nəticəsində hər kəsin mühakimə imkanları daralır, diqqətin məhdudlaşmasına gətirib çıxarır. Bunun nəticəsi gümanlara, zənn etmələrə gətirib çıxarır ki, bu da deyilən fikir üçün cavabdehliyin aşağı düşməsinə aparır.

Son vaxtlar Azərbaycanda bir çox hadisələrlə bağlı yayılan şayiələrin bütün ölkəni bürüməsini və adamların çox vaxt bu şayiələrin təsiri altına düşməsini nəzərə alaraq bu məsələ ilə bağlı təhlil aparmaq zəruridir. Adamlar anlamalıdır ki, şayiə informasiya qıtlığı ilə yanaşı həm də adamların öz yaşayışını düzgün qurmağı bacarmadıqlarından, işlərindən zövq almadıqlarından, bir sözlə, düzgün yaşamağı bacarmadıqlarından yaranır. Həyatını mənalı yaşayanlar üçün şayiələrə vaxt qalmır.

**ictimai psixologiya və ideologiya** məsələsinə də diqqət yetirmək lazımdır. Şüurun adi və nəzəri səviyyələrinin qarşılıqlı münasibəti ictimai psixologiya və

ideologiyanın qarşılıqlı münasibətində özünəməxsus şəkildə dəyişir. İctimai psixologiya şüurun adi səviyyəsinin qismən oxşarıdır, burada müxtəlif elmi və qeyri- elmi baxışlar və dəyərlər, estetik zövq və ideya, əxlaq və ənənə, meyl və maraq, fantaziyanın qəribə surətləri və sağlam fikrin məntiqi ifadə olunur.

İdeologiya-şüurun nəzəri səviyyəsinin qismən oxşarıdiir ki, burada müəyyən sinif, partiya mövqeyindən ictimai gerçəkliyin sistemləşdirilmiş qiyməti verilir. İdeologiyanın XVIII əsr siyasi hərəkat dövründə yaranması ilə bağlı geniş yayılmış fikrə baxmayaraq, belə düşünürük ki, o dövlət və siyasi partiyalarla eyni vaxtda meydana gəlmişdir. Öz maraqlarını müdafiə edərək onlar özlərinə uyğun gələn ideyaları generasiya edirlər. Məgər Platon və Aristotelin bir az sonra Seneka, Siseron və başqalarının fəlsəfi baxışlarında dünyagörüşünün bir aspekti kimi müəyyən ideologiya öz yerini tutma- mışdırmı? İdeologiyada ictimai qrupların siniflərin təcrübəsi yığılır, onların ictimai-siyasi vəziyyətləri və məqsədləri qısa və dürüst ifadə edilir, nüfuzlu ideyalar sistemi qurulur. Şüurun spesifik nəzəri forması kimi ideologiyanın mühüm xassəsi ondan ibarətdir ki, ictimai psixologiya kimi gerçəkliyi məqsədin bilavasitə deyil, dolayısı, bilvasitə əks etdirir, özünün kateqoriyalar instrumentarisini işləyib hazırlayır ki, özünə xas olan mücərrədliklə sanki gerçəklikdən uzaqlaşır, bunun da nəticəsində ideologiyanın öz-özünə yaranması sxolostik nəzəriyyəyə yuvarlanmaq qorxusu yaranır. İdeologiya xəyali və yalan, mütərəqqi və mürtəce, humanist və insanlara nifrət ruhunda ola bilər. Hər şey onun məzmunundan və onu doğuran, qidalandıran və xalq kütləsinin şüuruna yeridən ictimai-tarixi kontestdən asılıdır.

Məsələn, ictimai ədalətin yüksək prinsiplərini təsdiq edən kommunist ideologiyası son anda cəmiyyət və şəxsiyyət üçün məhvedici mifologiya formasına çevrildi ki, bu da ictimai şüurun bütün formalarına ilk növbədə ictimai elmlərə, ədəbiyyat və incəsənətə, fəlsəfəyə mənfi təsir göstərdi. Onları pis günə düşmüş ictimai varlığın məddahlarına çevirdi. Əlbəttə məsələ yalnız ideologiyanın yalanında və onun təbliğində deyil. Gerçəkliyin özü yalan idi; biz utopiyanı reallaşdımıaq istəyirik, ancaq həyatın özünü utopiyaya çeviririk.

Bu cür oxşarlığı elmlə aparaq: elm hipotezlər qurduğu yerdə ideologiya onun bir sıra təzahürlərindən əsassız konstruksiya qura, onu gerçəkliyin real inikası kimi qəbul edə bilər. Bu özünü ideologiyanın ictimai psixologiyadan “geri qalması” faktorunda təzahür edir. Bu, geri qalma ən ümumi qanunauyğunluq deyil, onlar arasında qarşılıqlı münasibətlərin müxtəlif tiplərin istisnasını təşkil edən təzahürüdür. İdeologiya həm adi şüuru müəyyən edə bilər, həm də ondan tam ayrıla bilər- bu əsasən totalitar rejimə, xüsusən onun can vemıə dövrünə xasdır. Totalitar dövlətin məntiqi ən ümumi inamsızlığın üzərində qurulmuşdur; bu cəmiyyətdə heç kəs heç kəsə inanmır və eyni zamanda etibar etməyə qorxur. Bu ən ümumi qorxunun ictimai psixologiyasıdır.

Bütün bunlar həm də onu şərtləndirir ki, ictimai psixologiya və ideologiya gerçəkliyin eyni hadisəsini müxtəlif foiTnada əks etdirə bilərlər. İdeologiya və ictimai psixologiyanın qarşıdurması faktı yalnız onun adi şüurdan geri qalmasına deyil, həm də ictimai psixologiyanın özünün pozulmasına, onun ahəngsizliyinə və sarsılmasına gətirib çıxarır. Əgər ictimai şüurun strukturu üçün kəskin ziddiyyətə gəlib çıxan ahəngsizlik xarakterikdirsə də, o

tədricən öz möhkəmliyini və birliyini itirir. Bu isə onu göstərir ki, gündəlik yaşayışımız real dünya ilə onun şüurda inikası arasında kəskin ziddiyəT mövcuddur.

''İdeologiya" termini mahiyyətcə iki fərqli mənalarda işlədilir. Birinci məna "ideologiya" sözünün etimologiyası ilə müəyyən olunur. Onun kökü "ideya"dır ki, artıq Platonun vaxtında bu söz ilk surət, yəni nə isə öz-özünə mövcud olan mənasını verirdi. Elə buradan da "ideologiya" termini aparıcı, rəhbər ideya, bir növ bizim həyata keçirmək istədiyimiz fikirlər mənasında işlədilmişdir. Bu mənada ideologiya tənzimləyici gücə malik olan nəzəri və ya praktiki vəzifələrin bu və ya digər həlli yollarını axtaran və dünyagörüşlə, xüsusən, dəyərli oriyentasiyalarla, əqidələrlə, başlıcası isə biliklərlə, etibarlılıqla bağlı əqidələrlə sıx bagb olan metodoloji prinsip kimi çıxış edir.

Siyasətə tətbiq edərək "ideologiya" hakimiyyəti ələ keçirməyin müəyyən yoluna istiqamətlənmiş siyasi inam və əqidə sistemi mənasını verir. Burada həm qabaqcadan hasil olunmuş yanlış qənaətə əsaslanan fikirlər, həm də yalan ideyalar ola bilir; məsələn, faşist və hər eür ekstremist partiya və hərəkatların ideologiyası. Bu mənada ideologiya hər hansı məqsədə çatmaq üçün bütün qəbul olunmuş vasitələrin məcmusu kimi çıxış edir. Siyasi ideologiya öz təsbit olunmuş ifadəsini ilk növbədə siyasi partiyaların proqram və nizamnaməsində, dövlət konstitusiyasında, siyasi və dövlət xadimlərinin nəzəri əsərlərində tapır. Burada ideologiya siyasi şüur kimi fenomenlə sıx bağlıdır.

## §3. Cəmiyyətin mənəvi həyatının ictimai şüurun formaları

**İctimai şüurun formaları** - Cəmiyyətin özünü düşünmə və ətraf aləmin mənəvi - praktiki mənimsənilməsi üsuludur. Onlara eyni zamanda, insanların dünyanı dəyişdiiTnək sayəsində çoxsahəli fəaliyyətləri gedişində işlənib hazırlanan obyektiv fikir formasının qurulmasının ictimai - zəruri üsulu kimi də tərif vermək olar. Onlar məzmunlarına görə onları doğuran ictimai əlaqələr və münasibətlər kimi tarixidirlər. İctimai şüurunun əsas formalarının hər biri ictimai həyatın müəyyən aspektini əks etdirir və onu mənən təzələyir. İctimai şüurun formaları nisbi müstəqilliyə, buna görə də şəxsi təbiəti və daxili inkişafının məntiqinə malikdir. Onlar ətraf gerçəkliyə və orada gedən proseslərə fəal təsir edir. İctimai şüurun formalarını fərqləndirmə meyarları aşağıdakılardır:

inikas obyektləri (ətraf aləm və onun bütövlü- lüyü, təbiətdən üstün əxlaqı, estetik, hüquqi, siyasi münasibətlər)

gerçəkliyi əks etdirmək üsulları (anlayışlar, surətlər, nomıalar, prinsiplər, təlimlər və s.)

ictimai şüurun hər bir formasının funksiyaları ilə müəyyən olunan cəmiyyətin həyatında onların rolu və əhəmiyyəti.

İctimai şüurun bütün formaları qarşılıqlı surətdə əlaqəlidir və əks etdikləri varlıq sahələri kimi bir-biri ilə qarşılıqlı təsirdədir. Dövrdən, cəmiyyətin xarakterindən, zamanın tələbindən və qarşıda dayanan vəzifələrdən asılı olaraq ictimai şüurun bu və ya digər ünsürləri və formaları ön plana keçə bilər.

ictimai şüurun formaları ilə bağlı mövcud olan bəzi fikirlərə münasibət bildirmək də tələbələr üçün maraqlı olardı. Bir çox ədəbiyyatlarda gerçəkliyin mənimsənilməsinin üç növü; elmi, estetik və dini növləri qəbul olunmuşdur. Siyasət, hüquq və əxlaq mənəvi istehsal "sahələri" kimi qəbul olunmur. Əxlaq - ona görə ki, peşəkarlar tərəfindən yaradılmamışdır. Biz tarixdə peşəkarlar, ideoloqlar tərəfindən yaradılan və tətbiq olunan heç bir əxlaq norması tapa bilmərik. Hətta İsa peyğəmbərin "öldürmə", "oğurlama" vəsiəti - əxlaq praktikasının kortəbii işləyib hazırladığı, yəni peşəkarların fəaliyyətinin nətieəsi olmayıb bəşəriyyətin kortəbii kəşfi olan prinsiplərin təsbit edilməsidir.

Siyasət və hüquq ona görə mənəvi istehsala daxil edilmir ki, siyasi və hüquqi fəaliyyət sayəsində yaradılan fərdlərin ictimai əlaqələri və münasibətləri çox vaxt mənəvi deyildir. Cəmiyyətdə əlaqə və münasibətlərin ən müxtəlif, çoxsaylı növləri olsa da, çox güman ki, ikisi: maddi və mənəvi - əsasdır. Həm bu, həm də digəri adamlar arasında əlaqə və münasibətlərin subyekti eynidir. Buna görə də münasibətlərin (həm də əlaqələrin) əsas növləri arasındakı bütün fərq onların əsasmdadır: nəyə əsasən onlar təşəkkül tapmışdır. Əgər bu əsas maddidirsə onda bu münasibət də elə olaeaq, yox əgər bu anlayış surətdirsə onda bu eür münasibət mənəvidir.

Belə ki, insanlar arasındakı **siyasi və hüquqi münasibətlər,** ilk növbədə, onlar haqqında anlayışa görə yox, real dövlət hakimiyyətinə görə təşəkkül tapır. Dövlət isə öz aparatı, məmurları, ordusu, hakimi və türməsi ilə - maddi bir hadisədir. Ona görə də siyasi, həm də hüquqi münasibətlər öz əsasında maddidir. Onda gerçəkliyin mənimsənilməsinin üç növü: elmi, estetik və dini növü

qalır. Burada ideya, surət baxışların o cümlədən insanlar arasındakı müvafiq əlaqə və münasibətlərin istehsalı göz qabağındadır. Gerçəkliyi mənimsəməyin bu üç növünün hər biri də xüsusi, təkrarolunmaz, bütöv dünyasını yaradır. Lakin biz mühazirədə ictimai şüurun formalarını və bu aspektlərdə deyil daha məqbul hesab etdiyimiz və qəbul olunmuş aspektlərdə şərh etməyi daha məqsədəuyğun hesab edirik. Beləliklə ictimai şüurun aşağıdakı fomıaları var.

Siyasi **şüur.** Qədim dövrdə dövlət və dövlət hakimiyyəti yeni hadisələrin dərk edilməsində olan ictimai tələbat kimi meydana gəlmişdir. Şüurun siyasi forması və ya siyasi ideologiya - siniflərin, millət və dövlətin köklü maraqlarını ifadə edən ideyaların məcmusudur. Vətəndaşların siyasi əhval - ruhiyyəsi həmin cəmiyyətin iqtisadi və dövlət quruluşu ilə müəyyən olunur. Siyasi ideologiya siyasi partiyaların və dövlətin fəaliyyəti ilə yetişir və reallaşır. Siyasət, siyasi mübarizə amiranə surətdə varlığın bütün sahələrinə zorla daxil olub, şüurun bütün formalarına nüfuz edir. Bu siyasətçi - peşəkarın qapalı fəaliyyət sahəsi deyildir. Əslində, ibtidai-icma quruluşu istisna olmaqla, istənilən cəmiyyətin həyatına siyasi maraqlar, siyasi mübarizələr hopmuşdur. Siyasət özündə ictimai ziddiyyətlərin gərginliyini cəmləşdinnişdir. O, bütün birləşmə və ayırmaların, əməkdaşlıq və toqquşmaların əsasıdır.

Cəmiyyətin siyasi şüurunda, bir tərəfdən adamların bilavasitə praktiki fəaliyyətləri arasında qurulan qarşılıqlı münasibətlərin, digər tərəfdən isə, bu fəaliyyətlərin məcburən getdiyi ictimai - nizama salınmış şəraitin onun tərəfindən başa düşülməsi əks olunur. Adamların praktiki fəaliyyətinin bilavasitə maraqlarının təzahürü olmaqla

siyasi şüur cəmiyyəti həyatının ictimai - iqtisadi əsasını daha qabarıq və aydın formada əks etdirir. İqtisadi maraqlara bilavasitə yaxınlığı siyasi şüurun spesifikliyidir.

Cəmiyyətin siyasi şüunanun həmcins, oxşar olmaması təbiidir, belə ki, o bütün siniflərin, ictimai qrupların dövlətə və hakimiyyətə münasibəti sahəsini, bütün ictimai qüvvələr arasında qarşılıqlı münasibət sahəsini əhatə edir. Gerçəkliyin siyasi qiymətləndirilməsi mövcud ictimai quruluşda bu qiymətlər daşıyıcılarının (fərd, ictimai qmp, ictimai təbəqə və s.) tutduqları konkret vəziyyətdən asılıdır. Cəmiyyətdə dövlət hakimiyyəti uğmnda mübarizədə siyasi maraqların daim toqquşması baş verir. Dövlət hakimiyyətinin quruluşu - siyasi təfəkkümn əsas problemidir. Dövlət quruluşunun, onun fomıalaşmasmm vəzifə və məzmununun müəyyən edilməsi uğrunda siyasi mübarizə təxminən ən müxtəlif formaları da - sosial problemlərin açıq müzakirəsindən, parlament diskussiyaları və şəxsi islahatlara aparan iqtisadi tələblərdən başlayaraq, zorla həyata keçirilmiş dövlət çevrilişi, ictimai inqilabla başa çatan- ifadə olmuşdur.

**Siyasi maraqlar** obyektivdir və ona görə də hər bir adama toxunur, həM açıq ifadə olunmuş və şüurlu, həm də gizli, üstüörtülü formada olur. Siyasi laqeydliyə çağırış adətən, nisbətən Bnrəvan olan ictimai təbəqələr tərəfindən həyata keçirilir və buna görə də konservatizmin (mühafizəkarlığın) açıq formasıdır. Bütün cəmiyyətin həyatı (ibtidai icma quruluşu istisna olmaqla) özündə ən kəskin ictimai ziddiyyətləri cəmləşdirən siyasi maraqlama mayalanmışdır. Məhz siyasi maraqlar bütün fəal ictimai biliklərin, xüsusən də ictimai toqquşmaların əsası olmuşdur. Bu mübarizədə hər şey - həm elm, həm din.

həm də fəlsəfə - siyasi şüurun obyekti ola bilər. Onların hamısı ideoloji diskussiya sahəsinə cəlb oluna bilərlər. Yalnız cəmiyyətin ictimai - iqtisadi deyil, həm də mənəvi həyatı müəyyən dərəcədə siyasi maraqlardan asılıdır. (Unutmayaq ki, "siyasətdən getmək" - bu özü də bir siyasətdir, yalnız özünün siyasətidir.)

Bununla belə, dediklərimizdən belə qənaətə gəlmək olmaz ki, istənilən və hər mədəniyyət hadisəsi onu yaradanın siyasi maraqlarının inikası deyildir: Əsl rəssamların heç bir niyyəti olmur. İstər mədəniyyətin, istərsə də siyasətin bu cür vulqarlaşdırılması vaxtilə bizim ictimai həyata düzəldilməsi mümkün olmayan ziyan vurmuşdur. Mədəni hadisələrin spesifikliyini və nisbi müstəqilliyinin anlaşılmaması bir sıra mədəniyyət sahələrini, məsələn, incəsənətin inkişafını yalnız ləngitməmiş, həm də artıq toplanmış mənəvi zənginliklərin zorla cəmiyyətdən uzaqlaşdırılmasma gətirib çıxartmışdır. M.Müşfiq, H.Cavid və başqaları həyatımıza birdən daxil olmamışdılar.

Siyasi şüurun güclü təsiredici qüvvəsi ondan ibarət deyil ki, guya yalnız o və məhz o insanın bütün mənəvi cəhdi ilə hərəkət edir - insan bu sadələşdirilmiş təqdimatda eqoist maşına çevrilir - hər bir mədəniyyət hadisəsi ictimai həyata daxil olarkən başqa adamlar tərəfindən siyasi məqsədlər üçün mütləq istifadə olunur.

Fəlsəfi fikrin bütün inkişaf tarixi özünü müxtəlif növlərin arasındakı mübarizə kimi təqdim etmişdir. Çox vaxt bu mübarizə o qədər kəskin xarakter kəsb edir ki, adamları tonqalda yandırır, türməyə salır, katorqaya, sürgünə göndərirlər. Ona görə belə bir baxış kökündən səhvdir ki, guya filosoflar bizi əhatə edən işlərdən, insanların, siniflərin, partiyaların praktiki, siyasi maraq

larından - uzaq dayanır və biliyi yalnız bilik xatirinə müdafiə edir. Diogen boçkaya girən kimi onlar da öz otaqlarına çəkilirlər.

**Elm, incəsənət, fəlsəfə, din** - hamısı siyasi mübarizə tufanına elmi kəşflərin və ya texniki nailiyyətlərin sülh və ya mübarizə işinə kömək etməsi - bu siyasi məsələdir, incəsənətin bu və ya digər məhsullannm hamısı məqsəd və işlərə xidmət etməsi, onların hansı hisslər oyatması - bu da siyasi məsələdir. Fəlsəfə xalqların elmi dünyagörüşünü formalaşdırırmı, onları parlaq ideala və əqlə, ədalətli dövlət quruculuğuna istiqamətləndirirmi, yoxsa yox - bu da siyasi məsələdir. Məgər filosof humanizminə, ictimai ədalətə və təcavüzkarlığa, millətlərarası düşmənçiliyə biganə qala bilərmi? Fəlsəfə öz mahiyyətinə, tarixi missiyasına görə siyasətdir: fəlsəfə müəyyən ictimai - siyasi funksiya yerinə yetirir. Əgər tarixə nəzər salsaq görərik ki, filosoflara ictimai hadisələrin nəbzini öz əllərində saxlamağa cəhd, yüksək vətəndaşlıq hissi xasdır. Bir çox görkəmli mütəfəkkirlər siyasi təlimlərin müəllifi olmuş, digərlərinin fəlsəfi sistemləri üçün siyasi fəlsəfə ayrılmaz tərkib hissəsi olmuşdur.

Siyasi təlimi və onun refleksi kimi siyasi fəlsəfəni fərqləndinnək lazımdır. Siyasi fəlsəfə, siyasi təlimləri fəlsəfi cəhətdən əsaslandırır və bununla fəlsəfə və siyasətin qarşılıqlı əlaqəsinin bir tərəfi əks olunur. Bu qarşılıqlı əlaqənin ikinci tərəfi - siyasət və siyasi təlimlərin fəlsəfəyə təsirindədir.

Siyasi fəlsəfənin yaranması Platonun adı ilə bağlıdır. Platonun fəlsəfi sistemindən onun siyasi - hüquqi aspektini siyasət, dövlət və hüquq haqqında təlim -

çıxarmaq yalnız şarti ola bilər, belə ki, bu onun fəlsəfəsi ilə sıx bağlıdır.

**Hüquqi şüur.** Mühazirədə hüquqi şüur və onun mədəniyyəti ojıan hüquqi itaətə diqqət yetirmək məqsədəuyğundur. Hüquqi şüur - adamların qüvvədə olan hüquqa münasibətini, hüquq, vəzifə, qanunilik və qeyri qanunilik nöqteyi-nəzərdən adamların davranış həddini bilməyi ifadə edən baxış və anlayışdır; bu hüquqi nəzəriyyə, hüquqi ideologiyadır. Hüquqi şüur obyektiv ictimai münasibətlərin ideya ifadəsidir, öz növbəsində cəmiyyətdə hakim olan iqtisadi və ictimai münasibətləri əks etdirən hüquqi münasibətlər xarakterinə malikdir. Hüquq hüquqi şüurun formalaşmasına təsir edir; hüquqi şüur isə hüquqda və ədalət məhkəməsində reallaşır. Hüquq kimi hüquqi şüur da tarixən müəyyən iqtisadi əsasda yaranmış və inkişaf etmişdir və ictimai siniflər və dövlətlərin meydana gəlməsi ilə bağlıdır. Hüquqi şüur hüquq və qanuna hömıət etməyi bacarmaq, öz dövlət vəzifələrini və şəxsi vəzifələrini könüllü yerinə yetirmək, cinayət törətmədən öz həyatını qurmaqdır. Hüquqi şüurun əsasını şəxsi ləyaqət hissi, vicdan və iradənin daxili intizamı, vətəndaşların bir-birinə, hakimiyyətə, hakimiyyətin vətəndaşlara qarşılıqlı hörməti və inamı təşkil edir. Tarix cəmiyyətin yaxşı və mütərəqqi adamlarının hüquqi şüunınun hüququn qüvvədə olan nonnaları ilə kəskin ziddiyyətlərinin şahidi olmuşdur.

Hüquqi şüur sanki siyasi və əxlaqi şüur arasında aralıq vəziyyətdədir. Siyasi şüurdan asılı olaraq o dövlətə siyasi hakimiyyət uğrunda mübarizə kimi deyil, sözsüz tabeçiliyi tələb edən xarici nizama salma qüvvəsidir. Dövlətdən deyil insan özündən gələn və onun üçün mütləq əhəmiyyət xarakteri daşıyan, lakin qanun gücü olmayan

əxlaq normalarından fərqli olaraq hüquqi şüurda haqq və ədalət anlayışları dövlət qanunu kimi düşünülür, onun pozulması üçün maddi təsirli sanksiya tələb olunmalıdır. Əgər hüquqda məcburetmə ünsürü yoxdursa, sözün əsl mənasında hüquq yox əxlaqi arzudur. Hüququn əxlaqın müdafiəsinsı ehtiyacı var: əxlaqla daima qarşılıqlı fəaliyyətdə olmayan hüquqi şüurun laxlayan, səbatsız əsası var. Lakin əxlaq hətta əla qanunlardan da yaxşı və inamhdır- düşünənlər yanılmırlar. Gündəlik həyatda biz davranış qaydaları və normaları haqqında unuduruq, lakin onlar bizim üçün həmişə sarsılmazdır. Hüquqi şüur səviyyəsində onlar parıldayır və dərk olunmuş nizamlayıcı kimi çıxış edirdilər.

Hüquqi şüur çox vaxt səmərəli - əxlaqi qiymətə istiqamətlənir. Əxlaq və hüquq arasında sıx əlaqə var: hüququn öz-özlüyündə əxlaqi mənası var. İstər əxlaqi, istərsə də hüquqi şüur - insan və cəmiyyətin vahid - tam mənəvi həyatının müxtəlif hədləridir və öz əkslərini dildə tapmışlar. Onlar arasındakı fərq təmiz əxlaqi vəziyyət və normaların qeyri-məhdud və hüquqi tələbləri ilə məhdud olmasındadır. Hüququ müvafiq qanunlarla hüququ cəhətdən möhkəmləndirilmiş “minimum əxlaq” kimi qəbul etmək olar. Əxlaqi başlanğıcın mənbəyi insanın vicdanı, onun xoş məramhlığıdır. Başqa sözlə desək, hüquq müəyyən xeyirxahlıq minimumunun və ya qaydaların həyata keçirilməsinin məcburi tələbidir, pis işlərin təzahürünə yol verməməkdir. Bu iki məqsəd: şəxsi azadlıq və ümumi fıravanhğa çatmağı təmin edir. Kim əqlə və vicdana söykənərsə o hüquq və qanun əsasında yaşayır. Əgər əxlaqın yüksək səviyyəsi və hüququ şüur mədəniyyəti sıravi vətəndaşlar üçün zəruridirsə, dövlət hakimiyyəti üçün bundan da yüksək səviyyə vacibdir.

çünki hakimiyyət başqalarını idarə etmək üçün xalq tərəfindən verilən səlahiyyətə malikdir və onlara tərbiyəvi təsir etməlidir. Qanunlara riayət olunmasını dövlət təmin edir, lazım gəldikdə isə hətta məcburiyyətə də əl atılır. Təəssüf ki, sadə adamlar (təkcə onlar yox) hüquqi şüurun çox aşağı səviyyəsindədirlər, ancaq bu hüquqi şüurun məğzi yox onun müxtəlif səviyyələridir. Hüququ başa düşmək üçün nəyin qanuni və ya qanuna zidd olmasını, eyni zamanda onun yerinə yetirilməsinin məcburi olmasını dərk etməkdir. Hüquq cəmiyyətdə azad adamların yaşamasının zəruri şərtidir. Əgər sən azad olmaq istəyirsənsə, onda öz azadlığını məhdudlaşdırmalı, başqalarına azadlıq verməlisən.

Beləliklə, hüquqi şüurun adi - praktiki səviyyəsi qüvvədə olan qanuni əxlaqi tələblərə uyğunluğu mövqeyindən qiymətləndirməyə cəhd edir, nəzəri hüquqi təfəkkür isə qüvvədə olan hüquqa onun ictimai və siyasi mənası, ictimai və siyasi həyatın real proseslərinin obyektiv şərtlənmiş səmərəli tələblərinə müvafiq mövqedən baxaq. Təbii ki, insan ağlı canlı varlıq kimi hüquqi şüurdan və müvafiq davranışdan kənar, yəni hüquqi ölçüdən kənar yaşaya bilər. Lakin bu vaxt o istənilən qəbul olunmuş və olunmamış davranışlara əl atır, qorxu, təlaş, həyəcan içərisində yaşayır, mənasız həyat keçirir. Yalnız qəbul olunmuş hüquq normalarına hörmət və ona uyğun yaşamaq insanın mənəvi dünyasına uyğundur.

**Əxlaqi şüur.** Hüquqi nizamasalma - insanların davranışının qanunlar sisteminin köməyi ilə nizama salınmasıdır. Onun təsirindən kənarda insan münasibətlərinin bö}mk hissəsi qalır ki, bu da əxlaq adlanır. Qanunla, məsələn, ədəb qaydalarının pozulması, nəzakət- sizlik üçün heç bir cəza nəzərdə tutulmur. Bu ictimai və

şəxsi fikirlə məzəmmət olunur. Platon qeyd edir ki, biz çox vaxt ictimai rəylə hesablaşırıq ki, nə isə deyəndə, hər hansı hərəkəti edəndə bizə dəli deməsinlər. Bu qorxunu biz eyib hesab edirik (Платон Поли. Собр. Соч. Рр 1928, Т13. С. 45). Bu isə çox vaxt qanunda olmayan qadağalar qoyur. Cəmiyyətdə adamların həyatı yalnız hüquqi deyil, həm də nizamlayıcı prinsiplərinə tabe edilir ki, bu da etika ilə öyrənilir. Etika adamlar arasına mövcud olan münasibətlər və bu münasibətlərdən doğan vəzifələr haqqında elmdir. Lakin substansiya ictimai qovuşmuş həyatı olmadan ağlabatan deyildir, yəni əxlaq fenomeni yalnız cəmiyyətdə adamların qarşılıqlı münasibətində onların təbiətə, Allaha münasibətində mümkündür, bu cür həyat isə tələb edir ki, şəxsi yaxşılıq, səxavət insan varlığının ən ümumi prinsipinə çevrilsin.

Əxlaq yazılmamış qanunların tarixən sistemidir, ictimai şüurun əsas dəyər formasıdır ki, burada insan hərəkətlərinin, rəftarın ən ümumi və normativ qiymətləri öz əksini tapır. Əxlaqi baxışların özü bizə ümumi işlərin qayğısına qalmağı müəyyənləşdirir, belə ki, bunsuz əxlaq eqoistliyə gətirib çıxarar.

Əgər insan əxlaqi cəhətdən tərbiyəli və xüsusən də dindardırsa, bu və ya digər həyati qərar qəbul edərkən xarici qaydalardan doğan mülahizələrə (karyera, gəlir və s.) deyil, sırf vicdanın səsinə uyğun hərəkət etməlidir. Əxlaqlı adam həssas, vicdana çox qəribə özünənəzarət qabiliyyətinə malikdir. Vicdan mexanizmi şəxsiyyətin haçalanmasmı aradan qaldırır. Məhkəmədə olan cinayətkar özünü müdafiə üçün törətdiyi əməlin ehtiyatsızlıqdan, səhlənkarlıqdan irəli gəldiyini bildirir. Özünün günahsız olması üçün təbii baş verən hadisəni başqa istiqamətə yönəltməyə çalışır. Hətta onu müdafiə

edən vəkil belə ittihamçının cam ilə bağlı dəlillərin qarşısında aciz qalır cinayət törədərkən ayıq başlı caninin seçim imkanı olmuşdur

Əxlaq insanın ailəyə, öz xalqına, vətənə, digər xalqlara münasibətində özünü göstərir. O, şəxsiyyətin özünün özünə münasibətinə də şamil edilir. Əgər adam özünə işgəncə verirsə və ya intihar edirsə cəmiyyət onu pisləyir: insan - ictimai varlıqdır. Cəmiyyət insandan tələb edir ki, o özünə cəmiyyətin mənafeyinə uyğun münasibət göstərsin: öz sağlamlığını qorusun, əməklə məşğul olsun, özünü ləyaqətli aparsın. İnsanın hər şeyə qarşı biganə olmasına mənəvi haqqı yoxdur. İnsan öz pis (və ya yaxşı) hərəkətləri üçün onun obyektiv əxlaqi qiyməti haqqında biliyinə uyğun cavabdehlik daşıyır. Qərəzli, tamah- karcasma olan hərəkət təsadüfən cəmiyyət üçün əhəmiyyətli olsa da “yaxşı hesab edilə bilməz”.

Əxlaqi şüur özündə əxlaqi prinsipləri və normaları birləşdir. Beləliklə, əxlaq - həm adamların, onların davranışlarının obyektiv münasibətlərinin müəyyən tərəfi, həm də şüur formasıdır. Biz həm əxlaqi davranışın haqqında, həm də əxlaqi baxışlar, anlayışlar haqqında danışırıq. Əxlaqi şüur mürəkkəb struktura malikdir. Yetkin dünyanın ictimai idealından irəli gələn ən ali təzahürü haqqında baxışlar və anlayışlar kimi əxlaqi kateqoriyalar, əxlaqi hisslər və əxlaqi ideal onun ünsürlədir.

İnsanın əxlaqi həyatının əsas təzahürü cəmiyyət və insanın özü qarşısında cavabdehlik hissi və bundan irəli gələn günahı və peşmançılığı dərk etməlidir. Adamların öz qarşılıqlı münasibətlərində əsas götürdükləri qaydalar əxlaq normalarını təşkil edir, o kortəbii olaraq yaranır və yazılmamış qanunlar kimi çıxış edirlər: ona hamı lazım

olan səviyyədə tabe olur. Bu həm cəmiyyətin adamlara qoyduğu tələblərin ölçüsü, həm də bəyənmək və ya məzəmmət etmək fomrasmda layiq olduğunun əvəzi ölçüsüdür. Tələb və ya əvəzin düzgün ölçüsü ədalətdir: cinayətkarın ədalətli cəzalandırılmasıdır; adamdan bacardığından artıq tələb etmək ədalətsizlikdir; adamların qanun qarşısındakı bərabərliyindən kənar ədalət yoxdur.

Əxlaq nisbi iradə azadlığını ehtimal edir, bu da müəyyən mövqeyin şüurlu seçilməsi, qərarın qəbul edilməsi və götürdüklərinə cavabdehlik imkanın təmin edilməsidir. Əgər insanların davranışlarının fövqəltəbii qüvvələr tərəfindən, xarici şəraitdən və ya anadangəlmə instinktləri ilə əvvəlcədən müəyyən olunsaydı, onda davranışın əxlaqi qiymətləndirilməsindən danışmağın mənası olmazdı. İnsanın hərəkətləri heç bir şeylə şərtlənməsəydi, mütləq idarə azadlığı, yəni tam özbaşınalıq hökmranlıq etsəydi, onda da əxlaq olmazdı. Onda ictimai norma, o cümlədən əxlaq norması da mövcud olmazdı. Əxlaqi normalar, prinsiplər və qiymətlər son anda davranışın qaydasını ifadə edir və möhkəmləndirir, bu da adamlar tərəfindən əməkdə və ictimai münasibətlərdə işlənib hazırlanır.

Əxlaqın kökləri nəsillərin təcrübəsinə görə tarixi tərəqqinin tələblərinə və maraqlarına cavab verən, cəmiyyət və insanın qorunması və inkişafı üçün faydalı olan davranışlarda möhkəmlənən adətlərə gedib çıxır. Əxlaq ilkin olaraq, adamların faktiki Özlərini necə aparmalarında, özlərində və başqalarında hansı hərəkətə yol verməklərində, kollektiv üçün faydalılığı baxımından bu hərəkəti necə qiymətləndirmək-lərində ifadə olunurdu.

Tarixi inkişaf gedişində əxlaq məlum varislik, nisbi müstəqillik kəsb edir hər yeni nəsil bütün davranış

normalarını yenidən yaratmır, keçmiş dövmn əxlaqi dəyərlərini mənimsəyir, onun formasını dəyişdirir və inkişaf etdirir. İdrakın başqa sahələri kimi əxlaqda da tarixi tərəqqi müşayiət olunur. Quldarlıq cəmiyyətinin əxlaqı qula “öz təbiəti ilə rəzil olan” adam kimi baxırdı və ona görə də onlarla heyvan və əşya kimi davranmağa bəraət qazandırırdı. Feodalizm dövründə istismarın bütün iyrəndiyinə baxmayaraq əxlaqda bir sıra irəliləyiş var idi: şəxsiyyət mənən zənginləşdi, onun cəmiyyətlə münasibəti mürəkkəbləşdi, cavabdehlik hissi yüksəldi, şərəf, ləyaqət, borc və s. anlayışların məzmunu zənginləşdi. Feodal alicənablığı təhqir üçün duelə çağırmağa məcbur edirdi. Lakin feodalın əxlaqı kəndlini soymağa, ilk gecə hüququ və s. kimi normalara icazə verirdi.

Bunlarla yanaşı insan şəxsiyyətinin cəmiyyətə, ailəyə, vətənə düzgün əxlaqi oriyentasiyasının nəzəri axtarışı meydana gəldi və inkişaf etdi. Biliyin xüsusi forması kimi əxlaqi baxışlar meydana gəldi.

Əgər əxlaqi normalar bu qədər dəyişkəndirsə, onların doğruluğundan danışmaq olarmı? Etik relyativizmin nümayəndələri əxlaqi qiymətin obyektiv meyarının mövcud olması imkanını inkar edirdilər. Əslində, elm sahəsində həqiqət və yanılmalar olduğu kimi, əxlaq sahəsində də adamların davranışlarının düzgün və ya yanlış qiymətləndirilməsi mövcuddur. Əxlaq normaları elmi əsaslandırılmaya möhtacdır ictimai tərəqqinin mənafeyinə xidmət edən əxlaq normaları doğrudur.

Əxlaqın başlanğıc kateqoriyaları **xeyir və şərdir.** Xeyir insanların xoşbəxtliyinə kömək edən ifadədir. Şübhəsiz ki, əxlaq - necə ki, xeyir - bizim üçün, Hegelin sözləri ilə desək, özünün başqa özü ilə vəhdətədir, yəni nisbi və mütləqin, ümumi və təkcənin əxlaqi sintezidir.

Yalnız xeyir özünü doğruldur və özünə inam yaradır. Xeyirxah insan öz düzgün və xeyirxah işləri ilə özünü doğruldur. Xeyirxahlığı qiymətləndirmək və onun mədəni əhəmiyyətini başa düşmək üçün insanın özü onu sınamalıdır. Başqasının xeyirxah işini qəbul etmək və onda yaşamaq lazımidir və hiss etmək lazımdır ki, mənim xeyirxahlıq işığım mənim ürəyimi, sözümü və həyatımın işlərini mənimsəyir və onu yeniləşdirir. Bəlkə başqasının qeyri-xeyirxahhğını, onun düşmənçiliyini, nifrətini, kinini duyasan, varlığın ümidsiz, əbədi atmosferi kimi, həyat sistemi kimi hərtərəfli, uzun sınamaq daha yaxşı olar.

Adamların ictimai və şəxsi həyatında mənfi hadisələr, ləngidən və dağıdan qüvvə şər adlanır. Şər iradə cəmiyyətin mənafeyinə zidd olanlara cəhd edir. Bununla belə tarixin dialektikası daxilən ziddiyyətlidir. Hegelə görə, şər tarixin yalnız tonnozlayıcı deyil, həm də hərəkətverici qüvvəsinin təzahür etdiyi forma kimi çıxış edə bilər. Göte qeyd edirdi ki, şər, inkar, tərəddüd kimi, insan əqlinin həqiqəti dərk etməyə ədəbsiz hərəkətinin zəruri anı kimi, insan illüziyasına istehza kimi çıxış edir. Tarixdə irəliyə doğru hər bir addım köhnə "müqəddəslərə" qarşı etirazdır və müasirləri tərəfindən şər kimi qiymətləndirilir.

İnsanın başqa adamlara müəyyən münasibətlə bağlı olduğu hər yerdə qarşılıqlı vəzifələr yaranır. Cəmiyyətin hər bir üzvünə öz xalqı, vətəni, digər xalqlar, öz ailəsi tərəfindən qoyulan ictimai vəzifələr **əxlaqi borc** forması alır. Kanta görə, xeyirxah insanın bu borca riayət edərkən göstərdiyi əxlaqi möhkəmliyidir. Həqiqi əxlaq ayrı-ayrı adamlar və onların yaşadıqları təbii və ictimai mühit arasındakı lazımi qarşılıqlı fəaliyyətdir. Təbiət qarşısında da insan borcludur. Cəmiyyətə və onun inkişafına xeyirli

olan hər şeyi etməyi insan özünə borc bilir. İnsan məxsus olduğu ictimai qrupun maraqlarına uyğun olanları yerinə yetirməyə özünə borc bilir. Əxlaqi prinsipləri bilməklə yanaşı, bu prinsiplərlə yaşamaq da vacibdir. Əgər insan vətəninin üzləşdiyi bəlaları öz şəxsi bəlaları kimi yaşayırsa, öz kollektivinin uğurlarına öz uğurları kimi sevinirsə onda o öz borcunu həm bilir, həm də onu yaşayır. Başqa sözlə desək, borc hüquqi baxımdan yox, əxlaqi baxımdan yerinə yetiriləndir. **Vicdan** şəxsiyyətin əxlaqi özünə nəzarəti həyata keçirmək bacarığı; öz qarşısına əxlaqi cəhətdən qəbul olunmuş məqsədləri qoymaq və etdiyi hərəkətlərini qiymətləndirməyi həyata keçimıək, öz hərəkəti üçün şəxsi cavabdehlik hissidir. Başqa sözlə desək, vicdan - şəxsiyyətin cəmiyyət qarşısında öz borcu və məsuliyyətini dərk etməsidir.

Vicdan haqqında danışarkən qəlbimizin müsbət çağırışını, elədiklərimizlə bağlı daxili məzəmmət nəzərdə tutulur. Adamların hərəkətlərinin lazımlı olması və daxili caöaÖH arasında kəskin toqquşma var. Bu toqquşmanı daxili məhkəmə - vicdan məhkəməsi həll edir. İnsanın daxilən keçirdiyi hisslər, gördükləri səhv işlə bağlı peşmançılıqları ona əzab verir, ən qəti qanunlardan, cəzadan daha çox əzir. Başqa sözlə desək, vicdan daxilimizdə öz şəxsi hisslərimiz, arzularımız, düşüncələrimiz, sözlərimiz və hərəkətlərimizlə bağlı olan məhkəmədir, yəni, daxilimdəki "Mən"im özümə qarşı qurduğum məhkəmədir. Vicdan mexanizmi insanın ikiləşməsini aradan qaldırır. Hər şeyi düzgün başa düşmək olmaz, ancaq ədalətsiz də hərəkət etmək yaramaz. Vicdanla gizlənqaç oynamaq olmaz. Onunla heç bir sövdələşmə mümkün deyildir.

Əxlaq kateqoriyaları sistemində şəxsiyyətin **ləyaqəti,** yəni onun öz ictimai əhəmiyyətini və ictimai hörmət hüququnu başa düşməsi mühüm yer tutur. İnsan ləyaqətinin ölçüsü ictimai faydalı əməkdir.

Etikanın köklü məsələsi - insan həyatının mənasıdır, o, özündə şəxsiyyətin mövqeyini, cəmiyyətin inkişafının ümumi meyllərinə, subyektiv məqsədlərin əsas istiqamətləri ilə üst-üstə düşməsini birləşdirir. Bu da mənəvi zövqdən doğan **xoşbəxtliklə** sıx bağlıdır. Xoşbəxtliyin sirri - həm adamlara, həm də özünə sevinc bəxş etmək, öz həyatını elə qurmalıdır ki, bu vaxt yaradıcılıq qabiliyyəti tam aşkar olunur. Xoşbəxtliyin mənbəyi insanın fiziki və mənəvi gücünün tam təzahüründədir. Yaradıcılıqda insan öz fərdi keyfiyyətlərini aşkar edir, öz Məninin keyfiyyətlərindən, onun ümumi mədəniyyət dənizinə tökdüyündən zövq alır.

Kantın fikrincə, insanda iki şey ona zövq verir və ruhlandırır - bu başımızın üstündəki səma və daxili- mizdəki mənəvi qanundur.

**Dini şüur** qədim dövrdə yaranmış, ictimai münasibətlərin inkişafı ilə bağlı müxtəlif dəyişikliklərə məruz qalmış, bizim günlərdə də adamların davranış və əməllərinə təsir etməkdə davam edir. Tələbələrin nəzərinə çatdırmaq lazımdır ki, din insan və cəmiyyətin mənəvi həyatının mühüm və zəruri fenomenidir. Şopenhauerin sözləri ilə desək, “xalqın metafizikası”, yəni fəlsəfəsi onun dünyagörüşünün ayrılmaz komponentidir. Dinin öyrənilməsi ilə ilk növbədə ilahiyyat, eyni zamanda tarix və fəlsəfə məşğul olmuşlar. İlahiyyat vəhy yolu ilə verilən dini şüurun faktlarının adekvat şərhinə cəhd edir. Tarix dini şüurun yaranması və inkişafı prosesini tədqiq edir, müxtəlif dinlərin yaranmasının ümumi prinsiplərinə

müqayisə edir və onların təsnifatım verir. Fəlsəfə ilk növbədə dinin mahiyyətini təhlil verir, dünyagörüşü sistemində onun yerini müəyyənləşdirir, onun psixoloji və ictimai aspektlərini, onun ontoloji və idrakı mənasını aydınlaşdırır, inam və biliyin qarşılıqlı münasibətini işıqlandırır, insan və Allahın münasibəti problemini, dinin mənəvi mənasını və onun cəmiyyət həyatındakı rolunu, həm insanın, həm də bəşəriyyətin mənəvi inkişafını təhlil edir.

Dinə müxtəlif aspektlərdən baxmaq lazımdır. O, Allahı onun insana, təbiətə və cəmiyyətə münasibətində Mütləq kimi qəbul edir. Dinin mühüm funksiyası mənəvi- sosial ibadətdir: o xalqların qəlbinə dinclik, həmfikirlilik və məhəbbət yaymaqdır. Din iki dünyanın - yer, təbii - ictimai və transendental - həyatını birləşdirir. Dində fərdi ruhun transendentalla münasibəti mühüm əhəmiyyət kəsb edir- bununla şəxsi təsəllivericilik bağlıdır. Bu da mənəvi başlanğıca maddi ilə vəhdətdə baxmağa imkan verir.

Bəşəriyyət dini şüurun və təcrübənin ona yad olduğu bir xalq tanımır. Bu da o deməkdir ki, dünyanın bütün xalqlarına əvvəlcədən mənəvilik dini tələbatı və ona müvafiq ideya, hiss və təcrübə sahələri xasdır. İnsanın və bəşəriyyətin bu tələbatı elmin, fəlsəfənin və incəsənətin inkişafı nəticəsində nə itmir, nə də ki, heç azalmır.

Din terminin özünü müxtəlif cür şərh edirlər; bəzilərinə görə bu latın sözü olub (religare) - bağlamaq, başqaları, məsələn, Siseron relegere - yığmaq mənasını bildirdiyini qeyd edirlər. Lakin onun ən adekvat kökü religio - sözündən olub - möminlik, müqəddəslikdir. Mahiyyətcə din mütləq başlanğıcın, yəni Allahın tanınmasının ifadəsidir, ondan sonlu olan hər şey, - o cümlədən insan-həyatımızı Mütləq olanla razılaşdırmağa

cəhdimizdən asılıdır. Ona görə də hər bir dində iki tərəf: nəzəri - Mütləqi anlamaq ifadə olunur və praktiki - Mütləqin insanın həyatı ilə real əlaqəsinin yaradılması- tapmaq olar. Bununla belə Allahın dərk olunması son dərəeə müxtəlif ola bilər və daşa (litolatriya), bitkiyə (fıtolatriya), heyvana (zoolatriya), oda (pirolatriya), insana (antropomorfıznin müxtəlif formaları) ehtiramla ifadə olunur. Nəhayət, Mütləq müeərrəd ideya formasında təsəvvür oluna bilər, məsələn, Allahın müxtəlif deist, teist, panteist - formada qəbul olunması.

İsa peyğəmbər. Məhəmməd peyğəmbər və başqa peyğəmbərlər haqqında inamla danışmağımıza səbəb heç də o deyil ki, onlar haqqında müxtəlif mənbələrdə məlumatlar var - ayrı-ayrı vaxtlarda güelü hərəkatın yaranması və ona böyük şəxsiyyətlərin başçılıq etməsi əsas amildir.

Dini şüurun bütün formalarında ali başlanğıeı və onun sonlu şeylərin möveudluğu ilə əlaqəsini görürük. Həm Allaha sitayişin zəruriliyi, ibadət və qurbanlar, həm də dinin yalnız əqlin nəzəri tələbatına deyil, eyni zamanda əxlaqi (bizim iradəmizin sahəsi) və estetik başlanğıea, ilk növbədə hisslərə xidmət etməsi bu əlaqə ilə izah olunur.

Beləliklə, dinə insanın mənəvi tərəfinin hər hansı bir cəhətinin, fəaliyyətinin ifadəsi kimi baxmaq olmaz. Dində insan öz mənəvi tələbatları və meylləri ilə iştirak edir. Buna görə də mütəfəkkirlər dinin müxtəlif tərəflərinə diqqət yetirirlər. Belə ki, bəziləri dinin emosional tərəfini xüsusi vurğulayır və dini hissləri qeyd edirlər. Kant dinin əxlaqla sıx əlaqəsini önə çıxarır, dinə Allahın iradəsi ilə əxlaqi qanunların tanınması kimi baxırdı. Kanta görə din - bizdə yaşayan qanun, Allahın dərk olunmasına yönələn əxlaqdır. Hegel dini səmərələşdirir, onu Mütləq ruhun obyektivləşməsi kimi xarakterizə edir. Onun fikrincə, din

bizim həyatımızın ən vacib işidir: din üçün ilk növbədə bizim ürəyimiz maraqlıdır. O, hisslərimizdə və əməllərimizdə təcəssüm edir, fikrin yüksək surətlərini yaradır və qidalandırır, qəlbimizin sevincini parlaq əxlaqi rəngləri ilə bəzəyir.

Dinin mahiyyəti haqqında məsələyə nisbətən dinin mənşəyi haqqında məsələ ilə bağlı daha çox fikirlər var. İlk növbədə dinin meydana gəlməsinin psixoloji səbəbini, o cümlədən dini şüurun ictimai kökünü fərqləndirmək vacibdir. Şübhəsiz ki, asılılıq hissi, o cümlədən əxlaqi xarakterli səbəblər, xarici və daxili aləmin hadisələrini simvollaşdıran xəyallar, nəhayət, mövcud olan (varlıq) haqqında biliklərin şərtsiz təhlilinə meylli olan əql - dinin meydana gəlməsində mühüm rol oynayan səbəblərin məğzidir. Lakin bu ilkin şərtlərlə dini inamların bu və ya başqa konkret formasının yaranmasını izah etmək olmaz. Qeyd olunan səbəblər insanda dindarlıq adlanan qurum yaradır.

Dinin meydana gəlməsinin əsasında duran prinsiplər iki qrupa: yüksək naturalist və rasionalist - bölünür. Birincilər dini şüurun anadangəlmə olması haqqında danışır və vəhyi onun mənbəyi kimi göstərirlər. İkincilər isə, ya dinin yaranmasında insanın refleksiyasım və şüurlu niyyətini (yevgemerizm), ya hakimiyyəti saxlamaq üçün müə}^ən adamların praqmatik cəhdi (Hobbs, Bolinbrok), ya təbiətin məlum qüvvələrinin təcəssüm etdirilməsi (Epikür, Yum), ya məlum mənəvi keyfiyyətlərin obyek- tivləşdirilməsi (Feyerbax, Renan), ya da əcdadlara ehtiramı (Spenser) nəzərdə tuturlar. Sadaladığımız nöqteyi- nəzərlərdə çox mübahisəli və az izah olunan cəhətlər var: insanın mənəvi aləminin dini vəziyyəti və

məzmunu - çox fərdi və fövqəladə dərəcədə incə işdir, o hər hansı anlayışın quru çərçivəsinə salına bilməz.

**Dinin qnoseoloji mənası və ya inamın biliyə münasibəti** problemlərinə gəldikdə isə onlar bu və ya digər mütəfəkkirlərin ümumi fəlsəfi mövqeyindən asılı olaraq həll olunur. Bu problemə üç yanaşma məlumdur: sientist-pozitivist, tarixi (təkamül) və mütləq. Birinci yanaşma dini biliyin aşağı növü kimi şərh edir, onu mövhumata aparır, bu da elmin inkişafı ilə guya aradan qalxır, ikinci yanaşmanın tərəfdarları, dinə biliyin inkişafda olan, həmişə, hətta biliyin başqa yüksək foraıasına keçdikdə belə öz əhəmiyyətini saxlayan forması kimi baxır. Burada onun əsasən səmərəli (rasional) aspektindən (əlbəttə bu da inkar olunmur) daha çox hissi aspekti nəzərə alınır. Nəhayət, üçüncü yanaşma dini və elmi biləklərə insanın mənəvi fəallığın iki müxtəlif və bərabər forması kimi baxır: onlar arasında həmişə sərhəd axtarılır, insan və cəmiyyət üçün istər məğzi, istərsə də əhəmiyyəti ilə bağlı çox şey uydurulur. Belə düşünürük ki, iki həqiqəti - elmi və dini - axtamıağın (orta əsrlərdə olduğu kimi) mənası yoxdur. Həqiqətin mahiyyətinin şərhinə idrakın obyektinin spesifikliyini nəzərə almaqla yanaşmaq daha düzgün olardı. Tarix göstərir ki, elmin özündə də həqiqət hesab olunanlar sonradan inkar olunmuş və ya dəyişdirilmiş, inkişaf etdirilmiş, fərqləndirilmişdir və s.

Dünyanın elmi mənzərəsinin təşəkkül tapması dinə zidd deyil və dünyanın dini dərk olunmasını zəiflətmir. Elmə geniş miqyaslı tövbələr vermiş mütəfəkkirlərin (Kopernik, Nyuton, Eynşteyn, Heyzenberq və b.) dinə dözümlü yanaşmalarına və onun haqqında müsbət fikirlər söyləmələri faktlarına paradoks kimi baxmaq olmaz.

İ.Kepler təsdiq edirdi ki, riyazi prinsiplər ilahi iradənin gözlə görünən ifadəsidir. Heyzenberqə görə, yeni təfəkkür dindən uzaqlaşma ilə heç bir əlaqəsi yoxdur; elm dinlə ziddiyyət təşkil etmir. "Şeylərin məhrəmanə A (gizli) məğzi - onların maddi təbiətində deyil; biz şeylərin maddi inikasından daha çox ideyalarla üzləşirik" (Гейзенберг В.Шаги за горизонт М 1987, е. 329). Nyuton təbiətə dair təmiz mexaniki baxışların məhdudluğunu başa düşürdü: o mövcud olanların daha dərin əsaslarını tapmaq istəyirdi. Əlkimyanı əsaslı surətdə öyrənərək burada varlığın hansısa qəribə, təəccüblü kəsiyini axtarırdı. Nyutonun yaradıcılığı üçün varlığın öyrənilməsinə dərin, ümumiləşdirilmiş fəlsəfi yanaşma xarakterikdir. Onun yaradıcılığında, elmi fikrində axtarışın iki istiqamətinin - həqiqi dinin axtarışı və dünyanın həqiqi bütöv mənzərəsinin axtarışının - dərin əlaqəsi mövcud idi. Bununla yanaşı ona dünyagörüşünün üçüncü, əxlaqi idrakla, əxlaqın həqiqi prinsiplərinin axtarışı ilə bağlı olan komponentlər xasdır. Nyutonun fikrincə, əxlaqi qanunlar Kainatda insanın yarandığı vaxtdan yeddi ehkamda öz əksini tapmışdır. Onlardan birincisi "Allahın vahidliyini qəbul etməkdir... Bunsuz yaxşılıq, səxavət ola bilməz..." (Ньютон И. Оптика или трактат об отражениях, преломлениях, изчибаниях и цветах света; М, Л. 1927, с. 315,371).

Dünyada elə sahə var ki, orada problemlər qurtarır və **sirlər başlanır: bu transendent** (təcrübə xaricində olan, dərk edilə bilməyən) **sahədir.** Müdrik adam bununla barışa bilər, barışmaq üçün isə mərdlik lazımdır ki, etiraf edə və qəbul edəsən ki, heç də hər şey bizdən asılı deyildir, hətta hər şeyə nüfuz edən əqlin özü üçün belə aradan qaldırıla bilməyən və içərisinə daxil olunması

mümkün olmayan bir şeyin varlığını qəbul etməyə hazır olasan. Biz dünyada öz varlığımızın sonlu olması ilə, əzablı günlər yaşamağımızla, öz pis xasiyyətimizlə bacarmamağımızla barışmalı və qəbul etməliyik. Bu problemləri "mədəni tərəqqi" prosesi ilə aradan qaldıra bilmərik, belə ki, mədəni tərəqqinin özü belə heç də çox yüksəkdə deyildir.

Fəlsəfə tarixində, düşünürük ki, çox ağıllı hir mövqe məlumdur; bu baxışlara görə Allah bilavasitə dərk oluna bilməz, o öz yaratdıqları və hiss üzvlərimizlə qəbul etdiklərimizdə öz mahiyyətinin şüaları ilə işıqlanır. Allahın görünməməzliyi - ateistlərin birinei arqumentidir. Lakin heç bir ateist şüuru inkar etmir, ancaq o da görünməzdir. Vicdan da görünməzdir, ancaq o insanın hərəkətlərində, sözlərində özünü göstərir. Əgər kimsə sübut edə bilmirsə ki, Allah mövcuddur və ona görə də mübariz ateist olur, onda qoy o sübut etsin ki, Allah yoxdur. Bu heç vaxt və heç kəsə nəsib olmayıb və prinsipcə heç kəs buna nail ola bilməz.

Dinin əqidə azadlığı - hər bir adamın əsas ayrılmaz hüququdur. Ona görə də həm başqa dinə qulluq edənlərə, həm də ateistlərə dözümlü yanaşmalıdırlar: Allaha inamsızlığın özü də inamdır, ancaq bu mənfi yönümlüdür.

Allaha səcdə edən, ibadət edən, məscidə gedən, dini əxlaqi prinsiplərə hörmət edən, öz ruhunun rahatlığına çalışan adam şər işlərlə məşğul ola, insanlara nifrət edə, özündən razı eqoist həyat yaşaya və bununla cəmiyyətə xeyir gətirə bilməz.

Həqiqi inam özünün həyata keçməsi üçün mütləq fərdi əxlaqi qəhrəmanlığa - insanlara xidmət işinə çevrilməlidir. Buna görə də din adamların məhəbbət və xeyirxahlıqla birləşməsinə kömək edir. /

Din də cəmiyyət kimi yetkin olmayan inamlardan: fetişizm, totemizm, magiya, animizdən keçərək dünya dinlərinə qədər yüksəlmişdir. Fetişizm - gerçəkliyin müxtəlif obyektlərinə - pərəstiş, ehtiramdır; onlar fövqəltəbii xassələrə malikdir, müalicə edir, düşməndən qoruyurlar, istənilən predmet fetiş ola bilər. Totemizm - insan qruplarının hər hansı heyvan və ya bitki növləri ilə qohumluğuna, fövqəltəbii əlaqəsinə inamdır. Totemizm ovçuluq və yığımla bağlıdır. Magiya etiqad və inamların məcmusudur; onun əsasında adamlara, eyni zamanda ətraf mühitdəki hadisə və predmetlərə müxtəlif üsullardan: cadu, mərasim oyunları, dualarla, ovsunlamaqla və s. - istifadə etməklə təsir etmək imkanına inam dayanır. Animizm isə predmetlərdə və ya bizdən kənarda mövcud olan mənəvi varlığa inama əsaslanır. İbtidai insan hələ özünü təbiətdən ayırmamışdır və bütün hadisə və predmetlərə özünə xas olan xassələri şamil edirlər.

Dövlətin yaranması ilə milli dövlət dinləri yarandı, çoxallahhlığa və təkallahhğa inamdan keçən etiqad nəhayət üç dünya dininin: buddizm, xristianlıq və islamın yaranması ilə yekunlaşdı. Bu məsələ ilə bağlı dərsdən əlavə vaxtlarda diskussiyalar keçirməyi məqbul hesab edirik.

**Estetik şüur** - mənəvi mədəniyyət fenomenidir. Bir çox mütəfəkkirlərin qeyd etdiyi və Hegelin müfəssəl açıqlamasına görə, əql hissiz ölüdür və iradəsiz gücsüzdür. Həqiqət və Xeyir gözəllik olmadan tam ola bilməz, o da öz növbəsində əqlin həqiqətə yaxınlaşdığı, iradənin xeyirə istiqamətləndiyi yerdə təzahür edir. Hegel yazırdı: "Mən əminəm ki, bütün ideyaları əhatə edən əqlin yüksək aktı estetik aktdır və həqiqət və xeyirxahlıq yalnız gözəllikdə

bir-birinə tellərlə birləşir". Estetik hislərə sahib olmadan heç bir sahədə mənəvi cəhətdən inkişaf etmək olmaz.

Antik dövr öz mənəvi fəaliyyəti, həm də yalnız onun məzmunu deyil, eyni zamanda forması üzərində fəal düşünürdü, bu da gözəllik ölçü, harmoniya, kamillik kimi estetik anlayışların varlığın əsas kateqoriyaları tərkibinə daxil edilməsində özünü göstərmişdir. Antik dövrdə yalnız gözəllik və harmoniya kimi əsaslı kateqoriyalar deyil, həm də müasir baxışların əsasını təşkil edən daha "texniki" estetik anlayışlar işlənib hazırlandı. Bu ilk növbədə mimesisa (yamsılama, təqlid etmə) və katarsisa (təmizləmə, saflaşdırma) anlayışlarıdır. Mimesisa anlayışı ilə antik dövr dünyasının təqlid edilməsinin xüsusi forması əks etdirilirdi; bu sənətkarlığa və incəsənətə xas idi, onlar gerçəkliyin təbii aləmi ilə yanaşı ikinci gerçəklik yaradırdılar; katarsisa anlayışında isə incəsənətin saf- laşdırıcı psixoloji gücü haqqında təlim qoyulmuşdur- bu da sarsıntı yolu ilə dinləyicilərdə həyəcan və estetik zövq effekti yaradırdı.

Antik mütəfəkkirlər özlərinin estetikliyə olan bağlılıqlarını onunla izah edirdilər ki, yalnız bu forma varlıq və dünyanı bütövlükdə adekvat ifadə edir, öz əsasında şeylərin arxasında gizlənən hannoniya və gözəlliyin əsaslı prinsipləri sanki xaotik formada yerləşir. Antik dövr üçün gözəllik yalnız bu dünyaya baxan insan deyil, dünyanın özünün atributu idi. Bundan başqa, gözəllik və harmoniya əqlin sinonimi hesab olunurdu, çünki aydındır ki, gözəllik qanunu ilə yaradılan dünya ağılsız qurula bilməz və əksinə, əgər o ağılla qurulubsa, onda aydındır ki, haımoniyanm qanunları ilə yaradılıb.

Estetikliyə xüsusi refleksiya insanın birinci plana keçirildiyi intibah dövründə başlandı. Estetik termininin

nüfuzu kəskin şəkildə yüksəldi və o fəlsəfi biliklər tərkibinə qayıtdı. Estetikanın mənəvi fəaliyyətin müstəqil forması kimi ayrılması faktı qanunauyğun olaraq Gözəlliyin ayrılmasına gətirib çıxartdı; əvvəllər o Həqiqət və Xeyiri sintetik birləşdirir, onların daxilində gedirdi, indi isə inkişaf etməkdə olan tarixi faciələrin bərabər hüquqlu personajı kimi liderlik mövqeyi uğrunda mübarizədə iştirak edirdi.

XVIII əsrdə alman filosofu A.Baumqarten fəlsəfənin bölməsini göstərmək üçün "estetika" terminini irəli sürdü. Estetika yunan sözü olub duyan, hiss edən, hissiyyatlı mənalarını verir və "hissi idrakı öyrənən" elmdir.

Tələbələrin nəzərinə çatdırmaq lazımdır ki, gözəllik "hissi idrakın kamilliyi" elan olundu. Gözəlliyin gəldiyi yer isə antik dövrdə qəbul olunduğu kimi öz özlüyündə olan aləm yox, insanın yaradıcı fəaliyyətinin nəticəsi kimi incəsənət oldu. İncəsənət təbiətə insanın estetik hissi nöqteyi nəzərindən, əxlaq nöqteyi nəzərindən baxır. Hissi cazibədarhğm əxlaqı şəfqətə girdiyi Gözəllik möcüzə kimi təsir edir.

Yalnız incəsənətin estetik xassəyə malik olmasının qəbul edilməsi estetik şüuru ümumiləşdirmə funksiyasından məhrum edirdi, bütün digər fəaliyyət növlərindən, ümumiyyətlə isə ictimai həyatda estetikanı zəifllədir, estetikanı məqsədə çevirirdi. Bu nöqteyi- nəzərdən həqiqət dünyaya, gözəllik isə insan yaradıcılığına və ya sosiumdan kənar götürülən təbiət gözəlliyinə aid edilmişdi. Tarixdə ilk dəfə olaraq Həqiqət və Gözəllik arasında məntiqi fərq müəyyən olundu. Elə bu fərq təbiəti və insanın yaradıcı ruhunu ayınr.

Bu baxışların geniş sürətdə əsaslandırılmasını romantiklər (A. və F.Şleqellər), klassik alman idealistləri

(K.Fişer), neokantçılar (Q.Koqen) vemıişdir. Bu "təmiz incəsənət", yəni incəsənət naminə incəsənət estetik nəzəriyyəsinin əsasını təşkil edir. Gözəllik burada Həqiqət və Xeyirdən üstün götürülür. B.Kroçeyə görə incəsənət özlüyündə reallıqdan üstündür: o idrakdan və əxlaqdan kənardır. Bu nöqteyi nəzərə görə, incəsənəti yaradan insan HƏ təbiətə, nə də cəmiyyətə möhtac deyil, o özü tam yetkindir. Göteyə görə, Həqiqət və Gözəllik arasında kəskin hədd yoxdur, əksinə Gözəllik Həqiqətdir; o təbiətin gizli qanunlarının təzahürünün məğzidir, bu fenomeni toplasaq bizim üçün təbiət həmişəlik gizli qalar. Təbiət qanunları və gözəllik qanunlarını bir-birindən ayırmaq olmaz. Təbiətdə olan bütün gözəlliklər təbiət qanunlarının ifadəsidir. İnsan burada artıq incəsənət üçün yetkin deyil: o qanunauyğun olaraq xarici aləmə, özü də yalnız təbiətə deyil, həm də cəmiyyətə, başqa adamlara müraciət edir. Digər tərəfdən elm və dünyanın dərk olunması üçün kifayət deyildir. Göteyə görə, təbiət öz sirlərini açmağa başladığı adamda incəsənət vasitəsi ilə onu daha geniş şərh etməyə ehtiyac oyanır.

Maarifçilik dövrü və praktiki olaraq XIX əsrin əvvəllərinin bütün rəsmi ideologiyası rasionalizmə girmişdir, yəni varlığın əsas məsələlərinin təbii-elmi əqllə həllinə etibar etməyə meylli idilər; bu baxışlara görə, incəsənət dünyanı dərk etmək vasitəsi yox, yalnız insanın özünü təsdiq forması hesab olunurdu. XIX əsrin sonlarında Avropa fəlsəfəsi "rasionalizmin böhranı" haqqında, (Kyerkeqor, Nitşe, Şpenqler) mədəniyyətə üç vəhdəti - əql, iradə və hiss, yəni Həqiqət, Xeyir və Gözəllik qaytarmağın zəruriliyi haqqında kəskin danışmağa başladılar; onlar təsdiq etdilər ki, insan həm dünyanı, həm də öz-özünü dərk edərkən əql və ya iradə ilə

məhdudlaşa bilməz, dünyanın və öz-özünün estetik qavranılması olmadan insan əsas olanı- özünün dünya ilə, özünün daxili bütövlüyü ilə, üzvi əlaqəsini itirir.

Estetik şüurun ayrılmaz aspekti **estetik hissdir.** Estetik hiss dünyanın gözəlliyindən zövq almağın işıqlı hissidir. İnsanın həyata emosional-estetik münasibəti həmişə gerçəkliyin hər hansı əhəmiyyətli tərəfinin açılmasıdır. Estetik hiss mənəvi həyəcanların, təəssüratların ali formasına aiddir. Onlar ətraf gerçəkliyin hadisələrinin, incəsənət əsərlərinin qavramimasında ən gözəl anlayışı şüurlu və ya şüursuz əldə rəhbər tutmaq bacarığını güman edirlər. Estetik hiss əxlaqı və idrakı hisslərlə vəhdətdə yaranır və onlarla birlikdə zənginləşir. Estetik hiss əz predmet məzmununu ümumiləşdirmək səviyyəsinə görə konkret (məsələn, bu və ya başqa bədii əsərə olan hiss) və mücərrədə (faciəli, uca hisslər)bölünür. İnsan mülayim, mötədil zövq almaq hissindən estetik heyranlığa qədər bir sıra pillə keçə bilər.

Estetik hiss inkişaf və təkmilləşərək insanın qarşısında gerçəkliyin yeni-yeni tərəflərini - gözəllik və eybəcərlik, komik və faciə, uca və alçaq- açmışdır. Bu hiss insanın mənəvi aləmində o qədər dərin ayırmışdır ki, hətta müəyyən vaxtdan sonra ayrı-ayrı sabit estetik baxışlar çoxlu sayda çalarlar yaratmışdır. Belə ki, estetik qavrayış sistemindəki obyektiv-komik özünün yumor, acı istehza, faciəli komediya və s. kimi çalarını yaratmışdır. Gerçəkliyin satirik qavranılmasmdan fərqli olaraq yumor hissi - insanın özünə əziz olana qarşı açıq ürəklə zarafat etmişdir; bu vaxt o özünə doğma olan obyektə qarşı dərin estetik münasibətini təzahür etdirir.

Estetik hissin inkişafı insanı təkrarolunmaz fərdə çevirir, onun aləmini ayırır və eyni zamanda onda mənəvi

keyfiyyətləri harmonik uyğunlaşdırır. Estetik hissi inkişaf etmiş insan yaradıcı coşqunluğu olan, həyata yaradıcı münasibətdə olan insandır. Sağlam estetik tələbatı inkişaf etmiş adama uzun müddət həm mənəvi, həm də fiziki cavanlığını saxlamaq xarakterikdir. Həqiqətən də təbiətlə daim ünsiyyət, əməkdə insanlar arasındakı münasibətdə gözəlliyi görmək və yaratmaq, incəsənəti dərindən duymaq və başa düşmək-bütün bunlar insanın həyat qabiliyyətini artırır, onu lazımsız mənfi hisslərdən və həyəcanlardan xilas edir.

Bəşəriyyəti kamilləşdirən estetik emosiyalar həm də hər bir adamı kamilləşdirir. Məhz buna görə hər bir adamın mənəvi aləmi fərdi və təkrarolunmazdır. İnsanın azad və geniş inkişaf etmiş estetik tələbatı onda yalnız özünə xas olan emosional həyat eşqi yaradır, onun ömrünü maraqlı və gözəl edir.

Estetik şüur insan fəallığının bütün aktında (hərəkətində, işində) - istər elmi təfəkkürdə, hissi düşüncədə, istehsal fəaliyyətində, istərsə də məişət sahəsində mövcuddur. İnsan istənilən təzahürə, ona qarşı dayanan hər bir obyektiv hadisəyə, bir sözlə, onun təcrübəsinə daxil olan hər şeyə estetik mövqedən yanaşır. Estetik şüur adamların mənəvi zənginliklərinin mühüm tərkib hissəsini yaradır. Təbiət hadisələrinin estetik xassələrini estetik inkişaf etmiş göz və qulaq görə və eşidə bilər.

**İncəsənət** - bu peşəkar fəaliyyət sahəsidir, burada estetik şüur yanaşı gedən ünsürdən əsas məqsədə çevrilir. Fəaliyyətdə iştirak edən estetik məqam nə qədər güclü olsa da tədqiqatın əsasını o müəyyən etmir, incəsənətdə estetik şüur əsas olur. İctimai şüurun bu formasında incəsənətin yerini və rolunu nəzərə alaraq mühazirədə **incəsənətin fəlsəfəsini** xüsusi təhlil etmək məqsədə

uyğundur. İnsan fəaliyyətinin bütün sahələrində özünü göstərən gerçəkliyə estetik münasibət müstəqil bir fəaliyyətin predmetinə çevrilməyə bilməzdi. Estetikliyin bədiilikdə təcəssüm olunduğu, eyni zamanda həm məzmun, həm vasitə, həm də məqsəd daşıdığı insan fəaliyyətinin bu xüsusi növü incəsənətdir; o heç vaxt insanı tək qoymamış, həmişə onun tələbatına və ideyalarına cavab vermişdir.

İncəsənət insanın özünü göstərmək vasitəsidir, ona görə də incəsənətin predmeti həm insan və dünyanın münasibəti, həm insanın bütün öz ölçüləri ilə - psixi, ictimai, əxlaqı və hətta məişət - birlikdə olan münasibətdir.

İncəsənət təbiət sirrinin sirri olan insanı hərtərəfli götürür, bu fenomeni öyrənməyə çalışır. İncəsənət bizimlə öz xüsusi dilində danışır, o aydın olana qədər onu öyrənmək lazımdır.

Hələ ibtidai icma quruluşunda yaranan incəsənət üz əsas xüsusiyyətlərini antik dövrdə mənimsəmişdir, bununla belə, xüsusi fəaliyyət növü kimi düşünülmürdü. Platona qədər (onun özü də daxil olmaqla) ev tikməyi bacarmaq, gəmiçilikdəki vərdişlər, həkimlik etmək, dövləti idarə etmək, poeziya, fəlsəfə, bir sözlə hər şey incəsənət adlanırdı. Əgər bizim üçün Homerin poemaları incəsənət əsəridirsə, onun müasirləri üçün bu poemalar fəlsəfi ümumiləşdirmə, etik normaların etalonu, dini sistemlərin izahı, incəsənət nümunəsi hesab olunurdu.

Fəlsəfədən, elmdən, dindən və etikadan fərqli olaraq incəsənət oradan başlanır ki, estetik fəaliyyətin məqsədi, dünyanı dərk etmək və dəyişdirmək, etik norma sistemini və dini əqidələri şərh etmək yox, bədii fəaliyyətin özü uydurulmuş aləmi yaratmağa imkan verir və hər şey

insanın estetik yaradıcılığının məhsulu olur. İki cəhət onun əsasını təşkil edir; birincisi, bu aləm təmiz uydurmanın məhsulu deyil və gerçək aləmlə əlaqəsi olmayan bir dünya deyildir. Müəllifin son dərəcə güclü fantaziyası olsa da bu özünəməxsus real aləmdir. İkincisi, dünyanın bədii mənzərəsi adlanan bu reallıq yalnız həyatın az və ya çox dərəcədə həqiqətə uyğun təsviridir, həyatın özü deyildir.

Rəssam öz əsərində intuitiv olaraq öz fikirlərindən kənarda olan, şüursuzluq sahəsindən gələn fikirlərini də qoyur. Nəticədə əsl incəsənət əsəri sonsuz şərhləri özündə birləşdirir, sanki müəllifə sonsuz sayda fikirlər xasdır. İnsan üçün sanki birincini təkrar edən bu aləm nəyə lazımdır? Məsələ ondadır ki, fəaliyyətin başqa növlərindən fərqli olaraq incəsənət insanın daxili aləmini bütövlükdə idarə edir, bu hal dəqiq elmlərdə və ya hər hansı konkret fəaliyyət sahəsində yox olur; belə ki, bu vaxt insan özünün hər hansı bir tərəfini reallaşdırır. İncəsənətdə insan azad və tam hökmranlıqla təbiət kimi öz xüsusi dünyasım yaradır. Əgər öz praktiki fəaliyyətində, elmdə insan dünyaya qarşı, subyekt kimi obyektə qarşı qoyulur və öz azadlığında məhduddursa, incəsənətdə insan öz subyektiv məzmununu ümumi əhəmiyyətli və bütöv obyektiv varlığa çevirir.

İncəsənətdə əsərinin estetik həyəcanı, onun yaradılmasının özü insandan hər şeyi tələb edir, çünki o özündə ali idraki dəyərləri, estetik gərginliyi, emosional qavrayışı birləşdirir. İncəsənət yalnız insanın hisslərə deyil, həm də intellektdə, onun mənəvi aləminin incəliklərinə yönəldilmişdir. Bədii əsər yalnız estetik zövq mənbəyi deyil, həm də bilik mənbəyidir; onun vasitəsi ilə insan həyatı, onun xarakteri, adamlar arasındakı münasibət öyrənilir, yaddaşlara köçürülür, dəqiqləşdirilir. Əgər insan

elmi, publisistik, məşhur nəşrləri oxuyarkən sanki dünya haqqında “fraqment“ təfəkkürə köklənir, bu mətndə onun qavraması üçün vacib olmayanların “hamısını unudursa“, bədii ədəbiyyat oxumağa başlayanda o özündə bütün mənəvi gücü; həm ağlı, həm intuisiyanı, həm hissi, həm estetik anlayışları, həm də öz Mənini fəallaşdırır. Bizim daxili mənəvi aləmimizdə elə bir an yoxdur ki, incəsənəti qavrayarkən fəallaşmasın.

incəsənət elmdən onunla fərqlənir ki, o sadəcə olaraq şeylərin mahiyyətini, onlardakı ümumi və qanunauyğunluğu öyrənməyə istiqamətlənməyib, o həm də bədii surətlərin yaradılmasına, həqiqətə oxşar xarakter daşıyan hadisələrin uydurmasına yönəldilmişdir.

İncəsənətin sintetik gücü filosofları təəccübləndirən belə bir faktla izah olunur ki, mənəvi fəaliyyətin çoxsaylı növləri arasında insana ictimai təsirinə görə ona bərabər olan heç nə yoxdur. İncəsənət öz sirli gücü ilə çox vaxt insanları qorxudurdu. Belə bir fikir söyləyirdilər ki, qayda yaratmağa cəhd edən hər dövlət musiqini (həm də başqa incəsənəti) qadağan etməlidir, çünki onlar əxlaqı yüngülləşdirir və ciddi subordinasiyanı qeyri-mümkün edir.

Uzun illər müxtəlif dövlət quruluşunda incəsənəti boğmağa, onu siyasiləşdirməyə meyl olmuşdur. Bədii yaradıcılığın bürokratik nəzarət və ideoloji diktatordan azad olması tələbinin “incəsənətin qeyri-əxlaqi təbiəti” haqqında yalançı tezislə heç bir əlaqəsi yoxdur. Hegelin sözləri ilə desək, incəsənət “əxlaqi aləmin” estetik yenidənqurulmasıdır. İncəsənətin demokratikləşməsi onun əxlaqdan yox, bürokratik təzyiqdən azad olması deməkdir. Əsl liberal demokratiya şəraitində incəsənət estetik və etik yüksəkliyə qalxa bilər. İncəsənətin ictimai həyatdakı

rolunu qiymətləndirmək çətindir. İctimai qaydaların istənilən dərin dəyişdirilməsi incəsənətin fəal iştirakı ilə həyata keçirilir.

Beləliklə, estetik şüur və onun yüksək foraıası olan ineəsənət-ictimai şüurun zəruri hissəsi olub, onun bütövlüyünü və sürətli inkişafını, onun gələeəklə bağlı axtarış istiqamətini, indiki vaxtda əxlaqi-psixoloji sabitliyini təmin edir. Lakin incəsənət yalnız sağlam cəmiyyət deyil, həm də mədəniyyətin çox əsrlik varisliyini, onun artan universallığını təmin edir.

İnsan incəsənətə öz nailiyyətlərinin ölməməzlik vasitəsi kimi baxır. İncəsənətin sintezləşdirilmiş missiyası həm ayrıca şəxslər səviyyəsində-onun bütün mənəvi gücünü bir yerə bərkitməklə, həm də ictimai inkişafın müəyyən mərhələsi səviyyəsində-xalqların özlərini bütöv göstərməsini təmin etməklə, həm də nəsillərin tarixi əlaqələri səviyyəsində-mədəniyyətin yüksələn tərəqqisinin vəhdətini ifadə etməklə təzahür edir.

**Elmi şüur.** İctimai şüurun başqa formalarında gerçəkliyin səmərəli dərk olunması, onun nizama salınması və sistemləşdirilmiş inikası yanaşı gedən məqsəddirsə də, elmdə dünyanın səmərəli dərk olunmasının meyarı əsas yer tutur, deməli yuxarıda təhlil etdiyimiz Həqiqət, Xeyir və Gözəllik triadasmda üstünlük təşkil edən dəyər kimi öz-özlüyündə götürülmüş Həqiqətin birbaşa olmayan etik və ya estetik qiymətləndirilməsi dayanır. Elm-insan fəaliyyətinin tarixən yaranan fomrasıdır, obyektiv gerçəkliyin dərk olunmasına və yenidən qurulmasına istiqamətlənmişdir; bu mənəvi istehsalın məqsədyönlü seçilmiş və sistemləşdirilmiş faktların nəticələri, məntiqi cəhətdən yoxlanılmış hipotezi, eyni zamanda tədqiqat metodu var. Elm-bu eyni zamanda

həm bilik sistemi, həm mənəvi istehsal, həm də onun əsasında praktiki fəaliyyətidir.

Hər 5np elmi idrak üçün nə tədqiq etdiyi və necə tədqiq etdiyi əhəmiyyət kəsb edir. Nə tədqiq edildiyi sualının cavabında elmin predmetinin təbiəti açılır, tədqiqatın necə aparılması sualında isə tədqiqatın metodu açılır. Gerçəkliyin və ictimai praktikanın keyfiyyətcə müxtəlifliyi insan təfəkkürünün çox planlı xarakterini, elmi biliyini müxtəlif sahələrini müəyyən edir.

Müasir elm-çox sahələrə ayrılmış ayrı-ayrı elm sahələrinin məcmusudur. Elmin predmeti yalnız insan üçün məlum olmayan dünya, varlığın hərəkətinin müxtəlif forma və növləri deyil, həm də onların şüurda inikası, yəni insanın özüdür. Elmin predmetini təbii-texniki-təbiət qanunlarının və onun mənimsənilməsini və yenidən dəyişdirilməsini öyrənən və ictimai-müxtəlif ictimai hadisələri və onların inkişaf qanunlarını, o cümlədən ictimai varlıq kimi insanı öyrənən-hisslərə bölürlər. İctimai elmlər içərisində həm təbiət, həm cəmiyyət, həm də təfəkkürün ən ümumi inkişaf qanunlarını öyrənən fəlsəfi fənlərin kompleksi xüsusi yer tutur.

Elmin predmeti onun metodlarına, yəni obyektin tədqiqat üsulu vasitələrinə təsir edir. Belə ki, texniki elmlərdə tədqiqat üsullarından biri eksperiment olduğu halda, ictimai elmlərdə bu statistikadır. Bununla belə, elmlər arasındakı sərhəd kifayət qədər şərtidir. Elmi idrakın müasir inkişaf mərhələsi üçün yalnız öz predmetinə görə qarışıq fənlərin (məsələn, bio-fizika) yaranması deyil, həm də elmi metodologiyanın qarşılıqlı zənginləşməsi xarakterikdir. Ümumi elmi məntiqi üsul induksiya, deduksiya, analiz, sintez, eyni zamanda sistemi və gümanlı yanaşma və bir çox başqa üsullarıdır. Hər bir

elmdə empirik səviyyə, yəni toplanmış faktiki material-müşahidə və eksperimentin nəticələri və nəzəri səviyyə, yəni müvafiq nəzəriyyələrdə, qanunlarda və prinsiplərdə ifadə olunan empirik materialların ümumiləşdirilməsi fərqləndirilir; faktlara əsaslanan elmi mühakimələrin, hipotezlərin sonradan təcrübə ilə yoxlanmağa ehtiyacı var. Ayrı-ayrı elmin nəzəri səviyyəsi kəşf olunmuş prinsiplər və qanunların ümumi nəzəri, fəlsəfi izahına bütövlükdə elmi idrakın dünyagörüşü və metodoloji tərəflərinin formalaşmasına doğru sıxlaşdırıhr. Elmi idrakın mühüm komponenti bu elmin dünyagörüşü və metodoloji əsasını təşkil edən məlumatların fəlsəfi şərhidir. Artıq faktların seçilməsinin özü-xüsusi ilə də ictimai elmlərdə - alimin böyük nəzəri hazırlığının və fəlsəfi mədəniyyətinin göstəricisidir. Elmi biliklərin inkişafının müasir mərhələsi yalnız faktların nəzəri dərk olunmasını deyil, eyni zamanda onların alınması üsullarının təhlilini, yeninin axtarışının ən ümumi yolları haqqında düşüncələri tələb edir.

Elmin ictimai funksiyalarının izahına xüsusi diqqət yetirmək lazımdır. Elm-mürəkkəb, çoxtərəfli ictimai hadisədir; cəmiyyətdən kənarda elm nə yarana, nə də inkişaf edə bilməz, amma cəmiyyətin yüksək inkişaf səviyyəsini də elmsiz təsəvvür etmək olmaz. Maddi istehsalın tələbatı elmin inkişafına, onun tədqiqat istiqamətinə, elm isə öz növbəsində ictimai inkişafa təsir edir. Böyük elmi kəşflər və onunla sıx bağlı olan texniki ixtiralar bütün bəşəriyyətin taleyinə güclü təsir göstərmişdir.

Tarixin müxtəlif dövrlərində elmin rolu eyni olmamışdır, lakin artıq antik dövrdə onun əhəmiyyətini başa düşmüşdülər. Antik dövrdə elm fiziki və əqli əməyin

bölünməsi nəticəsi kimi mövcud olmuşdur. İctimai şüurun müstəqil forması kimi elm ellinizm dövründən fəaliyyət göstərməyə başlamışdır. Elmin bilik forması kimi fəlsəfədən, dindən ayrılmasım Aristotelin adı ilə bağlayırlar. Lakin onda elmi biliyin ünsürləri istehsala olduqca zəif təsir göstərirdi; istehsal qullar tərəfindən əsrlərlə işlənmiş vərdişlərə əsaslanan empirik biliyə söykənən əl alətləri vasitəsi ilə həyata keçirilirdi. Feodalizm şəraitində natural təsərrüfat əl alətləri ilə keçinir və ustaların fərdi bacarıq və təcrübəsi ilə məhdudlaşırdı. Lakin artıq bu vaxt biliyin inkişafı prosesi başlanır; gizli formada olsa da, məsələn, kimya əlkimya formasında inkişaf edirdi. Kapitalizm elə praktiki problemlər qarşıya qoydu ki, bunu yalnız elm vasitəsi ilə həll etmək olardı. Elm daha çox məhsuldar qüvvələrin mənəvi məzmununa çevrildi. Tarixin sonrakı gedişi istehsalın daha çox "elmləşməsi" ilə özünü göstərdi. Təbii elmlərlə yanaşı humanitar fənlər də inkişaf edirdi. Yalnız maddi aləmə deyil, həm də mənəvi dünyanın qanunauyğunluqlarına yüksək maraq yarandı.

İstehsala olan tələbatın dunuadan artması və dünya bazarının genişlənməsi elmin sonrakı inkişafını şərtləndirdi. Bununla belə cəmiyyətin intellektual funksiyası inkişaf edərək əməyin subyektindən daha çox ayrılır və hakim sinfin və sürətlə formalaşan ziyalı təbəqənin fəaliyyətində cəmləşirdi. Bundan başqa elmi iş istehsalın təşkili üzrə əməkdən ayrılır, alimlərin sahəsi olurdu. Alimlər arasında da ixtisaslaşma gedirdi. Bu prosesin müsbət əhəmiyyəti var idi, idrakın dərinləşməsi üçün şərait yaradırdı, lakin bununla yanaşı onun mənfi cəhətləri də vardır; dar ixtisas alimin biliyini məhdudlaşdırır, elmi yaradıcılığın məhsuldarlığını aşağı

salır, mədənijo'ətin inkişafına mənfi təsir göstərirdi. Məhz bu vaxt təbii-elmi və humanitar biliklərin arasında, ümumiyyətlə elm və əxlaqi-etik şüur arasında uyğunsuzluq daha da dərinləşir.

Kapitalizm yarandığı vaxtdan indiyə qədər elmi və maddi istehsal arasında qarşılıqlı əlaqə daim dərinləşir və təkmilləşir. Bu gün bu proses istehsalın daha çox avtomatlaşmasında, insan beyninin qismən kibernetik qurğularla, kompüterlə əvəz olunmasında öz əksini tapır. Elmin köməyi ilə az əmək çəkməklə böyük nailiyyət qazanmaq mümkün olmuşdur.

Elmin ictimai əhəmiyyəti adamların həyat və əməyini yüngülləşdirmək, cəmiyyətin təbiət üzərində ağıllı hakimiyyətini aıtımıaq, ictimai münasibətlərin təkmilləşdirilməsinə kömək etmək, insan şəxsiyyətini harmonikləşdirməkdən ibarətdir. Müasir elm öz kəşfləri və ixtiraları hesabına adamların həyatını və fəaliyyətini yüngülləşdirmək üçün xeyli iş gömıüşdür. Elmi kəşflər və ixtiralar əməyin məhsuldarlığının yüksəlməsinə və məhsulların artmasına gətirib çıxarmışdır. Lakin elm xəzinəsi bütün adamlara eyni ölçüdə xoşbəxtlik gətirməmişdir. Elm çox güclü silahdır, kimin əlində olmasından asılı olaraq adamlara ya xoşbəxtlik, ya da ölüm gətirə bilər. Elm insansız gücsüzdür, bununla belə elm insansız məqsədsizdir. Əksər kəşflər və ixtiralar həm səmərəli, həm də dağıdıcı təsirə malikdir və buna görə güclü imkana və təhlükəyə malikdir. Hər şey onun kim tərəfindən və necə istifadə olunmasmdadır.

İ.Kant böyük alim olsa da həm elmə, həm də alimə ehtiyatlı və tənqidi yanaşırdı. J.J.Russo kimi o ictimai, o cümlədən elmi tərəqqinin ziddiyyətlərini görür, toplanan biliklərin insanlara xeyir gətirməsindən ehtiyat edirdi.

Tarix sübut edir ki, elmi kəşflərin hələ təhlükəsi görünmədiyi vaxtdan ayrı-ayrı mütəfəkkirlər onlarda olan öldürücü təhlükələri görürdülər. Qonkur qardaşlarının söylədikləri bir fikir ətrafında düşünməyə dəyər; "Deyirlər ki, Bertelo yazır ki, elmi inkişafın yüz ilindən sonra insan atom nə olduğunu biləcək və öz arzusu ilə günəş işığını azalda, söndürə və yenidən yandıra biləcək. Klod Bernar öz tərəfindən bəyan etmişdir ki, fiziologiyanın öyrənilməsindən yüz il keçdikdən sonra insan həyatını idarə etmək və adam yaratmaq mümkün olacaq. Biz etiraz etmədik, lakin düşünürük ki, dünya bu ana çatanda Yer kürəsinə qoca ağsaqqal Allah əlində açar bağlamaları enəcək və bəşəriyyətə deyəcəkdir: "Cənablar bağlanırıq!".

Son vaxtlara qədər alimlər öz kəşflərinin dramatik və faciəli nəticələri haqqında fikirləşmirdilər. Elmi biliyin hər artımı əvvəlcədən xeyirli hesab olunur və bəraət qazandırılırdı. Xirosima və Naqasakidən sonra vəziyyət dəyişdi: elmi kəşflərin mənəvi dəyəri problemi yarandı. Məlum oldu ki, həqiqət xeyirdən kənar, dəyərlər meyarından kənar mövcud ola bilməz. Estetik inkişaf etmiş adama o tam açılır. Həqiqətin yeni anlamı yarandı: həqiqət sadəcə olaraq doğru bilikdən daha böyükdür. Kim elmdə irəliyə gedib əxlaqda geri qalırsa, o irəliyə getməkdən daha çox geriyə gedir.

Bəşəriyyət bu gün Hamletsayağı olum, ya ölüm sualı qarşısında dayanmışdır. Hər hansı ehtiyatsızlıq bəşəriyyəti məhvolma təhlükəsi qarşısında qoya bilər. Dünyada xeyirlə yanaşı şər də inkişaf etmişdir. Bir sözlə, elmin inkişafı bir sıra həyat əhəmiyyətli, əxlaqı xarakterli problemlər yaratmışdır. Məgər indi klonlaşdırma problemindən yan keçmək olarmı, bir haqda ki, bunu insanın

üzərində həyata keçirmək istəyirlər? Bu insan ləyaqətini azaltmaqla yanaşı, həm də onu təhqir edir.

Elmin funksiyaları: dərketmə, izahetmə, praktiki - fəaliyyət, proqnozlaşdırma, dünyagörünüşü, ictimai yaddaş və s. - haqqında qısa məlumat vermək məqsədəuyğundur. Tarixin 2,5 min illik dövrü ərzində elm inkişaf etmiş, zaman keçdikcə keyfiyyətcə dəyişmişdir. Elm daim öz həcmini genişləndirir, daha da mürəkkəbləşir. XX əsrin 60-cı illərindən Amerikalı elm tarixçisi və filosofu Tomas Kunun elmin inkişafı konsepsiyası daha çox tərəfdar toplamışdır. Kunun elmi biliklərini təkamülü ilə bağlı düşüncələrinin əsasını belə bir fakt təşkil edirdi ki, ictimaiyyatcı-alimlər əsaslı məsələlərlə, ictimai nəzəriyyələrin başlanğıc əsasları ilə bağlı fikirlər ayrılığına görə şöhrətlənirlər: təbiətşünaslar isə bu məsələ ilə bağlı az mübahisə edirlər. Adi vaxtlarda isə onlar sakitcə işləyir və sanki yazılmamış razılaşmanı müdafiə edirlər: nə qədər ki, hamının olduğu elm məbədi silkələnmir onun özülünün keyfiyyəti də müzakirə olunmur. Kun elmi metodologiyaya "paradiqma" anlayışının gətirdi ki, bu sözün də hərfi mənası nümunə deməkdir. Burada biliyin təşkilinin xüsusi üsulu qeydə alınır; dünyaya yeni baxışı müəyyən edən, deməli həm də tədqiqatlara təsir edən göstəriş verilir. Burada konkret problemlərin həllinin hamı tərəfindən qəbul olunmuş nümunələri verilir.

Elmin inkişafının alternativ modelini ingilis filosofu İ.Lakatos irəli sürmüşdür. Elmi-tədqiqat proqramının metodologiyası adlanan bu konsepsiyada seçilən tədqiqat proqramının səmərəli həyata keçirilməsi tələb olunur. Elmin dəyişikliyi fenomeninin dərk olunmasında K.Pop- perin konsepsiyası mühüm rol oynamışdır. O, "elmi səmərələşdirici nəzəriyyə" hazırlamağı qarşısına məqsəd

qoymuşdur. Müasir fəlsəfənin vəzifəsi elmi biliklərin artmasını, elmi biliyi qeyri-elmi bilikdən ayırmağı dərk etməkdir. Popperin əsas silahı saxtalaşdırma prinsipidir: yalnız o nəzəriyyə elmi hesab oluna bilər ki, o təkzib olunur (saxtalaşdırılır). Təkzib olunmayan nəzəriyyə elmi ola bilməz. Əgər nəzəriyyəyə təkzib tapılmayıbsa o həqiqət hesab olunur. Elmi biliyin yüksəlişi məhz təkzibləri irəli sürməkdir ki, nəticədə də elmi problemlər həll olunur.

Elmin inkişafının mühüm qanunauyğunluğu elmi biliklərin diferensiyası (ayrılma) və inteqrasiyası (birləşmə) proseslərinin vəhdəti hesab olunur. Müasir elm özündə 15 min müxtəlif fənləri birləşdirir. Bu məsələ ilə bağlı yığcam mülahizələri tələbələrin diqqətinə çatdırmaq lazımdır.

Şübhəsiz ki, dünyanın elmi mənimsənilməsi insanın məhsuldar, lakin heç də qüdrətli olmayan qabiliyyətidir. Ona görə də bəşəriyyət uzun tarixi praktika ilə işləyib hazırladığı dünyanın dərk edilməsinin digər üsullarından imtina etmir.

**İqtisadi şüur.** Cəmiyyətin iqtisadi həyatının müxtəlif tərəfləri müvafiq iqtisadiMMaT elmləri tərəfindən öyrənilir. Lakin elə problemlər var ki, fəlsəfə ondan yan keçə bilməz. Bu ilk növbədə bütövlükdə cəmiyyət və onun iqtisadi həyatı arasındakı münasibət və onun cəmiyyətə göstərdiyi təsir, iqtisadi həyatın özünün inkişaf mənbələri və onun əsas təzahürü, onun obyektiv və subyektiv tərəflərinin münasibəti, iqtisadi şüur və onun cəmiyyətin iqtisadi həyatına təsiri, cəmiyyətdə mövcud olan iqtisadi münasibətlər, adamların iqtisadi maraqları, müxtəlif ictimai qrupların, ayrı-ayrı adamların və cəmiyyətin iqtisadi maraqlarının bir-biri ilə qarşılıqlı fəaliyyəti kimi problemlərdir. Eyni zamanda belə bir məsələ də var ki.

cəmiyyətin iqtisadi həyatına, onun inkişafına şüurlu, eyni zamanda elmi təsir nə dərəcədə mümkündür. Nəhayət, cəmiyyətin iqtisadi həyatı və iqtisadi islahatların təkamülünün qarşılıqlı münasibəti, burada dövlətin rolu məsələsindən də yan keçmək olmaz.

Bu problemlər yalnız iqtisadi deyil, həm də ictimai-fəlsəfi xarakter daşıdığından iqtisadi şüurun təhlili olduqea vacibdir. Cəmiyyətin iqtisadi həyatının subyektiv tərəfi adamların şüurunun, iradə, məqsəd, qiymət oriyentasiyasının və s. təzahürüdür. Bütün bunlar subyektin daxili aləminin, onun psixi durumu və intellektinin ifadəsidir. Söhbət ilk növbədə adamların iqtisadi şüurundan gedir, onun məzmununu insanların iqtisadi həyatının obyektiv məzmunu təşkil edir. Bu hər şeydən əvvəl bu və ya digər iqtisadi hadisələrin və onlar haqqında subyektiv baxışların subyektiv qavranılması ola bilər. Bu, məsələn, malın faydahhğma, keyfiyyətinə, dəyərinə, pulun roluna bu və ya digər maliyyə əməliyyatının, mahiyyətinə və s. aid ola bilər.

Bu vaxt hər hansı iqtisadi həyat hadisələrin adamların şüurunda inikası həm onların gündəlik praktiki təcrübələrinə əsaslanan adi məişət baxışların səviyyəsində - adamların gündəlik iqtisadi şüuru belədir, həm də müxtəlif nəzəriyyələr, məntiqi cəhətdən əsaslandırılmış nəzəriyyələr sistemi səviyyəsində - bu nəzəri iqtisadi şüurdur - baş verə bilər. Bu, məsələn, A.Smitin dəyər nəzəriyyəsi, Bem-Baverkin faydalılıq nəzəriyyəsi, Mark- sm izahı dəyər nəzəriyyəsi, Keynsin iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi və s. nəzəriyyələr ola bilər. Adi və nəzəri iqtisadi şüur-iqtisadi həyatın və proseslərin dərk olunmasının müxtəlif səviyyələridir. Mühazirədə həm də iqtisadi şüurun təzahürü kimi adamların iqtisadi psixo

logiyası problemini də araşdırmaq məqsədəuyğundur, iqtisadi nəzəriyyələrin ideoloji istiqaməti, obyektiv iqtisadi maraqların dərk olunması, subyektiv maraq, doğru və yalan iqtisadi mənafe, iqtisadi proseslərə şüurlu təsir, iqtisadi şüurun səmərəliyi, iqtisadi məsələlərə yaradıcı şüur və başqa məsələlərə mühazirədə qısa yer vermək lazımdır; belə ki, bu problem cəmiyyətin iqtisadi həyatı ilə bağlı mövzunun təhlillində müəyyən dərəcədə öz təhlilini tapmışdır.

**Ekoloji şüur.** Cəmiyyət və təbiətin qarşılıqlı münasibəti problemi fəlsəfədə aktual problemlərdən biridir. Hələ neçə on illiklər əvvəl onlar arasındakı real qarşılıqlı əlaqə birtərəfli xarakter daşıyırdı. Bəşəriyyət təbiətdən götürür, onun ehtiyatlarını istismar edir və düşünürdü ki, bu ehtiyatlar sonsuzdur. Ən yaxşı halda bu qarşılıqlı əlaqə poetik gömnürdü; insan təbiətin gözəlliyindən zövq alır, ona hörmət və məhəbbətə çağırırdı. Bütövlükdə isə bəşəriyyət emosional çağırışdan irəli getmirdi. Cəmiyyətin mövcudluğu və inkişafı üçün təbiətin nə olması anlamı hələ formalaşmamışdır. Bu gün təbiət və cəmiyyətin qarşılıqlı münasibəti problemi nəzəri səviyyədən çox aktual bir səviyyəyə qalxıb və bunun həllindən bəşəriyyətin gələcəyi asılıdır. Bu baxımdan ekoloji şüur ən aktual ictimai şüur formasından biridir. Cəmiyyətin həyatında mövcud olan qlobal problem kimi ekoloji problemi həll etmək üçün cəmiyyətdə formalaşan ekoloji şüurun səviyyəsi məsələsinin aktuallığını nəzərə alaraq mühazirədə bu problemə xüsusi ilə toxunmaq vacibdir. Cəmiyyətdə ekoloji tərbiyə və təhsil dövlət səviyyəsində həyata keçirilməlidir. İctimai həyatın təbii əsası ilə bağlı mövzuda ekoloji problem, onun həlli ilə bağlı vəzifələr və bundan irəli gələn ekoloji şüurun

təhlilinə yer verilsə də, bu məsələni yenidən tələbələrlə təhlil etmək məqsədəuyğundur.

Cəmiyyətin mənəvi həyatı ilə bağlı söhbətimizin tam alınması üçün mədəniyyəti də təhlil etmək vacibdir, çünki mədəniyyyət cəmiyyətin bütün mənəvi həyatının vahid- bütöv sisteminə daxildir. Əvvəllər cəmiyyətin mənəvi həyatında yaranmış “kəsik” - məhz mədəniyyət (mənəvi mədəniyyət nəzərdə tutulur) fenomeni olmuşdur, ona görə də bir növ mövzunun yekunu kimi onu təhlil edib, eyni zamanda qısa da olsa mədəniyyətin mahiyyətini aydınlaşdırmağa çalışacağıq.

**Mədəniyyətin fəlsəfəsi.** Hansı növə aid olmasından asılı olmayaraq insan fəaliyyəti son anda da maddi, ya da mənəvi dəyərlərin istehsalına gətirir. Fəaliyyətin bu sahəsi həyata keçmə üsuluna, nətiçələrinə və içtimai məqsədlərinə görə bir-birindən fərqlənirlər. Maddi və mənəvi dəyərlərin məcmusu, eyni zamanda onların yaranması vasitələri, bəşərİз^ətin gələcək tərəqqisi naminə onlardan istifadə etmək bacarığı, onları nəsildən- nəsilə vermək - məhz bunlar mədəniyyəti təşkil edir. Təbiətə, yəni əl dəyməmiş təbiətə qarşı duran nə varsa mədəniyyətə, insan əməyi ilə becərilənə və yaradılana aiddir. Maddi və mənəvi mədəniyyəti fərqləndirmək qəbul olunmuşdur.

Maddi mədəniyyətə ilk növbədə ictimai varlıq girdabına daxil edilmiş istehsal vasitələri və əmək alətləri aiddir. Maddi mədəniyyət, onun inkişafının səviyyəsi və xarakteri həmin cəmiyyətdə hakim olan istehsal münasibətləri ilə sıx bağlıdır və onunla müəyyən olunur. Maddi mədəniyyət anlayışı insanlara xidmət edən şeylər və proseslərin geniş dairəsini əhatə edir. Maddi

mədəniyyət insanın təbiətə praktiki yiyələnməsi səviyyəsinin göstəricisidir.

Mənəvi mədəniyyətə elm və onun nailiyyətlərinin istehsala və məişətə tətbiq edilməsi səviyyəsi, əhalinin təhsil səviyyəsi, maarifin, tibbi xidmətin, incəsənətin, cəmiyyətdə adamların davranışmdakı əxlaq normalarının, məntiqi təfəkkürə və dil zənginliyinə malik olmaq vəziyyətləri, adamların maddi və mənəvi təlabatları və maraqları aiddir. Mənəvi mədəniyyəti əsasını təşkil edən dindir. Mənəvi mədəniyyət "şeylər" formasında: kitab, şəkil, kino, arxitektur tikintilər, heykəllər və s. yığılır. Bütün bunlar müasir nəsillə yaşayır və əməkdaşlıq edir və mədəniyyət adlanır və yalnız canlı əqllə münasibətdə onun zənginliyi, insanların mənəvi xəzinələri olması aydın olur. Beləliklə, mədəniyyət bəşəriyyətin həm maddi, həm də mənəvi istehsal sahəsində əldə etdiyi bütün nailiyyətləri əhatə edir. Ona yalnız əməyin məzmunu, onun məhsulları deyil, bilik deyil, həm də vərdişlər daxildir ki, bunlara yiyələnməklə insan praktiki və nəzəri vəzifələri yerinə yetirə bilir. Mədəniyyətin inkişafının başlanğıc forması və ilkin mənbəyi insan əməyi, onun həyata keçirilməsi vasitələri və nəticələrdir. Mədəniyyət aləmi bəşəriyyətin əvvəlki nəslinin reallaşmış təfəkkürü, iradə və hissi kimi ayrıca adamın şüurundan asılı olmadan yaranmışdır.

Mədəniyyətdən kənar insan və cəmiyyətin həyatı mümkün deyildir. Hər bir yeni nəsil öz həyatını yalnız təbiətin əhatəsində deyil, həm də əvvəlki nəslin yaratdığı maddi və mənəvi dəyərlər aləmində başlayır. Bacarıq, bilik, insani hisslər, qabiliyyət yeni nəslə irsən verilmir, o artıq yaradılmış mədəniyyətin mənimsənilməsi gedişində formalaşır. İnsan mədəniyyətinin nailiyyətlərinin bir nəsildən digərinə verilməsi olmadan tarixi təsəvvür etmək

olmaz: uşaq fikirləşməyə və danışmağa başlayır, böyüyür, yalnız mədəniyyətlə ünsiyyətdə böyüklər kimi düşünə bilir. Əgər insan mədəniyyəti yaradırsa, mədəniyyət də insanı yaradır.

Mədəniyyət əvvəlki nəslin yaratdığı maddi və mənəvi dəyərlərin passiv anbarı olmayıb, həyatın yaxşılaşdırılması üçün bəşəriyyətin istifadə etdiyi fəal yaradıcılıqdır. Cəmiyyət toplanmış mədəniyyət xəzinələrindən istifadə edərək onu daha da təkmilləşdirir. Mədəniyyət yalnız insan fəaliyyətinin nəticəsi olmayıb, həm də tarixən yaranan əmək vasitəsi, adamların qəbul olunmuş davranış aktları, etika adlanan ünsiyyət üsulu, öz hisslərini təzahür etdirmək vasitəsi, qəbul etmək, eyni zamanda təfəkküıfn səviyyəsidir.

**Dəyərlər ideyasına** da toxunmaq məqsədəuyğundur. Mədəniyyət - maddi və mənəvi dəyərlərdir. Dəyər deyərkən maddi və mənəvi reallığın bu və ya digər obyekti, onların insan və bəşəriyyət üçün müsbət və ya mənfi əhəmiyyətinin işıqlandırılması nəzərdə tutulur. Adətlər, din, incəsənət və ümumiyyətlə "mədəniyyət işığı" ilə işıqlandırılan şeylər və hadisələrin yalnız insan və cəmiyyət üçün xüsusi mənası var. Sakitlik, gün batan cağı, dan yeri, aylı gecədə təklikdə və ya günəşin düşdüyü yarpaqları seyr etmək bizi ruhlandırır. Bütün bunlar nə isə yüksək və təntənəli qəbul olunur və yaşanır. Başqa sözlə desək, real faktlar, hadisələr, xassələr bizim tərəfimizdən yalnız qəbul edilib, dərk olunmur, həm də qiymətləndirilir, bizdə iştirak hissi, zövq almaq, sevmək və ya nifrət etmək hissləri oyadır. Bu mümkün və qeyri-mümkün ləzzət və nifrət zövqü: yaxşı, gözəl, əla, nəzakətli, ədəbli, incə, zərif, xeyirxah, əzəmətli, yüksək, məhrəmlik, ülvi, müqəddəs və s. - təşkil edir. Bu və ya digər şey bizim

gözümüzdə yalnız öz obyektiv xassələrinə görə deyil, həm də bizim ona münasibətimizə görə müəyyən dəyərə malikdir. “O mənə ona görə əziz deyil ki, yaxşıdır, yaxşıdır ona görə də əzizdir” - fikri təsadüfü deyilməmişdir. Beləliklə, demək olar ki, dəyər-subyektiv- obyektiv reallıqdır. Zövqlə bağlı mübahisə etmək olmaz desələr də, əslində hər kəs öz zövqünün üstün olduğunu qorumaq uğrunda mübahisə edir.

İctimai və şəxsi həyata cəlb olunan və ya insan tərəfindən yaradılan hər bir şey öz fiziki varlığı ilə yanaşı, həm də ictimai varlıqdır: o tarixən ona həvalə olunan insan funksiyasını yerinə yetirir və buna görə də ictimai dəyərə malikdir; məsələn, stol - yalnız dörd ayağa bərkidilmiş taxta parçası olmayıb, insanların yemək və işləmək vaxtı oturduğu bir şeydir. Dəyər yalnız maddi deyil, həm də mənəvidir: incəsənət əsərləri, elmin, fəlsəfənin nailiyyətləri, əxlaq normaları və s. Dəyər anlayışı maddi və mənəvi mədəniyyətin varlığının ictimai mahiyyətini ifadə edir. Əgər nə isə maddi və ya mənəvi dəyər kimi çıxış edirsə, bu o deməkdir ki, o istər-istəməz şəxsiyyətin ictimai həyat şəraitinə daxil olub, onun təbiət və ictimai gerçəkliklə qarşılıqlı münasibətdə müəyyən funksiya yerinə yetirir. Adamlar öz tələbatları, maraqlan nöqteyi-nəzərindən toqquşduqları hər şeyə qiymət verirlər. Bizim dünyaya münasibətimiz qiymətləndirmə xarakteri daşıyır. Bu qiymət obyektiv, düz, mütərəqqi və ya yalan, subyektiv və ya qərəzli ola bilər. Bizim dünyagörüşümüzdə dünyanın elmi dərk olunması və ona dəyər münasibəti bir-biri ilə qırılmaz vəhdətdədir. Beləliklə, dəyər anlayışı mədəniyyət anlayışı ilə sıx bağlıdır.

Mədəniyyət nəsildən-nəsilə estafet kimi verilir. Əgər hər bir nəsil əvvəlki nəslin nailiyyətlərini tamamilə

süpürüb atsaydı mədəniyyət tarixi cəfəngiyyat, mənasız olardı. Mədəni irsdə gələcəyə lazım olanı və artıq keçmişdə qalmalı olanları fərqləndirmək lazımdır.

Mədəniyyət və sivilizasiya ilə bağlı mühüm məqamları qeyd etmək məqsədəuyğundur. Mədəniyyət nəzəriyyəsi sahəsində məhşur mütəxəssis Z.Snou bütöv bir orqan kimi mədəniyyət daxilində iki mədəniyyətin - elmi-texniki və humanitar-bədii mədəniyyətin olduğunu qeyd etmişdir. Vaxtilə bu bir fərqləndirmə ümumi mədəniyyət sahəsinin iki “yarımsahəsini” təmsil edən “fıziklər’Və “liriklər”arasmdakı mübahisədə özünü göstərmişdir. Bu mübahisələr hər hansı bir sahənin şişirdilməsinin mənasızlığını, mədəniyyətin qlobal vəhdətini, xüsusilə onun elmi və bədii-humanitar aspektlərinin məq- sədəuyğunluğunu göstərdi.

Məlumdur ki, **“mədəniyyət” və “sivilizasiya”** sözlərinin mənası ətrafında mübahisə gedir, çox vaxt bu çox kəskin xarakter alır və çox az halda kimsə bu sözləri qarışdırır; bu sözlərin konteksti eynidir, bəzən onları sinonim kimi işlətmək də düzdür: onlar bir-biri ilə sıx bağlıdır. Lakin onlar arasında oxşarlıqla yanaşı fərq də var və bəzən bu fərq çox kəskin düşmənçilik səviyyəsində əkslik formasında özünü göstərir. Doğrudan da: çox incə dil duyumuna malik olan elə bir adam olmaz ki, məsələn, Şekspirin, Nizaminin, Fizulinin yaradıçıhğmı sivilizasiya fenomeninə, atom bombası və başqa insanları məhv edən vasitələri ilə mədəniyyət fenomeninə aid etsin- əslində hər ikisi - insan əqlinin və əlinin məhsuludur. Mədəniyyəti sivilizasiyadan ilk dəfə İ.Kant fərqləndirmiş və bu problemləri aydınlaşdımıışdır. Əvvəllər mədəniyyət deyərkən, təbiətdən fərqli olaraq, insanın yaratdığı hər şeyi aid edirlər. Məsələn, Herder məsələni məhz bu cür qoyurdu.

lakin artıq onda aydın idi ki, insan öz yaradıcılığında pis və hətta çox pis işlərdə görür. Sonralar mədəniyyətə ideal fəaliyyət göstərən sistem və peşəkar bacarıq kimi baxdılar, lakin nəzərə alınmadı ki, çox böyük peşəkarlıqla, yəni bacarıqla adam öldürmək olar, lakin heç kəs bunu mədəniyyət fenomeni etməyəcəkdir. Məhz Kant bu məsələni çox dahiyanə həll etdi. O, mədəniyyət deyərkən yalnız onu nəzərdə tutdu ki, o insanların xeyrinə xidmət edir və mahiyyətcə humanistdir: humanizmdən və mənəvidən kənar həqiqi mədəniyyət yoxdur.

Mədəniyyətin məğzini özünün anlamasından çıxış edən Kant "bacarıq mədəniyyətini", "tərbiyə mədəniyyətinə" qarşı qoydu, sırf xarici, "texniki" tipli mədəniyyəti isə sivilizasiya adlandırdı. Uzaqgörən dahi sivilizasiyanın gizli inkişafını görür və bunu həyəcanla qarşılayırdı, sivilizasiyanın mədəniyyətdən aralı düşməsini deyirdi: mədəniyyət sivilizasiyaya nisbətən xeyli ləng irəli gedir. Bu aydın məhvedici nisbətsizlik dünya xalqlarına çoxlu bəlalar gətirir: mənəvi ölçüsüz götürülmüş sivilizasiyaya bəşəriyyətin texniki özünüməhvinə aparır. Mədəniyyət və təbiət arasında çox qəribə oxşarlıq var: təbiətin yaratdığı hər şey mədəniyyətdə olduğu kimi çox ciddi quruluşa malikdir. Axı cəmiyyət də çox mürəkkəb bir orqanizmdir.

Kütləvi mədəniyyət və antimədəniyyət problemlərinə diqqəti yönəltmək maraqlı olardı. XX əsrin əvvəllərində O. Şpenqlerin "Avropanın sönməsi", jhiksək mədəniyyətin məhvi, mədəni-mənəvi dəyərlərin sivilizasiya dəyərlərinə çevrilməsi ilə bağlı həyəcanlı çağırışı səsləndi. Əsrin ortalarında mədəni pessimist əhval-ruhiyyə "kütləvi cəmiyyət" və "kütləvi mədəniyyət" anlayışları ilə ifadə ' olunmağa başladı. Bütövlükdə kulturoloqların pessimizmi ona əsaslanır ki, XX əsr mədəniyyətinin

ümumi fonu Avropa mədəniyyətinin “qızıl dövrü” adlanan XVII-XIX əsr ziyalılarını öyrədən səviyyədən xeyli aşağı idi. XX əsr mədəniyyət fonunun göstəriciləri və onun aşağı düşməsi səbəbləri nə ilə nəzərə alınır?

İştimai həyatın tədrici demokratikləşməsi prosesi yüksək maddi səviyyəyə çatmaq, əsas istehsal proseslərinin təchizatı kütləvi çəmiyyətin formalaşmasına gətirib çıxarırdı; burada mədəni dəyərlər elitar mülk (var-dövlət) olmaqdan çıxdı və eqalitar (bərabərləşdirici) xarakter aldı, bu da kütləvi mədəniyyətin, yəni kütləvi informasiya vasitələrinin yaratdığı və xüsusi, texniki cəhətdən yüksək təchiz olunmuş sənayenin yaydığı ortaq mədəniyyətin yaranmasını şərtləndirdi. Kütləvi şüur əhalinin geniş təbəqəsini mədəniyyətin imkanları haqqında, incəsənəti qəbul etmək üçün zəmri olan vərdişi haqqında məlumatlandırmaq kimi tarixi bir məqsədi olsa da, kütləvi şüur yüksək incəsənətə toxunmağı əvəz edə bilməz. Lakin istənilən səviyyədə mədəniyyət sözün geniş mənasında humanist oriyentasiyah dəyərdir. Bu dəyərləri parçalayan hər nə varsa o antimədəniyyətdir.

**“Kütləvi mədəniyyət”** ifadəsi adətən etinasızlıq hissi ilə işlədilir, lakin bu anlayış müsbət mənada da işlədilə bilər: mədəniyyətə milyonlarla adam can atır. “Kütləvi mədəniyyəf’in pis mənada işlədilməsi onunla bağlıdır ki, heç də çox vaxt kütləyə əsl mədəniyyət səviyyəsinə qalxmağa imkan verilmir, əksinə “mədəniyyətin” özü əhalinin geridə qalmış təbəqəsinin sadə zövqünə uyaraq aşağı düşür, əsl tərbiyə görənləri təəccübləndirən bu səviyyəyə enir; əhalinin yüksək təhsilli və tərbiyəli hissəsinə nə isə quru bir şey sarımaq gülüncdür.

Mədəniyyətin kütləviliyi - bu heç də onun vacib olaraq aşağı, guya primitiv düşüncəlilər üçün nəzərdə tutulan səviyyəsi deyil, bu onun formal xarakteristikasıdır-özünəməxsus incəsənət bazarıdır. Axı geniş əhali kütləsinə də nəsə vermək lazımdır, onları mənəvi yüksəkliyə qaldırmaq, böyük mədəniyyət inciləri ilə tanış etmək lazımdır. Xalqın mədəniyyətini yüksəltmək üçün mədəniyyət tarixinə, bəşəriyyətin bütün mədəni irsinə müraciət etmək lazımdır-cəmiyyətin yüksək təhsilli təbəqəsini aşağı, nə isə sadə bir səviyyəyə endirmək olmaz. Cəmiyyətdə həmişə müxtəlif intelektual imkanlı və təhsilli adamlar olub və olacaqdır. Mədəniyyət xadimi, əlinə qələm götürməyə cəhd edən istənilən adam cəmiyyət qarşısında, insanlar qarşısında məsuliyyət daşıyırlar. Mədəniyyətin taleyi insanların əlindədir.

Beləliklə, mədəniyyət tarixən müxtəlif bərabərli sistem kimi real mövcuddur, öz ümum şey formasına, öz simvoluna, ənənəsinə, idealına, dəyər oriyentasiyasına və nəhayət fikir və həyat tərzinə malikdir - bütün bunlar mədəniyyətin mərkəzi gücü, canlı ruhudur. Bu mənada mədəniyyətin varlığının mənası yüksək fərdi xarakter daşıyır, fərdin dərin şəxsi təcrübəsi kimi mövcuddur.

### §4. Cəmiyətin mənəvi həyatının dialektikası

Müasir mənəvi vəziyyətin xarakterik xüsusiyyəti onun dərin ziddiyyətliliyindədir. Bir tərəfdən onda yaxşı həyata ümid var, bu da müəyyən mənada ruh yüksəkliyi yaradır. Digər tərəfdən isə, o böyük həyəcan və ehtiyatlılığa səbəb olur, belə ki, ayrıca bir adam təklikdə qalır, informasiya dənizində baş verən böyük işlərin qarşısında çaşır, qorunmaq təminatını itirir.

Müasir mənəvi həyatın ziddiyyətliliyinin hiss olunması elmdə, texnikada, təbabətdə parlaq qələbələr əldə etdikcə, maliyyə qüdrəti artdıqca, adamların rahatlığı və yaşayış səviyyəsi yüksəldikcə daha çox dujmlur. Aydınlaşdı ki, elmin, texnikanın və tibbin nailiyyətləri insanın rifahı üçün yox, onun pisliyinə də istifadə oluna bilər. Pul, rahatlıq naminə bir qrup adamlar qəddarcasına başqalarını məhv edə bilərlər.

Beləliklə, zəmanəmizin başlıca ziddiyyəti ondan ibarətdir ki, elmi-texniki tərəqqi mənəvinin tərəqqisi ilə müşayiət olunmur. Əksinə parlaq gələcək təbliğatına aludə olmuş əhalinin böyük əksəriyyəti öz mənəvi dayaqlarını itirir, mənəviyyatın və mədəniyyətin yeni dövrə uyğun gəlmədiyini bəyan edirlər. Məhz buna görə də XX əsrdə Hitler və Stalinin düşərgələri, terrorizm, insan həyatının dəyişməsi mümkün olmuşdur. Tarix göstərmişdir ki, hər bir yeni əsr əvvəlkinə nisbətən daha böyük itkilər gətirmişdir-ictimai həyatın dinamikası bu günə qədər belə olmuşdur. Bununla belə ən dəhşətli faciələr və represiyalar müxtəlif ictimai-siyasi proseslərdə və dövlətlərdə o cümlədən mədəniyyətin, fəlsəfənin, ədəbiyyatın inkişaf etdiyi, yüksək humanitar potensialın olduğu ölkələrdə də baş vermişdir. Çox vaxt bunları yüksək təhsilli və maariflənmiş adamlar həyata keçirmişlər. Maraqlıdır ki, vəhşilik və insanlara nifrət faktları heç də həmişə geniş ictimai müzakirəyə çıxarılmamışdır. Fəlsəfi təhlil XX əsrin mənəvi atmosferini və hadisələrin gedişini müəyyən edən və XXI əsrdə də öz təsirini saxlayan başlıca amilləri aşkar etməyə kömək edir.

Elmin və texnikanın görünməz tərəqqisi XX əsrin təkrar olunmaz özünə məxsusluğunu müəyyən etdi. Onun nəticələri müasir insanın həyatının bütün sahələrində

özünü göstərir. Ən yeni texnologiya dünyanı idarə edir. Elm yalnız dünyanı dərk etmək forması deyil, həm də dünyanı yenidən qurmağın başlıca vasitəsi oldu. İnsan planetar miqyasda geoloji gücə çevrildi, belə ki, çox vaxt onun gücü təbiətin gücündən üstün olur.

**Əqlə, maarifə, biliyə inam** bəşəriyyətin mənəvi həyatının əhəmiyyətli amili olmuşdur. Lakin xalqlarda inam doğuran Avropa maarifçiliyinin idealı qanlı hadisələrlə heçə endirildi; bu hadisələr ən sivil ölkələrdə belə təkrar olundu. Aydın oldu ki, elmin və texnikanın ən yeni nailiyyətlərindən adamlara ziyan gətirmək üçün də istifadə etmək olar. XX əsrdə avtomatlaşdırmanm imkanlarının artması əmək prosesinin də nadir - yaradıcı başlanğıcı sıxışdırıb çıxarmaq təhlükəsini yaratdı-insan əməyinin avtomatlaşdırılması kimi ənənə özünə yol açdı. Kompüter, informasiya və informasiyalaşdırma intellektual əməyi inqilabiləşdirməklə və insanın yaradıcı yüksəlişində mühüm amil olmaqla cəmiyyətə, insana, kütləvi şüura güclü təsir vasitəsinə çevrilirdi. Yaxşı təhsil almış xüsusi biliklərlə və yüksək texnologiyaya malik olan adamların hazırladıqları yeni növ cinayətlərə imkan yarandı.

Cəmiyyətin mənəvi həyatında elmi-texniki tərəqqinin rolunu təhlil edərkən, tələbələrin nəzərinə çatdırmaq lazımdır ki, elmi-texniki tərəqqi cəmiyyətin mənəvi həyatının mürəkkəbləşməsi amili kimi çıxış edir. O çox vaxt gözlənilməz nəticələri ilə insanları çaşdırır və cəmiyyətdə mənfi hadisələrə gətirib çıxarır. Buna görə də insan həmişə hazır vəziyyətdə dayanmalı onun özünün yaratdığı süni dünyanın çağırışına cavab verməyi bacarmalıdır.

XX əsrin mənəvi inkişafının tarixi göstərir ki, elm və texnikanın çağırışına cavab tapılması üçün, keçmişin dramatik dərslərini və yeni təhlükənin mümkünlüyünü dərk etmək üçün çox iş görmək lazımdır və buna görə də cəmiyyətin mənəvi əsasını möhkəmləndimrək üçün yorulmaz və gərgin iş vacibdir. Bu birdəfəlik həll olunacaq vəzifə deyildir. Bu vəzifələr həmişə qarşımızda dayanır və hər bir nəsil keçmişin dərslərini nəzərə almaqla və gələcək haqqında düşünərək onu həll etməlidir

**Cəmiyyətin mənəvi həyatında dövlətin roluna da** xüsusi diqqət yetinnək məqsədə uyğundur. XX əsr dövlətin qüdrətinin görünməz dərəcədə artmasını və onun ictimai və fərdi həyatın bütün sahələrində o cümlədən mənəvi həyata təsirinin yüksəlməsini nümayiş etdirdi. İnsanın dövlətdən hərtərəfli asılhğı faktı göz qabağındadır, praktiki olaraq əhalini özünə tabe edən dövlət şəxsiyyətə təsir mexanizminə nəzarəti də öz əlində cəmləşdirir. Dövlət totalitarizminə XX əsr tarixinin müstəqil fenomeni kimi baxmaq lazımdır. Onu bu və ya digər ideologiyaya və ya dövrə və hətta siyasi hakimiyyətin tipinə bağlamaq olmaz, lakin bu məsələlər son dərəcə vacibdir.

Diqqətə çatdırmaq lazımdır ki, hətta özlərini demokratiyanın carçısı hesab edən ölkələr belə XX əsrdə vətəndaşların şəxsi həyatına soxulmaq ənənəsindən qaça bilməmişlər (ABŞ-da “makkartizm”, AFR-də, “peşələrə qoyulan qadağalar” və s.). Vətəndaşların hüquqları ən müxtəlif şəraitdə və ən demokratik dövlət quruculuğunda belə pozulur. Bu o deməkdir ki, dövlət özü xüsusi problem kimi böyümüş və belə bir meyl yaranmışdır ki, cəmiyyət və şəxsiyyəti əzməkdən belə çəkinmir. Təsadüfi deyil ki, müəyyən mərhələlərdə şəxsiyyəti dövlətin özbaşınalığından qorumağa cəhd edən hüquqların qorunması

istiqamətli müxtəlif formalı qeyri-dövlət təşkilatları yaranır və inkişaf edir.

Dövlətin qüdrətinin və təsirinin artması dövlət qulluqçularının sayının artmasında özünü göstərir, repressiya orqanlarının və xüsusi dəstələrin təsirinin və iş strukturunun, güclü təbliğat infonnasiya aparatı yaradılır və o cəmiyyətin hər bir vətəndaşları haqqında hərtərəfli məlumat toplamağa qadir olur və onlar dövlət ideologiyasının tələb etdiyi ruhda insanların şüurunda kütləvi dəyişiklik yarada bilirlər. Vəziyyətin mürəkkəbliyi, ziddiyyətliyi ondan ibarətdir ki, dövlət həm keçmişdə, həm də indi cəmiyyət və fərd üçün vacibdir. Məsələ ondan ibarətdir ki, ictimai varlığın təbiəti elədir ki, insan hər yerdə xeyir və şərin mürəkkəb dialektikası ilə toqquşur. Bu problemi ən güclü insan əqilləri həll etməyə çalışmışlar, cəmiyyətin inkişafını istiqamətləndirən bu dialektikanın səbəbləri hələ də dərk olunmaz qalır. Güc- zor işlətmək, əzab çəkmək hələ də insan həyatının labüd yolçusudur. Mədəniyyət, sivilizasiya, demokratiya əxlaqı yaxşılaşdırmaq əvəzinə vəhşilik və barbarlığm sığınacaq tapdıqları ocaq üzərində bir pərdədir. Bu pərdə müxtəlif vaxtlarda bəzən bir yerdə, bəzən isə digər yerdə, bəzən isə bir neçə yerdə eyni vaxtda götürülür və bəşəriyyət vəhşilik, qəddarlıqlarla üz-üzə qalır. Bütün bunları, cəmiyyətin bu fəlakətlərə düçar olmasının qarşısını almağa cəhd edən dövlətin mövcudluğu şəraitində baş verir. Bu dövlət çox vaxt sivil görünməyə cəhd edir.

Cəmiyyətin dövlət tərəfindən məhkum olunduğu bu əzabı dövlətin olmadığı şəraitdə mövcud ola biləcək əzablarla müqayisə etsək belə qənaətə gəlmək olar ki, dövlət bütövlükdə vətəndaşların təhlükəsizliyinin əsası kimi çıxış edərək, hər bir vətəndaşın payına düşən əzabı

xeyli azaltmağa nail olur. N.A.Berdyayev qeyd etmişdir ki, dövlət yer üzündə cənnət yaratmaq üçün yox, onun cəhənnəmə çevrilməsinin qarşısını almaq üçün mövcuddur.

Tarix, o cümlədən ölkəmizin tarixi göstərir ki, dövlət dağılanda və ya zəifləyəndə insan heç kəs tərəfindən nəzarət olunmayan şər qüvvələr qarşısında müdafiəsiz qalır. Qanunçuluq, məhkəmə, idarəetmə gücsüzləşir. Fərdlər qeyri-dövlət təşkilatlarından və güclü dövlətlərdən müdafiə olunmaq üçün kömək gözləyirlər-onların fəaliyyəti və təbiəti kriminal xarakter daşıyır. Qulçuluğun bütün əlamətləri ilə özünü göstərən şəxsi asılılıq belə qurulur. Hələ vaxtı ilə Hegel qeyd etmişdir ki, insanlar müdafiəsiz vəziyyətə düşməlidir ki, etibarlı dövlətçiliyin zəruriliyini və ya "güclü əli" hiss etsinlər. Hər dəfə dövləti yenidən qurmağa məcbur olur və onları azadlıq yolundan yayındıranlar haqqında pis xatirələrlə yaşayırlar.

Beləliklə müasir cəmiyyətin həyatında dövlətin əhəmiyyəti böyükdür. Lakin bu vəziyyət dövlətin özündən və bütöv cəmiyyəti udmağa hazır olan dövlət maşınının hakimiyyətini genişləndirmək ənənəsində ifadə olunan gücündən irəli gələn təhlükəyə göz yummağa imkan verir.

XX əsr təcrübəsi göstərir ki, **cəmiyyət iki eyni dərəcədə** təhlükəli olan ifrat tərəflərdən: bir tərəfdən, **dövlətin dağılmasından,** digər tərəfdən isə, dövlətin cəmiyyətin həyatının bütün tərəflərinə **artan təsirindən- özünü qorumalıdır.** Bütöv dövlətin, eyni zamanda ayrıca şəxsin mənafelərini təmin edə bilən optimal yol dövlətsizlik xaosu və dövlət tiraniyası arasındakı kifayət qədər dar aralıq məsafədən keçir. Bu yolda dayanmaq, heç bir tərəfə düşməmək olduqca çətindir. Əfsuslar olsun ki.

XX əsrdə SSR-ı dağıdıldıqdan sonra yaranan dövlətlər bu yolu tuta bilmədilər.

Dövlət hakimiyyətinin hərtərəfli güclənməsinə qarşı dayanmaq üçün bu təhlükəni dərk etməkdən böyük səhvləri nəzərə almaqdan və bundan nəticə çıxarmaqdan, hamıda və hər kəsdə cavabdehlik hisslərinin oyadılma- smdan, dövlət işindən sui-istifadənin tənqidindən, vətəndaş cəmiyyətinin yaradılmasından, insanın hüquqlarının və qanunçuluğun qorunmasından başqa yol yoxdur.

Cəmiyyətin mənəvi həyatının dialektikasmı daha yaxşı təhlil etmək məqsədi ilə mühazirədə "kütlənin üsyanı" anlayışına da aydınlıq gətirmək vacibdir. ''Kütlənin üsyanı" ifadəsini ispan alimi Oiteqa Qassenti XX əsrin spesifik fenomeninin xarakteristikasını açmaq üçün işlətmişdir-onun məzmunu cəmiyyətin ictimai strukturunun genişlənməsi və sürətinin artması təşkil edir.

XX əsrdə nisbətən nizama salınmış cəmiyyət və onun şəffaf ictimai iyerarxiyasını cəmiyyətin kütlə- viləşməsi əvəz etdi və bu da bir sıra problemlər o cümlədən mənəvi problemlər doğurdu. Bir ictimai qnıpun fərdləri başqasına keçmək imkanı qazandı. Fərdin ictimai rolu çox vaxt təsadüfi bölünməyə başlandı, çox vaxt onun uyğun gəlib-gəlməməsi (kompetensiyası), təhsili və mədəniyyəti nəzərə alınmırdı. İctimai vəziyyətdə daha yüksək pillələrə qalxmaq üçün hər hansı sabit meyar mövcud deyildir. Kütləviləşmə şəraitində kompetensiya və peşəkarlıq arxa plana keçdi. Ona görə də cəmiyyətdə ən yüksək vəzifələri bunun üçün kifayət qədər hazır olmayanlar tuta bilirdilər. Kompetensiyanın nüfuzunu çox asanlıqla hakimiyyət və gücün nüfuzu əvəz edirdi.

Ümumiyyətlə kütləvi cəmiyyətdə **qiymətvermə meyarı dəyişkən və müxtəlifdir.** Əhalinin böyük

əksəriyyəti də baş verənlərə biganədir, ya da kütləvi informasiya vasitələrinin zorla yeritdiyi və kimlərsə tərəfindən formalaşdırılmış standartları, zövq və meylləri qəbul edir, ancaq özləri sərbəst heç nə işləyib hazırlamırlar. **Mühakimə və davranışda olan sərbəstlik və orijinallıq** alqışlanmır və daha çox risk, cəsarət tələb edirdi. Bu vəziyyət metodik təfəkkür qabiliyyətinin ictimai vətəndaş və şəxsin cavabdehlik qabiliyyətinin itməsinə kömək etməyə bilməzdi. Adamların çoxusu onlara qəbul etdirilmiş streotiplə yaşayır və onu dağıtmağa cəhd edərkən narahatlıq hiss edirlər. Tarixi səhnəyə "insan-kütlə" çıxır. Şübhəsiz ki, öz bütün mənfi tərəflərinə baxmayaraq "kütlənin üsyanı" fenomeni ciddi iyerarxiya qumluşunu qurmağa, eyni zamanda qəddar dövlət tiraniyası vasitəsi ilə möhkəm qayda-qanun yaratmaq üçün əsas ola bilməz. Kütləviləşmənin əsasında hamının qanun qarşısında bərabərliyini və hər bir kəsin öz taleyini seçmək hüququnu nəzərdə tutan cəmiyyətin liberallaşması və demokratikləşməsi prosesi dayanır.

Beləliklə, kütlənin tarixi səhnəyə çıxması adamların öz qarşılarında açılan imkanları dərk etməsi və həyatda hər şeyə nail olmağın mümkünlüyü və bunun üçün heç bir dəfedilməz maneənin olmamasını duyması nəticəsində mümkün oldu. Lakin elə bunun özündə də təhlükə var. Belə ki, görünən ictimai məhdudluğun olmamasına ümumiyyətlə məhdudluğun olmaması kimi; ictimai təbəqə iyerarxiyasının dəf olunmasına-mənəvini, biliyi, kom- petentliyi nəzərdə tutan iyerarxiyanın dəf olunması kimi; imkanlara bərabərliyi və tələbatın yüksək standartlarına layiq olmadan yüksək mövqeyə can atmağın özünü doğrultması kimi; dəyərlərin plyuralizmi və nisbiliyinə-

hər cür dəyərlərin dəyişilməz əhəmiyyətinin olmaması kimi baxıla bilər.

Bu cür vəziyyətin ictimai xaosa və ya diktaturanın qurulmasına gətirib çıxarması qorxusu ilə yanaşı bu cür xaosdan qurtarmağa cəhd etməyin nəticəsi kimi mənəvi xarakterli təhlükələrin də yaranması mümkündür.

**“İnsan-kütlə”** özünün pis və ya yaxşı tərəflərini qiymətləndirməyə qadir deyil və ümumiyyətlə istəmir, o özünü “hamı kimi” (Orteqa Qasset) hiss edir və buna görə heç narahatda olmur. ’’Hamı kimi” özünü hiss etmək onun xoşuna gəlir. O özündən çox şey tələb etmir, özünü təkmilləşdinnəyə cəhd etmir, həyatını mürəkkəbləş- dirməməyə üstünlük verir və axma doğru üzməyə meyllidir. Həyatın maddi tərəfmə üstünlük verməklə müvəffəqiyyətə, yüksək rifaha və rahatlığa nail ola bilər.

“İnsan kütlə” hər hansı əqli problemi həll edərkən başına gələn ilk fikirlə məhdudlaşır. Bu cür təfəkkür daha yüksək, layiqli və düzgün fikri qəbul edən təfəkkürdən fərqlənir. Eyni zamanda o, yüksək estetik dəyərlər və xüsusi ilə də əməl etməyə daxili tələbat hiss etmir. Mənəviyə qarşı jöiksək nizam-intizam, tələbkarlıq ona yaddır. O, nə başqalarının düzgünlüyünü qəbul etmək, nə də özü düzgün olmaq, kiməsə öz fikirlərini qəbul etdirmək və ya qəbul olunmuş fikirlərə qoşulmaq istəmir. Bununla belə onda enerjilik və dinamizm güelüdür. Dünya onun üçün öz enerjisini və qabiliyyətini qoymaq üçün geniş sahədir.

“Orta” adama ilk növbədə elm, texnologiya və informasiya sahəsindəki nailiyyətlərə əsaslanan keçmişə münasibətdə üstünlük hissi xasdır. Lakin bu vaxt o hiss etmir ki, bu tərəqqi heç də onun xidməti deyildir, eyni zamanda bu heç də mənəvi, mədəni, əxlaqi sahədə irəliyə

doğru hərəkət etmək demək deyildir. Buna görə də kütlə özünü refleksiya ilə çətinliyə salmadan ciddi düşüncələrdənsə sadə şüarları asanlıqla qəbul edir, sadə qərarlara daha tez reaksiya verir. Praktiki olaraq həmişə kütlənin bu xüsusiyyətlərindən öz şəxsi mənafeyi üçün nəticəni düşünmədən istifadə edən demaqoqlar tanınır. Buradan da gücə, zülmə bir addım qalır-belə ki, başqa şəraitdə axırıncı vasitə kimi çıxış edən güc bu vaxt birinci addım kimi çıxış edir və bununla dialoqa və əməkdaşlığa gedən yola sədd çəkir. Uğursuzluqlara və çətinliklərə bəraət qazandırmaq üçün ən yaxşı yol və məlum olmayanlar, dedi-qodular və uydurmalar əsasında asanlıqla yaradılan düşmən surəti daha çox uyğun gəlir.

Kütləvi şüur dalğasında bizim dövrümüzün qorxulu təhlükəsi və xəstəliyi olan təcavüzkar millətçilik məhz belə yaranır və yayılır. Dünyada baş verən proseslər - suverenlik və müstəqilliyin əldə edilməsi, eyni zamanda qarşılıqlı surətdə bir-birindən asılılıq və qarşılıqlı təsir bunun üçün bir sıra əsas verir. Sağlam millətçilik milli mənafelərin və vətənpərvərliyin inikasıdır. Lakin millətçiliyin ifrat forması nəticə etibarı ilə bəşəriyyət üçün təhlükə törədir.

Müasir həyatın kütləviləşməsi fonunda reallaşan daha bir təhlükə - dini fundamentalizmin özünün ifrat formalarında və sektalarında, xüsusi ilə də totalitar tipli formalarda təsirlərinin güclənməsidir. Bu insanların ənənəvi xarakterli dəyərləri itirməsi tarixi köklərindən uzaqlaşması, çoxlu ümidlər verən nəzəriyyələrin özünü doğrultmamasmdan yaranan peşmançılıq fonunda mümkün olmuşdur. Dini fundamentalizm və totalitarizm insanların inam hisslərindən sui-istifadə edərək adamların şəxsi həyat hüquqlarını məhdudlaşdırır, yalnız dini həyat

tərzinə üstünlük verir, çox vaxt ekstremizm və terrorizm rolunu tuturlar.

**Millətçilik və dini fundamentalizm** ilə bağlı məsələlərə daha çox diqqət yetirmək lazımdır. Öz şəxsi dəyərlərini qiymətləndimrəyi bacarmayan, özünün cəmiyyətdə yerini və rolunu görməyən, öz yaşıdları olan başqa xalqların nümayəndələri ilə milli dəyərlərə əsaslanan söhbətlərdə xalqını layiqincə qiymətləndirməyə əmin olmayan, sözü və əməli hələ də bir-birinə uyğunsuzluq təşkil edən tələbəni yalançı "millətçi" ambisiyasından uzaqlaşmaq, sözün əsl mənasında milli hissləri aşılamaq üçün nə edilməlidir? Bir çox səriştəsiz adamların təşəbbüsü və kiməsə xoş gəlməsi xatirinə ali məktəblərdə, xüsusən texniki ali məktəblərdə dinin öyrənilməsinin ləğv edilməsi müasir gənclik və din arasında bir boşluq yaratmışdır. Özünün dinə olan marağını, din tarixini öyrənmək istəyini reallaşdınnaq üçün yaradılan süni maneəni dəf edən gənc ayrı-ayrı məqsədlərə xidmət edən sektalara üz tutmağa məcbur olur. Bunun qarşısını almaq gənclərin dinə elmi yanaşmasını təmin etmək üçün bu gün vacib vəzifələrimiz nədir?

"İnsan-kütlə" təbəqə olmayıb müasir orta insanın tipidir, cəmiyyətin bütün qruplarında və sahələrində yayılmışdır. O, həm də özünü elit və intellektual hesab edən mühitdə də ola bilər. Onun xüsusiyyətləri hər yerdə özünü göstərir və eyni zamanda sanki o heç yerdə yoxdur. Bu onun dəyişkənliyi, yəni özünü dəyişdirmək imkanı ilə izah olunur. Kütləvi insan elədir ki, onda onun özünün şəxsi özünü dəf etmək potensialı var. Bunun üçün xarici maneə mövcud deyildir, bütün maneələr daxili xarakter daşıyır və ona görə də dəfolunandır.

Kütləvi insanın mənfi xüsusiyyətlərini dəf etmək imkanları zamanın özünə məxsusluğundan, texnoloji və digər nailiyyətlərdən asılıdır. O, bu gün əvvəlki nəslə nisbətən daha çox məlumatlıdır, xeyli çox şey bilir. Düzdür bu biliklər və məlumatlar olduqea səthi xarakter daşıyır. Lakin bu gün bunları dərinləşdirməyə öz tənbəllikləri və şəxsi loyallıqlarmı dəf etmək üçün onlarda arzu və iradənin olmamasından başqa heç nə mane olmur. Bunun üçün qeyri-məhdud texnoloji imkanlar, insanlar arasında hər cür ünsiyyətin olması və digər amillər mövcuddur. Mühazirədə mədəniyyətin "qeyri-klassikliyi" probleminə də toxunmaq məqsədə uyğundur. Müasir mənəvi vəziyyətin məzmununa və xarakterinə mədəniyyətin dinamikası, ilk növbədə incəsənət onların qeyri klassik vəziyyətə keçməsi böyük təsir göstərmişdir.

Klassik incəsənət konseptual aydınlığı və təsviri və ifadə vasitələrinin müəyyənliyi ilə fərqlənirdi. Klassiklərin estetik və əxlaqi idealları da onların surətləri və personajları kimi aydın və asan dərk olunandırlar. Klassik incəsənət insanda xoş hisslər və fikirlər oyatmağa cəhd etdiyindən yüksəlmiş və nəcibləşmişdir. Yüksək və alçaq, gözəl və eybəcər, həqiqət və saxtakarlıq arasında hədd klassik formada daha aydın görünür. Qeyri-klassik mədəniyyət ("modern", "post-modern") qeyd edildiyi kimi, anti-ənənəvi xarakter daşıyır, kanonlaşdırılmış fonna və üsulları dəf edir və yenisini işləyib hazırlayırdı. Onun üçün İdealı sadələşdirmək, antisistemlilik xarakterikdi, İşıq və zülmət, gözəl və eybəcər eyni sıraya qoyula bilər. Bundan başqa, tez-tez özbaşınalıq və eybəcərlik çox vaxt şüurlu surətdə birinci plana keçirilir. Əvvəlkindən fərqli olaraq, çox vaxt, şüuraltı (təltəlşüur) sahələrə müraciət olunur.

Nəticədə fəlsəfə kimi incəsənət də aydınlaşdırır ki, məsələn, azadlıq və ya qeyri-azadlıq siyasi-ideoloji ölçüyə gəlmir. Onlar insan psixikasının dərinliyində kök salır və hökmranlıq etmək və ya tabe olmaqla bağlıdır. Buradan belə bir fikir formalaşır ki, ictimai qeyri-azadlığı aradan qaldırmaq hələ azadlıq problemini sözün əsil mənasında həll etmir. XIX əsr mədəniyyətində haqqında çox böyük diqqətlə danışılan "balaca adam" artıq "kütləvi insana" çevrilməklə əvvəlki və yeni hökmdarlardan da az olmayan tərzdə azadlığı boğmağa meyl etdilər. Azadlıq probleminin siyasi və ictimai quruluş haqqında məsələyə, insanın varlığının onun ictimailiyinə uyğun gəlməməsi tam kəskinliyi ilə üzə çıxdı. Məhz buna görə də XX əsrdə azadlıq mövzusuna, insanın daxili psixikasına və daxili aləminə diqqət yetirən F.M.Dostoyevski və S.Kyerkeqor yaradıcılığına maraq bu qədər böyükdür.

Nəticədə bu cür yanaşma təcavüzkarlığın təbiəti və mahiyyəti, rasional və irrasionalhn, seksualhq, ölüm haqqında düşüncələrlə zənginləşdirilən əsərlərlə davam etdirildi.

Qeyri-klassik mədəniyyətin və incəsənətin mübahisəli və problemli cəhətlərinə, onların insanın təbii cəhətlərinin qaranlıq tərəflərinə müraciət etməsinə baxmayaraq onda yalnız rüsvayçı ünsürlərin deyil, həm də təmizləyici effektə çatmaq vasitələri var. Məlumdur ki, biliksizlik susmaq, gizlətmə, həyəean və təcavüzkarlıq doğurur. Bu cəhətləri aradan qaldıımıaqla təcavüzkarlığı neytrallaşdırmaq mümkündür. Bədii və başqa cür şər surətlərin axmaq, tərbiyəsiz ideal təbiətləri onların həyata keçməsi şansını azaldır, çünki insan səhnədə və ya kətanda gördüklərindən dəhşətə gələrək gerçəklikdə ondan qaçmağa cəhd edir. Bununla belə, rasional, irrasional və

yüksək rasionalın mürəkkəb kombinasiyası kimi müasir qeyri klassik mədəniyyət ona görə yaranmışdır ki, maarifçi tipli rasional mədəniyyət ən dəhşətli cinayətlərin qarşısını almaq üçün kifayət etməmişdir; bundan başqa aydınlaşdı ki, ’’nəhəng” yalnız “əqlin yuxusunu” (F.Qoy- ya) deyil, həm də onun “özündən razılığını” (Hayek) “doğurur”. Rasional lahiyələr və sxemlər gerçəkliyi eybəcər şəkildə dəyişdirə bilər, eyni zamanda ən vəhşi ehtirasların və instiktlərin işıq üzü görməsinə mane olmur. İnsanda və sosiumda alçaq və qaranlıq tərəflərə müraciət etməyə məcbur olan mədəniyyət xəbərdarlıq edir. Mənəvi mədəniyyətin dialektikası mənəvi istehsalın xüsusiyyəti ilə sıx bağlıdır.

**Mənəvi mədəniyyətin maddi mədəniyyətdən fərqi** və onun spesifikliyi ilk növbədə ondadır ki, mənəvi mədəniyyətin yekun məhsulu bir sıra ən müsbət xassələrə malik olan ideal törəmədir. Onlardan ən başlıcası isə- onların istifadə olunmasının ən ümumi xarakteridir. Elə bir mənəvi dəyər yoxdur ki, idealda hamınınkı olmasın. Yevangiliyada deyildiyi kimi, beş çörəklə min adamı doydurmaq olmaz, lakin beş ideya və ya incəsənətin şah əsəri ilə bu mümkündür! Maddi nemət məhduddur, nə qədər çox adam ona göz tikirsə, bir o qədər onların hər birinə az pay düşür. Mənəvi nemətlərə gəldikdə isə vəziyyət əksinədir. Nə qədər çox adam mənəvi dəyərlərə sahib olursa onu artması ehtimalı çoxalır.

“Əmək hər cür rifahın mənbəyidir” ifadəsi mənəvi zənginliyə münasibətdə yüz faiz düzdür. Bu zənginliyi yaradan əməyin bir sıra özünəməxsusluğu var ki, onlardan da ən başlıcası onun ən ümumi xarakter daşımasıdır. Mənəvi əmək-ən ümumi əməkdir. Bu isə o deməkdir ki, birincisi, bu əmək yalnız müasirlərin deyil, eyni zamanda

bu və ya digər problemə müraciət etmiş sələflərin "kooperasiyası" ilə həyata keçir. İkincisi, mənəvi əməyin ən ümumi xarakteri o deməkdir ki, əqli əməyin bir işçisinin gücü ilə bəşəriyyəti zənginləşdirmək olar. Yəni mənəvi əməyin effektivliyi ilə maddi əməyin effektliyi heç bir müqayisəyə sığmır.

**Mənəvi əməyin** ən ümumi xarakterini həm də o şərtləndirir ki, ictimai istehsal iştirakçılarının ümumi çəkisində əqli əmək işçiləri həmişə azlıq təşkil edirlər. Bir tərəfdən cəmiyyət maddi neməti istehsal etməyən çox saylı adamları saxlamağa qadir deyil, digər tərəfdən isə cəmiyyətə bu qədər çox da lazım deyildir: axı bir Eynşteyn bir çox illər bütün universitetləri "təəccübləndirə", bir Şekspir isə dünyanın bütün teatrlarının repertuarını təmin edə bilər. Mənəvi əmək məhsulları lap əvvəldən ictimaidir və öz təbiəti etibarı ilə yalnız fərdi tələbat üçün nəzərdə tutulmamışdır.

Mənəvi əməyin əsas ziddiyəti də çox güman ki, buradan yaranır: öz məzmununa görə ən ümumi xarakter daşıyan mənəvi əmək tək, fərdi şəkildə həyata keçirilir. Hətta müasir dövrdə mənəvi əməyin ən yüksək səviyyədə bölündüyü bir şəraitdə o mahiyyəti etibarı ilə fərdi, şəxsləndirilmiş qalır. Heç təsadüfi deyil ki, elmdə Nobel mükafatı ilə kollektiv müəlliflər təltif olunmur. İri elmi və bədii kollektivlərin, institutların parlaq lideri olmayanda səmərəli heç bir iş görə bilmirlər. Mənəvi cəbhədə nailiyyət bir adamın və ya bir neçə xadimin səyi ilə həyata keçirilir.

**Mənəvi istehsalın** ən mühüm xüsusiyyətlərindən biri də ondadır ki, tətbiq olunan "əmək vasitəsi" (ideyalar, surətlər, ehkamlar) öz ideal xarakterlərinə görə onları bilavasitə istehsalçılarından ayırmaq olmaz (müsadirə

etmək, başqasına vermək və s.). Ona görə də maddi istehsal üçün adi olan istehsalçının istehsal vasitələrindən uzaqlaşdırılması ilə bağlı çarpışma mənəvi istehsal üçün mümkün deyildir. Onun üçün məhsuldar qüvvələrin son vaxtlar aşkar olunan və mənimsənilən vasitələri: - suyun enerjisi, buxar enerjisi, atom və s. - hesabına yeni əmək vasitələrinin kəşfi-qeyri mümkündür. Mənəvi istehsalın "güeü" yarandığı vaxtdan eyni - ayrıea intellektin güeü olaraq qalır. Ona görə də mənəvi istehsalda hər şey fərdi yaradıcılığa qapanır.

**Mənəvi fəaliyyət** təbiətən güclü cəzbetmə qüvvəsinə malikdir. Nə üçün rəssamlar, alimlər, yazıçılar, din xadimləri tanınmalarına, hörmətə diqqət yetirmədən yaradırlar? Çox güman ki, yalnız ona görə yox ki, nə vaxtsa onlar gördükləri işə görə qiymətləndiriləcəklər, həm də ona görə ki, fəaliyyət prosesi onlara o qədər zövq verir ki, yerdə qalan hər şey arxa plana keçir. Mənəvi fəaliyyət bir növ oyunu xatırladır, zövqü prosesin özü verir. Bu zövqün təbiəti kifayət qədər aydındır. Mənəvi fəaliyyət nəticədən asılı olmayaraq qiymətlidir. Maddi istehsalda bu hala demək olar ki, rast gəlinmir. İstehsalın özü naminə maddi istehsal əlbəttə, cəfəngiyyatdır. Ancaq incəsənət naminə incəsənət - ilk baxışdan göründüyü kimi də sarsaqlıq deyildir.

**Maddi nemətlər sahəsində** - bəşəriyyət bütün inkişafı tarixində daha çox onu yaradan yox, ona sahib olan tərəfindən qiymətləndirilmişdir. Mənəvi dəyərlərə də isə vəziyyət əksinədir. Mənəvi nemət sahibi heç kəsi maraqlandınmr, toplanmış mənəvi əmək məhsullarının sahibi yox, onun istehsalçısı yüksək qiymətləndirilir (çox şer və mahnı bilən yox, onu yazan və oxuyan dəyərləndirilir). Məhz buna görə də maddi və mənəvi

istehsalın inkişaf üsulları fərqlidir. Mənəvi dəyərlərin fərdi istehsal üsulu və onların mənimsənilməsinin ictimai xarakterinin uyğunsuzluğu onun inkişafının hərəkətverici qüvvəsidir. Mənəvi istehsalın inkişaf prespektivlərinin inkişafını nəzərdən keçirərək qeyd edək ki, gələcəkdə bu istehsalda heç bir fərdin istisna olmadan iştirakı imkanını genişləndirmək və mənəvi dəyərlərdən bəhrələnən hər bir şəxsin onu layiqincə qiymətləndirməsinə nail olmaq lazımdır.

Ümumiyyətlə, cəmiyyətin mənəvi həyatının bir-biri ilə qırılmaz bağlılığı, bir-birini tamamlaması, dialektik vəhdəti onun özünəməxsus cəhətlərindəndir. Mənəvi dəyərlərə hamının ehtiyacı olsa da, ondan hamı bəhrələnsə də, onu heç də hamı eyni dərəcədə qiymətləndirə bilmir. Bu problem günün ən vacib məsələlərindəndir.

## Təkrar üçün suallar

1. "Cəmiyyətin mənəvi həyatı" anlayışını xarakterizə edin.
2. İctimai şüurun mahiyyəti nədir və onun strukturu necədir?
3. Mənəvi istehsal nədir və onun əsas növləri hansılardır?
4. Son on ilin böyük elmi kəşflərini xatırlayın. Elmin inkişafının müasir mərhələsi üçün xarakterik meyl hansıdır?
5. İncəsənətin mənşəyi, mahiyyəti və əsas funksiyaları haqqında danışın.
6. İncəsənət sahəsində tərəqqi varmı? Əgər varsa, bu konkret olaraq özünü nədə təzahür etdirir?
7. Əxlaq fenomenini: mahiyyətini, inkişaf üsullarım, ictimai rolunu izah edin.
8. Əxlaqın "imperativlik" xassəsini necə başa düşürsünüz?
9. Dinin mahiyyəti və əsas funksiyaları hansılardır? Vicdan azadlığını necə başa düşürsünüz?
10. Müasir dünya dinlərini xarakterizə edin.
11. İdealın ictima-tarixi xarakterini necə izah edərsiniz?
12. Mentalitet nədir?
13. İctimai şüurun formalarının çoxluğu nə ilə izah olunur?
14. Fəlsəfə elm hesab oluna bilərmi?
15. Mənəvi tələbat və mənəvi fəaliyyəti necə başa düşürsünüz?
16. Müasir cəmiyyətin mənəvi həyatının əsas ziddiyyətləri nədədir?

17. XX əsrdə cəmiyyətin mənəvi həyatının xarakter və dinamikasını müəyyən edən amillər hansılardır?
18. Cəmiyyətin siyasi şüur səviyyəsi müasir inkişafa cavab verirmi?
19. Hüquqi dövlət quruculuğunda hüquqi şüurun rolu necədir?
20. Cəmiyyətin müasir mənəvi durumu necədir?
21. ictimai şüurun formalarının vəhdəti.

## Məruzə və referai üçün mövzular

1. İctimai gerçəkliyin mənəvi-praktiki mənimsənilməsi formaları
2. Əxlaqda ümumbəşərilik və peşəkarlıq etikası
3. İdeoloji prinsiplər və siyasi praktika
4. Hüquqi şüur psixologiyadır
5. Hüquqi şüur ideologiyadır
6. Ətraf aləmin mənəvi mənimsənilməsi formaları
7. İneəsənət və gerçəklik
8. Fəlsəfənin varlıqla əlaqəsi
9. Elm mənəvi istehsal sahəsidir
10. Elm ietimai institutdur; elm cəmiyyətin biləvasitə məhsul qüvvəsidir
11. Elmin inkişafının nisbi müstəqilliyi
12. Müasir dövrdə cəmiyyətin mənəvi həyatı
13. Əxlaqi şüur cəmiyyətin inkişaf səviyyəsinin meyarıdır
14. Siyasi şüur eəmiyyətin siyasiləşməsində mühüm amildir
15. Cəmiyyətin təbii fəlakətdən xilas olunmasında ekoloji şüurun rolu
16. İqtisadi cəhətdən güclü olan dövlət və iqtisadi şüur
17. Dini missionerlərin fəallaşması eəmiyyəti hara aparır?
18. Müasir dünya və Azərbaycan cəmiyyətinin mənəvi həyatı
19. Cəmiyyətin mənəvi həyatı və Azərbaycan gəncliyi
20. Elm, təhsil və cəmiyyətin mənəvi həyatı

## Mövzu ilə bağlı istifadə olunan ədəbiyyatlar


1. Барунков Ю.В. Структура религиозного сознания М 1971
2. Бахтин М.М. Естетика словесного творчества М 1979

Барг М.А. Эпохи и идеи Становление историзма М 1987

4. Библия - М., Всесоюзний акт евангельских христиан - бантистов, 1988, Ветхий Завет, с. 2.
5. Выготский Л.С Психология искусства М 1965
6. Гонкур Э. и Ж. де Дневник М 1964
7. Гейзенберг В. Шаг за горизонт М 1987
8. Голомшток И.Н. Тоталитарное искусство в поисках традиции // Человек. 1991, №2
9. Духовность, художественное творчество, нравственность (материал ''круглого стола") Вопросы философии, 1996, №2
10. История и теория атеизма М, 1987
11. Ильин И.А. Путь к очевидности. М, 1993
12. Камю А. Бунтующий человек. М, 1990
13. Керимов Д.А. Философские проблемы права. М, 1972
14. Маркузе Г. Одномерный человек. М, 1994
15. Митрошенков О.А. Онтология гуманизма и тоталитаризма. М., 1993
16. Мамардашвили М.К. Как я понимаю философию. М., 1990
17. Ортега и Гассет Х. Изб. труды. М, 1997

13\. Освобождение духа. М., 1997

19\. Общественное сознание и его формы. М., 1986

20. Ортега и Гассет Х. Дегуманизация иекуества. М., 1991
21. Лобковец. Христианство и культура Вопросы философии, 1993, №3
22. Ньютон И. Оптика или трактат об отражениях, преломлениях, изгибаниях и цветах света М, 1927
23. Николаева Я. В. Общественные сознания и его структурам, 1977
24. Поппер К. Открытые общеетво и его враги М, 1992
25. Смысл жизни: опыт философского исследования М,1992
23. Тайлор Э. Первобытная культура М, 1989
27. Титаренко А.И. Структура нравственного сознания. Опыт этико-философского исследования. М., 1974
28. Уледов А.К. Духовная жизнь общество. М., 1980
29. Уледов А.К. Структура общественного сознания. М., 1968
30. Франкл В. Человек в поисках смысла. М., 1990
31. Фромм Э. Иметь или быть? М., 1990
32. Фромм Э. Бегство от свободы. М., 1990
33. Франкс. С.Л. Духовные основы общества. М., 1992
34. Франкс. С.Л. Реалность и человек. Париж, 1956
35. Франкс. С.Л. С нами бог. Париж, 1964
36. Шеллинг В.И. Философия искусство. М., 1994
37. Чагин Б.А. Структура и закономерности общественного сознания. Л., 1982.
38. Səttarov M. Adi şüur və onun inkişaf dialektikası. B., 1978.

# P. S.

## Əlavə oxu

### Cəmiyyət təbiətin ayrılmaz hissəsidir.

*Təbiəti öyrənməyi qarşısına məqsəd qoyan insan əsrlər boyu bu sahədə müəyyən uğurlar qazansa da onun üçün təbiət hələ də sirli, müəmmalı bir dünyadır, insanlar təbiətin ayrı-ayrı predmetlərini öyrənmiş, onları özlərinə ram etmiş, öz məqsədləri üçün onlardan istifadə etmişlər. Bəşəriyyətin yarandığı ilk günlərdən insanlar daşlarla, xüsusən də qiymətli daşlarla ünsiyyətdə olmuş, onlardan özlərini qorumaq, müalicə etmək, bəzənmək üçün istifadə etmişlər. Lakin daşlar öz sirlərini hələ də tam olaraq insanlara verməmişdir. Burada daşların müammalarının, onların insanlarla ünsiyyətinin, onlar arasında olan harmoniyanın bəzi cəhətlərini aydınlaşdırmağa cəhd göstərilmişdir.*

Bəşəriyyət öz inkişafı prosesində ünsiyyətə, informasiyaları ötürməyə xidmət edən çoxlu sayda işarə sistemi yaratmışdır. Bir sistemin dili müxtəlif adamlara yaxşı məlum olsa da, digərlərinin dili (məsələn, xüsusi şərti işarələr) daha az məlum ola bilər. Qədim dövrlərdə bir çox xalqlarda qiymətli daşların mistikaya bümnmüş simvolik dili mövcud olmuşdur.

İnsan və Daşların qarşılıqlı münasibəti əsrlərin dərinliklərinə gedib çıxır. Ulu babalarımızda şüurun əlamətləri yaranan kimi onlar daşlardan “y^PUimŞİar”. Axı daşlar onun üçün həm əmək aləti, həm də müdafiə vasitəsi olmuşdur. Daşlar əlverişsiz hava şəraitindən

qoruyurdu, daşlardan istifadə etməyə başlayan insan öz beynini inkişaf etdirirdi. Heç təsadüfi deyil ki, bəşəriyyətin həyatının ən uzun dövrü "daş dövrü" adlanır. Təbiətin digər predmetlərindən fərqli olaraq insanlar daşlara daha çox bağlı olmuşdur. Həm özlərini qorumaq, həm də maddi təlabatlarmı ödəmək üçün insanlar daşlardan daha çox istifadə etmişlər. Kəsici aləti kimi istifadə etdikləri daşların ayrı-ayrı çıxıntılarını düzəldərək tutmaq üçün əlverişli hala salan insanın beyni inkişaf etməyə başlamışdır. Təbiətdəki ayrı-ayrı səsləri duymağa başlayan qədim əcdadlarımız bu səsə uyğun ilk musiqi nömrələrini də daşların köməyi ilə yaratmışdırlar. Qobustandakı qabal daşı və buradakı daşlar üzərində rəqs edən adamların rəsmləri insanların daşa bağlı olduqlarına əsas verir.

İbtidai insanları çox az rast gəlinən parlaq, əlvan, şəffaf daşların düz forması və rənglərin oynaması xüsusi ilə heyrətləndirirdi. İbtidai insanlar animist olduqlarından, özlərini əhatə edən hər şeyi - göyü, yeri, suyu, daşı - ilahiləşdirir və canlı kimi qəbul edirdilər. Təbii olaraq onlar bütöv, nöqsansız parlaq daşları ali qaydalara aid olan varlıq kimi qəbul edir və fövqəladə hallarda (xəstəlik, uğursuz ov vaxtı və s.) onun köməyinə müraciət edirdilər. İnsan və ətraf mühit, o cümlədən daşlar arasındaki əlaqə "kömək edir-kömək etmir" prinsipi əsasında qurulurdu. Minillik tarixin süzgəcindən keçərək yaxşı yamandan ayrıldı, əhəmiyyətli olanlar və tarixin sınağından keçənlər bəşəriyyətin yaddaşına hopdu. Əsrlər keçdi, insan və təbiət arasındaki qarşılıqlı əlaqələr dağılmağa başladı, rasional XIX əsr isə canlı və cansız arasında möhkəm bir sədd yaratdı, hər şeyi çox ciddi qaydalara tabe etdi, bu qaydalara tabe olmayanları kənara atdı. Bu vaxt

homeopatiya (böyük dozaları sağlanr adamda müalicə edilən xəstəlik əlamətlərinə oxşar əlamətlər törədən dərmanların kiçik dozaları ilə müalicə üsulu), minerallarla müalicə kimi çoxlu "irrasional əlaqələr" kənarda qaldılar. Yalnız XX əsrin ortalarında mikro aləmin tədqiqi nisbilik nəzəriyyəsinin meydana gəlməsi, təhtəlşüurun bir sıra sirrinin açılması və nəhayət informasiya nəzərriyyəsinin meydana gəlməsi XX əsrdə yaranan qaydaları dağıtdı.

İnsan və Daşların qarşılıqlı münasibətinin tarixini izləməyə cəhd edək.

İlk əvvəl onu qeyd edək ki, qiymətli daşlar aləmi lap qədim dövrlərdən başlayaraq ən fantastik mövhümata bürünmüşdür. Bu daşlara olduqca qəribə xassələr aid edirdilər. Məsələn, belə hesab edirdilər ki, sapfırin (göy yaqut) olması ilanı öldürür, şəffav göy və ya bənövşəyi daş olan ametisti dilin altında gizlətdikdə keflənməyin qarşısını alır. Bundan başqa qədim kitablarda düşmən yaxınlaşarkən səs çıxaran daşlar haqqında, vəfalı və vəfasız qadınları fərqləndirən daşlar haqqında xatırlamalara rast gəlinir.

Qədim Roma yazıçısı və alimi Böyük Pliniyin "Təbii tarix" əsərində qiymətli daş olan billur - əqiq təsvir olunur: onda bəzən Apollon (qədim yunanlarda günəş allahı, şeir, sənət hamısı gözəllik simvolu) və 9 muza (qədim yunan mifologiyasında incəsənət və elm ilahəsi, ilham mənbəyi) görünürdü. Bununla belə, onlar süni şəkildə işlənib hazırlanmamışdı; təbii şəkildə olan ləkə (xal) elə dağılır ki, hər bir muza xas olan fərqli işarələr gözün qabağına gəlirdi.

Qiymətli daşların simvolik əlamətləri və xassələri haqqında qədim lapidazlarda - daşlar haqqında kitablarda yazılmışdır. Bəşər tarixində mineralogiya üzrə ilk əsər

olan bu kitablar sadə, primitiv baxışlar və mövhümat əsasında qurulmuşdur. Lakin artıq elə bu kitabların özündə elmi dünyagörünüşün ilk əlamətlərinə rast gəlinir. Qədim baxışların bir çoxunda xalqın müşahidəsi, duyma qabiliyyəti, qabağı görməsi özünü biruzə verirdi. Məsələn, qədim dövrlərdə almaz möhkəmlik və mərdlik, qorxma- mazlıq, ağrı və xəstəlik üzərində qələbə simvolu idi. Bizim dövrümüzdə almazın ən bərk metalları emal etmək xassəsi hamıya məlumdur. Kvars (silisium oksidi) lap qədimdən sehirli enerjinin gizli yeri hesab olunurdu. İndi isə biz bilirik ki, kvars ona mexaniki qüvvənin təsiri ilə elektrik gərginliyi yaratmaq xassəsinə malikdir.

Qədim astrologiya astranomiya ilə məşğuliyyəti stimullaşdırdı, əlkimya elmi kimyadan əvvəl yarandı, lapi-darlar isə mineralogiyanın rüşeymiərini özündə gizlətmişdir. Əlbəttə simvollar kimi qiymətli daşlarla bağlı mövhümat yalnız tarixçilər üçün deyil hamı üçün maraqlıdır.

Müxtəlif dövrlərdə müxtəlif xalqların özlərini simvolik daşları olmuşdur.

Eramızdan bir neçə min il əvvələ aid olan müqəddəs hind kitablarında - “Vedlər”də çoxlu qiymətli daşlar xüsusilə qırmızı albalı rənglərin (tünd qırmızı) uyğunluğunda olan daşlar haqqında qeydlər var. Rəvayətə görə, bu göydə döyüşən allahların qanının damcısıdır. Damcılar Qanqanm qızmar qumuna düşür yaqut və süleyman daşma çevrilirlər. Başqa bir əfsanədə deyilir ki, qiymətli daşlar insana ölməzlik bəxş edən ilahi mayenin amritin damcısıdır. Allahlar amritin yalnız bərk hala düşdükdən və öz sehirli gücünü itirdikdən sonra insanlara qismət olmasına imkan verirdilər.

Hind mifologiyası qiymətli daşlar xəzinəsi ilə bəzədilmişdir. Burada Krişna allahının iqamətgahı haqqında rəvayət verilir: - bu real olmayan xəyali Devarka şəhəridir. Onun həyətləri yaqutdan, stolları zümrüddən (yaşıl rəngli qiymətli daş), dam örtükləri mirvaridəndir və xiyabanlarına sapfır (göy yaqut) səpələnmişdir. Eyni zamanda yerdə yarımqaranhq hind məbədlərində də yaqutlar, süleyman daşları, almazların sirli işıqları parlayır. Rusiyanın 195 karathq (qiymətli daşların 200- 206 mq-yə bərabər çəki ölçüsü) məşhur "Orlov" almazı vaxtı ilə brahman məbədindəki bütün göy yuvasında parıldayırdı. Ümumiyyətlə ən böjhik almazlar Hindistanda olmuşdur. Bu qiymətli daşın çıxarılmasının orjinal üsulu haqqında əfsanə də burada yaranmışdır. Bu əfsanə Kiyev knyazı Müqəddəs Yaroslavın "Məcmuəsinə" (qədim Rusiyada müxtəlif kitablardan götürülmüş ayrı-ayrı parçalardan ibarət əlyazması məcmusu) də daxil olmuşdur. "Min bir gecə" nağılmdaki 77-ci nağılda bu əfsanədən danışılmış məşhur səyahətçi Marko Polo özünün "Kitab'hnda bu əfsanədən yazmışdır. Almazla səpələnmiş və ilanlarla dolu uçruma ölümə məhkum edilmiş qurbanları atırdılar. Yırtıcı quşlar yemi əldə etmək üçün uçruma şığıyır, onu dağın başına qaldırırdılar; bu vaxt ətə yapışan qiymətli daşlar tökülürdü. Çox güman ki, əfsanə qədim hind ənənəsi ilə bağlı olmuşdur: bu ənənəyə görə yeni mədən açarkən şər ruhlara heyvan qurban verirdilər.

Əgər Hindistanda qırmızı rəngli qiymətli daşlara üstünlük verilirdisə, digər qədim dövlət olan Misirdə yaşıl və göy rənglər yüksək qiymətləndirilirdi. Misirlilər üçün onlar əbədilik, daimilik və sarsılmaz sakitlik ideyalarının həyata keçməsi simvolu idi. Ola bilsin ki, bu Misir

mədənlərində bu rənglərin daha çox olması ilə izah olunurdu. Arxeoloqlar burada gözəl zümrüdün və göy xrizolitin (qızılaçalan yaşılımtıl-sarı rəngli qiymətli daş) qədim dövrlərdə çıxarma üsulunu aşkar etmişlər.

Tumanxamonun məqbərəsindən tapılan qədim Misir mədəniyyətinin qiymətli əmanətləri əsasən firuzə və lyanis-lazur (lazurit) qiymətli daşları ilə bəzədilmişdir. Tumanxamonun sinəsindəki asmada (kulonda) qanadı açılmış müqəddəs skarabey (qədim misirlilərdə pul və ya daş üzərində qazılmış və ya gildən qayrılmış müqəddəs böeək şəkli) əsası qızıl göy pasitadan olan arakəsmə mina texnikası ilə hazırlanmışdır. Böcəyin özü yarımqiymətli yaşıl daşlardan kəsilmişdir.

Qədim misirlilərin baxışlarında qızılı-göy rəngli peyin böcəklərinin tutduğu yer çox təəccüblüdür. Dünyanın bir çox ölkələrində yayılmış bu böcəklər hər yerdə qara rənglidir, yalnız Misir və Nubiyada yaşıl rəngli skarabeylər yetişdirilir.

E.ə. IV əsrdə yaşamış Misir yazıçısı Qorapollon skarabcylərin "öz-özünə yaranması" haqqında yazır. Skarabeylər mal peyinindən Yer kürəsini xatırladan şara- oxşar barama düzəldirlər və 28 günlüyə torpağa basırırlar. Bu günlər ərzində Ay Zodiakm (planetlərin göydə hərəkət etdiyi dairə) 12 bürclərini keçir. Ayın yolu Günəşin yolu ilə kəsişəndə suya atılan barama açılır və ondan skarabey uçur.

Qədim misirlilərdə skarabey ikinci dəfə doğulmanm, dirilmənin və ruhun əbədi həyatının simvolu idi. Misirlilər onu "xepru" adlandırırdılar ki, bu da "mövcud olmaq, yaşamaq" mənasını verir.

Assuriyada və Babilistanda Qiymətli və yarım- qiymətli daşlardan hazırlanmış möhür-silindirlər geniş

yayılmışdır. Kağızı əvəz edən gil lövhəciklərdə onun izini imza əvəzinə vururdular. Demək olar ki, hər bir babilis- tanhnm öz möhürü var idi. Onlarda Allahlar, müxtəlif səhnələr və döyüşlər təsvir olunmuşdur. Maraqlıdır ki, tibb işçisinin möhüründə adından başqa cərrah bıçağı və lanset (neştər) şəkilləri də var idi. Nigah bağlayarkən hər iki tərəfin möhürü vurulurdu. Borcun ödənilməsini kreditorun (borc verənin)işarəsi bildirirdi. Adlı-sanlı, tanınmış və varlı adamların lazurit, əqiq, yəşəm daşlarından bir neçə möhür-silindrləri var idi və onları boyunbağı kimi gəzdirirdilər.

Assuriyalıların və babilistanhlarm həyatında astro-logiya xüsusi yer tuturdu. Zodiakm hər bir bürcü ilə müəyyən qiymətli daşı əlaqələndirmək ənənəsi məhz onlardan gəlmişdir, (bu ənənəni onlar da misirlilərdən götürmüşlər). Belə hesab olunurdu ki, bu daşlar həmin bürc altında doğulan adamlara himayədarlıq edir. Qədim traktatlarda qiymətli daşları Zodiak bürcünə görə aşağıdakı şəkildə yerləşdirirdilər.

| ***Zodiak*** | ***Tilsim- himayədar*** |
|---|---|
| **Qoç** | Ametist (şəffaf göy və ya bənövşəyi rəngli qiymətli daş) |
| **Buğa** | Əqiq |
| **Əkizlər** | Beril (sarıyaçalar və ya yaşıl rəngli rəngli şəffaf qiymətli daş) |
| **Xərçəng** | Zümrüd |
| **Şir** | Yaqut |
| **Qız** | Yaşma (yəmən daşı) |

| | |
|---|---|
| **Tərəzi** | Almaz |
| **Əqrəb** | Topaz (müxtəlif rəngli qiymətli daş) |
| **Oxatan** | Firuzə |
| **Oğlaq** | Opal |
| **Dolça** | Sapfır |
| **Balıqlar** | Xrizolit(qızılaçalar yaşılımtıl- sarı rəngli qiymətli daş) |

Maraqlıdır ki, Misir papiruslarında, qədim bizanslıların əsərlərində çox cuzi dəyişikliklərlə məhz eyni daşlar sadalanır.

Günəşin il ərzində keçdiyi yolda (ekliptika) yerləşən hər yeni bürcə onun daxil olması yeni ayın başlanmasını göstərir; belə ki, bu 12 daşla yalnız göy bürcləri (ulduzlar topası) deyil, həm də onlara müvafiq olan adlar təsvir olunurdu.

Əhdi-ətiqdə yəhudilər üçün simvolik olan müvafiq 12 qiymətli daşdan danışılır. Bibliyada dəfələrlə və müxtəlif səbəblərlə bağlı qiymətli daşlar xatırlanır. Məsələn, qeyd olunur ki, Solomon hökmdarının səltənəti altı şüah sapfırlə cilalanmışdır. Bu şüaların sehrli gücə malik olduğu qeyd olunurdu. Biz bilirik ki, kristal sapfıri və ya yaqutu düzgün cilalasaq parlaq görünən ulduz şəkilli strukturu müşahidə olunur.

Qədim Yunanıstanda daşlara mistik səcdə ciddi şəkildə özünü göstərməmişdir, onlar əsasən daşlann gözəlliyinə səcdə edirdilər. Ellinist dövrü dünyaya qliptikanm (daş üzərində naxış açma sənəti) tayı-bərabəri olmayan nümunəsini verdi; - qiymətli daşlar üzərində bu oyma, naxış məşhur kameya - (daş və ya balıqqulağından

qayrılan bəzək) adlanırdı. Kameyanın vətəni İskəndəriyyə şəhəri olmuşdur, burada birici Ptolomeyin sarayında qliptikanın bu sahəsi inkişaf etdirilmişdir. Ennitajda saxlanan və bütün dünyada məşhur olan Qonzaq kameyası burada düzəldilmişdir. O, üçqath sardoniks qiymətli daşının parçasından kəsilmişdir. Eyni zamanda daşın çoxrəngliliyi rəssama yalnız heykəltaraşlıq deyil, həm də nəqqaşhq sahəsində böyük effekt əldə etməyə imkan vermişdir.

Kameya başhea olaraq qadın zinnəti idi. Onları saneağa, medalyona, üzüyə, boyunbağına qoyurdular.

Qədim dövrlərdə qiymətli daşların istifadə olunan üç məqsədindən: gözmuneuğu, möhür, bəzək-ən çox bəzək üstünlük təşkil edirdi. Bununla belə, qədim Yunanıstanda möhür də geniş yayılmışdır. Yunanlar möhürlərdə Allahı təsvir eyməyi çox xoşlayırdılar. Bununla belə “dövlət” Allahlarının (Zevs, Appolon və ya Demetri) təsvirlərinə olduqca az rast gəlinirdi. Əsasən sadə adamların özlərinə himayədar seçdikləri, sadə adamlara yaxın olan Allahların (Afradita, Erot, Nika, Hermes) təsvirlərinə daha çox üstünlük verilirdi.

Hər bir daşda onun sehirli xassəsini gücləndirmək üçün məhz nə təsvir etmək lazım olması haqqında bütöv bir təlimat sistemi var idi. Ametist yunanca kefli olmamaq mənasını verir. Görünür bu onun qınmzı çaxırın çox güclü durulaşdırılmasmı xatırladan bənövşəyi rənginə görə belə adlandırırdılar- bu cür çaxırdan keflənmək olmurdu. Ametistin üzərində Ay və ya Günəş işarəsi oymaq qəbul olunmuşdur. Belə hesab edrdilər ki, məhz bu vaxtı daşa yalnız keflənməkdən deyil, həm də zəhərlənməkdən qorumaq bacarığı verilirdi.

Həndəsə və mexanikanı yaxşı bilən Roma alimləri kimya və mineralogiya haqqında olduqca dumanlı baxışa malik idilər. Onlar belə hesab edirdilər ki, qiymətli daşlar da ağac kimi yerdə bitir. Ona görə də daşlar yaxşı və ya pis yetişmiş ola bilər. Məsələn, zəif rəngli yaqut yetişməmiş hesab olunurdu. Xarakterik haldır ki, "gemma" (üstündə yazı və ya şəkil qazılmiş qiymətli daş) latın dilində eyni zamanda qiymətli daş və tumurcuq mənalarını verir.

Roma imperiyasının son əsrləri-bütpərəstlik dininin ölməsi və mövhumatın çiçəklənməsi dövrüdür. Qiymətli daşlara naxışlar vurmaq texnikası olan qliptikaya maraq azalır. Asanlıqla emal olunan materiallar seçilirdi. Məişət gözmunçuğu daha geniş yayılmışdır. Ermitaj toplusundaki sardoniks "tibbi" gözmunçuğu üçün maraqlı nümunə ola bilər. Burada bir əlində Meduzanm (bədəni həlməşik maddədən ibarət oxayaqcıqlı dəniz heyvanı) başı, digərində isə qılınc olan Pcrseyin kobud fiquru oyulmuşdur. Daşın əks tərəfində isə yunan dilində: "Qaç, podaqra (bədəndə maddələr mübadiləsinin pozulması nəticəsində əmələ gələn oynaq və toxuma xəstəliyi), Hersey səni təqib edir. " yazısı oyulmuşdur.

Roma imperiyasının süqutu ilə qiymətli daşların cilalanması, onlara naxış vurulması və təraşlanması incəsənəti tənəzzül edir. Qərbi Avropanın öz ustaları daha olmur. Qiymətli daşlar və zərgərlik məmulatları Bizansdan gətirilməyə başlanır.

Orta əsrlərdə qiymətli daşların müalicəvi və qommaq xassələri haqqında əfsanələr daha geniş yayılmışdır. Onu zəhərləyəcəklərindən daim qorxan ingilis kralı Torpaqsız İohan özü ilə həmişə firuzə gəzdirirdi; o dövrün inamına görə firuzə zəhəri aşkar edirdi. Şotlandiya

kraliçası Mariya Styuart bu məqsədlə almaz gəzdirərdi. Belə hesab olunurdu ki, yaqut qanaxmam dayandırır, yəşəm daşı qızdırma və özündəngetmə xəstəliyini müalicə edir, almaz hamilə qadınlara doğuş vaxtı kömək edir, zümrüd gələcək haqqında fikir söyləmək gücünə malikdir və onu gəzdirənin əqli qabiliyyətini daha da gücləndirir. (Hələ vaxtilə imperator Heron yaşıl kristala baxmaqla öz gələcəyini qabaqcadan görməyə cəhd etmişdir.) Konk- vistadorlar (Mərkəzi və cənubi Amerikanı tutmuş ispan və portuqal istilaçıları) Cənubi Amerikanı ələ keçirdikdə inklərin məbədində çoxlu zümrüd tapdılar, bu da onları daha da həvəsləndirdi. Lakin heç bir işgəncə zümrüd mədənlərinin yerini deməyə hinduları məcbur edə bilmədi. Qəribə olsa da böyük coğrafi kəşflər dövründə belə hesab edirdilər ki, topaz dəniz tufanını sakitləşdirir. İntibah dövrünün böyük memarı və zərgəri Benvenuto Çellini yaqutu bütün daşlardan üstün tutur, onu tilsim (talisman) hesab edirdi.

XVII-XVIII əsrlərdə Fransa və İngiltərədə qiymətli və yarımqiymətli daşlarla bəzədilmiş məhəbbət gözmun- cuqları dəbdə olmuşdur.

Şərqdə qiymətli daşlara ənənəvi olaraq böyük əhəmiyyət verilmişdir: əsrlər boyu onların insanlara astroloji və praktiki təsiri öyrənilmişdir. Şərqin istənilən bəzək dükanında elə bu gündə sizə deyərlər ki, məsələn, əqiq (qırmızı və narıncı rəngli qiymətli daş) mübahisə və dalaşmaqdan qoruyur, firuzə-qələbə daşıdır və s.

Hal-hazırda biz yenidən qədim biliklərə müraciət edirik və ondan öz sağlamlığımız, müvəffəqiyyətimiz, xöşbəxtliyimiz, arzularımızın həyata keçməsi üçün xeyir tapınq. Daşlar insanlara böyük təsir gücünə malikdir. Onlar insanın enerjisini düzəldir, onun quruluşunu nizama

salır. Ona görə də qoruyan-daşlar, müalicə edən-daşlar vardır.

Bütün dövrlərdə müxtəlif məişət şəraitində yararlı, uyğun daşlara-talismana (himayədara) malik olmaq faydalı olmuşdur. Bir sıra daşlar müəyyən peşə sahiblərinə xüsusilə tövsiyyə olunurdu. Dənizçiləri səyahət vaxtı təhlükədən qoruyan zümrüd daşı hesab olunurdu, turmalin rəssamları ilhamlandırırdı, din xadimləri üçün ametist tövsiyyə olunurdu. Aylı daşları oyunçulara uğur gətirirdi, yeni evlənənlər isə öz məhəbbətlərini qorumaq üçün zümrüd qaşlı üzükləri bir-birilərinə bağışlayırdılar. Lakin astroloqlar daş seçməyin və onu gəzdirməyin planetlərdən asılı olduğunu qeyd edirlər; planetlər insanın taleyində hökmranlıq edir.

Belə bir cəhəti də qeyd etmək xoşdur ki, oğurlanmış daş mənfi xassəyə malikdir, alınan daşlar isə yalnız bir neçə ildən sonra talisnian (himayədar) ola bilər. Yalnız miras və ya hədiyyə verilən daşlar əsil himayədar olur.

Qiymətli daşların gəzdirilməsi tərbiyəlilik, nəzakət qaydalarına tabe edilir. Süleyman daşını, firuzəni, mirvarini yaxşı olar ki, gənc qızlar gəzdirsinlər. Ərə getməyən qadına brilliant gəzdirmək məsləhət görülmür. Əqiq, oniks (damarlı əqiq), xrizoberil (yaşıl və sarımtıl yaşıl rəngli qiymətli daş) - matəm geyimi üçün qəbul olunmuş yeganə daşlardır.

*Planetlər üzrə daşlar aşağıdaki kimi bölünür:*

| | |
|---|---|
| **Günəşin daşları:** | xrizolit, almaz, gianist, yaqut, xrizopraz, heliotrop |
| **Ayın daşları;** | opal, ay daşları adulyar, akvamarin (göyümtül yaşıl rəngli qiymətli daş), beril. |

| | |
|---|---|
| | mirvari, mərcan |
| **Merkuri daşları;** | qızılı topaz, zümrüd, karneol, əqiq |
| **Veneranın daşları;** | işıqlı sapfır, əqiq, mirvari |
| **Marsın daşları;** | yaqut, yəşəm, almaz, süleyman daşı |
| **Yupiterin daşları;** | firuzə, sapfır, lazurit |
| **Saturnun daşları;** | oniks, ametist, qara topaz |
| **Neptunun daşları;** | ametist, ay daşları, büllur |

*Dörd ünsür haqqında qədim təlimə uyğun olaraq hər bir ünsürə öz daşları xasdır:*

| | |
|---|---|
| **Od ünsürlərinin daşları** | brilliyant, zümmd, sapfır, yaqut, akvamaran, xrizoberil, dağ billum, sirkon, ametist, topaz, sitrin (ağ rəngli topaz), şpinel |
| **Yer ünsürlərinin daşları** | lazurit, qaqat (qara kəhraba), yəşəm, malaxit (mineral) |
| **Hava ünsürlərinin daşları** | nefrit (ağ, süd rəngli və ya yaşılaçalar bərk mineral), əqiq, xriopaz, xriolit, oniks, serdolik, xalsedon (kvars növündən yarımqiymətli daş), ametist |
| **Su ünsürlərinin daşları** | opal, aleksandrit, selenit (qızılaçalar, sarı rəngli, yarımşəffaf, gips) |

*Daşları həm də ilin fəsillərinə görə bölürlər:*

| | |
|---|---|
| **Yazın daşlan;** | martda-akvamarin, amazonit; aprel-almaz, dağ billuru; may-zümrüd, demanteid, |

| | |
|---|---|
| | xrizopraz, malaxit, diopsit |
| **Yayın daşları:** | iyun-mirvari, ay daşı, əqiq; iyul-yaqut, şpinel, karneol; avqust-nefrit, xrizolit, qrossulyar |
| **Payızın daşlan;** | sentyabr-sapfır, lazurit; oktyabr-opal, turmalin, yəşəm; noyabr- topaz, kəhrəba, sitrin, serdolik, qeliodor |
| **Qışın daşları:** | dekabr-mavi topaz, firuzə; yanvar- çəhrayı rəngli kvars, rodonit; fevral- ametist, skanolit, qaroit |

*Həftənin günlərinin xoşbəxt daşlan:*

| ***Həftənin günləri*** | ***Planetlər*** | ***Daşlar*** |
|---|---|---|
| Bazar ertəsi | Ay | zümrü, ağ briliant |
| Çərşənbə axşamı | Mars | ametist, qara briliant |
| Çərşənbə | Merkuri | porxir, topaz |
| Cümə axşamı | Yupiter | akvamaim |
| Cümə | Venera | yaqut, serdolik, oniks |
| Şənbə | Saturn | yəşəm, halsedon |
| Bazar | Günəş | giasimit, sarı briliant |

Daşlan elə seçmək lazımdır ki, o adamın zahiri görünüşünə uyğun gəlsin, harmoniya təşkil etsin. Çox vaxtı daşları gözün denginə uyğun seçirlər və bu vaxt "göz-qəlbin aynasıdır" kəlamını əldə əsas tutrlar. Xrizopraz, diopsid, amazonit, malaxid və əlbəttə

zümrüdün yaşıl çalarları (rəngləri) yaşıl gözləri daha da mənalı, təsirli edir. Qızılı rəngli topazın, qiasinitin, padparacanm müvafiq çalarları uyğun gəlir. Əgər gözün qüzehi qişası (gözün əlvan təbəqəsi) parıltılıdırsa ona müvafiq daşlar-avantyurin, kvars-lazımdır. Mavi gözlər mavi çalarlardan daha çox, bu rəngi tamamlayan narıncı, qızılı rəngləri tələb edir. Parlaq gözlər ulduzlu daşların yanında daha çox udur; belə ki, işıqda optik effekt-üç- dörd-altı-on iki şüab ulduz-yaranır. Qara gözlərə qatı rəngli ametist daha çox yaraşır.

Çox vaxt seçim kökləri ilə Bibliyaya gedən ənənlərə əsaslanır. Bu sistemə əsasən daşlar aylara uyğun ad günlərinə də aid edilir:yanvar-süleyman daşı; fevral- ametist, mart-akvamarin, aprel-almaz, may-zümrüd, iyun- əqiq, iyul-yaqut, avqust-ay daşı, xrizopraza, sentyabr- sapfir, oktyabr-opal, noyabr-topaz, dekabr-firuzə. Son vaxtlar zərgərlik dükanlarında Zərgərlərin beynəlxalq assosiyasıyası tərəfindən təsdiq olunmuş cədvəl təklif edirlər ki, bu da Bibliya ənənələrinə əsaslanır, eyni zamanda bizim dövrümüzdə açılan əlvan daşlar da əlavə olunur.

Daha mürəkkəb sistem də mövcuddur: bu sistem hər gün və hətta hər saatda hansı daşları gəzdinnək lazım olduğunu tövsiyyə edir. Lakin bu artıq çətinlik törədir.

Qədim dövrün təcrübəsini ümumiləşdirən orta əsrlər astrologiyası irəliyə doğru böyük addım atmışdır; onlar daş seçimini insanın zodiak xarakteri ilə bağlamağa cəhd göstərmişdirlər. Lakin hər bir Zodiak bürcünün öz amtipodu, yəni ondan 180° geri qalan bürcü olduğundan daşlar da uyğun gələn və uyğun gəlməyənə bölünür. Bununla belə bu ideyanın praktiki əhəmiyyəti xeyli

azaldılmışdır, belə ki, müxtəlif astroloji məktəblər eyni Zodiak bürcünə müxtəlif daşları aid edirlər.

Müasir astrologiyanm daha məntiqi yanaşma üsulu vardır-onlar insanın xarakterinin harmonikləşməsinə (ahəngdarlığına) kömək edən əlvan daşların seçiminə üstünlük verir. Bu vaxt daşlar xarakterin müsbət xüsusiyyətlərini gücləndirməli və arzuolunmaz və mənfi xüsusiyyətlri zəiflətməlidir; lakin insanlar daşdan nə istədiklərini aydın bilməlidirlər. Əgər bunu etmək çətindirsə, mütləq təcrübəli astroloqa müraciət etmək lazımdır. Əfsuslar olsun ki, son vaxtlar daşlardan şöhrət naminə istifadə edənlərin sayı xeyli artmışdır. Bu isə təkcə onların özünə mənfi təsir etməklə nəticələnmir, həm də ətrafdakıların daşlarla bağlı biliklərinin zəifliyindən arzuolunmaz dəbə gətirib çıxarır.

Zərgərlik daşları talisman (himayədar) və ya gözmuncuq şəklində istifadə oluna bilər. Talisman müəyyən geyfıyyətləri, xarakterdəki xüsusiyyətləri möhkəmləndirir və qoruyub saxlayır, onların inkişaf etməsinə kömək edir, sanki kənardan diqqəti gəlb edir və onun sahibi üçün bu keyfiyyətlərə əlverişli olan mikro iqlim formalaşdırır. Talisman həmin adamda irsən olmayan heç bir yeni keyfiyyəti inkişaf etdirməyə qadir deyildir.

Gözmuncuğu-qoruyan, mühafizə edən daşdır. O, sahibini arzuolunmaz kənar təsirlərdən qorumaq üçün lazımdır. O, seçim immunitetini yüksəldir və öz təsiri çərçivəsində bədəndə olan qüsuru aradan qaldırmağa kömək edir. Gözmuncuğu təhlükənin görünməz əlamətlərini instinktiv olaraq duymağa kömək edir və adamı bu təhlükədən uzaqlaşmağa və daha təhlükəsiz yerə getməyə vadar edir.

Hər bir daş, adətən həm talisman, həm də gözmuncuğu xassələrinə malikdir; ona görə də daş seçərkən bunu mütləq nəzərə almaq lazımdır. İntellelektual cəhətdən kifayət qədər inkişaf etməmiş adama keflənməkdən qoruyan ametisti gəzdirməyin heç bir əhəmiyyəti yoxdur, belə ki, Neptuna meyl edən bu daş talisman kimi sahibinin şüurunu arzuolunmaz və gözlənilməz dərəcədə genişləndirməsinə gətirib çıxaracaq ki, bu da alkoqollu içkilərin təsirindən yaranan vəziyyətə uyğun olacaqdır və daşın təsirini heçə endirəcəkdir.

Qrafinya Voronsovun əqiqdən qayrılmış üzüyü hədiyyə kimi Puşkinə bağışlamasına həsr olunmuş şairin məşhur şeirini xatırlamaq yerinə düşərdi. Burada Puşkin ona talisman kimi müraciət edir, lakin bu daş şairə uyğun gəlmir. Ekspansiv şairə əqiq deyil, zümrüd daha çox uyğun gəlirdi; əqiq isə sahibində emosional ehtirasları daha da goşdururdu. Bayronda da əqiqdən hazırlanmış üzük var idi. Əlbəttə, ola bilər ki, bu təsadüfən üst-üstə düşən hadisədir. Lakin onlardan biri ölümü ilə nəticələnən duelə təhrik olundu, digəri isə özü Yunanıstana ölümünə qarşı getdi.

Göründüyü kimi, talisman seçimi-çox incə, çox zəhmət və səbr tələb edən bir işdir. Belə ki, zərgərlik daşı seçərkən yalnız doğulduğu ili, ayı və günü deyil, həm də doğulduğu saatı 4 dəqiqə fərq dəqiqliyi ilə nəzərə almaq lazımdır: bunsuz doğum vaxtı çıxan Zodiak dərəcəsini hesablamaq mümkün deyildir və bu da həmin adamın xarakterinin formalaşmasında əsasdır.

Talisman seçərkən onun forması böyük əhəmiyyət kəsh edir: belə ki, məhz forma bu və ya digər daşın təsirini gücləndirir və ya zəiflədir. Daha kobud desək, talismanı insanın xarakteri ilə ölçüb- biçməklə seçmək lazımdır.

Ekspansiv tezacıqlanan, əsəbi, səbirsiz, hövsələsiz adamlara aktivləşdirən, fəallaşdıran qırmızı rəngli- yaqut, aydm-qınnızı yəşəm daşları çox təhlükəlidir. Bu daşlar həmin adamı düşünülməmiş hərəkətlərə təhrik edir. Bu daşlara təbii qəddarlığı gücləndinnək xasdır. Bədxah, qərəzkar adamlarda onlar pis şeytana çevrilirlər, çox vaxt qarşısı alınmaz, labüd nəticələrə gətirir. Əksinə, utancaq, cəsarətsiz, qorxaq adamlarda onlar tündməcaz tempe- ramentin, ehtirasın inkişafına kömək edir, venada qanı sürətlə getməyə məcbur edir. Parlaq-qınmzı rəngli daşlar qələbəyə inam oyadır, gəmginliyi qovur, həyat eşqini yüksəldir.

Zümrüdü isə hamıya tövsiyə etmək olar, belə ki, bu şeytan əleyhinə olan daşdır. O, insanda olan bütün yaxşı nə varsa hamısını stimullaşdırır, insanı həvəsləndirir.

Gözmuncuğu seçmək kifayət qədər asandır. Sadəcə olaraq onu nədən qorumaq lazım olduğunu müəyyən etmək lazımdır. Gözmuncuğunu Zodiak bürcünə uyğun seçmək heç də vacib deyildir. Ulduz falına uyğun gəlməyəndə, o bir az öz gücünü itirir, lakin bununla belə, onun birbaşa təsiri qalır. Yalnız talisman kimi seçilən daşın xassələrinə diqqət yetirmək lazımdır. Ənənəvi gözmuncuqları əsasən aşağıdakı kimi qəbul olunmuşdur:

Qoç üçün - açıq çəhrayı-yasəməni gözmuncuğu; Buğalar üçün - əqiq; Əkizlər üçün - beril; Xərçənglər üçün - zümıiıd; Şirlər üçün - yaqut; Qızlar üçün - ala-bula yəşəm; Tərəzilər üçün - almaz və ya dağ billuru; Əqrəblər üçün - sarı topaz; Oxatanlar üçün - firuzə; Oğlaqlar üçün sarı, göy opal; Dolçalar üçün - sapfır, Balıqlar üçün - qızılı, göy xrizolit.

Müxtəlif gözmuncuqları və talismanlar taxmaq məsləhət deyildir. Hər hansı bir adama 4, 8, 13 daş geymək

yol verilməz hesab olunur. Xoşbəxt seçim - 1, 3, 5, 7 və 9 daş qəbul olunur. Daşın təsiri onun ölçüsündən asılı deyildir, təsir onun təmizliyi ilə artır. Müxtəlif qüsurlar, tutqunlaşmalar daşın mənfi xassələrini artıra bilər.

İstənilən ünsiyyətin, o cümlədən daşlarla ünsiyyətin qurulmasında ilk addım - simpatiyanın, meylin yaranmasıdır, ona görə də - düzdür çox dəqiq olmasa da - daş əldə etməyin ən sadə üsulu - simpatiyanız olan daşı əldə etməyinizdir. Əgər insan xoşu gəlməyən hər hansı daşı nəyinsə xatirinə taxırsa, ən yaxşı halda onunla kontakt yarada bilməyəcəkdir. Bu mənfi ünsiyyət daşlara da təsir göstərir. Buvaxt daşların rəngi dəyişir, məsələn opal hətta parçalana bilər. Ona görə də daş seçərkən ilk şərt sizin tərəfinizdən olan inam və rəğbətdir.

Öz daşınızla ünsiyyət yaratmağınız üçün xeyli çalışmalısınız. Qədim incəsənətə uyğun olaraq, aldığınız daşla tənhalığa çəkilib təklikdə qalmalısınız, onu ovçunuzun içinə alıb diqqətlə ona baxmalısınız, diqqətinizi cəmləməli, özünüzü nazik dumana bürünmüş halda hiss etməlisiniz. Sonra bu dumanı daşın vasitəsilə bədəninizə çəkməli və bütün bədəninizə tökməlisiniz. İlk dəfədən hər şeyin uğurlu olması heç də vacib deyildir. Müvəffəqiyyət çoxsaylı və gərgin, inadlı çalışmadan sonra təmin oluna bilər.

Maraqlı bir cəhəti də qeyd etmək lazımdır. Xarici cəlbediciliyinə baxmayaraq bir çox daşlar həm də pis ad çıxarmışlar. Məsələn, opal uzun illər bədbəxtlik gətirən daş hesab olunmuşdur. Yalnız XIX əsrdə ona yeni münasibət yarandı və yayılmağa başladı. Opalın şöhrətinin qayıtmasına ingilis kraliçası Viktoriya xeyli kömək etmişdir. Avstraliyadakı opal mədənini hamıya bildirməyə çalışan kraliça opal gəzdirirdi.

Bəli cansız hesab etdiyimiz qiymətli daşlarla bağlı əsrlərin sınağından keçib gələn baxışları təhlil edərkən, sanki insanın canlı bir varlıqla ünsiyyəti necə qurması tarixçəsinə nəzər saldıq. Özünü bütün canlılardan üstün tutan insan bütün tarixi dövrlərdə təbiətdən asılı olduğunu etiraf etmək istiqamətində aparılan bütün söhbətlərdən çox böyük ustalıqla boyun qaçırsa da daxilən bu asılılığı həmişə duymuşdur. Maraqlıdır ki, təbiət bütün başqa canlılara nisbətən insana qarşı daha diqqətcil olmuş, öz şüuru, ağılı və dəiTakəsi ilə öyünən insanın bütün şıltaqlığına dözmüşdür. Hər dəfə təbiətin qayğısı ilə üzləşən insan özünün təbiətə qarşı vəhşi hərəkətlərindən əl çəkməkdənsə bu səmimilikdən suiistifadə edərək mövcud münasibətləri daha da gərginləşdirmişdir.

Real həyatda hər hansı bir adama təbiətin bizə etdiyinin milyondan birini etsək özümüzü həmin adama qarşı sahibi-ixtiyar kimi apararıq. Özümüzü dərk edəndən valideynlərimizin bizim üçün etdiklərini dəfələrlə sadaladıqlarının tez-tez bundan bizi şantaj etmək üçün istifadə etdiklərinin şahidi olmuşuq. İnsan üçün vacib olan hava, su, qida, yaşayış məskəni, bir sözlə insan üçün mühüm olan hər şeyi bizə təmənnasız bəxş edən və heç vaxt bundan bizə qarşı suiistifadə etməyən təbiətə münasibətimiz məqbul hesab edilə biləmi? Bütün verdikləri azmış kimi, təbiət bütün ömrümüz boyu bizi hifz edir, yol göstərir, hər eür təhlükədən qorunmaq üçün öz predmetlərini bizə təklif edir. Bəli daşlar da bizə yardımçıdır. Onlar da bizim yaşamağımız üçün kifayət qədər öz köməklərini əsirgəmirlər. Bəs biz? Bütövlükdə təbiətə, onun ayrı-ayrı predmetlərinə, o cümlədən daşlara qarşı düzgün olmayan münasibətimizi nə üçün dəyişdirmək istəmirik?

Qiymətli daşlarla bağlı bəzi mülahizələrinmizdən sonra ayrı-ayrı daşların xassələrini qısa şərh etməyi cəhd edək.

***Almaz*** - ən bahalı, gözəl və nəcib daşdır. O, günahsızlıq, məsumluq, sadə ürəklilik, sarsılmazlıq, mətanət və mərdlik, xəstəlik və hər cür azar üzərində qələbə rəmzidir. Bu daşın möcüzəli, ecazkar xüsusiyyətlərə və qeyri-adi gücə malik olduğunu qeyd edirlər. O, bütün işlərdə uğur gətirir, gözdəymədən, tilsimlənmədən, cadudan qoruyur, döyüşdə cəsarət və mərdlik verir, sağlam və uzun ömrü təmin edir. Yaralanmadan qoruyur və pis yuxuları qovur. Talisman kimi brilliantı sol qolda və ya boğazda gəzdirirlər, lakin daşın çərçivəsi onun dəriyə toxunmasına mane olmamalıdır-dəriyə toxunanda onun gücü daha da artır. Daş hədiyyə veriləndə və ya miras qalanda çox böyük xeyirxah gücə malik olur. Almaz yüksək temperatur, soyuqdəymə, sarılıq, yaralar, ürək-bulanması, qara ciyərin böyüməsinə qarşı ən yaxşı müalicədir. Astroloqlar belə hesab edir ki, almaz qorxulu daşdır, lakin qorxmaq lazım deyil, sadəcə olaraq o diqqət tələb edir. Almaz sahibinə o vaxt xoşbəxtlik gətirir ki, o nəyə isə həsr olunur ya da vərəsəlik kimi qalır. İnsan almazı hədiyyə alanda o daha yaxşı olur.

Almaz şahların və ilk din xadimlərinin daşıdır. Qalan adamlara bu daş çox vaxt biganədir. Əyanlar nəslindən olanlar bu daşı gəzdirə bilərlər, lakin unutmasınlar ki, 7-9 il ərzində bu daşı heç bir xeyir gətinnəyəcək.

Almaz bütün daşlardan ən bahalısıdır. Qoç bürcündən olanlara daha çox kömək edir. Zodiakm ilk daşı hesab olunur. Öz bioritmi ilə işləməyi bacaranlara çox kömək edir. Almaz bəşəriyyətin məqsədini və hər bir adamın vəzifəsini yaxşı bilir. İntellektual əməklə məşğul

olan bütün adamlar üçün almaz talismandır. Filosoflar onu bədənlərində gəzdirməkdənsə, stolun üstünə qoysalar yaxşıdır.

Almazı 12 Zodiak bürcünün hamısı gəzdirə bilər. Brilliantla olan nişan üzüyü-bağlanan nikahın uzunömürlü olması üçün zəmanətdir.

Eyni zamanda belə hesab olunur ki, almaz skleroz və epilepsiyanı müalicə edir, bədəndə daş əmələ gəlməsinin qarşısını alır, içərisində ləkə olan almaz pis, bədbəxtlik gətirən daş hesab olunur. Almazın gücü onun emalından, düzəldilməsindən xeyli dərəcədə asılı olur.

***Aylı daş (adulyar)*** - daxilində qızılı parıltılı göyümtül-gümüşü daşdır: süd kimi ağ, yüngülvarı bənövşəyi rəngli görünüşü var. Bədbəxtlik, uğursuzluq daşı kimi məlum olsa da bu düzgün deyildir. Mirvaridən fərqli olaraq Ayın müsbət xassələrini özündə təcəssüm etdirir və şıltaqlıq, qərarsızlıq, xəyalpərəstlik xəstəliyinə tutulma- yanlara xoşbəxtlik gətirir. Xülyaçıhq, xəyalpərəstlik keyfiyyətlərini daha da artırır və bununla təhlükəli ola bilər. Çox ciddi xarakterlikdən və dözümsüzlükdən əziyyət çəkən adamlar üçün aylı daş xeyirlidir. Günəşə zidd olan bu daş epilepsiyadan və əsəblə bağlı, digər xəstəliklərdən qoruyur. Təzə ay çıxan vaxt o soyuyur və daha parlaq olur; bu vaxt ona cadugərlik gücü qayıdır. Belə bir inam da var ki, ciyər xəstəliklərinin müalicəsinə kömək edir. Melanxolik temperamcntlilərlə bağlılığı şübhəsizdir.

Aylı daşla insan istirahət edir. Lakin sakit, təklikdə istirahət etmək məsləhətdir, əks halda daş bədənin qocalmasmı sürətləndirir. Xərçəng, əqrəb, balıqlar üçün daha faydalıdır

***Aleksandrit*** - Əgər "xoşbəxtlik-sizin başa düşülməyinizdədirsə", onda sizi əhatə edənlərə aleksandrit hədiyyə edin. Bu daşın ikili parıldaması başqalarının qəlbini başa düşmək və ona əziyyət verməmək arzusunun rəmzidir. Bu daş rəhm, mərhəmət gətirir, öz sahibini sözəyatan, güzəştə gedən, üzüyola, sakit, dine edir. Bəziləri belə hesab edir ki, aleksandritin ikili rəngli arteriya(ürəkdən bədənin müxtəlif üzvlərinə qan aparan damar) və vena(qanı orqanlardan ürəyə gətirən damar) qanı deməkdir. Bu belədir, yoxsa yox, hər halda bu daş, şübhəsiz ki, qan dövranını nizama salır, qanı təmizləyir və damarları möhkəmləndirir. Lakin gecə aleksandriti çıxarmaq məsləhətdir, onu suya qoymaq olar, səhər isə həmin sudan bir qurtum içmək lazımdır - bu ürək-damar xəstəlikləri zamanı kömək edir. Onun "təklik, tənhalıq daşı" adlandırılması ilə bağlı qəmgin əfsanə kökündən yanlışdır. Bu daş daha çox insanların qəlblərini düşünən ağıllı və xeyirxah adamların daşıdır. Astroloqlar belə hesab edir ki, aleksandrit çox ağır daşdır. Bəzən o guya gözlənilən bədbəxtçiliyi insanın gizli emosional vəziyyətinə təsir etməklə xəbər verir. O, tez-tez rəngini dəyişir. Sarı aleksandrit bədbəxtçiliyə işarədir. Bu daş yaxın vaxtları göstərən sirli barometri xatırladır. Çox vaxt hadisələri xəbər verməklə yanaşı həm də hadisələrə təsir edir. Bəzi adamlara bədbəxtlik gətirir xarakterin möhkəmliyini yoxlamaq üçün ciddi sınaqlarla üzləşdirir. Yalnız güclü adam onu gəzdirə bilər. Əgər həmin adam sınaqdan çıxarsa, onu xoşbəxtlik gözləyir və o bütün ağır problemlərdən xilas olacaqdır.

Balıqlar və Xərçənglərə aleksandrit gəzdirmək məsləhət görülmür. Qız bürcündən olanlar da bu daşdan uzaq olsalar yaxşıdır. Əqrəb, Oxatan və Oğlaqlar üçün

daha uğurlu daşdır. Şüurlu surətdə çətin sınaqlara gedənlər üçün bu daş yaxşı köməkçidir.

***Ametist*** - ovda və idman yarışlarında uğur gətirən daşdır. Keflənməkdən qoruyur. Ametist onu hədiyyə edənə qarşı məhəbbət oyada bilir, onu gəzdirənin ürəyi yeni məhəbbətə açılır. Daş uğur, sakitlik, xöşbəxtlik, rifah gətirir, əsəb pozğunluğunu sakitləşdirir, qisasçılıq hissini nizama salır. Ametist Əqrəb büreü altında doğulanların einsindən, yaşından və ictimai vəziyyətindən asılı olmayaraq hamısı üçün xoşbəxtlik daşı hesab olunur. Dul qadınlar və kişilər dünyasını dəyişən həyat yoldaşlarına əbədi məhəbbətlərini və yeni ailə qurmaq istəmədiklərini bildirmək üçün ametist gəzdirirlər. Buna görə də ametist sadiq, sədaqətli məhəbbət rəmzidir və “dul qalmışların daşı” adlanır. Ametist həm də din adamlarının daşıdır.

Ametist Balıqlar, Şir və Oğlaqlar üçün məsləhət deyildir. Tərəzi, Əkizlər və Dolça bürcündən olanlar üçün faydalıdır. Avropalılar üçün səmimilik və təmizqəlblilik, Hindistanda sülhsevərlik, Misirdə sadiq məhəbbət, sağlamlıq və xoşbəxtlik simvolu hesab olunur.

***Akvamarin*** - şəffaf, yaşılaçalar- göy daşdır. Eyni zamanda parlaq göy akvamarinlərə də rast gəlmək olur. Bu xöşbəxt ər-arvad ittifaqı, qarşılıqlı məhəbbət və hörmət gözmuncuğudur. Daş öz sahibinin fikrini onu hədiyyə edənə yönəldir. O, eyni zamanda dənizçilərin peşə talismanıdır, səyahət vaxtı təhlükəsizliyi və dəniz döyüşlərində qələbəni təmin edir. Fırtınanı sakitləşdirmək və ehtirasları soyutmaq gücünə malikdir. Boğaz və diş ağrılarını müalicə edir; bu xəstəlikdən əziyyət çəkənlər yaxşı olardı ki, gümüşə salınmış akvamarindən olan boyunbağı gəzdirsinlər.

Bu daş olduqca fəal yaradıcı adamlardan başqa hamıya məsləhət görülür. Bu daşı Balıqlar və Xərçəng gəzdirə bilər. Əqrəblərə heç uyğun gəlmir - onların qarşısında həlledilməz vəzifələr-heç vaxt heç bir şəraitdə yalan danışmaq olmaz-qoyur. Əkizlərə bu daş heç uyğun gəlmir. Avropalılar akvamarini qoçaqlıq, hindlilər isə müdriklik daşı kimi qəbul edirlər.

***Almandın*** - Əyləncə və bal daşıdır. O, sahibinin həyatını sevimli edir. Oğlağa daha çox uyğundur. Kişiləri yaralanmaqdan qoruyur, qadınlara doğruş vaxtı kömək edir. Xərçəng və Buğanın gəzdirməsi də məsləhətdir. Əqrəblərə qarşı biganədir. Əkizlər və Balıqlara məsləhət deyildir.

***Amazonit*** - ipək kimi parıltılı, göyümtül və ya yasılacalar rənglidir. Əsəb yorğunluğunu müalicə edir, qocalarda gənclik ehtirasları oyadır, dərinin rəngini yaxşılaşdmr. Lakin talisman kimi ondan az istifadə olunur. Belə hesab edirlər ki, bu daş təbii tənbəlliyi inkişaf etdirir. Amazonit ilk növbədə evdar qadınların daşıdır. Təsiri güclü olmasa da, belə hesab edirlər ki, o ailəni möhkəmləndirir, gənclərə möhkəm ailə qurmaqda kömək edir. Yaşlı adamları cavanlaşdırır, dərinin vəziyyətini yaxşılaşdırır və əsəb yorğunluğuna kömək edir. Əkizlər, Tərəzi və Dolça bürcündən olanlara amazonit uğur gətirir. Əqrəblərə məsləhət görülmür. Bir çox xalqlarda amazonit sağlamlıq, cəsarət, güc və sadiqlik simvoludur.

***Beril*** - göy rəngli daşdır. Səmimilik, istiqanhhq, mehribanlıq hisslərini möhkəmləndirir, məhəbbətlə bağlı işlərdə xoşbəxtlik gətirir. İnsanı həmişə şən, gülərüzlü, sevincli, şux, mehriban, nəvazişli edir. İnsanın təfəkkürü və əqli ilə güclü bağlı olan beril fəlsəfi tətqiqatlarda və məşğələlərdə kömək edir. Əgər berilə çox baxılsa, o,

gömıə qabiliyyətini yaxşılaşdırır, gözün üstünə qoyulsa gözün gicişməsinin qarşısını alır. Beril - ailə ocağı daşıdır, ailənin sakitliyinin və səadətini qoruyur. Öz təmizliyi ilə o fəlsəfi əqlə kömək edir. Qədim dövrdə onu həm də qadın daşı hesab edirdilər, o qadın xəstəliklərini müalicə edirdi. Əkizlərə qəlb məsələlərində uğur gətirir. Uzaq səfərə çıxanlar bu daşdan həyatı qorumaq üçüntalisman kimi istifadə edirdilər.

***Qam kəhrəba (acıat)*** - talisman kimi məşhurdur, lakin onun xassələri ilə bağlı göstərişlər aydın deyildir. Onu Böyük ana daşı adlandırırlar və göstərirlər ki, bu daş qədim dünyanın gücünə malikdir. Ona yumşaltmaq, yüngülləşdirmək, ayırmaq, həmfikir olmaq xassəsi xasdır: o kişini qadından ayırır, məhəbbətdə unutqanlıq, yadır- ğamaq yaradır, ayrılıqdan yaranan əzabları yüngülləşdirir. Qadınlarda öz rəfiqələrinə meyl yaradır, doğumu yüngülləşdirir, lakin hamilə qadınlara bu daşı gəzdirmək məsləhət görülmür. O, yalanı acır, onu vasitəsi ilə bütün gizli olanlar aydınlaşır. Lap qədim dövrlərdən bizim günlərə qədər qara kəhrəba podaqranm (bədəndə maddələr mübadiləsinin pozulması nəticəsində əmələ gələn oynaq və toxuma xəstəliyi) qarşısını almaq üçün qolbaq kimi gəzdirilmişdir. Deyirlər ki, o qıc olmanın qabağını alır. Bu olduqca faydalı daşdır. Qara əqiqdən yüngüllüyü ilə seçilir. Bu daş gecə qorxularından qoruyur, o gecə sirləri ilə və qorxu üzərində qələbə ilə bağlıdır. Ona görə də bu daş nədənsə qorxan və bu qorxunu dəf etmək istəyənlər üçün faydalıdır. Xərçəng və Balıqlar üçün daha xeyirlidir. Oğlaqlara bu lazım deyil, çünki onlar özləri qorxunu dəf edə bilirlər. Oqrəblərə öz mənfi təbiətlərini dəf etməkdə kömək edir. Buğa və Tərəzilərə pis təsir edir, onların

xasiyyətlərini dəyişir. Qız bürcündən olanlara da uyğun gəlmir.

***Qızılı topaz*** - Coşqun və təhlükəli ehtiraslardan azad edir, həyatdan olduğu kimi zövq almağı öyrədir, xəyanətdən qoruyur, etibarlı dostluq və məhəbbət bəxş edir. Buğa bürcündə doğulanlar üçün məsləhət deyil, belə ki, qəzəbli və azğın fantaziyalar "bağışlaya" bilər. Dad bilmə hisslərini gücləndirir, qəzəbi, hirsi qovur. Noyabrda doğulanlara dostluq və məhəbbət bəxş edir. Qədim dövrlərdə onu daxili işıqlandırma daşı adlandırmışlar. Onu ağılsızlıqdan, yuxusuzluqdan və pis gözlərdən qorunmaq üçün istifadə edirlər. Rəssamların talismanı hesab olunur. Sonsuz qadınların hamilə olmasına kömək edir, qara ciyəri müalicə edir, yaxından görməni düzəldir, qızlara gözəllik verir, istisna olmadan hamıya müdriklik gətirir.

Qızılı topaz gedonistlərin talismamdır. Həyatdan zövq almağa kömək edir, iştahahanı artırır, nifrəti qovur və inamsızlıq haqqında xəbərdarlıq edir. Bu sirləri açan, detektivlərə və başqalarına təsir edən daşdır.

***Daş bülluru*** - parlaq, çox təmiz kvars suyudur, fal açmada böyük əhəmiyyəti var. Məharətli, bacarıqlı falçılar onun bülluruna baxaraq keçmişin və gələcəyin mənzərəsini görə bilirlər. Bunun üçün büllur qaranlıq otaqda elə yerə qoyulur ki, ona içiq şüası düşsün; bu şüa onu daha da parıldadır. Falşılar uzun müddət diqqətlə ona baxır, bütün iradələrini çəmləşdirərək, gözlərini qırpmadan belə onda müəyyən predmet görməyə çalışırlar. Bəzən büllur daşı və ya muncuğu ipək sapa taxıb onu əllərində tuturlar və ona yellənməyi əmr edirlər. Büllurun gələcəyi görmə (bəsirət) ilə əlaqəsi onunla izah olunur ki, kvars (onun təkmilləşmiş forması büllurdur.) sanki planetin dərisidir, bununla o kosmosu və mistik aləmi hiss edir. Kvarsm müxtəlif növləri

müəyyən hiss orqanları ilə bağlıdır, büllura gəldikdə isə o bizim dünyanı və kosmosu hissən dərk olunmayan qavrayışımızla bağlıdır.

Qədim dövrlərdə belə hesab edirdilər ki, büllur yatmış adamı qorxulu yuxulardan qoruyur; qaşlı üzükdə olan büllur tez üşüməkdən, so}aığa davamsızlıqdan və donmaq təhlükəsindən xilas edir; boyunbağı formasında gəzdirərkən körpə uşağa süd verən ananın südünü artırır; paltarın altında qarının sağ tərəfində gəzdirəndə öd kisəsinin fəaliyyətini yaxşılaşdırır və onun fəaliyyətini orqanizmin tələbatına uyğun nizama salır. Qədim dövrlərdə təsdiq edirdilər ki, dağ bülluru soyuğun təsiri ilə yaranır və o özü "əbədi buzdur"

***Zümrüd*** - qədim xalqlar onu "İzidanm sirli daşı" adlandırırdılar. O, anaların və dənizçilərin talismanı hesab olunurdu; belə bir inam var idi ki, gözgüyə baxılan kimi ona uzun müddət diqqətlə baxanda bütün sirlər orada əks olunur, gələcəyi əvvəlcədən görmək mümkün olur. Yaddaşı möhkəmləndirmək və görmə qabiliyyətini yaxşılaşdımıaq öçün zümrüdü boyunda gəzdirirdilər. Qızılla düzəldilmiş zümrüd pis xəstəliklərdən qorujmr, o məhəbbət və yuxusuzluğun hökmdarıdır. Gənc oğlan və qızları pozğunluqdan qorunmaq və ağıllı olmaqları üçün zümrüd gəzdirməyi məçbur edirdilər. Belə hesab edirdilər ki, zümrüd gəzdirənlərin yuxuları tez-tez düz çıxır. Sentyabr ayında doğulanları zümrüd yalançı dostlardan hifs edir, onlarda inam yaradır. Lakin bu daşın özünü tam mənada göstərməsi üçün ulduzlar cədvəlində Ay yaxşı vəziyyətdə olmalıdır. Müalicəvi xassəsinə görə zümrüd melanxoliyanı (qəmginliyi) dağıdır və uzunömürlülük bəxş edir. Zümrüd qadın və kişi arasında fərq görmür, uşaqlara isə daha incə yanaşır, əsəb sisteminə yaxşı təsir

edir. Venera daşı olan Zümrüd qadınlara və ailə ocağına himayədarlıq edir. O, təmiz adamların daşıdır. Xərçəng bürcü altında doğulan əsəbi, xəyalpərəst və hissiyyatlı adamları zümrüd pis yuxulardan qoruyur. Balıqlara yaxşı təsir edir və onların sirli fikirlərini cəmləşdirir. Oğlaq və Əqrəblərə uyğun gəlmir. Digər bürcdən olanlar bu daşı gəzdirə bilər. Yalançılara bədbəxtlik, həm mənəvi, həm də fiziki xəstəlik gətirir. Zümrüdlə ehtiyatsız davrananda o pis təsir edir. Avropalılar Zümrüdə məhəbbət, uğur simvolu kim baxırlar.

***Karneol*** - tünd qırmızı rəngli əqiq - qədim müəlliflərin fikrincə, mübahisə və davadan qomyur, qadınların qan dövranını nizama salır, dişləri möhkəmləndirir, qızdırma, titrəmə və əsəb xəstəliklərini sakitləşdirir. Lakin bu daşın başlıca istifadə məqsədi- insanı şimşəkdən vəö pis qüvvələrdən qorumaqdır. Şərqdə bu daşı doğum vaxtı ağıza alırlar. Ümumiyyətlə bu daş çox xoşbəxtlik və sağlamlıq daşı hesab olunur; son vaxtlar onu bazedov xəstəliyi (qalxanvan vəzinin fəaliyyətinin artması nəticəsində əmələ gələn xəstəlik) yaranan vaxtı gəzdirməyi məsləhət görürlər. Karneolu gəzdirənlərdə toxunma hissi güclənir.

***Kəhrəba*** - ən sirli və güclü həmayillərdə (gözmüncuqlanndan) biri hesab olunur. Kəhrəbanın bir parçası dəriyə toxunanda kişilərin gücünü və qadınların nəsil artırma qabiliyyətini artınr. Kəhrəba yoluxucu xəstəliklərdən qoruyur (bu daşdan müştük düzəltmək ənənəsi də buradan irəli gəlir). Dəri, boğaz, revmatizma xətəliklərini müalicə edir, pis gözlərdən və cadıdan qoruyur.

Talisman kimi gəzdirilən kəhrəba Şir bürcü altında doğulanlara xoşbəxtlik gətirir; başqalarına, xüsusilə də

Buğa bürcü altında doğulanlara bu daşı həmişə gəzdirmək məsləhət görülmür.

Eyni zamanda qulaq ağrıyanda, boğaz ağnları vaxtı qızılı parıltılı kəhrəbanı gəzdirirlər, eyni zamanda alın və göz ağrılarını xeyli yüngülləşdirir. Kəhrəbanın yanmasından çıxan tüstü görünmə (xəyal) yaradır, ona görə də cadugarlığa meyli olan falçılar arasında o daha məşhurdur.

Kəhrəba güclü müalicəvi enerjiyə malik olmasa da ağrıları bədəndən çıxarır. Bir parça kəhrəbanı bədənin ağrıyan hissəsinə qoyanda o mənfi enerjini udur və orqanizmin özü özünün müalicə etməsinə komik edir. Depresiyaya və intihara meylli adamların kəhrəba gəzdinnəsi məsləhətdir.

Kəhrəba xoşbəxtlik və sağlamlıq daşıdır, sevgililərin talismanı olub sahibinə məhəbbət obyekti kimi baxılmasına kömək edir. Kəhrəba qarın boşluğuna kömək edir, sarılığın müalicəsinə, ürəkkeçməsinə, baş gicəllənməsində qanaxmada, şişdə, öskürəkdə yardımçı olur. Sahibinə uzun ömür gətirir, qadın xəstəliklərini, soyuqdəyməni diş ağrılarını yüngülləşdirir; hamilə qadın kəhrəba gəzdirərsə asan doğuş olur, yuxusuzluğa kömək edir. Yatan qadının sinəsinə qoyanda o bütün pis əməllərini etiraf edir.

Kəhrəba yaradıcılıq daşı hesab olunur. Şir bürcündən olanların talismanıdir. Qalanlara onu daimi gəzdirmək məsləhət görülmür. Yalnız əqrəb bürcündən olanlara uyğun gəlmir.

Kəhrəbanı heç vaxt gümüşdə gəzdirmirlər onu yalnız qızıl və misdə gəzdirirlər. Məsləhət görülür ki, ən çox boyuna yaxın gəzdirmək lazımdır. Xoşbəxtlik və sağlamlıq simvoludur.

***Krovavik*** - çoxnövlü gematitin yaxşı növüdür, qaramtıl rəngli olur, cilalandıqdan sonra isə parıltılı qan rəngli və metal çalarlı rəng alır. Rənginə görə pis ad çıxartmışdır; qan rəngli olması və cadugarlıqda çox işlənməsi ona mənfi münasibət yaratmışdır. Orta əsr cadugarlarmdan hər hansı biri pis ruhları çağırmaq istəyəndə mütləq krovavik daşlı üzük taxırlar. Cadu ilə məşğul olmayanlara o heç bir xüsusi xoşbəxtlik gətirmir, eyni zamanda heç bir təhlükəsi də yoxdur. Belə hesab edirlər ki, o yaranı, irini, sidik kisəsini, məhəbbətlə bağlı spesifik kişi xəstəliklərini müalicə edir. Onun xassəsi ayrılma funksiyaları ilə bağlıdır.

***Gematit*** - krovavik növü olub, sehirbazlarm, cadügərlərin daşıdır, lakin cadugərlikdən, falçıhqdan uzaq, yad olan adamlara xüsusi ziyan gətirmir, hətta əsəbləri və kişilərin məhəbbətlə bağlı olan xəstəliklərini müalicə edir. Lakin bir bəla odur ki. Əqrəblərdə bir az ağır enerji "həddindən artıq boldur", o həmişə ayıqdır və döyüşə hazırdır. Gematit isə təcəvüskarhğı və gərginliyi udaraq Əqrəbdə olan sərtliyi, kobudluğu bir az yumşaldır və harmoniya yaradır. Gematitdən sui istifadə edən digər bürclər isə (qoçdan başqa) daşa əlavə yox, ona lazın olan qədər müdafiə enerjisi verirlər və özləri süst, key, ölgün, köməksiz vəziyyətə düşürlər.

Şəxsi həyatda bu daş çox böyük daxili enerji verir. Gematiti gəzdirən və onunla rəftar etməyi bacaranların gözlənilmədən bütün düşmənləri ölür. Bu daş istənilən başlanğıcda və oxumaq müddətində talisman ola bilər. O, zəif adamlara, o cümlədən Əkizlər, Qız və Balıq üçün məsləhət deyil. Digər bürcdən olanlar onu gəzdirə bilər. Bu daş Xərçəng və Əqrəbin daşıdır.

***Giasit*** (nəcib sirkon) - tünd qırmızı rəngli parlaq daşdır, pis havadan qabağ öz parlaqlığını itirir. Hallyus- tinasiya, qarabasma və melanxolik, qarasevdalılıqdan qorunma vasitəsi hesab olunur. Onu ovsuncular, cindar cadugərlər pis ruhlardan özlərini qorumaq üçün gəzdirirlər. Yüksək dairələrdə o dəbdə deyil, belə ki, onu kurtizankalarm (yüngül əxlaqlı qadınlar) daşı hesab edirlər. Onun ən mühüm xüsusiyyətlərindən biri də hamilə olmağa mane olması, aborta kömək etməsidir. Bununla belə o cadugərliyin ən güclü daşlanndan biri hesab olunur. Giasit daşı burundan və başqa yedən axan qanı - lakin əgər o dəmir və ya daşla yaralanmayıbsa - dayandırır.

Giasit pis havada öz parlaqlığını itirir. Qadınlara onu gəzdinnək məsləhət deyil, belə ki, pərəstişkarları ondan uzaqlaşa bilər, kişilər də tək qalmaqdan qorxmalıdırlar. Məhəbbətdə uğursuzluq gətirsə də bu daş qəmi azaldır, depresiyadan çıxarır, ümid yaradır. Həyatın xoşbəxt anlarında onu gəzdirmək olmaz. Dolça üçün ən yaxşı daş hesab olunur, Əqrəbə də uyğun gəlir, Şir və Buğaya yaxşı təsir edir.

***Gözlü kvarslar*** - Tünd daşlardır, onların gözəlliyi bu daşların çürbəçür rənglərə calar, parlayan, bərq vuran, əlvan olması ilə müəyyən olunur; onlar mil kimi radikal çıxıntılara malikdirlər.

***Pişik gözlü kvarslar*** - sarı-yaşıl tikanlı çıxıntılıdır.

***Pələng gözlü kvarslar*** - paslı-sarı tikanlı çıxıntılıdır.

***Qartal gözlü kvarslar*** - daha tünd, göy-yaşıl tikanlı çıxıntılıdır.

Mistiklər bu daşlan "oduncaq", "minerallar" adlandırırlar. Bütün bunlar qorumaq, müdafiə etmək xassəsinə malikdir, yəni öz sahiblərini qoruyurlar. Bununla belə pişik gözlü daha çox məhəbbətdə, pələng gözlü təsərrüfat

fəaliyyətində, qartal gözlü isə düşmənlərlə mübarizədə kömək edir. Bundan başqa pələng gözlü əsaslandırılmamış qısqanclıq əzablarından müdafiə edir. Çoxları əmindir ki, bu daşlar intuisiyanı gücləndirir, gözlənilən bədbəxtliyi, bəlanı hiss etdirir; digərləri isə əmindirlər ki, “gözlərlə” bəzədilmiş üzük təhlükə yaxınlaşanda əldə “hiss etdirməyə” başlayır, ağırlaşır, mane olur və bununla sahibinə yaxınlaşan təhlükəni bildirir.

Kvars ən geniş yayılmış mineraldır, cadugarhqda xüsusi əhəmiyyət kəsb edir. Ürək, mədə və göz ağrıları vaxtı istifadə olunur. Xəyallar, xülyalar daşıdır. Təmizlik və aydınlıq təəssüratı yaratmaqla tədricən insanın dünya haqqında baxışlarını təhrif edir. Müəyyən vaxt ərzində kvars insanı hər şeyin yaxşı olduğu dünyaya aparır, oradan çıxış yoxdur, hər açılan qapı isə ilğımdır. Astroloqlar kvarsı sirli məlumatlar almaq daşı hesab edirlər. Kvars insanı cavab axtarmağa, həyatdakı həqiqəti axtamıağa məcbur edir, ancaq kömək etmir.

Kvarsı heç vaxt üzükdə gəzdirmirlər. Onu göstərmək üçün şalvarın cibində, boyunbağıda, bəzən isə nazik zəncirdə gəzdirirlər. Bu daş Əkizlər və Qızlara daha çox uyğun gəlir, dolça üçün də pis deyildir. Əqrəb və Tərəzi bürcüdən olanların onu gəzdirməsi düzgün deyildir. Avropada bu daş sadiqlik simvoludur.

***Labrador*** - göyə və yarımcalar tünd boz rənglidir, lakin işıq şüasına müəyyən maillilik yarananda göy quşağmm bütün rənglərini özündə əks etdirir.

Labrador öz gücünü bizdən gizlədir. Məlumdur ki, o mistik görünmələrə, kəşflərə meyli gücləndirir. Onu gəzdirmək təhlükəlidir, yəni onun təsiri tez-tez özünü ekssentrik davranışlarda təzahür edir. Magiya ilə məşğul

olanlarda labrador olarsa bu gözlənilməz faciələrə, bəzən isə ölümə gətirib çıxara bilər.

***<u>Lazurit</u>*** - bu daş tərəzi burcu altında doğulanlara xasdır, o zəifliyi yüngülləşdirir, kifayət qədər olmayan təmkinliyə yardım edir, dostluqda və məhəbbətdə aldadıb öz tərəfmə çəkməyə meyl edənləri bu pis niyyətdən qoruyur. Lazuritlə olan boyunbağını dəri xəstəliklərindən, revmatizmdən əziyyət çəkənlərin gəzdirməsi məsləhət görülür. Onun xassəsi adi həyat qayğılarından uzaqdır ona görə də o tilsim kimi istifadə olunmur, lakin ondan bir sıra əsəb xəstəliklərindən qorunmaq vasitəsi kimi istifadə edirlər. Belə hesab edirlər ki, radikulit (haram ilik əsəb köklərinin iltibahı) və astma (sinəgir xəstəliyi, təngə- nəfəslik) tutmasının qarşısını alır, qadınların qanını müalicə edir, yuxusuzluğu qovur. Qızılı nöqtələrlə olan daş daxili yaralardan qurtarır. Daşın bütün bu istifadə üsulları yalnız Şərqdə məlumdur.

Lazuritdən olan talismanm köməyi ilə gözlənilməz planlar və arzular həyata keçir. O, insanlara başladıqları işi tez qurtarmağa təhrik edir. Həyatın hər bir anında konkret vəzifələr qoyur. Öz həyatını dəyişmək istəyənlərin daşıdır. O, yeni maraqların yaranmasına, dostluğun və qarşılıqlı bağlılığın möhkəmlənməsinə kömək edir. Yalnız Oğlaqlara onu gəzdirmək olmaz.

***<u>Ləl</u>*** - korundun (bərk mineral) uzaq qohumudur və bu Şərqdə ən sevimli daşdır. BU daşı Günəşin göz- qamaşdırıeı təsirindən qorunmaq üçün gəzdirirdilər. İndi onu yaşlı adamlar bel ağrısından gəzdirirlər. Belə hesab edirlər ki, onu uşaqlardan gizlətmək lazımdır, çünki onun əsas xassəsi şəhvani, aşiqanə hislər oyatmaq, məhəbbətə eəzb etmədir. Onu həvəslə sevgililər bir-birinə hədiyyə edir. Bu daş insanda ehtiras oyadır.

***Malaxit*** - “ikili təsir” talismanıdır. Birincisi, bu çox gözəl uşaq gözmuncuğudur, onu boğazdan asır və ya gecə yatarkən yastığın altına qoyurlar, bu da uşağın pis yuxu görməsinin qarşısını alır. İkincisi, bu daşın ruhi parlaqlığı bədənin cazibədarlığına “çevirir”. Gözəl və qeyri-adi qadın malaxitli bəzəyi geyərkən inkişaf etməmiş kişilərdə heyvani hiss oyadır və bu o qədər təhlükəlidir ki, onlar zorlanmaya da məruz qala bilərlər. Adamlar üçün isə çox da parlaq olmayan malaxit sadəeə olaraq göy daşdır, bir az əhval-ruhiyəni yüksəldir və özünə inam hissi verir.

Malaxit may ayının xoşbəxt daşı hesab olunur. Təzə ot bitəndə malaxit gəzdirmək lazımdır. Bu daşı ilk növbədə Tərəzi büreündən olanlar gəzdirməlidir, bu onları eəzbedici göstərir. Buğa və Şir üçün də uyğun daşdır. Əqrəb, Qız və Xərçəng büreündən olanlara məsləhət görülmür.

***Mirvari*** - onu çox gəzdirmək olmaz, belə ki, o özündə Ayın mənfi güeünü cəmləndirir. “Dəniz göz yaşı” peşimancıhq gətirir, inam və xəyalı öldürür, həqiqi göz yaşma səbəb olur. Baç tutmayan məhəbbətə və ya həyatdakı hər hansı uğursuzluğa görə o insanın özünü intihar etməsinə sürəkləyə bilər. Əgər onu tez-tez seçib ayırsaq o ölür və bununla sahibinə sağlamlıq gətirir. Xəreəng bürcü altında doğulanlara uğur gətirir. Bu gün bu daş təmizlik, səmimilik və dəbdəbəlik simvoludur.

Mirvari sadiqlik və məhəbbətin rəmzidir, nigah əlaqələrini və evi möhkəmləndirir. Özünə inananlara və fanatiklərə kömək edir, onu yalnız muneuq və boyunbağı da gəzdirmək lazımdır. Məhəbbət sərgüzəştləri ilə yaşayanlara məsləhət görülmür, o yalnız bir nəfərə olan sadiqliyi möhkəmləndirir. Uşaqlarla çalışanlara mirvari

gəzdirmək olmaz, səyahətçilər və aktyorlara öz işlərini görməyə mane olur. Dolça və Balıqlara məsləhətdir.

***Mərcan*** - adamları sevir, pis gözdən qoruyur, yaraları və xəstəlikləri müalicə edir. Qədimdə belə hesab edirdilər ki, o ürəyi müalicə edir, yaddaşı möhkəmləndirir. Mərcanlar- bəxtə baxanların talismanıdır, müştəri ilə əlaqəni möhkəmləndirir, həm də yad, pis iradələrdən qoruyur. Qədim dövrlərdən mərcan ağrıların qarşısını alan, bədbəxtçiliyə mane olan vasitə kimi qəbul olunmuşdur. Mərcan ürəyi, yaddaşı möhkəmləndirir, mərcandan olan boyunbağı əsəbləri sakitləşdirir. Romantiklər və səyahətçilərin daşıdır, adamları qəhrəmanlığa sövq edir. Səyahət vaxtı oğurluqdan, seldən, digər təbii fəlakətlərdən qoruyur. Oğlaqdan başqa bütün bürcdən olanlara məsləhətdir.

***Marion*** - (artıq bozumtul tüstü rəngində yox, qara kristaldır)- inamlara görə, yatmışların aləmi və cadugarlar dünyası ilə əlaqəni asanlaşdırır. Bu daş adama çox gec və çətin öyrəşir və sahibini güclü şəxsiyyət kimi qəbul edir və kifayət qədər ona maqiya gücü verə bilir. Öz sahibinin istedadını gücləndirir, bəsirətlik (qabağı görmə) verir, hətta kifayət qədər inkişaf etməmiş adamlar və heyvanlar üzərində hökmranlıq qabiliyyəti yaradır. Bu daşı bağışlamaq olmaz və ümumiyyətlə öz gücünə inanmayanlara bu daşla əlaqəyə girməmək məsləhətdir; əgər marionun sahibi onu qane etmirsə bu daş ondan xilas olmağa cəhd edir.

***Nefrit*** - ağ, süd rəngli və yaşılacalar "həyat daşı"- dır. Həyat gücünü möhkəmləndirir, xəstəliklərdən qoruyur və miqrendən (adətən başın bir yarısında əmələ gələn əsəbi ağrı), böyrək və ciyər xəstəliklərindən əzab çəkənlərə kömək edir, görmə qabiliyyətini yaxşılaşdırır, qumar

oyununda uğir gətirir, idmançılara kömək edir, pis gözdən qoruyur. Eyni zamanda ildırım vumrasmdan qoruyur və ətrafdakılara onun sahibinə sədaqətli olmağına səbəb olur. Böyük gücə malik olması üçün qızıla deyil, gümüşə və ya platinin çərçivəsinə salınmalıdır.

Nefrit enerji gücünə malikdir. İnsan layiq olduqda onu istənilən çətinlikdən xilas edir. Öz şüurunu genişləndirmək və mənən zəngin olmaq istəyənlərə nefrit kömək edir. Nefrit insanın daxilini və davranışı, çox vaxt isə xarici görüşünü də dəyişdirir. Onu davranışın barometri adlandırırlar. Ümidsiz və çaşmış adamda nefrit qaralır. Daşı tam dəyişmək və keyfiyyətcə yeni səviyyəyə qalxmaq istəyən adamların gəzdirməsi məsləhətdir. Həyatdan nə isə götürməyə çalışanlara kömək edir, sahibinin başqa adamlarla əlaqəsini məhdudlaşdırır. Öz inkişafı ilə maraqlanmayan adamlara göy nefrit gəzdirmək məsləhət deyil. Yaşıl nefrit Oğlağa daha uyğundur. Ağ nefrit Tərəzi, qırmızı nefrit od bürcündən olanlara, sarı nefrit su bürcündən olanların gəzdirməsi məsləhətdir. Buğa və Əqrəb üçün məsləhət deyil.

***<u>Obsidian</u>*** (tutqun şüşəyə oxşayan) - arzuların yerinə yetirildiyi daşdır. Boyunbağıvə ya bir şeyin altından asanda daha çox gücə malik olur. Əgər siz kiminsə məhəbbətini qazanmağı ürəkdən istəyirsinizsə onda obsidian gəzdirin, onu çox az-az çıxarın. Daş sizə şans verir. Ancaq siz xoşbəxtliyin zirvəsində olanda onda daşdan ayrılmalısınız ki, bu anı dayandırasınız. Əgər siz bunu etməsəniz talisman belə hesab edər ki, o sizi başa düşməyib sizə nəsə başqa şey lazımdır və sevgilinizi sizin dünyanızdan buraxar. İkinci dəfə onun qəlbində ehtiras alovunu yandınnaq praktiki olaraq mümkün deyildir. Ancaq sizin qələbənizlə güclənən obsidian sizə yaxın olan

kimin üçünsə qiymətli hədiyyə ola bilər. Əgər daşı ailədən bir neçə nəsil buraxmasanız onda sizin nəvələriniz nadir bir talisman əldə etmiş olur və bu da onlara uğur və məhəbbət gətirir. Obsidian adi şüşə kimi kəskin uclu qırıla bilər. İstənilən səhv hərəkətdən qoruyur, günah işi görənləri dayandırır. Obsidian - magiya daşıdır. Qoçdan başqa bütün Od bürcünə uyğundur. Şir, Əkizlər və Dolça bürcündən olanlara işdə çox kömək edir. Əqrəb və Tərəzilər onu sakit gəzdirə bilər. Qız və Xərçəngi çox tez qorxaq edə bilər. Qalan bürclərə qarşı biganədir.

***Olivin*** - (sarımtıl yaşıl rəngli) - Balıqlar bürcündən olanlara çoxlu bədbəxtlik gətirir. Şir və Oxatanlar üçünsə çox yaxşı daşdır. O, bütün işlərdə xoşbəxtlik gətirir, düşmənlərdən və pis niyyətli şeytan və iblisdən qoruyur. O, kişilərdə ehtiras oyadır və gücsüzlüyü müalicə edir. Olivin ailə ocağını möhkəmləndirir məhəbbət, mülayimlik və yaxınlara qayğı ilə sıx bağlıdır. Oğlaqlara bu daşı gəzdirmək olmaz.

***On iks*** - (damarlı əqiq) yarımqiymətb, darçını və ya qaramtıl rəngli "başçı" daşıdır. Sahibinə başqaları üzərində hakimiyyət verir, əqli aydınlaşdırır, siyasi rəqiblərin fikrinə girməyə kömək edir, yaddaşı möhkəmləndirir, qəflətən ola biləcək ölümdən və insan həyatına olacaq qəsddən qonayur. Ailə səadətində ərin arvadına bu daşı bağışlaması çox təhlükəlidir, belə ki, ər "ai'vadm ayaqaltı- sı" olmaq istəmirsə bunu etməməlidir. Gümüş çərçivəyə salınmış oniks ürək xəstəliyini və yuxusuzluğu müalicə edir, pis fikirləri qovur. Oniks yaddaşı möhkəmləndirir. Ürək ağrısı və yuxusuzluğa kömək edir. İnsanı tənbəllikdən, xronoloji yorğunluqdan və qəmdən qurtarır. Boyunda və boğazda faydalıdır. Qız bürcündən olanlara daha

çox kömək edir. Buğa və Oğlaqlara da uyğundur. Əkizlərə məsləhət görülmür.

***Opal*** - cürbəcür rənglərə calan, əlvan parıltılı qiymətli daşdır. Çox qorxulıu daşdır, lakin oktyabr ayında doğulanlar heç bir qorxu olmadan onu gəzdirə bilər. Bu daş həyatdan qorxan və intihara meyl edən adamlar üçün xeyirlidir. Opal bu çür adamları xəyallar dünyasına aparır və onlar burada rahatlıq tapırlar. Öz fikirlərini həyata keçirmək istəyənlər bu daşdan imtina etməlidir. Bu yalan daşıdır, onun ətrafında hər şey "üzür", anlayışlar qarışır, sirli maneələr yaranır. O, qaranlıq qarşısında qorxu yaradır. Pis niyyətli bağışlanan bu daş öz sahibini hədiyyəni verənin əlində oyuncağa çevirir. Opal sahibləri başqalarının əqlinə telepatik (hadisələri və insanın fikirlərini, onların mənşəyinə bilavasitə təmas etmədən uzaqdan qavramaq (məsələn, görünməyən bir şeyi görmək, başqasının fikrini həmin adam danışmadan və onu görmədən guya başa düşmək) mümkün olduğunu iddia edən elmə zidd uydurma görüş) təsir etmə gücünə malikdir. Talisman kimi o yalnız xeyirxah adamlara ilk başlanğıcda yardımçı olur, var-dövlətə can atanlara, özündə eqoist hissləri görənlərə kömək edir. Əsəbləri dağınıq olan adamlara bu daşı gəzdirmək məsləhət deyildir. Qızıl çərçivəyə salınmış opalın bədbəxtçilik gətirdiyinə inam Avropada intibah dövründə geniş yayılmışdır. İstənilən adam üçün opal "ikinci başdır". Talisman kimi texniki ixtisasdan olanlara daha uyğundur. Xəyallarla yaşayanlara və şairlərə opalı gəzdirmək olmaz, belə ki, bu daşı onları dəliliyə apara bilər. İnadkar və özünə inamlı olanlar bu daşı gəzdirə bilər, lakin tez-tez onu çıxarmalıdırlar. Zodiakm istənilən bürcündə

doğulanlar bu daşı gəzdirə bilər, belə ki, bu daş hər kəsə lazım olanı verir.

***Rauxtopaz*** (tüstüləyən topaz) - həm gələeəyi görməyi, həm də reallıq haqqında baxışları təhrif edə bilər. Bununla belə o narkotik maddələrdən qoruyur, insanda fantaziyalar oyadır. Ədəbiyyateılar, xüsusilə şairlər və fantastik janrda yazanlar üçün yaxşıdır.

***Rodisit*** - rəngsiz, ağ, sarı rəngli olub talisman gözmuncuğu kimi istifadə olunan daşdır. İnsana çətinlikdə, qəlb və bədənin düşmənləri ilə mübarizədə kömək edir. O, insanı gümrahlandırır və hər şeyi tez etməyə sövq edir. Bu daşı iki gündən artıq gəzdirmək olmaz, yaşlı adamlar isə bir gün gəzdirməlidir, əks halda orqanizm sürətlə qocalır və bütün arzular heç olur boğazda və boyunda gəzdinnək məsləhətdir. Uşaqlara çox da xeyirli deyil, uşaqları səhv inkişaf etdirir.

***Rodonit*** - çəhrayı rəngli bərk mineraldır, talisman və gözmuncuğu hesab olunur. Gizli istedadı və sirləri açır. Rodonit xəyallar daşıdır, qəlbi incitməyən filosofdur. Uşaqlara, müəllimlərə, tərbiyəçilərə, tibb bacılarına yaxşı talismandır. Əkizlər və Tərəziyə daha çox uyğundur. Əqrəb və Qoç bu daşa mənfi reaksiya verir. Digərləri bu daşı gəzdirə bilər, lakin onu tez-tez çıxarmalıdırlar.

***Sapfir*** - bu ad “safayres” yunan sözündən əmələ gəlib, bu da Ərəbistan dənizindəki Sapfırin adasının adından götürülmüşdür. Lakin belə bir fikir də var ki, bu söz yəhudi mənşəli sözdür. Bu daş fikirlərə aydınlıq gətirir.

Sapfir gözəl, qiymətli daşdır. Bu sadiqlik, ismət, təmizlik və ciddilik, təvəzökarhq daşıdır. Eyni zamanda bu sevgililərin və təzə ailə quranların talismanı, həm də “aqillərin daşıdır”. O, dərk etməyə can atmaq hissi oyadır,

yaddaşı möhkəmləndirir, mühakimə qabiliyyətini və əqli nəticə çıxarmaq bacarığını artırır. Böhtan və qibtədən qoruyur, ətrafdakılarda rəğbət yaradır, talenin üzə gülməsinə şərait yardır, ruh düşgünlüyündən qoruyur. Təmiz olmayan sahibindən sapfır uzaqlaşır. Sapfırli üzüyü və ya qolbağını sol əldə gəzdirəndə o ürək, astma və əsəbdən əziyyət çəkənlərə kömək edir. Onu əbədilik daşı hesab edirlər. O, bədəndə və ruhda olan xəstəliklərə qarşı kömək edir, inamı möhkəmləndirir. Ən güclü sapfır - ulduzludur, onun daxilində altı işıqlı ulduz olur, bu da inam, ümid, məhəbbət simvoludur. Əgər sapfırdə zədə varsa o bədbəxtlik gətirir və əxlaqi düşkünlüyə səbəb olur. Sapfır tənbəllik və fəaliyyətsizliyi aradan qaldırır, yorğun adama güc verir. O, müəllimlərin daşıdır, bunun köməyi ilə başqalanm öyrədib öz arxasınca apara bilər. Öz marağına görə nə isə etmək istəyənlərə sapfır kömək etmir. Əqrəb və Dolça üçün çox xeyirlidir. Balıq və Xərçəng üçün də məsləhətlidir. Tərəziyə də az-çox uyğundur. Yalnız Oğlağa heç nə vennir. Məsuliyyətsiz və tənbəl adamlara bu daş heç nə vəd etmir. Qızıl və gümüşdə gəzdirmək məsləhətdir.

***Sardoniks*** - xəyanətdən və yalandan, pis gözdən qoruyur, adamda mərdlik hissi yaradır, qanaxmanın qarşısını alır, sümüklərin bitişməsini sürətləndirir. Avqustda doğulanlara xoşbəxt ailə həyatı bəxş edir. Talisman və gözmuncuğu kimi gəzdirirlər. Astroloqlar onu din, ideologiya, məlumat və elm daşı hesab edir. O, zaman üzərində qələbə daşıdır, cavanlaşmaq və ömrü uzatmaq üçün istifadə olunur. Əsasən gələcəyi təmin etmək üçün gəzdirirlər. Gələcəyi haqqında düşünən, onu gözləyən qorxudan xilas olmaq istəyənlər sardoniks gəzdirməlidir. Əkizlər, Dolça və Əqrəblərə bu daşı

gəzdirmək məsləhətdir. Xərçəng və Qız bürcündən olanlara bu daş məsləhət deyil. Bu onların planını puça çıxarır.

***Scırden*** - bədəndə gəzdiriləndə yaranın sağalmasına kömək edir. Mayalanmada xüsusi rol oynadığından yaxşı bilənlər kişi (qara) və qadın (aydın) sarden daşlarını fərqləndirirlər. Bizim əsrin dili ilə bunu regenerasiya daşı adlandırmaq daha yaxşı olardı.

***Serdolik*** —(əqiq) parıltılı olmayan, yarımqiymətli qırmızı, qırmızı-qəhvəyi, göy rəngə calan və ya ağımtıl rəngli daşdır. Zəlzələ vaxtı nəyinsə altında qalmaq qorxusundan qoruyur. Gözəlliyə və dərinin təmizliyinə parıltı verir, baş ağrısını müalicə edir, qara maqiyaya qalib gəlir, pis niyyətlərdən qoruyur, adama cəsarət verir, sirrin qorunmasına kömək edir, mədənin pozulmasından və qızdımıadan qoruyur, qanaxmanı dayandırır və nifrəti, kini yumşaldır. Serdolik hətta çılğınlığı belə sakitləşdirə bilir. İnsanların hər hansı xaişinə yaxşı reaksiya yaradır. Mübahizələrdən uzaqlaşdırır, əqli itiləşdirir. Daşı gümüş çərçivədə saxlamaq daha yaxşıdır. Şərqdə qadın doğarkən serdoliki ağzına alır ki, doğuş asan keçsin. Bu daşın böyük tibbi əhəmiyyəti var. Bu daş zənginlik gətirir. Buğa, Oğlaq və Tərəzi bürcündən olanların daşıdır. Qız da gəzdirə bilər, ancaq az-az gəzdirməyi məsləhətdir. Demək olar ki, bütün bürclər üçün məsləhətdir. Ancaq Xərçəngə ziyan vurmasa da kömək də etmir. Məhəbbətdə xoşbəxtlik simvoludur.

***Sirkon*** - nadir, parlaq, qiymətli daşdır və Şərqdə onu “almazın kiçik qar daşı” adlandırırlar. O, əqli qabiliyyəti yaxşılaşdırır, elmlərə və həqiqəti dərk etməyə cəhd oyadır, yaddaşı möhkəmləndirir, zəkanı, fəhmliliyi yüksəldir. Göyümtül rəngli sirkon səyahətçilərin talismanıdır, onları

yolda ola biləcək təhlükələrdən, gözlənilməz hadisələrdən qoruyur. Bu Oğlağın daşıdır. Tərəzi və Buğa üçün də faydalıdır. Balıqlara və Xərçənglərə məsləhət deyil. Bu həyatın mikroskopudur.

***__Sitrin__*** (qızıl rəngli topaz) - billurun gözəl müxtəlif növlərindəndir, sarı-limon, qızılı rəngli, həmişə parlaq daşdır. Bu yalan xəbərlər və xəyanət daşıdır, bu işdə öz sahibinə uğur gətirir. Lakin həmişə belə bir təhlükə var ki, sitrinu süni şəkildə rənglənmiş qəmgin morionla qarışıq salmaq olur. Əkizlərə və Dolçaya daha çox uyğun gəlir. Əqrəb Oğlağın onu gəzdirməsi məsləhət deyil.

***__Süleyman daşı__*** - qara-qırmızıdan tutmuş sarıya qədər calan rəngli, yarımqiymətli daşdır. Bu daş qəlbin hislərinin, məhəbbət və dostluğun simvoludur. Onun bir sıra müalicəvi xassələri var: o yüksək hərarətə kömək edir, boğaz və baş ağrılarını yüngülləşdirir. Belə hesab edirlər ki, süleyman daşından olan bəzəklər öz sahibinə yaxşı əhval- ruhiyyə, şad, sevincli fikirlər gətirir. Bu həmdə sevgililərin talismanıdır və "təmizlik daşı" hesab olunur. İnamlara görə, oğurlanmış Süleyman daşı təzə sahibinə köhnə sahibinin problemlərini gətirir, bundan başqa bir sıra arzuolunmaz pisliklər, öz əmlakını itirmək təhlükəsi, öz nüfuzunu ləkələmək, bir sözlə hər cür itki gətirir. Qız bürcündə doğulanlar üçün bu daş daha yaxşıdır, belə ki, onlara əsil ruh dincliyi gətirir. Oxatanlara başqalarına öz iradələrini qəbul etdimıək, öz ehtiraslarını təmin etmək imkanı verir. Süleyman daşını daimi gəzdirənlərə müsbət emosiya verir. Əgər istirahət və sakitlik arzusunda olsanız onu çıxarın. Oxatan başqaları üzərində hökmranlıq verir. Qırmızı rəngli daşı Oxatan və Şirlərin gəzdimıəsi məsləhətdir. Qoçlar çılğın olduqlarından və tez də sakitləşdiklərindən bu daş həmişə onlara gərginlik gətirər.

Buğalar qırmızı rəngli daşa meyllidirlər. Göy rəngli Süleyman daşı Balıqlar çoxlu bədbəxtlik gətirə bilər, Şir və Oxatanlara xoşbəxtlik gətirir.

***Tov az*** - sarı parıltılı daşdır, rəhbərliyin rəğbətini qazanmağa kömək edir, var-dövlət gətirir. Onun təsiri həllolunmaz, çətinə düşmüş işlərin həllində düzgün yol tapmağa, pis niyyətli adamları duymağa kömək edir. Astmanı, podaqranı, yuxusuzluğu müalicə edir. Ehtirasları bəzəyir, kişilərə müdriklik verir, qadınlara isə nəsil artırmaqda yardımçı olur. Bəzi mənbələrə görə daşın adı Qırmızı dənizdə olan Topazos adasından götürülmüşdür. Qoç, Xərçəng, Oğlaq, Tərəzi bürcündən olanlara çox faydalıdır. Əqrəblərə də məsləhət görülür. Balıqlar üçün pis daşdır. Buğaların adi xoşbəxtliyini belə dağıdır. Bu daşla düzgün rəftar etməyənləri psixi xəstə edir.

***Turınalin*** - moruğu rənli daşdır, rəssamların talismam hesab olunur, şöhrətlənmə və yaradıcı qüvvə bəxş edir. Bu daşı 35 yaşma catmamışlarm gəzdirməsi məsləhətdir. Ala- bəzək turmalin yaradıcı qüvvə verir, qara tunmalin isə cadugərlərin daşıdır. Bu daş yalnız böyüklərdə yaxşı işləyir, uşaqlara onu gəzdirmək məsləhət deyil. Qadınlar onu yastığın altında, kişilər isə alt cibdə gəzdirsələr yaxşıdır. Xərçəng və Əqrəb üçün yaxşı daşdır. Oğlaq və qızlara uyğun gəlmir.

***Əqiq*** - yarımqiymətli daşdır. Onun rəngi olduqca rəngarəngdir. Şəkildən asılı olaraq müxtəlif növləri olur; ulduz şəkilli, göz şəkilli, dairəvi, tutqun dumanlı, landşaft görnüşlü və s. Əqiqin sol əldə gəzdirilməsi əsəbləşməkdən, başqasının dalınca danışmaqdan qoruyur, göz dəymədən, zəhərlənmədən və hir çox başqa bəlalardan xilas edir. Sahibinə yalnız güc vermir, həm də onun yaxşı danışmasına səbəb olur, görmə qabiliyyətini artırır. Bu

daşı matəm vaxtı gəzdirmək məsləhət görülür. Astro- loqlara əqiqi boğaz və diş ağrısı olanda, öskürəkdə gəzdirmək daha məqsədəuyğundur. Qədim Misirdə belə hesab edirdilər ki, əqiqdən olan gözmuncuğu şimşəkdən qoruyur, susuzluğu aradan qaldırır. Qədim yunan və romahlara görə əqiq bitkiləri doludan və gecə şaxtasından qoruyur və bol məhsula marağı olanlara uğur gətirir. Əqiq məhəbbət yaradır, ayrılığın ağrılarını yüngülləşdirir, adamların gizli fikirlərinə aydınlıq gətirir.

Müxtəlif vaxtlarda zəhərdən qorunmaq üçün ondan istifadə edilmişdir; ağ və sarı əqiq cadugərlikdən və vampir hücumundan qoruyur, sakitlik, xeyirxahlıq, daxili inam yaradır. Ən sakit pıçıltıya qulaq asmağa imkan yaradan əqiq, lazımsız səs-küyə qarşı biganə olmağa kömək edir.

Əqiq Buğa bürcündən olanlara daha çox uyğun gəlir. Onu həm də Xərçəng, Dolça və Tərəzi bürcündən olanlar da gəzdirə bilər. Balıqlar və Oxatanlara uyğun deyil, arzularına çatmaqda onlara mane olur. Qoç bürcündən olanları başqalarını gözündə acizləşdirir.

***Firuzə*** - məhəbbət, gözəllik, xeyirxahlıq və inam simvoludur. Hələ Qədim Misirdə eramızdan çox əvvəl Sinay yarımadasında firuzənin yeri məlum olmuşdur. Bu daşdan olan qolbağılar Orta Asiyada aparılan qazıntılar zamanı aşkar olunmuşdur. Müsəlman dünyasında firuzə qələbə daşı hesab olunduğundan daha məşhur olmuşdur. Onun adı da elə buradan yaranmışdır- fars dilində “firuz”, “qalib gələn”, “qalib ” mənalarını verir.

Bu daş Kolumbaqədərki Amerikada yaşayan asteklərə də məlumdur. Onlar firuzəyə müqəddəs daş kimi pərəstiş edirdilər. Ənənələrə görə hindlilərin başçısını öz

şəxsi daşı ilə - firuzəsi ilə birlikdə dəfn edirdilər. Hindlilər öz Allahlarının təsvirini firuzə ilə bəzəyirdilər.

Avropada fımzəni "türkyaz" və ya "turkis" adlandırırdılar. Çox güman ki, bu ifadə firuzənin Avropaya Türkiyədən gəlməsinə işarədir. XV-XVI əsrlərdə Firuzə daşlı üzük xüsusilə kişilər arasında dəbdə olmuşdur. Belə hesab edirdilər ki, bu daş atdan yıxılarkən zədələnməyin qarşısını almaq üçün talismandır. Pliniy bu daşı "Kallais" və ya "Kalayna" adlandırırdı ki, bu da yunan dilində "gözəl daş" mənasını verir. Bu ad bəzi dəyişikliklə - "Kallait" - bu gün də firuzənin adında saxlanılır.

Bir çox xalqlarda firuzə gəlin paltarının ən vacib bəzəyi hesab olunur və məhəbbətdə sadiqlik simvolu kimi baxılırdı. Bu daşın müalicəvi xassələri də vardır: qaşın boğazda gəzdirilməsi qan axmanın qarşısını almaq, sarılığı müalicə etmək, yuxusuzluqdan xilas olmağa kömək edirdi. Bu daş görmə qabiliyyətini yaxşılaşdırır. Lakin daşın ən başlıca əlaməti düşmənçiliyə son qoymaq, barışdırıcı mövqeni bildirməkdir. Onu dəyərləndirən tərəfindən hədiyyə olunan firuzə ömür boyu xoşbəxtlik və səadət bəxş edir. Sinədə gəzdirərkən ürəyin döyüntüsünü nizama salır.

Lakin bu daşın bir pis xüsusiyyəti də var: Əxlaq nomıalarına əməl etməyənlərə, bir sözlə pis niyyətli adamlara bədbəxtlik gətirir. Sivilizasiya tarixində qiymətli daşlar arasında firuzə kimi iz qoyan daş yoxdur. Dəqiq elmlərlə məşğul olanların talismanıdır. O, orqanizmi möhkəmləndirir. Qızlar və gənc qadınlara daha çox uyğun gələn daşdır. Yuxusuzluqdan və gecə qorxusundan əziyyət çəkənlərin gəzdinnəsi məsləhətdir. Göy firuzə Qız bürcündən olanlara məsləhət görülmür. Bu daşı talisman kimi

gəzdirənlər uzun ömürlü və xoşbəxt olurlar. Ağ firuzəni Əqrəbin və Qoçun gəzdirməsi məsləhətdir.

***Heliotrop*** - hərbi peşədə olan adamlara xoşbəxtlik gətirən daşdır. Ondan heç vaxt müalicə məqsədi ilə istifadə etmirlər: onu özündə sirlər çoxdur, yəni əsasən imzasız maqiya daşı hesab olunur, cadu edərkən bu daşı üstlərinə taxırlar. Heliotropla düzgün rəftar olmadıqda daş adamı maddi cəhətdən kasıb edə bilər. Xərçəng və Əqrəb bürcündən olanları düzgün istiqamətləndirir, öz işlərində uğur gətirir, onları xoşbəxt edir. Lakin heliotrop məhəbbət xoşbəxtliyini və qələbəni inkar edir, məhəbbətdə uğur gətirmir. Əqrəb, Buğa və Şirə bu daşı gəzdinnək olmaz, qalan bürclərə qarşı biganədir.

***Heliodor*** - sarı rəngli daşdır, heç nəyi öyrətmir, istirahət və əyləncə daşıdır. Adama öz yaxşı keyfiyyətini tapmaqda və onu ətrafdakılara çatdırmağa kömək edir. Onun pərəstişkarları çoxdur və adama "başını itirməyə" qoymur. Onu çox gəzdirmək olmaz. Şirlərin daşıdır.

***Çəhrayı kvars*** —çox vaxt qiymətli çərçivədə gəzdirilsə də, özü çox qiymətli deyildir. Ona işıqda köhnəlmək və bu vaxt boz rəng almaq xasdır. Lakin o sevilən daşdır, belə ki, sağlamlıq simvolu hesab olunur. Mistiklər belə hesab edir ki, o Yerin canlı inkişafının başlanğıc mərhələsində yaranmış və onun gənc şirələrini özünə hopmuşdur. O, xoşbəxtlik və məhəbbətin təmin edilməsi talismanıdır. Çəhrayı kvars- daxili xəstəliklərin həkimidir. O, bağışlamağı öyrədir və məhəbbət yaradır. Bu daş müdrik ahıl adama bənzəyir, o hər şeyi bilir, həmişə kömək edir. Əgər ağlamaq istəyirsənsə ağla, hu səni yüngülləşdirəcək. Kvarsı gəzdirmək insanlara kömək edir. Şəxsi xoşbəxtlik üçün ən vacib insanın özüdür. Lakin onu çox gəzdirəndə ziyandır.

***Yaqut*** - gözəl qınuızı daşdır, al-qırmızı parıltısı var. Yaqut böyüklüyə şiddətli arzu yaradır. Onu qızıl və ya polaq çərçivədə gəzdirmək daha yaxşıdır. Gümüşdə yaqut gözəl görünür, lakin öz maqiya xassəsini itirir. Xeyirxah və güclü adamı yaqut qələbəyə aparır, hər çür təhlükəni dəf edir. Sakit yaxşı adamlara yaqut rahat xoşbəxtlik gətirir. Yaqut yaxşı başa düşür ki, öz sahibinə lazımdır və başçılara və döyüşçüləröüstünlük verir. Gələn təhlükədən öz rəngini dəyişməklə adamları qoruyur, pis və alcaq ruhlardan hifs edir, qəmginliyi dağıdır, qadınların nəsil artırmaq qabiliyyətini gücləndirir. Yaqut adamlarda olan xeyirxahlığı, səmimiliyi artırmaqla yanaşı, həm də qəddarlığı, hakimiyyət hərisliyini, məkrliyi də artırır. Bütövlükdə isə hu daş adamların tam açılmasına, özünü göstərməsinə kömək edir. Xoşbəxtlik və məhəbbət gətirir. Kim qarşılıqlı hisslərlə yaşamaq istəyirsə öz seçdiyinə alov rəngli yaqut bağışlamalıdır. Yaqut qan axmasını dayandırır, yaradan və epilepsiyadan qurtarır, havanı təmizləyir, havada olan mikropları məhv edir.

Şərqdə yaqut almazdan artıq dəyərləndirilmişdir. Təyziqi və hemofiliyası (qanın kəsilməməsi) olan adamlara yaqut gəzdirmək olmaz. Təbiəti etibarı ilə qəddar olanlara bu daş ziyandır. Sadə adamlara xoşbəxtlik və məhəbbət gətirir. Qoç, Oxatan və Şir üçün çox faydalıdır. Oğlaq da bu daşı gəzdirə bilər, lakin ona daş çox gec öyrəşir.

***Yəsəm-yaspis*** - ala-bəzək daşdır, demək olar ki, hər rəngdə rast gəlinir. Yəşəmdən olan talisman qabağı görməni (bəsirətliyi) artırır, gözün görmədiyi çox şeyi aşkar edir. Qırmızı rəngli yəşəm qan axmaya kömək edir, qadınları bir sıra ağrılardan qurtarır. İbn-Sina məsləhət görürdü ki, mədə ağrısı olan adam onu qarnının üstündə

gəzdirməlidir. Yəşəmin daim gəzdirilməsi adamda iybilmə qabiliyyətini artırır. Yəşəmi insan problemi maraqlandırmır, o həmişə fikirdə, arzudadır. Bu borc və vicdan simvoludur. Qız, Buğa və Oxatanlara faydalıdır. Balıq, Qoç və Əkizlərin onu gəzdirməsi məsləhət deyil.

***Xalsedon*** - (kvars növündən yarımqiymətli daş) məhəbbət daşıdır, kişiləri qadına bağlayan boz, ağ və ya sarımtıl rəngli daşdır. Qədim dövrdə beləhesab edirdilər ki, bu daşı gəzdirənin proses gedişində qələbə şansı daha çox olur. Bu daşı çox vaxt dilin altına qoyurdular ki, öz gözəl çıxışları ilə hamını valeh etsinlər. Ağ rəngli xalsedonu gəzdirəndə görmə qabiliyyətini yaxşılaşdırır. Xalsedonu gəzdirən məhkəmə prosesini çox asanlıqla uda hilir. Onu dilin altına qoyanda danışığı yaxşılaşdırır. Uşaqların yaxşı dostu ola bilər.

***Xrizopraz*** - xalsedon növündən olub, yaşıl rəngli daşdır. Pis gözdən, böhtan və paxıllıqdan qommaq vasitəsidir, dözümlük, xəyalpərəstlik yaradır, gözdə olan sancını azaldır. Xrizopraz işgüzar adamlar üçün ən yaxşı talismandır. Qızıl çərçivəyə sahnmş xrizopraz bədbəxt ünsiyyətdən, ticarət səyahətində ola biləcək təhlükədən, maddi itkilərdən qoruyur.

Xrizopraz - ümid daşıdır, uğur, əql və var-dövlət simvoludur. Şübhəli adamları sevmir. Dolça bürcündən olanların gəzdirməsi məsləhətdir. Oğlaqlara faydalıdır. Xərçəng və Şirlərə onu gəzdirmək olmaz.

***Xrizoberil*** - yaşılaçalar rəngli herildən fərqlənir, bu oyunçuların daşıdır və əmlak itkisindən qoruyur. Əsəblə bağlı şikayəti olanlara bu daşı gəzdirmək məsləhət görülür. Bu daş Əkizlərin talismanıdır, onları itkidən və məğlubiyyətdən qoruyur. Oğlaq və Tərəzilər üçün də faydalıdır.

Dolça və Qoçlara məsləhət deyildir. Qalan bürclərə az da olsa kömək edir.

***Xrizolit*** - qızılacalar, yaşılımtıl-sarı rəngli yarımqiymətli daşdır, kəkələməni müalicə edir. Sahibinin mənəvi gücünü artırır, gələcəyi xəbər verməyə kömək edir. Çox az daşlarla yanaşı Xrizolit haqqında "İncil" də məlumat verilir. Onu adı XVIII əsrdə iki yunan sözünün "xrizos"- qızıl, "litos" - qaş- birləşməsi ilə möhkəmləndirilmişdir. Avropaya bu daşı səlib yürüşünün iştirakçıları gətirmişdir. Orta əsrlərdə kilsələrin bəzədilməsində bu daşdan istifadə olunurdu.

Bu və ya digər daşın müalicəvi xassələrindən danışan XII əsr holland rahibəsi Hildeqard fon Binhen boş vaxtlarında daşları toplamış və onun insan orqanizninə təsirini öyrənərək "Daş, ruh və bədən" adlı əsər yazmışdır. Rahibə öz fikirlərini şeirlə yazmışdır.

Müasir dövrdə radioesteziya sahəsində görkəmli alim Valter Heqqe rahibə Hildeqard fon Binhenin və XX əsrin əvvəllərində məşhur ingilis həkimi Edvard Baxın əsərini (müalicə vaxtı rənglərdən istifadə edirdi) birləşdirərək onların əsasında sinkretik terapiya - minerallar və rənglərdən eyni zamanda istifadə etməklə, daha dəqiq rəhg damcıları ilə müalicə üsulü hazırlamışdır. İndi bu dərmanlar bütün dünyada satılır. Lakin bu heç də panaseya deyildir, ancaq bu özü də diqqəti cəlb edir.

## *Talisman (tilsim) və gözmuncuqlannın (həmayillərin) tarixi.*

Gözmuncuğu müxtəlif növ predmetlərdir, onlar oz sahibindən mümkün bədbəxtliyi ve xoşagelməzliyi uzaqlaşdırmağa kömək edir. Gözmuncuqları adamlari və

heyvanları (xüsusiyle döyüşçüləri və onların atlarını) evi, avadanlıqları, əmək alətlərini vesilahlan pis niyyetli şejdanlardan, paxıl adamlardan müdafiə edir və qoruyur. Gözmuncuqları müxtəlif işarələr və ya predmetlər: kəhrəba, qiymətli daşlar, saç, dişlər, hətta ölmüş adamların qalıqları ola bilər. Gözmuncuğu latin mənşəli olub "bədbəxtçiliyin qarşısım almaq, onu uzaqlaşdırmaq" mənaların verir.

Gözmuncuqlarmı açıb gəzdirirdilər: bəzək kimi boğazda, barmaqda və ya əldə paltara tikirdilər. Gilden hazırlanan gözmuncuqlarmı evdən və ya emalatxanalardan asırdlar. Qədim xalqlar belə hesab edirdi ki, yazıları olan müvafiq gözmuncuqlari fövqəltəbii qüvvələrin köməyi ilə tam sakitlik gətirir.

Talisnianı gözmuncuğundan fərqli olaraq kənar gözlərdən gizlədirdilər. Talisman ərəb mənşəli söz olub "sehirli məktub" mənasını verir. Talismanı pul almaq üçün, işlərdə uğur qazanmaq, sağlamlıq, məhəbbət üçün istifadə edirdilər.

Hərəkətsiz və süstlüyünə baxmayaraq daşlar öz xarici ömürlərini yaşayırlar. Alimlər belə hesab edir ki, daşlarda insan orqanizimdə olduğu kimi nə isə "ilişib qalan" dinamik hadisələr baş verir. Təbiət daşlarda müəyyən mexanizm yaratmaqla ondan canlı orqanizimdə istifadə edir. Daşlar fasiləsiz olaraq ətraf müfütlə təsirdə olur, bu vaxt müxtəlif titrəyiş və şüalanma baş verir. Məsələn, turmalin istilik enerjisini elektrik enerjisinə çevirə bilir, yaqut radio dalğasını və işığı udur, lazer şüaları üçün mənbə kimi işlədilir. Beləliklə, kristal fasiləsiz olaraq ətraf məkana məlumat ötürür.

Daşlar və insanlar arasında məlumat mübadiləsi mümkündür: insan əyilmiuş milin və çərçivənin köməyi

ilə filiz və mineralı aşkar edə bilər. Torpağın dərinlik- lərindəki bu daşları məşq etməklə adamların 90%-i müəyyənləşdirə bilər.

Qiymətli metallar və daşlar təkcə ziynət əşyan kimi istifadə olunmur, onlar həm də öz sahibinə müsbət və mənfi təsir göstərə bilər; bu daş və metalın bioritminin insanın bioritminə uyğun olub olmadiğından asılıdır.

İstənilən daş bu və ya digər magia ( cadugarlıq) gücünə malikdir; bu da onu talisman və ya gözmuncuğu edir. Bu iki anlayış yaxın olsa da öz məğzlərinə görə fərqlənirlər.

Gözmuncuğu öz sahibini pis gözlərdən, bədbəxtçilikdən, xəstəlik və digər arzu olunmaz təsirlərdən - istər insanlar, istərsə də axirət qüvvələri tərəfindən olan təsirlərdən qoruyur. O, həm də sahibinə impuls göndərməklə gözlənilən təhlükəni xəbər verə bilir.

Talisman uğur və xöşbəxtlik gətirir. O, xarakterdəki müəyyən kefiyyətləri və xüsusiyyətləri möhkəmləndirə bilər, kənardan diqqəti cəlb edə və xoş əhval ruhiyyə yarada bilər.

Qiymətli daşların gücünə inam nadir və gözəl daşlarla zəngin olan Hindistanda yaranmışdır. Qədim insanlar daşlara müalicəvi vasitələr kimi baxmışlar. Qədim Çin təbabətində qiymətli daşlar dərman siyahısına daxil edilmişdir. Uzun illər ərzində hətta daşı əzib içmək də qəbul olunmuşdur, lakin daşları talisman və gözmuncuğu kimi gəzdinnək daha geniş yayilmışdır.

Adi təsəvvürdə daşlar Yerin üstündə və altında rastlaşdığımız bərk materiallardır. Elmi nöqtəyi nəzərdən isə yer daşlardan deyil, dağ süxurlardan və minerallardan ibarətdir. Qiymətli daşlar isə başqa əksər daşlardan seçilərkən hesab olunur, əsasən menerallardır.

Menerallar tələsmədən yaşayır onlardakı dəyişikliklər hiss olunmadan, çox ləng gedir. Bu sakitliyinə görə onu bəzən cansız təbiətə aid edirlər. Belə təsəvvür yaranır ki, onlarda hərəkət, həyat yoxdur.

Qədim sivilizasiya daşların müalicəvi xassələrini bilir və lazım gələndə istifadə edirlər. Təbiətdə, təbii şəraitdə hər bir daş maye halindan daş halına qədər uzun bir dövr yaşayır. Yalnız yüzillər, minillər sonra o öz formasını alır.

insanlarda həmişə nə isə çatışmır; pul, vaxt, sağlamlıq, şöhrət, xöşbəxtlik............... daşlar. İnsan pul, əşya, dost toplayır. Lakin çox vaxt hər şeyi olan insan bunlardan necə istifadə etmək lazım olduğunu bilmir. O, öz tamahının, əşyalarının quluna çevrilir. İnsanın daşların əsirinə düşməsi də mümkündür.

Süni daşlar yerdən mənəvi qida almadığından onları yetim və ya məhəbbətsiz doğulan uşağa bənzətmək olar. Süni daşlar həmişə xaricdən enerji mənbəyi axtarır və buna görə də onlar insanın arzularını, enerjisini özünə çəkir. Məsələn, süni almaz başdan enerji götürür, belə ki, almaz Qoça məxsusdur. Qoç da başı idarə edir. Onu çox gəzdirəndə baş ağrısı, baş gicələnməsi baş verir, görmə qabiliyyəti zəyifləyir, dişlər laxlayır və s. Tam sağlam adama süni daş təhlükəlidir - insanın ömrünü azaldır.

Daşlar qiymətli yarım qiymətli və xırda şeylər qayırmaq üçün lazım olan daşlara bölünür. Parlaq daşlar qiymətli və yarım qiymətli daşlardır və onlar zərgərliyə aiddir. Parlaq olmayan və cilalanma uçün əlverişli olanlar isə xırda şeylər qayirmaq üçün lazım olan daşlara aiddir. Daşların dəyəri onun nadirliyi, fərdi kefıyyəti və emalının mürəkkəbliyi ilə müəyyən olunur. Akademik A.Fersman daşları dəyərinə görə aşağıdakı sinifə (sıraya) bölür:

I sıralı qiymətli daşlar: almaz, aleksandrit, sapfır, yaqut, zümrüt, evklas, mirvari.

II sıralı qiymətli daşlar; topaz, beril, mavi turmalin, ametist, sirklon, akvamarin.

III sıralı qiymətli daşlar: firuzə, turmalin, dağ billuru, tüstülü kvars, serdolik, xrizopraza, əqiq, aylı daş, kəhrəba, aqat.

Xırda şeylər qayırmaq üçün lazım olan daşlar: nefrit, lazorit, sodalit, amazonit, malaxit, absidian.

Qədim dövrlərdən belə bir fikir var idi ki, eansız predmetlər heyvan və bitki kimi ətrafdakılara yaxşı və pis təsir edə bilər. Məsələn, Səmərqənddə qadınlar uşaqlara nabat sordurur və ovuclarına yapışqan sürtürdülər ki, o böyüyəndə nitqi şirin olsun və bahalı şeylər onun əlinə “yapışsın”. Yunanlar belə hesab edirdi ki, canavar parçalayan qo5aınun dərisindən tikilən paltar ziyan gətirir, həmin adamda qaşınma yaradır. Eyni zamanda belə fikirləşirdilər ki, itin ağzında olan daş çaxıra salınıb içilsə onun içənlər arasın da mübahisə düşür. Moabadan olan uşaqsız ərəb qadınları çox uşaqlı qadınların paltarını geyir və düşünürdüler ki, bununla onların uşaqları olacaq. Qədim vaxtlarda seçilən hökümdarı daşın üstünə çıxıb elan edirdilər ki, onun hökümdarhğı möhkəm olsun.

Ayrı-ayrı daşların sehirli xassələri haqqında əfsanələr gəzir. Peru hindliləri ayrı-ayrı məhsulların, heyvandarlığın bol olması üçün müxtəlif daşlardan istifadə edirdilər. Sakit okean sahillərində suyun yonub hamarladığı mərcan çörək ağacının kökünə oxşayır; bu cür mərcan tapan onu öz ağaclarından birinin dibinə basdırır ki, məhsuldarlıq yaxşı olsun. Belə hesab edirdilər ki, üstü yumru olan daş pulun çox olmasına kömək edir. Əgər

kimsə böyük bir daş və onun altında çoxlu daş qırıntıları görsə bu pulun artmasına işarədir.

Belə hesab edirdilər ki, ölmüş adamın sümüyü və ya nəfəsi toxunan hər bir şeylə adamı ölü kimi kar və kor etmək olar. Əgər sevgilinizlə görüşə gedərkən yol üstü qəbirsanlıqdan bir ovuc torpaq götürüb sevgilininzin valideyinləri yatan otağın üstünə töksəniz, onda qəbir torpağı onları möhkəm, ölü yuxusuna aparacaq və onlar sizin görüşünüzə mane olmayacaqlar. Oğrular ev yaranlar öz işlərində bu metotdan istifadə edirlər. Cənubi slavyan xalqlarında ev oğruları getdiyi evə əvvəlcədən ölü sümüyü atır və “qoy evdəkilər bu sümükdən tez ayılmasınlar” deyib öz işlərini görürdülər. Bundan sonra evdə ayıq adam olmurdu. Yava adasında oğru gedəcəyi evin ətrafına qəbirdən götürdüyü torpağı səpirdi. Çox vaxt ölü doğulan uşağın barmağından şam hazırlanırdı. Rəhmətə gedənlərin köməyi ilə yağış yağdırmaq da olar. Yeni Kaledoniyada yağış yağdıranlar öz bədənlərini qara rəngləyir, qəbirdən meyidin qalığını çıxardır onu mağaraya gətirir və üstünə yavaş-yavaş su tökürdülər. Bu vaxt su yarpağa damcılanmah idi, bu da yağış gətirirdi.

## *Qiymətli daşlan harada gəzdirirlər?*

Üzükdə, boyunbağıda, qolbağda, sırğada qiymətli daşların təsiri fərqli və kifayət qədər güjlü olur. Daşın keyfiyyəti daimidir, anjaq insanın bədəninə müxtəlif toxunma ilə onun təsiri fərqli olur. Enercini ovujun orta hissəsi qəbul edir: biz nə isə xahiş edəndə ovujumuzu irəli veririk. Orqanizimdə işlənmiş enerci harmaqlarm uju ilə «axır», daşla olan üzük gedən enercini buraxır və diqqətimizi keçirdiyimiz hissələrə toplayır, buraxdığımız

səhvlər haqqında düşündürür. Üzük gedən enercini bir az ləngidir, özünə aid olanlardan tez əl çəkmir. Hər bir barmaq müəyyən planetlə və zodiakm bir çox büreü ilə idarə olunur ona görə də hansi barmaqda hansı daşı gəzdimıək vaeibdir.

Qolbağ və bilərzik də üzük kimidir, lakin onun fəaliyyəti daha güelüdür, belə ki həm çıxan, həm də girən enerjiyə nəzarət edir, insana hansı eneji ilə qidalandığını hiss etdirir. Kiminlə ünsiyyət yaratmağa, kimdən uzaq olmağa, nə yeməyə və. s kömək edir.

Boyunda və sinədə gəzdirilən muncuq, broşka (bəzək sancağı) və ya kulonda olan daşlar insana öz şəxsi hislərinə diqqət yetirməyə kömək edir, nə istədiyimizi bizə yaxşı və pis olan nə varsa onları anlamağa imkan verir. Qulaq öz fomıasma görə nüvəni xatirladir, orada bütün orqanlara uyğun gələn nöqtə var, yəni qulaq insanın proyeksiyasıdır, sırğanın asıldığı mərcək isə başdır hər bir adamın “Mənidir”. Ona görə də sırğa insan şəxsiyyətinə diqqəti artırır. Sırğa qadının ruhunu onun sirrini və müəmmalarını göstərir. Çox vaxt daşları xəstə orqanların üstündə gəzdirmək məsləhət görülür. Daşlar insana xəstə orqan ilə əlaqəyə girməyə kömək edir.

Qiymətli daşlardan müalicə məqsədi ilə istifadə olunması son vaxtlar daha da çoxalmışdır. Astroloqlar bürclərə uyğun hansı daşı gəzdirməyin insan üçün əhəmiyyətini nəzərə alaraq müəyyən təkliflər etmişlər. Beləliklə bürclərə təhkim olunmuş daşlar:

***QO£*** - almaz, yaqut, ametist, heliotrop, aylı daş, akvamarin, zümrüd hamısı qırmızı rəngli. Yaxşı olar ki, bu daşlar dəmir və ya polad çərçivəyə salınsın, ancaq bu vaxt o mütləq dəriyə toxunmalıdır. Yaqutu isə boyunbağı kimi polad çərçivədə gəzdirmək daha yaxşıdır.

***Busa*** - sapfır, firuzə, əqiq, opal, zümrüd, yaşıl mərmər, nefrit, karnelol - hamısı ağ parlaq rəngli. Onları mis çərçivədə gəzdirmək məsləhətdir. Firuzəni isə yalnız boyunbağı kimi gəzdinnək məsləhətdir. 30 yaşından yuxarı qadına bu daşı gəzdirmək məsləhət deyil, yalnız yuxusuzluq və gecə yuxunu qarışdırdıqda onu gümüş çərçivədə taxmaq olar. Buğalar kəhrəbadan imtina etməlidirlər.

***Əkizlər*** - əqiq, zümrüd, serdolik, xrizopraz, beril, dağ billuru, yəşəm-əqiq, topaz. Nefritdən imtina etmək lazımdır. Əqiqi isə boyunbağı kimi gəzdirmək məsləhətdir.

***Tərəzi*** - opal, lazurit, mərcan, almaz, mirvari, beril, aylı daş, nefrit, billur, xrizolit, turmalin. Damarlı əqiq (oniks) gəzdirmək məsləhət deyil, bu onsuzda möhkəm olmayan iradəni zəiflədir.

***Əqrəb*** - qara mirvari, topaz, akvamarin, karbunkul, mərcan, almaz, yaqut, beril, aylı daş, malaxit, süleyman daşı. Bu daşlar üçün polaq cərcivə daha yaxşıdır, onu qolbağ və üzük kimi gəzdirmək məsləhətdir.

***Oxatan*** - sapfır, topaz, ametist, xrizolit, firuzə, opal, karbunkul, zümrüd, əqiq, sirkon - hamısı qırmızı və ya göy rəngdə. Nefrit bu bürcdən olanlara həmişə problemlər gətirir.

***Oşlaq*** - süleyman daşı, oniks, yaqut, aylı daş, lazurit, xrizopraza, əqiq hamısı qara rəngli. Lazuritdən qorunmaq və mirvari gəzdirmək məsləhət deyil, belə ki, ya xarab olacaq, ya da itəcəkdir.

***Dolça*** - ametist, kəhrəba, süleyman daşı, sirkon, açıq sapfır, opal, lazurit, obsidion.

***Baha*** - mirvari (ancaq qara yox!), ametist, zümrüd, sapfır, aylı daş, qırmızı mərcan, akvamarin, topaz.

***<u>Xərçəns</u>*** - aylı daş, zümrüd, kvars, mirvari, koral, yaqut, xalsedon hamısı ağ rəngli. Lazurit, oniks, süleyman daşı məsləhət deyil. Xərçəng üçün ən yaxşı metal gümüşdür. Zümrüd qaşlı gümüş üzük onlar üçün ən yaxşı talismandır.

***<u>Şir</u>*** - xrizolit, kəhrəba, qızılı topaz, yaqut, almaz, sardoniks, oniks, serdolik, sapfır, obsidian, zümrüd. Bu bürcdən olanların marion, rauxtopaz, hematit gəzdirməsi məsləhət deyil.

***Qız*** - zümrüd, yəşimə, billur, sapfır, xalsedon, nefrit, serdolik.

Astroloji təsnifatın köməyi ilə daşlar və insanın zadiak xarakteri arasındakı uyğunluğu müəyyənləşdirmək olar. Daşdan gələn təsiri möhkəmləndirmək üçün onunla sıx əlaqəyə girmək lazımdır bu da yalnız o vaxt mümkündür ki, daşın öz sahibinə rəğbəti olsun. Bu daşla əlaqənin ilk şərtidir. Əgər daş sahibinin xoşuna gəlmirsə bu əlaqə mümkün olmur həm də bu əks təsir doğura bilər. Daş seçimini əsaslandımıaq lazımdır. Daşı insanın xariji görünüşü, xüsusi ilə gözün rənginə uyğun seçmək lazımdır.

Daşın insanın gözünün rəngi ilə harmonik uyğunluğu:

| ***Gözün rənsi*** | ***Gəzdirilməsi məsləhət 2Örülən daşlar*** |
|---|---|
| Göy | Əqiq, alaeksandrid, kamosonid, bcrill, firuzə, malaxit, xrizoproza |
| Qonur | Serdolik, kəhraba, heliotrop, geosinid |
| Mavi | Narıncı və qızılı rəngli daşlar |
| Qara | Firuzə, mərcan, mavi ametist |

insan və daşlar... Bəli bu da bir möcüzədir və biz bu möcüzənin bəzi məqamlarını nəzərdən keçirdik. Əsasən tanıdığımız, Azərbaycanda istifadə olunan qiymətli daşlarla ünsiyyət yaratmağa çalışdıq. Lakin daşların bizə deyəcəyi çoxlu sözləri hələ də başa düşməmişik. Bunun üçün təbiətə qayıtmaq, onun qarşısında buraxdığımız səhvləri etiraf etmək və ondan asılı olduğumuzu qəbul etməliyik. Bəlkə, belə olsa, daşları da duya biləcəyik. Bu daşlardan daha çox bizlərə lazımdır.

**M U N D Ə R I C A T**

**I FƏSİL ......................................................................................3**

Cəmiyyət idrakın obyektidir........................................................ 3

§1. Cəmiyyətin mənşəyi, təbiəti və mahiyyəti, ictimai transformasiyalar ............................................................... 4

§2. Cəmiyyət bütöv, öz-özünə inkişaf edən sistemdir ............ 27

§3. Cəmiyyət və bəşəriyyət, millət və ailə .............................. 55

**II FƏSİL ......................................................................................84**

Cəmiyyətin həyatının təbii əsaslan............................................. 84

§1. Təbiət anlayışı. Fəlsəfi fikir tarixində təbiət və cəmiyyətin qarşıltqlı münasibəti haqqmda məsələ.............................. 87

§2. Təbiət cəmiyyətin həyat fəaliyyətinin əsasıdır. Təbiət və cəmiyyətin qarşılıqlı surətdə bir-birinə təsiri.. 112

§3. Ekologiya, müasir qlobal ekoloji problemlər və onlann həlli yollan:........................................................................ 137

§4. Canlı və cansız təbiət. İnsanın canlıya münasibəti haqqında müasir baxışlar................................................................ 162

**III FƏSİL .................................................................................... 184**

Cəmiyyətin iqtisadi həyatının fəlsəfi problemləri ..................... 184

§1. Cəmiyyətin iqtisadi həyatının əsas təzahürləri................ 189

§2. Cəmiyyətin həyatında istehsal üsulunun rolu.................. 197

§3. Obyektiv iqtisadi qanunlar ............................................. 205

§4. İqtisadi münasibətlər və iqtisadi maraqlar ....................... 221

§5. Cəmiyyətin iqtisadi həyatının obyektiv və subyektiv tərəflərinin qarşılıqlı fəaliyyəti ....................................... 235

**IV FƏSİL .................................................................................... 258**

Cəmiyyətin siyasi həyatı.......................................................... 258

§1. Cəmiyyətin siyasi həyatını şərtləndirən amillər ............. 260

§2. Cəmiyyətin siyasi həyatında dövlətin rolu ...................... 272

§3. Siyasi rejim................................................................... 280

§4. Cəmiyyətin siyasi həyatı və siyasi şüur.......................... 287

**V FƏSİL............................................................................ 302**

Cəmiyyətin mənəvi həyatı ....................................................... 302

§1. Cəmiyyətin mənəvi həyatı anlayışı, mahiyyəti, ictimai təbiəti və məzmunu....................................................... 303

§2. Cəmiyyətin mənəvi həyatının əsas ünsürləri................... 313

§3. Cəmiyyətin mənəvi həyatının - ictimai şüurun fonnaları 336

§4. Cəmiyətin mənəvi həyatının dialektikası ........................ 384

**P. S................................................................................... 406**

Əlavə oxu .............................................................................. 406

Cəmiyyət təbiətin ayrılmaz hissəsidir .................................. 406

Çapa imzalanmışdır: 14.11.2013.
Kağız formatı 60x84'/|f,
Çap vərəqi 29. Sifariş 23.
Qiyməti müqavilə ilə.